ƏZİZƏ CƏFƏRZADƏ

# ALƏMDƏ SƏSİM VAR MƏNİM

"ŞƏRQ-QƏRB"
BAKI-2006

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bu kitab "Əzizə Cəfərzadə. Aləmdə səsim var mənim"*
*(Bakı, Gənclik, 1978) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

**894.3613-dc21**
**AZE**
**Əzizə Cəfərzadə. Aləmdə səsim var mənim.** Bakı, "Şərq-Qərb", 2006, 432 səh.

Müasir Azərbaycan ədəbiyyatında daha çox tarixi romanlar müəllifi kimi tanınmış yazıçı Əzizə Cəfərzadənin ümumi "Şirvan" başlığı ilə məlum olan silsilə əsərlərinə daxil olan "Aləmdə səsim var mənim" romanı XIX əsrin böyük şairi və maarifçisi Seyid Əzim Şirvaninin həyatından bəhs edir. Şairin maarifə, məktəb açmağa meyil göstərməsi Şirvanda baş verən əhvalatlarla bağlı şəkildə qələmə alınmışdır. Romanda Seyid Əzimin bir maarifçi olaraq formalaşması təsvir olunan dövrün səciyyəvi hadisələri fonunda göstərilir.

**ISBN10 9952-34-014-1**
**ISBN13 978-9952-34-014-3**

© "ŞƏRQ-QƏRB", 2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÖN SÖZ

İyirminci yüzilin Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən biri olan xalq yazıçısı Əzizə Cəfərzadə özünəməxsus bir yaradıcılıq yolu keçmişdir. Daha çox tarixi roman ustası, etnoqrafik yaddaşımızın mahir salnaməçilərindən biri kimi tanınan yazıçının ədəbi-bədii irsi özünün zənginliyi, əhatəliliyi və çoxcəhətliliyi ilə diqqəti çəkməkdədir.

Əzizə Cəfərzadənin yaradıcılıq yolunu şərti olaraq üç mərhələyə bölmək olar. 1937-1970-ci illəri əhatə edən birinci mərhələ ilk yaradıcılıq axtarışları kimi dəyərləndirilə bilər. Yazıçı bu dövrdə tarixi və müasir mövzularda hekayə yaradıcılığı ilə məşğul olmuş, eyni zamanda gələcək tarixi romanlarının ilkin zəminini təşkil edən elmi-publisistik fəaliyyətini davam etdirmişdir. 1970-1990-cı illərlə hüdudlanan ikinci mərhələdə isə yazıçı ədəbi və siyasi şəxsiyyətlərin həyatından bəhs edən bir sıra mühüm tarixi romanlarını yaratmış, bir nasir kimi özünü tam təsdiq etmişdir. Nəhayət, 1991-2003-cü illəri əhatə edən sonuncu mərhələdə yaradıcılığı mahiyyətcə yeni məzmun kəsb etmiş yazıçı diqqəti Azərbaycan siyasi tarixinin ən aktual problemlərinə yönəldə bilmiş, həmçinin milli mənəviyyatımızın ağrılı məsələlərini işıqlandırmışdır.

Əzizə Cəfərzadə bədii yaradıcılığa "Əzrayıl" adlı hekayə ilə başlamışdır. 1937-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş bu hekayədə yazıçı dövrün sosial həyatının canlı bədii mənzərəsini yarada bilmişdir. Məhz bu dövrdən etibarən hekayələri, povestləri, elmi və publisistik yazıları ilə o, vaxtaşırı olaraq mətbuatda çıxış etmiş, bir sıra maraqlı və məzmunlu sənət örnəkləri ortaya çıxarmışdır.

Qeyd edək ki, 1948-ci ildə Azərnəşr ədibin "Hekayələr" adlı ilk kitabını çapdan buraxmış, lakin kitab satışa çıxarılmadan yandırılmışdı. Ədibin mülahizələrinə görə, ilk kitabının satışa buraxılmadan yandırılmasına səbəb Mixail Zoşşenko və Anna Axmatova şəxsiyyəti fonunda yaranan mübahisə, ÜİK(b)P MK-nın "Zvezda" və "Leninqrad" jurnalları haqqında" (14 avqust 1946) və "Dram teatrının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında" (26 avqust 1946) qərarı və həmin qərarın Azərbaycan ədəbi mühitinə təsiri olmuşdur. Onu da deyək ki, ilk kitabının yandırılmasından sonra Əzizə Cəfərzadənin 1963-cü ilə kimi heç bir kitabı işıq üzü görməmişdir, ancaq yazıçı bu illər ərzində bir an belə olsun yaradıcılıq dünyasından ayrılmamışdır.

Müəllif uzun illərdən sonra ədəbiyyata qədəm qoyduğu ilk dövrü belə xatırlayır: "...İlk kitabım 1948-ci ildə oxuculara çatmalıydı. Kitabın ilkin nüsxəsini alan mərhum tənqidçimiz Cəlal Məmmədov onun haqqında "Azərbaycan gəncləri" qəzetində (11 iyun 1948) hətta məqalə ilə çıxış etmişdi, lakin kitab işıq üzü görmədi, yandırıldı, əlimə bircə nüsxəsi belə keçmədi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üzünü də göstərmədilər mənə. Çünki məni o zaman "Axmatovşina"da, adını bilmədiyim "salon lirikası" tərənnümündə günahlandırmışdılar. Bəlalı il idi. Jdanovun çıxışından sonra gözəl odibimiz, görkəmli dramaturqumuz Sabit Rəhman həmin illərdə "zoşşenkoçuluq"da ittiham edilirdi. İlk kitab müəllifi olaraq kövrək, 1945-ci ildə əlində "xalq düşməni sayılan ərəb əlifbası" ilə türk nasirinin romanı tutulduğuna görə universitetin birinci kursundan qovulan kimsəsiz qız üçün bundan ağır, qorxulu nə ola bilərdi? Elə buna görə də birinci kitabım çox sonralar, 1963-cü ildə "Natəvan haqqında hekayələr" adı ilə çap olundu".

Əzizə Cəfərzadənin yaradıcılığı üçün hekayə janrı səciyyəvidir. O, bu janrda bütün yaradıcılığı boyu qələm çalmışdır. Ədibin hekayələrinin mühüm bir qismi kitab kimi nəşr olunmuşdur. "Natəvan haqqında hekayələr" (1963), "Qızımın hekayələri" (1964), "Sahibsiz ev" (1966), "Əllərini mənə ver" (1969) və digər kitablarında toplanmış bədii nümunələr bu qəbildəndir. Yazıçı hekayə yaradıcılığı ilə yanaşı, povest janrında da bir sıra maraqlı sənət nümunələri yaratmışdır.

Əzizə Cəfərzadənin yaradıcılığında tarixi mövzulu əsərlər aparıcı yer tutur. O, bütün ədəbi fəaliyyəti boyu bu mövzuya sadiq qalmış, nəticədə xalqımızın uzaq və yaxın tarixinin bir çox səhifələrini bədiiləşdirən əsərlər ortaya çıxarmışdır. Müəllifin "Aləmdə səsim var mənim" (1972), "Vətənə qayıt" (1977), "Yad et məni" (1980), "Bakı-1501" (1981), "Cəlaliyyə" (1983), "Ağlar-güləyən Sabir" (1989) kimi roman və povestləri bu baxımından gözəl sənət nümunələridir.

Azərbaycanın istiqlaliyyət əldə etməsi Əzizə Cəfərzadənin yaradıcılığının daha da çiçəklənməsinə, mahiyyətcə dəyişməsinə səbəb olmuş, tarixi mövzuda yeni-yeni əsərlərin yaranmasına təkan vermişdir. "Eldən-elə" (1992), "Gülüstan"dan öncə" (1996), "Zərrintac – Tahirə" (1996), "Bir səsin faciəsi" (1997), "İşığa doğru" (1998), "Bəla" (1999), "Rübabə-Sultanım" (2000), "Xəzərin göz yaşları"(2002), "Eşq sultanı" (2003) romanları buna misal ola bilər. Diqqətəlayiq haldır ki, ədibin tarixi romanlarında bir tərəfdən dövrün panoramı çəkilmiş, xalqımızın etnoqrafik yaddaşının aparıcı cizgiləri qabardılmış, digər tərəfdən ədəbi və siyasi şəxsiyyətlərin canlı, real bədii obrazları yaradılmışdır.

Əzizə Cəfərzadə yaradıcılığının mühüm bir qolu elmi-nəzəri istiqamətlidir. Onun tərtibatı ilə işıq üzü görən "Fatma xanım Kəminə" (1971), "Könül çırpıntıları" (1972), iki cilddən ibarət "Azərbaycanın aşıq və şair qadınları" (1974, 1991, 2003), "Şirvanın üç şairi" (1976), Abdulla Padarlının "Seçilmiş şeirləri" (1979), "Hər budaqdan bir yarpaq" (1983) kitabları ciddi elmi dəyər daşımaqdadır. Alimin Azərbaycan poeziyasında xalq şeri üslubuna dair monoqrafik araşdırmaları müasir milli ədəbiyyatşünaslıq və folklorşünaslığın əhəmiyyətli nümunələrindəndir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əzizə Cəfərzadənin tərcümə yaradıcılığı sahəsindəki fəaliyyəti də maraq doğurur. O, müxtəlif dövrlərdə Türkiyə ədəbiyyatının görkəmli nümayəndələri olan Sevinc Çokumun "Bizim diyar", Əhməd Kabaklının "Əjdaha daşı", Şəmçi Tellinin "Atatürkün eşq macərası" romanlarını, rus yazıçısı S.Smirnovun "Brest qalası"nı dilimizə çevirərək nəşr etdirmişdir.

Ədibin publisistik yaradıcılığı da zəngin və çoxcəhətlidir. Xüsusilə onun 1965-1966-cı illərdə Afrikanın Qana respublikasında yaşadığı illərin bəhrəsi olan "Qızıl sahilə səyahət" (1968) əsəri Azərbaycan publisistikasının maraqlı örnəklərindən sayılmaqdadır. Bundan əlavə, müəllifin mətbuat səhifələrində Azərbaycanın ictimai-siyasi və mənəvi-əxlaqi həyatının müxtəlif problemlərinə dair çoxlu sayda məqalələ və müsahibələri də çap olunmuşdur.

Əzizə Cəfərzadə əsərlərini müxtəlif janrlarda yazmasına baxmayaraq, Azərbaycan ədəbiyyatında daha çox tarixi romanlar müəllifi kimi yadda qalmışdır. Ədibin əsərlərində qədim dövrlərdən tutmuş XX yüzilə qədər Azərbaycan tarixinin mürəkkəb, keşməkeşli hadisələri (həmçinin bu fonda ədəbi və siyasi şəxsiyyətlərin obrazları) öz bədii təcəssümünü tapmışdır. Yazıçının tarixi romanlarını səciyyələndirən əsas cəhətlərdən biri müraciət olunan tarixi dövrü bütün təfərrüatı ilə canlandıra bilməsidir. Daha doğrusu, yazıçı tarixi yalnız quru fakt və sənədlərin işığında təqdim etmir, ona can və ruh verir, özünün qeyri-adi fantaziyası ilə təsvir etdiyi dövrün təbii mənzərəsini, panoramını yarada bilir. Əzizə Cəfərzadənin romanları tarixə qeyri-adi sevgi və vurğunluqdan yaranmışdır; onların ruhunda, mayasında yurdsevərlik və vətəndaşlıq amalı özünü göstərməkdədir. Bu romanlar yalnız bədii düşüncənin məhsulu olmaqla qalmayıb, xalqımızın etnoqrafik yaddaşını əks etdirən qiymətli salnamələr kimi dəyər daşımaqdadır.

Sənətkarın tarixi romanlarını səciyyələndirən ən mühüm cəhətlərdən biri də onların ideyaca müasirliyi, bu günün problemləri ilə bağlı olmasıdır. Bu romanlar dil, üslub, yazı manerasının orijinallığı, təsvir olunan faktlara və hadisələrə yanaşma tərzi ilə də diqqəti çəkməkdədir.

Bir məsələyə də fikir verilməlidir ki, sovet imperiyasının ən çətin və mürəkkəb dönəmində yazıb-yaratmasına baxmayaraq, Əzizə Cəfərzadənin əsərlərində dövrün konyunktur elementləri, saxta ideologiyanın izləri öz əksini tapmamışdır. Əksinə, yazıçı tarixi mövzulara müraciət etməklə dolayısı ilə sovet imperiyasının təlqin etdiyi ideoloji stereotiplərə etirazını ifadə etmişdir.

Yazıçının yaradıcılıq axtarışlarının mühüm uğurlarından sayılan Şirvan trilogiyasında Azərbaycanın tarixi yaddaşında əhəmiyyətli yer tutan Şirvanın yetirdiyi ədəbi şəxsiyyətlərin bədii surətləri yaradılmışdır. Belə ki, trilogiyanın ilk əsəri olan "Vətənə qayıt" romanında XVIII yüzilin istedadlı söz ustası Nişat Şirvaninin, ikinci hissəsini təşkil edən "Aləmdə səsim var mənim" romanında XIX yüzilin görkəmli şairi Seyid Əzim Şirvaninin, sonuncu hissəsi olan "Yad et məni" romanında isə XX yüzildə yaşayıb-yaratmış vətəndaş şair



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Abbas Səhhətin həyat və fəaliyyəti təsvir olunmuşdur. Ancaq bu əsərləri yalnız ayrı-ayrı ədəbi şəxsiyyətlərə həsr olunmuş sənət örnəkləri kimi dəyərləndirmək doğru olmazdı, çünki burada təsvir olunan dövrün geniş ictimai-siyasi və ədəbi-mədəni panoramı öz təcəssümünü tapmışdır. Başqa sözlə, yazıçı tariximizin iki əsrdən artıq bir dövründə Şirvanda cərəyan edən mürəkkəb, ziddiyyətli hadisələri izləmişdir. Maraqlıdır ki, Əzizə Cəfərzadə Azərbaycan tarixinə faktların, sənədlərin gözüylə aydınlıq gətirmiş, eyni zamanda tarixi qaynaqların əsirinə çevrilməmiş, bir çox məqamlarda keçmişin qaranlıq, öyrənilməmiş səhifələrini bədii təxəyyülünə güvənərək canlandırmışdır. Bu isə həmin əsərlərin koloritini, canlılığını, xəlqiliyini təmin etmiş, təsir və təlqin gücünü artırmışdır.

"Vətənə qayıt" (1973) romanının süjetində Vətən və məhəbbət xətti aparıcı yer tutmaqdadır. Yazıçı bütün roman boyu bu süjet xətlərinin paralel, bəzənsə qovuşuq təsvirini verə bilmişdir. Əsərdə yalnız Nişat Şirvaninin deyil, taleyini vətənlə bağlamış olan bir sıra qəhrəmanların obrazları da bədii inikasını tapmışdır.

"Vətənə qayıt" romanının sujeti kədərli motivlərlə müşayiət olunsa da, əsərin finalı nikbin səciyyə daşıyır. Əsərdə həyatı, varlığı, yaradıcılığı ilə doğma elinə-obasına bağlı olan şair Nişat Şirvaninin sürgün edildiyi Salyandan doğulduğu yurda – Şamaxıya dönüşü ibrətamiz məna və məzmun daşıyır. Onu da qeyd edək ki, "Vətənə qayıt" romanı vaxtilə sovet senzurasının ciddi "redaktə"sinə məruz qalmışdı.

"Aləmdə səsim var mənim" (1971) romanı yalnız yazıçının yaradıcılığında deyil, ümumən Azərbaycan tarixi nəsrində əhəmiyyətli yerlərdən birini tutur. Müəllifin ilk romanı olan və ədəbi mühit tərəfindən böyük həssaslıqla qarşılanan bu əsərin adı Seyid Əzim Şirvaninin şerindən götürülmüşdür ("Mövti-cismani ilə sanma mənim ölməyimi // Seyyida, ölmərəm, aləmdə səsim var mənim").

Xatırladaq ki, yazıçı romanı əvvəlcə "Məhəbbət günahdırmı?" adlandırmağı nəzərdə tutsa da, nəşri zamanı əsərin adını dəyişməyi münasib bilmişdir. Bu da şübhəsiz ki, romanın ictimai məzmunu ilə adı arasında olan müəyyən fərqlərin aradan qaldırılması niyyətindən doğmuşdur.

"Aləmdə səsim var mənim" romanında Əzizə Cəfərzadə yaradıcılığına və şəxsiyyətinə böyük məhəbbət bəslədiyi Seyid Əzim Şirvaninin obrazını yaratmağı qarşısına məqsəd qoysa da, yazıçı bununla kifayətlənməmiş, bütövlükdə XIX yüzil Şirvan tarixini, daha doğrusu, Şamaxı mühitini ictimai-siyasi və ədəbi-mədəni hadisələrin canlı mənzərəsi fonunda və etnoqrafik yaddaşın işığında izləmişdir.

Xalq şairi Rəsul Rzanın fikrincə, "əsərin bəyənimli cəhətlərindən biri, bəlkə də ən dəyərlisi, müəllifin qələmə aldığı dövrə, onun insanlarına, xalqın məişətinə, adətlərinə yaxından, yaxşı bələd olmasıdır. Biz bu əsərdən xalqın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçmişinə aid yalnız baş vermiş hadisələr, yeniliklə köhnəliyin mübarizəsindən inandırıcı səhifələr deyil, həm də bir sıra etnoqrafik detallar, adətlərin necəliyi, mühitin havası haqqında maraqlı məlumat alırıq. Kitabı vərəqlədikcə, bir zamanlar gördüyümüz məişət adət-ənənələri, insan xarakterləri, faktlar düzümü illərin uzaqlarında, xatirələr toranından aşkarlanan fotoşəkillər kimi yavaş-yavaş gözlərimizdə görümlüləşir".

Şirvan trilogiyasının sonuncu romanı olan "Yad et məni" (1980) əsərində XX yüzilin əvvəllərində cərəyan edən hadisələrdən danışılır. Romanda üç dostun – Abbas Səhhətin, Mirzə Ələkbər Sabirin, Ağəli Nasehin portreti yaradılmışdır. Belə ki, Səhhətin simasında vətəndaşlıq və xeyirxahlıq, Sabirin timsalında fədakarlıq və cəsurluq, Nasehin şəxsində təvazökarlıq və səmimilik kimi mənəvi-əxlaqi keyfiyyətlər inandırıcı bədii detal və ştrixlərlə əks olunmuşdur. Lakin yazıçı romanda əsas diqqəti Abbas Səhhətə yönəltməyə çalışmış, hadisə və əhvalatları mümkün qədər onunla bağlamışdır.

Əzizə Cəfərzadənin "Bakı-1501" (1981) romanı Şah İsmayıl Xətayinin həyat və mübarizə yolundan bəhs edir. Məlum olduğu kimi, Azərbaycan ədəbiyyatında Şah İsmayıl haqqında bir sıra əsərlər yazılmışdır. Bunların içərisində Əlisa Nicatın "Qızılbaşlar", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" (qeyd edək ki, yazıçı-dramaturq Kamal Abdullanın son dövrün məhsulu olan "Yarımçıq əlyazma" romanının paralel sujetindən biri də Şah İsmayıl mövzusu üzərində qurulmuşdur) xüsusi yer tutur. Şah İsmayıl şəxsiyyətinə dönüş zərurəti sovet imperiyasında siyasi iqlimin bir qədər mülayimləşməsi və bunun nəticəsi olaraq Azərbaycanın milli-azadlıq hərəkatının ilkin oyanış mərhələsini yaşaması ilə bağlı idi. Şübhəsiz milli-azadlıq hərəkatı eyni zamanda tarixə, onun milli dəyərlərinə qayıdışla müşayiət olunur ki, bu məqamda yazıçıların üzərinə böyük vəzifə düşdüyü etiraf olunmalıdır.

Adı çəkilən romanların da hər birində Şah İsmayıl şəxsiyyətinə dönüşün məğzində, mahiyyətində Azərbaycanın itirilmiş dövlətçiliyinin bərpası, parçalanmış məmləkətin birləşdirilməsi, bütövləşdirilməsi amalı dayanmaqdadır. Əgər Ə.Nicatın "Qızılbaşlar" romanında əsas etibarilə Çaldıran döyüşündən, Sultan Səlimlə Şah İsmayıl arasında gedən müharibə fonunda Türk dünyasının yaşadığı faciələrin ağrılarından bəhs olunursa, Fərman Kərimzadə daha çox Şah İsmayılın həyatı və mübarizə yolunu xronoloji səpkidə canlandırmaq məqsədi izləmişdir. Bu mövzuda romanlar içərisində yazılma tarixi etibarilə ilk sırada dayanan "Bakı-1501"-də böyük sərkərdənin Bakını ələ keçirməsi əks olunmuşdur. Lakin romanda Şah İsmayılın Bakıya yürüşü əsas yer tutsa da, müəllif tarixi hadisələri yalnız bu faktla məhdudlaşdırmamışdır. O, Şah İsmayılın hakimiyyətə gəlişindən tutmuş ömrünün sonuna qədər cərəyan edən hadisələr fonunda bir hökümdar, sərkərdə və şair kimi onun ömür yolunun başlıca məqamlarına işıq tutmuşdur. Tənqidçi-ədəbiyyatşünas Akif Hüseynov



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Bakı-1501" romanını təhlil edərkən baş qəhrəmanı yazıçının uğuru kimi dəyərləndirmişdir. Onun fikrincə, müəllif "Şah İsmayılın mürəkkəb xarakterini canlandırarkən nəinki birtərəflilikdən, aludəliçilikdən uzaqlaşa bilmiş, həmçinin obrazın məziyyətləri, fəaliyyətinin pozitiv cəhətləri ilə yanaşı qüsurlarını da göstərmiş və qəhrəmanının milli şüurunun, vətənpərvərlik duyğularının inikasına ciddi diqqət yetirmişdir. Romanda Şah İsmayıl Azərbaycan hökmdarı, Azərbaycan dövlətinin yaradıcısı kimi səciyyələndirilir."

Romanın epiloqunda Şah İsmayıl şəxsiyyətinin və mübarizəsinin simvolu kimi dil, qeyrət və Vətən sevgisi diqqət mərkəzinə çəkilmişdir (Onu da qeyd etmək yerinə düşər ki, Əzizə Cəfərzadənin məzar daşına belə "Bakı-1501" romanından – Şah İsmayılın dilindən gətirilən "Sizə vəziyyətim: dilimizi, qeyrətimizi, Vətənimizi qoruyun" sözləri həkk olunmuşdur).

Əzizə Cəfərzadənin "Xoş gördük, səyyah" adlı povestinin yenidən işlənmiş və genişləndirilmiş variantı kimi oxuculara təqdim etdiyi "Eldən-elə" romanı XIX yüzildə yaşamış Azərbaycan alimi və səyyahı Zeynalabdin Şirvaninin həyatından alınmışdır. Yazıçı həyatının otuz yeddi ilini səyahətdə keçirmiş olan bu görkəmli şəxsiyyətin ömür yolunu vərəq-vərəq izləmiş, oxuculara indiyədək qaranlıq qalan bir çox məqamları üzə çıxarmışdır. Etnoqrafik detallarla zəngin olan "Eldən-elə" romanında İran, Türkiyə, Hindistan, Pakistan, Orta Asiya, ərəb ölkələri haqqında verilmiş zəngin məlumatlar əsəri oxunaqlı edir. Romanda Zeynalabdin Şirvaninin həyatının – uşaqlıq çağlarından tutmuş ömrünün sonlarınadək olan dövrü əhatə olunmuşdur. Əsər baş qəhrəman Zeynalabdinin gəmidə səyahət edərkən Səudiyyə Ərəbistanında ölümü səhnəsi ilə bitir. Onun arvadına və dostuna da vəsiyyəti ömrünü büsbütün yollarda keçirmiş bir insanın ideal və məramını, romanın isə bədii qayəsini təşkil edir:

"Vəsiyyət yüngüllükdür, islamiyyətin qaydalarındandır, qulaq verin. Əvvəlimci və axırıncı ilk yadigarımı tapşırıram hər ikinizə, kitablarım, yazılarım... bir də balalarım. Yazılarımı əmin yerdə saxlayın, yad əllərə düşməsin. Nəysə əminəm ki, gün gələcək onlar insanlara lazım olacaqdır. Yoxsa heç ömrümü sərf etməyə – balalarımdan, səndən kəsib dünyanı dolaşmağa dəyməzdi. Can sizin, can yazılarım əmanəti. İkincisi, balalarımı oxudun, qoy anlasınlar ki, elm yük deyil, elə bir xəzinədir ki, insanı afətlərdən qoruya bilər, həmişə düz yola dəvət edər". Onu da xatırladaq ki, əsərdə Zeynalabdinin yolda ölməsi, cəsədi dənizə atıldığından məzarının olmaması rəmzi məna daşıyır.

Tarixi mövzuda qələmə alınmış əsərlərdən biri də sənətkarın, ölümündən bir qədər əvvəl yazdığı və türk şerinin peyğəmbəri Məhəmməd Füzulinin həyatından bəhs edən "Eşq sultanı" (2003) adlı romanıdır.

Məlum olduğu kimi, Füzulinin həyatı və qeyri-adi yaradıcılığı beş yüz ildən artıqdır ki, söz dünyasını öz sehrində, cazibəsində saxlamaqdadır. Tarixin səhifələri çevrildikcə bu milli şeir dühasının əsərləri daha artıq dərəcədə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

diqqəti çəkməkdə və nəzəri-estetik fikri məşğul etməkdədir. Bu mənada Əzizə Cəfərzadənin Füzuli sehrinə düşməsi tamamilə təbiidir.

"Eşq sultanı" Əzizə Cəfərzadə yaradıcılığının son məhsulu kimi maraq doğurur. Bu romanı yazıçının zəngin və çoxcəhətli yaradıcılığının təsadüfi bir örnəyi hesab etmək doğru deyildir.

Əzizə xanım bütün ömrü boyu gərgin işləsə də, onun həyatının son illəri daha səmərəli və məhsuldar olmuşdur. Belə ki, yazıçı ilə yaxın ünsiyyətdə olanlar ədibin daim vaxt azlığından şikayətləndiyini xatırlayırlar.

Onu da qeyd edək ki, Füzuli mövzusu Əzizə Cəfərzadənin yaradıcılığı üçün gözlənilməz deyildir. O, uzun illər boyu bu mövzu ilə maraqlanmış, nə zamansa yazacağını düşündüyü roman üçün fakt və materialları daha erkən illərdən toplamağa başlamışdı. Yazıçının Füzuliyə həsr olunmuş elmi tədqiqatları da diqqətə layiqdir. Habelə xatırlatmağa ehtiyac vardır ki, Şamaxı rayonunda yerləşən xaraba Bayat kəndində abidə qoyulması təşəbbüsü də Əzizə xanıma məxsusdur.

Təsadüfi deiyl ki, romanda yazıçı Füzulinin Şirvandan köçüb getməsi, əslən Şamaxının qədim Bayat kəndindən olması versiyasını əsas götürmüş və hadisələri bu məcrada təsvir etmişdir. Ona görə də roman boyu Füzulinin yaşadığı vətən həsrəti, qürbət duyğuları qabarıq ifadəsini tapmışdır.

"Eşq sultanı" romanında, həmçinin "Söhbətül-əsmar" və "Bəngü-Badə" əsərinin yaranması ilə bağlı təsvir olunan epizodlar özünəməxsusluğu ilə yadda qalır. Yazıçının əsərdə yaratmış olduğu tarixi şəxsiyyətlər orijinallığı, bənzərsizliyi ilə diqqəti çəkməkdədir.

Daha bir səciyyəvi detal romanda yazıçının öz yaradıcılıq üslubuna sadiq qalaraq dövrün etnoqrafiyasını canlandırması ilə bağlıdır.

Romanda diqqət çəkən məqamlardan biri də burada Füzulinin və onunla həməsr digər şairlərin yaradıcılığından gətirilmiş poetik parçaların təsvir olunan hadisə və əhvalatların məzmununa uyğun verilməsidir. Bu poetik örnəklər bir tərəfdən tarixin cizgilərini canlandırmağa imkan vermiş, digər tərəfdən əsərin poetik ovqatını və ruhunu təmin etmişdir.

Romanın üslubuna dərin, axıcı bir lirizm hakimdir. Bu lirizmi bir yandan əsərin mövzusu, digər yandan yazıçının özünəməxsus üslubu diqtə etməkdədir. Əsərin bölmələri süjetin bütövlüyünü təmin etdiyi kimi bu bölmələrin hər birinin müəyyən mənada bitkin məzmuna malik olduğu da diqqətdən qaçırılmamalıdır.

İnanırıq ki, müəllifin yalnız öz dövrünə deyil, gələcəyə ünvanlanmış əsərləri geniş oxucu kütləsinin diqqət və marağına səbəb olacaq, sevilə-sevilə oxunacaqdır.

***Vaqif Sultanlı***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ŞAMAXI YOLLARDAN BAŞLAYIR

Şamaxı yollardan başlayır... Yollar... Sonsuz, nəhayətsiz yollar... Şirvana gedən yol az qala bütün dünyanın ticarət aləminə məlumdur. Şərqin bir sıra şəhərlərində hələ uzun illər "Şirvana gedən karvan yolu", "Şamaxı yolu", "Şirvan şahlığı", "Şamaxı sultanlığı" ifadəsi qalacaq... Bu yollardan gələn karvanlar Şirvan gözəlləri üçün Benaresdə toxunmuş incə, zəngin və gözəl bənarə örpəklər, hind gəlinlərinin örtdüyü sari kimi zərif çarşablar, Bakıdan neft, duz, zəfəran, Şəkidən ipək, Dağıstandan şal, Qafandan misgərlər üçün mis külçələri, Qəbələdən qoz, fındıq və şabalıd, Məkərə və Moskvadan, İrandan, Türkiyədən, Ərəb ölkələrindən müxtəlif matahlar gətirir. Qapan meydanı səhərdən axşamacan, axşam namazından sübh azanınacan aramsız işləyir. Burada baş qapançı Ağa Rəsulun köməkçiləri və şagirdləri yükləri qapana vurur. Mirzə Səftər isə hesabat dəftərinə salır. Sonra möhkəm yaddaşlı Ağa Rəsul dəstəmazını sındırmadan oturub, gələn malları hesablayır. Şamaxının dörd mindən ziyadə sənətkarına, yeddi yüz toxucu dəzgahına, iki qanovuz karxanasına, bəzzaz, baqqal, misgər, başmaqçı cərgələrinə lazım olan malları, tacir və sənətkarların tələb etdiyi qədər bölüşdürüb paylaşdırır, qalanını sarbanlar üçün hazırlatdırır. Ağa Rəsul bütün bu ağır hesabatı Mirzə Səttardan yaxşı yadda saxlayır, heç kəsin sifarişini, sifarişin qədərini unutmur. Hesab dəftərindən düşənləri də Mirzə Səttarın yadına özü salır.

Şirvanın aləm vaxtında giririk bazara. Hələ nə 1859, nə 1872, nə də 1902-ci illərdə bu yerləri xərabəzara çevirən, onun görkəmli adamlarını, adlı tacirlərini diyarbədiyar salan, gözəl binalarını, daş döşənmiş dürüst küçələrini alt-üst edən zəlzələlər baş verməyib, az qala yüz əlli minə çatan əhalisinin çoxu didərgin düşməyib, hələ hər bir evdən, hər ağac dibindən bir toy, bir şənlik məclisinin səsi gəlir, Şirvan xanəndələrinin, rəqqasələrinin şöhrəti dünyaya yayılıb, şən-şatir adamlar "əhli-kef", bəxtiyar camaat kimi, dövlətli-varlı, gülərüz, qonaqsevər xalq kimi tanınır. Zeynalabdin Şirvaninin Hindistan, Ərəb ölkələri, İran, Əfqanıstan səfərləri haqqında əfsanələrə, nağıllara bənzəyən hekayələri bitib qurtarmayıb. Cavan tacirlər onun izilə, onun gəzib, görüb gəldiyi ölkələrə getmək həvəsindədi. Tək bir Şamaxıda qanovuz, kəlağayı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

darayı toxuyan dörd minəcən usta – sənətkar var. Qərib qonaqlar saatlarla dəzgahların yanında durub şərbafların, kargərlərin oxuduğu əmək mahnısını dinləməkdən doymurlar.

"Dələgeyin-dəmşalağın baxtına, balağı cırıq baxtına". Deyirlər ki, belə oxuyanda butalar dəzgahda bütöv çıxır...

Şirvan yollardan başlayır. Bu yollarla gələn yolçular Şamaxıya çata-çatmaya onun dörd çevrəsində cari olan Söyüdlü, Güllü, Minaxor... bulaqlarının başında müvəqqəti bina salır, çadır kimi kölgəliklər yaratmış ağacların altında dincəlir, əl-üzünü uzun yolların tozundan yuyub təmizləyir, pal-paltarını səliqəyə salır, Şamaxı bazarına "insan kökündə" girməyə hazırlıq görür...

Şamaxı bazardan başlayır... Burada bazar çoxdu: Misgərbazar dünyaya Lahıc işi – mis qazanlar, bəzəkli sərniclər, güyümlər, naxışlı aftafa-ləyənlər, lüleyinlər, aşsüzənlər, sərpinclər göndərir. Bu mis üzərinə salınmış ornamentlər, naxışlar baxanı valeh eləyir... Bəzzazbazar tacirləri adnandı. Onların dükanlarında Məkərə yarmarkalarından başlamış Hindistan, İran, Çin və başqalarından gətirilmiş gözəl ipək parçalarla yanaşı, Şamaxının özündə toxunan əlvan kəlağayılar, qanovuzlar, darayı, cecim və xalçalar, güləbətin işləmələr satılır. Bir çox ölkə və şəhərdə Şirvan kəlağayısı "Şamaxı" adlandırılır. Şirvan ustalarının əl işləri dünya bazarlarına yol açır. Şamaxının, Şəkinin xam ipəyini də tacirlər bu cərgədən alır, karvan-karvan Şərqin və Qərbin, Şimalın və Cənubun karxanalarına göndərirlər.

İngilis sarayının daimi müvəkkili Şamaxıdan əl çəkmir. O burada toxunan ipəklərin ən zərifini, xalçaların ən rəngarəngini çeşid-çeşid seçir, bircə-bircə yoxlayır və alır. Deyirlər ki, onun aldığı ipəklər İngiltərə sarayında xüsusilə bəyənilir, şah və şahzadə xanımlar məhz Şamaxı ipəyi geyməyə can atırlar.

Multanı tacirləri, atəşpərəst Kəşmir qəribləri də burada daimi məskən salıblar, onlar da buradan Hindistana müxtəlif çeşidli mallar alıb göndərirlər. Kərbəlayı Vəlinin karvanı gələndə Şamaxı bazarları xüsusilə rövnəqlənir, canlanır.

Bazar çoxdu... Baqqalbazar, Dərzibazar, Başmaqçıbazar, Xarratbazar... Gürcübazar... Bəzzazbazar tacirlərilə yanaşı Gürcübazardakı bir əczaxana və əczaxananın alt mərtəbəsində salınmış meyxanənin də bizim hekayətimizə dəxli var... Gürcübazarda gözü açıq cavanların bir çoxu öz rus, erməni, malakan, gürcü qardaşları ilə sərbəst görüşüb danışa bildikləri kimi, məşrəb aludələri də burada tez-tez görünür...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onların güdükçüləri, qulaqçıları da buralara tez-tez baş çəkir... Bir cavana bu məhəllədə rast olan kimi, onu qeyri millətlə durub söhbət edən görən təki az keçməmiş xəbər bütün bazara yayılır: "Adə, sən öləsən, meyitüvü görüm yalan deyirəmsə, hindicə Hacı Məhəmmədin oğlunu Gürcübazarda, o xaraba qalmışdan çıxan gördüm, özü də o erməni oğlu ilə qolboyun. Dilim kəlməyə gəlməsin əyəm o yan, bu yanı varsa"...

Bəli... Şirvan yollardan... Şamaxı bazardan başlayır... Bizim üçün isə təkcə bircə yerdən – Bəzzazbazardan... Bazar... O canlı cismə bənzər... Onun öz başı, ürəyi, qolları var... Bazarın öz dərdi, öz sirləri, öz kədər və sevinci var... Burada xam, nabələd adam aldana da bilər; burada insan xətası lağa qoyula bilər, o alçaldıla da bilər, lakin burada əsil dərd, ümumun kədəri kimi də qarşılanır... Fağırın, əlsiz-ayaqsız məsumun birinə bəs deyincə əl də tutarlar, bazar əhlini xamlamaq istəyən namərd isə ələ də salınar, bazardan, bu canlı aləmdən əbədilik qovular da... Bazar canlı bir dünyadır... Bir aləm, bir cəmiyyətdir... Onun öz yazılmamış qanunları, qanun hökmünə qaldırılmış adətləri var...

Şərqdə öz canlılığı, zənginliyi, rəngarəngliyi və sərvətilə məşhur olan qələbəlikli Şirvan, Şamaxı bazarından dünyanın bir çox məşhur şəhərlərinə yollar gedir, bu yollar Pirdirəki dağından, Gülüstan aşırımından, Qobustan düzündən keçir.

Bazarın öz daimi sakinləri, öz satıcısı, alıcısı, öz hoqqabazı, dəlisi, öz şairi, müdriki, öz dilmancı, darğası, öz vəkili, ağsaqqalı, başbiləni var... Bazar yad qonaqlı, yaxın qohumlu, doğma övladlı, ögey oğullu, ağıllı balalı, başabəla, əliəyri, eybəcər vələdli nəhəng bir ailə, bir külfətdir...Onun öz dərdi, öz azarı var, onun öz sevinci, öz qayğıları var. Bazar bunu heç kəsə verməyi sevməz, yada, naməhrəmə sirr açmaz, açanı da cərgəsindən qovar... Onun sevinci payansız olduğu kimi, qəzəbi də dəhşətlidir...

Gəlin əl-ələ tutaq, çiyin-çiyinə verib hekayətimizlə sıx əlaqəli Bəzzazbazarından keçək, birbəbir də olmasa, onun bəzi daimi sakinləri ilə tanış olaq.

Ən əvvəl, bax, o başında tabaq gəzdirən ayaqyalın, ucaboy kişiyə baxın, pərakəndə geyimindən də görürsünüz ki, kasıb adamdır. Ağası Baqqalbazarda halvaçı dükanı saxlayır, özü isə tabaqçıdır, qışda ədvalı (İsfahan), küncüd, fındıq halvaları, Şəkidə hazırlanıb gətirilən paxlava, riştə-xətai, yayda isə yağasər (buz) satır. Tabaq bütün gün uzunu başından düşmür, dükan-dükan gəzib bəzzazlara halva paylayır, adına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetim Hüseyn, bəziləri isə "Yaxası açıq yetim" deyir. Yaşı məlum deyil, kimdən soruşursan "gözümü açandan Yetim Hüseyni tanıyıram" deyir. Bəzzazbazarını Yetim Hüseynsiz görən olmayıb. Daima başında gəzdirdiyi tabağı yerişinə həmahəng bir şəkildə yırğalayar və durmadan, babət səsilə zümzümə elər, Şamaxıda təzə çıxan havaları ilk əvvəl Yetim Hüseyndən eşidərsən...

Bazar meydanının başındakı o açıqlıqda, nəhəng tut ağacının altında, daş üstündə oturmuş qəşəng, təmiz geyimli adam Cin Cavaddır. Şamaxını Cin Cavadsız təsəvvür etmək mümkün deyil. Sərpayıdır, xəlfədir, bir az sonra haqqında danışacağıq. İndilik bunu deyək ki, Cavadın başında həmişə indicə gördüyünüz kimi bir dəstə adam olur, heç tək qalmır...

Bundan aşağı dükan cərgələri başlanır. Bəzzazbazar iki cərgəli uzun küçədir, yerinə ala-babat qara çaydaşı döşənibdir. Burada o qədər də toz-torpaq olmur, tacirlərin aylıq maaş verdiyi süpürgəçi, hər obaşdan küçəni ikitərəfli süpürür, sulayır, bəzi xüsusi hörmət və mənfəət gördüyü tacirin pəncərə-qapılarını da silir.

Gördüyünüz o birinci dükan Hacı Əsədə məxsusdur. Geniş, böyük piştaxtaları, zərxara, qanovuz, darayı, Hacı Sadıq işi çarşablar, bənarə örpəklər dolu qəfəsələri olan o səliqəli dükana sonra, münasib düşəndə girərik. Arxa otaq anbardır. Hacı malları orda saxlayır. Hacı Əsəd mağazasının pəncərələrinə Şamaxıda ilk dəfə olaraq iri, ağ naxışlı şüşələr saldırmış, bu şüşələrin dalındakı nümayişgahlara Hacının Məkərə və Moskvada gördüyü qaydada parçalardan nümunələr düzülmüşdür. Hacı satıcı-pirkeşik saxlamır. Oğlu Tərlanı piştaxta dalında pirkeşik əvəzində işlədir, "çobanı özündən olanın, qoyunu əkiz doğar" deyir. O, gələcəkdə oğlunu tacir görmək istəyir, elə indidən Şamaxıya mal gətirən məşhur tacirlərə, sarvanlara nişan verir. Adamlara ləqəb qoşmaqda xüsusilə ad qazanmış şamaxılılar, hətta, tacir dostları da üzdə onu "Hacı", arxada "qapaqlı" adlandırır. Sirverməz, qapalı adam olduğuna və ya xəsisliyinə görəmi belə adlandırıldığı bəlli deyil. Amma ləqəb Hacının özünə də məlumdur. Hətta, nə üçünsə, bu adla fəxr edir, arabir hirsi tutanda "mənə də qapaqlı deyərlər", deyə əlini geniş, dolğun sinəsinə çırpır. Hacı Əsəd çox dolu, şişman adamdır, qat-qat ət basmış qısa boynu görünmür, elə bil ki, başı bədəninə yapışıb. İl on iki ay tərtəmiz ülgüclətdirdiyi başı lahıc qələyi görmüş mis qazança kimi par-par parıldayır. İki sıx bozarmış qaşından başqa kosa sifətində bir dənə də tük yoxdur, hirslənəndə ətli sifəti paxırı çıxmış mis kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qıpqırmızı qızarır. Əyninə enli şalvar və gen-bol ağ köynək geyər, yayqış sətin geyməsinin belindən şal qurşağı açmaz. Hacının dostu bəzzaz Hacı Qədirdən Əsədə nə üçün qapaqlı ləqəbi verildiyini soruşduqda deyib: "Vallah, qapaqlı-qapaqsız bilmirəm, amma heç ağzının qapağı yoxdu kişinin, bir xəbər eşitdimi dəstinə aləmə yayacaq".

İkinci dükan qapaqlının dostu və dükan qonşusu Hacı Qədirindir. Köhnə dükandır, təzəcə əl gəzdirib, təzələşdirib. Qonşusunun əksinə olaraq Hacı Qədir arıq, ucaboy adamdır. Qaraquş dimdiyinə oxşayan əyri donqar burnu, sıx qarabığlı, topasaqqallı ağzının üstündə təpə kimi ucalır. Hənа və rəngdən saqqalında bir dənə də ağ tük nəzərə çarpmır, daima əlində təsbeh olar, zikr deyən dodaqları qalındır, badımcanı rəngə çalır. Dəvə yunundan əldə toxunmuş çuxa geyər, Məkkədən gətirdiyi tirmə qurşağı nazik belinə sarıyar. Kişi, necə deyərlər, Allahdan da çox pirə inanır, harda bir təzə pir çıxdı, mütləq gedib oranı ziyarət etməlidir. Etməsə, Hacı Əsəd demişkən "dini dürüst olmaz". Sadəlövh, deyilənə inanan, həqiqi mənada dindar adamdır. Amma hər şeyə inansa da, bircə alverdə heç nəyə inanan deyil, eşitdiyi bütün xəbərləri, etdiyi sövdanı mütləq yoxlamalı, görməli, öz əli ilə etməlidir. Sifariş, ismarışla işi yoxdur.

Hacı Qədirin dükanının qənşərindəki tikili çox köhnədir, hələ İsmayılın babası Kərbəlayı Qənbər, sonra atası Hacı Hüseyn, indi isə özü burda ticarət edir. İsmayılgil üç qardaşdır: bunların təkcə böyüyü – İsmayıl əsil mənada tacirdir. O da hələ cavandır, cəmi iyirmi yaşı var. Ortancıl Vəli fağır uşaqdır, ondan kiçik, ailənin sonbeşiyi və sevimlisi, qaraca oğlan Məhəmməddir. Onun gələcəkdə nə peşənin sahibi olacağını heç kim bilmir, hamı anasının dili ilə Məhəmmədi, ailədə və qohum-əqrəba arasında "qara" çağırır. Təzəcə mollaya gedir. İsmayıla ata və babasının sadiq dostu olan tacir və sarvanlar kömək eləyir, yoxsa cavan tacirin hələ elə bir səriştəsi və tüccar arasında böyük etibarı yoxdur. İsmayılın xeyirxahlarından biri və bəlkə də birincisi Qapançıbaşı Ağa Rəsuldur. Ara-sıra işdən başı açılanda, yolu Bəzzazbazara düşəndə, mütləq köhnə dostunun dükanına baş çəkər. Çox sadiq adamdır. Ağa Rəsulun düzlüyü dillər əzbəridir. Bütün sarvan və tüccar onun sədaqət və düzlüyünə arxayındır. Deyirlər ki, hansı bir tacir və ya sarvan onun yanında bir şey unutsa, yoldan qayıtmayıb, arınarxayın işinə gedər; "Ağa Rəsul hələ bir kimsənin həbbəsini ötürməyib" deyər. Qayıdanda, istər lap bir il olsun, səni görən kimi deyəcək: "Qardaş, malın xarab olan idi, verdim filankəsə, satdırdım, bu da pulun,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çuvalların da evdədi, gədəyə deyərəm gətirər". Ya da "Qardaş, malın tələf olan deyil, qiymət də ucuz idi deyin satdırmadım, dedim sən gələnə bəlkəm qiymət dəyişdi, gəlib özün yerbəyer elərsən, odu vurdurmuşam, dörd çuvalını anbara, adə, Əlmərdan, ağanın mallarını çəkin qapana". Hamı bilir ki, Ağa Rəsul namus üstə, şərəf üstə, təmiz ad üstə diri gözlü ölümə gedər, adının ləkələnməsinə razı olmaz.

İsmayılın dükanından aşağıda Bəzzazbazar çayçısı Əlmuxtarın çayxana və pitixanası yerləşir. Əlmuxtar çayçılıqda şöhrət qazanıb, çox səliqəli, təmizkar və mömin kişidir. Seyfi adında bircə şəyirdi var. Qapıdakı o nəhəng samovarları Seyfi qaynadır, tacirlərin "Ağa Əlmuxtar, bir çay" çağırışına Seyfi cavab verir, cəld çaydan və piyalələri, fincanları, lahıc işi parlaq mis siniyə düzüb aparır. Qab-qacağı da Seyfi yuyur, Əlmuxtar bir çay dəmləməklə məşğuldur, bir də haqqı yığmaqla. Dal otaqdakı köməkçisi pitiləri bardaqlarda hazırlayıb təndirə qoyur və lazım olduqca, Əlmuxtarın tələbilə, Seyfiyə verib göndərir. Əlmuxtar bəstəboy olsa da, çox qüvvətli kişidir, nəhəng samovarları təkbaşına qaldırır, qaynar-qaynar taxtabəndin üstünə qoyur. Güləş həvəskarıdır. Hacı Qədir demişkən "Qolunda Əliyyəlmürtəza gücündə bir zərrə var". Cavanlığında toylarda çox güləşib, indi şəninə və yaşına yaraşdırmır. Bircə arzusu var: lazımınca pul toplayıb ağanın ziyarətinə getmək və üzünü o Həzrətin türbətinə sürtmək. Bu eşq ilə kişi hər məhərrəmdə elə şurnan sinə vurur ki, bir ay qarası sinəsindən getmir.

Tələsməyin, bir dükançını da sizə nişan verməliyəm, onun da bizə dəxli var. Bəzzazbazarın orta göbəyində ipək, arşınmalı ticarəti ilə heç bir əlaqəsi olmayan o xırdaca dükan kitabfüruş Məşədi Qulama məxsusdur. Bu balaca, səliqəli və təmiz dükan, onun qəribə sakini çox maraqlıdır. Buraya o qədər şair və şeir həvəskarı gəlir ki! Gəlin biz də onu nəzərdən qaçırmayaq, qalan tüccarın dükanları ilə işimiz olmayacaq, Bəzzazbazar böyük, tacir çox, nə işimizə qalıb. Məşədi Qulam indilik bu aləmdə yeganə adamdır ki, onun dükanı burda dissonans kimi səslənir.

Hamıya bir ləqəb qoşmağa həvəsli Şamaxı camaatı onu Qırmızı Qulam adlandırır. Kişinin sözü qızıl-qırmızı, düz müsahibinin gözünün içinə deməsinə görə. Ətraf kəndlərdə onu tanıyanlar hörmətlə Məşədi Qulam deyə müraciət edir. Uzaq şəhərlərin kitab və şeir həvəskarları üçün o, "kitabfüruş Məşədi Qulam"dır. Şərqin ən mötəbər şəhərlərindəki xəttatlar, əlyazma divanları, zəngin ornamentli, zərrin və qiymətli Quranlar tərtib edən və satan şəxslər Qulam kişini, qiyabi də olsa, tanıyır, sarvanlar vasitəsilə ona satmaq üçün müntəxəb məcmuələr,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

risalələr, "Şahnamə" və "Xəmsə"lər, təfsirlər, "Qisəsül-əmbiya", "Qisəsül-övliya", incə ornamentli divanlar göndərir və Şamaxı, Gəncə, Şuşa qalası və başqa. şəhərlərdə çalışan xəttat və nəqqaşların əsərlərini də onun köməkliyi ilə əldə edirlər. Şeir həvəskarları – tacirbaşı və sarvanlar Şamaxıya gələndə Məşədi Qulama dəyməyi mütləq vacibatdan[1] sayarlar. Məşədi Qulam Şərqin müxtəlif cəhətlərilə əlaqə saxlayan müştərilərin səliqəsinə yaxşı bələddir. Hər birinin istəyinə görə, gələcəyi günü təxminən də olsa müəyyənləşdirib, istəyə biləcəyi əsəri əl altında hazır saxlayır. Məşədi Qulamın qazancı böyük olmasa da, bazarı kasad deyil, rəvacdır. Bəzzazbazar qış aylarında satıcıdan xali olanda şeir həvəskarı olan dükançıların bəzisi Məşədi Qulamın dükanına yığışır, onun həvəslə oxuduğu şeirləri dinləyirlər. Məşədi Qulamın da bir azarı var: yaman həcviyyatpərəst, həcv aludəsidir. Kimə həcv qoşulsa, gizlicə "xəttat və azurğu şair" adlandırdığı Nəcəfquluya üzünü köçürtdürüb saxlayacaq, alıcı düşəndə yüz and-aman eləyib "bax, sən imam, mənim adım olmasın", deyib satacaq.

Bununla da bizim Bəzzazbazarın əsas sakinlərindən bir qismi ilə tanışlığımız qurtarır. Vay, vay, bağışlayın, lap yadımdan çıxmışdı, Bəzzazbazarda daim dükanı olmasa da, bir nəfərin işi, həyatı bütünlüklə buraya bağlıdır: bu suçu-Sərçə Bağıdır ki, evlərə su daşıyır və dükan sahiblərinin aftafa-səhənglərinə gərək olan miqdarda bulaq suyu gətirir. Xırdaboy, cılız adamdır Sərçə Bağı. İl uzunu yalın ayaqları, cadar-cadar olmuş dabanları qıpqırmızı olar. Çox üzüyola bir eşşəyi var, suyu güyümlərə doldurub, iri xurcunun hər iki gözünə qoyur, ağzını qapayıb gətirir. Bazar başında Sərçə Bağının cır – "hoşşə" səsini eşidən kimi, dükançı şəyirdləri cəld su üçün qapıya qab çıxarırlar.

Hə, indi, deyəsən, doğrudan da, tanışlığımız qurtardı. Bircə Bəzzazbazarın ayağındakı o ikimərtəbəli iri bina qaldı. Onun haqqında ayrıca danışacağıq: Mahmud ağaya məxsus olan karvansara həmin odur.

Gəlin həmin binanı ötüb üzü dağa – Cuma məsciddən aşağıda Taləzarın yerləşdiyi təpə ilə qabaq-qənşər küçənin sol tərəfinə dönək. Bu, Gürcübazardır. Burada bizi bazarın başlanğıcındakı tək bircə bina maraqlandırır: əczaxana iki mərtəbəlidir, görürsünüzmü iri otaqları böyük, işıqlı pəncərələri var. Üst qatdakı əczaxana bir gürcü xanımına məxsusdur, nüsxəbənddir, özünü hələ ki, görən olmayıb, buranı bir erməni icarədar idarə edir, alt mərtəbə isə şərabxanadır. Şamaxının

[1] Şəriətcə vacib qaydalar

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əhlikef cavanlarının məskəni buradır. Danışacağımız qəziyyələr burada cərəyan etməsə də, bu şərabxana qəhrəmanlarımızın taleyini həll edənlərin əlində bir silah, bir dəstəvüz olub.

İndi tanışlığımız ötəri də olsa qurtardı. Əlbəttə, biz sizinlə əsil qəhrəmanlarımız haqqında heç bir şey danışmadıq. Onları sonra görəcəksiniz. Ona görə də, icazə verin, hələlik, burada vidalaşıb mətləbə keçək. Sizə səbir, özümə, ustadlar demişkən, tövfiq arzulayıram.

## İLK İMTAHAN

Onluq və otuzluq lampalar Şamaxıda təzə dəb düşmüş, ilk dəfə Mahmud ağanın evində işıq saçmışdı. Otuzluqların çəhrayı, güllü-bəzəkli gövdələri, təmiz silinmiş yekəqarın şüşələri bərq vururdu. Məclisin yuxarı başında Mahmud ağa, ondan sağ və sol tərəfə divar boyu salınmış məxmər nimdərlərdə aliməqam qonaqlar əyləşmişdi. Evin yerinə əlvan xalılar döşənmişdi. Qonaq otağının divarları şəbəkə camaxatanlardan ibarət idi; bunların bəzisinə əlvan yorğan-döşəklər, bahalı xalçalar yığılmışdı. Adamboyu hündürlükdə olan bu camaxatan – dolabların üstü divar uzunluğunda işləmə-şəbəkə rəflərə çevrilmiş, rəflərin arxa hissəsi kiçik taxçalara bölünmüşdü. Rəflərdə əla çini kasalar, lacivərdi qablar, əlvan bəzəkli nimçə, dolça, güldan, gülabdan, piyalə, şirazi qəlyan, şərbətdanlar düzülmüşdü. Rəflərin üstündən taxçaların lap tavana yaxın yerlərində ipək və güləbətin pərdə başlıqları asılmış, arabir əlvan naxışlı, şəkilli nimçələr vurulmuşdu. Otağın ayaq tərəfində üstü naxışlı günbəz şəklində düzəldilmiş qədim ocağın önündə xanəndə, nəvazəndə və rəqqasə – çəngilər üçün yer hazırlanmışdı. Ocaq yerinin sağ tərəfindən yarımtaxt üstündə sazəndə dəstəsi: tarzən, zurnaçı, kamançaçı, dəfçi, yerdə isə qoşadumbul çalan oturmuşdu. Ocaq yerinin sol əlində "çəngi dəstəsi"ndən olan rəqqasə qızlar əyləşmişdi. Onlar səkkiz nəfər idi: Sona, Nisə, Səkinə, İzzət, Rəna, Məleykə, Qəndi, Badam.

Məclisə ara vermədən Mahmud ağanın həmsinni olan cavanlar daxil olur, münasib yerdə əyləşirdi. İçəri girənlərin hər birisinə Mahmud ağa adəti üzrə öz əli ilə, nökərin gətirib onun qarşısına qoyduğu çaydan bir fincan təqdim edirdi. Qonaq çayı içib qurtardıqdan sonra Mahmud ağa onunla hal-əhvallaşırdı. Musiqi və rəqs məclisi hələ başlamamışdı. Məclis kimi isə gözləyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyid Əbdül Əzim içəri girib ümumi salam verdi, tay-tuşu onu yanına dəvət etdi. O keçib Zeynalabdin ilə Hacəsəd oğlu Tərlanın arasında oturdu. Bu gün buraya anasından xəlvət, həm də dostu Tərlanın təkidlərinə görə gəlmişdi. İndi evin yeganə kişisi, böyüyü olsa da, qohum-əqrəba arasında "yaxşı yer" sayılmayan elə məclisə ilk gəlişi olduğundan utanır, qısılırdı. Anasının "bu işi" bəyənməyəcəyini bilirdi. Gənc daxilində qəribə bir həyəcan duyurdu. Əllərini hara qoyacağını bilmirdi. Onu bu məclisə dəvət edən ikinci həmtayı Rza bəy, Mahmud ağaya yaxın bir mövqedə oturmuşdu.

Əbdül Əzimin salamını baş işarəsilə alan Rza bəy, azacıq Mahmud ağaya tərəf əyilib gələnin kim olduğunu söylədi. Mahmud ağa qarşısındakı çay dolu fincanlardan birini qaldırıb, Seyid Əbdül Əzimə tərəf ötürtdürdü. Gülümsər gözlərilə onu bir daha salamladı. İlk dəfə gördüyü gəncin utancaq üzü, mehriban qara gözləri, sadə geyimlə düzgün qaməti ağanın xoşuna gəldi. Gənc gözaltı məclisdəki cavanları, daha sonra aşağıbaşda üzüaçıq oturmuş rəqqasə qızları təəccüb hissilə süzdü. O ömründə kişi məclisində üzüaçıq oturan qadın görməmişdi, həyasından daha da qızardı. Bütün gördükləri Seyid Əzimin tərbiyə alıb böyüdüyü mühitə uyğun gəlmirdi.

Qapıda səs-səmir ucalanda Mahmud ağa yerindən qalxdı, ona baxıb məclis əhli də ayağa durdu. Seyid Əzimin dizi yanında oturmuş Zeynalabdin adlı gənc astadan ona pıçıldadı:

– Bu gün xüsusi ziyafətdi. Ağanın xarici qonağı var. Deyəsən urusdu, ya firəngdi. Bax, odu gəlir... Deyirlər guya şəkil çəkir...

Geyimi, siması ilə məclisdəkilərdən tamamilə seçilən bir şəxs otağa daxil olduqda Mahmud ağa irəlilədi. Otağın ortasında qonağı qarşılayıb əl verdi və Seyid Əzimin başa düşmədiyi bir dildə onunla salamlaşdı. Əlindən tutduğu halda yerinə qayıtdı, qonağı döşəkçəsi yanında qoyulmuş alçaq kətilin üstündə oturmağa dəvət etdi. Sonra əhli-məclisə müraciətlə qonağı nişan verdi:

– Ağalar, qonağım cənab knyaz Qaqarindir. O bizim içərimizdə olmayan, bizə nəsib olmayan bir sənət sahibidir. Rəssamdır. Şəkil çəkir, bir növ bizim qədim divanların bəzəyini işləyən rəhmətüllah Mir Əli kimi. Dinimiz bizə insan rəsm etməyi qədəğən edir. Xristianlarda isə belə deyil. Cənab knyaz buralara səyahət edib ki, bizim həyat və təbiətimizdən bəzi lövhələri rəsm etsin.

Rəssam özünə dikilən gözlərdən anladı ki, Mahmud ağa onu yığılanlara təqdim edir, qulağı anlamadığı sözlərin ahəngində ikən, sanki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dili bilmədiyi üçün günahkarca gülümsəyir və o da öz növbəsində qonaqları, otağı seyr edirdi. Sarışın, dəniz suyu kimi duru, mavigözlü, nazik simalı bu gəncin əynində kip oturmuş boğazlı gödəkcəsinin yaxası iri düymələrlə düymələnmişdi, çərpələngə oxşayan üçkünc qotazlı papağını çıxarıb dizi üstünə qoymuşdu, yerli adətlə tanış olduğundan ayaqqabılarını qapının ağzında çıxarıb içəri girmişdisə də, otaqda papaqla əyləşən qonaqlardan tək bircə onun başı açıq idi. O, dilini bilmədiyi, tanımadığı bu adamlara mavi gözlərindəki dərin bir maraqla baxır, hamını – hər şeyi, əlvan geyimləri, bir küncdə oturmuş çəngi dəstəsini, otağın bər-bəzəyini diqqətlə gözdən keçirirdi.

Məclis isə artıq arəstə idi. İlk çaylar içilib qurtarmış və nökərlər boş fincanları sini və naxışlı məcməyilərə yığıb aparmışdılar. Mahmud ağanın işarəsi ilə sazəndələr oyun havası çalmağa başladılar. Öz işini bilən "çəngi"lər içərisindən birisi ayağa qalxıb, məclisin ortasına gəldi. Dərhal məclisdən xəfif bir pıçıltı keçdi. "Sona!.." Tərlan Seyid Əzimin qulağına pıçıldadı:

– Sonadı, çəngilərin ən yaxşısı...

Seyid Əzim Dağıstandan qayıdandan bəri Şamaxı cavanlarının, tay-tuşu olan gənclərin ağzından "Sona", "çəngi gözəli Sona" sözünü çox eşitmişdisə də, onu birinci dəfə görürdü.

Sonanın incə, gözəl üzü, qızılgül yarpağı kimi zərif dodaqları və yanaqları boyasız idi. Qulaqlarına taxdığı piyalə sırğalar birçəklərinin altından çiyinlərinə dəyirdi. Əlvan yun şətəl geydiyi balaca ayaqları uzun darayı tumanın altından güclə görünürdü. Qanovuz köynəyinin üstündən geydiyi kimxa arxalığının yaxasını qarmalamış, üstündən ensiz kəmər bağlamışdı. Arxalığın yaxasına göyərçin yumurtası boyda düymələr tikilmiş, boynuna kəlbəndi, silsilə taxmış, bənarə örpəyinin üstündən çətirli alnına gülpərək vurmuşdu. Örpəyin ucları uzun hörüklərilə bərabər kürəyinə atılmışdı. O birisi qızlardan yalnız Qəndi xanımın, bir də Badam xanımın üstündə Sona kimi çox qızıl var idi. qalanların bəzəyi nisbətən sadə idi. Amma zahiri gözəllikdə bir qız onunla rəqabət apara bilərdi. Bu, Sonadan xeyli cavan görünən Nisə adlı rəqqasə idi.

İndi söz-söhbət kəsilmiş, bütün gözlər Sonaya dikilmişdi. Məclis əhlinin nəzərini cəlb etdiyinə əmin olan kimi Sona, sağ əlini döşünə qoyub məclisin dörd səmtinə də baş əydi. Rəqsə başladı. Əvvəlcə yançaqlarını oynada-oynada dövrə vurdu. Sonra əllərini gah başı üzərinə, gah çənəsi altına, gah döşləri üstünə, gah da belinə doğru apararaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

süzdü. Məclisin ortasında durub göbəkatma rəqsinə başladı. Sonanın mütənasib əndamı rəqsin ahəngilə tərpəndikcə, qolları, ayaqları, gərdəni, çənəsi, bütün qadın vücudunun gözəlliyi bu rəqsdə iştirak edirdi. Bu zaman rəqqasə qızlar maraqla onun rəqsini izləyir, çalğıçılar arasında ayağını ayağının üstünə aşırıb oturmuş Qəndi xanım isə oxumaqdan ziyadə rəqsin ahənginə uyğun coşqun bir tərzdə deyirdi:

At, göbəyim, at,
İçində nobat.
Gəlsin gomurnat –
Versin ağ manat.

Qonaqlar vəcdə gəlmişdi. Hər bir dodaqda təbəssüm qaynayır, hər gözdə atəş parlayır, hər qəlbdən "afərin", "maşallah", "fətəbərakəllahu əhsənül-xaliqin" sədaları qopurdu. Şırıqqa səsindən qulaq tutulurdu.

Bu ara rəssam əlinə aldığı kiçik albomu açmış, Sonanın rəqsinin, çəngilərin oturuşunun qaralamasını edirdi, onun ilhamdan şöləlnən üzünə xəfif bir qızartı çökmüşdü. O, bir tərəfdən ömründə ilk dəfə gördüyü qəribə rəqsin, musiqinin ahəngindən zövq alır, digər tərəfdən gördüklərini süngər kimi zehninə, xəyalına hopdurmaq, sonra çəkəcəyi böyük tablo üçün yadında saxlamaq istəyirdi.

Sona isə sanki səsləri eşitmir, bu gözləri, bu dodaqları görmürdü, onun bütün varlığında, cisminin bütün hüceyrələrini lərzəyə salan coşqun musiqi ehtizaza gəlir, gəlini rəqs etdirirdi. Sonanın şirmayı əllərinin biri qaşları üstünə, digəri çənəsi altına gələndə, sürməli qara gözləri süzülür, başı dönmədən bu badamı gözlər gah sağa, gah sola baxır, axırdı. Onun bir cüt ilan kimi çevrəsində qıvrılan hörükləri, alnındakı çətir, yanaqlarına və çənəsinə düşən burma birçəklər rəqsin ahənginə uyğun yellənir və ətrafa Xütən müşkünün məstedici ətrini yayırdı. Vəsməli qaşları gözlərin məlahətini artırırdı.

Cavan Seyid Əzim indi iki hiss keçirir, iki düşüncə arasında çaşıb qalmışdı. Bir tərəfdən ilkin gördüyü məclisdəki gözəllik, musiqi, gözəlin ecazkar rəqsi onun bütün varlığını, gənc ürəyinin dərinliklərinə qədər fəth etmişdi. O, Sonanın rəqsindəki incə ahənginə məftun olmuşdu. Qız onun gözü önündə nağıllarda eşitdiyi pəriləri, daha sonra ruhani babasının o dünyada, behiştdə görə biləcəyini vəd etdiyi huriləri canlandırmışdı. Gənc şairin qəlbində indi başqa ahəngdə, başqa vəzndə, rədif və qafiyədə bədahətən gələn bir qəzəl yaranırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, misraları yüksəkdən deməyə cürət etmir, həya eləyir, hətta pıçıldamırdı belə. Sona canlı-qanlı huri idi, pəridi. Məclis behiştin xəyal qədər, nağıl təkin qəşəng guşəsi idi. Digər tərəfdən beynində, fikrində bu rəqsi, dünyanın ən dadlı nemətlərindən olan musiqi, rəqs və gözəlliyi yasaq edən, haram buyuran əhkamlar canlanırdı. Şübhələr onun ürəyini titrədirdi: "Əgər sən insana fərəh gətirir, onu bir müddət üçün dünyanın əzablarından xilas edirsənsə, nə üçün, nə üçün sənin sənətin, sənin qabiliyyətin haram olmalıdır, Sona? Niyə sən məxluqatın əskiyi sayılasan? Niyə sənə baxmaq, sənin ecazkar rəqsindən zövq almaq haram olsun? Sənin o dünyada vəd olunan hurilərdən nəyin əskikdir? Nə üçün bu günahı-əzim olsun, Sona? Nə üçün?.." Bu nə üçünlərin sayı-hesabı yox idi. Onun daxilində sanki iki bir-birinə zidd fikirlər söyləyən şəxs oturmuşdu, birinin dediyini, digəri inkar edir, birinin təsdiq etdiyini o birisi rədd eləyirdi.

Suallar... cavabsız suallar... O bunlara cavab verəcək, cavab tapacaq halda deyildi. Bu suallara cavab almaq üçün qazı, axund yanına gedib "istifta"[1] etmək də mümkün deyildi. Məgər o axund babasının otağına "məsələ" üçün gələn sadəlövh dindar qocaları az görmüşdü? Qocaldığına görə yaddaşı zəifləyən və namaz qıldığı yerdə yanılan bu qocalardan biri – Məşədi İmamqulu xüsusilə yaxşı yadında qalmışdı. O tez-tez babasının otağına gələr, nəleynlərini qapının ağzında çıxardıb, öhhə-öhhə ilə içəri girər, əlini belinə və divara dayaq verib güclə, nimdərin üstünə qoca dəvə kimi diz çökər və xeyli müddət özünə gələ bilməzdi, sonra handan-hana əlini qar kimi ağ saqqalına çəkib salavat çevirər və başlardı:

– Axund ağa, Allah axirətüvü versin, "şəkkim var ikiynən üç arasında..."

Babası uzun-uzadı izah edərdi. Məşədi İmamqulu zəif yaddaşına arxayın olmadığından dönə-dönə axundun təlimini təkrar edər, yenə də qarışıq salar və yenə də təzədən başlardı: "İki ilə üç arasında şəkk eləyəndə, gərək..."

Belə hallarda küncdə oturub çərəkə oxumaqla məşğul olan balaca Əbdül Əzim Məşədi İmamquluya acıyırdı, "Gör bir hardan hara nə üçün gəlib?" istədi yerindən durub qocaya desin:

– Ay rəhmətliyin oğlu, şəkkin var, dur namazı təzədən qıl, daha çək-çövür nəyə gərəkdi?..

[1] Məsləhət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir dəfə Məşədi İmamqulu qəribə bir "məsələ" üçün gəlmişdi. O, qapıdan içəri girən kimi axundla təmənnəşər-təmənnəşməz, nəfəsini dərmədən sözə başladı:

– Axund ağa, Allah atan rəhmətliyi behiştlik eləsin, mənə qəza üz verib...

Axundun dodaqları qaçar kimi oldu:

– Yoxsa genə şəkiyyat...

– Xeyr, ağa, xeyr, Kərbəlayi Rəsul qızının məsləhətiynən sailə çörək verəndə, bir çeynəm qoparıb yarısını ağzıma, yarısını da yastığımın altına qoyandan bəri daha yaddaşım yaxşılaşıb, maşallah-namxuda, daha namazda səhv-şəkk eləmirəm.

– Bəs Xuda nəkərdə, nə üz verib?

– Bu saat qulluğuna ərz eləyim, cənab axund, gecəki yağışdan yol islanıb, olub palçıq. Səhər çıxmışam qapıya, elə üzüaşağı qapanlara tərəf gedirdim, qabağımda bir malağan, o dəyirman ustası var hey, malağan Vasil, o gedirdi, çalışırdım ləpirinə ayaq basmayam, amma birdən o kafər oğlunun ləpirindən palçıq çırtdadı, düşdü əbamın üstünə, əbanı da ki, canına qurban olduğum qəriblər ağasının[1] qulluğundan şövt eləyib, təbərrükləşdirib gətirmişəm, indi bilmirəm palçıq quruyandan sonra onu ovxaladım, ya verim suya çəksinlər? Ovxalatsam ürəyimə yatmayacaqdı, gəldim sənə məsləhətə...

Bu yerdə nəinki Əbdül Əzimin, hətta axund babanın özünün də üzündə Məşədi İmamquluya qarşı bir acıma, əzablı bir kədər sezildi. Axund Məşədini sakitləşdirmək üçün dedi:

– Ovxalat getsin, Məşədi, qurudan quruya bir şey olmaz inşallah...

Kişi şübhələr içində idi:

– Bəs palçıq düşəndə, su parçanın məğzinə keçib isladıb axı?

Axund nadan müsahibinin yazıq görkəminə təəssüf hissilə baxıb gülümsündü:

– Xeyr, bəli, əlbəttə, lakin o su təbəxxür edib... canında qalmayıb...

...İndi Seyid Əzim bir an, təkcə bir an içində gözünün önündə canlanan bu kabusu görən kimi, müsahiblərin səslərini eşidən kimi oldu. O məclis hara, bu məclis hara?

Seyid Əzim bu ani xəyalı gözlərindən qovarkən Sona artıq keçib öz yerində oturmuşdu. İndi tarzən tarın kökünü dəyişmiş, çapıq Nəcəfqulu "Kabili" muğamını oxumağa başlamışdı. Qəzəl farsca oxunurdu.

---

[1] Məşhəd şəhərində dəfn olunmuş İmam Rza



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma bu məşhur şah beyt Seyid Əzimə çoxdan tanış idi. Nəcəfqulu bütün məclisdə oturanların dili ilə bu gözəllik rəmzinə üz tutub yalvarır, kamanın həzin ahənginə uyğun olaraq ilman dili açıb yovuncuyurdu:

Rüsxəti xahəm ki, qorbanət şəvəm quyəm bolənd,
Ta bəkey dər zire-ləb quyəm ke "qorbanət şəvəm"[1].

Ecazkar sözlər, ecazkar musiqinin təsirilə daha da həzin, daha da üsyankar bir məna kəsb edib, gənc şairin ürəyində Pirdirəki dağının ləpəsi kimi əks-səda verirdi: "Doğrudan da, haçana kimi insan öz qəlbinin ən əziz, ən müqəddəs hisslərini gizlətməli, ən qüdsi və pak duyğularını ucadan deməyə qorxmalı, pıçıldamaqdan da ehtiyat etməlidir, a sənə qurban olum? Bu rüsxət, bu icazə insana nə vaxt veriləcək və niyə gərək insan bundan ötəri icazə gözləməli, rüsxət istəməli, qorxub-çəkinməlidir? Nə vaxtacan şəbpərələr günəşin aləməfruz ziyasına qara qanad gərməlidir? Haçanacan, a qurban olum sənə?".

...Rəqs məclisi bitdi, qızlar və xanəndə ilə nəvazəndə otağı tərk etdilər, yerlər seyrəldi; nökərlər otaq boyu xalılar üstünə divarların nəqşlərini əks etdirən qələmkar süfrələr salmağa başladılar. Parlaq mis aftafa-ləyənlərdə əl suyu gəldi. Nökərlər, Lənkəranın ənbərbu düyüsündən zirəli-zəfəranlı plov dövrələrini buğlana-buğlana ortaya gətirdilər. Rəngin xuruşlar, ovşalalar, iskəncəbilər əlvan kuzələrdə süfrəni bəzədi... Seyid Əzim nə yediyini, necə yediyini bilmədi. Yenidən naxışlı aftafa-ləyənlərdə əl suyu verilənəcən onun gözünün önündə bir az əvvəl gördüyü rəqslərin əfsunkar mənzərəsi durur, ürəyi isə az əvvəl qoşmağa başladığı qəzəli təkrar edirdi.

Mahmud ağa əcnəbi qonağı ilə məşğul olsa da, Rza bəyin ona incə ruhlu şair kimi təqdim etdiyi cavanın heç bir hərəkətini gözdən qoymurdu. Gənc nədənsə onun qəlbini çox məşğul etmişdi. "Hər çi badəbad" deyə birdən o, Seyidə müraciət elədi:

– Cavan şairsiz, deyirlər. Ağa, məclisə münasib bir söz desəz, eşidib fərəhlənərik.

...O anladı, bildi ki, imtahana çəkilir... ayaq geri qoymaq məqamı deyil. Utanmaq, çəkinmək bimövqe olar. Məgər bir az əvvəl özü "Haçanacan səs çıxarmaqdan ehtiyat edib, düşündüklərimizi ucadan söyləməyəcəyik?" – deyib fikirləşmirdimi? Məqamdı; qoy onun ürəyindən

[1] İcazə istəyirəm ki, ucadan sənə "qurban olum" deyim. Axı bəs haçanacan elə dodağımın altında (yəni yavaşdan) deyəcəyəm ki, "a sənə qurban olum?"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçən qəzəl, indicə dodaqlarına gəlmək istəyən misralar bu məclisdə səslənsin, axı onlar burada yaranıb, ilhamı bu məclisdən alıb, ilk dəfə burada səslənməlidir. Hayıf ki, Sona burada yoxdur. Hayıf ki, o bu misraları eşitməyəcək, bilməyəcək ki, Seyid bu sözləri məhz onun rəqsindən ilham alıb söyləmişdir... onun üçün söyləmişdir:

– Ağalar icazə buyursa... – o pul kimi qızara-qızara sözə başladı.

Məclisin çox yerindən səslər ucaldı:

– İzindi...

– Buyuracaqsan...

– Başla görək, şair...

O, dizləri üstündə dikəldi, getdikcə artan, ucalan bir səslə qəzəlini oxumağa başladı. Rəssam da əlindəki qələmi saxladı. Onun mavi parlaq gözləri maraqla gənc şairi seyr edirdi. Anlamadığı sözlərin ahəngini böyük bir diqqətlə, bayaq musiqini dinlədiyi diqqətlə izlədiyi hiss olunurdu.

...Yıxıldım huşdan getdim, tutuldu nitq, Musa tək,
Təcəlla nurunu çün vadiyi-Sinada gördüm mən...

Müsəlmanzadə idim, döndüm axır, bütpərəst oldum,
Məhəmməd nurunu çün ol büti-zibadə gördüm mən.

O bəzmi bir də, Seyyid, görmək olmaz ağlaram hər gün
Ki, guya ol büsatı, dün gecə, röyadə gördüm mən.

Qəzəlin son məqtə bəndi deyilən kimi məclisdən "afərin, maşallah, əhsən" səsləri ucaldı. Hərə öz hissini bir cürə ifadə edirdi:

– Balam, nə tez müsəlmanzadəliyi tərk edib, xumar aşiqi Sənana döndün?

– Qardaş, doğrudan da, cənab Mahmud ağanın məclisinin gözəlliyini elə yuxuda görmək olar.

– Bədahətən... afərin bu qabiliyyətə...

– Gec gəldi tez öyrəndi, buna deyiblər ha...

– Maşallah-namxuda, yaxşı şair olacaq...

– Elə şairdi də... şairin daxı buynuzu olmur ki...

– A balam, bura Şirvan torpağı deyərlər... Suyundan kim bir gilə içsə – şairdi...

– Bəs sən neyşə hər bulaq başına çatanda bir xəndək su içə-içə dönüb şair olmursan?

– Nə bilirsən ki, olmuram...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülüşmə, zarafat artdı; Seyid Əzim ağanın təhsinini gözləyərək, yerində rahatlanıb oturdu; onun ürəyi cələyə düşmüş sığırçın ürəyi kimi çırpınırdı. "Görəsən bəyəndimi; imtahandan necə çıxdım?"

Mahmud ağa məşğul idi, o bədahətən söylənən qəzəlin məzmununu tələsik knyaza tərcümə edirdi. O, tərcümə etdikcə rəssamın incə dodaqları xəfif bir təbəssümlə titrəyir, Şərq şerinin dəbdəbəsinə fərəhlə qulaq verdikcə, tez-tez başını tərpədir, şerin məzmununu bəyəndiyini bildirirdi. Birdən rəssam yerindən qalxdı, cavan şairə yanaşdı, hərarətlə əlini sıxıb nə isə dedi və yerinə qayıtdı. Sükut içində bu mənzərəni seyr edən Mahmud ağa dilləndi:

– Afərin, Seyyida, bu qəzəlini başqasından eşitsəydim, məhz bizim məclisin təsvirini onda görməsəydim, Füzuli rəhmətüllah yazıb deyərdim. Cənab knyaz da deyir ki, sözlərin mənasını başa düşməsəm də, ahənginə valeh oldum. Ömrümdə, bədahətən belə rəvan şeir deyildiyini ilk dəfə görürəm. Əhsən! Əhməd ağanın ruhuna and olsun ki, məclisimizi şərəfləndirdin, qonaq yanında da başımızı uca elədin. Xahişməndəm, məclisimizə münasib qəzəlini yazıb verəsən Nəcəfquluya, əzbərləyib gələn məclislərimizdə oxusun...

– Baş üstə!..

...Məclis dağılanda onlar bərabər çıxdılar. Seyid Əzim və Tərlan... hər ikisi həyəcanlı və xumar idilər. Hər ikisi qəribə bir hal keçirirdi. Şair ilk dəfə imtahan verdiyindən, musiqi, şeir və ədəb məclisində, şerə qiymət verən adamlar arasında birinci dəfə öz əsərini oxuduğundan həyəcanlı idi, bu əsərin bəyənilməsindən, Mahmud ağa kimi xiridarın ona yüksək qiymət verməsindən xoşbəxt idi. Ürəyində yeni-yeni ümidlər doğmağa başlayırdı. Onun da əsərləri bəyəniləcək, dillərə düşəcək... babası Axund Hüseynin dediyi kimi "yarımçıq şair" olmayacaq. Görün Nizami necə demişdi:

Palangəri beğayəti-xəd
Behtər ze kollahduziyi-bəd[1].

Babam bu şeri birinci dəfə oxuyanda mənə yaxşıca bir dərs verdi. Yazıq qoca çox narahat idi.

Şairə elə gəldi ki, o, babasının səsini eşidir: "Şirvanda hansı daşı qalxızsan altında bir şair yatıb, hər kəsək bir şair məzarının başdaşıdır.

---

[1] Kamil bir palancı olarsa insan
Yaxşıdır yarımçıq papaqçılıqdan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğul, fikir vermişəm, görürəm ki, elmə həvəslisən, kəsb-kara yaxın düşmürsən, sən tinətdə[1] olan adamdan molla da çıxmaz. Bu yolun qulu ola bilməyəcəksən. Amma bil ki, qələm əhli həmişə zəlalətdədi. Nə qədər düz yazsan, bir o qədər üsrətdə olacaqsan. Zamanın böyüklərinə baş əyməsən, qəriblikdə dəfn olunmuş həmvətənlinin Xaqani kimi, Gəncənin qoca şeyxi Nizami kimi, Kərbəla xüddamı Füzuli rəhmətüllah təki həmişə ömrün əziyyətdə, əlin pulsuz keçəcək. Külfət yanında başıaşağı, xarü zəlil olacaqsan. Bu elə bir qədəmdi ki, iqdam etməkdən əvvəl gələcək günü düşünməlisən, bütün ömrün uzunu əzaba, nadanların tənə-tərizinə qatlaşmağı, İsa ruhullah kimi dirigözlü çarmıxa çəkilməyi, şəhidi-Kərbəla təki qurban getməyi qabaqcadan göz önünə almalısan. Sən buna dözəcəksənmi? Həqiqi şairin yollarına gül əkilmir, tikan bitir... Bir tağar buğda, bir dəyirmanlıq rizqdən ötəri ona-buna, ləyaqətsiz şəxslərə, layiq olmadıqları tərifi deməyəcəksən ki?.. Bir bax, Şirvanda o qədər dəyərsiz şair törəyib ki, hər bir savadlı baqqal özünə dəbdəbəli bir ləqəb seçib, təxəllüs götürüb, qurşanıb nəzm inşadına... Şirvanın hər bir bisavad baqqalı şairdi, – az qala məsəl yerinə keçib; amma bil ki, hər baqqal savadlı olmadığı təki, əsil şair də baqqal deyil, baqqal olmamalıdı. Şeri, Allah-taalanın Adəm övladına bəxş etdiyi bu ən gözəl neməti tərəziyə qoymamalıdı. Nəzm, istedadi-şeir böyük nemətdi. Kəlamullahi-məcid nəzmən inşad olunub, odu ki, tez dillər əzbəri olur. Peyğəmbər sələvatullah şerin, nəzmin bu gözəl xüsusiyyətini yaxşı dərk eləyibdi. Amma hər cızmaqara olunan da şeir deyil. Qərəz, oğul, istedadi-nəzmi, əgər o səndə zühur eləsə, peyda olsa, tərəzi malı eləmə!" Şair, babasının sözlərini indi də kəsməyə cürət etmir, xəfif bir təbəssümlə titrəyən dodaqları isə pıçıldayırdı:

Oldum ol gün ki, çardəh salə,
Düşmədim fikri-dövlətü malə,
Eylədim arifanə kəsbi-ülum...

Şair öz aləminə, xəyal ilə şeir aləminə qapılmışdı. Cavan şair nə biləydi ki, bir zaman babasının sözləri haqq çıxacaq, onun həyatı çox üsrətli keçəcək? O nədən biləydi ki, "Köpəyə ehsan", "Hədisi-vaiz", "Şamaxı bəylərinə həcv" yazacaq və özünə yüz-yüz düşmən qazanacaq, yeddi-səkkiz baş külfəti dolandırmaq üçün ruzi tapa bilməyəcək, dost-aşinalara "tərif dolu mənzum məktublar" da yazmağa məcbur olacaqdır? Odur ki, bu gələcəyi indi başqa gözlə görür və gülümsəyirdi...

[1] Xasiyyət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onunla yanaşı addımlayan Tərlan da öz aləmində idi, bu məhəbbət aləmi idi. Tərlan öz dostunun nə düşündüyü ilə maraqlanmır, duymurdu da. Onun gözləri qarşısında bir ceyran, bir sona cilvələnirdi. Qızın afətlər saçan gözləri Tərlanı harasa səmavi bir aləmə çağırır, rəqsan əlləri ona gəl-gəl eləyir, oynaq ayaqları isə qaçır, bu xoş, gözəl xəyalı Tərlandan uzaqlaşdırırdı. "Onu istəməyimə kim razı olar? Heç ata-anamı demirəm, budu ey, yanımda yeriyən dostuma da deyə bilmərəm ki, onu istəyirəm, onun üçün Məcnun kimi səhralara düşərəm, Fərhad kimi Bisütun çaparam, Vamiq kimi sulara baş vuraram... Amma adını dilimə gətirə bilmərəm... kimə desəm, ələ salıb gülər mənə... "Çəngidən arvad olar? – deyib dolayarlar. Heç kəsin ağlına da gəlməz ki, mən Sonadan ötrü diri-diri ölərəm, elə indinin özündə də yanıram, tüstüm təpəmdən çıxır, amma görən yoxdu, bilən yoxdu dərdimi... Yaxşıdı ki, yoxdu da... Ah, kaş ki, şair olaydım, ona bir qəzəl yazıb göndərəydim. Amma hayıf ki, nə qədər çalışıramsa bircə söz də qoşa bilmirəm..."

Birdən o xoş xəyallarının təsirilə dostuna müraciət elədi:

– Ağa, gəlsənə mənim üçün bir qəzəl yazasan...

– Necə yanı mənim üçün?

– Mən onu... – O duruxdu, qıpqırmızı kəsildi, sözünü davam etdirə bilmədi, qeyri-ixtiyari gəlib çıxdıqları Zoğalavay sahilindəki söyüd ağacına söykəndi. Şair də dayandı. İndi onun gözləri Tərlanda idi ki, o da Tərlan kimi gənc idi, bu sıx çatma qaşlar, onların altında daha da aydın ala görünən gözlərə diqqətlə baxdı, onlardakı yuxu xumarlığı Seyid Əzimi oyatdı. "Deyəsən, ürəyin kiminsə eşqilə vurur, ağa Tərlan, dostum, bəlkə səhv eləyirəm?

– Hə, sən onu... neyləyəcəksən? Aadə, oxuyacaqsan?

– Təkcə mənim üçün yaz, bir nəfərə göndərəcəm onu... ona...

– Kimə, bilmək olar?

Tərlan daha da qızardı, nəzərlərini dostundan gizlətməyə çalışıb uzaqlara baxdı, ona elə gəlirdi, şairin dərin-dərin nüfuzedici baxışları gözlərinə sancılsa sirrini bilər! Halbuki Tərlan onun, sevdiyi gözəlin adını ürəyində də çəkməyə qorxurdu, qorxurdu birdən çaşıb yuxuda dilinə gətirər, anası eşidər, atası – "qapaqlı" bilər, xəbər tutar...

Tərlanın halı şairdən yayınmadı, gülümsədi:

– Qorxma, dostum, bəyəm mən bilmirəm ki, bizim kişilər nə qədər aşiq olsalar da, sevdikləri sonanın adını dillərinə gətirməzlər (Tərlanın ürəyi qopdu, necə? Sona?), istədikləri yaşılbaşın, ceyranın ismini heç kəsin yanında çəkməzlər. (Tərlan bir az sakitləşdi). Di yaxşı, əcəb



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xeyir xəbərdi, deməк, inşallah, tezliklə toyunda kef eləyəcəyik, məndən də hədiyyə sənə bir qəzəl olar, neyləmək, "bərki-səbzəst hədiyyeyi-dərviş"[1].

Onlar indi artıq yerdə, çayın şırıltı ilə axan sahilindəki daşların üstündə oturmuşdular. Hər ikisi sərin bulaqlardan yığılıb gələn dumduru suda əl-üzünü yumuş, sərinləmişdi. Söhbət məhəbbətin böyük nemət olduğundan, lakin bunun indiki zamanda çoxlarına müyəssər olmadığından, gənclərin ata-ana rizası, yengə-xəlfə axtarışları, əqrəba məsləhətləri ilə evlənməsi və bunların törətdiyi ağır nəticələrdən gedirdi. Şair, dostunun qəlbindəkiləri bilmədiyindən, onu sevməsi ilə bəxtiyar sanır və deyirdi:

– Bilirsən, qardaş, xoşbəxtsən ki, sevdiyin gözəli tanıyırsan, görmüsən, yəqin ki, hal-əhvalına da bələdsən. Amma, mənim evlənmək yadıma düşəndə, canıma titrətmə düşür, qara-qorxu ürəyimə dolur, elə bilirəm ki, qara qızdırmaya tutulmuşam. Kimi alacaqlar, "alnıma kim yazılıb", nədi, nəçidi, hələ çirkin-gözəlliyi bir yana dursun, heç olmasa, bir adamlığı olacaqmı? Eh... nə deyim, bəyəm özün bilmirsən?

Şair bilmirdi ki, onun toy, səadət haqqında qeyri-ixtiyari dediyi hər bir kəlmə bədbəxt Tərlanın ürəyinə sancılır, "haradan bizdə o bəxt, kaş nəfəsin fal olaydı, cəddin köməyim olaydı, Ağa ..."

Şair isə sözünə davam edirdi:

– Nə başını ağrıdım, gün keçir, qalx gedək. Elə bu axşam sənə ürəyindən xəbər verən bir qəzəl yazmağa çalışaram. Yaxşı, daxı sımsığını neyşə sallamısan, aadə?.. Razıyam ki...

Onlar yola düzəldilər. Şair bayaqkı hisslərin təsirilə, dostunun çiynindən tutub irəlilədikcə deyirdi:

– Eh, dostum Tərlan, görəsən dünyada elə bir zaman olacaq ki, hər bir cavan özü öz taleyinin ağası olsun? Özü görsün, istəsin, alsın; balı da onun, bəlası da onun olsun. Daxı ortalıqda yengə-dəmə olmasın? Öz zövqüylə seçsin, tutmayanda da öz səhvinin, xətasının təqsirini özü çəksin, öz taleyinə özü cavabdeh olsun? Öz bəxtini, həyatını başqasının tələbinə görə deyil, öz məzağına[2] görə qursun? Bilirsənmi, mən biləni dünyada əsil insan azadlığı o zaman olacaq, əsil evlilik həyatı da o zaman qurulacaq. Mən o gələcəkdə belə taleli cavanlara indidən qibtə edir, salam göndərirəm.

---

[1] Dərvişin hədiyyəsi yaşıl yarpaqdır.

[2] Zövqünə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tərlan şairin bu atəşin nitqini heyran-heyran dinlədi və birdən qeyri-ixtiyari səsləndi:

– Əleykəssalam.

Hər ikisi qəh-qəh çəkib güldü.

...Axşam azanında Qalabazar məhəlləsinə girdilər. Azançı Kəlbə Mürvətin gözəl səslə çəkdiyi azan məhəllə möminlərini namaza çağırırdı. Əli qələmkar boğçalı, hamamdan qüsldən qayıdan təravətli bir qoca "axşamçağı" təki bir demədən "aşiq-məşuq" söz-söhbətilə gəzməkdən qayıdan cavanlara tərs-tərs baxıb evinə tərəf gedirdi: "La hövlə vəla qüvvətə illa billah..." Bu Seyid Əzimgilin ev qonşuları Məşədi Qənbər idi. O, demək olar ki, səhər dəstəmazını da, axşam dəstəmazını da hamamda alırdı...

...Səhərdi, gülgün, nazəndə bir səhərdi, təbiət günəşdən, firuzəyi göylərdən, yaşıl çəmənlərdən min bir rəng almışdı...

Seyid Əzim Zoğalavay sahilindəki söyüdlüyə enirdi, bu onların Tərlanla daimi görüş yeri idi. Şair burada bəzən saatlarla oturub dostu ilə söhbətləşər və çox vaxt təklikdə əyləşib düşünə-düşünə xəyala dalardı. Bu xəyallar suyun qəribə ahəngi, həzin şırıltıları altında bəzən bir nağıl, bir əfsanə qədər uzun və şirin olardı. Günlərlə əyləşdiyi, şirin xəyallara daldığı bu sahildə o, qarğı qələmini çıxarıb balaca qələmdandakı quru mürəkkəbi ağzının lığabıyla isladıb dizi üstünə qoymuş, ağ kağıza ilk qəzəllərini yazmışdı. Bu yerlər gənc şairdə ilham oyadan doğma Vətən timsalı kimi əziz və gözəldi. Bu yerlərdəki salxım söyüdlər, sərvlər qəribə bir təzadla bir-birinə qarışırdı. Söyüdlər bədbəxt qızlar kimi başını aşağı salmış, saçlarını sulara sərib yuyur, sanki gecə gördüyü yuxunu axan sulara nəql edirdi... Sərvlər isə Şirvanın adlı-sanlı cavanları kimi qürurla başlarını firuzəyi göylərə qaldırmışdı. Vətənin qız və oğulları yan-yana – biri başıaşağı, başıbəlalı, gözü yaşlı, pərakəndə saçlı, pərişan görkəmli – şair qəlbi kimi!.. Digəri uca, qəddqamətli, məstanə duruşlu, ox bədənli, sərvi-azad qədli... O çox vaxt çayın kənarında oturub düşünürdü: "Axır... çay həmin çaydı... Yüz min illər keçəcək, yenə də çay axacaq... Zərrələr həminki olmayacaq... Cəmiyyəti-insaniyyət də belədir... Əbədi həyat, əzəli həyat davam edəcək: insanlar, milyonlarla zihəyat gəlib-gedəcək, fəqət fərdlər həminkilər olmayacaq... Bu zərrələr kimi... Cəmiyyəti-insaniyyət də axan çaya, fərdlər isə ondakı zərrələrə bənzər..."

Şair indi də bu xəyalların təsiri ilə məlum söyüdün altında əski yerində oturdu. İndi, bir az sonra bəlkə Tərlan da hacının çəngindən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nicat tapıb gəldi... Bəlkə gəldi... "Ey böyük kainat, sənin qanunların, səndə cərəyan edən hadisələr necə də insanlara şamil edilə bilər".

Birdən şairi uzaqdakı bir qaraltı cəlb elədi. O, yerindən qalxdı, "bu kim ola?" Gənclərə məxsus hər bir şeyə yetiklik etmək xüsusiyyəti onun da varlığına hakim, ikinci xasiyyəti idi. Xüsusilə görünən qaraltı adi insanlar kimi oturub, yaxud da dayanıb durmamışdı. O, qarsı qayanın üstündə açıq bir yerdə idi. Qarşısında nə isə uca, çox uca rəhilə və ya lövhəyə bənzər bir şey vardı. Həmin qaraltı gah bu lövhəyə yanaşıb əli ilə, yaxud əlindəki nə iləsə onun üzərinə vurur, toxunur, nə isə edir və arabir geri çəkilib durur, gah ətrafa, gah da qarşısındakı payaya vurulmuş taxta lövhəyə baxırdı. İndi Seyid onu lap aydın görür, bütün hərəkətlərini izləyirdi. Geyim və görkəmindən də bu yerlərin adamına oxşamırdı.

Şair Tərlanı gözləyə bilməyib, yerindən aralandı və həmin şəxsə tərəf yollandı. O, çayın eninə iri qara daşlar qoyulmuş dayaz yolamından, daşdan-daşa addayaraq keçdi və qarşı sahilə çıxdı. Yaxınlaşdıqca həmin adamı tanıdı. Bu cənab Mahmud ağanın evində, onun ilk çıxışını dinləyən qonaq – "şəkil çəkən" adlandırdığı rus idi. Sonra Tərlan ona demişdi ki, "bu da xaricilərdə rəssamlığı sənət eləmiş adamlardandı, bizim xəttatlar kimi..." o zaman Seyid Əzim incə miniatür və zərif, əlvan ornamentlərlə bəzədilmiş Nizami "Xəmsə"sini, Füzuli Divanını, Xaqaninin "Mədain xərabələri"ni və "Həbsiyyə"sini, babasından ona yadigar qalmış müzəyyən Quranı xatırlamışdı. Bu əlyazmaları onun "Mütəvvəl", "Məsnəvi", "Nəhv", "Nəqli-həmdunə", "Rövzətüs-səfa", "Kənz", "Qamus", "Gülüstan", "Bustan", "Fiqh", "Layəhzər", "Tarixi-cahanara", "Şərhi-mütəvvəl" kimi kitabları sırasında ən yaxşı, qiymətli yerləri tuturdu, o bu kitabları dönə-dönə oxumağı sevirdi. İndi şair rəssama yanaşdıqca onu diqqətlə gözdən keçirir, heç bir hərəkətini nəzərdən qaçırmamağa çalışırdı.

"Cənab Mahmud ağa, onu knyaz adlandırdı. Knyaz Qaqarin... Görəsən knyaz onun adıdı? Təkcə adını demək ayıb deyil ki? Görəsən onlarda tanımadığın yad adamı, o qədər də sənə yaxın olmayan adamı necə çağırır, necə səsləyirlər?.. Görəsən cənab knyaz desəm incimez ki, bizim dili bilirmi, necə anlaşarıq? Mənimlə danışmaq istərmi?"

Cavan şair rəssama yaxınlaşdı. Knyaz onu hələ görmürdü, birdən arxadan gələn hənirtiyə tərəf döndü, nazik ağbəniz üzünə xəfif bir təbəssüm qondu. Seyid Əzim də gülümsədi. Gənclərin arasında keçən bu ilk təbəssüm mübadiləsi onların qəlb qapılarını bir-birinin üzünə açdı. Rəssam düşünürdü: "Ha... Bu cənab Mahmud bəyin mənzilində



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

improvizasiya yolu ilə şeir söyləyən, ekspromt ilə şeir deyən cavan şairdir. Hayif ki, dilini bilmirəm. Mehriban cavana oxşayır". Hər ikisi qızarmışdı, heç biri sözü nədən başlayacağını, necə anlaşacağını bilmirdi. Seyid Əzim rəssamın geyimini diqqətlə gözdən keçirirdi: indi onun əynində qonaqlıqda gördüyü libas yox idi, onun çiynində bir növ əbanı andıran qara bürüncək var idi, uzun saçlı, başı açıqdı, sarışın qıvırcıq saçları az qala çiyinlərinə dağılırdı, dağ havasının xəfif mehindən bu ipək kimi zərif tellər oynayır, onun üzünə qəribə, xoş bir yaraşıq verirdi.

Bundan sonra şair yetiklik elədi, o ömründə şəkil çəkilməsini görməmişdi. Xəttat Nəcəfqulu Məktəbinin dizi dibində çox oturmuş, sünbüli, reyhani, nəsx, şikəstə, süls xətlərindən dərs almışdı: arabir ornamentlərlə Quran, divan bəzəyənləri də görmüşdü. Əlyazmalarını şirazələyən Hacı Qafur Əfəndinin də işini müşahidə etmişdi, amma rəssam görməmişdi, onun bir gözü hələ adını bilmədiyi lövhədə – molbertdə idi. Rəssam bunu anladı, axı Şərqin bu ağır bəlasından xəbərdar idi: islam dini şəkil çəkməyi, insanı təsvir etməyi qadağan edir, o bunu eşitmişdi, bilirdi. Odur ki, gənc şairin marağı onun üçün dilsiz də olsa aydın idi. O bitməmiş əsəri tamaşaçıya göstərməyi sevməsə də, əlindəki fırça və rəngləri yaxında göy ot üzərinə sərdiyi xalçanın üstünə qoyub, gənc şairə yanaşdı, onun əlindən tutdu və dərhal buraxdı, "vay, mən nə etdim, axı mənə demişdilər ki, özləri əl verməsələr, heç kimə toxunma, onlar kafir təmasını murdar hesab edir, birdən inciyər". Lakin şair bu dəfə özü onun əlindən tutdu, molbertə yaxınlaşdılar... Seyid Əzim maraqla lövhəyə çəkilmiş rəsmi seyr etməyə başladı. Bu onun Mahmud ağa məclisində gördüyü qaraçı qızlarının təsviri idi... "İlahi, sən ona nə böyük istedad vermisən, bir işə bax... Gör bir qızları necə də oxşadıb, elə bil lap özləridir, bir almadı yarı bölünüb... Hələ Sona... elə bil belinə vurduğu əllərini indicə yuxarı qaldıracaq, göyərçin kimi qanad çalacaq... Ecazına şükür, Xudaya!"

O, barmağını rəsmə toxundurmadan işarə ilə qızları göstərib bir-bir adlarını deməyə başladı. "İzzət... Qəndi... Sona..." Rəssamın üzünə xoş bir təbəssüm yayıldı. "Tanıdı, bəyəndi, deməli zəhmətim hədər getməyib, düz tuta bilmişəm". O gülümsəyib, şairin əlindən tutub bərk sıxdı:

– Nu kak, xoroşo?

"Xoroşo" sözünü bazara gələn malakanlardan bütün Şirvan əhli yaxşı bilirdi. Qalan sözləri başa düşməsə də cavan şair, gənc rəssamın səsinin ahəngindən və "xoroşo" sözündən rəssamın nə demək istədiyini, nə soruşduğunu anladı. O, qızardısa da, tez-tələsik, böyük bir



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vəcd və həvəslə rəssamın ovcundakı əlini sıxdı: "Xoroşi, çox xoroşi, lap xoroşi". Bu üç "xoroşi" rəssamın ürəyinə işlədi, ona ən yüksək qiymət, ən yaxşı tənqidi qeyd kimi təsir bağışladı: "Bu hələ tam tablo, bitmiş əsər deyil, sadə bir etüddür, əgər o, burada öz vətəninin nazəndə qızlarını tanıyıb qiymətləndirə bildisə, mən doğrudan da bəxtiyaram, mən bu əsər üzərində mütləq işləməliyəm" sözləri xəyalından keçdi. "Təəssüf ki, mən sənin dilini bilmirəm, möhtərəm şair, əgər bilsəydim, əgər sənin öz əksini də çəkə bilsəydim, buna sənin və ya həmvətənlərindən lazım bildiklərimin birini razı sala bilsəydim, nə gözəl olardı".

Gənc şair qarşısında bütün gözəlliyi və insani coşqunluğu ilə canlanan qızların rəsmlərini gözdən keçirir və düşünürdü: "Ya rəbbi, bəs nə üçün bizə rəsm etmək, insan surətini canlandırmaq qədəğən olub, neyşə bizim mollalar deyir ki, guya sən, ey böyük xaliq, çəkilən hər bir rəsm üçün o haqq dünyada çəkən rəssamdan can istəyəcək, çəkdiyi surəti canlandırmağı tələb edəcəksən? Bizim elə cənab Məktəbinin ixtiyarı olsaydı, gör-götür dünyasıdı, oxuyub öyrənsəydi, yəqin ki, o da belə gözəl xarüqələr yarada bilərdi. Kəreminə şükür, Xudaya, nə üçün bizim bədbəxt müsəlmana bütün dünyanın ən gözəl nemətləri qədəğən olunub. Şəkil çəkmək, musiqi çalmaq, şeir demək, qərəz insanın dimağına səfa verə bilən nə varsa, hamısı biz müsəlmana o biri dünyada vəd olunur, bu dünyada isə, əzab, yalnız əzab... Hələ bir üstəlik Allah ən çox istədiyi bəndəsini əzab içində saxlayır, onu əzabla imtahana çəkir ki, sidqinə inansın deyirlər... Bu ki ədalət olmadı... nə isə, əstəğfürullah... və əlhökmilillah... Mütləq bu barədə ağa *Tərlan* ilə də danışmalıyam", – deyə dostunun gülümsər simasını xəyalından keçirtdi. Şair və rəssam bir-birinin üzünə baxır, hər ikisi gənc qəlblərinin gözü ilə bir-birini seyr edir, ilham dililə bir-birilə söhbətləşirdilər. Birdən hər ikisi gözlərini molbertdən ayırıb, Şirvanın bu qəribə guşəsini sükunət içində seyr etməyə başladılar. Qulaqlarında Zoğalavayın həzin şırıltısı səslənir, sanki deyirdi: "Yaradıcı insanlar, siz ki fitrətən qardaşsınız, siz ki hər ikiniz təbiətin bu rəna guşəsini eyni bir məftunluqla seyr edir, mənim əzəli nəğmələrimi eyni bir həyəcanla dinləyirsiniz..." Əgər bir-birinin dilini anlasaydılar, mütləq yek-digərinə belə deyər, hər an başqa bir rəng alan dağların, dərələrin, ağacların, çəmən və çiçəklərin sehrkar gözəlliyindən danışardılar.

Biz ki onlara kömək edə bilməyəcəyik. Bax, budur, o gələn Tərlan da bu yerlərin səfasını bir aşiq, bir Məcnun məftunluğu ilə duyursa da, o da rəssama bir söz deyə, öz duyğularından bir şey anlada bilməyəcəkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxında dilmanc da yox idi, mütərcim də... Mahmud ağa günorta yeməyindən əvvəl öz otağında kamanda inləyən Bayatı-şirazın həzin laylaları, nalələri altında xoş bir yuxuya getmişdi. O, bir az sonra tarın çaldığı şur sədaları ilə yuxudan oyanacaq, günorta yeməyinin hazır olduğunu bilib, qonaqları mey, məzə, rəqs, musiqi və şeir məclisinə dəvət edəcək idi...

Gəlin biz də heç bir şeylə kömək edə bilməyəcəyimiz cavanları ilk insanın dili ilə anlaşmaqda qoyub yolumuzu dəyişək... Başqa bir məkana, bizi maraqlandıran başqa insanların yanına gedək, görək onların taleyi nə yerdə qaldı...

Orda bizi bir dəstə qız, ana torpağın yetirdiyi çiçəklər qədər incə, rayihədar bir qız dəstəsi gözləyir...

## GÖRÜŞ YERİ

Qızlar bu gün paltarlarını yumaq, yuyunub arınmaq üçün özlərini çayın adam ayağından uzaq bir guşəsinə vermişdilər. Buralarda gediş-gəliş yox, gicolar isə dərin idi. Səhər gün istisi qalxmamış, Ədil onları bura gətirmiş, əmin-aman yer olduğuna arxayınlaşıb, onlardan aralanmış, yaxındakı meşəliyin kölgəliyinə çəkilib palaz saldırmış, uzanıb yatmışdı... Qızlar deyə-gülə paltar yuyurdular. Sona, İzzət, Qəndi çaydakı iri çopur daşları kənara çəkib, paltarları bu daşların üstündə yuyurdular. Ağ gilabı suda islandıqca paltarların üstünə yayılır, köpüklənirdi; qızlar yaş paltarları çəngələyir, daşa çırpır, ovxalayır, sonra da çayın göz yaşı kimi duru suyunda yaxalayıb, sahildən aralı kolların üstünə sərirdilər. Sona əlindəki iri mələfəni yuduqca gözləri yol çəkirdi. Qəndi ona sataşdı:

– Hə, nə əlində paltar dondun aaz... Gözün yol çəkir, deyəsən...

– Hə, gözüm yol çəkir...

– Səfərdən gələnin var?

Sonanın səsi titrədi:

– Kimim olacaq ki, sən bilməyəsən, a çoxbilmiş...

Qəndinin qələmiqaşları quş qanadı kimi qalxdı, elə bil körpə quş uçacaqdı, birdən dayandı... İncə dodaqlarındakı xəfif təbəssüm qəhqəhəyə çevrildi:

– Hardan çoxbilmiş oldum? Hansını bilsəm də, sənin bircə sirrini bilmədim ki, bilmədim...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mənim sirrimi?

Qəndi kəlağayısını suya çəkməklə məşğul olduğu halda, onlardan göz çəkməyən İzzətə göz vurdu:

– Bəs kimin?

– Mənim heç bir sirrim-zadım yoxdu... Necə deyiblər?

Pirdirəki pirivüz,
Mən də sizin birivüz.

– Elə var!.. Elə bilirsən bilmirik ki, axır vaxtlar kimin üçün oynayırsan, kimin üçün ah-uf eləyirsən? Keçən üzük falında kimin üçün üzük salmışdın suya, a faqqı?!

– Sən Allah bəsdi...

Qəndi süzgün gözlərini bir az da süzdü. Sonaya sanki məhəl qoymadan söhbətə başladı:

– Bilirsən, İzzət, iki adama gümanım gedir, amma hansıdı bilmirəm...

Hamısından kiçik olmasına baxmayaraq, Sonaya daha çox yaxın olan Nisənin üzündə həyəcan duyuldu, elə bil ki, dostunun sirrinin açılmasını istəmirdi, amma gizləyə də bilmirdi. Sonaya yaxınlığını göstərmək arzusu bu hissə qalib gəldi, uşaq sadəlövhlüyü ilə gülümsünüb dilləndi:

– Amma mən bilirəm, bi-li-rəm...

Sonanın qaşları çatıldı, qara gözlərindəki şəfqətlə Nisəyə baxdı, qıza acıqlana bilmədi:

– Sən heççə şey bilmirsən, Nisə, gəl bu ağı apar sər.

Nisənin dolğun dodaqlarındakı təbəssüm dərhal soldu, o dostunun səsindəki kədəri duymuşdu, dostu ondan narazı idi. Qız yaş balaqlarından su süzülə-süzülə yerindən qalxdı, yumaqda olduğu balaca köynəyi çəngələyib xışmaladı, yumurlayıb onun üçün çanağı əvəz edən daşın üstünə qoydu, ürkək addımlarla sevimli müəlliməsinə yanaşdı. Sona sıxılmış mələfəni Nisəyə verəndə gəlinin gözlərində elə bir dərd, elə bir ələm var idi ki, bu gənc qızın nəzərlərindən qaçmadı, ağır daş kimi qəlbinə çökdü. Qız təəssüfləndi. Hələ heç bir şey deməsə də, sirri vermiş kimi, cinayət üstə tutulmuş uşaq təki dodaqları büzüldü, az qala ağlayacaqdı. Onun bu halı Sonaya bərk təsir elədi, şəfqətlə şagirdinə baxıb yavaşca dedi:

– Di yaxşı, amma bundan sonra böyük danışanda sən sus...

– Yaxşı... – qız burulu mələfəni alıb açdı, çırpdı, qırışlarını düzəldə-düzəldə qaramığ kollarının üstünə sərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İzzətlə Qəndi isə əl çəkmirdilər; xüsusilə Qəndi bərk maraqlanmışdı:

– Aha, torbada pişik varmış ki... bizim xəbərimiz yox... Sən Allah, Nisə, sən mənim canım, de görək bildiyin nədi?

İzzət də ona qoşuldu:

– Ayıb deyil, Nisə, bizdən neyşə gizləyirsən? Bu gün də olmasa sabah biləcəyik... bizim ki, bir-birimizdən gizlinimiz yoxdu...

Qız duruxub durmuşdu, amma artıq tərəddüd etmirdi, duruxması da özünü yamanca yerdə ələ verməsinə, ağzından lazım olmayan söz qaçırmasına görə idi. İndi daha onu öldürsəydin də bildiyini heç kəsə deməzdi. Təkcə pərt olmuşdu ki: "Niyə mən böyüklərin sözünə qarışdım?" Sona harayına gəlməsəydi, Qəndi ilə İzzət ondan əl çəkməyəcəkdilər:

– Di yaxşı, bəsdi, əl çəkin uşaqdan... Axı o nə bilir, nə desin sizə... Paltarınızı yuyun, gün suyu qızdırıb, nə qədər adam-zad yoxdu, çimək...

– Aralığa söz qatma, niyə bizdən gizləyirsən?..

– Dedim ki, heç bir şey gizlətmirəm...

Sona paltar yumağı bitirib durdu:

– Nisə, gəl başıma su tök...

Nisə hələ də pərtliyin təsiri ilə aram-aram yerindən qalxdı, qazançada gün altına qoyulmuş suyu yaxına çəkdi. Sona qara, parlaq hörüklərini açdı, mis piyalənin içinə iki yumurta çırpdı, bir az su əlavə edib çaldı, sonra başına töküb saçlarını yumağa başladı. Sonanın tələbi ilə Nisə, arabir mis piyalə ilə qazançadan ılıq su alıb onun başına töküdrdü.

Sona saçlarını yuyub tağ ayırdı, narın dişli taxta daraqla daramağa başladı. Onun üzündən, çənəsindən, saçlarından və dirsəyəcən çılpaq qollarından təmiz su süzülürdü. Tərdən təmizlənmiş, sudan sərinlənmiş başında bir yüngüllük duydu. O hər iki tərəfdən saçlarını hörüb ayağa qalxdı, indi hörükləri onun dizlərinəcən enirdi. Sona bu uzun hörükləri bir neçə dəfə başının ətrafına doladı, uclarını gətirib əmgəyinin üstündə düyünlədi, ağ güllü al sərqətfə ilə başını bağladı. İndi artıq gülümsəyirdi, elə bil ki, bir az əvvəlki kədər də üzündən su ilə yuyulub getmiş, qara fəttan gözlərinə, qızarmış yanaqlarına, nəm dodaqlarına qızılgül təzəliyi, tərliyi gətirmişdi:

– Qızlar, gəlin çimək...

Sona üst paltarlarını soyundu. Köynəyini və islaq dizliyini çıxarıb daşın üstünə atdı, bircə uzun, ərəbi donu xatırladan, nazik gecə köynəyində qaldı. Cəld cumub özünü giconun ən dərin yerinə saldı, tez-tez qol ataraq üzməyə başladı. Qızlar da gülüşərək ona qoşuldular. İndi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

giconun sakit suyu, lal axarı pozulmuşdu, dörd sona üzür, dörd pəri qol atırdı. Dumduru su köpüklənir, sıçrayıb ətrafa zərrələr kimi dağılır, qızların qaqqıltısından, suyun şappıltısından başqa heç bir şey eşidilmirdi. Qızlar aləmi unutmuşdular. Ətrafda heç kəsin olmadığına arxayındılar. Amma qızlar tək deyildi. Bayaqdan bəri qarşı sahildə onları iki göz izləyirdi. Bu gözlərin kimə məxsus olduğunu bilmək üçün gəlin çayın o biri tayına keçək.

...Tərlanın onları görməsi heç də təsadüfi deyildi. Bir neçə vaxtdan bəri Tərlan münasib an gözləyir, çoxdan bəri mütrüf Ədilin evini güdürdü. Məhəbbət Tərlanı həlak eləyirdi. Tərlan bu böyük aləmdə özünə yer tapa bilmirdi. Hər axşam Mahmud ağanın otağında Sonanın rəqslərinə tamaşa eləmək artıq gəncə bəs eləmirdi. O sevdiyi qızı təklikdə görmək, səsini eşitmək, sözlərini dinləmək, dərd-sərini söyləmək, nəfəsini duymaq istəyirdi. Bu arzu hava kimi, su kimi, çörək kimi, ana nəvazişi kimi çox, olduqca çox böyük bir zərurətə çevrilmişdi. Bu arzu Tərlanın körpə ürəyini qarsalayıb qovurur, yandırıb yaxırdı. O nə dostlarının nəsihətlərini, nə da ata-anasının hədələrini eşidəcək halda deyildi... Bu hiss Tərlanın gücü çatmayan azman bir qüvvətə çevrilmişdi, bir ahənrüba olmuşdu, çəkib aparırdı onu, hara? Özü də bilmirdi... Tək bir təsəllisi var idisə bu da ağanın qəzəllərini oxuyub məhəbbətin sehrini dinlədiyi anlarda olurdu... O gah çəngi dəstəsilə qarabaqara toya gedir, gah onların ardınca dabanbasma Mahmud ağanın otağına gəlir, gah qızların axşam azanından, əl-ayaq yığışandan sonra gedə bildikləri qəriblər hamamına ötürür, gah da Şamaxıdan qırağa – başqa mahallara gedən fırqonlarının dalınca atını səyridirdi. Bəzən o qızların qab-qacaq yuduğu və ya su doldurduğu arxın baş tərəfini kəsdirib oturur, mövsümünə görə müxtəlif meyvələr, alça, gilas, alma, armud, əzgil alıb suya buraxırdı, bəlkə Sona da meyvələrdən birini tutub yedi! Amma, yox, uzaqdan-uzağa göz qoyub görürdü ki, Nisə, Qəndi, İzzət, Məleykə və başqa qızlar həmin meyvələri tutub gülə-gülə yeyirdilər.

– Görəsən hansı bəxtəvərçün axıdırlar?

– Aaz, Sona, sən də ağzını şirinlət!

– Ay təzə meyvəni suya axıdan oğlan, neçə belə nübarlara çıxasan, ha-ha-ha. Allah səni istəklüvə yetirsin.

Tərlan nə bileydi ki, Sona bu meyvələri yeməkdən ötrü ölür, amma "bəlkə cadulanıb" deyə yemir, yemək istəyir – çünki sevdiynin əlləri dəyib onlara, əl vurmaq, toxunmaq istəyir – çünki bilir, bu meyvələri onun üçün, onun adına alıblar, onun məhəbbətilə sulara axıdıblar; amma



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yemir – qorxur ki, bu cadular onu yoldan çıxarar, onun dəyanətini qırar və o, Tərlanı qoruya, səhv addımdan, xətalardan saxlaya bilməz. Tərlanı daha da eşq divanəsi eləyər, xata-bəlayə salar. Dilə-ağıza düşər Tərlan, daş-qalaq elərlər Tərlanı. İrağ-irağ "çəngiyə vurulub, çəngiyə qoşulub", deyərlər Tərlana... Sevdiyinin bədbəxtçiliyinə səbəb olar.

Qız qəlbindən bu əziz adı dönəm-dönəm keçirsə də, dodaqlarına gətirməkdən çəkinirdi.

Tərlana elə gəlirdi ki, onu görüb, məqsədinə yetiklik eləyən yoxdur... amma görən də, yetiklik eləyən də var idi... Cidanı çuvalda gizlətmək olmaz, yanan yerdən tüstü çıxar, göz acışdırar... Oda, alova, çevrilər.

Bu gün, deyəsən, güdükçülərdən heç birisi həndəvərdə yox idi, olsaydı da, Tərlanın bundan xəbəri olmayacaqdı. Gəlin biz də nəticəsiz, qorxulu bir məhəbbətin odunda yanan Tərlana baxaq, biz də qara ürəkliləri unudaq, qorxu-hürkü bilmədən, həyatı haqqında düşünmədən, od ilə oynayan, böyük eşqinin dalınca qəlbinin çağırışına cavab verib bayaqdan bəri bu həndəvərdə özünə dalda yer tapan Tərlana tamaşa eləyək.

Tərlan dünyanı unutmuşdu, dedim – haqdı... O parlaq, bircə bulud da görünməyən firuzəyi fəza altındakı dörd qızdan tək birini – Sonanı görürdü. Onun qulaqlarında gah Ağanın qəzəlləri, gah Nəcəfqulunun tarı, gah Qəndi xanımın çırtmaları, İzzətin dəfi səslənirdi. Sona isə rəqs edir, gah da qüssəli-qüssəli oturub baxırdı... Arabir o özünə çox aşina olan bu xəyalları qovur, indiyə qayıdır, Sonanı onun üçün qeyri-adi olan vəziyyətdə, gah paltar yuyan, gah sərən, gah başını darayan görürdü... Qəribə idi, Sonanın bugünkü vəziyyəti Tərlan üçün doğrudan da adəti deyil, qeyri-adi idi... O, Sonanı beləcə sadə geyimdə, daşa yaş tuman-köynək çırpan təsəvvür eləmir, gördüklərinə inana bilmir, sevgilisinin adi işləri bilməsinə fərəhlənir, təəccüb qarışıq bir sevinc duyurdu. "Sən beləymişsən, Sona, sən beləymişsən..." Adi həyat! Sona burada tamamilə başqa idi. O daha gözəl, daha təbii görünürdü... Yad baxışlardan ürkən bir ceyran kimi deyil, ana kimi, bacı kimi... Adi qadınlar kimi... "Sən beləymişsən, Sona" sözlərindən başqa ürəyinə bircə mehriban söz, bircə nəvazişli kəlmə gəlmirdi. Sanki gəncin bir dərya məhəbbəti, çocuq heyrəti qarışmış, bircə cümlədə toplanmışdı: "Sən beləymişsən, Sona, beləymişsən"... O fərəh və sevinclə qıza tamaşa edir, səsini, nə deyib, nə danışdığını eşitmək istəyirdi. Amma yerinin bilinəcəyindən ehtiyat edib, tərpənmir, qızın yalnız gülümsəməsini, dodaqlarının açılıb-örtülməsini görür, sözlərini isə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

eşidə bilmirdi... Birdən o, Sonanın qalxdığını, başını sərqətfə ilə bağladığını gördü; "kaş o daraq olaydım, tellərinə toxunaydım... kaş o sərqətfə olaydım, başına dolanaydım", – deyə düşündü. Sonanın yaxasına əl atdığını gördükdə, qızın nə dediyini anlamasa da fərqinə vardı: qız çimmək istəyir... İndicə o, sevdiyi gözəli çılpaq görəcək... Həya təri gəncin pozulmamış vücudunu basdı, dayana bilmədi, baxa bilmədi, ağacların sıx yerinə çəkildi: "Yox, yox, bu günahdı, o bilmir, bilsə bağrı çatlamazmı? Mən özüm də bu qələti eləyə bilmərəm. Suda çimənə baxmaq ayıbdı, xəcalətdən özüm də ölləm, baxa bilmərəm... Naməhrəməm axı... başqasının belə elədiyini eşitsəm, binamus deyərəm..."

O indi qızların suyu şappıldatmalarını aydın eşidirdi. Kolların arasında yeri rahat olmasa da, qaramığ tikanları əllərini, paltarını, üzünü cızsa da, tərpənmədən uzanıb, aydın qəlbi kimi təmiz, buludsuz göylərə baxır və sevgilisini xəyalında canlandırırdı: Sona ayaq üstündə durub, qarğı saçlarını taxta daraqla darayır, çılpaq biləklərindən su süzülür... Bu adi görünüş nə qədər xoş, doğma və gözəl idi... təzə idi. Burada heç bir dəbdəbə, yad gözlər yox idi... Səslər kəsildi... Tərlan sürünə-sürən sahilə, əvvəlki yerinə qayıtdı. Qızlar artıq geyinmişdilər. Onlar kollara və çaylaq daşlarına sərdikləri paltarları evir-çevir eləyir, quruyanlarını yığıb hamarlayır, qatlayıb iri köhnə qaxanın üstünə qoyurdular... O, Sonanın səsini birinci dəfə çox aydın eşitdi:

– Qızlar, bəsdi, qoy qalanları qurusun, sonra yığarıq. Gedək görək Ədil ağa yatıb doyubsa, bir az çörəkdən-zaddan yeyək...

Onlar sahildən ayrılıb meşəliyə doğru yollandılar. Qızlar getdi... Sahildə mis qazança, piyalə və alanəm paltarlar qaldı. Amma Tərlanın xəyalından bir az əvvəlki səhnə hələ də çəkilmirdi.

"Mən bu gün onu görməliyəm. Hökmən görməliyəm, necə olursa olsun görməliyəm onu, mən ona deməliyəm, mən ona deməliyəm, necə olursa olsun mən ona deməliyəm". Amma nə, necə, bilmirdi!

Taleyi Tərlanın köməyinə gəldi, bir az sonra qızlardan bəzisi yemək yeyib xalçanın üstünə uzandı və kölgəlikdə dincəlməyə qərar verdi. Sona isə balaca Nisə ilə birlikdə meşəlikdə zoğal yığmağa başladı... Elə bu zaman Tərlan dözməyib onların qarşısına çıxdı:

– Salam!..

Sonadan çox Nisə diksindi, qorxu ilə ətrafı, gəldikləri cığırla gerini gözdən keçirtdi. Heç kəs yox idi. O diribaşlıq elədi, daxili bir hissin, özü də anlamadığı bir hissin əmrilə gəncləri tək qoyub onlardan aralandı, qarşıdakı zoğal ağacından ala-dəymiş meyvələri yığmağa başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üz-üzə qaldılar. Göz-gözə qaldılar. Birinci dəfə idi ki, belə bir səadət əllərinə düşürdü. Amma ikisi də bu səadəti gözləyirdi, ikisi də bunun gec-tez baş verəcəyini duyurdu. Sona taqəti kəsilmiş kimi quru ot basmış kəsəklərin üstünə oturdu. Tərlan da onun yanında yerə çökdü. Danışa bilmirdilər, söz tapmırdılar. Sükut xeyli sürdü, qəfəsə düşmüş iki quş ürəyi çırpınırdı, dilləri elə bil ki, bağlanmışdı, bağlı dillər əvəzinə iki cüt göz danışırdı. Bu gözlərdə elə dərin bir məlal, elə yanıqlı bir həsrət var idi ki, sözə ehtiyac duyulmurdu. Ürəklər, çırpınan ürəklər danışırdı...

Sona Tərlanın qızılı bafta ilə həşyələnmiş çuxaya qütəvvər olmuş mütənasib əndamını, qara çatma qaşlarını, iri, ala gözlərini, təzəcə tük gəlmiş yetkin qaysı kimi şəfəqli, allaşmış üzünü doymaq bilməyən acgözlüklə seyr edirdi: "Hələ sən lap uşaqsan, ağa Tərlan, necə də qorxmursan! Yoxsa çəngi həvəsi ürəyindəki qorxuya üstün gəlib? Amma gözlərin yalan demir, ürəyinin aynasıdı o ala gözlərin! Qara çatma qaşların altında bu gözlər nə gözəldi, ilahi nə doğruçudu! Amma çifayda, mənə onlardan heç nə nəsib-qismət deyil, ilahi! Mən bu gözləri öpə də bilmərəm, ixtiyarım da yoxdu! Amma ürəyim elə əsir ki... Bircə dəfə, tək bircə dəfə bu gözlərə toxuna bilsəm, ölmərəm! Dodaqlarım da titrəyir, ilahi! Əgər mənim də gözlərim arzularımın aynasıdırsa, evim yaxşıca yıxıldı. O mənim ürəyimdən keçənləri duya bilər, mənə nifrət elər! Bir də o çəngidən bundan başqa nə gözləyə bilər? Hamının nəzərində həyasız, kişilər qabağında oynayan çəngidən. Yüz-yüz gözdən ötmüş çəngidən".

Getdikcə, xəyalı dəyişdikcə, fikrini qara-qura düşüncələr çulğaladıqca Sonanın rəngi qaralır, üzü tutulur, qaşları çatılırdı... Görüşün ilk dəqiqələrində Sonanın üzündəki heyranlığı, sevinci görüb fərəhlənən Tərlan, ondakı bu təbəddülatı duyduqca heyrətlənirdi: "Görəsən ona nə oldu, niyə tutuldu! Amma əvvəl sevindi, vallah, sevindi! İndi gör necə də acıqlı baxır? Acıq da sənə yaraşır, Sona, qəzəb də. Nazik qara qaşların çatıldıqca, gözlərin qəzəb saçdıqca ürəyimə oxlar batsa da, gözəlsən! Vallah, hüsnünün tayı-bərabəri yoxdu... Yəqin qorxursan, Sona. Qorxma! Mən səni yağı caynağına vermərəm. Bir can, bir baş nədi ki, dost yolunda, istəkli yolunda qurban verməyəsən?"

Birdən o qızın danışdığını eşitdi, daha doğrusu dodaqlarının, xırda ağzının açılıb-yumulduğunu gördü. Hələ sözləri eşidə bilmədən, qəribədir, qızın danışdığını duydu. "Mən sənin səsinin həsrətində idim,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

canım-ciyərim! Olmaya yanına gələndə Allah qulaqlarımı kar elədi, mənə cəza verdi ki, sənin səsini eşitməyim".

– ...Necə qorxmadın, ağa Tərlan, özünü işə salarsan axı.

– Niyə, Sona?

O nə dediyini, nə danışdığını bilmir, Sonanın səsindəki musiqinin ahənginə heyran-heyran qulaq asırdı, mənasındansa səsdəki gözəlliyi dinləyirdi.

– Necə niyə? Hacı ağa xəbər tutsa, dərimizə saman təpdirər.

– Qoy olsun, mən sənsiz ömrü neynirəm, Sona! Mən bircə gün başımı o dizlərinin üstünə qoyum, sonra əzrayıl gəlsin, "buyur, al canımı" deyim, "arzuma çatmışam..."

Gəncin coşqun bir sadəlövhlüklə söylədiyi sözlər Sonaya ilk qəzəbini bir anlığa unutdurdu, qız gözlərini yerə dikdi, indi o, Tərlanın səsini hayıl-mayıl dinləyirdi. Bunlar onun ömründə çox eşitdiyi bayağı istəklər, "məhəbbətlər" deyil, ürəkdən gələn çılğınlıq, həyəcan, əsil ehtiras dolu sözlər idi. Əfsun var idi onlarda! Elə bir cazibə var idi ki! Sona toylarda məclislərdə bəy və ağalardan eşitdiyi tələblərlə bunları heç tutuşdura, yaxın qoya da bilmirdi. Ürək yanğısı ilə deyilən bu ecazkar sözlər hara, bir anlıq arzu üçün söylənən o şit, söyüşdən murdar sözlər hara!.. Sona Tərlanı dinləyirdi!

Tərlan, qızın sakitləşməyə başladığını görüncə ürəyində çoxdan bəri qövr edən və xəyallarını, çəkdiyi nəqşələri[1], yaratdığı gözəl bir aləmi açıb tökürdü. O, deyirdi ki, "gəl səni götürüb uzaqlara qaçım, karvanlardan birinə qoşulub uzaq ellərə gedək, Allah kərimdi, başımızı birtəhər dolandırar, bir yana çıxarıq. Bir şəhərdə, ya kənddə özümüzə yurd-yuva qururuq, birlikdə yaşarıq..." Bu uşaqca nağıllar qıza əlçatmaz xəyal kimi uzaq, yuxu kimi şirin gəlirdi. Bəli, çəngi Sonanın da öz evi, təmiz-pak bir həyatı, öz əri, uşaqları ola bilər, hər görən "çəngi köpəyin qızı" deyib yan keçməz, düşmənini bu adla söyməz, uşaqları bu adla qorxutmaz. Ona heç kəs həqarətlə baxmaz... Lakin bu nisyə xəyalların əsil həyatla heç bir əlaqəsi yox idi... Tərlandan daha təcrübəli olan Sona bunları yaxşı bilirdi, o bilirdi ki, divan-dərə də, sarvan-karvan da, kənd-kəsək də Hacı Əsədin, "qapaqlı"nın əlində, tərəfindədi. Heç üç gün keçməz ki, Şirvandan çıxan dörd karvan yoluna dörd çapar çıxar. Birinci mənzilə çatmamış onları haqlar, Sonanı tikə-tikə doğrar, bu cəhənnəmə, Sona özü üçün qorxmurdu, nə olsun ki,

[1] Plan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əgər o bilsəydi ki, bir onun ölümü ilə Tərlan bütün bəlalardan xilas olar, düşünmədən ölümü qəbul edərdi. Onu qorxudan şey təkcə, sevdiyinin, Tərlanın rüsvay ola biləcəyi idi!.. O özünü düşünmürdü... Ona nə olacaqdı ki... Amma Tərlan, aman Allah, Qapaqlı onun başına nələr gətirə bilər?!. Tərlanı at döşünə qatıb Qapaqlının qulluğuna qaytararlar. Zornan, istəmədiyinə evləndirər, Tərlanın dilini də, yolunu da kəsər Qapaqlı!.. Sona özünü düşünmürdü. O razı olmazdı ki, sevdiyi gənc çəngi ilə qoşulub getsin... Tay-tuş, el-camaat arasında xəcil olsun... O sevirdi, onu dərin bir məhəbbətlə sevirdi... Başqaları ona salam vermək istəmədiyi halda, Tərlan onu özünə arvad, şərən halal etmək, ana görmək istəyirdi, bütün bunlar onun yuxuda belə görə bilməyəcəyi səadət idi. Amma ürəyi elə hey vird edirdi: "Yox, yox, razı olmaram ki, xəcil olsun, çəngiyə qoşulub getsin..." Bu sözü elə bir etiqad və inamla təkrarlayırdı ki, sanki bu "çəngi" onun özü deyil, qatı-qanlı bir düşməni idi...

Sonanın gözlərində bir an cavan şair Seyid canlandı, o da bu "çəngini" sevir, ona incə-incə qəzəllər qoşur, onu "pərilər soltanı" adlandırırdı, amma Sona bu şairin sənətini sevmişdi, o heç bir vəchlə Tərlanı məftun olduğu həmin qəzəlləri qoşan şairə də dəyişməzdi... Lakin gəncin sadə xəyallarındakı əfsun Sonanı elə almışdı ki, o bu axan çayın qabağını saxlaya bilmir, bəlkə də heç istəmirdi...

– Nə bilim, ağa Tərlan necə deyərlər: "Avazın yaxşı gəlir, oxuduğun Quran olsa..." Təki arzuların baş tuteydi...

Tərlan sevinclə qızın əlindən tutdu, o bu sözləri razılıq kimi qəbul eləmişdi:

– Sən mənə inanırsanmı, Sona, de, inanırsanmı?

Bu təmas Sonanın ürəyinə işlədi:

– İnanıram amma çifayda...

– Təki sən mənə inan! Möhlət ver, Sona! Ay qız, mən də qoy bir işimi hazırlayım. Sonra sənə xəbər elərəm, deyərəm, gün xoşlatdırram, çıxarıq Allah qoysa...

– Bəs elin-günün, bəs əməllərin, arzuların? Bəs aqibətin?

– Nə danışırsan, ay qız, təki sən yanımda ol! Dünyada heç nə gözümə görünməz, Sona! Ağadan xahiş eləmişəm ki, mənim üçün bir qəzəl qoşsun, hayıf özüm qoşa bilmirəm, sənə elə sözlər deyərdim ki... Onda ürəyinə heç nə gəlməzdi... Al, gör necədir? Elə bil ürəyimin içindəymiş...

Sona Tərlanın Seyid Əzimlə dostluğunu bilirdi, indi "ağa" sözünü gəncin ağzından eşitcək söhbətin kimdən getdiyini anladı, gülümsədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sona şairin qəzəllərinin çoxunu əzbər bilir, Mahmud ağanın məclislərində rəqs edərkən gənc Seyid Əzimin ona necə göz qoyduğunu da görürdü. Sona, hətta, şairin onu bir az sevdiyini də duymuşdu. Amma hər bir qəzəlini Nəcəfquludan da əvvəl əzbərlədiyi bu incə şairlə, seyid-peyğəmbər övladı ilə öz arasında elə böyük bir fərq görünürdü ki, *xəyalından daha başqa bir şey keçmirdi. O, yalnız Seyid Əzimin* şirin, ürəklərə işləyən qəzəllərinə heyran idi...

Bir az aralıda isə Nisənin hənirtisi gəlirdi. O Şirvanda təzə dəb düşmüş bir havanı zümzümə edirdi:

Sabah olar, qazlar gələr,
Dörd bir yanı tozlar gələr,
Tamaşana qızlar gələr
Dur get, oğlan, sabah oldu,
Yandı bağrım, kabab oldu.
Mənim canım sənə qurban,
Sənin canın həlak oldu.

Qız elə bil gəncləri qaralayıb onlar üçün oxuyurdu, mahnı onları bir-birinə daha da yaxınlaşdırır, dərdlərinə tərcüman imiş kimi onların əllərini bir-birinə birləşdirir, qəlblərindən xəbər verirdi. İki aşiqin vəziyyətindən, qəlbindən keçən təlatümlərdən bixəbər qız isə ağzına zoğal ata-ata oxuyurdu:

Sabah olar atlar gələr,
Dörd bir yanı tozlar gələr,
Tamaşana yadlar gələr
Dur get, oğlan, sabah oldu,
Yandı bağrım kabab oldu.
Mənim canım sənə qurban,
Sənin canın həlak oldu.

Birdən Nisənin səsi xırp kəsildi, mahnı boğazında qırıldı, dalı gəlmədi...

*Sona gəncin ona uzatdığı vərəqi aldı. İncə bir təbəssüm dolaşan* dodaqları tərpəndi, şair, gənc dostunun dililə deyirdi:

Yüz sərvi-xuraman ola, könlüm səni istər.
Yüz bağі-gülüstan ola, könlüm səni istər.
Yüz zöhrəcəbin, mahliqa, mehri dilara,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yüz min məhi-taban ola, könlüm səni istər.
Ey xublərin şahı, könlüdür sənə talib,
Aləm hamı xuban ola, könlüm səni istər.

Qəzəl bitdi. Tərlan dedi:

– Ağa əvvəl söz verdi, mənə bir qəzəl yaza, ona deməmişdim kimin-çün, amma özü o saatca başa düşdü, dedi, sənə elə bir qəzəl yazım ki, ceyranın kim olsa da, oxuyandan sonra səndən ürkməsin, üzülməsin yaxandan, nə desən, ləbbeyk desin. Hayıf ki, özü oxuya bilməyəcək. Dedim: özü oxuya bilir, dedi: "Adə, sən gör nə xoşbəxt adamsan ki, istəklin oxumaq bilir? İndiki zəmanəmizdə bu böyük nemətdi, bizim heç kişilərimiz əməlli oxuya bilmir..." Mən doğrudan da xoşbəxtəm, Sona, mənim Sonam.

Gənc bu sözlərlə yenidən Sonanın əllərindən tutdu.

Qəfil tappıltı səsi hər ikisini ürkütdü, qaranəfəs gələn Nisə idi; pört-müşdü, qorxudan əsirdi, dili dolaşa-dolaşa dedi:– Meşədə yad adam var. Əvvəl at kişnərtisi eşitdim, elə bildim yoldan ötəndi, sonra hənirti də duydum, qaraltısın da gördüm, deyəsən bizi güdürlər...

Mahnını qıran bu imiş...

Sonanın şirin xəyalları, qəfil pozulan yuxu kimi dağılıb getdi, ye-rində real həyat, qorxu qaldı, bu dəfə özü gəncin əllərinə sarıldı:

– Ağa Tərlan, qurbanın olum, qaç get, qana çalxama özünü, bizi bir yerdə görən olmasın.

Gənc tələsik:

– Məni gözlə, Sona, mən mütləq gələcəyəm... – deyib ehtiyatla gözdən itdi.

Gənc, sevdiyi qızdan ümid dolu inam və fərəhlə ayrıldı, "Gələcə-yəm, Sona, mütləq..." dodaqlarına bəxtiyar bir təbəssüm qonmuşdu, amma bilmirdi ki, amansız tale ona nə hazırlayır. Təkcə kiminsə onları görüb qaçmaqlarına mane ola biləcəyindən narahat idi. Görən isə olmuş-du. Həm də çoxdan: başqaları heç, amma bu gün Molla Qurbanqulu-nun onlara rast gəlməsi lap təsadüfən oldu. Bir neçə gün idi ki, molla kəndə getmişdi. Mollanı orada vəfat etmiş bir tanışın malını tərəkə eləmək üçün çağırmışdılar. Kənddən xeyli qazancla qayıdan Qurban-qulu, yaman yorulmuşdu. Vərəsələr arasında malı təqsim etməyə xeyli vaxt getmiş və kişi bundan bərk əziyyət çəkmişdi. Uzun yolun zəhmə-tindən dincini almaq üçün özünü meşəyə verdi. Atdan enib heyvanı yancidar elədi və ota buraxdı. Özü isə çayın sahilinə enib əl-ayağını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yumaq, bir az sərinləmək qəsdinə düşdü. Elə bu zaman taladakı ağac altında əyləşmiş Tərlanla Sonanı gördü.

– Baho!.. Bu da cənab Hacının vələdi, çəngiynən kef-damaqda... Sən ölməyəsən yaxşıca Hacının evi tikilib, kişinin halal qazancı gör bir hara gedir, kimə məsrəf olur... Yamanca özünü çəkirsən, Hacı, görək qırmızı qulluğuna bunu ərz eləyəndə nə deyəcəksən!..

Molla Qurbanqulu nə qədər çalışırdısa gənclərin nə danışdıqlarını eşidə bilmirdi. Ehtiyatla özünü irəli vermək istəyəndə əmmaməsi kola ilişib düşdü, molla əyilib əmmaməni götürəndə üzüqoylu yerə yıxılıb ufuldadı. Nisənin eşitdiyi hənirti də bu idi. Qız özünü saxlaya bilməyib "vay" elədi və qaçdı. Molla da Nisəni bu zaman gördü.

– Ay köpəyin qızı, güdükçüsü də varmış ki...

O yerindən qalxdı, artıq güdməyin və gözə görünməyin mənasız olduğunu başa düşüb taladan aralandı, əl-ayağını yumağı da məsləhət bilmədi. "Bəlkə tanımadılar, Allah kərimdi, yoxsa indiki cavanları nə bilmək olar, boğazlar məni namərd oğlu, basdırar meşənin dərin yerində. Sonra da eşşək gəti, mərəkə yüklə. Yox, yaxşısı sağ-salamat aradan çıxmaqdı". O, atın cidarını açıb cəld mindi və götürüldü.

## MƏSLƏHƏT

Hacı Əsəd oğlu Tərlanın Mahmud ağa məclislərinə ayaq açdığını eşidəndə əvvəl inanmamış, qulaq ardına vurmuşdu. Amma söz-sov getdikcə çoxalanda kişi narahat olmağa başlamış, bir neçə dəfə eyhamla oğluna söz qandırmışdısa da, bir şey çıxmamışdı. Axırda acığını arvadı Bircə xanımın üstünə tökmüşdü:

– Bura bax, arvad, Allah bu gədəni doğan gündə qarnuvu cıreydi. Bu tuqi-lənəti mənim boğazıma keçirtməyeydin. Bax, sənə budu deyirəm, yığ küçüyün ayağını o xarabadan. Onun Mahmud ağa otağında nə ölümü var?

– Nə bilim, ay Hacı, vallah mən elə eşidəndən bəri dəli-divana olmuşam, neçə kərəm danlayıb-dansamışam, uşaqdı, deyir nə olar, şəhərin bütün adlı cavanları ora gedir, mən gedəndə nə olar?

Hacının gözləri qızdı:

– Vallah hər ikinizə qənim olsun. Başqası bir qələt eləyəndə, o da gərək eləyə? Ora gedənlərin hamısı səqərin dibində yanacaq... Eşitmirsən molla nə deyir? Bilmirsən, tar çalmaq da, ona qulaq asmaq da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

günahdı? Hələm o bihəya çəngiyə baxmağı demirəm... Oğluvun gözləri kor olanda deyərəm sənə! Xəsrəddünya vəl axirə...

Arvad qorxudan əsim-əsim əsdi:

– Ay Hacı, sən o getdiyin ağa, uşağa nifrin eləmə, valideyn qarğışı kəsərli olar, rəhmət qapısı açıq olar, dilim-ağzım qurusun, uşağıma sədəmə toxunar, – deyə ağlamsındı.

Hacı acıqlandı:

– Di yaxşı, yasxana açma, bəs o, ağvalideyin olanda, mənim sözümə baxmayanda mən neynim? Ağzıma su alım oturum? Ağa Rəsulun, Hacı Qədirin oğlanların görmür? Niyə onlara baxmır, özgədən təmşiyət götürür?..

Kişi bütün axşamı deyindi. Azandan sonra nökər içəri girib Molla Qurbanqulunun gəldiyini xəbər verəndə deyintisini kəsdi. Ayağa qalxıb mollanı qapıda qarşıladı:

– Buyur, buyur, axund ağa, xoş gəlib səfa gətirmisən. Keç içəri.

Molla Qurbanqulu nəleyinlərini qapıda çıxartdı. Hacının ona Məkkədən pay gətirdiyi qara, nazik yun parçadan tikilmiş misri əbanın ətəklərini toplayıb otağın yuxarı başına keçdi, Hacı Əsədin göstərdiyi nimdərin üstündə əyləşdi. Hacı da onun yanında oturdu.

– Havalar soyumağa başlayıb, Hacı ağa, bayırda bir sazaq var, deyirsən çillə girib, amma hələ payızın əvvəl ayıdı. Bəli, əvvəl ayıdı.

Hacı dedi:

– Bəli, amma gündüz bazara çıxmışdım, hava xeyli isti idi... – nökərin sinidə gətirdiyi çaylardan birini mollanın, digərini öz qənşərinə qoyub nökərə tərəf səsləndi: – Aaadə, Səfi, buxarını bir balaca qala.

– Baş üstə, Hacı ağa, – deyə nökər çıxdı.

– Hacı ağa, yanuva bir mətləbçün gəlmişəm, deyirəm məsləhətləşək səniylə... çün məsləhətli don gen olar...

Hacı maraqlandı:

– Buyuracaqsan, axund ağa!

– Hacı ağa, necə bilirsən, bu cavanları yolundan eləyən, onları bəd əmələ sürüyən nədi? Hə, nədi?

– Vallah, nə deyim, sən özün də elə məndən yaxşı bilirsən, amma özün də yaxşı bilirsən ki, zəmanə dəyişib, çox xarab olub dünya, axund ağa, əgər rəhmətlik xanın vaxtı olsaydı, bir sahatın içində, gedələrdən biriynən sifariş göndərib hər şeyi yerbəyer elərdim. Amma indi... Onun dalı böyüklərə bağlıdı, urusun da məhkəməsi, silisti üzündən açıq-açığına bir şey eləmək olmur. Elə cahılları da yoldan çıxardan budu...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Molla, Hacının şübhəli danışmasından razı qalmadı. O yaxşı bilirdi ki, Şirvanda Mahmud ağaya heç kəs dəyib dolaşa bilməz, elə onun özü də qazanc mənbəyi kimi qiymətləndirdiyi Mahmud ağa ehsanlarından az bəhrələnmirdi. O bu gün buraya Mahmud ağa məsələsini həll etməyə gəlməmişdi, Hacı Əsəd nə qədər dövlətli və arxalı olsa da onun Mahmud ağa kimi adama gücü çatmazdı və bu lazım da deyildi. O, Tərlanın çəngiyə uymağını da Hacıya öz dili ilə çatdırmayacaq, "gördüm" deməyəcəkdi. Onun qurğusu ayrı idi. O Hacıdan da başqasının əli ilə o birisi qazanc mənbələrinə toxunmadan faydalanmaq fikrində idi.

– Hacı ağa, məqsədim o deyil, bu urus evi yıxılmış axı bizim camaatı tanımır, bilmir ki, bura necə yerdi, adamları necə adamdı, hələ bir burda öz yerindəki məktəblərdən də açmaq fikrinə düşüb. Cahıl-cuhul qeyri yerlərə ayaq açır, gör-götür dünyasıdı. Onlar urus dilini,təzə məktəbi neynir axı? Hazır can kimi mədrəsələrimiz var, öz şəriətimizin yolu ilə getsək bu bizə kifayətdi, kifayətdi, kifayətdi bizə...

– Bəli, doğru buyurursan, axund ağa, bizdən təzə urusu məktəbə uşaq verən olmaz...

– Verərlər, Hacı ağa, niyə vermirlər. Şamaxıda dindən-dondan dönən nə qədər istəsən var, Allahın lənətinə gəlsin onları, odu ey, biri elə o Rza bəyi götür: deyirlər dünən Tiflisdən gəlib, özü bir az iştopişto öyrənib, bəs eləyib ona, gedib bizim gomurnatın yanına təzə üsulicədid deyilən bir məktəb açmağa hökumətdən izin alıb. Mahmud ağa da vəsatət eləyib, gomurnat ona çox inanır axı, xətrin yaman tutur...

– Nə danışırsan, axund ağa, mənim heç xəbərim yoxdu.

– Bəli, bəli, elə indicə eşitmişəm mən də! Yanuva gəlməkdən başqa bir qərəzim də var idi. Elə dünəndən gələcəkdim, bu gün günorta namazından sonra cənabuvu məsciddə saxlamaq qəsdim var idi. Sonra fikirləşdim ki, Allah evi elə söhbətlərin yeri deyil. Amma bu Rza bəy sözünü eşidən kimi, daxı duruş gətirə bilmədim, durub gəldim qulluğuna...

Son cümlələrdə Hacı Əsədin dalağı sancdı, o mollanın nə isə pis bir xəbər söyləyəcəyini hissi-qəbləlvüqu ilə duydu, amma üzə vurmadı.

– Əcəb eləmisən. Haçan gəlsən öz evindi...

– Ev yiyəsi sağ olsun, Allah sənə Həcci-Əkbəri dübarə qismət eləsin, inşallah, mərhəmətin artıqdı mənə, bilirəm... bilirəm...

– Bahəm inşallah, imanın kamil olsun, axund ağa, bəs bu məktəb fəqərəsin kimdən eşitdin?

– Cənab İskəndər bəydən, Hacı, çox qabil cavandı, sən onun Mahmud ağa məclislərinə getməyinə baxma, cavandı, amma orucu-namazı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ehsanı, hər bir şeyi öz yerində tutur... Elə mənə bir xoşagəlməz xəbəri də o çatdırıb, bu barədə sonra qulluğuna ərz edəcəgəm...

Yenə də Hacının dərdi zoqquldadı. Amma o yenə də yetiklik etmədi, *qəsdən soruşmadı, elə bil kişi qara bir xəbər eşitməkdən qorxurdu.*

– Qaldı Rza bəy... deyir o da Mahmud ağanın məclisinə gedibmiş, Seyid Məhəmmədin oğlu, naseyid Əzimlə bərk dostdur axı... Hə, deyir çox söhbətləşiblər, təzə məktəbə izin olduğundan bərk sövünüşüblər. Əlqərəz, Mahmud ağa da bir xeyli məbləğ ianə buyurub. O lüt naseyid də söz verib ki, uşaqlar üçün nə isə cızma-qara eləsin...

– Pah atonnan, mən bu Mahmud ağaya lap məəttəl qalmışam, deyən gərək, kişi, pulun var, ver Allah yoluna, uşaq oxutmaq istəyirsən – ver mədrəsəyə, göndər Nəcəfül-əşrəf tüllablarına, yazıqlar səhərdən axşamacan Allahın kəlamı üstündə gözlərinin nurunu qoyurlar, bir öynə ac, bir öynə tox, qərib vilayətdə, qürbət eldə...

– Onu da eləyir, Hacı, bunu da... Bilirsən, bu ağa bəy tayfası əvvəldən elə bir az özbaşına olub, dindən-dondan çıxan olub, dövləti-qarun *qudurdub onları; digər tərəfdən, mənim ağam, Mahmud ağa urus-erməniynən*, hökumət adamıynan, gomumatnan oturub-durur; eləməsə olmaz; bir də ki, Şamaxının bir para tayfası çox təzəpərəst olur, harda bir təzə şey dəb düşdü, gərək hökmən ondan aldıra, yeməlidi – yeyə, geyməlidi – geyə, divara vurulmalıdı – asa divardan. Bu da təzə dəb şeydi.

– Bəli, bu da dəbdən düşər inşallah...

Molla yerində dikəldi, qalanmış buxarının və içdiyi pürrəng çayın istisindən tərləmişdi. Əmmaməsini başından çıxartdı; ağ araqçını götürdü, əba altında geyməsinin cibindən yaylığı alıb alnını, tərtəmiz qırxılmış yöndəmsiz başını, uzun, pələ qulaqlarının ardını və qat-qat ət basmış boynunu sildi. Həna və rəngdən şəvə kimi parıldayan bığ və saqqalını tumarladı; boğazını arıtlayıb vəzə hazırlaşırmış kimi hündürdən, xüsusi bir atəşinliklə Hacının sözünü kəsdi:

– *Xeyr, xeyr, Hacı ağa; o yerəcən çıxmağa qoymaq olmaz*, bu körpəni elə beşiyində boğmaq lazımdı. Əgər ona əl-ayaq tutmağa yol, vaxt versən, sonra qabağını heç almaq olmaz... Heç olmaz.

Hacı nədənsə fikrə dalmışdı, söhbətdə o qədər də can-dildən iştirak edə bilmirdi:

– Bəs nə məsləhətdi?

– Elə qulluğuva da ona görə tələsmişəm. Mən elə sabah sübh namazından fariq olan kimi məhəllə mollaları ilə yığışıb danışacağam, sən də, Hacı, Allahın köməkliyi ilə dost-aşna və hampalarınla söhbətləş,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoy heç kəs bu govur oğlunun açdığı məktəbə uşaq verməsin, kişi, bəyəm biz görmürük bunun axırını? Görmürük bəyəm?

Hacı dedi:

– Baş üstə, axund ağa, elə sabah bazarda dükan otağıma tacir və əsnaf tayfasını çağırtdırıb məsləhətləşərik və sənin də sözlərüvi onlara yetirrəm.

Molla bir qədər aramla dilləndi:

– Bilirsən, Hacı, padşah yer üzündə Allahın kölgəsidi. O kafir də izni padşahın qoyduğu gomurnatdan alıb, odu ki, sən elə çox hündürdən danışma, nə özüvün, nə də mənim adım olmasın. Qoy işi asta görək, usta görək. Yoxsa bu uruspərəstlər hökumətə xəbər çatdırarlar ki, guya filankəslər padşahın fərmanı əleyhinə çıxıblar, Gomurnatın qulağına çatar, niyə gərək cəncəl olsun... bizdən görsün, incisin? Yaxşısı budu elə əlaltından... əlaltından yaxşıdı.

Hacı razılaşdı:

– Bəli, yaxşı məsləhətdi... Əlaltdan...

– Hə, hə, el, qara camaat küyə düşsün, sən, mən neyniyəcəyik? Nə sənin məktəblik uşağın var, nə mənim... Bizim çalışmağımız öz şəriətimiz üçündü, camaatın balaları üçündür ki, dindən-dondan dönməsinlər... Ağvalideyin olmasınlar... Odi ey, təzə cavanlarımız hələ təzə məktəb oxumayıb, gör bir nə hoqqalar düzəldir, nə pəstahalar açırlar. Gündə hər bağda tar məclisi, hər bulaq başında şeir məclisi, az qalıb ki, hər ev də çəngi məclisinə çevrilsin... Balam çevrilməsin?..

Hacının ehtiyat etdiyi, eşitmək istəmədiyi söhbət başlandı. O heç bir şeylə də bunun qarşısını ala bilməyəcəkdi. O ürəyində Allaha, getdiyi Kəbəyə, üzünü sürtdüyü Həcərə yalvarırdı ki, Tərlanla bağlı yaman bir xəbər eşitməsin. Qəlbinin ən dərin bir guşəsində Tərlanın öz yeri, öz məhəbbəti var idi. Kişi atalıq məhəbbətinin bütün qüvvəsi ilə bu mövqeyi qoruyurdu, lakin, buna baxmayaraq, Tərlanın ölümünə razı olardı, şəriətə müxalif iş tutmasına razı olmazdı. Molla Qurbanqulu Hacını qızışdırmaq, vuracağı zərbəni daha kəskin etmək üçün bir an durdu, yerini daha da rahatladı, boğazını bir də arıtlayıb sözə başladı:

– Hacı ağa, bu günlərdə yəni beş-altı gün irəli iraq olsun, bir yaman xəbər eşitmişəm, vallah, elə bəddi ki, heç dilim də varmır. Əvvəl heç inanmadım, amma sonra təhqiq öyrənib, əmin oldum, indi Hacı qardaş, gərək çarəsini eləyək... eləyək gərək çarəsini...

Hacının həyəcanı artdı:

– Allah, sən saxla, nə bəd xəbərdi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qısası, Hacı qardaş, sənin oğlun Tərlan o çəngi Sonaya bənd olub. Bəli, bəli, bəli... olub.

Hacı yerində dikəldi:

– Bu ola bilməz, axund ağa, ola bilməz!

Molla Hacının çiynindən basdı:

– Hövsələ elə, Hacı ağa, olub, çox hayıf ki, lap düz, səhih xəbərdi. Bir on-on iki gün irəli onları meşədə görən olub. Dedim özgədən eşidənəcən, qoy özüm deyim sənə... Axı çörək kəsmişəm evində, ehsan qapın üzümə açıq olub... açıq olub.

Hacı yenə qalxmaq istədi, qəzəblə köpürdü:

– Doğraram o it küçüyünü, bircə bu qalmışdı ki, şamaxılıları mənim üstümə güldürsün...

Molla yenə də Hacının çiynindən basdı:

– Dedim ki, səbr elə, "əsəbrü miftahül fərəc", səbir fərəc qapısının açarıdı, Allah səbir edənləri dost tutub.

Hacı "fərəcin qapısını" tanımırdı, özünü zorla saxlayır, hirsini güclə udurdu. Molla isə elə bil Hacının ürəyini xırda-xırda doğrayır, aram-aram şişə çəkirdi...

– Xuda nə kərdə, doğramaq neyşə?.. Hələ ki, iş təzə başlayıb. Çarəsi tapılar... Tapılar çarəsi...

Hacının gözləri qanla doldu:

– Daxı nə çarə...

– Xeyr, xeyr, naümid olma... Allah, dərd verib, dərman da verib... verib dərmanın.

– Bağrım çatladı, axund ağa, məsləhətüvü, çarəni de...

– Xuda nə kərdə, bağrun niyə çatlasın? Qoy düşmənlərüvün bağrı çatlasın! Sənə mən, Hacı qardaş, bəd xəbərnən şad xəbər də gətirmişəm... Necə deyərlər, bir əlimdə od, bir əlimdə su, bir əlimdə dərd, birində dərman gəlmişəm.

Hacı hirsini boğmağa çalışdı:

– Allah imanuvu kamil eləsin...

– Bə həm digər...

– Bəs çarə...

– Hə, – molla dəstərxan salan nökərə işarə ilə Hacıya müraciət etdi, – bu saat, səbr elə, qoy bir şam eləyək.

Hacı qəzəbli olsa da anladı ki, molla nə isə gizli bir söz deyəcək və bu sözün nökər tərəfindən eşidilməsini istəmir. Nökər Səfi isə aramla



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

süfrəni saldı, üstü sərpinclə örtülü plov sinisini, xuruş, ovşara və digər lazımi şeyləri dəstərxana düzdü, toyuğu parçaladı, "nuş can, ağalar" deyib çıxdı. O qapını kip örtüb getdi. Yaxşı təlim görmüş nökər idi Səfi, o ağasının gizli məşvərət apardığını başa düşdüyündən indi içəriyə heç kəsi buraxmazdı.

Hacı mehmannavazlıq vəzifəsini əda eləmək məqsədilə əqiq üzüklü əlini sərpincə uzadanda, Molla Qurbanqulu əlini onun əlinin üstünə qoydu; ərkyana dedi:

– Sərpinci götürmə, Hacı qardaş, təamımız soyuyar. Söhbəti sonraya qoya bilmərəm, bilirəm ki, boğazından tikə getməyəcək... gəl bir şərt kəsək.., – mollanın gözü, üzərində "Allah-Məhəmməd" sözləri həkk edilmiş əqiq üzükdə idi.

– Nə şərt?

– O şərt ki, əgər çəkdiyim çarə döşünə düşsə, xata səndən sovuşsa, bu qiymətli əqiq üzük mənə müjdəlik olsun.

Hacı yumşalan kimi oldu:

– Qurbandı sənə, axund ağa, əgər xəta evimdən uzaq olsa, üstəlik sənə bir Qəmər day da bağışladım... Amma tez ol, bağrım çatlayır...

Mollanın gözü parıldadı; "xuda nəkərdə"ni unudub dedi:

– Allah razı olsun, sənə dövləti-İbrahim kəramət eləsin. Mən heç razı ollam ki, sənin külfətüvə sədəmə toxuna... Məsələ belədi, bir üç gün bundan əvvəl qaçaq Alış yanıma gəlmişdi gecə.

Hacı səbirsizliklə soruşdu:

– Onun bu işə nə dəxli var?

Molla səsini bir qədər alçaltdı:

– Bu saat, səbir elə, Alış deyir ki, üzə çıxmaq istəyirəm, mənə kömək elə. Özün də bilirsən ki, divan-dərəyə o qədər zəhmət verib ki, üzə çıxması çətin işdi. Mən də onuynan şərt kəsdim ki, o fitnə yuvasını, mütrif Ədilin evini dağıtsın, o Sonadı nədi, o çəngini də aradan götürsün, onda kömək elərəm, "elərəm" deyir.

Hacının ürəyi qismən sakitləşdi:

– Yaxşı, burda mənim boynuma nə düşür?

Molla səsini bir qədər də alçaltdı, lap pıçıltıya keçdi:

– Bilirsən, Hacı qardaş, bu iş bütün müsəlman cavanlarını xilas etmək üçün böyük savab qazanmaq deməkdi, bir tərəfdən də sənin balan dinməz-söyləməz, çəngi aradan götürüləndən sonra, çəkilib oturacaq evində. Sən arxayın, hamı da arxayın. Alışı zamına götürmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lazımdı. Zamın pulunu özü verəcək, varıdı, amma divan ayağında məni zamın qəbul eləməzlər, nə mənquləm var, nə qeyri-mənquləm[1]. Bax, oğluvu xatadan, külfətini şərməndəlikdən qurtarmağın əvəzinə sənin də boynuna Alışı zamına götürmək düşür. Zamına götürmək.

Hacı Əsəd rahat nəfəs aldı:

– Allah sənin atana rəhmət eləsin...

– Bə həm digər...

Hacı fikirli-fikirli dilləndi:

– Bura bax, axund ağa, sonra təzədən qaçaqlığa qurşanıb məni divan-dərə yanında xataya salmaz ki?..

– Yox, a kişi, onunku pul-dövlət idi, o ki var özün tutub, daha yol kəsməyi neynir qurumsaq? Gəlib oturacaq evində, üzə çıxandan sonra, məsciddə tövbə eləyəcək, sonra da göndərərik onu kamali-ehtiramla qəriblər ağasının qulluğuna, gedər ziyarət elər, gələr, olar mömin müsəlman, biz də savab yiyəsi olluq ki, bir yolundan azmışı düz yola qaytarmışıq...

– Bəli, yaxşı fikirdi...

O barmağından əqiq üzüyü çıxartdı, mollanın əlini əlinə alıb, üzüyü onun çeçələ barmağına güclə keçirtdi:

– Bu sənin xəbərin üçün, ağa! Fitnə yuvası dağılandan sonra, inşallah gedələr Qəmər dayı da gətirib bağlarlar qapına... inşallah... inşallah.

Molla üzüklü əlini kənara tutub aralıdan baxdı, sevə-sevə baxdı, sonra gözlərinin önünə tutub yazını bir də oxudu "Allah-Məhəmməd", dodaqları bərabərinə gətirib qaşı, yazıları öpdü.

– Gözəl, qiymətsiz hədiyyədir, çox çağ ol, Hacı, iltifatın artıq olsun, – dedi və sonra gəlişindən daha çox mənfəət qazanmaq məqsədilə sözünə davam etdi:

– Bilirsən, Hacı övlad atanın belinin qüvvəti, dizinin taqətidi. Onu niyə yox eləyəsən, canından iraq. Yaxud niyə gərək o fitnə yuvasını sən öz əlinlə, ya gədələrin əli ilə dağıdasan? Hə? Məsələtün də... Hacı adamsan, qan-qadaynan nə işin var? Özünü niyə xətaya salasan? Hə? Məsələtün də... Qoy elə Alış eləsin, elə bu da onun üçün savaba yazılacaq... Yazılacaq savaba...

– Bəli... bəli... – Hacı sərpici qaldırdı, otağı zəfəranlı plovun ətri bürüdü, molla ağzının suyunu udub, cəld barmaqlarını düyünün içinə soxdu.

[1] Dövriyyədə olan və olmayan əmlak



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Öz aramızdı, Bircə bacının plovunun ətrini heç bir yerdə bişən plov ətrilə qarışıq salmaq olmaz. Allah həzrət Fatiməyə bağışlasın, cənab Zəhraya kəniz versin, gözəl bişirir.

Hacı:

– Nuşcan olsun, – deyib arxayın-arxayın yeməyə başladı. Lakin kişinin Tərlana qarşı qəzəbi soyumamışdı. Qəlbində oğlunun qarasınca deyirdi: "Üzümü sürtdüyüm Həcərə and olsun, bu gecə sənə bir toy tutacam ki, qiyamətəcən dadı damağından getməsin, bir ay yerində dura, o məclisə gedə bilməyəsən, nadürüst, məni bazar camaatına gülünc eləmək, mənə şəki bağlatmaq istəyirsən, a küçük? Dayan, dayan, verrəm cəzanı, hələ bir gəl çıx, görərsən..."

Kişi, demək olar ki, nə yediyini bilmir, yalnız qonaq xatirinə əlini süfrəyə aparıb-gətirirdi.

...Xörək qurtardı, Hacı, nökər Səfini səsləməyə hazırlaşanda, molla bir daha pıçıltı ilə soruşdu:

– İndi mən Alışa ismarış göndərim, Hacı qardaş, razısan?

Qapaqlı Hacı Əsəd qəti qərar verdi.

– Hə, razıyam...

Molla gedəndən sonra Hacı Əsəd nə qədər çalışdısa, özünü sakitləşdirə bilmədi. Vaxt keçirdi, Tərlan isə gəlib çıxmırdı, kişi cin atına mindi.

– Allahın lənətinə gələsən, oğul, bir parça halal çörəyimi də rahat zəhərlənməyə qoymursan, məni bu yaşımda dindən-dondan çıxartdın, dəxi bəsdi! A gədə, Səfi! Səfi!

– Bəli, ağa!

– Çuxamı, börkümü bəri elə!

Nökərin çıxması ilə qayıtması bir oldu. Hacının qəzəbli səsi yan otaqda qab-qazanla əlləşən Bircə xanımın canına üşütmə saldı, əli kəfgirli içəri girdi, kişinin harasa hazırlandığını görən ananın ürəyinə qorxu doldu, ətli yanaqları, buxağı titrədi, dolmuş gözlərinin ətrafındakı qırışlar dərinləşdi:

– Bu bivaxt çağı hara, ay Hacı? Xeyir ola!

– Cəhənnəmə-gora. Sizdən gələn xeyir düşmənə qismət olsun, budey, küçüyün hələ də gəlib çıxmayıb...

– Gələr də, elə dəmə-dəmdi, sən Allah özünə zəhmət vermə, hardan gedib axtaracaqsan?

– Gəzdiyi xarabalardan. Vallah, ona bir üsul biçəcəm ki, pişiyə Əbülqasım desin... Dayan, hələ gəlib sənin də payuvu verəcəm!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anaya elə bil cürət gəldi, kəfgiri dala tullayıb, Hacının geymәkdə olduğu, amma acığından, haldan çıxdığından qolunu tapa bilmədiyi çuxanın ətəyindən tutdu, ağlar səslə yalvardı:

– Səni and verirəm üzünü sürtdüyün Həcərə, balama sədəmə toxundurma!

– Sənin də, balanın da belindən Həcər vursun, əl çək, binamus oğul doğmusan, cəzandı! Elə zılxın belə də qazanı olar. Elə onu əzizləyə-əzizləyə yoldan eləyən sən deyilsən? Yəqin haram süd, haram tikə dadızmısan o məlun xəsərəddünya vəl axirəyə...

Kişi arvadını yamsılamağa başladı, sözləri Bircə xanım kimi uzada-uzada dedi:

– "Ay Hacı, gözünün ağı-qarası bircə balandı, qoy getsin dərs oxusun, filan bəyin, filan ağanın balasından geri düşməsin..." Allah sənə lənət eləsin, tacir babaydım, bir ərşinim vardı, bir xurcunum, bəsiydi... yox... buyur, bu da sənə oxumuş oğul! Belə oğul doğan ananın dədəsi tünbətün düşsün...

Hacı çuxanı elə zəhmlə dartıb çıxdı ki, arvad üzüqoylu yerə yıxıldı. İndi o özünü saxlaya bilmirdi, hönkürüb ağlayırdı. Elə bil yazıq ana balasının başına gələcək bütün işləri, fəlakətləri irəlicədən duyur, onun cənazəsi üstünə düşüb ağlayır, oxşayırdı...

Hacı, Tərlanı axtarmağa getdi. Gəlin biz də başqa yerə, ürəyimizə bir qədər fərəh gətirə bilən mənzilə gedək, görək gənc dostumuz haradadı, neyləyir.

...Bu axşam şamaxılıların "təzə oxutmuş", "Urus İrza" adlandırdıqları ziyalılardan biri olan Rza bəygildə də məsləhət idi. Bu gün dostlar buraya yığılıb ilk qələbələrini bayram edirdilər. Bir neçə gün idi ki, Rza bəy Tiflisdən icazənamə ilə qayıdıb gəlmişdi. Ona Şamaxı şəhərində ikiillik ibtidai, yeni qaydalı bir məktəb açmağa icazə vermişdilər. Yerli "tatarlar" üçün açılacaq bu məktəbin necə olacağını hələ otaqda oturanlardan heç birisi əməlli bilmir, yaxşı təsəvvür etmirdi. Amma, hər halda, bu kiçik qələbə böyük bayrama çevrilmişdi. Bu gün Rza bəy öz dostlarını başına toplamış, yeni məktəb üçün onlardan məsləhət və kömək istəyirdi.

Geniş, səliqəli mənzil yarı Şərq, yarı avropasayağı bəzənmişdi. Döşəməyə babət xalı və palazlar döşənmiş, divar boyu nimdər və mütəkkələr düzülmüş, bir küncdə isə ayaqları naxışlı dəyirmi miz qoyulmuşdu. Mizin ətrafında dörd kürsü vardı. Üstündəki otuzluq lampa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xəfif işıq saçırdı. Divarlara bəzəkli tikmələr, urusu dəsmallar, pərdə başlıqları və bir neçə çərçivəli mənzərə şəkli asılmışdı.

Otaqda dörd nəfər idilər. Ev sahibi Rza bəy, ağ bənizli, zərif simalı bir cavan idi. Əyninde o zaman dəbdə olan gödəkcə və urusu şalvar vardı. Dalğalı qumral saçları uzundu, Şərq adətinin əksinə olaraq başını qırxdırmırdı. Üzündə ziyalı cavanlara məxsus incə bir nəciblik sezilirdi. Tez-tez yan otağa keçir, oradan kiminsə ona ötürdüyü yemək, içki və çay, quru meyvə gətirib mizin üstünə qoyurdu. Adətən təmkinli olsa da, indi hər bir hərəkətində sevinc duyulurdu, elə bil sevindiyindən özünə yer tapmır, qonaqlarına necə xidmət edəcəyini bilmirdi. Tez-tez özü öz sözünü kəsib, girir-çıxır, bu hərəkətilə də dostlarının təbəssümünə səbəb olurdu.

İkinci adam buraya ilk dəfə gəlmiş Mahmud ağa idi. Ucaboylu, nazik bədən Rza bəyin əksinə olaraq, Mahmud ağa dolğun və bəstərək idi, əynində sürmeyi şaldan yaxşı usta əli ilə tikilmiş kostyum var idi. Buğdayı simasında ən çox nəzərə çarpan bir cüt iri qara göz idi. Bu gözlərdə daima hər şeyə yetiklik edən, gülümsər, mehriban, şux və şən bir gənclik, həyat eşqi qaynayırdı. Tez-tez danışır, şən-şən gülür, özünü çox sərbəst aparırdı... Belə görünürdü ki, dostunun müvəffəqiyyətinə fərəhlənsə də, məclisdəkilərin əksinə bu hadisələrə o qədər də böyük əhəmiyyət vermir, buna da növbəti, maraqlı bir iş kimi yanaşırdı. Odur ki, onun Rza bəy və başqa həmyaşlarına müraciətində bir üstünlük, nisbi bir laqeydlik duyurdu. Elə bil deyirdi: "Məni şən bir musiqi məclisindən ayırdığınız üçün sizdən incimirəm, sizə hər bir kömək eləməyə hazıram, təki könlünüz xoş olsun, dostlar, təki həmişə kefiniz kök, damağınız çağ olsun".

Üçüncü cavan Seyid Əzim idi. Şairin bütün geyimində, zahirində əsil şirvanlı görkəmi vardı. Mahmud ağa və Rza bəyin əksinə olaraq ülgüclənmiş başına dəri börk qoymuşdu. Otaq isti olsa da, adətinə görə papağını çıxartmamışdı. Ortaboylu, mütənasib endamını qara ləzgi şalından tikilmiş çuxa kip tutmuşdu. Ayaqlarında ağ-boz şətəl[1] vardı. Geniş alnı, nazik üzü, buğdayı dərisi, qara qələmi qaşları və qara gözləri üzünə ağıllı, dərin düşüncəli bir ifadə verirdi. Nazik bığları və təzəcə xətti onu yaşından bir az böyük göstərsə də, gözlərindəki sevinci gizlədə bilmirdi. Bu gün elə bil əsil bayram onun idi. Nə olar, qoy bu ilk məktəbi açmaq, balaca həmyerlilərinə elm öyrətmək ona nəsib olmayıb.

---

[1] Şirvana məxsus əlvan yun corab



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə olar, qoy bu işin müəssisi-dostu və can sirdaşı Rza bəy olsun! Nə eybi var, başlanğıcdır. Onun da növbəsi çatar, bu ilk təcrübədən o da payını götürər. Balaca həmvətənlərini molla Qurbanqululların bitli-sirkəli mollaxanasından, yırtıq həsirlərin, soyuq hücrələrin, cansıxıcı çərəkələrin, amansız fələqqələrin üzündən qurtarar, qonşu erməni, malağan uşaqları kimi onlar da təmiz, işıqlı uşqolda bu dünyada lazım olan elmləri öyrənərlər. Bu dünya dərdi, gün ruzusu qazanmağın yollarını öyrənər, xoşbəxt olar, mollaxanada xəlfə və mollaya nökərçilik etməkdən qurtararlar. Onların da əsil kitab-dəftəri, yaxşıca məktəbi olar. Bu məktəbi xidmətçi qızdırar, uşaqlar hər dərsə gələndə çantalarında manqala qoymaq üçün daha kömür gətirməzlər... Qoy bu ilk təşəbbüs Rza bəyə qismət olsun, nə olar! O da çalışıb bacardığı bir işlə dostuna kömək elər. Elə indicə Rza bəy dediyi kimi. Uşaqlar üçün öz doğma dillərində nəzm inşad elər, azı onlar anlamadıqları fars mətnlərini çətinliklə oxuyurlar, anlamırlar, birinci dəfə onun – şair Seyid Əzimin mənzumələri doğma ana dilindəki dərsliyi əvəz elər, uşaqlar onun yazdıqlarının üzü ilə elm, bilik, savad öyrənməyə başlarlar... Nə şirin xəyal, nə gözəl arzulardı ki, həqiqətə çevrilməyə başlayır...

Dördüncü cavan Tərlan idi. Bir neçə gün əvvəl Sona ilə görüşəndə onun çatma qaşlarına, ala gözlərinə tamaşa eləmişdik, rəqqasə Sonanın sevgilisi, elə indi də məhəbbətdən xumar, təzə xəbərdən bəxtiyar bir hal keçirirdi. Onun da üzündə bir fərəh, bir sevinc vardı. Rza bəy bu gənc dostunu dəvət etmişdi ki, ondan yardım istəsin, ona təklif etmişdi ki, əgər istəsən sən öz savadınla mənə kömək eləyə bilərsən, gələcəkdə şagird çox olsa, məktəbi böyüdə bilsək, yavaş-yavaş uşaqlara əlifba öyrətmək işində mənə köməyin dəyər.

Rza bəy deyirdi:

– Düzdü, izin almışam, amma yamanca quru yerdən başlayıram, nədən başlayacağımı heç bilmirəm, siz gərək mənə yardım əli uzadasız... Birinci növbədə cənab Mahmud ağa.

Mahmud ağa ötkəmlə səsləndi:

– Divan-dərə və pul, ianə toplamağa təşəbbüs – mənim öhdəmə, əlimdən gələn budu...

– Bu özü elə ən birinci vacib məsələdi, – deyə Seyid Əzim sözə qarışdı, – elə birinci çətinlik bina məsələsi, qaydalı kürsü, miz, mən də sizin kimi bunları urus-erməni məktəblərində görmüşəm, sonra da ki, yazı ləvazimatı... bunlar pula bağlıdı...

Mahmud ağa sözə yenə də xitam vermək üçün tələsdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Elə qubernator cənablarının yanına getməmişdən əvvəl də, mən Rza bəyə demişdim, ən əvvəl ianəni özüm verəcəyəm, qalanlarını da bir növ məcbur elərik...

– Qaldı dəftər-kitab... hələlik ilk-əvvəl əlifbanı öyrənənəcən çərəkə ilə kifayətlənməli olacağıq, sonra az-maz oxumağa başlayanda öz türki dilimizdə olan şeir və lətifələrdən, hekayələrdən seçib oxutdurruq...

Mahmud ağa yalnız indicə maraqlandı:

– Yəni elələri var? Mən elə bilirdim ki, bizim dildə təkcə şeir var, qəzəl var, vəssalam, qalanları fars dilindədi...

– Xeyr ağa, farsca nəzm və elmi kitablar çox olsa da, türkicən az-maz da olsa oxumağa şey tapılar... Yoxsa evimiz yıxılardı, təzə kitablar yazılanacan, çap olunanacan neynərdik...

Bayaqdan bəri susqun oturmuş Tərlan dilləndi:

– Amma bir şeyi lap yaddan çıxardırsız; görək bizim bu məktəbə, bu təzə qaydalı məktəbə kim uşaq verəcək? Hansı valideyn öz övladının əlindən tutub, mollaxananı qoyub, bizim bu əvvəli-axırı bilinməyən, kitabı, dəftəri tanınmayan, içində şəriət dərsi, molla dərsi olmayan məktəbə övlad verəcək? – onun gözləri yol çəkirdi, elə bil atası Hacı Əsədi gözü ilə görür, sözlərini qulaqları ilə eşidirdi: "Kafir çıxar ordan. Orda Quran oxudulmur, molla dərs demir, ora kim övlad usburt[1] olar? Sonra da gedib başına Kərim bəyin oğlu kimi şilapqa qoysun, boynuna xalta taxsın, dindən dönüb urus olsun!".

Dostlar da ona tərəf baxdı, hamısı sanki birdən-birə ən çətin məsələni yaddan çıxartdıqlarını düşünüb susdular. Sükutu Mahmud ağa pozdu:

– Bilirsiniz nə var, az-çox ziyalılarımız, təzəpərəstlərimiz həvəslə məktəbə uşaq verəcəklər. Bəziləri qubernatorun əmrilə açılan məktəbdən imtina etməyə cəsarət eləməyəcək, sizdən də lazımdı ki, tanış-bilişi dilə tutasız, qapı-qapı düşüb adamları, dükan-dükan gəzib valideynləri başa salasız, deyəsiz ki, məktəbi qurtaran hökumət qulluğuna, hesabdarlığa, kargüzarlığa gedə biləcək, çötkə çəkmək öyrənəcək... Onda tacir tayfası da tərəfinizə keçər... İndi isə gəlin bayramımızı pozmayaq, bu al yanaq, bal dodaq badədən bir piyalə nuş eləyək, nə qədər ki, görən, gələn yoxdu, fürsəti fövt eləməyək... – O, qarşısındakı şüşəni alıb piyalələrə şərab süzdü.

Tərlan piyaləni qaldırıb gülümsədi:

– Dədəmin və bir də Molla Qurbanqulunun gözündən iraq, əgər bilsələr – mən öldüm! Rza bəyin məktəbi isə ömürlük boş qaldı! O saat

[1] İnanmaq, etibar etmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aləmə səs salacaqlar ki, "O meşrəbidi, şərab istemal eləyir, ona uşaq ki verdiz, özü kimi sərxoşlar yetişdirəcək övladlarınızdan".

Bu sözə şair də gülümsədi, piyaləni əlinə alıb baxdı, xəfif bir təbəssümlə gözünün bərabərinə qaldırdı, baxışlarını dostu Mahmud ağaya zilləyib dedi:

– Elə ona görə də gizlin adət eləmədən, az-az və xirədmənlərlə nuş etmək lazımdı badəni, necə ki, Xəyyam rəhmətüllah buyurubdu:

Cər badə xori to ba girədməndan xor,
Ya ba sənəmi – laləroxu xəndan xor,
Besyar məxor, verd məkon, faş məsaz,
Əndək xoru gah-gah xoru penhan xor.[1]

...Qapıya dəyən zərbədən dördü də diksindi, başlarını çevirəndə Qapaqlı Hacı Əsədi dəhşətli bir kabus şəklində qapının çərçivəsi arasında bitmiş gördülər. Kişi qeyzindən qapqara qaralmışdı, hirsindən boğulurdu. Əlindəki əsaya dayaq vermişdi, deyəsən titrəyir, güclə ayaq üstə dururdu; arxasından nökərin karıxmış siması görünürdü.

O, Rza bəyə baxıb kəkələdi:

– Bəy, billah, Hacı macal ver-vermədi...

Hacı kükrədi:

– Hə, indi də buranı şərabxana qayırmısız! Mahmud ağa cənablarını da öz evində tapa bilmədim. Bu naseyidin də cəddi üzünə tüpürsün! İrza bəy, sənin dədən-baban... Elə əvvəldən bəy tayfası xoşmeşrəb olub, öz işinizdi. Yaxşı, mənim bu batmışımdan nə istəyirsiz, hə?

– Ata!!!

– Zəhrimar ata, çor ata, – Qapaqlı özünü saxlaya bilmədi, qolaylandı, əsanı düz oğlunun çatma qaşları, ala gözlərinin üstündən alnına endirdi, dostları əl yetirməyə macal tapmadılar, kişi əsanı çomaq təki budayır, sağa-sola zərbələr endirir, Tərlanın əlindən alınmasına mane olurdu. Zərbələrin çoxu boşa, havaya gedirdisə də, qan Tərlanın üz-gözün bulayıb, aşağı süzülür, gözlərini örtür, görməsinə mane olurdu. Tərlan əsla müqavimət göstərmirdi. O atasından nə desən gözləyə bilərdi: onu söyər, danlar, evə çatandan sonra döyə də bilər... Amma yoldaşlarının, həmyaşlarının, dostlarının yanında onu belə xar eləməz!

---

[1] Şərabı ən arif insanlarla iç,
Gülüzlü, nazənin cananlarla iç,
Arabir, gizlicə, alışma az-az
Meyin hörmətini qananlarla iç!
(*Tərcümə M.Müşfiqindir*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma elədi və bu indi Tərlana ölümdən də pis gəlirdi. Necə də olsa doğma atası tərəfindən edilən bu ağır təhqir, Tərlanı elə çaşdırmış, qürurunu sındırmış, elə xar-zəlil eləmişdi ki, o özünü qorumur, müdafiə olunmur, Allahdan arzu eləyirdi ki, atası onu elə bir yerindən vursun ki, bu anda ölüb qurtarsın və bu böyük təhqirdən sonra bir də dünya üzünə çıxmasın, onsuz da yer ayrılsaydı içinə girməyə hazır idi.

Mahmud ağa, Rza bəy və Seyid Əzim birtəhər Tərlanı Hacının əlindən aldılar, kişini sakitləşdirmək mümkün olmurdu. Deyəsən, o özü artıq elə yorulmuşdu, gənclərə elə dərin bir nifrət bəsləyirdi ki, daha bir an da bu "xarabada, bu şər-şeytan yuvasında" qalmaq istəmirdi.

– Yaxşı, əl çəkin yaxamdan! Dur düş qabağıma, heyvan, səninlə işim evdədi...

– Hacı, yaxşı deyil, qoyun yarasın bağlayaq, sonra...

Hacı nə qədər qəzəbli olsa da Mahmud ağa ilə münasibətini pisləşdirmək, ona ağır söz demək istəmirdi. Onun nüfuzuna bələd idi.

– Lazım deyil, cənab Mahmud ağa, oğul mənimdi, necə istərəm elə də aparram... evdə bağlallar...

Tərlan da bu ağır, xəcalətli hadisənin tez qurtarmasını istəyirdi. Dostlarının yanından getməyə, onları nahamvar sözlər eşitməkdən xilas etməyə tələsirdi. Yaralarının qanını arxalığının ətəyi ilə sildi, qalxdı, səntirləyə-səntirləyə qapıdan çıxdı. Ata da onu müşayiət elədi.

Otaqda üçü qalmışdı, bir az əvvəlki səliqə-sahman pozulmuş, bir az əvvəlki bayram şənliyindən əsər-əlamət qalmamış, gənclərin üzünü dərin bir kədər bürümüşdü; uzun sükutdan sonra Mahmud ağa dilləndi:

– Heç bilmirəm bu hadisədən sonra sabah işə necə iqdam eləyəcəyik...

## PƏRİLƏR SOLTANI

Şair Sonanı unuda bilmirdi... Günlər ötür, günlər həftələrə, həftələr aylara çevrilirdi... Şair Sonanı unuda bilmirdi. Gəlinin surəti yalnız tez-tez ziyarət etdiyi Mahmud ağa məclisində deyil, gündəlik həyatında, evdə, bazarda, məsciddə, yuxuda belə onun gözlərini, qəlbini tərk etmirdi... Şair Sonanı unuda bilmirdi. Bu vaxt ərzində o, Mahmud ağa ilə dostlaşmış, onun qonaq otağına gələn şeir, musiqi və gözəllik aşiqi cavanlarla həmqəlb, həmsöhbət olmuşdu... Bu məclislərdə şeir, musiqi və gözəllik haqqında qoşduğu qəzəllərini oxumuşdu, təhsinlər, əhsənlər eşitmişdi, amma Sona ilə bir kəlmə də kəsməmiş, danışmamışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O hələ də bilmirdi ki, *qız onun qəzəllərini eşidibmi?* Bilirmi ki, bu şeirlər məhz onun üçün yazılır, onun təsirilə qoşulur; bilirmi ki, gözləri dolğun aya baxanda Sonanı görür, əlvan çiçəkləri qoxlayanda Sonanı düşünür, cümə günləri əqrəbası ilə məscidə gedəndə, namaz üstündə mehrabı Sonanın qaşlarına oxşadır. Bağdan dostu ona bir dəstə reyhan verib, "ətri-peyğəmbərdir, ağa, iylə, səvabı var" – deyəndə Sonanın saçlarını xatırlayır, Zoğalavay çayı boyu ucalan sərvləri seyr etdikdə Sonanın qaməti gözləri önündə cilvələnir... "Ay Sona... Sona" deyə pıçıldayan dodaqları yeni-yeni qəzəllər düzür. Şair Sonanı unuda bilmirdi... O bilirdi ki, nə anası, nə əqrəbası, nə də içində yaşadığı bu mühit onun Sonanı sevməsinə, ona evlənməsinə razılıq verməz... "Çəngi!" Bircə bu söz dəhşətli damğadan, taundan, vəbadan da qorxunc idi... Sona çəngi idi. O heç vaxt heç kimin arvadı, anası ola bilməz. Heç kəs ona "gəlinim" deməyə razılıq verməz. Sona çəngidir. Xoşməşrəb cavanlar ona valeh ola bilər, amma heç birisi "övrətim" deməz. Dəliqanlı cavanlar Sonadan ötrü ölürdü... Amma heç birisi ona evlənməyi ağlına belə gətirmirdi. Onun adını Mahmud ağa məclisindən başqa heç bir yerdə hündürdən *söyləyə bilmirdilər*. "Çəngi" deyirdilər böyüklər, arvad-uşaq, əqrəba yanında onu görüb tanıdıqlarını boyunlarına belə almaz, almaqdan qorxardılar. "Çəngi"... Qadınlar onun adını lənətsiz yad etməkdən çəkinirdilər. Şair bunları bilirdi, amma Sonanı unuda bilmirdi...

...Hava qaralanda o, Qəriblərə tərəf yollandı. Artıq taqəti qalmamışdı. O, Sonanı təkbətək görməli, qəlbini tüğyana gətirən hissləri ona açmalı idi. Qoy sonra nə olur-olsun... O sonranı heç düşünmürdü də.

O bugünkü moizəni xatırlamaq istəməsə də Molla Qurbanqulunun sözləri qulağından getmirdi. Molla Qurbanqulu Mahmud ağanın nüfuzundan qorxaraq, onun öz adını çəkməsə də bu gün o məclisə gedən cavanların qarasına çox danışmış, çəngilərin rəqsini "şeytan əməli" adlandırmış, "lənətləmiş, bu bəlanın şəhərdən rəf olunmasını, qovulmasını, sürgün olunmasını hazırundan tələb etmişdi. Cavanların yoldan çıxmağa başladığından, şəraba, mütrüfə, çəngiyə meyil etdiyindən, məsciddən, Allah yolundan uzaqlaşdığından danışmış, belələrini cəhənnəm əzabı ilə qorxutmuşdu. İndi şair ürəyində Molla Qurbanqulu ilə mübahisəyə girişmişdi: "*Niyə gərək elə yaxşı*, gözəl, insana fərəh gətirən, onu güldürən, sevindirən hər şey şeytan əməli hesab olunsun? Göz yaşı, əzab Allaha xoş getsin? Niyə axı Allah öz yaratdığı insana yaxşını o dünyada, əzabı bu dünyada rəva görsün? Nə üçün yaxşını ruh, pisi cism duysun? Doğrudanmı Sona, Nəcəfqulu kimi sənət-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

karlar, Mahmud ağa təki sənəti qiymətləndirən gözəl insanlar cəhənnəmdə yanacaq, Molla Qurbanqulu, Qapaqlı Hacı Əsəd kimi qəlbiqara adamlar behiştə gedəcək? Bəs onda üsuli-dinin əsaslarından biri olan ədl hara gedir? Adil Allah belə ədalətsiz iş tutarmı? Musiqi, şeir, rəqs cəhənnəmdə isə, behiştdəki hurilər-pərilər nə edirlər? Axı insanı paklığa, dostluğa, səadətə səsləyən Füzuli qəzəllərini təğənni edən xanəndə nə günahın sahibidi? Qəlblərə fərəh və həyatın rüknü olan məhəbbət təlqin eləyən Sona hansı təqsirinə görə lənətlənir?

Vaiz əsrari-ləbi-dildarı bilməz, bilmişəm
İçməyən, zövqi-meyi gülnarı bilməz, bilmişəm.
Olmayan aşiq nə bilsin əhli-eşqin halını,
Cövri-yarü təneyi-əğyarı bilməz, bilmişəm.

Şübhələr şairin qəlbini didir, ürəyini qana döndərir, beynini gəmirirdi.

Hava artıq tamamilə qaralmışdı. Şair Mütrüf Ədilin evinə çatıb durdu. "Görəsən o məni necə qarşılayacaq, nə deyəcək? Görəsən eşqindən dəli-divanə olduğumu bilirmi? Duyurmu ki, pərvanə şama, otlar, çiçəklər işığa günəşə can atan kimi mən də onun başına dolanmağa, ziyasından işıqlanmağa can atıram?".

Əl çatsa fəda canımı canana edərdim,
Şəmi-rüxinə könlümü pərvanə edərdim.

Bir an tərəddüd içində dayandı. Sonra qət edib əlini qapının çaxçaxına uzatdı... Qapını Mütrüf Ədil özü açdı. Əlindəki fanus ilə qonağın üzünü işıqlandırdı. Tanıyan kimi özünü itirdi. O bu gəlişi heç vəchlə gözləmirdi. Gənc olmasına baxmayaraq, bütün şamaxılıların "ağa" deyə çağırmağa başladığı, bir şair kimi tanıyıb hörmət etdiyi, bir seyid peyğəmbər övladı Mütrüf Ədilin qapısını niyə döysün gərək? Yüzlərlə əcaibliklərin şahidi olmuş coşməşrəb cavanlar məclisində saç ağartmış Mütrüf Ədil üçün bu gəliş o qədər nagəhani, gözlənilməz idi ki, Ədil salam-kəlamı unutdu, bir söz soruşmağa cürət etməyib geri çəkildi:

– Buyurun, buyurun, cənab ağa!.. Nökərçiliyinizdə duraq... buyurun...

O, evə tərəf irəlilədikcə yolu işıqlandırır və bir kəlmə də demədən özünü müşayiət eləyən Seyid Əzimi yanpörtü süzür, nə məqsədlə gəldiyini anlamağa çalışırdı.

Qızlar şam yeməyi süfrəsini yığışdırırdılar. Onlar da Seyid Əzimi görcək çaşbaş qaldılar. Seyid Əzim özünü ələ alıb dilləndi:

– Deyəsən, bimövqe gəlmişəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Xeyr, xeyr, Allah eləməsin, buyurun, – deyib, Mütrüf Ədil qızlara işarə elədi. Onlar süfrəni və qabları götürüb otağı tərk etdilər. Onsuz da bu gün müqəddəs cümə günü olduğundan məşq olmayacaqdı. Hərə öz mövqeyinə çəkildi, təkcə Sonadan başqa. Sona Sanki bu gəlişi gözləyirdi: Sanki bilirdi ki, Seyid buraya məhz onu görməyə gəlmişdir. Ona deyiləcək sözləri var... O çıxmadı. Mütrüf Ədil həyəcanını birtəhər gizləyib heykəl kimi dayanmış Sonaya, bir də xəcalət təri basmış ağaya baxdı, məsələni anladı, amma tərəddüd içində durdu: "Lailahə illəllah, bu olan işdi? Bəlaya düşməsək yaxşıdı, gedim, yoxsa qalım, bir söz soruşum, ya soruşmayım? Allah, sən saxla! Görəcəkli günlərimiz dalda qalıbmış... Bu da övladi-peyğəmbər... Bu da Ağa... Amma nə demək olar, cavandı... şairdi. Yox, çıxsam yaxşıdı, gərək olsam çağırtdırar" deyə o da qızları təqib etdi, otaqdan çıxdı.

Üz-üzə qaldılar, hər ikisi yerə baxırdı, amma göz-gözə durmuş kimi, bir-birini qəlbinin gözü ilə görürdü. Sona əllərini köksünə sıxıb dayanmışdı, birdən elə bil qıçları taqətdən düşdü, diz üstə şairin önündəcə yerə çökdü: "Dillən, dilinə qurban olum, danış, sözünə qurban olum... – deyə düşündü, – addımlarının səsini yüz addım içində tanıyıram, məni onlar şerə, sənətə səsləyir. Elə mütrüfnən gəlişini eşidib duyanda ürəyim yerindən qopdu, dodağımın ucunda çırpındı, a sənə qurban olum, niyə dinmirsən? Mən sənin şerinə, qəzəlinin hər bir kəlməsinə bir can qurban elərəm. Möhtərəm şairim mənim... Dillən, o rəvan təbindən axıb gələn kəlmələr, misralar, beytlər eşq atəşilə yanan ürəyimi yerindən oynadır, elə bilirəm sən danışdıqcan Tərlanım danışır, sənin hər kəlmən onun sözləridir..."

Lakin şair danışmırdı. Sükut içində oturub, qızın ürək çırpıntılarına həmahəng döyünən qəlbini dinləyirdi: "Nə danışım, özün hamısını, yəqin ki, bilirsən....Yox, sən nə bilirsən ki..."

Sükutu Sona pozdu:

– Axır vaxtlarda səni üzgün görürdüm, Ağa! Xudanəkərdə, naxoşzad deyilsən ki...

– Xeyr... Elə bir az pərişanam, – o, qızın bir musiqi qədər xoş səsini bu qədər yaxından, belə aydın eşitməmişdi. Sona onu gözləyirdimi?

– Nə əcəb bəs qızlarla getmədin, Sona?

– Bildim ki, məni görməyə gəlmisən.

Şairin ürəyi titrədi:

– Nədən, Sona, nədən bildin?

Sonanın kirpikləri titrədi, həya ona qalib gəldi, elə bil ki, yüzlərlə məclislərdə, kişilər qarşısında rəqs edən "çəngi" bu göyərçin kimi ürkək qız deyildi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Özün demisən Ağa...

Cavan təlaşa düşdü... Məgər o, Sonanın görüşünə gedəcəyini dostlarına danışmışdı? Bunu kim bilə bilərdi? O ki bu barədə heç kəslə kəlmə kəsməmişdi...

– Kimə, haçan, Sona?

Qız gülümsədi, sərvləri sığallayan xəfif bir meh kimi...

– Keçən məclisdə oxuduğun qəzəldə:

> O gün olsun ki, səri-kuyüvə düşsün güzərim,
> Özümü izzət ilə cənnəti-məvada görüm...

Şairin təlaşı sevincə çevrildi, əlini alnına sürtdü, o da gülümsədi:

– Mən şeir oxuyanda sən heç vaxt məclisdə olmursan, bəs bunu hardan eşitmisən?

– Qapının dalından. Rəqs qurtaran kimi biz otaqdan çıxırıq, şeir məclisi başlananda qapının dalına gəlib sənə qulaq asırıq. Mən də, İzzət də... elə o biri qızlar da... Sənin bütün qəzəllərini Nəcəfquludan əvvəl biz əzbərləyirik... Dəsti-xəttin çatan kimi...

Gənc şairin ürəyi az qaldı fərəhdən çatlasın. Sona onun qəzəllərini oxuyur...

– Sən oxumaq bilirsən?

– Bir az qara tanıyıram. Amma Ağa, sənin qəzəllərini öyrənmək üçün elə qara tanımaq da bəsdi, onlar elə rəvandır ki... Cənab Mahmud ağa buyuran kimi təbisəlim var sizdə... böyük Füzuli kimi... maşalla – namxuda.

– Mən ən xoşbəxt şairəm, Sona, şerimi sənin kimi bir dilbər oxuyub başa düşürsə, onu sevib əzbərləyirsə, daha nə dərdim...

Sona karıxdı, o söhbəti şeirdən salmışdı ki, Ağa "ayrı sözə" keçməsin. Halbuki söz buna yönəlirdi.

– Səni ilk gördüyüm gündən məftunun olmuşam, Sona, sən mənim bütün qəzəllərimdəki "büti-ziba"san, Şirinim də, Leylim də sənsən; adını bir qəzəldə çəkə bilməsəm də Züleyxa deyəndə, Əzra deyəndə, Leyli adı çəkəndə səni görürəm.

> Dünya üzü sərbəsər əgər hur olsun,
> Girməz gözümə, yüz gözü məxmur olsun,
> Ey Zöhrəcəbin, mah rüxündən ayrı
> Xurşidə əgər baxsa gözüm, kur olsun.

– İraq canından, Ağa, elə demə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavan çırpındı. Əllərini irəli uzatdı, amma rəqqasə də olsa, bu naməhrəm gəlinin əllərinə toxuna bilmədi. Ürəyi isə ilhamla dolmuşdu, sözlər öz-özünə həzin bir çeşmə kimi axırdı, arabir hicab daşına toxunub titrəyir, yenə də rəvan-rəvan süzülür, şahnazın həzin melodiyaları təkin pərdə-pərdə qalxır, enir, gah zildə, gah bəmdə sızlayırdı:

– Sən bizim Ceyrankeçməzin ürkək ceyranısan, Sona, sənin şəninə yüzlərlə qəzəl, rübai qoşsam, genə də dərdimi, hicranın, fərağın ələmini yazıb qurtara bilmərəm. Sənin rəqslərin mənim ağlımı başımdan alıb... Daha özümdə-sözümdə deyiləm...

– Bilirəm...

– Nədən? Mən ki bu günəcən səninlə kəlmə kəsməmişəm.

Qız başını salladı; dərdli-dərdli pıçıldadı:

– Gözlərindən bilirəm... hər dəfə məclisə çıxanda seyr etdiyim gözlərindən...

– Sən ki bir dəfə də olsun başını çevirib üzümə baxmamısan.

– Buna ehtiyac da yoxdur, Ağa, amma mən sənin bütün iztirablarını görürəm, sonra da şeirlərini dinləyirəm, bilirəm ki, mənə yazmısan...

Gəncin qorxduğu oldu: Sona onun ən çox ehtiyat etdiyi pərdələrdə çalmağa, xallar vurmağa başladı:

– Özün demisən ki, "bu rəsmdir ki, pəri mərdümə əyan olmaz", – amma mən əyan olmuşam. Səni sevmək səadəti mənə nəsib deyil, Ağa, mən Şamaxı arvadlarının "çəngi"deyib, namərbutları söydüyü, uşaqları qorxutduğu bədbəxt Sonayam.

Gənc bütün varlığı ilə etiraz etdi:

– Bədbəxt demə, yaradan Allah sənə elə bir qabiliyyət verib ki... Sən insanlara xoşbəxtlik gətirmək üçün yaranmısan...

Qız kəskin tərzdə başını qaldırdı; üzündəki həzin kədər izi silinib yox oldu; açıq istehzalı bir qəzəb duyulan səsi kimi, gözləri də qəzəb atəşi saçdı:

– Bəs özüm? Kaş heç verməyəydi, o qabiliyyəti mənə Allah... Mütrüf əlinə keçib çəngi olanacan, kaş yazıq anam kimi məni də dünyadan tez aparaydı; nakam – amma üzü hörmətli... Nə olsun ki, sən demiş, böyük qabiliyyət verib Allah mənə? Amma onun bu zəmanədə nə qədri var? Kimin gözündə bir füluscan qiyməti var? Tərsinə... Bütün bəla və işgəncələr mənə elə bu qabiliyyət ucundan gəlmirmi? Mən bunu başa düşürəm ki, insan əzab çəkməsə, heç bir istəyinə qovuşa bilməz! Sənətkar həmişə əzab çəkib, sonra ucalıb! Amma, əvvələn, mən özümü hələ belə layiqli bir sənətkar hesab eləmirəm,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ikinci, arvad xaylağıyam. Qadının heç bir haqqı olmayan bir zəmanədə sənətkar olmağından kimə nə fayda var? Nə çəngi adı alanın özünə, nə də ona nifrət gözüylə baxan, lənət damğası vuranlara! Mənim sənətim bir od-alov olub işıq saçsa da, istisinə heç kim qızına bilmir, tüstüsündənsə özüm kor oluram. Belə bir zəmanədə sənətkar olmağın nə faydası var, Ağa? Mən bir yandan el içindəki ayıblı adıma kor olub oturmalıyam, o biri yandan da bütün xoş xəyallara vida eləyib, məclislərində oynadığım adamlara həzz verməliyəm, vəssalam...

Qəzəbindən qızın cingildəyən səsi titrəyirdi.

Sona qarşısındakını qəzəl yazan və qəzəllərində pak məhəbbət, ecazkar Məcnun-Leyla, Vamiq-Əzra, Fərhad-Şirin məhəbbəti tərənnüm edən şair kimi sevir, dediyi qəzəllərdə Tərlan məhəbbətinin təzahürünü görür, bir az da Seyyid kimi şairi tanıdığı ilə fəxr edirdi. Sona onun tez-tez və çox-çox yazmasını istəyirdi, bunun üçün əlindən gələni də eləyər: məhz onun üçün rəqs edər, musiqinin ecazına dalıb özündən gedənəcən oynardı. Təki bu qəzəllər çox və daha incə yazılsın, onlardakı məhəbbət daha çox dərin və bihuşedici olsun. Burada şairin gözlədiyi məhəbbət yox idi. Qız onun üçün məşuqə deyil, ilham pərisi idi... Özü də bilmədən hər rəqsilə, hər bir baxışı ilə onu məhz yaratmağa səsləyirdi.

Şair isə, bir az əvvəl dediyi kimi, özünü şama çırpan pərvanə idi... Axı o cavan idi, o bu məhəbbətin hələ nə genişlikdə, nə dərinlikdə olduğunu dərk etmədən Sonanın rəqsinin gözəllik və qüdrətinə heyran olmuşdu... O qızı məhəbbətə çağırır, qız onu sənətə səsləyirdi...

Seyyid donub qalmışdı; o, gözəlin sözlərindəki həqiqət qarşısında aciz idi; halbuki elə zənn edirdi ki, böyük bir valehliklə rəqs edən cilvəkar qız, öz sənətinə heyrandır, vurğundur... Qız rəqs edəndə elə bil rəqsdən başqa heç nə görmür, heç nə duymur, heç nəyi sevmirdi, başqa bir həyat arzulamırdı... Halbuki...

Cavan kədərlə dilləndi:

– Mən elə bilirdim ki, sən sənətini sevirsən, bəyənirsən, Sona?!

Qız qəzəbini boğmağa çalışdı:

– Nə olsun ki, Ağa? Mənim də çörəyim ondan çıxır, kaş çıxmayaydı, çarəm nədi?.. Gözümü açıb onu görmüşəm. Doğrudur, mən musiqini çox sevirəm, bunu düz buyurursan, musiqisiz bir günüm olmasın, eşidən kimi dərdim-azarım yadımdan çıxır, qulaq asıram. Əlim-ayağım öz-özünə oynayır... Amma bu ayrı məsələ, sənin dediyin də ayrı məsələdi! Mən bədbəxt olmuşam, daha heç kəsi öz dalımcan sürüyüb quyuya qülzümə sala bilmərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən nə danışırsan, Sona, mən sənə...

Sona nə düşündüsə birdən söhbəti tamamilə dəyişdi və soruşdu:

– Bu gün Tərlan ağanı görmüsənmi?

– Yox, necə bəyəm?

Qızın gözləri yol çəkdi, dodaqları xəfif-xəfif, xüsusi bir nəvazişlə gülümsədi, dinmədi. Şair bu mübhəm sükut, bu titrəyən dodaqlar, parlayan şəvə kimi qara gözlərdən alındı. "Dayan, dayan, səndə nə isə var... Sən məndən Tərlanı nahaq soruşmadın, Sona, yoxsa ürəyində dostuma meyil doğub?" O, bir daha sualını təkrar etdikdə Sona sanki diksindi, elə bil yuxudan ayıldı, gözlərinə xəfif bir xumarlıq gəldi:

– Heç, elə-belə, dedim; dostundur, Ağa bilmirsən ki, axır vaxtlar Mahmud ağa məclislərində niyə görünmür, görəsən naxoş-zad deyil ki?..

Şair duyduğunu duymuşdu:

– Yox, xəstə deyil, amma Hacı Əsəd xəbər tutub, deyirlər yaman təpinib ona, ayağını kəsib məclisdən.

Sona bu xəbərdən bərk kədərləndi. Bu kədər də şairin gözündən yayınmadı, amma sözü zarafata salıb həqiqəti bilmək istədi:"Bəlkə Tərlanı yadıma salmaqla, mənə nə isə bildirmək, meylindən xəbər verib, arzularıma sərhəd qoymaq istəyir?!"

– Sona, deyəsən, dostum Tərlanı məndən çox istəyirsən?

– Bağışla məni, Ağa, adamın ürəyi dəstərxan deyil, hər yerdə açmaq olmur; könülə də zor yoxdur...

Cavanın ürəyi ağrıdı: "Kaş bunu əvvəldən duymuş olaydım, heç sənin ürəyini nahaq yerə təşvişə salmazdım, ay nazəndə mələk".

– Doğru deyirsən, Sona... Könülə zor yoxdur. Mən dostuma qibtə edirəm. Xoşbəxtdir.

– Nə fayda... – Sona yenidən halbahal oldu, həyəcanı artdı, bir az əvvəlki kimi qəzəbləndi, sonra yenə dəyişib yalvarışa keçdi:

– Bağışla məni, – dedi, – yesirin olum, Ağa məndən təhər eləmə, mən irəlidə də nə dediyimi yaxşı bilirdim, indi də. Elə sən də yaxşı başa düşürsən... Məndən nə ona, nə də sənə heç nə ola bilməz; heç biriniz xoşməşrəb cavan deyilsiniz ki, xuda nəkərdə qəbih fikirlə dalıma düşəsiz; amma düşündüyünüz də olan iş deyil, səni lənətləyərlər, Şamaxıdan didərgin salarlar, günüvü göy əsgiyə düyəllər, onu da Hacı tikə-tikə elər; əddinə qurban olum, Ağa özünü gözlə; məni də, özünü də sözə-sova salma... Daş-qalaq eləllər məni, sənə qurban olum, Ağa, mənim ürəyim sevdiyim insanların, arzusunda olduğum əməllərin qəbiristanına çevrilib, qəlbimdə bir qəbir də sən qazma!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şairin ürəyi sızıldadı, köksündəki yara zoqquldadı; o başqalarına sevinc bəxş edən bədbəxt insanı ovundurmaq üçün söz tapa bilmirdi. Ona elə gəldi ki, Sona açıq məzara diri-diri, gəlinlik duvağı, məşşatə bəzəyi ilə soxulmuş gəlindir! "Az ömrümdə bir çox açıq və örtülü məzar görmüşəm, amma heç birində sənin kimi canlı meyit, süslü gəlin görməmişəm. Göllərimizin yaşılbaş sonası, düzlərimizin körpə ceyranı, səni qadınlıq və analıq səadətindən məhrum edən zəmanə lənətə gəlsin".

Sona onun üzündən keçən kədəri, dərin-dərin qəlbini çulğalayan əzabı, yası duyurdu. Nə qədər gözüaçıq, görüb-götürmüş olsa da, birdən könlünə amansız bir qorxu hakim kəsildi. "Axı o seyid peyğəmbər övladıdı, narazı qaytararam, birdən Allah eləməmiş, qarğış elər mənə, nəfsi üstümdə qalar, yıxıllam qıçım sınar, ay Allah, mən nə iş tutdum. Peyğəmbər balasının, həzrət Fatimə nəvəsinin könlünə dəydim, ah-naləyə düşərəm; kaş dilim quruyaydı..."

Sona qəfildən əyildi, Seyidin əlindən tutdu. Cavan nə olduğunu dərk etməyə macal tapmamış, qız onun əllərini isti göz yaşları qarışıq odlu öpüşlərə qərq etdi. Şairin ürəyinin başı yandı. Qız deyirdi:

– Cəddinə qurban olum, məndən incimə, Ağa! Sənə sadağa gedim, mənə qarğış eləmə, yesirin olum, Ağa, məni ah-nalə yiyəsi eləmə!..

Şair indicə mətləbi başa düşdü: Sona qorxurdu! Axı ömrü uzunu görüb ki, qapıya gələn hər dərviş özünü seyid adlandırıb, cəddinin payını istəyib, verməyənə nifrin eləyib. "Aşıq gördüyünü çağırar, Sona fağır neyləsin". Onun üzündə acı bir istehza duyuldu: əllərini qızın əllərindən çəkdi, barmaqlarını onun saçlarına toxundurdu:

– Sən nə danışırsan, Sona? Mən o payyığan seyidlərdən deyiləm, sənin dərgahuva da cəddimin payını almağa gəlməmişəm. Sən mənim könlümün soltanı, gözəllər gözəli Sonamsan, sən mənim təbimin bəzəkli pərisisən. Mən qarğış-nifrin bilmirəm, bilsəm də sənə nifrin etsəm – özümə etmiş ollam. Əksinə, mən həmişə sənə minnətdar olacağam, mənim mələk misallı Sonam! Bəyəndiyin o qəzəllərimi mənə sən təlqin etmisən, sənin gözəlliyin, sənin sənətin yazdırıb onları mənə. Qoy mən də nakam olum...

– Allah əsirgəsin...

– Sənin kimi... Təki sən sevdiyin kimdisə, onunla xoşbəxt ol!

Birdən gənc şair nəyi isə xatırladı, xəfifcə gülümsədi, söhbəti dəyişmək üçün dedi:

– Hə, sənə bir qızılgül gətirmişəm axı, Sona, bir də süsənbər... Öz həyətimizdən dərmişəm... Mən həmişə bu güllərə baxanda səni düşünürəm... Sən bizim ellərin qızılgülüsən, Sona!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şair çuxasının iç cibindən, ürəyinə yaxın yerdən bir qızılgül, bir-iki də yamyaşıl, ətirli süsənbər yarpağı çıxartdı. "İlahi, o bunları cibində necə saxlayıb ki, əzilib solmayıb?" – düşünən Sona, dəmətciyi aldı, gül kimi zərif burnuna tutdu.

– Bağışla, səhvin var, Ağa! Mən qızılgül hardan oldum? Olsa-olsa boynu bükük bənövşəyəm, yaza həsrətəm... Ellərimizin qızılgülü isə sənin qəzəlindi... Əgər mənə bircə qəzəl yazıb versən, həm də onu təkcə mənə versən, təkcə mənim üçün düzsən, onda xoşbəxt ollam.

Şairin ilhamı coşdu, bu sözlər, ah bu sadə sözlər ona necə dəruni bir təsir buraxmışdı. O özünü saxlaya bilmirdi:

– Yaz, Sona, sənin üçün.

Gülşənlər içrə gər açıla səd həzar gül,
Sənsiz, gülüm, gələr gözümə nişi-xar gül.

Seyid dedikcə qız qızardı, güclə çatdırırdı. Amma yazırdı. Qəzəl bitər-bitməz, Sona minnətdarlıq dolu gözlərini şairə dikib dedi:

– Çox sağ ol, Ağa, bundan böyük mükafat görməmişəm, bundan xoşbəxt olduğum gün də yoxdu.

– Bundan sonra harda bir pəriçöhrəni təsvir etsəm, bil ki, o sənsən; nə zaman kuyi-dilbərdən söz açsam – bil ki, bu gün səninlə diz-dizə oturub söhbət etdiyim bu bəxtiyar dəqiqələri yadıma salıb yazmışam:

Gərəkdi kim, sala hal əhlini bəlayə fələk,
Verir həzar bəla mərdi-mübtəlayə fələk.

Əgər ki, bir-birinə mehriban ola iki kəs
Salar bəlavü qəmü firqəti araya fələk...

Şair ayağa qalxdı, Sona da durdu; indi onlar könlü qırıq, ruhu pərişan iki gənc idi ki, bir az əvvəl qəlbləri sevinclə, həmahəng çırpınan cavanlara bənzəmirdilər. Oğlan əlini bir daha qızın saçlarında gəzdirdi, göz yaşlarından islanıb alnına, yanaqlarına yapışmış çətir və birçəklərini kənar elədi:

– Əlvida, pərilər soltanı, inan ki, "Vəlleyl"[1] zülfündən, "Vəşşəms"[2] üzündən başqa Quranım olmayacaq...

– Bıy, nəüzənbillah...

---

[1], [2] Quran ayələrindəndir. Ərəbcə mənasına görə şair Sonanın saçlarını gecəyə (*leyl*), üzünü günəşə (*şəms*) bənzədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– *"Vermərəm könlümü bir dilbərə bundan sonra"* – arın-arxayın qal, Sona! Hər dəfə rəqsüvə baxdıqca sənətinə səcdə edəcəyəm, qaşların qibləm, kuyin Kəbəm olacaq. Sənə səcdə, sənin övsafın dinim, imanım olacaq. Ömrümün axırınacan, Sona! Qəsəm ol xaliqə ki, səni belə ecazkar yaradıb! Əgər ondan sənə dönmüşəmsə, qoy özündən küssün!

Qız yenə qorxu içində diksindi.

– Səni ki, o özü yaradıb, deməli, istəyib yaradıb, bəyənib yaradıb; Allah istəyənə heç nə olmaz... Qorxub eləmə, Sona! "Bir şəm ki, Həqdən yana, heç bad ilə sönməz!" Sənin şəmin Allahdan yanıb, bir tərəfdən səndən aldığının əvəzinə sənə elə bir qabiliyyət verib ki, sən insanlara səadət bəxş edirsən, bu, özü də böyük səadətdi.

Qapıda öskürək səsi eşidildi; yuxusu ərşə çəkilmiş, uzanan söhbətin məğzini, nəticəsini bilməyən Mütrüf Ədil həyətdə var-gəl edir, qorxu içində ətrafı dinləyirdi. Bilmək istəyirdi ki, görəsən Ağanın bura gəlməyindən, xudanəkərdə, xəbər-ətər tutan olub, ya yox? "Əgər xəbər tutublarsa, öyümüz yıxıldı. Bura Şamaxı deyərlər, sabah toylarda, qızyığdılarda, Fatma xanım bağındakı seyrlərdə xanəndələr, Ağanın macərasına söz qoşub oxuyacaq, təzə şəbədə, şəki dolu mahnı diləağıza düşəcək; bazarda "yağasər", "sələb" satanlar da bu təzə mahnını oxuyacaqlar. Şamaxılılar təzə xəbər aşiqidirlər, həm də bu təzə xəbərləri mütləq şeirlə, mahnı ilə yaymaq, dinləməyi sevərlər. Yox, şükür Allaha, deyəsən, görüb eləyən olmadı", – deyə Mütrüf Ədil qapının çəkməcəsini keçirib otağa qayıtdı. Sona üzüqoylu nimdərin üstünə düşüb ağlayırdı.

## BƏST[1]

Gecədən xeyli keçmişdi. Gözlərindən yuxu tökülən sazandalar evlərinə getmiş, otaqda təkcə Sona ilə Mütrüf Ədil qalmışdı. Onlar təzə bir oyun havasını məşq etməklə məşğul idilər. Otağın baş və ayaq tərəfində yanan iki onluq lampanın işığında Sona rəqs edirdi. Mütrüf Ədil əlindəki dəflə ahəng tutur və artıq qocalsa da, anası Gülzamanın çənəsi kimi möhkəm çənəsilə oyun havasını çalırdı. Sona rəqsin yeni yollarını, təzə hərəkətləri dönə-dönə təkrarlamaqdan yorulmurdu...

---

[1] Şərqdə müqəddəs məkanlar, pirlər, məclislər, bəzən hətta xalqın xüsusilə hörmət etdiyi seyidlərin evi bəst-pənah evi, sığınacaq yeri hesab edilmiş, bu məkanlara pənah aparan heç kəsə toxunulmamış, o amanda olmuşdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız oynadıqca onun kölgəsi divarlara düşür və sanki Sonanın dövrəsində onlarla xəyali rəqqasə fırlanır, onun hərəkətlərini təqlidə çalışırdı. Hər ikisinin başı rəqsə qarışmışdı. Bayır isə zil qaranlıq idi.

Gecə qorxunc, gecə sağır, gecə lal idi. Bu təhlükəli gecədə Sonanın başı üzərində koma-koma, dəstə-dəstə bulud toplandığı bir zamanda, onu tək-tənha qoymayaq, müdaxilə edə bilməsək də, görək, tale donuna girmiş xəbis adamlar onun üçün nə qurğu qurub?..

Qapı qəfildən açıldı. Dörd nəfər silahlı cavan otağa soxuldu; Ədil xəncərli, tapançalı bu cavanlardan tək bircəsini tanıdı. Bu, Qabıstan düzündən keçən karvanlara bəla kəsilmiş qaçaq Alış idi...

...Hər ikisi donub durdu. Ədil diz üstə, əlində dəf yerindəcə qalmışdı. Qorxusundan gözləri kəlləsinə çıxmışdı: "Evim yıxıldı, əlli ildə min töhmətnən qazandığım da, bu qaniçənə qismət olacaq. Allah sən saxla, – deyə düşündü, heç olmasa, sağ buraxa, dəyməyə mənə".

Sona da qorxmuşdu, amma onun qorxusu itirəcəyi qızılları, bəzəkdüzəyi üçün deyildi: "Ah, özün kömək ol, ya həzrət Abbas, heç olmasa, biabır eləməyələr, üzümün suyunu tökməyələr, elə-belə öldürələr gedəm, canım cəhənnəm. Ay Ağanın ceddi, sən kömək ol mənə". Bir anlığa Seyid Əzimin vida dəqiqələrindəki qəmli siması gözlərində canlandı: "Ceddin mənə qənim oldu, Ağa! Nəfəsini yaxşılığa açdınsa da, ceddin üzümə tüpürdü; peyğəmbər övladına ağ olmağın cəzasını yaxşı çəkdim. Kaş yesirin olaydım, sözünə baxıb dalıncan düşəydim, tövbə-istiğfar edib kənizin olaydım, Ağa". Sonra da Tərlanın məyus gözlərini xatırladı. Bir an, təkcə bir anda...

– Hə, necəsən, ay arvadsüfət? – deyə Alış, Ədilin üstünə bağırdı. – Qaladan qayıdanda yaxşı əlimə keçmişdin, yalvar-yaxar eləyib, yaxovu əlimdən qurtardın... İndi necəsən, tülənmiş tülkü?

Ədil kəkələdi:

– Necə o... o... lacağam... a... ağa... z... dövlətindən.

Alış güldü:

– Dövlətim sənə qənim olsun, hələ camaatın oğul-uşağın yoldan çıxartmaqdan əl çəkməmisən, a bihəya? Ayə, sən də aduvu kişi qoymusan? Bax, o başıörpəkli çəngi səndən min babət yaxşıdır, o heç olmasa arvaddı, Allah onu elə zəlil yaradıb! Bəs sən nəsən, hə? Molla sənə deməyib ki, tövbə elə, əl çək bu işdən?..

– Ağa... b... başuva dönüm, ç... çörəyim ondan... ç... çıxır... n.... neynəyim...

Cavanlardan biri əlini xəncərinə atdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ay səni sağ yeməyəsən o çörəyi, zəhərə dönsün o əppək... binamus... Alış ağa, izin ver gəbərdim getsin, Allaha xoş gedər...

Alış acıqlandı:

– Yox, ayə... Ağa Səməd, sən ölmə, özüm ölüm, gərək bunu burada bir zurnasız oynadam, qabırğalarını xəncərin ucuynan o ki var qıdıqlayam, sonra gəbərdəm. Özü də öz əlimnən. Sənə də, bax, o nazəninsənəm, firiştə-küftarı bağışladım, get, nə bilirsən elə...

Ağa Səməd narazı halda əlini şiş bığlarına çəkdi:

– Mən zənən xaylağına əl qaldırım?

– Ayə, o arvad nöşün oldu, o çəngidi... Get işində ol... – deyə Alış yenidən Mütrüf Ədilə tərəf döndü:

– Çox cavanları bu çəngilərin əliynən yoldan çıxartmısan, Mütrüf köpək oğlu! Səni öz əlimnən boğub gəbərdəcəm. Xəncərimi sənə vurub, bişərəf qanına bulamaram... Dur gəti görüm dür-düyünündə nəyin var, hə!.. Di tərpən... – o uzun xəncərin ucu ilə Ədilin böyrünə toxundu. Ədil əsə-əsə sandığına tərəf süründü, sözünə baxmayan titrək əllərilə ciblərini axtardı. Sonra yadına düşdü ki, açar boynundan asılıb, əlini köynəyinin boğazına atıb açarı çıxaranda Alış bir qəhqəhə sovurdu:

– Ay biqeyrət, açarı ordan niyə asmısan? Hə də, arvaddan, mütrüfdən nə baş verər bundan artıq...

Ədil sandığı açdı, qıfıl incə bir melodiya çaldı və otaqdakı qorxunc sükut içində qeyri-təbii səsləndi. Ədil sandığın içinə əyilib naxışlı pul kisələrini və qiymətli şeylər toplanmış düyünçələri çıxartdı. Alışa uzatdı:

– Baş...şına dönüm, ağa, al, halal xoşun...n... o...olsun, sən həzrət Abbas, öldürmə məni, məni çövür o cavanların başına, cavan Əliəkbərə bağışla...

– Kəss... naxələf, nadürüst, səni öldürmək ən böyük savabdı ki, ömrümdə birinci dəfə it öldürüb savab qazanacağam. Ayə, Ağa Əli, Ağa Hüseyn, gəlin tutun bu çəngibaşının əl-ayağını, əl-ayaq çalıb yorar məni, qoymaz işimi görəm...

Onun arxasında duran cavanlar "vay dədəm vay" deyib qışqıran Ədilin üstünə cumdular. Ədil özünü Alışın ayaqları altına atıb palçıqlı çarıqlarından öpməyə, yalvarmağa başladı:

– Ağa, sən imam, sən Allah, ağa, bağışla, qələt eləmişəm, əldən burax məni, çıxım gedim burdan, bir də qələt elərəm, günah iş tutmaram...

Alış ayağını Ədilin əllərindən dartıb ayrılmağa və boğazından tutmağa çalışırdı, əyilmişdi, qan üzünə vurduğundan tərləmişdi, alnı qızarmış, islanmış, gözləri qan çanağına dönmüşdü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kəs, məlun, sənə çox deyiblər, haçan qulaq asmısan? Molla sənə nə qədər nəsihət eləyib, birinə baxmısan?

Ədilin əli hər yerdən üzüldü, Ağa Əli ilə Ağa Hüseyn onun qıçlarını və qollarını boğmuşdu; Alışın barmaqları boğazına keçəndə, o ömrünün başa çatdığını anladı; son nəfəsdə mütrüfə sanki bir anlıq cürət gəldi; bağırdı:

– Heç sən özün də məndən fərri deyilsən, yolkəsən, qaniçən quldur... Sənə də az tövbə verməyiblər...

Ədil xırıldadı, onun rəngi boğuldu, göyərdi, səsi kəsildi. Dili ağzından çıxdı. Alış isə hələ də onun boğazını sıxmaqda davam edirdi, barmaqları açılmırdı:

– Ay əclaf, arsız. Mən sarı urusun yolun kəsib qaçaq olmuşam, din, şəriət yolunda güdaza getmişəm, lənətlik...

...Sonanın vəziyyəti Ədilinkindən yaxşı deyildi. O elə bil ayaq üstündə ölmüşdü. Danışa, yalvara bilmirdi: vuruşmaq, didişmək bacarmırdı. Qarşısına yeriyən bu qamətli, boy-buxunlu, beli xəncərli, qaraqaş, qarabığ, gözləri qızarmış cavan, əlinin yüngül bir zərbəsi ilə o zərif məxluqu yıxıb öldürə bilərdi. Sonanın ağ ipək köynəyi altından tez-tez qalxıb enən köksündə ürəyi, bala sərçə ürəyi kimi çırpınırdı. Cavan qaçaq yaxınlaşdıqca Sona geri çəkilirdi, beləliklə onlar otağın baş tərəfinə – lap divarın dibinəcən getdilər. Arxası divara dəyəndə Sona çırpındı, qəfəsdəki bülbül kimi həzin-həzin nalə elədi:

– Qardaş, qurbanın olum, vuran əlüvə qurban olum, öldür, qanım halaldı sənə, amma namussuz eləmə məni, o dünyada həzrət Fatimə qulluğunda ətəyündən yapışıb şikayət elərəm...

"Namus"... Çəngi dilindən eşidilən bu söz oğlana gülünc göründüsə də, birdən-birə üç şey ona qalib gəldi: əvvələn, o qızın gözəlliyinə, incəliyinə heyran olmuşdu, bu gözəl çiçəyi qırıb atmağa, bu xınalı kəkliyin nəfəsini kəsməyə, körpə ceyranın gözlərini yaşartmağa əli gəlmirdi. Digər tərəfdən, Ağa Səməd Allahdan qorxan gənc idi, qadın ona elə bir and vermişdi ki, o bu anddan keçsə, arvad xaylağına əl qaldırsa, əbədilik özünü günahkar sayacaqdı. Üçüncü tərəfdən, Ağa Səməd namus əsiri bir cavan idi. O yer üzündə namusu hər şeydən üstün tuturdu. Qarşısındakı çəngi olsa da, namusu üçün əsir, ölümündən qorxmurdu. Əgər Sona diz üstə düşüb Ədil kimi onun ayağından öpsəydi, nə olursa olsun sağ buraxılmasını xahiş etsəydi, Ağa Səmədin əli titrəməz, dərhal Sonanı öldürərdi. Halbuki, Sona ölümü namussuzluqdan üstün tutmuşdu. Bu üç səbəbə görə də Ağa Səməd Sonanı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

öldürmədi, ona əl belə uzatmadı, başı Ədilə qarışan Alışa tərəf ötəri nəzər atıb pıçıldadı:

– Yıxıl yerə, Sona, özünü ölülüyə vur, səhər gizlin şəhərdən itil, yoxsa Alış bilsə səni sağ qoymuşam, dərüvə saman təpər.

Sona əvvəlcə inanmadı, sonra gəncin gözlərinə baxıb onun doğru danışdığını anladı, böyrü üstə yerə sərildi, onsuz da güclə ayaq üstə dururdu...

...Alış qalxdı. Artıq Ədilin nəfəsi tamamilə kəsilmişdi. O, əllərini çuxasının ətəklərinə sildi, yerə düşmüş papağını Ağa Hüseyndən alıb başına qoydu, Ağa Səmədə tərəf döndü:

– Hə... sənin işin nə oldu?

Ağa Səməd dik onun gözünün içinə baxıb saymazca dedi:

– Deyəsən, qorxudan ürəyi partlayıb; heç əl vurmamış o dünyalıq olub...

Alış ucadan güldü:

– Baxtın işləməyib, neyləmək olar. Qalsın gələn səfərə... Hə, uşaqlar, tez olun, əkilək, Hacıya muştuluğa. Biz əhdimizə vəfa eləyib fitnə yuvasını dağıtdıq.

Onlar tələsik otağı tərk etdilər.

Qan olmuş, meyit düşmüş bu evdən qanlı bir dəstə çıxırdısa da, yerdə qan izi görünmürdü.

...Sona yerindən qalxdı, taqəti kəsilmiş dizlərini ovuşdurdu: "Hara gedim, Allah, kimə üz tutum? Bu göy çadır altında kimim-kimsəm yoxdu. Nə ata, nə qardaş, nə ana! Kimin qapısını döyüm, kimdən imdad istəyim", – deyə düşündü, əvvəlcə ağlına Mahmud ağa gəldi: "Əl tutar, qoruyar məni bu bəladan, ürəyi nazikdi, dərdimi deyərəm çarə elər mənə". Sonra fikrini dəyişdi: "Yox, orda hamı məni tanıyır, hamı bilir ki, mən kiməm, o saat səs hər yerə yayılacaq. Alış xəbər tutub biləcək ki, sağam, ölməmişəm. Yerin təkində də məni gizlətsələr, tapıb axırıma çıxacaq. Yox, bu olmaz, gərək heç sağ qalmağım yerli-dibli bilinməsin, yoxsa o cavanı da bədbəxt elərəm. O məni binamus eləmədi. Mənə əl vurmadı. Gərək elə eləyim ki, onun adı heç yerdə çəkilməsin, izim-tozum bilinməsin. Təki o sağ qalsın". Alışın qan sağılmış gözləri yadına düşəndə Sona ağrılarını unutdu, hövlnak yerindən durdu: "Əvvəl bu qan ocağından uzaqlaşım, sonra de görüm başıma nə çarə qılıram".

İlk xoruz banı eşidiləndə, Sona cəld yerindən qalxıb, əyninə köhnəkülə geyindi. Qız taxçadakı Füzuli divanı arasından içərisinə nə isə qoyulmuş iki vərəq kağızı alıb bükdü və cunayısının ucuna bağladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunlar Seyyidin ona verdiyi suyu çəkilmiş qızılgül və qəzəllər idi. Qız təhlükə vaxtında da onu unuda, bu qan ocağında qoyub gedə bilmədi: "Sabah bütün bunlar tökülüb-töküşdürüləcək. Ağanın yazıları ələ keçər, Allah eləməmiş! Həm də seyid yazısıdı, dua kimi şeydi, mənə cəddi kömək olar", – deyə cunanın ucunu qoynuna, ürəyinin üstünə qoydu və qara nimdaş çarşaba sıx-sıx bürünüb küçəyə çıxdı. Ətrafda hənirti yox idi. Səs-səmir eşidilmirdi. Sübhün alaca toranında Sona on-on iki il ömür sürdüyü, artıq onun üçün doğma olmuş məhəlləni əbədilik tərk etdi. O burada anasını, son ümidini torpağa basdırmışdı, o bu məhəllədə musiqinin nə olduğunu başa düşmüş, qüdrətinə valeh olmuş, el gözündə lənətli sənət sayılsa da rəqsə bağlanmışdı. O bu məhəllədə əbədi olaraq qadın və ana olmaq səadətindən məhrum olmuş, çəngi damğasıyla damğalanmışdı. Bu məhəllədə onun sevdiyi bir şəxs yox idi. Hörmət edən də yox idi. Bu məhəlləyə gələn hər bir kişi ona nəşə mənbəyi kimi baxmış, hər bir qadın onu özünə rəqib bilib nifrət etmişdi. Sonanın bu yerlərdə heç nəyi qalmırdısa da, nədənsə, bir anlıq ürəyi əzildi. Axı necə olsa on-on iki illik ömrü bu yerlərdə keçmişdi.

Duyduğu hər bir hənirtidən ürkürdü. Sübhün bu erkən çağında kimə rast gəlsə, ona şübhə ilə baxacaqdı. Belə tezdən küçədə görünən qadın kim ola bilər? Bu hal hamıda maraq doğurar, sirri açılar. Bacardıqca bu yerlərdən tez uzaqlaşmaq lazımdır. Nə qədər basqın səsi, mütrüfün ölüm xəbəri yayılmayıb, qaçmaq, aradan çıxmaq vacibdir. Sona evlərin, çəpərlərin, divar və hasarların kölgəsi düşən yerlərlə gedirdi.

...Ayaqları onu elə bir yerə gətirib çıxartdı ki, nə ağlı, nə də ürəyi buna razı olmazdı. Bu onların qapısı idi! Onun!.. "Aman Allah, mən onun da başını bəlaya sallam! Mən bura nə üçün gəlmişəm? Bəs hara gedim? Hara? Ay yeri-göyü yaradan Allah! Kimə üz tutum?"

Hava aralanmışdı. Evdən azacıq aralı Qalabazar məscidinin minarəsindən azançının səsi ucaldı... Bu Şamaxı məhəllə məscidləri içərisində, Şamaxı azançıları arasında gözəl səsi ilə tanınmış Kəblə Mürvət idi. Onun çəkdiyi azan ürəklərə işləyirdi. Kəblə Mürvətin azanı başqa məhəllə möminlərinin qibtəsinə səbəb olurdu. "Əşhədü ənna la ilahə illəllah"... Kəblə Mürvət sanki ağlayır, dibsiz göylərə minlərin, milyonların naləsini, fəryadını çatdırmağa cəhd edirdi. "Əşhədü ənna Mühəmmədən rəsulullah" – Sona bu səsi eşidəndə titrədi, ürəyində anlaşılmaz bir ümid doğdu: "Bəlkə məscidə gedim, bəstə girim, aman istəyim, Allahın evində mənə heç nə eləməzlər", deyə məscidə, "la ilahə" səsi ucalan səmtə tərəf bir addım atdı. Lakin dərhal fikrindən



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

döndü: "Yox, onda bəs Ağa Səməd? Bəs Alış bilən kimi ona divan tutmazmı? Yox, o mənə inandı, şəhərdən yox ol, Alış bilməsin", dedi. Sona fikrini toplayıb nə edəcəyini, hara üz tutacağını qərarlaşdırmağa macal tapmamış, qarşıdakı alçaq qapıdan əli boğçalı bir kişi çıxdı. Şiş uzun papaq qoymuş, qara əbalı, ayağı nəleyinli kişi "lahövlə vəla qüvvətə illa billahi əliyül əzim" – deyə əqiq üzüklü barmağını bığlarını, sonra da saqqalına çəkib maraqla Seyid Məhəmmədin hasarına sığınmış zənən xaylağına baxdı: "Bu kim ola? Pay yığana oxşamır, bir də bu vaxt pay yığan qapıya gəlməz. Minasoltan da deyil, təhrindən cavan adamdı. Yəqin naxoşu-zadı var, ağanın canamazın, ya da Quranın aparmağa gəlib onuyçun", – deyə kişi qonşu evinə gələn naməhrəm arvada diqqət etməyi ədəbdən kənar iş hesab elədi və qələmkar boğçasını qoltuğuna sıxıb hamama tərəf yollandı. Bu, Məşədi Qənbər idi, o adəti üzrə "təkbir" deyə-deyə tələsik gedirdi; axı sübh namazının vaxtı keçirdi, qüsl etməli, dəstəmaz almalı idi.

Əgər Sona, kişinin nə fikrə gəldiyini duya bilsəydi, bəlkə də əlini qapının çaxçaxına atmazdı, sübh namazı üçün dəstəmaza çıxan Minasoltan da, qapını açıb heyrət və təəccüblə donub durmazdı.

Şirvanda yaşlı adamlara kiçiklər tərəfindən bir "hörmət adı" qoymaq dəbdi. Evə gəlin gələn gündən kiçiklər gəlini: gəlin soltan, qönçeyi-can, gəlin də qayınlarını mirzə dadaş, ağa dadaş, baldızlarını yaşına və mövqeyinə görə Minasoltan, işvərcan, noğulbacı, bircəbacı adlandırırdı. Seyid Əzimin anasının əsil adı Kiçginə xanım idi, amma bütün əqrəba Şirvan qaydasında ona Minasoltan deyirdi. Biz də gəlin onu elə bu adla adlandıraq.

Minasoltan dedi:

– Keç içəri qızım, nə istəyirsən?

Sona cəld içəri soxuldu; qapı arxasınca bağlandıqda, bu evə fəlakət gətirə biləcəyindən narahat olsa da asudə nəfəs dərdi.

– Sənə pənah gətirmişəm, xala, göydə Allah, yerdə sənə... Məni Ağanın başına çevir, – deyə yerə çökdü, arvadın ayağına sərildi.

Namaz, dəstəmaz Minasoltanın yadından çıxdı, o danışmağa söz tapmırdı; kimdir bu gəlin, bu naməlum arvad? Kimdən qaçıb, nəçidi? Ərinin yumruğu altından qaçıb ona pənah gətirən qohum-qonşu arvadı da deyil, tanımır onu...

– Axı kimsən, ay bala, dur ayağa, özünü yerə sürtmə. Mən növzənbillah, imam-övliya döyüləm, Allaha xoş getməz, ayağıma neyşə yıxılırsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Göydə Allahı, yerdə səni deyib gəlmişəm, – o ağlayırdı. – Mən heç içəri girmək istəmirdim. Qapınızda durmuşdum, yer üzündə üz çevirəcək yerim yoxdu. Tutacağım yoxdu; yad kişi gördüm, qorxudan döydüm qapınızı. Qoy azacıq keçsin, özüm çıxıb gedərəm, indilik qovma məni...

Arvadın heyrəti, bununla belə təşvişi də artırdı. Sonanın qorxusu, həyəcanı ona da sirayət etmişdi. Bununla belə gəlini sakitləşdirmək üçün dedi:

– Kimdi səni qovan axı, niyə elə deyirsən, heç Allah qonağını qovarlar? Hələ bu qapıdan bir şəxs naümid qayıtmayıb...

Əgər o, qadının kim olduğunu bilsəydi, bəlkə də bu sözləri deməz, Sonanın üzünə heç qapı açmazdı...

Həyətdəki hənirti Seyid Əzimi heyrətə saldı. Azan qurtarmışdı; anası çoxdan dəstəmaz alıb qayıtmalı, namaza başlamalı idi. Sübh namazını ömründə gecikdirdiyi olmamışdı. Həm də həyətdə kiminləsə danışır, deyəsən. Gənc geyinib həyətə çıxdı. Çadrası çiyninə düşmüş, saçları pərişan halda kürəyinə, döşünə dağılmış, üzü ağlamaqdan, taqətsizlikdən və qorxudan solmuş Sonanı görüncə nə isə bir bədbəxtlik üz verdiyini başa düşdü:

– Sona!.. Nə olub, sən burda nə gəzirsən?

– Sona?.. – Minasoltan karıxdı: "Bıy, başıma xeyir, Ağa bunu hardan tanıyır, bəlkə istəklisidi, bəlkə atası evindən qaçıb? Allah sən saxla"... Arvadın gözləri böyüdü. – Ay bala, sən bunu tanıyırsan?

Seyid Əzim anladı ki, anası hələ qarşısında ağlayan qadının kimliyini bilmir. İzahatı sonraya qoydu. Sükunətlə soruşdu:

– Ana, dəstəmaz almısan?

– Hə, bala!..

– Onda sən namazını keçirmə, mən sonra özüm sənə hamısını danışaram, keç, görüm nə olub? Gəl, gəl, içəri, Sona.

Kimliyini Minasoltana ilk anda bildirmək əzabından onu xilas etdiyi üçün, Sona, gənc şairə minnətdar idi.

Minasoltan təşviş keçirsə də, namaza getdi, oğlunun bu naməhrəmlə nə danışacağını bilməsə də, ana qəlbi öz balası üçün narahat idi, həmdsurə arası ondan asılı olmayaraq ürəyi pıçıldayırdı: "Allah, sən mənim balamı qada-baladan, yerin-göyün afətindən öz pənahında saxla".

...Seyid Əzim Sonanı bala otağa gətirdi. "Bəlkə, mən çıxıb gedim, Ağa, sizi də qana salmayım" sözlərinə əhəmiyyət vermədi:

– Sən heç yerə getməyəcəksən, Sona, ağır ayaqda məni yadına saldığın üçün sağ ol. Hə, otur, indi de görüm, nə olub?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sona gecəki hadisəni yadına saldıqca titrəyə-titrəyə sözə başladı:

– Gecə qaçaq Alışın adamları Mütrüf Ədilin evinə basqın elədilər. Soydular, özünü də öldürdülər... – Sonra da hadisəni olduğu kimi nağıl eləyib əlavə etdi:

– Çıxanda o məni ölmüş bilirdi, dedi ki, indi gedək Hacıya xəbər verək ki, fitnə yuvasını dağıtdıq, biz onun tapşırığını yerinə yetirdik, o da əhdinə vəfa qılıb bizə zamın dursun – üzə çıxartsın.

– Hansı Hacı, bilmədin?

– Ad demədi, amma onsuz da bilirəm ki, Qapaqlı Hacı Əsəd olacaq.

Gənc məsələni anladı. Bu onun dostu Tərlanın atası idi: "Yəqin Tərlanın macərası qulağına çatıb, qoca qurd Alışnan bağlaşıb, bu pəstahanı açıb. Yazıq Sona". Minasoltanın dili dua oxuyurdusa da, bala qorxusundan qulağı səsdə idi. Məsələni anlayanda namazını da yanıldı, amma bu Sonanın hansı Sona olduğunu hələ də aydın daşa düşmədi. Mütrüf sözündən şəkkə düşdü, onsuz da son zamanlar arada-bərədə qulağına dəyirdi ki, Ağa da "Mahmud ağanın otağına gedir", amma o qədər də inanmırdı. Arvad Allah qorxusu ilə namazı kəsmədi, amma necə başa vurduğunu da bilmədi, tələsik canamazını yığışdırıb gənclərə yanaşdı:

– Bu hansı Sonadı? Hə? O çəngidi yoxsa? Allah eləməmiş hərçənd üzündən heç oxşamır...

Seyid Əzim vəziyyətin ciddiliyinə baxmayaraq anasının sadəlövh sualına gülümsündü: "Onun nəzərində çəngi necə olur görəsən?" Məsələni birdəfəlik qət etmək istədi:

– Odu, məmə, bu elə o bədbəxt Sonadı?

Arvad odlandı:

– Bədbəxt niyə? Canı çıxsın! Kişilər qabağında oynayanda bilmirdi ki, Allah adama belə qənim olar? Bəs mənim evimdə çənginin nə ölümü var? Sən onu hardan tanıyırsan, bala?

Anasının əzab çəkməsi onu sarsıtdı:

– Ana, o sənə pənah gətirib...

Arvad çox acıqlanmışdı, nə dediyini heç özü də bilmirdi:

– Getsin Mahmud ağadan kömək istəsin, onun qabağında oynayıb, kefi olara, dərdi bizə? Bir də ki, bizim ev bəst-zad deyil ki! Pənahı Allaha apararlar, Allahın evi də məsciddi...

Seyid Əzim anasını dilə tutmağa başladı:

– Ana, əvvəl bir gör nə deyirsən axı? Onun getməyə yeri olsaydı, öldürsəydin də, bura gəlməzdi, məni də bəlaya salmaq istəməzdi. Elə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

seyid evi də bəstdir, ana, özün, bayaq dedin ki, bu qapıdan hələ heç kəs naümid qayıtmayıb. O da qayıtmayacaq. Sən istəyirsən ki, tanıyıb sağ qaldığını bilsinlər, iki qana bais olaq?

– İki qana neyşə, bu elə ölməlidi... qanı halaldı...

– O Allahın işidi, ana, Allah istəyəndə əzrayılını göndərər, canını alar. Amma, görünür, Allah istəməyib! Gecə quldurun birinin ona rəhmi gəlib, amma biz rəhmsizlik eləyək, onun da, ona nicat verən Ağa Səmədin də qanına bais olaq?

Minasoltan duruxdu. Seyid Əzim gördü ki, anasının anlayışlarına münasib gələn sübutlar, arvadın qəzəbini azaldır. Əslində Minasoltan əzazil arvad deyildi: onu iki şey narahat edirdi: birinci çəngiyə rəhm etməklə Allahın qəzəbinə düçar olmaq; ikinci balasının bu xatalı işə qarışması ilə fəlakətə düşməsi. Seyid Əzim bunları yaxşı anlayır, anasının ürəyindən keçənləri yaxşı bilirdi. Odur ki, mülayimliklə anasının əllərini əlinə aldı:

– Ana can, mənə inan, onu hardan, necə tanıdığımı sonra sənə deyərəm, indi vaxtı deyil, inan ki, bir neçə vaxt əvvəl həmin bu Sona, sənin oğlunu, sənin xatalı hesab etdiyin bir addımı atmağa qoymayıb. Sən ona borclusan. Bu gün də borcunu əda elə. Mənə tək bircə gün möhlət ver. Bu gecəynən o burdan salamat bir yerə çıxıb gedər. Amma bir şərtlə; gərək onun burada olmağını heç kəs bilməsin. Evə gəlib eləyən onu görməsin, yoxsa mənə də xoş keçməz.

– Allah, sən saxla! – deyə Minasoltan yerindən qalxdı. Arvadın başqa çarəsi qalmamışdı.

...Şair bazara girəndə bazarda səslər bir-birinə qarışmışdı; ağız deyəni qulaq eşitmirdi, dəmirçilərin, nalbəndlərin, misgərlərin vurduğu çəkicin, xarratların rəndəsinin səsi aləmi başına götürmüşdü. Ayaqçılar, tabaqçılar, suçular, sələb satanlar bir-birinə qarışmışdı.

– Sələb – sineyi-məlhəm...

– Həlvayi-təntərani...

Ta nə xori, nə dani[1]...

– Yağasər, yağasər[2]...

– Tehrani, tehrani...

Səs kallaşmış xırdavatçı Cuhud Şəmi xırıltılı səslə bazarın qapanlardan yuxarı, Cuma məscidinin dalında düşmüş Nabırrı köçünün ətrafında

---

[1] Yeməyincə dadını bilməzsən.

[2] Buz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fırlanırdı. Köç burada bir gecə dayanacaqdı. Mal-qara dağa çoxdan qalxıb, arvad-uşaq yaylaq yolu üstündə bazarlıq eləməlidir. Cuhud Şəminin xırdavat qutusundakı malların çoxunu onlar alır.

– İynə, qıyıq, qaytan, qaragöz hərəmi, bafta...

Bazar... hərənin öz mətaı var...

Şair bu rəngarəng səslər aləmini daima qəribə bir maraq və nədənsə təşvişlə dinləyirdi. İndi də...

– Yer pələngi...

Dərya nəhəngi...

– Ləbləbi kişmiş.

Gəl, ay dişləri düşmüş.

– Gəl Zol Hüseynin dovğasına.

Bu sənin payın, bu gendən baxanın payı, ağzının suyu axanın payı.

– Ağ gilabı alan, ağ gilabı alan, ağ-sarı gilabı alan!..

– Zəfəran, zəfəran.

Ətri bir aləm, rəngi kəhrəba.

Dürri-Bəkidi, baba.

Bəy malı, xan malı.

– Lahıc başmağı; dörd abbası, buyurtdurma səkkiz abbası...

Bazar... hərənin öz dərdi var.

Bir dəvəçi şairi əyləyib əlindəki pulu nişan verir, soruşur:

– Ay qardaş, bu pul nə qədərdi?

Bir küncdə mirzə oturub, dizinin üstündə nə isə yazır. Qarşısındakı balaca yeşiyin üstündə fal kitabı var. Küçə mirzəsi arabir, yeri düşəndə fala da baxır. Yüngül dərdlərə dua da yazır.

– Al, bu üzərrik, bu da meymun tükü, qoy arasına, mal ayağı vaxtında yandır, tüstünü ver azarlıya, dərdi, bəlası gedər. Üzərrik tapmasan, yeddi adamın adına bir çimdik duz bük göy əsgiyə, yandır, qurtarsın getsin.

Şair ötdükcə pıçıldayır:

– Kaş bütün dərdlərin dərmanı belə asan, sadə olaydı.

Qoca bir tərəkəmə arvad... Nabırrı köçündən ayrılıb gəlib, "Nabırrı köçü bərkə dayanan vaxt". Onun da dərdi mirzəlikdi.

– Başına dolanım, inəyimin südü xarablayıb, hər sağanda bir səmic sağıram, yağ düşmür, tuluq gətirmir, yaman gözə mil batsın, molla pitik yazıb dedi "bağla inəyin boynuna", bağladım, çarə olmur, sən bir al oxu, özün o kəlamına qurban olduğum kitabına bir dərin bax.

Mirzə üçkünc "duanı" açıb baxır, oxuyur, dodaqları qaçır:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Ay gəzəyən Xanımağa,
Pitik neynəsin yağa?
Yançağını bas yerə
Cəhd elə çalxamağa".

"Yazıq, cahil arvad, amma nə şux şair "mollaya" irast olmusan?"

O kitabı götürüb öpür, dizi üstünə alır və öz növbəsində tovlamağa başlayır. Şair təəssüflə başını bulayıb keçir.

Bazarın ayağında qapanlardan aralı iki kəndli durub. Onlardan biri cavan, ikincisi orta yaşlıdır. Bir az əvvəl onlar kənddən bazara gətirdikləri matahlarını satıb evə dönməyə hazırlaşır və aldıqları bazarlığı köhnə, yamaqlı xurcuna yığırlar. Dıbır Əli adlı cavan kəndli boş çuvalları da çırpıb qatlayır və onları da azacıq bazarlığın yığıldığı xurcuna yerləşdirir. Eşşək acdır. Ağzını saysız-hesabsız ayaqlar altında əzilib vala un kimi olmuş torpağa sürtür, yeməyə yararlı bir tutam ot belə tapmadığından fınxırır və tozu göyə qaldırır. Eşşəyin ac olduğunu gördüyü üçün bazardan tez uzaqlaşmağa çalışan yaşlı kişi – Məhəmməd Hüseyn bazarlığını hesablayır:

– Ayə, Dıbır Əli, mən deyim, sən say; iki çuval təzək gətirmişdim. Verdim onu xarrat Qulunun külfətinə, aldım hər çuvalına iki şayı, ondan da verdiyimi deyim; bir şayı iynə-qıyıq, bir şayı cöz-bağırsaq, bir şayı qəndəf... Mənə də qaldı bir şayı... düz eləyir?

Cavan şair bu sadəlövh hesablamaya gülümsəyir. "Yazıq bir abbası qara pulu da hesablayıb qurtara bilməyən yazıq. Yaxşı ki, fitri istedad bu bisavadlığa qalib gəlir, sən yaşayırsan, bütün qanunlar sənə ölüm hökmü versə də, sən yaşayırsan, yox sürünürsən, amma sənin oğul-uşağın belə yazıq olmamalıdır, onlar heç olmasa ağı qaradan seçməli, oxumalıdır. Bircə Allah əcəldən aman versə, arzuma çatsam, bir məktəbxana açsam..."

Şair düşünə-düşünə irəliləyir, Cavadı axtarır...

Bazar... hərənin öz əyləncəsi var... biri yetim Hüseynin məzəli-məzəsiz mahnılarını dinləyir, bir başqası təzə şeir dəlisi, məclislər bəzəyi, duzlu baməzə Cavadı dinləməyi xoşlayır. Cavadı çox vaxt Bəzzazbazar cərgələrindəki boş meydançada görmək olar, bura nisbətən sakitlikdir; hay-küy azdır, qoca tut ağacının altında bir neçə iri daş qoyulub. Cavad adətən bu daşlardan birinin üstündə oturur, ətrafı da həmişə dolu olur, bekarlar, yetiklər. O, kürəyini qoca tuta söykəyir, sür papağını alnından dala itələyir, nazik vücudunu kip tutmuş zərif çuxa, sağrı başmaq geyir. Tərkbəndi zərif naxışlı, kaşı işləməli gümüşdən-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dir. Sarışın, alagöz, ağ bənizlidir. Ala gözlərinin hər birində bir cin oynayır. Belə qaynar ala göz Cavaddan başqa heç kəsdə yoxdur. Cavad ömründə bir dəfə oruc tutub, namaz qılmayıb. Möminlərin onu görəsi gözü yoxdur. Bəzi mollalar bu qorxunc rəqibdən yaxa qurtarmaq məqsədilə onu şirnikdirmək üçün eşitdirirlər: "Peyğəmbər səlavatüllahı güldürən ərəb təlxəyi kimi o namərbut da bircə dəfə "əstəğfər" desə, hoqqabazlıqdan, adama sataşmaqdan əl çəksə, yeri behiştdir". Amma bunu ona çatdıranlara Cavad belə cavab verir: "Qorxma, bacıoğlu, Cavad, Şirvanı Cavadsız qoymaz".

Cavad, qədim əyyarlarla, şah təlxəkləriylə, müasir meyxanaçı sərpayıları, xəlfələri özündə birləşdirən bir adamdır. Hər yerdə kimə sataşılsa bilir, bütün həcvlərdən ilk dəfə xəbər tutur, dünyanın axırında da birinə dəyən bir söz yazılsa, hamıdan əvvəl əzbərləyib oxuyur. Dalı dağa bağlıdı. Mahmud ağanın, İsmayıl bəyin, Hacı Rza bəyin qorxusundan heç kəs ona dəyib-dolaşa bilmir. Cavan Şamaxı cavanlarının, harın bəyzadələrin quraşdırdığı bütün əyləncələrin iştirakçısı bəlkə də təşkilatçısı və rejissorudur. Deyirlər bir dəfə Mahmud ağanın məclisində necə olursa, ölümdən, qəbiristandan söz düşür. Cavadın məzəliliklə ölümdən qorxmasına sataşdığı Mahmud ağa deyir:

– Aadə, Cavad, Əhməd ağanın ruhuna and olsun, ölümdə yaxşı bir şey yoxdu ki, ondan qorxmayasan da. Siz lotular söz bir eləyib anamın dəfninə gəlməyən gündən sonra[1], söz vermişəm, camaatın xeyir-şərinə çıxıram. Amma elə genə də xofu ürəyimdən getmir. Sən özün qorxmursan?

Cavad and içib deyir:

– Yox, ağa, izin ver, sözümü sübut eləyim?

Mahmud ağa gülür:

– Necə sübut edəcəksən?

Cavad yerindən qalxır.

– Ağa əmr elə, tava, yağ, bir də un hazırlasınlar. Gedim yeddi günbəzə, gecəynən çırpı yığım, ocaq qalayım, halva çalıb qulluğunuza tər halva gətirim, yeyək damağımız şirinlənsin.

---

[1] Deyilənə görə Mahmud ağa cənazə mərasiminə getməzmiş, həyat eşqilə ölümdən qorxarmış, dostları ona təziyədən imtina adətini tərgitmək məqsədilə söz bir edir, anası vəfat edərkən dəfn mərasiminə getmirlər, cənazə ortada nökərlərlə tək qaldığını görən Mahmud ağa məsələni başa düşür ki, insan sevinc və kədər anlarında bir olmalıdır. Nökərləri göndərir ki, "səhv elədiyimi başa düşdüm, gəlib anamı dəfn etsinlər. Bundan sonra elimin – camaatın hər bir işində hazıram".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məclisdəki bəyzadələrin əksəriyyəti Cavada qahmar çıxır. Cavad gedir. Bəyzadələrdən biri deyir:

– Əh, ona cin Cavad deyərlər, gedib evində halvanı arvada çaldıracaq, gəlib deyəcək ki, buyurun yeddi günbəzdə çalmışam, o, şeytana papış tikənin biridi...

Cavadı yoxlamaq üçün ürəkli cavanlardan bir-ikisi özlərilə mələfə də götürüb qəbiristana yollanırlar. Burada Cavadın hənirtisini duyurlar, o, doğrudan da günbəzlərdən birinin içində ocaq qalayıb halva çalırdı. Qovrulmuş unun xoş ətri gələnlərin burnuna vurur. Gənclərdən biri köynəyinin qolunu dirsəyədək çırmayıb mələfəyə bürünür və əlini qapıdan içəri uzadır, Cavad heç nəyə məhəl qoymadan halva diləyən "ölünün" əlinə bir kəfgir qovrulmuş un qoyur, "ölü" yanan əlini geri çəkib, unu atır, bir də uzadır, Cavad yenə də xoflanmadan verir, üçüncü əl uzananda Cavad ələ bir kəfgir vurub deyir:

– Ay rəhmətliklər, hamısını ölülərə versəm, dirilərə nə aparram?

"Ölülər" gülüşür; dostlar, çalınmış halvanı da götürüb birlikdə məclisə qayıdır və Cavadın ürəkliliyini ağızdolusu tərifləyirlər...

Cavad özü də belə işlərdən bilmərrə imtina etdi. Amma bazarda həcvlər, ifşaçı mənzumələr oxumaqdan əl çəkmədi. Onun ən çox oxuduğu şeir Seyid Əzimin təzə-təzə meydana çıxan həcvləri idi. Bazardan keçən kvartalniki, təzə bəy adı almış, şaşqa taxıb təşəxxüs satan Hacı Məlik oğlunu görcək gözləri parıldayır, xüsusi ahənglə oxuyur:

"Bar ilaha, bu kvartalniki çox görmə bizə!"

Amma Hacı Məlik oğlu bu "duadan" nədənsə çox acıqlanır, kükrəyir, coşur, əlini qəbzəyə qoyur, deyir:

– Cavad, bax, aç qulağuvu, eşit, o naseyidə de ki, məndən əl çəksin, baha oturar ikivüzə də...

Cavad gülməyini boğur:

– Neçəyə, kvartalnik ağa? Mən ki, sənə dua eləyirəm...

Ətrafda avaraların, yetiklərin artdığını görən kvartalnik aradan çıxmağa tələsir:

– Tanıyıram səni, bilirəm o nə duadı... Naseyid köpək oğlu...

Onun kimin qarasına söyləndiyini çoxları bilir, qəhqəhə ucalır...

– Aha... ox nişana düz dəyibmiş ki...

– Balam, bura Şirvandı, hərə öz fitini yaxşı tanıyır burda...

– Amma cəddinə qurban olduğum, nə deyib!..

– Ağa yaman dağ çəkib Hacməlik oğluna...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Seyid Əzim Cavadın yanına çatanda artıq bütün şəhər hadisədən xəbərdar idi. Mollagünələr, baqqallar, bəzzazlar sevinirdi, açıq-açığına elə bil bayram eləyirdilər...

– Belə olar da... Allah adama belə qənim olar... O fitnə yuvası gərək çoxdan dağılaydı, cavanları yoldan çıxaranın axırı elə belədi!

– Əlinə qurban olum kimdisə, yaxşı eləyib, Allah özü əcrin versin.

Sonanın yoxa çıxmasını da belə izah edirdilər: "Yəqin qaçaqlar dağa çəkib aparıb".

Başındakı tabaqda ədavalı halva gəzdirib satan tabaqçı yetim Hüseyn çırtıq çala-çala təzəcə qoşduğu "Mütrüf havasını" oxuyur, dükançıları güldürürdü:

Meyyiti getdi divana,
Cəzası qaldı rizvana,
Dağıldı öyü mütrüfün,
Verildi suyu mütrüfün.

Çillə-çillə kamanda
Ənniyi qaldı tükanda

– Aadə,.. ə.. o murdara meyit suyu verən kimdi? Allah vurmuşdu onu ki, cəzası rizvanda verilə. Cəzasın elə bu dünyada alıb. Allah qarğa deyil ki, göz ova...

...Cavad şairi görcək yerindən qalxdı. Söhbətin şirin yerində kəsilməsi bəzilərini narazı saldığından, hamı dönüb yeni gələnə baxdı, tanıyanlar dərhal aralandılar, ona Cavadın yanına getməyə yol verdilər. Cavad şairlə təmənləşdi. Cavanlardan birisi qonşusundan soruşdu:

– Bu kimdi?

Qonşu təəccüblə dilləndi:

– Necə yanı kimdi? Ağadı da!.. Kvartalnikin atasına od qoyan.

Gəncin gözləri parıldadı, indi o şamaxılıların böyüklü-kiçikli "Ağa" adlandırdıqları bu gənc şairdən gözlərini çəkmir, sanki baxışları ilə onu yeyirdi.

Şair isə Cavadla söhbətə başlamış, əsil məqsədini büruzə vermədən hadisənin bazara nə şəkildə yayıldığını öyrənmək istəyirdi:

– Hə, nə xəbərdi, aadə?

– Sağlığın, Ağa, Mütrüf Ədil fot olub...

– Hə, eşitmişəm...

Səsində açıqca bir təəssüf hiss olunan Cavad daima gülən simasına heç də yaraşmayan kədərli bir tövrlə sözünə davam etdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– O öz yerində, Allah bilən yaxşıdı, ya rəhmət elər – behiştə aparar, ya da lənət elər – cəhənnəmə yollar. Amma hayıf Sonadan...

– Ona nə olub ki...

– Əlli-ayaqlı itib... Gördüm deyən yoxdu... Şirvan çəngilərinin gözü idi, Ağa, hayıf! Bir də onun rəqslərindən zövq almaq heç zihəyata nəsib olmayacaq.

Seyid Əzim açıq münasibətini bildirmək istəmədi:

– Qərəz... Olan olub...

– Bəli, olan olub, torba dolub...

Şair vəziyyətin gərginliyinə baxmayaraq, Sonanın yerinin bilinmədiyinə arxayınlaşdı. İndi nigaranlığı dostundan idi. Dostundan və əməl yoldaşı Tərlandan da xəbər tutmaq istədi, yavaşcadan Cavadın qulağına pıçıldadı:

– Bura bax, Cin, Qapaqlıgildən xəbər-ətər yoxdu?

Cavad məsələnin nə yerdə olduğunu anlayıb, o da öz növbəsində pıçıldadı:

– Getdiyi beyt belindən vurmuş qapını elə qıfıllamayıb ki, quş quşluğuynan ora qanad aça bilsin? Nökərini görüb soruşdum, deyir cavan ağam naxoşdu...

Hər ikisi bu cavan ağanın Tərlan olduğunu bilirdi, hər ikisi onu görmək istəyir, lakin qapaqlının evinə getməyə heç kəsdə cürət yox idi, ona görə yox ki, bu sağlam, igid gənclər Hacı Əsədin yumruq və ya çomağından qorxurdular. Məsələ bunda idi ki, onların heç birisi Tərlanın evdəki mövqeyini, vəziyyətini bir az da ağırlaşdırmaq istəmirdilər. Çünki Hacının xasiyyətinə bələd idilər. Hacı Qapaqlı acizin zalımı idi, böyük yanında, nüfuzlu, tanınmış adam yanında heç nə deməsə də, sonra Tərlanın günün qara eləyəcəkdi...

Odur ki, dostlar hər ikisi qüssələndi.

Kim isə Cavadı qüssədən azad eləmək üçün kələkbaz bir sual ortaya atdı; onlar həmişə Cavadı belə ikibaşlı suallarla dilləndirərdilər:

– Bura bax, aşna, pıç-pıç Mustafa xanı Şirvandan qaçırdıb, Yoxsa siz də pıçıldaşıb bizi bazardan qaçırtmaq istəyirsiniz?

Başqa birisi soruşdu:

– Ay Cavad, əgər sənin özündən xəbər alan olsa, hansına gedərdin, cənnətə, ya cəhənnəmə?

Cavad hansı bir hissin təsiri iləsə doğruldu, açıq bir kin duyulan səslə dilləndi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əvvələn, Allaha əyandı ki, mən üşüyənin biriyəm, ona görə də yerim məlumdu. Bir də ki, məni behiştə o mollalarla, hacılarla bir yerə salmazlar, davamız düşər, onsuz da aramız yoxdu. Nə vermişəm cəhənnəmə, xanəndə orda, nəvazəndə orda, şərab orda, mütrüfə də ki, bu gün təşrif apartdırdılar...

Bir qəhqəhə də qopdu, şair, dostunun bu cəsarətli cavabını eşitcək əvvəl diksindi, sonra məhəbbət dolu baxışlarını, ölümlə diri gözlü mübarizə aparan Cavadın simasına zilləyib düşündü: "Sən nə cürətlisən, nə ürəklisən, Cavad! Mən tək-tək, birini həcv edəndə qorxudurlar: "Özünü gözlə!" deyib qoruyurlar məni dost-aşna. Əsil ifşanı sən eləyirsən! Mən səndən hələ çox şey, birinci növbədə cəsarət öyrənməliyəm, Cavad!

O yerindən qalxdı, Cavaddan və ehtiramla onu müşayiət edən adamlardan uzaqlaşdı: "Səndən çox şey öyrənməliyəm, birinci növbədə cəsarət, Cavad! Mənim də Alışlar, Qapaqlılar, Molla Qurbanqulularla işim çoxdu, dava hələ təzə başlanıb, Cavad, təzə başlanıb..."

Şair bazardan çıxanda artıq Sonanın gizləndiyi yeri heç kəsin bilmədiyinə arxayın olmuşdu. Erkən olmasına baxmayaraq, Seyid Əzim üzüyuxarı Minaxora tərəf qalxmağa başladı. O, Mahmud ağanın yanına gedirdi. İndi Mahmud ağanın necə kədərli olduğunu təsəvvür edirdi. Yaxınlaşıb dostlaşdıqları bu bir il müddətində Seyid Əzim, Mahmud ağanın incə, hər şeydən yaralanan nəcib ürəyinə yol tapa, bələd ola bilmişdi. İndi o sənət aləminin belə qiymətli bir inci, bir sona itirməsinə nə qədər heyifsilənirdi. Kim bilir nələr düşünür, Sonaya qəlbində necə də ağır bir matəm saxlayırdı. Gedib onu təskin etmək, Sonanın ölmədiyini, itmədiyini xəbər vermək, lakin hardasa gizlədilməli olduğunu məsləhətləşmək, kömək almaq lazım idi. O şübhəsiz ki, Sonanın sağ qalmasına sevinəcək, kömək də verəcək, amma belə bir sənətkarın tərəb[1] aləmindən əbədilik yox olmasına, belə bir ulduzun sənət fəzasında sönməsinə dərindən təəssüflənəcək... Elə mənim kimi...

...Axşam azanınacan onlar evdə tək qaldılar. Əvvəl Minasoltan onunla heç kəlmə də kəsmədi, ürəyində qarasına deyindi, balasını afətlərdən, çəngi məkrindən qorumaq üçün Allahına yalvardı. Amma günortaya doğru arvadın fikirləri öz içini yeməyə başladı: "Çəngi də olsa, Ağa demişkən, Allah onun ölməyinə razı olmayıb. Mən nəkarayam seyid evinə pənah gətirən bədbəxt bəndəsini ac qoyam, susuz

---

[1] Sevinc, şadlıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoyam. Çox düşündükdən sonra arvad içi-içini kəsə-kəsə daxili bir əzab duyduğu halda siniyə çörək, yavanlıq, bir fincan da çay qoyub, sübh namazından sonra girmədiyi bala otağa keçdi. Sona bayaqkı qaydada dizlərini qucaqlayıb oturmuş, başını sinəsinə əymişdi. Gözlərinin yaşı hələ də qurumamışdı: "Ağlamalı günün axirətdədi, a bədbəxt, siratdan keçəndədi sənin yasın, niyə gözünü kor eləyirsən?" O, bir söz demədən, naməhrəmdən çəkinər kimi, ağzı yaşmaqlı olduğu halda, sinini gəlinin qabağına qoyub çıxdı.

Bir qədər keçdi. Minasoltan qorxudan həyətə çıxmırdı, qapı döyən olsa cavab verməyəcəkdi, Seyid Əzimlə belə qərarlaşmışdılar: "Qoy elə bilsinlər ki, heç evdə adam yoxdu". Qadın bu tapşırığa sözsüz əməl eləyirdi. Amma qərarı gəlmir, duruş gətirə bilmirdi. Yenidən qapıdan bala otağa baxdı: "Süfrəyə əl vurmayıb, bəlkə heç görməyib də... Fikir dəryasına elə cumub ki.... yazıq..." Bu ilk dəfə dodağına gələn yazıq sözündən qorxdu: "Nə? Hə də, vallah, yazıqdı. Əgər adamın başına gələnlər "qalü-bəladan" alnına yazılırsa, onda, növzənbillah, bu bədbəxtin taqsırı nədi? Alnına belə yazılıb... Yazıya ki, pozu yoxdu... Haqqın dərgahına hamısı əyandı..." Onun onsuz da nazik ürəyi yumşalmağa başlamışdı. Bir də təbii fəlakət, böyük qorxu qarşısında insan, həmcinsilə ünsiyyətə adi hallardan daha çox can atar. Minasoltanın bağrı çatlayırdı. O mütləq kiminləsə danışmalı idi. Dərdi yüngülləşməli idi; içəri girdi:

– Niyə yemirsən?

Sona arvadın içəri girdiyini, nə isə gətirib qoyduğunu indicə duydu, onun qarşısında dik qalxmaq istədi...

– Otur, otur, səndə taqət hardadı, yazıq...

"Qəribədir, kişilər qabağında oynayan Sona, ömründə yaşınmaq bilməyən Sona, Mütrüf Ədilin əlində böyüyən Sona, deyəsən sən bu qadından utanırsan, bu nurani ana qarşısında səni həya təri basır, birinci dəfə, ya rəbbi, ömrümdə birinci dəfə... Yox, birinci dəfə deyil, bir dəfə də olub".

Arvad sinidən bəri, Sonanın qənşərində oturdu; şəfqət duyulan bir səslə dedi:

– Ye, bir tikə ye heç olmasa, ürəyin üzülər, sonra səfərə çıxa bilməzsən.

Bu şəfqətli, mehriban səs Sonanın ürəyinə işlədi; yaş öz-özünə gözlərindən cari olub, solmuş yanaqlarına süzüldü; arvadın amanını qırdı; o da kövrəldi. İndi onun qarşısındakı Şirvana sədası yayılmış, adı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dillər əzbəri, nifrət mənbəyi çəngi Sona deyildi, bədbəxt, yazıq bir məxluq idi. Elə bil ürəyini bir piyalə soyuq suya salıb oycalayırdılar:

– Ay yazıq, axı sən hardan bu işə düşdün? Kimin qızısan? Danış, bəlkə ürəyin boşala... Adam dərdini danışanda yüngülüyür axı...

Sonanın gözləri Minasoltanın çiyninin üstündən o yana, divara zilləndi, göy şirə çəkilmiş divar hamar idi, sürüşək idi. Orada bir ləkə, bir nöqtə belə yox idi. Birdən-birə bu göy şirəli divar gömgöy bir fəzaya çevrildi; Sona bu göy çadır altında yanıb qaralan bir kənd gördü... Palçıq daxmalar, üstünə qarğı basılmış qazma damlar, güzlər... Bu qazma daxmaların birində...

Sona sözünə bir xatirə kimi başladı:

– Atam uzun azardan öləndə kəndimizdə bir yaxın adamımız qalmamışdı. Bir il ondan əvvəl qohumlarımızın çoxu ovmadan ölmüşdü. Kənd əhlinin heç yarısı qalmamışdı. Bağlar, əkinlər yanıb tələf olmuşdu. Başlı başın saxlayırdı...

...Minasoltan hiss edirdi ki, nə isə olduqca təsirli bir hekayət, bir qəziyyə dinləyəcək. Sona isə artıq bütün olub keçənləri, dünən və bu gün baş vermiş hadisələri unutmuş, uzaq, çox uzaq bir xatirənin qoynuna atılmış, dəryada, ləpələr üzərində çalxanan xırdaca qayıq kimi bu xatirələrin ağuşunda yırğalanmağa başlamışdı...

– Bir neçə gün damın altında ağlar-sızlar qaldıq, küləkdən başqa qapımızı açan yox idi. Kim də açacaq idi? Hamı öz canının, öz ölüsünün, öz batan əkənəcəyinin, qırılan mal-qarasının hayında idi... Biz heç kimin yadına düşmürdük. Nəüzənbillah elə bil Allah da bizi yaddan çıxartmışdı. Yaratdığı ağıza bircə tikə çörək də göndərmirdi. Ot-ələf yanmışdı, qaynatmalı bir çəngə ispanaq, qovurmalı bir tutam əməköməci də yox idi... "Ana" deyib sızıldayırdım, yaylığının ucu ilə qızarmış gözlərini silməkdən anamda hal qalmamışdı, saçları, birçəkləri də islanmışdı. Bir neçə gündən bəri çəkdiyi əzab, naxoşa qulluq, sonra da başyoldaşını itirmək anamı üzmüşdü. Amma neynəyəsən ki, mən dizinin dibini kəsdirib çörək istəyir, dərdinin üstünə sağalmaz dərd artırırdım. Bir gün obaşdan, dan yeri heç qızarmamış anam məni yerimdən qaldırdı... Yatan kim idi ki,...qarnım acından qırılırdı, gözümə yuxu getmirdi. Ağır da olsa deyim ki, atamın ölməyi də az qala yadımdan çıxmışdı, bircə tikə çörək olsaydı... Qərəz, anam daxmamızdakı olan-qalanımı əynimə geydirib, belimi, başımı bağladı. Daxmamızın qapısını kilidləyib çıxdıq. Yazıq anam evdən aralananda bir ayaq saxladı, kəndin yuxuya gedən evlərini gözdən keçirtdi. Elə bil



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, hər yerə vida deyirdi, elə bil ki, doğulub böyüdüyü, sevib-sevildiyi, ana olduğu, analıq səadətini daddığı bu yerlərdən həmişəlik ayrıldığı ürəyinə dammışdı. Gözlərindən yaş leysan kimi töküldü, sonra tələm-tələsik əlimdən tutub yola düzəldi:

– Gedək bala, dünya böyükdü, "tarı böyük, altı gen" deyiblər, Allah kərimdi, bəlkə bir yaxşıya irast olduq, əlimizdən tutdu... Olmasa da, dilənəsi olsam da, irağ-irağ, qoy heç olmasa tanış-biliş gözündən uzaqda dilənək, görən olmasın... Bəlkə baxtımız gətirdi, bir qapıya qulluğa düzəldik... İşlərəm, səni saxlaram, bir-iki iləcən sən də böyüyüb hovuma çatarsan...

Anam bu sözləri deyə-deyə irəliləyir, kənddən hara isə uzaqlara gedən tozlu yolla məni də yanıycan sürüyüb aparırdı...

...Yolumuzun üstündəki kəndlər bizimkindən də pis gündə idi... Amma yenə də adamlar bizə əl tuturdular, kimisi bir parça təndir çörəyi, başqa birisi iki-üç cad əppəyi verirdi. Bostanlardan yemiş, bağlardan meyvə dilənirdik. Günlərin birində Çodarlı deyilən bir obaya gəlib çıxdıq, yurdsuz-yuvasız idik....yollar yorğunuyduq... İki əl bir təpə qalmışdıq. Elə bu zaman sanki tale üzümüzə güldü. Çodarlıda arvadlardan biri bulaq başında bizə rast oldu. "Kəndin ağasına qulluqçu lazımdı, arvadı azarlıdı, adam gəzirlər" – dedi, yolu bizə salıq verdi, getdik... Bəy evi indiyəcən gördüklərimdən böyük idi, dam-daş tikilisi çox idi. Xanımın yanına gəldik, o yatacağında uzanmışdı, ana-bala bizə diqqətlə baxdı, deyəsən, həm yazığı gəldi, həm də tutacaqsız olduğumuzu başa düşdü:

– Adın nədi, aaz?

Anam adını, yer-yurdumuzu dedi, xanım yerli-yataqlı başımıza gələnləri anamdan soruşdu, sonra, deyəsən, razı qaldı:

– Allah bilən yaxşıdı, əlhökmilillah, nə olar, qalın, işlərsən, baxaram, bəyənsəm, günün burda pis keçməz...

Çarəsiz anam hər nə iş olsa razı idi, təki bir yerə ilişib qalaq, təki üzümüz sərgərdanlıqdan qurtarsın...

...Səlbi bəyimin azarı qıçında idi, bud oynağında bir yara vardı, quyu kimi dərin... gündə bu yaraya piltə çəkmək lazım olurdu, bu zaman yazıq bəyim haldan-hala düşürdü, dişlərini bir-birinə qıcayıb ağrıya gücnən dözürdü. Evdə heç bir iş görə bilmirdi, yeriyəndə, çölə-bayıra çıxanda divardan tuta-tuta gedirdi. Bir qarış yolu az qala bir saata yeriyirdi. Sonra da gəlib halsız düşürdü. Evdə bütün işləri əvvəlcədən kənizi varmış, o görərmiş, sonra qız bəyimin yarasından çimçə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şib qaçıb. Əri də günlərnən evdə olmazdı. Hardasa kəndlərdə, qonaqlıqlarda, ovda, qumar oyunlarında itib-batardı. Danışırdılar ki, bu var-dövlətin hamısı Səlbi bəyimin imiş. Ağa ona evlənəndən sonra yaxşı da yaşayırlarmış. Səlbi bəyimin qıçına əvvəl bir çiban çıxır, sonra nə qədər dava-dərman olursa sağalmır, yara dərinləyib quyuya çönür, bəy də arvaddan soyuyur, ev-eşiyi başlı-başına buraxır. Deyirdilər ki, Səlbi bəyimin övladı olmadığından, ağa onu boşaya bilmirmiş, çünki onda var-dövlət əlindən çıxarmış, evlənə də bilmirmiş – Səlbi bəyimin *Şamaxıda urus qulluğundakı qardaşından çəkinirmiş...* Qərəz ki, biz ağanı gəlişimizin üçüncü günü görə bildik...

Evdə bütün iş-güc anamnan mənim üstümə töküldü, çoban-çoluğa çörək-xörək çatdırmaq, Səlbi bəyimin pərzanalarını[1] yetirmək, qonaq-qaranı yola vermək, pal-paltar yumaq, ev-eşiyi süpürüb-təmizləmək, hamısı anamın öhdəsinə düşdü. Anam axşamacan təndir-ocaqdan aralana bilmirdi, elə yorulurdu ki, yerinə girəndə sız-sız sızıldayırdı. Amma yenə də şikayətlənmir: "Neynək bala, – deyirdi, – nə qədər çox iş olsa dözərəm, hamısını da elərəm, təki sənin başının üstündə həmişəlik kölgəlik olsun, təki qarnın tox olsun, bala, pal-paltarın olsun". O məni bağrına basıb uzanır, bir müddət ana-bala gözümüzü tavana dikib qalırdıq. Sonra hər ikimiz birdən xəyala dalırdıq, belə hallarda, anam ürəyindən keçənləri mənə pıçıldamağa başlayırdı: "Allah qoysa, Səlbi bəyim sağalar, ayağımız düşər ona inşallah, bir az pul düzəldib, kəndimizə qayıdarıq, ev-eşiyimizi sahmana sallıq, sən də, mən də öz damımızın altında dolanrıq. Yerimizi əkərik, kəndimizi çox istəyirsənmi, Sona?

– Hə, ana, amma burda da pis deyil.

– Helədi, amma, necə də olsa qürbətdi, Allah heç bəndəni özgə qapısında, elindən-obasından uzaq qulluqçu eləməsin... Amma, şükür Allaha, heç olmasa qarnın doyub, əynin bitib.

Doğrudan da, Səlbi bəyimin köhnə-küləsindən anam özünə və mənə bir dəst təzə paltar düzəltmişdi, palaz-paltar yumağa gedəndə, çay qırağında qazan asıb su qızdırmış, başımı-bədənimi yuyub arıtmışdı. İndi hər ikimiz insan sifətinə düşmüşdük... Yaman-yaxşı yeyib-içirdik. Heç bir korluğumuz yox idi, heç kimə əl açmırdıq, bir parça halalca zəhmətnən qazandığımız çörəyi yeyirdik, bircə Səlbi bəyimin yarasından çimçəşmək olmasaydı... Bəyimin bir xasiyyəti var idi, hər

---

[1] Şirvan şivələrində pərzana şəklində işlənən bu söz ehtimal ki, pəhrizyane sözünün təhrif olunmuş şəklidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gün səhər yarasının tənzifi dəyişiləndən sonra aftafa-ləyəndə azca əlini yuyub verdiyim dəsmalla silər, sonra da çobanların gətirdiyi əti tələb edir, onu indicə yaraya piltə çəkdiyi əli ilə bölüb ayırardı, kimə nə lazımdı bişirməyi tapşırardı... Deyəsən, anam da əvvəllər qulluqçu kimi bu işdən çimçinirdi... Amma genə də dözür, bir söz demirdi... Bəy gəldi, əvvəlcə həyətdə ocaq qalayan məni gördü:

– Hə, bu hansı itin küçüyüdü?

Nökərlərdən biri cavab verdi:

– Bəyim təzə qulluqçu tutub, onun qızıdı...

Ağa güldü:

– Hə, deməli, bəyim yanı qoduqlu eşşək alıb?

Sonra içəri keçdi... Anamı haçan, necə gördü, nə dedi, bilmədim. Amma bizim gəlməyimizdən sonra ağanın səyahətləri seyrəldi, indi o irəliki kimi günlərlə-həftələrlə kəndlərdə, şəhərdə itib-batmırdı. İstidə külafirəngidə, hava sərinləyəndə kəllə otaqda yarım çılpaqlaşıb oturur, döşəklər, mütəkkələrə yayxanıb tükləri ağarmış sinəsini ovuşdurur və tez-tez çay, qəlyan, mer-meyvə tələb eləyirdi. Anam nədənsə bu haldan çox narazı idi, gecələr məni qoynuna daha bərk basır "Allah, özün köməyimiz ol" – deyib dua eləyirdi.

Əvvəllər bir şey anlamırdımsa, az keçməmiş hər şeyi başa düşdüm. Səlbi bəyimin mənə münasibətindən, anama kəc baxmağından, həyət adamının bəzi atmacalarından da anladım, həm də mən kənd uşağı idim, kənd uşaqları belə şeyi daha tez başa düşür. Anam üçün də, özüm üçün də, lap açığını deyim ki, özümüzün olmasa da, bu rahat həyəti, yatdığımız bu dam evini itirməyimiz üçün də qorxurdum... Bir gecə qorxduğumuz şey baş verdi... Gecə yarı olmamış təzəcə narahat yuxuya getmişdik, anamla mənim üstümüzdən yorğanın qaldırıldığını hiss edib qorxu ilə gözlərimi açdım, cəld anama sıxıldım, qaranlıqda ağanın kölgəsini gördüm, hənirtidən tanıdım kişini... Bu cürə ancaq o nəfəs alırdı həyətdə... "Aana".

– Kəs, küçük, qanına bularam, dur rədd ol...

– Ağa, sənə qurban olum, yesirin olum, məni bədnam eləmə, bir parça çörəyimi kəsmə, ağa, yesirin olum, ağa, didərgin salma məni! Səlbi bəyim ətimi itə də atsa yeridi, ağa, qoy çıxım, balamı da götürüm gedim.

– Suss!

...Amma artıq gec idi, mənim qeyri-ixtiyari qışqırtım anamın yalvarışları Səlbi bəyimi bidar eləmişdi; ya özü çölə çıxmışdı... Onsuz da naxoş arvad pis yatırdı, axır vaxtlarda isə lap yuxusu ərşə çəkilmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birdən qapıda ikinci bir kölgə göründü, bu o idi! Səlbi bəyim ağır-ağır irəliləyib, astanada durmuş, qapının çərəngüləsinə söykənmişdi, artıq tabı qalmamışdı, güclə ayaq üstündə dururdu...

– Əlsəftər bəy, bir bu qalmışdı ki, mənim başıma gətirəsən? Heç utanmırsan, ay nəməkbəharam? Gözüm görə-görə, özünü çölün sayılına tay qoyursan? Mənim evimi murdarlayırsan, ay haramxor? Şamaxı çəngiləri sənə azlıq eləyir? Gözüm görə-görə... indi işi bura yetirdin?..

Ağa qalxdı, donquldandı:

– Gözün kor olsun... – dedi və otaqdan çıxdı...

Səlbi bəyimin zarıltılı səsi indi də qulağımdan getmir.

– Aaz... ay payyığan köpək qızı, çörəyim səni belə qudurdub ki, indi də bəyə göz-qaş eləyib, döşəyimə göz dikmisən?

– Bəyim, vallah...

– Vallah kəssin səni, dur sürün, mənim xarabamdan...

Bu sözlərlə Səlbi bəyim qapının ağzındakı qara aftafanı qapıb anama tərəf zolladı, aftafa anamın düz başına dəydi. Anam dərdindən, xəcalətindən heç ufuldamadı da... Onun yerinə mən çığırdım...

Anam yıxıla-dura yerindən qalxdı, mən də arxasınca cumdum, bəyimin yanından cəld ötüb həyətə çıxdıq, gecənin oğlan çağında, zülmətdə tək-tənha qaldıq... Sonralar bildim ki, şairlər ilin belə qaranlıq gecəsini "şəbi-yelda" adlandırır, onu gah gözəlin qara gözlərinə, gah qara qaşlarına, gah da qara tellərinə bənzədirlər..."

Sonanın gözləri yol çəkdi, solğun yuvarlaq dodaqlarına xəfif bir təbəssüm qondu, sanki bu ağır düşüncələr, hekayələr içində nə isə olduqca xoş və əziz bir xatirəyə gülümsəyən kimi oldu:

> Gün olsa gecə olmaz, ey mah, nədir vəchi
> Yeldayi-səri-zülfün gün üzdə olub peyda?!

– Ağanındı...

Minasoltan ağır xatirələrin içində gülümsəyən gəlinə əvvəlcə heyrətlə baxmışdı, "ağanındı" kəlməsini eşidincə şerin oğluna məxsus olduğunu başa düşdü, o da dərindən bir ah çəkib gülümsündü. Deyəsən, buz doğrudan da əriyir, bu xəfif təbəssümlər onu suya çevirirdi.

– Hə... bəs sonra?

Sona köksünü ötürüb sözünə davam edincə təbəssüm dərhal dodaqlarından yox oldu, əvəzinə üzünü solğun bir kədər bürüdü:

– Hə, sonra!.. Sonrasını Allah düşmənə də göstərməsin... Gecəni canavar qorxusundan, yol azmaq qorxusundan evin daldasında keçirdik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gün çırtmamış bir az hörümçək toru tapıb yaraya basdıq, yaranı ləçəknən bağlayıb kənddən çıxdıq. Çodarlıdan sonra daha banımız daş kölgəliyi görmədi. Gəlib bir tərəkəmə köçünün dalınca şəhərə çatdıq... Cuma məscidin qabağında birtəhər dilənib dolanırdıq. Anamın günü-gündən olan-olmaz qanı da üzündən, dodaqlarından çəkilirdi, gözləri çuxura düşmüşdü, yarası da simləyirdi, sağalmaq bilmirdi... Axşamlar yaman qızdırırdı, bilmirəm onu da atam kimi uzun azar tutmuşdu, ya yara üzmüşdü, ya yığdığımız azurğu əppəyi də mənə yedirtdiyindən özü çox vaxt ac qalırdı, ona görə, ya da titrətmə-qızdırmaya tutulmuşdu, nə idisə, günü-gündən əriyirdi, gün qabağındakı buz parçası kimi, közə düşmüş quyruq kimi... Dərisi də yanıb sümüyünün üstünə yapışmışdı, əlindən tutub gücnən yeridirdim. Çox vaxt bazar ağzına gedib çıxa bilmir, elecə Cuma məscidin yanında, gecə yatdığımız yerdəcə oturub qalırdıq.

Bir gün anam bir az babat idi, əlimdən tutub küçələri gəzdirməyə başladı. Xeyli gəzdik, Pirkülövüşlü məhəlləsində bir evdə arvadlardan biri bizə bayat xörək və çay verdi. "Ay yazıq, bu halnan hara gedirsən, səni qulluqçu götürən neynəyəcək? Çörək yapa bilməzsən, ocaq qırağında otura bilməzsən, axı səndə o hal hardadı?" – dedi. Anam gülümsədi, bu neçə ayda birinci dəfə idi ki, balaca gülümsəyirdi, sevindim ki, anam daha sağalır, sən demə çırağın axır işığıymış bu təbəssüm... Bir az da gedib, Qəriblər məhəlləsinə çatdıq... birdən anam qəfil yerə oturdu... daha dura bilmədi... Ah... ana, kaş ölümün bir yarımca saat əvvəl, biz Pirkülövüşlü məhəlləsində, o mehriban arvadın həyətində olanda gəlib çataydı, öz əlinlə məni aparıb o xarabanın yanına, Mütrüf Ədilin qapısına çıxartmayaydın... Qərəz ki..."

...Anasının ölümü gözləri önündə yenidən canlandığından Sonanın kirpikləri nəmləndi... susdu... Boğazı qəhərləndi, danışa bilmədi... səsi xırıldadı, o bir neçə dəfə udqundu, gözlərinin yaşını sildi. Birdən Sona əlinin sığallandığını duydu, bayaqdan ana xatirələrinə dalmış gəlin, bunun fərqinə varmamışdı; Minasoltan onun, çəngi Sonanın əllərini sığallayırdı!.. Sonanın hıçqırığı gücləndi, özünü saxlaya bilməyib, üzüqoylu Minasoltanın, bayaqdan bəri qırx kişidən artıq həya eləyib utandığı bu nurani qadının dizləri üstünə düşdü. Onun çiyinləri qalxıbendikcə, Minasoltan bir əli ilə kəlağayısının ucuynan öz gözlərindən cari olan yaşları silir, digər əli ilə səhərdən bəri iyrəndiyi, nifrətlə baxdığı çənginin çiyin və kürəklərini tumarlayırdı. Ana əlindən bu zəif çiyinlərə qüvvət axır, məhəbbət səpilirdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qalx, a bədbəxt, bədtaleh bala, ağlama, sil gözlərinin yaşını, kimin anası dünya durduqca yaşayıb, yanında qalıb qəbir evinəcən? Ana ölər, yerində bala qalar, amma sən bəlalı qalmısan...

Arvad bu sözləri deyə-deyə həm özünün, həm də Sonanın gözlərini sildi, aşiqlərin, şairlərin, xanəndələrin minbir söz, şeir qoşduğu, indi pərişan halda dağılmış, islanıb alnına, yanaqlarına yapışmış cığa və birçəklərini kənar elədi...

Sona sözünə davam etdi:

– Yazıq anam elə oradaca keçindi. Məhəllədən iki-üç adam yığışdı, yazığı gələnlərdən biri də çal bir kişi idi, elə onun evinin qənşərində düşüb qalmış anamı, onunca həyətində yudular, köhnə-külə ağdan-zaddan tapıb kəfənlədilər. Hamısı da gözümün qabağında... Ağlayıb eləmirdim, gözümün yaşı da qurumuşdu. Axşama yaxın idi, tələm-tələsik anamı qəbiristana aparan iki-üç kişinin dalınca düşüb gedəndə, o çal kişi mənə diqqətlə baxıb əlimdən tutdu. Kimsəsiz qaldığım bu dünyada ən ağır dəqiqələrimdə əlimdən tutan bu adama qorxa-qorxa baxırdım. Kim idi, nəçi idi, bilmirdim, amma görürdüm ki, adamlar onunla yanpörtü könülsüz-könülsüz danışırlar... Qərəz anamı basdırıb qayıtmaq istəyəndə dərdimin böyüklüyü birdən-birə ürəyimi qopartdı, özümü təzəcə torpaqlanmış qəbirin üstünə atıb bağırdım: "Məni də basdırın, mən indi anamsız hara gedəcəm?"

Ölənəcən xatirimdən çıxmayacaq: kişilər bir-birinin üzünə baxıb durdu, hamısı fağır, üst-başından kasıb adama oxşayırdı, heç birisi artıq ağızı evinə aparmağa ürək eləmirdi, bircə o, o qorxduğum çal kişi əlimdən tutub məni qəbirin üstündən qaldırdı:

– Gedək bizə, ay qız! – dedi.

İndiki kimi yadımdadır. O kişilər günahkar kimi bir-birinə baxıb bir söz demədən dağılışdılar. Mən də həmin kişinin böyrünə düşüb bir-iki saat əvvəl anamın keçindiyi evin qapısına gəldim. Anamın düşdüyü yeri görəndə təzədən kövrəlib ağlamağa başladım, kişi çiynimdən tutub məni həyətə saldı, bayaq anamı yuyan arvadlardan biri həyətdə bizi qarşıladı:

– Bu imam cücəsin neyşə gətdün, əppəyün artıq düşüb?

– Yazığım gəldi, arvad...

– Bizə yazığı gələn kimdi bəs?

– Allah kərimdi...

– Kərimin quyusu elə dərindi ki, düşən bilmir necə çıxsın, gəlir düşür mütrüf öyünə...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Mütrüf öyü"... mən bu sözlərin mənasını sonra bildim. Sən demə, bu yer Qəriblər məhəlləsi, bu ev də Şamaxı çəngilərinin başçısı Mütrüf Ədilin evi imiş...

Bu məhəllə dəhşət imiş... Oğru-əyri, yol azan, yurdundan təzən bura sığınırmış.

Bundan sonrakı hadisələri Sona artıq danışa bilmədi, yalnız eşidib bildiklərini xəyalında canlandırmaqla kifayətləndi.

...Qaş qaralanda, fəzanın qaralmağa başlayan dərinliklərində təkbir ulduzlar parlayanda evlərin əvvəlcə bozaran, getdikcə qaralan pəncərələrində də ölgün çıraq işıqları görünməyə başlardı. Şəhərin ucqar guşəsində Qəriblər məhəllesinin lap qurtaracağındakı birmərtəbəli alçaq daxmalarda hələ işıq görünməzdi, çiy kərpicdən hörülmüş, üstünə samanlı xam suvaq çəkilmiş bu daxmaların önündən ötən nadir yolçulara avara itlər arabir hürərdilər. Cuma məscidi, Sarıtorpaq, İmamlı, Qalabazar məscidlərinin minarəsində avazla azan verən müəzzinlərin səsi bu məhəllələrə gəlib çatmazdı. Buranın möminləri namazı göyün səyyarələri ilə müəyyənləşdirib qılardılar. Sübhü bəzən – "Karvanqıran"la qarışıq saldıqları "Dan ulduzu", günortanı günəşin göydəki yerinə, şam və xüftəni də ulduzlara görə müəyyənləşdirirdilər. Bu məhəllələrdə molla da tapılmazdı. Şəhərin bütün füqərası, gəlmələri bu məhəllələrdə sakin olurdu. Bir çox hallarda divandan gizlənən, dustaqdan qaçan, hökumətdən yayınan günahlı-günahsız müqəssirlər, qaçaqlar, bəzən oğru-əyri də bu məhəllələrə pənah gətirirdi.

Şəhər varlıları, əsnaf, tüccar buralarda görünməzdi.

Mütrüf Ədilin evi də bu məhəllədə yerləşirdi. Bu ev ətrafdakı başqa daxmalardan seçilirdi. Onun geniş zala bənzər otaqları, babət eyvanı, həyətində kiçik meyvə bağı və güllüyü, palçıqdan olsa da uca hasarı var idi. Hamı bilirdi ki, Mütrüf Ədilin az-çox varı var. İstəsə, şəhərin babət imarətlərindən birini almağa gücü də çatar. Amma kimdir ona ev, mülk satan? Kim ona öz məhəlləsində yer verər?

Mütrüf Ədilin anası dul Gülzaman vaxtı ilə arvad toylarında xanəndə olub. Ağzı ilə oyun havaları çalar, dəflə bu havalara ahəng tutar və kasıb-kusub toylarını yola verərdi. O vaxtlar Gülzaman cavan idi, var-yoxu yeddi-səkkiz yaşlı oğlu Ədili özü ilə toylara aparardı. Uşaq həyətdə ocaq qalatdırıb anasının qoyun qarnı çəkilmiş və tez-tez boşalan dəfini bu ocaqda qızdırar, şabaş yığar, dövran toplardı. Uşaq, anasının zümzümə etdiyi bütün havaları əzbər bildiyi kimi, toyda oynayan qız-gəlinlərdən gözəl rəqslər öyrənmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ədil nazik, vücudlu, gözəl bir uşaq idi. Anası onu nəzirli etdiyindən on iki yaşınacan başını qırxdırmadı. Qıvrım saçları uzanıb Ədilə incə, nazlı bir qız görkəmi verdi. O tez-tez evdə qız-gəlinlərin təqlidini çıxarıb rəqs edərdi və bu zaman anasının tumanını əyninə geyib, kəlağayısını başına bağlardı. Bu oyun qadınları əyləndirdiyindən Gülzaman arvad şirnikdi, oğluna "Fatma xanım xoş amədi", "Ay dağıdağı şeydalı", "Dəyirmançı qoca" oyunlarını öyrətdi. İndi artıq o, toyları oğlunun köməyilə aparırdı. Onlar toy yerinə gedəndə Ədilin geyinməsi üçün paltarları da dəflə birlikdə boğçaya bağlayıb aparırdılar. Oğlanın çıxartdığı məzəli oyunlar toya yığılanları çox əyləndirir, onlara ləzzət verir, uğununca güldürürdü.

Sərpayı ucadan deyirdi:

– Ay uşaq, şırıqqa vurun!

Ədil də öz məzəli qız geyimində ortaya gəlib gah əri tərəfindən məhəbbəti rədd edilmiş zəhəndə arvadı, gah toy adamlarını bəyənməyən məğrur bir xanımı, gah da cavan dənçi qıza vurulmuş həprik qoca dəyirmançını yamsılayır və bu zaman elə çəm-xəm edirdi ki, Gülzaman nanay vurmaqdan yorulmurdu. Arvadlar heyrətlənib deyirdilər:

– Zalım qızı, bir toy adamı ağzıynan oynadır, yoruldum demir, elə bil çənəsini dəmirçi Səfi döyüb.

Ədilin sorağı kişilərin qulağına da çatdı. Özbaşına meydana çıxan bu "mütrüf" Şamaxı keyifbazlarını maraqlandırdı. Mütrüf ləqəbi Ədilin üstünə yapışdığı kimi, özü də sinnə dolub, qadın məclislərindən uzaqlaşdı. İndi heç bir qeyrətli kişi həddi-buluğa çatmış cavanın arvad toyuna iştirakına razı ola bilməzdi.

Anası Gülzamanın vəfatından sonra Mütrüf Ədil, əlindən başqa heç bir iş gəlmədiyindən toylarda çalan bir xanəndə dəstəsinə qoşuldu, rəqs etməyə qurşandı. İndi o artıq kişilər məclisində arvad paltarı geyib rəqs edir, bununla da dolanırdı. Ətrafında mütrüfə qız verəcək əskik adam olmadığından Ədil tək yaşayırdı.

Beləliklə, Ədilin yaşı qırxı ötdü. İndi o, saqqallı-bığlı kişi idi. Özü rəqsi tərk etsə də sazandalar dəstəsi üçün təzə rəqqasələr tədarük edir, onlara rəqs etmək qaydalarını öyrədirdi. Bunlar əsasən yaxın və uzaq kəndlərdən tapılıb gətirilən sahibsiz balalar idi. Ədil onların adlarını dəyişir, geyimini düzəldir, rəqs təlimi verirdi. Şamaxı çəngilərinin dəstəsi nəinki şəhərin özündə, qonşu kəndlərdə, hətta, Bakı, Şəki, Gəncə, Qarabağ və bu kimi böyük şəhərlərdə belə tanınır, dövlətli toylarına dəvət olunurdu. Ədil daima dəstənin yaşını nəzərdə saxlayar, buraya



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daha cavan qızlar cəlb edirdi. Bu ara Ədil uzaq kəndlərin birindən şəhərə dilənməyə gələn özü sinnində bir arvada təsadüf edib onu aldı.

Sona xəyala dalıb susmuşdu, onun sükutunu hekayətin qurtarması kimi qəbul edən Minasoltan yerindən qalxdı, çay qoymaq üçün o biri otağa keçdi, arvad ürəyində deyirdi: "Yazıq qız, kaş o viranəyə düşüncən, özün demişkən, anan kimi ölüb qurtaraydın, bıy əstəğfürullah, Allahdan qismət beləymiş, alnına belə yazılıbmış".

...Sona isə gözünü divara zilləyib həyatının Ədil evindəki səhifələrini vərəqləyirdi...

Ədil Sonanı yavaş-yavaş rəqsə alışdırmağa başladı. Qız əvvəllər utanır, qısılır və karıxırdı. Az sonra musiqini və rəqsi elə duymağa başladı, elə bir istedad büruzə verdi ki, sazandalar və Ədil, balaca qızın qabiliyyətinə heyran qaldılar. Sona rəqsə girdimi – dünyanı unudurdu. Bu zaman o musiqiyə elə bir aludəliklə uyğunlaşır, elə bir həvəslə oynayırdı ki, incə cizgilərə malik olan siması daxilindən gələn bir ilhamla işıqlanır, daha da gözəlləşirdi. Onun yalnız əli və ayaqları oynamır, bütün əzaları rəqs edirdi. Ədil də, tarzən də Nüsrətullah da onun gələcəkdə böyük müvəffəqiyyəti olacağını duyurdular. Ədil indi daha çox onun tərəf-müqabilləri ilə məşğul olurdu. Qız rəqsin bütün incəliklərini duymuş, ustadlaşmışdı. "Şeydalı", "Dəyirmançı qoca", "Fatma xanım xoş amədi", "Diksinmə" rəqslərində onun tərəf müqabilləri Sonadan qat-qat zəif çıxırdı. Ədil özünü saxlaya bilməyib bağırırdı:

– Korsan? Balaca qız səndən qanacaqlıdı.

Beləcə Bəyim arvadın, zəifliyinə, "cındırlı pir" kimi yırtıq-yamaqlı geyiminə görə gah "imam cüməsi", gah da "yoluq cücə" adlandırdığı xırdaca qız, Şamaxı məclislərinin, toy və seyrəngahların bəzəyinə, Sonasına çevrildi.

Seyid Əbdül Əzim Dağıstandan anası ilə birlikdə Şamaxıya qayıdanda, Sona artıq "su sonası" kimi gözəlliyi və rəqsləri ilə şöhrət tapmışdı. Cavan Mahmud ağanın təzə açılan musiqi məclislərində Sona oynayanda, hamı nəfəsini gizləyib heyranlıqla ona tamaşa eləyirdi. Sona sözlərini belə qurtardı:

– Amma hamısından pisi bu idi ki, hüzur yerinə də gedə bilmirdim, təziyəyə də... Mənə belə gəlirdi ki, getsəm, ağlaram, ürəyim boşalar... Amma qorxurdum, gedəndə qapıdan da aşağıda otururdum, həzrət Fatimənin itindən də pis, qotur it idim elə bil. Heç kəs yanımda əyləşmək istəmirdi. Mənə hamı pis-pis baxırdı. Bir dəfə lap az qaldı dəli olam... Bir toya aparmışdılar bizi... Oynadım, yorulub yan otağa keç-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dim, cavan qız-gəlin mənə maraqla baxırdı, amma yaxınlaşmağa cürət eləmirdilər. Otaqda bir qadın var idi. Yaşlı olsa da, qoca deyildi, çox gözəl arvad idi. Məni görcək, "çəngi" sözünü eşitcək, tez yaşmandı, üzünü örtdü! İlahi, elə bil naməhrəm kişidən gizlənirdi! Bu mənə ölümdən də artıq gəldi... İçəridə dayana, verilən yeməyi yeyə bilmədim, utandım, ölüb yerə girdim, çıxıb təzədən məclisə qayıtdım, amma necə oynadım, nə elədim, o gecə heç bilmədim. O mehriban ana kimi gözəl, gülərüz arvadın məndən yaşınması mənə dərd olmuşdu... İndi də arvadın əvvəl mehriban, gülümsər, "çəngi" sözünü eşidəndən sonra qorxu və nifrət dolu baxışları gözlərimin önündən getmir...

– Yazıq... nə əzablar çəkmisən...

– Eh bütün əzablar bircə belə baxışın qabağında nədir ki...

...Minasoltan əlindəki çay sinisi ilə içəri girəndə Sona halsız başını mütəkkəyə söykəyib narahat bir yuxuya getmişdi. Ana, yalnız analara məxsus bir üsulluqla çayları yerə qoymadan gəldiyi qapıdan geri qayıtdı. "Yazıq (bayaqdan bəri neçə dəfə o, Sonanı "yazıq" adlandırmışdı) qoy bir az çimirin alsın, gözünün acısı çıxar, yüngüllüyər. Allah var, rəhmi də var, o vaxtacan Əbdüləzim balam da bir xeyir iş düzəldib gələr, inşallah!.. Beş gün qaranlıq olanda, beşi də aydınlıq olur, bəlkə yazığın Allah günahlarını bağışladı, tövbə-əstəğfar elədi, düz yola çıxdı..."

Minasoltan bu sözlərlə mətbəxtdə əlləşir, axşama şam yeməyi hazırlayır, tənək yarpaqlarından hərəsi bir fındıq boyda olan xırdaca, məhz Şamaxıya məxsus dolmalar bükürdü. Seyid Əzim anasının bu xırdaca dolmalarını sarımsaqlı qatıqla yeməyi çox sevirdi...

...Axşam Seyid Əzim evə dönəndə vəziyyəti tamamilə dəyişmiş gördü. Qapını açan kimi anasında baş verən təbəddülatı duydu:

– Hə, necəsən, məmə, gəlib-eləyən olmayıb ki?

– Yox, ay bala, heç kim gəlməyib, xoşbəxtlikdən qapını bu gün döyən də olmayıb...

Seyid Əzim gülümsədi, anasının çiynini qucaqladı.

– Necə döyəydilər, ana can, qapıya daldan qıfıl vurub getmişdim...

– Bıy başıma xeyir, deyirəm axı...

– Qonağın necədir?

Arvad qayğı içində pıçıldadı:

– Səs salma, bala, yazıq bütün başına gələnləri mənə danışıb, bədbəxt yetim! Allah Ədilə lənət eləsin, cəzasına çatdı, şeytan ondan əl çəkib, məndə işi yox, amma yerində cəhənnəmlik olub. Kimsəsiz yetimi bu işə o qurşayıbmış... Yaxşı, sən neynəyə bildin?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavan, anasını arxayın elədi:

– Narahat olma, ana, Sonanın şəhərdə olduğunu bilən, duyan yoxdu. Gecə əl-ayaq yığışandan sonra Mahmud ağanın dəyirmançısı malağan Vasil gəlib bizdən guya dəyirmanlıq dən aparacaq, örtülü furqunda, kisələrin arasında ona da yer eləyərik, onu da aparar.

– Hara?

– Mahmud ağanın Ağsudan o yana Ərəbçəltikçi deyilən kənddə qonağı var, Əlyar bəy – onlara göndərir. Qonağı varlı-hallı bəy adamdı, Sona orda qulluqçu duracaq, Mahmud ağa bəyə kağız da yazıb. Sonra nə lazım olsa genə elər.

Arvad azacıq arxayınlaşdı:

– Allah ağadan irazı olsun.

...O gecə Sona, Seyid Əzimin pənah evini tərk edəndə Minasoltanın qalın şalına bürünmüşdü. Şair evindən iki qəzəllə bir solmuş gül, ana nəvazişindən isə ömründə ilk dəfə gördüyü riyasız, səmimi bir pay da aparırdı:

– Get, bala, Allah amanında olasan, başuvu aşağı sal, işində-gücündə ol, Allah da sənə kömək olar, – deyə Minasoltan Sonanın ayaqlarının üstünü yorğança ilə örtdü.

Vasili tələsirdi; o öz səmişinini gecə ikən şəhərdən çıxartmalı, gün doğana qorxulu Ağsu dolayından aşıb keçməli idi.

...Günortaya xeyli qalmışdı. Minasoltan xörək bişirməyə hazırlıq görür, oğlunun qəssabdan qayıdıb, ət gətirməsini gözləyirdi. Qapının çaxçaxı səslənəndə o Seyid Əzimin gəldiyini düşünüb darvazaya doğru tələsdi. Amma gələn oğlu deyildi, bu Qapaqlı Hacı Əsədin arvadı Bircəxanım idi, arvad məlul-müşkül içəri girəndə, qapaqlı ailəsindəki hadisələrdən xəbərdar olan Minasoltan əl-ayağa düşdü.

– Xoş gəlmisən, ay Bircə bacı, səfa gətmisən, keç, keç içəri ağa Tərlan nə təhərdi, eşitdim bir az kefsizdi?

Bircəxanım çadrasını çiyinlərinə salıb Minasoltanın ardınca içəri girdi:

– Sağ ol, Minasoltan, Allah balanı saxlasın, elə bir az nasazdı, indi, Allahın köməkliyinən babatlaşır...

– Allah eləsin, Allah eləsin... Hacı necədi?

Bircəxanımın gözləri doldu, yanaqları, buxağı titrədi, çadrasını alıb bükmək istəyən ev sahibəsinə mane oldu:

– Zəhmət çəkmə, Minasoltan, uşaq evdə təkdi, tez qayıdasıyam, Hacıya nə olacaq, yaxşıdı, başıma gələnləri eşitmiş olarsan...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Eşitmişəm, neynəmək olar, atadı...

– Elə atanı Allah özü haqqına çatdırsın... Uşağımı bir kökə salıb ki... Başına dönüm, ay Minasoltan, dərdimi götürüb sənin üstünə gəlmişəm, deyirəm böyük Ağanın canamazını ver, aparım uşağımın başına salım, bir az türbət vermişəm. Qorxub deyirəm bəlkə... Ağanın cəddinə qurban olum, ruhuna yasin oxutdurram, balamı nəzirli elərəm, qapından şəfa istəyirəm balama, Minasoltan, atasından inciyib, balama iraq-iraq, qarğış eləməyin!..

Minasoltan diksindi, rəncidəxatir oldu:

– Nə danışırsan, Bircə bacı, ayıb deyil? Ağa Tərlan kimi cavana kimin dili gələr qarğış eləyə? Dilin Allah qurudar. Ona dəyən dəyib.

Bircəxanım gözlərini dizinə dikib dilləndi:

– Düzdür, balama dəyən dəyib, bəlası güclü gəlib, özü də düşmən əliynən dəyməyib, belindən gəldiyi atasının əlindən, əli qurumuşun... Allah mənim naləmi yerdə qoymaya gərək. Bu bir ayda, Allah şahiddi ki, mən nə çəkmişəm, balam nə çəkib?.. Nə yeyir, nə içir, gücnən bir tikə dadızdırıram. Deyir: "Ana, dayı mən tay-tuş içinə necə çıxaram" – gözünün yaşını leysan kimi tökür. Neçə vaxtdı heç nə demirdi, indi dünən kişi ölmüş gedib Şəkiyə, xam ipəyə, karvan üstüynən... Deyəsən, elə özü də dərdin dağıtmağa çıxıb, yoxsa sarvan Kərbəlayı Vəliyə gördürürdü qırağkı alverini. Bu səhər atasının getdiyini eşidən kimi dedi: "Ana, sənə qurban olum, get Ağagilə, deyinən bir zəhmət çəkib bizə gəlsin, ona sözüm var". Əvvəl istəmədim gələm, dedim: "Ay bala, o söz-sovdan sonra Ağa bizə ayaq qoymaz, üzüm də gəlməz, necə gedim? Sonra atan bilər, qayıdandan sonra, iraq-iraq Ağaya tərk-ədəb söz-zad deyər, cəddi bizə qənim olar". Çox yalvardı, Minasoltan, sənə qurban olum, neynim, balamdı! Bala adamı, sizdən irağ yerdə, düşmən qapısına da aparar... Qorxuram balam xəft-damağ ola...

Bircəxanım danışdıqca onun sözlərindəki şübhələr Minasoltanın da qəlbini gəmirirdi. Lakin o ana idi, həm də Seyid Əzim anası! Məgər o, dərddən boğulan başqa bir anaya yox deyə bilərdimi? Sonra oğlunun üzünə necə baxardı. "Allah, sən saxla xata-baladan! Görəsən, razı olum? Görəsən, özü nə deyər? Gedər! Heç bir söz deməz – gedər".

Bircəxanımın intizarlı sükutu ananı dillәndirdi:

– Ağa evdə yoxdu, qəssaba gedib! İndi gələr, deyərik, mən bilən o, dostunu darda qoymaz. Qoy hələ bir durum kişinin canamazını gətirim.

Bu sözlərlə Minasoltan narahatlığını büruzə verməmək üçün yerindən qalxdı, qonşu otağa keçdi, ərinin köhnə canamazını taxçadan alıb



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qonağın yanına qayıtdı; titrək əllərini uzadıb canamazı əlinə alan Bircəxanım, seyid canamazını dərin bir etiqad və ümidlə öpdü, gözlərinə, alnına sürtdü, qatlayıb bağrına basdı:

– Cəddinə qurban olum, qəbrin nurnan dolsun, Ağa! Allah sənin balanı cənab peyğəmbər yanında üzü ağ eləsin. Səndən balama şəfa istəyirəm...

Analar çox gözləməli olmadılar. Şair içəri girən kimi Bircəxanım oğlunun yaşıdı olsa da, Ağadan yaşmaqlanıb, cəld ayağa qalxdı. Qadının tez yaşınmasına baxmayaraq, Seyid Əzim onu tanıdı. Bu, Tərlanın anası idi. Gənc şairin ürəyi qırıldı, təzəcə açılan üzünü bulud aldı, ona elə gəldi ki, Tərlanın taleyində o da nədəsə müqəssirdir. Bu fikir neçə vaxtdan bəri şairə rahatlıq vermirdi. Amma dostu haqqında Mahmud ağa ilə Cavaddan başqa heç kəslə danışa, xəbər-ətər tuta, yanına gedib əhval soruşa bilmirdi. Qapaqlı onun kölgəsini də qılınclayırdı. Şair, Hacının bütün hiylələrindən xəbərdar idi. Dostları, xüsusilə Cin Cavad ona bir çox şeyi demiş, xəbərdar eləmişdi. Hacı Əsəd nədənsə, oğlunun işlərinin açılmamasına səy edir, Tərlanı soruşana "azarlayıb" deyir, döydüyünü, yaraladığını bildirməməyə çalışırdı. Tərlanı küçədə-bazarda görən olmamışdı. O mənhus gündən bəri, heç kəs onunla alağa-salağa saxlaya bilməmişdi. Qapaqlının evi qapaqlı qazan kimi bağlanmışdı, quş quşluğuynan hasardan içəri səkə bilmirdi. İndi Bircəxanımı öz evlərində görməsi Seyid Əzimi çox təəccübləndirdi və təşvişə saldı. Dərhal "görəsən, Tərlanın başında nə iş var?" – deyə dostunu düşündü.

– Xoş gəlmisən, Bircə xala, ağa Tərlan nə təhərdi?

– Xoş günün olsun, Ağa, babatdı... – qadın naməhrəmlə danışdığını unudub dilləndi və utandığından səsini kəsdi.

Ana dəsmala bükülü əti oğlundan alıb, məsələni anlatmağa başladı:

– Başına dolanım, Bircə bacını ağa Tərlan özü yollayıb ismarışdayıb, səni istəyir...

Şair tərəddüd içində duruxdu:

– Bəs...

Hər iki ana məsələni anladı; Ağa, Hacının bu işə necə baxacağını fikirləşirdi, o razı olardımı ki, şair, Tərlanla görüşsün?

Tərlanın anası tələsik dedi:

– Qurbanın olum, Ağa, kişi kəsmiş şəhərdə yoxdu, Şəkiyə gedib...

Seyid Əzim məsələni anladı, onun dostu ilə görüşü gizli təşkil olunurdu.

Bircəxanım sözünə davam elədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Tərlan deyir ki, Ağa narahat olmasın, gedələr dəyirmanda olacaq, axşam azanından sonra zəhmət çəkib gəlsin. Evdə səndən, məndən, bir də bədbəxtimdən başqa heç kim olmayacaq...

Bu "oğurluq" görüş şairin qüruruna toxunurdusa da başqa çarəsi yox idi, dostu Tərlan ağır xəstə yatır, onu görmək istəyir, məgər getməmək olarmı?

...Qadın heç kəsin naümid qayıtmadığı qapıdan ürəyi ümidlə dolu çıxdı. O, Tərlana süd verdiyi döşlərinin arasına bir də bir canamaz sıxmışdı. Yazıq ana, oğluna bu köhnə, tarixi bəlkə də yüz ili keçmiş, nəsil canamazından daha çox ümid gözləyir, oğlunun sağalıb ayağa durması üçün nəziri nəzir dalınca deyirdi...

...Qalabazar məscidinin minarəsində Kəblə Mürvət "Lailahə İlləllah" deməyə başlayanda şair, evlərindən çıxdı, ona elə gəldi ki, indicə darvazadan on qədəm aralıda əli qələmkar boğçalı Məşədi Qənbəri görəcək. Kədərli olsa da bu təsadüf ehtimalı onu gülümsətdirdi, lakin bu gün nədənsə Məşədi Qənbərə rast gəlmədi, görünür kişi ya tez qayıdıb, ya da qüslünü gecikdirib. O gedir və düşünürdü: "Qəribə aləmdi bu aləm, burada arvadlarını o dünyaya yolladıqca, təzə cavan arvad alıb "savaba nail olan", səhər-axşam qüsl, namaz və orucla, ibadət, zikrlə məşğul olan Məşədi Qənbər "müqəddəsdi"; az qala bigünah oğul qatili Qapaqlı hörmətə minir; yüz baş kəsəndən sonra tövbə əstəğfar edən Alış izzət sahibidi... Bu aləmdə Tərlanların, Rzaların, Əzimlərin nəsibi nifrin, nifrət, söyüş qarğışdı... Görəsən, bu nə vaxtacan belə olacaq? Yox, Mahmud ağa da, Ağaseyidəli də, dostlarım da haqlıdır. Mən əgər bu el-camaata xidmət eləmək istəyirəmsə, getməliyəm, təhsilimi artırıb qayıtmalıyam. Elə başnan qayıtmalıyam ki, avam, yazıq olmuş millətimin başını piyləyənlərin, gözünü bağlayanların qabağında duruş gətirə bilim. Yoxsa cənab Rza bəy kimi mənim də məktəbimə heç kəs uşaq verməz, mən mütləq Tərlanı da dilə tutmalıyam; o da oxusun, təhsilini artırsın və biz, cənab Rza bəyin yarımçıq qalmış işini davam etdirək, özü də elə bir təhsil və savadnan ki, heç kəs döşümüzə durmasın. Təkcə arzudan bir şey çıxmaz, bu arzunu yerinə yetirmək, işə çevirmək üçün bilik-baş lazımdır..." O bir aydan bəri Nəcəfüləşrəfə təhsilə getmək haqqında düşünməyə başlamışdı.

Fikir dəryasına qərq olduğu halda, Tərlangilin mənzilinə çatdı. Qapaqlının darvazası bağlı idi. Şair tərəddüd içərisində qapının önündə dayandı. Ehtiyatla əlini öküz başı şəklində qayrılmış bürünc çaxçaxa uzatdı. Çalmaq istəyirdi ki, qapı içəridən açıldı... İlk azan səsindən bəri ana onun yolunun intizarında, örtülü darvaza dalında durub gözləyirdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Axşamınız xeyir, Bircə xala, Tərlan hardadı?
– Xeyir günlər görəsən, Ağa, içəri otaqda, buyur...

Onlar ala-qaranlıq həyətdən keçib Tərlanın yanına gəldilər. Qapıdan içəri girən kimi, şair yataqda uzanmış dostunu gördü və heyrətdən donub qaldı. Görmədiyi bir ay ərzində Tərlan necə də dəyişmişdi, arıqlamışdı, dəyirmi sifəti uzanmış, alagözləri çuxura düşmüş, çatma qaşları quyu dibindəki su kimi ölgün işıq saçan bu gözlərə kölgə salmış, yanaqları çökmüş, gənclik təravətini itirmiş, üzünü tük basmışdı... Alnındakı yara sağalmışdısa da, qaraşın dərisində yara yeri ağ bir çapıq əmələ gətirmiş, üzünün gözəlliyini xeyli korlamışdı. Əynindəki ağ köynək solğunluğu bir az da artırmışdı. Xəstə yerində qurcalandı, qalxmağa təşəbbüs etdisə də bacarmadı. Şair cəld özünü yetirib yatağın yanına salınmış nimdərin üstündə oturdu və xəstəni qalxmağa qoymadı, çiyinlərindən basdı, sonra da əyilib alnından, çapığın üstündən öpdü:

– Durma, durma...
– Görürsən də, Ağa...
– Görürəm...

Ana onları tək qoyub, oğlunun əziz qonağı üçün çay dəmləməyə getdi.

İkilikdə qaldılar. Əvvəl sözü nədən başlayacaqlarını heç bilmirdilər. Sükut xeyli sürdü. Sonra qırıq-qırıq əhval-pürsan başladı.

– Mahmud ağa necədi?
– Yaxşıdı, sənə salamı var, hey soruşur, aradan-bərədən xəbər tutur...
– Bilirəm, sağ olsun...
– Hamımızın canı yanındadı...

Xəstənin solğun üzü azacıq işıqlandı:

– Bilirəm... sağ olun, İrza bəyin işi nə yerdə qaldı?
– Birtəhər, tövlə otaqlarının birini məktəb üçün ayırıb, düzəltdirir, bir miqdar pul da hasil olub, cənab Mahmud ağadan, Kərim bəydən... ustul-mustul aldırır...
– Allah köməyi olsun...

Şair dostuna ürək-dirək vermək üçün dedi:

– Hərə bacardığını eləyir, inşallah sən də durarsan köməkləşərik.

Tərlanın üzündəki ələm buludu sıxlaşdı, dodaqlarını istehzalı bir təbəssüm əydi:

– Xeyr, Ağa, daha mən heç, mən cərgədən çıxdım...
– Elə niyə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Özün yaxşı bilirsən, Ağa, mənə dəyən elə dəyib ki, mən bir də dost-aşna, tay-tuş içinə çıxa bilmərəm...

Dostundakı bu ruh düşkünlüyü şairi dəhşətə gətirmişdi. "Xarab olasan zəmanə, nə canları məhv eləyirsən... nə əməlləri puça çıxardırsan... Cavan bir insan, hələ həyata əməlli-başlı qədəm qoymamış, sütül, amma məğrur bir insanın mənəviyyatını belə qıran adət, ənənə məhv olsun; ata da olsa, oğlunu tay-tuş içində xar-zəlil eləyən qapaqlılar, molla Qurbanqulular, Alışlar dünyası... səni məhv etmək vacibdir. Bunun üçün isə dostum Tərlan, ruhdan düşmək, ayaq yeri qoymaq yox, əlləşib-vuruşmaq lazımdır".

O, kədərlə dostunun yaşlı gözlərinə baxdı:

– Dost-aşnanı elə kəmfürsət bilmə, Tərlan...

– Allah eləməsin... amma sən şirvanlılara, Şamaxı bazarına bələdsən. Mən bir də bu üzlə hara çıxa bilərəm? Görən kimi ağzıgöyçəklər adıma bir çapıq ləqəbi qoşacaqlar. Bir də Tərlan sözü dillərinə gəlməyəcək. Heç bir çarəm qalmayıb.

O, çox şey demək istəyirdi. O demək istəyirdi ki, "Sonadan sonra mən bu diyarda qala bilmərəm. Mənim bütün xoş arzularım, istəklərim, məhəbbətim boğulub, məhv olub, səraba dönüb!.. İndi mən nəyəm ki, atasının təhqir elədiyi, xar-zəlil elədiyi bədbəxt bir cavan... Sevdiyimi əlimdən aldılar, özümü bu kökə saldılar... Heç bir iş tuta bilmərəm, əlimə nə alsam əlimdən düşər... El içində biabır olmuşam. İndi də atam təzə pəstəha açıb..." O elə bu cümlədən də başladı:

– Ağa, indi də atam təzə bir pəstəha açıb. Məni evləndirmək istəyir. Hamısını bilməsən də, bəzi-para şeylərdən xəbərdarsan. Mən istəmədiyim adamla evlənə bilmərəm... İstədiyimi də əlimdən aldılar...

Şair gözlərindən yaş süzülən dostuna qəmli-qəmli baxır və düşünürdü: "Görəsən, kimdi istəklin ki, atan onu da əlindən alır? Bir zaman Sona səni məndən soruşmuşdu... Yoxsa... odu? A bədbəxt dostum, deyimmi? Səni sakitləşdirimmi ki, Sona ölməyib, camaat arasına yayılan təki qaçaqlar onu dağlara çəkib aparmayıb, gizləndiyi yeri bilirəm... Yox, bu ola bilməz... bu mənim sirrim deyil! Həm də Tərlan onunla evlənməyi ağlına da gətirməz. Atasını tanımırdımı ki, elə boş xəyallara düşsün? Yəqin başqa kasıb-kusub, yetim-yesirin biridi. Qapaqlı da razı olmur. İndi ki, özün demirsən, dəxi mən neynəyim, sənə nə kömək eləyim, a yazıq?"

Tərlan isə düşünürdü: "Deyimmi, deyimmi ki, mütrüfün öldürülməyi, Sonanın aparılmağından sonra bu kökə düşmüşəm... Deyimmi ki, Sonam məni bu dərdə salıb?"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yaxşı, bəs onda neynəmək istəyirsən? – şair təşvişlə dostunun dolub-boşalan gözlərinə baxdı, yastığın kənarları artıq islanmışdı, şair cibindən yaylığını çıxardıb Tərlanın gözlərini, yanaqlarını sildi:

– Di bəsdi, Tərlan, səni mabeynimizdəki[1] dostluğa and verirəm, dəxi ağlama, ürəyimi dağlayırsan...

– Allah eləməsin, elə səni xəbərdarlığa çağırtdırmışam, mən indi bir az babatam, bir-iki günəcən güman eləyirəm ki, ayağım da yer tutsun. Anama açıb deyə bilməzdim. Dərdindən dəli olar, sirrimi də açar. Nə eləsəm, ondan gizli eləməliyəm. Səndən isə heç nə gizlədə, səni görməmiş, salamatlaşmamış gedə bilməzdim...

– Hara, qardaş?

Tərlan ümidsizliklə çiyinlərini çəkdi:

– "Ayağım hara, başım da ora. Evdən Məşhəd ziyarəti adıynan çıxacam, doğrudan da bir neçə gündü ki, yuxumda kimdisə məni çağırır, mənə belə gəlir ki, məni Ağa özü çağırır... Onlar mənim Ağanı ziyarətə getməyimə mane ola bilməzlər... Sənə də dedim ki, qoy dostlar, tay-tuş rəncidəxatir olmasın. Xüsusilə İrza bəy... Onunla elə arzularımız vardı ki... Təki ona nəsib olsun...

Bu sözdə şair, dostunun əlindən tutub bir ümidlə dilləndi:

– Tərlan, əzizim, axı səninlə bizim özün deyən kimi gözəl-gözəl arzularımız var idi, biz səninlə birlikdə bədbəxt millətimizin tərəqqisi üçün çalışacaqdıq. Axı sən cənab İrza bəyə də söz vermişdin...

– Yox, mənim bütün əməllərim puç oldu, məndə daha o taqət qalmadı, görünür ki, mən o igidlərdən deyiləm, mən tənə oxlarına davam gətirə bilmədim, gücsüz çıxdım, bifər oldum...

– Elə neyşə deyirsən, indi ki, gedirsən, onda gəl bir yerdə oxumağa gedək, təhsil alaq.

– O tüllabları ki, mən tanıyıram, mən onların oxuduğunu oxuyub gəlib Molla Qurbanqulu ola bilməyəcəm. Ayrı cür oxumağa da atam nə yol verər, nə müavinət elər...

Gənc şairin gözləri doldu: Tərlandakı bü təbəddülat onun nazik qəlbini həm təəssüf, həm də acı bir kədər hissilə doldurmuşdu: "Bir bax gör nə itiririk... Yazıq millət... Zəmanə təzə-təzə cülus etmək istəyən balalarından birini də əlindən aldı. Rza bəyə "urus İrza" adı qoyub, məktəbini haram elan eləyənlər sevinsin, çətin davam eləyə. Tərlan isə hələ heç bir şeyə iqdam etməmiş, millətinin cibindən gedir".

---

[1] Aramızda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tərlan dostunun nələr düşündüyünü və nələr düşünə biləcəyini fikirləşdikcə az qalırdı ki, dəli olsun. O indi özünü meydandan qaçan bir fərari kimi hiss edirdi. Odur ki, ağır olsa da, söhbətə xitam verməyə tələsdi; qan sağılmış gözlərinin küskün baxışlarını Ağanın çiynindən o yana, divara dikib dedi:

– Səndən bir təvəqqəm var, Ağa!

– Buyur, Tərlan...

– Bu pulu – o, əlini döşəyinin altına uzadıb balaca bir düyünçə çıxartdı və Seyid Əzimə uzatdı. – Bu pulu Cavada ver, qoy mənə bir dəst qalın paltar alsın, qalanını tapşırsın Mahmud ağa karvansarasındakı dalandara. Gərəyim olanda özüm ondan alıb götürərəm...

Seyid Əzim təəssüflə başını buladı, son vasitəyə əl atdı:

– Mənə belə gəlir ki, yaxşı iş görmürsən anan barədə, yazığı gözü yaşlı qoyacaqsan... Bir tərəfdən də, neynək gedib gəzərsən, səyahət elərsən, dərd-qəmin dağılar. Kişi də fikrindən dönər, sonra qayıdıb gələrsən, inşallah istəklinə də qovuşarsan...

Şair özü də bilmədən gəncin ağrıyan yerinə toxundu...

– Onu bilmək olmaz, nə o, sözündən dönəndi, nə mən... Görüş qiyamətə qaldı. Ağa, bu ayrılıq axirət ölüm-dirim ayrılığıdı...

"Mən Sonam uçurulan bu gölə bir də qayıtmaram, dostum, mən elə namərd ovçu deyiləm".

Şairin ürəyi əzildi, bu vida, faciəli vida onu kövrəltdi, gözlərini yaşartdı, bir daha Tərlana ürək-dirək vermək üçün dedi:

– Elə demə, mən də gedirəm, kim bilir, dağ dağa qovuşmaz, adam adama qovuşar, bu Vətəndi, torpaq çəkib gətirər.

Tərlan təəccüblə soruşdu:

– Sən hara gedirsən ki, Ağa!

– Nəcəfə, təhsilə getmək istəyirəm, elə mənim üçün də çətindi...

"Sənin ki, Sonan uçmayıb..."

– Səfərin uğurlu olsun, Ağa!

Onlar bir daha öpüşdülər, vidalaşdılar, şair durub otağı tərk etdi. Bircəxanım bir fincan çaya belə qonaq edə bilmədiyi seyid-peyğəmbər övladının bu gəlişindən çox ümidlər gözləyir, oğlunun Ağanın səfayibatinindən sağalacağını, qədəminin düşərgəli olacağını düşünüb qəlbi rahatlanırdı. Başı üzərində necə qorxunc ildırımların çaxmağa hazırlaşdığından bixəbər ana, şairi qapıdan ötürəndə əyilib əlindən öpdü.

...Qarşıda yol görünürdü... Şirvandan çıxan karvan yolu. O, dostlarımızdan ikisini aparacaqdı; bu yolların biri müəyyən idi, gələcəyə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ümidlərə doğru, təhsilə aparırdı. Bəs o biri yol qolu-qanadı qırılmış Tərlanı hara aparıb çıxaracaqdı?

Yollar Sonanı, onun dalınca da Tərlanı apardı, elə bil Şirvan torpağında nə incə rəqsləri ilə insanları heyran qoyan Sona, nə də onun eşqilə yanan tərlan var imiş...

Sonanı bu yollarla getməyə məcbur etdilər, onu, Vətən torpağından incə bir gülü zorla qıran kimi qırdılar. Tərlan isə... Tərlan dostunun səsinə səs verib, öz əməllərinə sadiq qalmadı, o təhsilə getmədi, dərvişlik yolunu seçdi, biyabanlara düşdü... bu yollar Sona və Tərlanı zəmanənin təlatümlü, keşməkeşli ümmanından hansı bir sahilə aparıb çıxaracaq....İndilik isə hər bir şey öz adi qaydasında davam edir, elə bil heç kəs bu yoxluğu hiss etmirdi. Amma Bircəxanımın gözlərinin yaşı qurumur, cavan şairin öz nakam dostundan ötrü qəlbi aram tutmurdu. Doğrudur, o, dostuna bu yaxınlarda Şirvanı tərk edəcəyini, Nəcəfə təhsilə gedəcəyini dedi, amma onun arzuları düşündüyü qədər də tez baş tutmadı. Bunun iki səbəbi var idi: birinci pul! Cavan, on doqquz-iyirmi yaşlı gənc Seyid Əzim uzaq ellərdə hansı pulla yaşayıb təhsil alacağını hələ müəyyənləşdirməmişdi. Tavana sahiblərindən onun təhsilini kim qiymətləndirəcək, kim ona himayə əlini uzadacaqdı – bilmirdi.

Kərbəla, Nəcəf tüllablarının həyatı haqqında ziyarətdən qayıdanlar da elə sözlər danışırdılar ki, biri deyirdi: yarıac-yarıtox Allahın kəlamını oxumaqdan canlarında can qalmayıb. Göndərilən ianə pullarından onların qismətinə çox az şey düşür. Arxasınca canı yanan, əl uzadanı yoxdursa, sailə dönür, dilənçi həyatı keçirir. Bir başqası xəbər gətirirdi ki, göndərilən paralar hədər gedir, tüllablar[1] tiryəkə, ləvhüləəbə qurşanıb, dərs, Quran yaddan çıxıb. Tüllablardan gələn məktublar da həmişə şikayət, pul tələbi, kömək yalvarışları ilə dolu olurdu. Bütün bunlar Seyid Əzimi hələ qəti qərar verməkdən sağındırırdı. İkinci səbəb Kiçginə xanım – Minasoltan idi.

Tərlan əhvalatından sonra arvadın qərarı kəsilmişdi. Başı kəsilmiş toyuq kimi özünü ora-bura çırpır, qohum-qonşuda qız gəzir, balasının ayağını evə möhkəm bəndləmək istəyirdi. Bəlkə, Allah kərimdi, ya heç oxumağa getmədi, ya da getsə, iraq-iraq başqa tüllablar kimi o yerlərdə küllənib qalmadı. Tez də qayıdıb gəldi deyə düşünürdü. Ana işi elə qurmuşdu ki, bu günlərdə Seyid Əzim hara getsə, hansı qohumuna, dostuna rast olsa, söhbət axırdan-axıra gəlib evlənmək məsələsi üstünə çıxırdı. Seyid Əzim əbədi evlənməmək əhdi eləməmişdi.

[1] Dini mədrəsə tələbələri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi həmin hadisələrdən bir ilə yaxın müddət keçdiyi bir zamanda gənc şair, Sonaya olan eşqini yadına salır və düşünürdü: o bir eşq idi, ani. O bir eşq idi, baharın nəsimi kimi xoş və ötəri... Ömrümə bir anlıq təzə, tər bir qızılgül ətri gətirdi, dimağımda süsən kimi xoş bir rayihə qoyub getdi... Mən onun cilvələrinə, rəqsinə aludə idim, bunun həqiqi eşq, əsil məhəbbət olub-olmadığını heç başa da düşmürdüm... Mənə elə gəlirdi ki, onu görəm, ətrini duyam gərək... O mənim üçün behişt cilvəli bir huri, bir pəri idi. Bir yuxu idi ki, oyandım, əlimdə heç nə qalmadı. Xatirəmdə isə əbədi, füsunkar bir gözəllik həkk olundu. Onu oradan heç bir qəza silib tullaya bilməz... Təkcə Sona, o bədtale sənətkar anladı ki, bu eşq iki qəlbi bir-birinə əbədi bağlayıb, həyata züriyyət, davamiyyət gətirən məhəbbət deyil. Bu olsa-olsa bir şairin gözəllik ilahəsinə, bir büti-siminbədənə olan sitayişidir. Burada son tikəni bərabər bölüşdürən, bütün həyat boyu çiyin-çiyinə gedən, oğul-uşaq böyütmək, nəsli davam etdirməkdən ötrü həyatın bütün keşmə-keşlərinə dözən ər-arvad məhəbbəti üçün yer yoxdur. O başa saldı məni! Anlatdı ki, "mən sənin xəyalına, ilhamına bəzək ola bilərəm, həyatını isə qura bilmərəm. Bunun üçün məni çoxdan məhv etmişlər". O mənə anlatdı ki, "mən artıq yanmış bir şamam, pərvanə olma, özünü bu şama yandırma". Sona, sən nə dilbər bir qız idin, zəmanə və ruzigar səni bədbəxt etməsəydi, sən gözəl bir baş yoldaşı olardın, insanın bütün əməllərini başa düşən bir baş yoldaşı...

– Görəsən, bəs tale istəkli anamın əliylə mənə kimi baş yoldaşı seçir?..

Düşüncələr onu yormuşdu, bir neçə gün idi ki, yazdığı qəzəllər də xoşuna gəlmirdi. Dönə-dönə sevdiyi Füzuli "Divanı"nı qarşısına açıb oxuyur, sevgili ustadına nəzirəni nəzirə dalınca qoşurdu. Bu gün o, Füzulinin

> Kərəm qıl, kəsmə, saqi iltifatın binəvalərdən,
> Əlindən gəldiyi xeyri diriğ etmə gədalərdən

– mətləli[1] məşhur qəzəlini təxmis etmək arzusuna düşmüşdü... Təxmis bir növ nəzirə olsa da, şairdən böyük ustadlıq tələb edirdi: axı şair öz sələfindən aldığı qəzəlin hər beytinə üç elə misra əlavə etməli idi ki, həm məzmun, həm də vəzn və qafiyəsini pozmasın, qəzəlin gözəlliyini, məna və bədii keyfiyyətini mühafizə etməklə, yeni bir əsər, bir müxəmməs meydana qoysun. Şair yazırdı:

[1] Başlanğıc, şerin ilk beyti



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şikəstə kaseyi-çini misalı bir sədamız yox,
Sınıq ney tək sədadan düşmüşüz, bir dəm nəvamız yox.
Səba, ol gülbədəndən nameyi-rahətfəzamız yox,
"Əsiri-qürbətiz, bir səndən özgə aşinamız yox,
Ayağın kəsmə, başınçün, bizim möhnətsəralərdən".

Qəzəlin, Füzuli eşqinin ahəngi, Seyyidin bugünkü halına elə uyğun gəlirdi ki, gənc şair yararlı söz, uyğun kəlmələr, misralar tapmaqda çətinlik çəkmirdi. Sözlər narın səhər mehi, gözü arınmış bulaq suyu təki incə-incə, zərif-zərif axırdı; azad bir eşqin qarşısına çəpər çəkənlər, insan hisslərinin solmasına, boğulmasına səbəb olanlar, Sonaları, Tərlanları, Seyyidləri nakam qoyan Qapaqlılar, Alışlar onun nəzərində canlanırdı. "Ey Şərqin qoca Füzulisi, səndən sonra bu üç yüz il ərzində elə bil heç nə dəyişməyib, səndən sonra da eşqlər, hisslər boğulur, səndən sonra da Sənan tərsa[1] eşqilə boynuna zünnar[2] salıb, zahidlər simbər[3] bütlər tamaşasını qadağan eləyirlər. Aşiqin vücudu cəfalərdən surax-suraxdır. Xudnümalər yenə də aşiqdən eşqi tərk edib, məscidə girməyi tələb edirlər". O alışıb yanırdı, yanaqları od tutmuş, allaşmış, qələmi yarın siyah zülfü kimi qara mürəkkəbə girib çıxır, qar kimi ağ sinəsinə bənzər Səmərqənd kağızı üzərinə misraları misra dalınca düzür, Füzulinin səsinə üç yüz ildən sonra səs verən şair deyirdi:

Qəsəm piri-muğanə varisalər peyrəvi olmam,
Bu qovmi-xudfüruşü xudnümalər peyrəvi olmam,
Həqiqət əhliyəm, əhli-riyalər peyrəvi olmam,
"Girib məscidlərə gər müqtədalər peyrəvi olmam,
Budur vəchi ki, hər giz görmədim üz müqəddalərdən".

Minasoltan yalnız analara məxsus ahəstə addımlarla otağa girdi, mis sinidəki zağlı çaydan və fincanı oğlunun qarşısına qoydu və sözlü-sözlü durub baxdı, o bu gün mütləq Seyid Əzimlə danışmaq, ürəyindəki arzularını həyata keçirmək üçün razılığını almaq fikrində idi. Sonra da Dağıstana, Yaqsay qazısı olan atası Molla Hüseynə xəbər yollamalı; onu da dəvət edib xeyir işi tamamlamalı idi.

Şair anasının otağa girməsini görməkdən ziyadə hiss elədi və başını qaldırdı. Ananın sözlü görkəmindən alındı. Deyəsən, çoxdan gözlədiyi

---

[1] Qeyri-müsəlman, xristian

[2] Xaç

[3] Gümüşbədənli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və neçə gündən bəri baş verəcəyini hiss elədiyi bugünkü söhbətdən yaxa qurtara bilməyəcəkdi. Xəfifcə gülümsədi:

– Nədi, məmə, sözlü adama oxşayırsan?

O bəzən, uşaqlıqda olduğu kimi, anasını "məmə" adlandıranda bu, Minasoltana xüsusi ləzzət verir, ona öz böyüklüyünü xatırladır, onu cürətləndirirdi.

– Oğul, Allahdan gizlin deyil, bəndədən nə gizlin. Qərəzim səni evləndirməkdi...

Gənc qızardı:

– Elə birdən, bu tezliklə?

– Yox, tez niyə olur... Allaha şükür boylu-buxunlu cavan olmusan, lap elə vaxtındı...

– Nə deyim axı... Neçə gündü hamınız düşmüsüz üstümə, deyəsən, sənin kələyindi bunlar hamısı, hə, ana? Hara gedirəm, elə hamı bir söz deyir, "evlən"... Evlənmək bəyəm bazardan bir girvənkə ət, ya bir arşın bez almaqdı?..

– Yox, mənim kələyim oldu olmadı, məsələyə dəxli yoxdu... Sən de görüm razısan?

Gənc daxilindəki həyəcanları, gizli duyğuları büruzə vermək istəmədi, bir az zarafat tərzində kimi nəzərdə tutduqlarını öyrənmək istədi:

– Yaxşı, ana, sənətim yox, sübutum yox, kimdi mənə qız verən? Hansı yazığı bəxtəvər eləmək istəyirsən?

Ana sözdəki zarafatı başa düşəcək halda deyildi, məqsədi onu elə almışdı ki, oğlunun şuxluq yolu ilə gələcək gəlin haqqında xəbər bilmək istədiyini duymadı; incidi:

– Elə neyşə deyirsən; nəyin əskikdi Allaha şükür? Hamı xoşluqnan sənə qız verər, əslin-nəslin, özün başıaşağı. Əlində yazı-pozun...

– İncimə, ana, doğrudan kimi fikrində tutmusan, axı, bilmək olmaz?..

Arvad məsələni başa düşdü, gülümsədi:

– Bıy, başıma xeyir, neyşə bilmək olmur, evlənən sən deyilsən bəyəm? Belə Bəyimxanım xalanın qızı Ceyranı.

Seyid Əzimin qəlbi qismən sakitləşdi, o, Ceyranı ömründə görməmişdisə də, "Fit dağından köçüb gəlmiş" və uzaq ana qohumlarından olan anasını, Bəyim xalanı tanıyırdı. Arvad bacılığı Kiçginəxanımgilə tez-tez gələr, çox vaxt rəfiqəsi ilə birlikdə yorğan-döşək salmaq kimi mövsümi işlərdə ona kömək elər, bəzən burda gecələrdi də; yaşlı bir qadın olmasına baxmayaraq: oğlu yerində olan Ağadan yaşmaqlanardı. Amma bununla belə Seyid Əzim onu görmüşdü, gözəl deyiləcək qədər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaraşıqlı, gülərüzlü bir qadın idi. O, "Əgər, "anasına bax qızını al" məsəli doğrudursa, onda mən börkümü göyə ataram" deyə düşündü. Daha başqa çarə yox idi. "Dədəm də, babam da, bütün el-obam da belə evlənib. Mənim kimi sonalar eşqinə düşüb, görüb-aşıqlayıb evlənən bəxtəvər bu diyarda yoxdu. Gec-tez bu olasıdı. Yaxşısı budu, nə anamı rəncidə eləyim, nə də Bəyim xala kimi tərbiyəli bir arvadın əlində böyümüş baş yoldaşını rədd eləyim. Sonra Allah bilir kimə ürcah ollam. Bunlar heç olmasa doğrudan da nəcib, hamısı da az-çox əhli-qələm tayfadı".

Oğlunun xatirindən nə keçdiyini bilməyən ana, gəncin dərin xəyala dalmasından darıxdı:

– Nə fikrə getdin, oğul, yoxsa döşünə yatmır? Vallah, ceyranın quzusudu, həm gözəl, həm kamallı, həm də özün deyəndi, babasından Quran oxumaq, yazmaq da öyrənib sənin kimi... Day nə istəyirsən?

Seyid Əzim artıq qərar vermişdi. Onsuz da bir gün-beş gün çəkçevirdən, minnətdən-sünnətdən sonra razılığını xoş-güc alacaqdılar. Nəvazişlə əlini anasına uzadıb yenə də sözü zarafata saldı:

– Onda lap yağ-bal oldu ki... – Sonra ciddiləşdi. – Ana, mən bilirəm ki, sən mənə pis şey calamazsan. İndi ki, belə ürəyinə yatıb, gəlinnən evdə sən dolanacaqsan. Allah sənə ürəyincən gəlin qismət eləsin...

Sevincindən Minasoltanın çiçəyi çırtdadı...

– Allah ağzından eşitsin, bala, ağzın fal olsun. Səni görüm, dünyada heç neynim-necəliyim deməyəsən! Südüm sənə halal olsun, mənə yox demədin, ağbaxt olasan!

Ana alqışları gəncin ürəyində əks-səda verdisə də, təşvişi azalmadı... Qəlbinin döyüntülərini qulaqları ilə eşidirdi.

...Qızının məktubunu alan Axund Hüseyn Yaqsaydan dərhal özünü Şamaxıya yetirdi. On bir il tərbiyə verib əmrazəyə yetirdiyi, Kiçginədən başqa övladı olmadığından, özünə oğul qəbul etdiyi nəvəsi Seyid Əzimin xeyir işi qocanı çox sevindirmişdi. Yaqsay qazisini şəhər ruhani və əşrafı xüsusi hörmət və izzətlə qəbul etdilər. Onun oğul toyu eləməsi şəhərdə böyük razılıq və şənliklə qarşılandı. Ağsaqqalların məsləhətindən sonra toy günü xoşladılar, xəlfə Cin Cavad çağırıldı, əlinə toya çağırılanların siyahısı verildi. Cavad məhəllə-məhəllə, Qarabazar, Sarıtorpaq, İmamlı, Minaxor, Yuxarı Qala, Şıxminaslı evlərini gəzdi, toy gününü xəbər verdi. Həyətdə xalı, gəbə, cicim və əlvan palazlardan toyxana quruldu. Şəhərin məşhur xanəndəsi Nəcəfqulu öz dəstəsi ilə çağırıldı. Seyid Əbdül Əzimin şair dostlarından "Rağib" təxəl-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lüslü Qafar, evli olduğundan sağdış, hələ subay olan Bixud soldış ayrıldı. Qoyunlar kəsildi, qazanlar asıldı. Bəy, zurna-balaban sədalarının müşayiətilə hamamdan çıxıb gəldi. Kiçginə xanım və qohum-qonşular pul kimi qızarmış bəyin boynuna al-əlvan xələtlər, məşhur Şirvan, Basqal, Gəncə kəlağayıları, qanovuz, darayı zolaqları doladılar. Xonçalar tutuldu. Toyxanada rəqs başladı. Əlindəki ağacı tovlayıb ortada fırlanan Cavadın ayağı yerə dəymirdi. Qalabazarın məşhur adamlarından sayılan Ağa Səməd bəy, xan seçildi, sonra Nəcəfquluya növbə çatdı, iki saat yarımlıq sükut içində Nəcəfqulu muğamatın ən incə pərdələrində gəzib dinləyicilərini heyran qoydu, o gah Hafiz, gah Sədi, gah Füzulini dilləndirdi, arada bir Seyidin öz qəzəllərindən də oxudu. Sonra Xan, bəyi toya dəvət elədi, Nəcəfqulu bəyi təriflədi:

Görüm ay bəy toyun mübarək olsun
Sağdışın, soldışın, elin var olsun...

Cərgələrdən qonaqların səsi ucaldı: "Bəy oynasın, ucuzluq olar, bəy oynasın". Mirzəyi havası çalındı. Cin Cavad gözlərində parıldayan cinlərlə birlikdə dostuna yanaşdı, çiynindən öpdü; yavaşca pıçıldadı: "Toyun mübarək, Ağa, yaxşı yaxan əlimə keçib, bir həcv ya qəzəl səndə, o baş-bu baş get-gəl, yerinə mən şıdırğı vurram" – deyə-deyə təzə bəyi ortaya çəkdi. Bəylik libasında xeyli gözəlləşmiş qədd-qamətli cavan ortaya çıxanda qohumlar fərəhlə tamaşa eləyib alnına pul yapışdırdılar, arvadlar ocağa duz-üzərlik atdı. O, sağdış və soldışı Rağib və Bixud ilə bir dəfə məclisi o baş-bu başa getdi.

Az sonra məclis dağıldı. Ürək döyüntüsündən başqa heç bir şey duymayan şairi, Bixud və Rağib gətirib içəri otaqlara keçən qapının ağzında yengə Əzizbikəyə tapşırdılar. Şairin daxilində qəribə bir boşluq var idi. Heç nə düşünə bilmirdi.

Bu gün səhərdən o, demək olar ki, bir kəlmə də danışmamışdı. Bir neçə gün əvvəl onun razılığı alınmışdı, dünən kəbini kəsilmiş, əqdnamə oxunmuşdu; sağdış, soldışı məlumdu, qonaqlar, kəsilən qoyunlar, çalan aşıq sazəndə, nəvazəndə – hər şey, hətta, toyun xanı da, yengəsi də məlum idi. O bunların hər birisini tanıyırdı, ya uşaqlıqdan, ya da sonradan görüb tanıdığı adamlar idi. Bircə gəlindən başqa... O, gəlini tanımırdı, görməmişdi. Sabah gərdəyinə girəcəyi bu qız necə idi, gözəlmi, çirkinmi, ağıllımı, sərəkmiydi, bilmirdi... Qəribədir, bəzən o öz şair xəyalı ilə "Bikəxanımın qızını" gözü önündə canlandırmağa çalışır və bu təşəbbüsünə qəlbində gülümsəyirdi də... Son subaylıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gecəsini həmin həyəcanların, duyğuların təlatümü içində yatdı. Yuxuda da Sonanı gördü... Qəribədir. Sona elə bil lap anası idi, yaxınında idi, yaxınına gəldi, əlini onun yanan alnının üstünə qoydu: "Yat, arxayın yat, mən görmüşəm, yaxşıca qızdı, lap sənə layiq... Qorxma... İstəyirsən, gəl sənə göstərim..." Sona gərdəyin pərdəsini qaldırdı... pərdənin dalında üzü duvaqlı bir qız dayanmışdı, duvaq açıldı, amma şair qızın üzünün cizgilərini ha çalışdısa da ayırd eləyə bilmədi... "Belə görmək olarmı, Sona, – dedi, sən də məni aldadırsan?.." "Yox, yox, aldatmaq niyə, heç aldatmıram, Ağa, yesirin olum, vallah, görmüşəm..." O ayıldı... Sərasimə ayıldı. Lakin hamısından qəribəsi bu idi ki, indi artıq o, Sonanı nə yuxuda, nə oyaqlıqda bir aşiq gözü, qəlbi ilə görə bilmirdi... Bütün günü yuxu yadından çıxmadı, bəy hamamından çıxanda da, özünə bəy otağında sağdış-soldışı ilə oturub təbrik hədiyyələri qəbul eləyəndə də...

...Qolundan tutub içəri apardılar. Əvvəlcə yengə Əzizbikə onu sağdış və soldışdan ayırıb, gərdək qurulmuş otağa gətirdi. Burada anası durmuşdu: sevincdən rəngi allaşmış, gözləri par-par yanırdı. "Can ana, sən özün elə lap cavan gəlinsən, niyə bəs qayınana olmağa tələsdin?" Minasoltan oğluna yanaşıb, xeyir-dua verdi, alnından, gözlərindən dönəm-dönəm öpdü.

– Toyun mübarək, oğul, oğul-qız atası olasan, xoşbəxt olasan, get, Ceyran gəlinim sənin intizarındadı...

Onlar yengə ilə birlikdə çıxdılar. Seyid Əzim üstü tirmə başlıqlı al zərxara pərdəni qaldırıb içəri girdi:

...Taxt döşəyinin üstündə oturmuş gəlin ipəklər, məxmərlər, qanovuzlar içində itib batmışdı. Ceyran, bəyin içəri girdiyini duyunca ayağa qalxdı. Məxmər qırçıntuman, qaymağı xara arxalıq, bənarə örpək üstündən salınmış duvaq gəlinin boy-buxununu, üzünü gizlətmiş, onu bir topa ipəyə, ipək yığınına çevirmişdi. "Səni başa düşməyə çalışacağam, sevə biləcəyimi deyə bilmirəm, amma başa düşməyə, dərk etməyə çalışacağam. Səndə də belə bir səbir, belə bir arzu olacaqmı? Qurbanlıq quzu kimi bəzədilib gətirilən gəlin, məni tanıyırsanmı, heç olmasa bircə dəfə görmüsənmi? Bəlkə də, görmüsən..." O, tərəddüd içində durmuşdu. Bir tərəfdən gəlinin üzünü tez görmək istəyir, digər tərəfdən duvağı onun üzündən götürməyə qorxur, ehtiyat edirdi... Nəhayət, maraq bu hissə qalib gəldi, o yaxınlaşdı, sağ-soldışının öyrətdiyi kimi "Xoş gəlmisən" deyə üsulluca al duvağı gəlinin üzündən qaldırıb dalına atdı və ayağını yüngülcə basmağa tələsdi. Duvaq altından şairin üzünə bir parça nur parladı... Gəlinlik paltarında, məşşatə bəzəyindən çıxmış,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

duvaqlı qız-gəlin həmişə gözəldir, çirkin də bu geyimdə babət, gözəşirin görünə bilər... Amma Ceyran, doğrudan da, gözəl idi... "Bir parça nur... bir parça nur kimi". Şair bundan özgə bu dəmdə söz tapa bilmədi... "Afərin, əhsən, əgər əqlin-kamalın da, tərbiyən də gözəlliyinin yarısınca varsa, bəxtim işləyib" deyə düşündü və bəxtiyarlıq içində gülümsəyib qızın əlindən tutdu: "Sənə demədimmi, qorxma, demədimmi?" – elə bil qəlbinin ən dərin bir guşəsinə çəkilmiş ilham pərisi ona səs verdi. O artıq fərqinə varacaq halda deyildi, bilmirdi bu səs kimindir: Sonanınmı, anasınınmı, könlününmü?..

...Onlar hələ kəlmə kəsməmiş, yengə Əzizbikə əlində aftafa-ləyən içəri girdi, Qafarın təlimi yadına düşdü: "Əvvəlcə iki rükət namaz qılmalısan, sonra gəlinə əl uzadıb, duvağını başından götürərsən", Seyid Əzim, gülümsədi, "Bay evin tikilsin, aadə, təlimin, yadımdan lap çıxıb ki! Ceyranı görməyə elə mayil idim ki, Qafarın dediklərini deyəsən lap alt-üst eləyəcəyəm". O, aftafanı götürüb dəstəmaz almağa başladı. "Yaxşı ki, Əzizbikə gəlin tərəfə baxmadı, yoxsa qaydanın pozulduğunu görəcəkdi. Belə də adət olar? Sən ölməyəsən, Qafar, səni bilmirəm, mən belə adəti heç bəyənmirəm axı! Gərdəyə girəsən, cavan olasan, gəlinlə söhbət əvəzinə başlayasan namaza". O, qəlbindən keçən bu sözlərə gülümsəyə-gülümsəyə namaza başladı.

Ceyranın zahirdə anası Bikəxanıma bənzəməsi gəncin ürəyini ümidlə doldurmuşdu: "Bəlkə, batində də oxşadı, eləcə nəcib, ağıllı oldu?.. Amma Bikəxanım xala qızına Ceyran adı qoymaqda heç yanılmayıb. Bir də görürsən idbarın birinin adı Pərizad, Gözəl, axsağın adı – *Maral, ifritənin adı – Huri, eh..." Onun dili namazın kəlmələrini* deyir, qəlbi isə gəncliyin ılıq-sıcaq hissləri ilə dolurdu. Namaz qurtarana yaxın Əzizbikə bir də içəri girdi. Bu dəfə onun əlində plov dolu dövrə vardı. "Hə, bu başqa məsələ, yoxsa acından qarnım quruldayır, sən ölməyəsən, Bixud zalım gözüm görə-görə "Sənin payın behiştdə, yəni gərdəkdə" – deyib qulağıma pıçıldayır, mənə hər nə gətirirdilərsə, hamısını içəri ötürürdü; bu gün, səhərdən utandığımdan, nigarançılıqdan dilimə heç nə dəyməyib... Yəqin sən də elə, hə?"

Əzizbikə süfrəni düzəldib gedən kimi o, gəlinə elə bu sözlərlə də müraciət elədi. Dövrəni aralarına qoyub oturdu:

– Bixud mənə, payın gərdəkdə deyib, ac qoyub; yəqin sən də elə, hə? Gəl birgə yeyək, Ceyran. Yoxsa sən yemisən?

Bayaqdan bəri bəyin hərəkətlərini gözaltı süzən Ceyran bəxtiyarlıqla gülümsədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox...

– Onda başla, vallah, elə acam ki, nəinki bu plovu, sənin özünü də diri, bütün yesəm doymaram...

Üç gün keçdi, bu üç gündə gənc şair evlilik səadətinin ilk şərbətini içib məst olmuş kimi Ceyrandan başqa heç nə düşünə bilmədi. Üçüncü gün gəlin üçün "paytaxt" oldu[1], təzə gəlinlər gəlib onu üzə çıxartdılar, şənlik edib dağılışdılar. Qohum və dostların evinə "ayaqaçdı" məclisləri başlandı. Evləndiyindən bir ay keçənəcən günlər onun üçün bir günlük, uzunca bir qonaqlıq kimi keçdi. Sona da, Tərlan da, Mahmud ağa məclisləri də, şeir-qəzəl dəftərləri də yadından tamamilə çıxdı. Bir ayın tamamında babası Yaqsaya qayıdacağı günü bildirdi və nəvəsi ilə təkbətək görüşmək niyyətində olduğunu söylədi.

Onlar anasının otağında görüşdülər. Seyid Əzim təzə bəy olduğundan hələ də babası ilə üz-üzə oturub əməlli-başlı danışmağa utanırdı. Bir müddət sükut etdilər. Sükutu axund özü pozdu:

– Övladım, bu – şərən qanuni, bütün zihəyatın və mövcudatın zərurəti olan bir əməldir. Şəri işdə həya saqitdir[2] və lakin ədəbin, həyat məni məmnun edir. Şükr bir olan xaliqə ki, ananın rizasını rədd etməmisən. Toyun mübarək olsun, ağbəxt ol, oğlum. Lakin bir qərəzim var. Mənim bu dünyada karvanımı çəkmək zamanım yavuqlaşır, sənin əlini bir işdə görmədən dünyadan göz çəkə bilmərəm, nigaran gedərəm. Atan behiştməsnədin[3] qulluğunda xəcaləti ollam. Mən ona verdiyim əhdi və boynuma götürdüyüm vəzifəni tamam yerinə yetirməmişəm. Hələ əhdimin biri durur. O da sənin təhsilini Nəcəfül-Əşrəfdə, Ətabatialidə ikmal etdirməkdir. Cənab Əli əleyhüssəlam buyurub: "Ütlübülelmə vəlo bissini". Elm nə qədər uzaqda olsa da, onu əldə etməkdən heç vaxt çəkinmə, bərəks ona çatmağa tələs.

Gənc şairin ürəyi vurdu, yanaqlarına bir qızartı çökdü. Axund baba ondakı təbəddülatı duydu və özü düşündüyü kimi yozdu:

– Əlbəttə, bu tezlikdə səni külfətindən ayırmaq fikrində deyiləm...

Seyid Əzim etiraz etmək, nə isə demək istədi; lakin baba onun sözünü kəsdi:

– Qulaq as, mən bilirəm ki, anan səni evləndirməkdə tələsib, – səni evə bağlamaq xəyalilə. Bu bütün anaların arzu və təşvişinin nəticəsidir. Lakin sən indiki halında yarım təhsillə qalsan, gələcəkdə ailəni

---

[1] Gəlinin "üzəçıxdı"sını Şamaxıda paytaxt adlandırırlar.

[2] Yeni şəriət məsələlərində utanmaq lazım deyil.

[3] Yeri behişt olan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çox üsrətlə keçindirəcəksən. Nə sən xüms toplayan seyid, nə də mən mali-yetim həzmdən keçirən molla olmadığım üçün, elə bir mal-mənal toplamamışam ki, sizin hamınızın gələcəyinizi təmin edə bilsin. Amma sənin təhsilini ikmal etmək üçün imkanım var və sən mütləqa oxumalısan. Sən təhsilini tamam edib axund adı ilə qayıdarsan və Allah əcəldən aman versə, sən qayıdanacan ömrüm mənə yar olsa, səni münasib bir məscidə və ya məhəlləyə molla, qazi, nə isə bir yerə təyin etdirib, haqqında bütün vəzifələrimi icra etdikdən sonra, arxayın dünyaya vida deyə bilərəm. Bəhər hal, niyyətim sənə əyan oldu... İndi mürəxxəssən, bir ilin tamamında, inşallah, hazırlaşıb yola düşərsən, mən də o vaxtacan lazımi binagüzarlıq elərəm, ananı da razı sallam.

*Onun ayrı məqsədi yox idi*. Babasının niyyəti onun da təhsilini ikmal etmək arzularına uyğun gəlirdi, təkcə mollalıq məsələsindən başqa. Bu da sonranın işi idi... Gənc əyildi, minnətdarlıq hissilə, uğrunda zəhmətlər çəkmiş babası və ilk müəllimi olan qocanın əlindən öpdü:

– Təşəkkür edirəm, baba...

...Hadisədən il deyil, ilyarım keçdi, Seyid Əzim, Şirvanı tərk edib Nəcəfə yola düşərkən, artıq təkcə Ceyranın baş yoldaşı deyil, həm də ata babası Mir Cəfərin adı qoyulmuş xırdaca bir oğulun atası idi. Qəlbində təzə, yenicə daddığı atalıq duyğusunun şirinliyindən hələ lazımınca ləzzət almamış körpəsindən, varlığına hakim kəsilməyə başlayan şirin məhəbbətli Ceyrandan, yer üzündə ikinci Allahı kimi sevdiyi anasından; uzaq Yaqsayda ömrünün son illərini yaşayan ata əvəzi babasından ayrılarkən, bir ümidlə yola çıxırdı: oxumaq, təhsilini davam edib Vətənə qayıtmaq, balaca vətəndaşlarına Rza bəy kimi kiçik bir məktəb açıb dərs demək, xeyir vermək...

...Qarşıda yenə də yol görünür... Şirvandan gedən yol. Bu yol sarvan Kərbəlayı Vəlinin himayəsinə tapşırılmış Seyid Əzimi Kərbəlaya, Nəcəfə aparırdı. Bu yollarda onu nə gözləyirdi? Bu ayrılıq uzunmu çəkəcək? Qayıdanda dost və tanışlar, sevdiyi adamlar sağbasağ yerindəmi olacaq? Təşviş-təşvişlər... O, Vətəndən bu əziz məhəbbətdən başqa, bir də boş bir bayaz aparırdı... hər düşərgədə, hər mənzildə, hər dayanacaqda o, bir guşəyə çəkiləcək, qəlbini qələyana gətirən hissləri qələmə alacaq... yazacaqdı... "Yollar, şairimi məndən almayın, onu mənə sağ-salamat qaytarın..." Ananın ardınca atdığı suyun səsilə birlikdə qulaqlarında səslənən bu cümləni kim dedi? Ayrılıq, hicran ələmilə irəlicədən solmağa başlayan Ceyranmı? Qəlbinin dərinliklərinə çəkilib gizlənən ilham pərisi, pərilər soltanımı?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YENƏ ŞAMAXIDA

Yollar götürüb aparanda ayrılmışdıq şairimizdən. İl keçdi, ay dolandı, onu yenə yollar qaytarıb gətirdi. Vətən torpağında bir-iki il dost-aşna, qohum-əqrəba və istəkli balası ilə birlikdə nəfəs almamış, yollar onu yenidən alıb apardı: "Ərəbistan, İran, Türkiyə səyahətləri, qəribə-qəribə ölkələr, maraqlı insanlar... Seyyid o qədər maraqlı təəssüratla qayıtdı ki, sanki bu bir-iki il ərzində bir-iki yaş deyil, on-on beş il böyüdü; on-on beş illik təhsil aldı. Qayıdanda Seyyidi görənlər ondakı təmkinə, ondakı siqlətə heyran idi, təəccüblə baxır, bir insanın bir-iki il ərzində bu qədər təbəddülata uğrayıb, dərinləşməsinə qibtə qarışıq bir heyrət və maraqla baxırdılar. Seyyidin oturuş və duruşunda təmkin əmələ gəldiyi kimi, danışığı, səsi də yumşalmış, onlarda gəncliyə xas olan coşqunluq, müdrik bir insanın həlimliyi ilə əvəz olunmuşdu. İndi onun müsahibələrini curları, yaşıdları hörmət qarışıq xəfif bir qorxu ilə, özündən böyüklər isə diqqət dolu bir maraq və ehtiramla dinləyirdilər. Söhbətlərin məzmunu, məğzi dəyişməsə də söhbət eləyənin özünə inamı artmış, gətirdiyi sübut və dəlillər etiraza yer buraxmır, şübhəyə yer qoymurdu.

Seyid Əzim Mahmud ağagilə yaxınlaşanda onu qarşılayan musiqi səsi oldu. Bu rəng idi, yəqin ki, muğam arası rənglərdən birində kim isə rəqs eləyir; çünki içəridən şırıqqa səsi gəlirdi... Bu səslər, bu nidalar onun ətrafındakı dağıntılı aləmlə o qədər də tutuşmurdu. Zəlzələnin nəticələri hələ göz qabağında idi... Hələ evlər o qədər də ucalmamış, adamlar müvəqqəti tikililərdən çıxıb təzə evlərə, əsaslı binalara köçməmişdi. 1859-cu ilin amansız zəlzələsi, qubernatoru təşvişə salıb quberniya idarəsini Şamaxıdan Bakıya köçürən zəlzələ... nə qədər günahsız qanlara bais olan zəlzələ... amma şəhərdə canlanma artmış, üzlərdən qorxunun zəfəran rəngini götürmüşdü. Dodaqlara təbəssüm qonmağa, bağlardan, seyrəngahlardan nəğmə və musiqi səsləri ucalmağa başlayırdı... Ölənlərin ili çıxmış, il qarası əyinlərdən çıxarılmış, şəhərdə əlvan libas geyənlərin sayı çoxalmışdı...

İndi Seyid, Mahmud ağanın evinə yaxınlaşdıqca bütün bunları fikirləşirdi. O, rahatlıq gətirən bir şəkildə köksünü ötürüb düşünməyə başladı: insan doğulur, insan ölür... həyat isə baqi və daimidir, qoy molla Qurbanqulular fəna haqqında nə çərənləyir çərənləsinlər... Həyat əbədidir... orada mən yoxam, sən yoxsan... nə olar ki, ataları oğullar, oğulları nəvələr əvəz edir... Torpaq daimi, yer, su, hava... ab-ataş-xak-baddan yaranan nə varsa, o daimidir... cismi, canı olan nə varsa o daimidir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ölmür... nə olar: mən olmaram... sən olmazsan... bununla bu əngin göylərdən, bu əlvan kainatdan, bu musiqili və gülümsər dodaqlardan, üzlərdən heç nə əsgilməz...

Darvazaya çatanda şınqqa və musiqi, "afərin, maşallah, fətabarəkəllah..." səsləri daha da ucaldı... Bu musiqi onun qolunun qanadından yapışıb içəri çəkdi. Dilmanlı gədəsi baş əyib üzünə gülümsəyir, o, "Ağa, xoş gəldin"ə cavab verirdisə də, gözünün önündə başqa bir aləm, özgə bir mənzərə canlanırdı: "İçəridə oynayan Sonadırmı? Əlbəttə, Sonadır... Sonasız bu evin, bu məclisin nə yaraşığı... Məgər Sonasız rəqs, musiqi olar? İndi mən içəri girəcəyəm, Sonanın badamı gözlərini, burma birçəklərini, uzun hörüklərini, əlvan şətəl geymiş balaca ayaqlarını, belinə vurduğu incə əllərini görəcəyəm... Sonanın gərdəni çevrəsində cığalı qıvrım birçəklər, ilan kimi qıvrılan hörüklər səksəkəli quş təki çırpınacaq, gözləri gah sağa, gah da əlinin ahəngilə sola süzüləcək, məstü xərab olacağam, ilahi..."

O, bir anlıq Sonanın başına gələn fəlakətləri unutdu, şerinin qanadı, ilhamının pərisi, könlünün soltanı olan gəlin-qızın eşqilə yenidən çırpınan kimi oldu və bu eşqlə də içəri qoşdu... Burada, doğrudan da, rəqs gedirdi. Şair ortada oynayanı dərhal tanıdı. Bu, Sonanın şagirdi və indi Şamaxı çəngiləri içərisində yeganə rəqqasə idi ki, Sonanı əvəz edə bilirdi. Nisənin xırdaca çənəli, yaraşıqlı simasında balaca ağız-burnu, nazik qələmi qaşları və xüsusilə uzun, çin-çin burma birçəkləri dərhal nəzərə çarpırdı. Bu birçəklər altından dördqat piyalə sırğalar qızın çiyinlərinə düşür, rəqsin ahənginə uyğun cing-cing cingildəyirdi.

Şair nazik vücudlu, cəld hərəkətli rəqqasəni böyük bir maraq və məftunluqla seyr etməyə başladı, göstərilən mövqedə oturmağa tələsmədi, yanına dəvət edənlərə əl hərəkəti ilə qaş-gözlə sükut işarəsi verib, rəqsin qurtarmasını qapının ağzında durmaqla gözlədi.

...Nisə yerinə keçəndə Mahmud ağa məsnədidən diz üstə qalxdı:

– Bura, bura, buyur, Ağa! Ya cədda, orda yox, burda, yanımda...

Mahmud ağa məst idi, məstanə idi, xumar aləmində idi, nədəndi bu məstanəlik? Bir aləm, bir dünya sevdiyi musiqidənmi? İncə rəqsilə oturanları valeh etmiş, hətta Ağaya belə bir anlığa Sonanın ecazkar rəqslərini unutdurmuş Nisənin rəqsimi, ya təzə Şuşalı xanəndənin səsindəki məlahət, Mahmud ağa düzəlişləri ilə oxunan sarəncmidi? Nəydi Mahmud ağanın məstanəliyinə səbəb?.....Şair kef, nəşə, musiqi məclisində, çəngi məclisində olduğunu unudub dərin-dərin xəyallara dalmışdı. Sona kimi, ondan yalnız cəldliyi ilə seçilən Nisə incə-incə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xırda-xırda ona baxır və gülümsəyirdi... bu təbəssümlər arasından Sonanın hicran, cəfa, ələm dolu sonuncu baxışları bəlirir; "Şairim, sənmisən burda? Nə tez unutdun əməllərini? Nə tez unutdun arzularını? Hər bir incə mələk sənə pərilər soltanımı olur, şairim? Sən əməl dalıncamı gəldin, kef, nəşə dalıncamı? Elə bilə bilərsən ki, səni özümdən cavan, özümdən atəşin bir gözələ qısqanıram. Amma bu içimdə olsa da, sənin əməllərini qısqanıram, yenidən badənuş olub, tərəb eşqilə arzulara vida etməyindən ehtiyat edirəm..."

Şairin xəyalında yenə də aləm bir-birinə qarışdı, yenə də bilmədi ki, bu səs kimindir? Sonanınmı, Ceyranınmı, anasınınmı, könlününmüdür? "Yox, yox, unutmadım; amma pərilər soltanı, bir gör hara, kimin qulluğuna gəlmişəm... Bir gör zavallı Şirvanın gözüaçıq ziyalı cavanlarının başına nələr gəlir, necə dərbədər, necə diyarbədiyar, necə cövqə-cövqə olub dağılırlar? Şamaxının yetişdirdiyi gözəl alim, şair və qüdrətli şəxslərin heç birisinin Vətəndə bir gündürrüyü olmayıb, hamısı diyar-diyar düşüb, Xaqani Təbrizdə, Nəsimi Hələbdə, Nişat Salyanda... kimi deyim? Mühit qaçırıb, didərgin salıb onların hamısını, Şirvan, sənin ziyalı gənclərinə zəmanə neyləyir? Yollar onları hara aparır? Bir qismi Tərlan kimi diyarbədiyardır... onların da yarısı dərviş olub, məhv olur... yarısı gücünü, qüvvə və bacarığını başqa ellərə sərf edir, amma yenə də nə isə xeyirli bir iş görür, tamamilə məhv olmurlar – Tərlan kimi... İkinci qismi beləcə Vətəndə olsa da... çifayda "özü üçün yaşayır..." arabir ona, buna bəd ayaqda əl tutsa da, (daha çox) xeyri zərər verməməsindədir. Kef, nəşə onları xalqın əlindən alıb... Maarifin cibindən qoparıb... Üçünçülər, təhsil, elm dalınca gedir... bunlar da bir neçə cürədir, bəzisi Urusyetə, Avropaya gedir, bir az işto-mişto bilən kimi dinin dəyişir, xristiyan olur, qınından çıxıb daxi qınını bəyənmir... ata ocağı sönür, əksəriyyəti isə yeni fikirlərlə vətənə qayıdır... millət nə fayda görsə bunlardan görəcək... mollaqulaqlar qoysa!.. Şərqə mollalığa gedənlər də qayıdır. Onların da bir qismi ya bir fal kitabı ilə, ya da mənim kimi, ruhaniliyin, dinin əsil məğz və mahiyyətini dərk edərək qayıdır... Urusyetdən, Avropadan qayıdanlarla birləşir... Bunların nəsibi nədir? Lənət, nifrin... təqib, tənə... üsrət, ianə... qərəz... Şirvan cavanlarının qəribə taleyi var..."

– Ya cədda, sədəqən olum, nə xəyala dalmısan?

– Heç, elə keçmişdən bəzi şeylər xəyalımı məşğul elədi...

Mahmud ağanın gözlərindəki şəfəq bir anlığa kədər pərdəsilə örtüldü: elə bil onun gözlərində də Sonanın unudulmaz şəkil və şəmayili canlandı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Elə mən də eləyəm! Hər Nisəyə tamaşa eləyəndə bədbəxt Sona yadıma düşür... Cavanlığımızın sütül vaxtları gəlib durur gözlərimin qabağında. İstəməsəm də dərdlənirəm...

– Səndəmi, cənab Mahmud ağa?

Mahmud ağa gülümsədi:

– Mən də, Ağa! Yoxsa elə güman edirsiz ki, qəm-qüssə bizə yaddır?

Seyyidin gözlərində nadinclik qığılcımları parladı:

– La ilahə illəllah... – o, məclisə göz gəzdirdi. – Bu büsatın sahibi də qəm-qüssənin nə olduğunu bilirsə, onda vay bizim halımıza!.. Adəmi cənnətdən eləyən bir buğda üçün dərgah qalmayıb ki, əl açmayaq... nə tərəb yada düşür, nə şeir, nə musiqi... nə gözəllik...

Açıq deyilməsə də Mahmud ağa şairin vəziyyətini başa düşürdü: "Evində yenə də yəqin ki, dəyirmanlığı yoxdur. Külfəti çətinlik çəkir, bəlkə elə bunun üçün də gəlib, amma üzü gəlməz ki, desin. Nə qədər tapşırıb, xahiş eləyirəm ki, vaxtaşırı yadıma salsın, başım gəlib-gedənə qarışıq olur, yadımdan çıxır, o da ildə bir yol heç olmasa belə bir işarə də vermir... Nə isə lənət şeytana..."

– Ağa, yoxsa külfətin çətindədi?

Seyyidin dodaqlarında incə, güclə duyula bilən kinayəli təbəssüm sezildi: "Səndə nə günah var? Və niyə də təəccüb edəsən? Əkənim yox, biçənim yox..." Sonra birdən-birə şuxluğa salıb, vəziyyəti məclisdəkilər duymasın deyə, dilləndi:

– O da var, başqası da... Yanına başqa bir iş üçün gəlmişdim... Elə bir fərəh məclisinə düşdüm ki...

– Müsəlmanzadəliyi unudub, bütpərəst oldun yenə, eləmi? Eh, Ağa, hayıf ki, bir az gec gəlmisən. Cavan bir şuşalı balası xanəndə gəlib bizə, Əhməd ağanın ərvahına and olsun ki, onun kimi ürəyəyatan səsli xanəndə hələm bizim məclisdə oxumuyub. Əgəm bunu mən özüm dilimə gətirib deyirəmsə, inan mənə, Ağa! Səndən bir az irəli dincəlməyə təşrif aparıb. Xörəkdən sonra inşallah qulaq asarsan. Özü də sənin bir qəzəlini mənim təzə tərtibimlə sarənc üstündə bir oxuyur ki! Vallahi elə bil bir bülbül güldən ötrü, siz şairlər demişkən, cəh-cəh vurur... Özün görərsən... Çox da ağıllı cavandı... Sabah yox, o birisi gün Dərgahqulu bəyin oğlunun toyudu, yazıb məndən çəngi dəstəsini xahiş eləyib, gedərik; gedəndə şuşalı balasını da aparırıq. Qoy ona da, bizə də töhfə olsun... Nadir nəfəsi var...

Seyyid sükut içində yenidən hər şeyi unudub öz musiqi və tərəb aləminə dalan Mahmud ağanı dinləyirdi, nəhayət, dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Onda sizi və bütün musiqi dostlarını bu nadir səs və nəfəslə təbrik edirəm... Amma məni əfv buyurun, xahişim özgədir sizdən...

Mahmud ağa heç bir çətinlik qarşısında durmayan və heç bir ağır, ciddi işlə özünü yormaq istəməyən adamlar kimi əlini cəld gözünün üstünə qoydu:

– Nə işin olsa, mənim, bax, bu gözlərim üstə...

– Gözlərin var olsun.

– Amma mən ölüm, nə deyirsən eləyim... ancaq çox dərinə çəkmə, qəmlə-kədərlə danışma. Yaxşımı?

Onun gözlərində elə bir ifadə var idi ki, Seyyidi gülümsətdi; əlini dostunun çiyninə qoydu:

– O da mənim gözlərim üstə...

– Ay sənin gözlərin var olsun. – Hər ikisi bu tələsik deyilmiş təkrarlara güldülər...

Şair qəlbində: "Neyləmək olar, sənin də yaradılışın belədir, musiqidən başqa nə varsa, mənə haram olsun – deyənlərdənsən! Musiqi sənin Leylin, sən musiqinin Məcnunusan. Və ondan başqa, yəni Leylimdən özgə nə varsa, mənə haramdır demisən..."

Plovlar da yeyildi, ovşarlar da içildi... Mahmud ağanın "Şuşa balası" adlandırdığı cavan xanəndə oxumağa başladı. Bu nazik vücudlu, ucaboylu, top birçəkli, əsmərüzlü bir cavan idi, əynində qara çuxa, çit köynək, başında ağ quzu dərisindən papaq vardı. Dəfi dizlərinin üstünə qoyub, sağ qolunun dirsəyi ilə dəfə dayaq vermiş, qumral gözlərini yumub oxuyurdu... Musiqini bu cavan təkcə ifa eləmir, ona bütün varlığı ilə dalırdı... Seyyid əvvəlcə seyr edirdi. Az sonra gəncin səsindəki qəribə, çox həzin və dərin kədər dolu sızıltı onun varlığına işləməyə başladı, elə bil ürəyini yerindən çıxarıb, bu səslə birlikdə harasa incə nəvalar, iniltilər ucalan bir aləmə apardılar... Bu yerdə insanların, bütün məzlum bəşərin göz yaşları, ah və əninləri toplanmışdı... Bu yerdə bütün yazıq, əzilən adamların yalnız ürək dərdlərini, arzu və istəklərini deyil, məhz faciəli talelərini səhifə-səhifə, vərəq-vərəq çevirib oxuyurdular... Şair heyrət etməyə belə macal tapmayıb bu dərdlərin tərcümanı olan səsin ecazına vuruldu... Özünü unutdu... Ona elə gəldi ki, kədər, ələm yaşları gözlərindən içəri, qəlbinə giləlеnməyə başlayıb, axır, hey axır.

Birdən musiqidəki nidalar, ahənglər dəyişdi, "Şuşalı balası"nın səsində indi kədər, hicran deyil, bu qəmləri törədənlərə, bu faciələri yaradanlara qarşı bir üsyan, bir etiraz ucalırdı. Bu səs getdikcə qüvvətlənir, güclənir, axan bir şəlalənin, təlatümə gələn bir ümmanın coşqun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

uğultusuna çevrilməyə başlayırdı. Onunla birlikdə şairin də ürəyinə ümidlər dolmağa, göz yaşları qurumağa, azadlığa, ucalara, əngin səmalara uçmağa, ucalmağa başlayırdı... Qəribə idi... elə bil bir az bundan əvvəl onun qəlbinin içərisinə, köz üstündəki kababın yağı təki gilələnən göz yaşları heç yox imiş... O elə azadlıq dolu, həyat dolu, şəlalə, ümman bir aləm imiş... Yavaş-yavaş şairin üzü gülməyə, qəlbinə ümid və fərəh enməyə başladı... Sarəncin yeni xalları hamını valeh etmişdi. "Afərin, əhsən" səsləri məclisi titrətdi, musiqi həvəskarları, musiqi biliciləri yığılan bu məclisdə Mahmud ağanın sarəncdə etdiyi yeniliklərə xüsusi qiymət verib, onun muğama gətirdiyi təzə, tər xalları, tərtibi böyük bir fərəh və iftixar hissilə, sevinclə qarşıladılar.

– Afərin, cənab Mahmud ağa, sizin bu tərtib xoş və ürəyəyatandır...

Mahmud ağa təvazökar və utancaq bir sima ilə dilləndi:

– Mənim xidmətimi o qədər də yüksəltməyin, iş onu tarda səsləndirən barmaqlarda və nəva ilə oxuyan bu cənabların bacarığındadır... – deyə çalğıçılardan tarzəni və "Şuşalı balasını" göstərdi.

Tarzən dizi üstünə qalxıb dedi:

– Cənab Mahmud ağa, məni əfv buyurun, mən ifaçıyam, amma birimcilik bu sarəncdə sizə məxsusdur. Əgər mənim də musiqidə anlayacağım bir şey varsa, o da budur ki, sizin bu muğama əlavələr, onu elə dəyişib ki, elə bil əvvəlki sarənci çalmıram; o daha xoş, daha həzin və ürəyə yatan olub, mənə elə gəlir ki, qədirdən musiqi sevənlər bu muğamı bundan sonra "Mahmud ağa sarənci" adlandırsınlar gərək...

Məclisdən yeni bir nida "əlbəttə, afərin" səsləri qopdu...

Mahmud ağa daimi qaydasınca bardaş qurub oturduğu halda, əlinin altındakı tarı sığallayır və balaca oğlu Cavad bəyə baxırdı: "Görəsən, o da muğamı mən istəyən kimi oxuya biləcəkmi? Səsi pis deyil, babətdir... Amma hələ uşaqdır, həya ilə gizlin-gizlin oxusa da, arabir eşidirəm... Xanəndə olmayacaq, amma musiqini əməlli-başlı xoşlasa bəsimdir..."

Şair isə bir az öncə qəlbinə əvvəl kədər, sonra ümid dolu bir fərəh dolduran muğamın təsirilə artıq özünü ələm dünyasında deyil, mey, sevinc, fərəh dünyasında hiss edirdi... "Yaxşı ki, artıq "ümmül-xəbaisə" vida eləmişik, yoxsa bu saatda yeri idi deyəsən ki:

Nə bu gün bağda yarım, nə meyim var mənim?
Seyri-gülzardə bihudə neyim var mənim?

Sizi tari, yetirin piri-xərabata məni
Ki, bu gün saqi əlindən gileyim var mənim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə məcuni-meyi-ləli dəvadır, saqi
Ki, qəmi-hicr ilə cismimdə keyim var mənim.

Can sənin, cism sənin, əmr sənin, fel sənin,
Cümlə sənsən, bu arada nə şeyim var mənim.

Məni Seyyid təki çək guşeyi-meyxanələrə,
Artırır qəm dəxi məsciddə neyim var mənim?!

O, əlini geyməsinin altından qoltuq cibinə uzatdı, bayazını çıxaran təki elə bil sehrkarın işarəti ilə əlinin altında Şirazi qələmdan hazır oldu. Şair məclisə çökən qəfil sükutdan da bixəbər idi. O gülümsəmiş dodaqları, maraq və həvəslə baxan gözləri, sükut işarəsilə dodaqlara qoyulan barmaqları, ehtiyatla məclisdən stəkan-nəlbəki yığışdıran nökərləri görmürdü...

O yazırdı... Yazdıqca da gözlərinin önündə əziz cizgiləri silinməkdə olsa da doğma, çox doğma bir sima canlanır, mələk kimi başı üzərində qanad çalır, əllərini gah onun çiyinlərinə, gah yazıya tərəf enmiş gözlərinin qapaqlarına təmas etdirərək deyirdi: "Bəli, belə yaxşıdır, şairim, qoy sənin tərəb, eyş-nuş həvəsin, cismani tələbdən çox ruhani tələbə çevrilsin, qoy sənin cismani "ümmül-xəbais" arzuların məhz qəzəllərində tərənnüm olunsun! Nəfsini isə qoru! Xalqın, millətin, onların xırdaca balaları, bədbəxt həmvətənlərinin gələcəyi olan övladi-vətən üçün qoru!.. Hərənin alnına bir şey yazıldığı doğrudursa, sənin də alnına bu yazılıb! Qoy adın bu qəzəllər üçün nə yamanlığa çəkilir-çəkilsin, təki, şürb dilinə dəyib, məcazını korlamasın və saf arzu – əməllərinə mane olmasın... Şairim, yaz, yaz!" Pərilər soltanının incə barmaqları alnına toxunar kimi oldu, xəfif nəfəsi, sübhün incə mehi, nəsimi kimi dodaqlarında, gicgahlarında, yanaqlarında gəzdi... Şair son məqtə[1] bəndini də yazıya keçirən təki, yuxudan ayılanlara məxsus bir xumarlıqla gözlərini ətrafına dolandırdı...

– Hə, mübarəkdir, Ağa, verin, lütfən görək nə yazdınız?

Mahmud ağa Rza bəyin bu xahişinə qarşı əlini havaya qaldırdı:

– Yox, yox, bu qəzəldi. Qəzəldimi, Ağa, səhv eləmirəm ki?

Artıq özünə gəlmiş şair təvazökarlıqla gülümsəyərək dilləndi:

– Bəli... qəzəldi...

---

[1] Qəzəlin, qoşma və s.-nin təxəllüs deyilən son bəndi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə, bu qəzəli, cənab Ağa, bizim şuşalı qonağın, cavan xanəndəmizin səsindən ruhlanaraq yazıbdır. Mən belə bilirəm ki, həmin qəzəli birinci dəfə oxumaq şərəfi də ona verilməlidir.

Hamı "doğrudur, doğrudur", deyə təsdiq elədikdə cavan xanəndə həya təri tökə-tökə yerindən qalxdı, Mahmud ağanın işarə və təhriki ilə Seyyidə yaxınlaşdı. Uzaq ellərdə qəzəllərini xanəndələrdən eşidib əzbərlədiyi, məftunu olduğu şairi birinci dəfə görürdü, həm də bu "Seyyidi-ali nəsəb" haqqında o, vətəninin şair və musiqişünaslarından – Asidən, Nəvvabdan nələr eşitməmişdi... Qəlbindəki titrəyişlə sevdiyi şairin qarşısında diz çökdü, əyilib qəzəli ona uzadan əlindən öpdü və qalxıb yerinə keçdi... Tarzənə nə çalmalı olduğunu pıçıldadı... Musiqi dəştiyə keçəndə "Şuşalı balası" şairin ona təqdim elədiyi yeni qəzəli oxumağa başladı.

...Məclis dağılmış, onlar otaqda cəmi bir neçə nəfər qalmışdılar. Bu gün şair Hacı Seyid Əzim Şirvani öz dostu və həmsöhbəti Mahmud ağa, əməl yoldaşı Rza bəy, Cavad və bir neçə başqa ziyalı cavanlarla açmaq istədiyi yeni məktəb haqqında ciddi söhbət etməli, hərənin bu yolda öz öhdəsinə nə götürəcəyini bölüşdürməli, nə vaxt, harda işə başlayacağını qərarlaşdırmalı idi... Məclis əhlinə nəzər saldıqda şairin gözləri dumanlandı, elə bil ki, birinci hadisədən altı-yeddi il deyil, illər, qərinələr keçmişdi. Bu, Tərlanla birlikdə Rza bəyin evinə toplandıqları günü şairin yadına saldı. Bəli, o da elə beləcə bir gün idi. Onlar cavan idilər. Hələ yaxşı-yaman bilmirdilər. İsti-soyuq görməmişdilər. Hələ başlarına nə gələcəyindən bixəbərdilər... Zəmanənin atdığı daşlar onların cərgəsini pərən-pərən salmışdı, Tərlan cərgələrində yox idi, Rza bəy məktəbi dağılmışdı... Amma bununla belə onlar mənən çox möhkəmlənmiş, həyatın ağrı və acıları onları bərkitmiş, mübarizəyə daha da davamlı eləmişdi... Bu gün onlar artıq bir Qapaqlının hədə-qorxusu ilə pərən-pərən düşən cürə cavanlar dəstəsi deyildi. Onlara indi təkətəkdə heç bir Qapaqlının gücü çata bilməzdi. Bunu artıq həm qapaqlılar, həm də cavan ziyalıların özləri dərk edirdi. İndi onlar qismən olsa da, üzə çıxmış, açıq meydan idilər. Düşmən isə öz işini qaranlığa, alt qatlara keçirmişdi, altdan iş görməyə məcbur olmuşdu. Zəmanə qüvvələrin nisbətini dəyişmiş, yerlərini dəyişmişdi. Bu düşüncələr altında şair, ürəyinə soxulan qəmli fikirləri qovdu, silkindi və ağır təmkinli səsilə sözə başladı:

– Sözüm uşqola barədədi, ağalar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AND

Seyid Əzim bazara çıxdı. İndi artıq Şamaxının küçə və meydanları xeyli dəyişmişdi. İnsanların geyimi, dükanların quruluşu, adamların danışığı sanki bu bir neçə il ərzində nəzərə çarpacaq dərəcədə təbəddülata uğramışdı. Əvvələn, şəhərdə dükanların çoxunun pəncərə və qapıları böyümüş, onlara naxışlı, aynalı şüşələr salınmış, bunların dalısına satılan mallardan nümunələr qoyulmuşdu, dükanların qarşısında toz-torpaq içinə qoyulmuş, toz basmış malların bir çoxunun kisələrinin üstünə nazik və təmiz tənzif çəkilmişdi. Adamların geyimlərində də nə isə bir yenilik nəzərə çarpırdı. Birinin papağı, birinin donu, çuxası dəyişmiş, kostyum geyənin, rus hərbi zabit paltarı tərzində frenç və s. tikdirənlərin sayı artdığı kimi, şəhərdə zabit və soldatlar, ticarətə gələn, səyahət edən, elmi iş üçün gələnlər də çoxalmışdı. Küçədə, bazara enənəcən heç olmasa bir-iki avropalı geyimində olan adama rast gəlirdin, əvvəllər isə bunları barmaqla saymaq olardı.

Şəhərdə rus və erməni qızları üçün açılmış "Müqəddəs Nina" məktəbinin Tiflis şöbəsi fəaliyyət göstərirdi. Deyilənə görə Şamaxının bəzi nücəba qızlarından bu məktəblərdə oxumaq xəyalına düşənlər olduğu kimi, hətta bu məktəbdə dərs deyən müəllimlərin təsirilə cənab Mahmud ağanın xüsusi təhsil görmüş bibisi qızı Güllübəyim də, yeni qaydalı, xüsusi mollaxana kimi bir şey açmış, bir neçə qızı bu məktəbə cəlb etmişdi. Rus dilinə maraq nücəba, tacir qızları arasında elə dəb düşmüşdü ki, şəhərə gələn erməni və rus müəllimləri gündüz çıraqla axtarılır, böyük qiymətə, xüsusi zəhmət və tanışlıqla əldə edilirdi.

Güllübəyim mollabacının məktəbi haqqında eşidəndə Seyid Əzimin ürəyi telləndi: "Afərin sənə, bacım, sən bizdən qeyrətli çıxdın, bizim oğlanlar üçün eləyə bilmədiyimizi, bəlkə sən öz hüquqsuz bacıların üçün əlaltından eləyə biləcəksən. Ah, kaş mən də belə bir iş görə bileydim, amma çifayda, oğlan məktəbini molla məktəbi adı ilə açmağın mənası və faydası yoxdur. Mən mütləq şəhərin nücəba, üləma və tüccarı ilə əlaqəyə girməli, rəsmi icazə almalıyam... Bütün bunlar isə nə tələb eləyir, bu, bir Allaha məlumdur"....Aylar, illər bir-birini əvəz edirdi.

...Seyid Əzim öz məqsədini yaxın rəfiqlərinə açdı. Daha sonra o, məktəbdə şəriət dərslərini aparmaq üçün dostu molla Hüseyn Lətif oğlu ilə məsləhətləşdi, məktəbdə məhz şəriət dərsinin deyiləcəyi mollada xoş bir əhval oyatdı və o, cavan dostunun təklifinə razılıq verdi. Bundan sonra Seyid Əzimin ən çətin işi rus dili məsələsi idi. O istə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yirdi ki, məktəbdə şagirdlərə rus dili də öyrədilsin. O özü yaxın tanışlarının, xüsusilə Mahmud ağa, Aleksan bəy və başqalarının köməyilə rus dilini öyrənməyə başlamışdı. Amma çətinlik çəkirdi. Dilin ta uşaqlıqdan təlimi məsələsi zəruri idi. Doğrudur, məktəbdə rus dilinin təlim olunması bir çox valideyni bura uşaq verməkdən çəkindirəcəkdi; lakin bu dili və bu dildə yazılan zəngin ədəbiyyatı oxuyub öyrənmək, böyük bir aləmə göz açmaq üçün balaca həmvətənlərinə zəruri idi... Odur ki, şair dostlarından bir müəllimin məsləhətilə şəhər məktəbinin zəki şagirdlərindən sayılan Manveli gözaltılamışdı. İş baş tutsa onu rus dili müəllimi dəvət edəcək idi. Elə indidən atası ilə danışıb, razılığa gəlmişdi.

Əsil məsələ icazə almaq və ianə toplamaq məsələsi idi. Dostlar bir ağızdan demişdilər: "Əgər müvəffəq olmaq istəyirsənsə, mütləq Ağaseyidəli ağanın razılığını almalısan, əks halda aqibətin Rza bəydən uzağa getməyəcək, məktəbin də onunku kimi tezbazar olacaq".

İndi Seyid Əzimi, Ağaseyidəli ağanın otağına gətirən də məhz bu idi. O, məqsədini ağaya açacaq və seyiddən yardım istəyəcək idi. O, ruhani olsa da, şəhərdə böyük nüfuza malik olan seyidə müraciət etməyə məcbur idi.

Ağaseyidəli ağanın yanına getməmişdən əvvəl düşünüb daşınmışdı, ona deyəcəyi sözləri, alacağı məsləhət və istəyəcəyi yardımı dostları ilə birlikdə çoxdan qərarlaşdırmışdı. İndi yolüstü qarşısına çıxan Cin Cavad onun bütün arzu və xəyallarından xəbərdar idi:

– Hara belə, Ağa?

Seyid Əzim qarşısına dostunun, həm də belə xoşniyyət bir dostun çıxmasını iqdam edəcəyi işdə yaxşı bir fal hesab edib gülümsədi:

– Xeyirdi, aadə, Ağaseyidəli ağanın qulluğuna gedirəm...

– Allah xeyir versin, yaxşı olar inşallah. Neynim, Ağa, kaş Allahın altında bir molladan, ya cəddündən irağ yerdə seyiddən-zaddan olaydım. Özü də eləsindən ki, camaat mənim dalımda cümə namazı qılaydı, mənə itaət eləyə idi. Onda çıxardım minbərə, deyərdim: ya eyyühənnas, bu cavan ağanı ki, görürsüz, vallah, gündüz işıqnan axtarsaz, balalarınız üçün xeyirxah və yaxşı təlimçi, müəllim, molla tapa bilməzsiz... Nahaq yerə uşaqlarınızı aparıb verməyin mollaquyruqqululara. Bu kişi sizin balalarınızdan həqiqi insanlar yetişdirər, onlar bütün millətlərin arasında barmaqla göstərilən ağıllı adamlar olarlar...

Cavad "vəz" elədikcə Seyyid gülümsəyir və diqqətlə qulaq asırdı:

– Allah dəvəyə qanad versə, uçurmamış dam-daş qoymaz, elə oldu ki, sən molla olmamısan da... Molla adı gələn kimi canuva titrətmə



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

düşür, başlayırsan qaralarınca deməyə. Daha onlar da hardan sənnən dost olsunlar...

Cavadın bir az əvvəl ilhamla işıqlanın üzünü kinli bir qəzəb bürüdü:

– Neyniyim, aadə, bu qırılmışların əməllərin görəndə sağ adam dəli olar... hansı yetimin malını həzmi-rabedən keçirib, özünü çöllərə salmayıblar?.. Hansı dul övrətin yiyəsizliyindən istifadə edib sigə boyunduruğun boğazına keçirməyiblər?.. Harda bir əhli-qələm, gözü açıq adam görürlər ya babi, ya kafir elan eləyirlər... Dostun Bixud öz adı molla ola-ola gör bir bunların əməllərindən nə yazır; öz aramızda, sənə onun bir qədi açılmamış rübaisin deyim:

Zahid bizi görcək tüpürür, ar etməz,
Bilməz ki, tüpürcəyi bizə kar etməz,
Biz bəhri-mühit qılmışıq kəndimizi,
Bir zərrə nəcasət bizi murdar etməz!

Görürsən, Ağa, necədi curun?

– Afərin, vallah, əladı! Amma eşidən olsa, Bixud batdı, aadə...

– Eh, kim eşidəcək? Belə şeyləri eşitmək istəyən ləleşinə müraciət etməlidir. Mən də ki, bunların xiridarını tanıyıram; bilirəm ki, kimə oxumaq olar, kimə olmaz. Di, yaxşı, gözlərin parıldamasın. Qoy ağanın qulluğuna səni əməlli hazırlayım, birini də deyim, sonra tamamdəsgah get, ürəkli vuruş...

Ey mərsiyəxan, Hüseyn bizar əz to,
Aşüftəvü xəstəvü diləfkar əz to,
Yekbar bedəsti-Şimr əkər koşte şode
Hər sal şəvəd koştə be səd bar əz to[1].

Şairin diqqətlə dinlədiyi bu rübailər az qala məqsədini və gedəcəyi yeri də ona unutduracaqdı.

– Afərin Bixud, aadə, o zalım nə yaman qurd ürəyi yeyib...

Cin Cavad güldü:

– Heç özündən xəbərin yoxdu, istəyirsən birini də Seyyiddən deyim?

---

[1] Ey mərsiyəxan, Hüseyn səndən bizardır,
Sənin əlindən yorulub və inciyib.
*Əgər bir dəfə Şümürün əlilə öldürülübsə*
Hər ildə yüz dəfə sənin əlində ölür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İki kəs şərə gedib, versə biri iki manat,
Söz onundur ki, verib pul; nə qəmi, tapdı nicat!
Tez yazıb hökmü verir qaziyi-şirinhərəkat.
Bu tərəfdən verə məcbun olan üç danə manat,
Filfövr yazdığı hökmünü elər rədd qazi.

Hər ikisi güldü. Cavad dedi:

– Axund yanına, seyid, qazı yanına gedirsən, mən də bir gör nə danışıram, dilim quruyar, ağzım əyilər...

O ciddiləşdi:

– Get, Allah işivə fərəc versin, amma təslim olma, ürəklə çarpış, sən ki, bu güruhi-nafərcamı yaxşı tanıyırsan...

Onlar görüşüb ayrıldılar. Cavad arxasınca səsləndi:

– Ağa, az qalıram, evlərin birindən bir piyalə su alıb dalıncan atam. Xeyir və xoş xəbərlə qayıdasan...

– Atmışcan varsan...

...Ağaseyidəli ağa günün bu vaxtında qəribə görünsə də otağında tək idi, "istiftaya", məsələyə gələn yox idi. Onun yaşı qırxı təzə adlasa da, saqqalı və bığları ağarmağa başlamış, hətta qalın qaşlarına da təkəm-bir dən düşmüşdü. Daima evdə çiynindən düşməyən ağ, nazik əbaya bürünmüşdü. İkiqat döşəkçənin üstündə bardaş qurub oturmuşdu. Üzünün və əllərinin rəngi təzə süd kimi ağ zərif idi. Ömründə qələmdən və Qurandan başqa bir ağırlıq görməyən əllərinin uzun barmaqları və tərtəmiz vurulmuş, hamar, şirmayı kimi dırnaqları vardı. İri cüssəli deyildi, indidən hələ yarı yaşına çatmamış, elə bil qəddi əyilmiş, oturduğu yerdə sinəsi çökmüş, mütəkkələrə, yaslandığı nazbalışlara qarışmış bir yığın ağ ipəyə bənzəyirdi. Peyğəmbər nəsli hesab edilən bütün seyidlər bir-birini "əmioğlu" adlandırdıqlarından, o da çox vaxt bu adətə riayət edirdi. Amma pis tinətinə bələd olduğu adamları seyid də olsa adı ilə çağırar, çəndan hörmət qoymazdı. Dərin, daxili bir ədəbə malik idi. Gördüyü zəngin dini təhsil onda çox qəribə bir dünyabaxışı yaratmışdı. Yüksək, pak bir mənəviyyata malik adam idi, hələ heç bir yetimə, dula qəyyum durmamış, heç kəsə siğə eləməmiş, birisinin malında gözü olduğunu deyən olmamışdı.

Məhz bu paklığına görə də hər şeyi çox böyük bir həssaslıqla duyan, hərəyə bir quyruq bağlamağı, dodaq büzməyi adət etmiş bir para şamaxılılar Ağaseyidəli ağaya irad tuta bilməmiş, nöqsan tapa bilməmişdilər. Günün birinci imamı kimi nə desəydi, istər sünni, istər şiə



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

hamısı onun sözünü ehtiramla dinlər, məsləhətlərinə qulaq asar, müxtəlif arzu və əməllə qapısına gələrdilər.

Nüfuzlu ruhani bu böyük etibardan sui-istifadə etmir, şəxsi mənfəət güdmədən öz qəribə dünyabaxışı ilə itaətində olanları idarə edirdi. Bütün dinlərə hörməti vardı, milli ayrı-seçkilik salmaz, moizələrində deyərdi: "Şah da bilir Şirvan sünnüdü... Mən Şərqin bir sıra ölkələrini, Kərbəlanı, Hicazı gəzdim, gördüm ki, dünyada sünnü şiədən çoxdu, peyğəmbər səlavatullah vaxtında heç sünnü-şiə sözü olmayıb. Qaldı, erməni və malağan qonşularımıza, onların da dini qədim və bizim Quranda adı dönə-dönə çəkilən peyğəmbərimiz həzrət Məryəmin dinidi. Əgər Allah istər, bir gün Əzraili göndərib canlarını alar. Sizə dəxli yoxdu. Bir-birinizi yola verin. İndi ki, xudavəndi-taala sizi bir torpaqda xəlq eləyib, birtəhər ötüşün, o dünyada Allah-taala özü bilər: kimi behiştə, kimi cəhənnəmə göndərər". Bu kimi vəzlər nəticəsində şəhər əhli qonşu kimi dolanır, o qədər də dərindən bir-birinə düşmənçilik bəsləmir, sünni-şiə, erməni-malağan söhbəti o qədər də dərin kök salmırdı. Hətta bir həyətdə, qonşuluqda yaşayan sünni-şiə və ya erməni arvadlar bir-birinin təndirində çörək də bişirir, bir-birinə gedib-gəlirdi. Lakin, bütün bunlara baxmayaraq, Ağaseyidəli ağa ruslara qarşı qəddar düşmən kəsilmişdi, bircəciyi ilə də yola getmək istəmir, camaatın onlara yaxınlaşmasını, uşaqların yeni açılan rus məktəblərinə verilməsini qadağan edirdi: "Urus olub gedəcəklər, dini-islam əldən gedəcək", deyirdi.

Seyid Əzimin onunla görüşə gələcəyini gözləməsə də, hər halda onu görmək, bəzi millətə xeyir verə bilən cavan kimi tanıdığı, əsərlərini bəyəndiyi şairlə söhbət etmək istəyirdi. Qəribədir ki, bir-iki gün əvvəl ona Seyyidin içkiyə qurşandığını xəbər verən Molla Qurbanqulu və daha sonra Hacı Əsəd çox canfəşanlıq elədiyindən bir neçə gün idi ki, şair onun yadından çıxmırdı; bu gün də səhərdən bir neçə dəfə onu xatırlamış və görməyi arzulamışdı. Elə indi də Hacı ilə söhbətini, Hacıya verdiyi cavabları xatırlayırdı:

– "Xəti-reyhan"dan qərəz heç də məlum anlayış deyil – bu məşriq zəmin ədəbiyyatında, qəzəliyyatda məruf bir təşbeh, bir ifadədir. Füzuli rəhmətüllah "Bağdadi ki, Gərbübəlada xuddam idi", qəzəlində istəsən elə söz və ifadələr tapa bilərsən ki... Seyyidinkilər onun yanında, övrətlər demişkən, toya getməlidi... bunlar hamısı məşriq ədəbiyyatına peyrövlüyün nəticəsidi...

Hacı haldan çıxmışdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ay onu icad eləyənin lap atasına lənət...

– Əbədən... bu bir şairin istər cavan, istər cəvanəzən olsun gözəllik ilahəsinə büti-siminbərə səcdəsidi, bunsuz şeir yaranmaz... İnsan dimağını incələşdirən, zərifləşdirən şeir... bu ifadələrdən qərəz tək-tək şəxslər deyil, ümumən gözəlliyə, xudavəndi-aləmin yaratdığı və peyğəmbər sələvatullahın "fətəbarəkəllahu əhsənül-xaliqin" – yəni səni yaradan Allaha şükr olsun dediyi bəşəri gözəlliyə ibadətdir. Xudavəndi-təbarəkin ən gözəl töhfəsidi şeir qabiliyyəti. Qurani-şərif də şeirlə yazılıb... ya Hafizə bax, şeyx Sədiyə bax... Məgər onlar hamısı əxlaqsız olub, meyi-nab deyəndə məhz siz düşünən piyaniskəliyi eləyiblər?..

Elə bu anda müridlərindən könüllü nökər vəzifəsini ifadə eləyənlərdən biri içəri girib Hacı Seyid Məhəmməd oğlu Seyid Əzim ağanın gəldiyini xəbər verdi:

– Buyursun, buyursun... qəlbində düşündü: yaxşı ki, otağa bu gün, bu saatda gələn yoxdu, oturub bir əməlli əməli-saleh adamla Allahdan, bəndədən söhbət eləyərik. Əmr bə məuf, nəhy əz münkər şəri qanunu da mən öz həmvətənim haqqında yerinə yetirmiş olaram.

Seyid Əzim otağa daxil olub göstərilən yerdə əyləşdi, onların yaşları arasında fərq o qədər də deyildi, amma buna baxmayaraq, Ağaseyidəli ağa az qala onun atası yaşında görünürdü.

Əhval pürsandan sonra şair öz məqsədini açıb Ağaseyidəli ağaya bildirdi. Onun gözlədiyinin əksinə olaraq seyid bu təklifi böyük bir məmnuniyyətlə qarşıladı:

– Mübarəkdir, gözəl işdir, mən əlimdən gələn köməyi əsirgəmərəm. Növbəti cümə günlərindən birində camaat məsciddə xüsusilə çox olanda bu barədə onlarla danışaram.

"Yaxşı oldu, başı xeyir işə qarışar, şər və naşər işlərdən əl çəkər, bir də camaat balalarını urus uşqoluna yox, öz müsəlman qardaşı açan məktəbə verər", – deyə düşündü. Sonra əlavə elədi:

– Çox gözəl işə iqdam eləyirsən, əmioğlu, mən də sənə qahmar! Amma bir neçə şərtim var, birinci şərtim budur ki, sən – o, yanındakı rəhilin üstündən xəttat məktəbinin məxsusən ona hədiyyə üçün gözəl xətlə yazdığı böyük Quranı aldı, öpüb alnına qoydu və Seyid Əzimin qarşısına tutdu – bu müqəddəs kəlamullahi-məcidə and için, içkidən tövbə eləməlisən.

Şair bir an duruxdu, lakin o buna çoxdan hazır idi, o bilirdi ki, Ağaseyidəli ağa məhz bu andı ondan tələb edəcək; bunu ondan anası da,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ən yaxın əməl dostları da xahiş edirdi, o özü də bilirdi ki, içkiyə aludəlik onu yaman yola apara bilər.

Şair qəlbində gülümsədi.

"Bəli, şərab da olub, musiqi də, çəngi də... Şərabdan tövbə... min tövbə... Musiqi və gözəllik olmadan yazmaq, şeir düzmək imkanı olsaydı, amalım yolunda ondan da tövbə edərdim... Lakin bu mümkün deyil, ağa, ya sən bunu unudub tövbənə daxil etmədin, ya da vallahi ki, zövqün var! Bilirsən ki, bunlardan tövbə etdirmək, məni yalana mürtəkib etdirmək, mənə nahaq and içdirmək olar. Mən təbi-şeir qarşısında acizəm; əhdimi, andımı sındıra bilərdim. Yaxşı ki, bircə şərabdan tövbə etdirirsən, – deyə düşündü. Bu anda o çoxdan hazır idi. Əlini qaldırıb Quranın üstünə qoymaq istədikdə Ağaseyidəli ağa Quranı ondan kənar etdi:

– Bir sözün kafidir, əmioğlu, bir sözün kafidir. İçki tövbəsi üçün həmmamda qüsl etmədiyindən Qurana əl vurmağın caiz deyil. Elə bir sözünə qailəm.

Seyid Əzim and içərcəsinə ciddiyyətlə dilləndi:

– Mən o sözü sizə səmimi-qəlbdən verirəm.

Axundun nazik dodaqları səyridi:

– İnanıram... İndi bir nəsihətimə qulaq asmalısan: Sənin barəndə qulaqlarıma yaman sözlər gəlir, içkidən qeyri... guya xoşməşrəb cavanlara qoşulmusan...

Seyid Əzim etiraz edərcəsinə əlini qaldırdı, nə isə demək istədi, lakin axund buna imkan vermədi:

– Axıra qədər sözümə qulaq as. Bilirəm, xeyirxahın olduğu kimi bədxahın da çoxdur. Bilirəm ki, sözlərin çoxu bədxah qayırmasıdı. Amma genə də səni xəbərdar eləyirəm, övladım! Mənim nəzərimdə özünü paklığa, təmizliyə çıxartma, bunun faydası yoxdu! Mən onsuz da sənə inanıram, tinə-tinə bələdəm. Sən çalış ki, xalqın nəzərində pak ol! Öz millətinə, həmvətəninə xeyir vermək istəyən insan təmiz, gün kimi aydın və həmişə göz qabağında olduğu üçün, hərtərəfli pak olmalıdır. Onu hamı görür: biri təmşiyət götürürsə, bir napak da irad tutmağa yer axtarır. Onun paklığı aftab kimi elə ziya saçmalıdır ki, adamlar bu şüadan isinə və nur ala bilsinlər. Əks halda, onun bütün ulu və qüdsi arzu və əməlləri puç olar gedər. Sən xalqa xidmət etmək xəyalına düşdüyün gündən artıq özünə məxsus deyilsən, ona görə də hamının gözü önündəsən. Bu ağır yoldu, ya seçmə, ya da seçdinsə, onun bütün ağrı və əzablarını, keşməkeşlərini qəbul elə! Peyğəmbər nəsihətini onu eşidənlərə deyil, qulaq asmayanlara, ağzına daş vuran-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lara eləyib, çünki dininin həqiqiliyinə, öz xalqına xidmət etiqadına inanıb. Öz gözlərində tir görməyənlər, sənin gözündə tük axtaracaq. Sən istər evdə, külfət yanında, istər bazarda, dost-aşna yanında, istərsə də, gələcəkdə şagirdlərinlə özünü elə aparmalısan ki, sənə irad tuta bilən olmasın. Di kifayətdi, Allahın köməkliyi üstündə olsun...

...Seyid Əzim bu qəribə insanın nəsihətlərini sözsüz bir maraqla dinləyib çıxdı. O elə dərin bir xəyala dalmışdı ki, hətta axunddan xeyir-dua aldığına belə, elə bil ki, əhəmiyyət vermirdi. O düşünürdü və düşündükcə indicə eşitdiyi sözlər, Gülüstan qalası, Pirdiroki dağı, Pirqulu zirvəsində əks-səda verən bir xəyali sövt kimi qəlbində səslənirdi: "Vətənə xeyir vermək istəyən insan gün kimi pak olmalıdır... Sən xalqa xidmət xəyalına düşmüsənsə, artıq özünə məxsus deyilsən... bu ağır yoldu... ya iqdam etmə... ya da işə qədəm qoydunsa, bütün ağrı və acılara, məhrumiyyətlərə dözməlisən... Sözünü məhz qulaq asmayanlara, nadanlara, sənə tənə-təriz vuranlara, daş atanlara deməlisən... Səndə belə bir dəyanət varmı?.. Olacaqmı? Yarı yoldan qayıtmayacaqsan ki?.. Atılan oxlara sinən davam edəcəkmi? Bu bir sənəmin kirpiklərindən, növki-müjganından atılan "oxlar" olmayacaq ha!.. Sərvəqt ol, Seyyid, artıq sən özünün deyilsən!.. Bu yazıq, məzlum və nadan xalqınınsan! Sən də sələflərin kimi əlindən gələni etmədi, sonra: "Bacardığımı etdim, bacarmadığımı da etdim, əziz xalqım, elim mənim" – deyib dünyaya rahat göz yuma bilərsən... Malım-mülküm yoxdu ki, bu yolda sərf edəm, bir canımdan savayı. Onu da İsmayıl qurbanı kimi ayaqlarına, uğruna qurban gətirirəm; elim-günüm mənim! Nə bacarsam insan iqtidarında olan hər şeyi edəcəyəm, çalışacağam ki, bəqədriməqdur, övladının gözünü bu cahana doğru sözlə açam, ona doğru, həqq yol göstərəm.. Zəif çıxsam bu çarpışmadan, bacara bilməsəm, qüsurlarım olsa, əfv et məni, əziz elim-günüm, millətim mənim! Bil ki, sənin yolunda nə etmişəmsə, ən səmimi niyyətlərlə etmişəm, nəyi düzgün etməmişəmsə, qüsurumu əfv et!.." O öz xəyalında eli-günü ilə canlı bir insan, qarşısındakı bir müsahib kimi danışır, əsil andı indi içirdi.

...O xeyir-dua aldı, o and içdi. Amma bu andın yerinə yetirilməsi, Şirvanın maarif qaranquşlarından olan, adı dillərə düşmüş, on altı il davam etmiş, Zaxarov, Çernyayevski kimi müəllim-pedaqoq tərəfindən təriflənən məktəbin açılması üçün hələ çox çalışmalı olacaq. Bu gün pul tavana sahiblərində, güc güclülərdə – arzu Seyyiddədir... Arzu... Bu arzunun həyata keçməsi ilə bugünkü and arasında o qədər hadisələr baş verib ki...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dostlar, Hacı Əsədin dükanına girməyin vaxtı çatıb, burada ruhumuzu açan bir şey olmasa da, gəlin Bəzzazbazarın əvvəldə tanış olduğumuz, lakin içəri girməyə münasib vaxtımız olmayan bu mağazasına daxil olaq.

Hacı Əsəd, oğlu Tərlandan xəbər-ətər bilmədiyi ilk aylarda özünü yerə vurmur: "Mənim oğluma nə gəlib ki? Özüm izin vermişəm, qəriblər ağasının qulluğuna gedib" deyirdi. Şamaxılılar demişkən "dəvədən düşsə də, höt-hötündən düşmürdü". Amma aylar keçib il oldu, Tərlandan gəldi olmadı. Arabir Aşqabaddan bəri keçənlər xısınlaşdılar ki, Tərlanı o tərəflərdən görən olub, guya orda dükan açıb, ticarət eləyir... Hacı özünü o yerə qoymasa da, camaat, qohum-əqrəba, bazar əhli, xüsusilə yaxın qonşusu Hacı Qədir görürdü ki, kişi xiffət eləyir... Buna baxmayaraq dükan əvvəlki qaydasından, bər-bəzəyindən düşməmişdi, iri naxışlı şüşələrin dalına mallardan nümunələr qoyulmuşdu. İçərisi geniş olan mağazanın piştaxtaları dalında indi cavan bir oğlan, Hacının "pirkeşik" adlandırdığı xalanəvəsi Əli işləyirdi. Hacı özü taxtın üstündə oturub əsasən daxıldarlıq eləyir, gəlib-gedəni qəbul edir, oturub tez-tez çayçı Əlmuxtarın dükanından gətirilən pürrəng çayı içirdi. Kişi oturaq həyat keçirdiyindən bir qədər də yoğunlamış, peysərini qatbaqat ət basmışdı. Kosa sifətinin əlləri az qala beşqat buxaq kimi üzüaşağı sallanmışdı. Tirmə qurşaq qarnına gəlmirdi.

Qapaqlı həmişəki yerində taxt üstündə oturub qəfəsələri ağırlıqdan əyən mallara baxır və çayı qurtumlayırdı. Birdən Molla Qurbanqulu ilə onun kürəkəni Məşədi Alış içəri girdi. Hacı "hə-hö" eləyib qalxanacan, pirkeşik Əli qonaqları qarşılayıb taxt üstündə onlar üçün yer rahatladı. Molla dedi:

– Qalxma, qalxma, sən Allah, zəhmət çəkmə... Salaməleyk.

– Ay əleykəssalam... heç dura bilirəm ki... yaman ağırlaşmışam, axund... Xoş gəlmisən, səfa gətirmisən, sən də Məşədi Alış – ürəyində isə deyindi: "Bu qaraxəbərdən Allah xeyir xəbər göstərərmi? Görəsən, genə kürəkən-qayınata nə pəstaha açacaqlar, kimin evin yıxacaqlar? Allah özü şərlərindən saxlasın, sən öləsən heç Alışa məşədi deməyə də dilim gəlmir".

– Əli, bir Rəzini səslə, ağalara çay...

– Baş üstə...

Əli çıxmaq istəyəndə Molla Qurbanqulu səsləndi:

– Oğul, Hacı Qədirə də de ki, bir balaca onuyla məsləhətimiz var, bir zəhmət çəkib buyursun bura, buyursun.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Baş üstə...

Rəzi iri siniyə çaydan və fincanları qoyub çıxanda, mollanın məsləhəti ilə Qapaqlı, Əliyə əmr elədi:

– Əli, get karvansaraya, gör kərbəlayi Vəlidən bir xəbər-ətər varmı?

Əli çıxanda Hacı Qədir dəvə kimi uzun boynunu əyib içəri girdi, lök dodaqlarını marçıldadaraq salamlaşdı və məhz dəvə kimi də diz çöküb taxtın bir küncündə əyləşdi.

Oturanların hamısı intizar içində gözlərini Molla Qurbanqulunun üzünə dikib durmuşdular. Molla Qurbanqulu adəti üzrə hər bir cümlənin son sözünü təkrarlaya-təkrarlaya sözə başladı:

– Hacı, Məşədi Alış da, özüm də eşitmişəm ki, bu təzələrin bir-birinin dalınca bağlanan təzə uşqolları elə yağışdan sonrakı göbələk kimi genə də bir-birinin dalıncan yerdən dombalıb çıxır... bəli, bəli, çıxır.

Güllübəyim-kəsmiş elə getdi, İrza bəyinki belə getdi... indi də deyir-lər ki, o naseyid Əzim təzə qaydada bir məktəb açmaq üçün dost-aşnaynan xosunlaşır, bəli, bəli, xosunlaşır... lap səhih xəbərdi...

– Nə danışırsan, canım? Onda pul hardeydi uşqol aça? Uşqolun bir aləm xərci, dərdi-azarı var.

– Əh, özü günorta durur yuxudan ki, qarnım acar, sən də, ay axund, görəsən hansı yuxu görənə inanmısan?

– Nə danışırsan? Əşədənbillah, peyğəmbər haqqı doğru sözdü, Hacı! Mən bəyəm yoxlamamış, bir işə iqdam elərəm, cənabını narahat elərəm? Sən baxma lütün biridi, amma o Kərim bəy var ha, deyirlər o da elə əvvəl əldən 120 manat ianə verib... süftəsinə, verib...

Hacıların gözləri kəlləsinə çıxdı, hər ikisi əllərini dizlərinə çırpdı:

– Pah atonnan, bu babi uşağı babi, pul qoymağa yer tapmırlar da...

– Bəli, elədi ki, var... Mahmud ağa da, Əlyar bəy də, siyahı eləyiblər, hərə karına görə 20-dən, 30-dan, 100-dən söz verib... Sonra da naseyid Əzim gedib Ağaseyidəli ağanın qulluğuna, ondan izin alıb... rüsxət istəyib... bəli, bəli, istəyib...

– Hə, o nə deyib? İçkiçi, qumarbaz, çəngibaza izin verib? Elə şey olar?

– Elə iş də ondadı ki, Ağaseyidəli ağa ona inanır, niyəsini bilmirəm, amma inanır. Deyirlər ki, Qurana əl basdırıb, tövbə elətdirib ki, bir də dilinə içki vurmayacaq... bəli, vurmayacaq...

Bu xəbəri Qapaqlı ilə Hacı Qədir hərəsi bir növ qarşıladı. Hacı Əsəd dərhal səsləndi:

– Ay tövbə elədi ha... yalansa tövbə ona qənim olsun...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hacı Qədir dilləndi:

– Tövbə eləyibsə, Ağaseyidəli ağaya söz veribsə dayı nə söz?

Hacı Əsəd səylə nəyi isə yadına salırdı. Birdən od götürmüş kimi coşdu:

– A kişilər, nə tövbə? Nə söz? Hələ dünən Cinin başına yığılan gədə-güdə bazarda hırıldaşa-hırıldaşa onun təzə qəzəlini oxuyurdu, yadımda ilişib qalan da bu beyt oldu:

Hər işindən eləyə tövbə, yəqindir, Seyyid
Çəkməz əl badədən, etməz bu xətadan tövbə!

Bu da sənə onun tövbəsi! Təpəsinə dəysin...

Məşədi Alış söhbətə qarışdı:

– A kişilər, siz də ona inanırsız? Getdiyim qəriblər ağasına and olsun ki, dünən öz gözümnən onu Gürcübazardan Aleksan bəynən qol-boyun çıxan görmüşəm...

– Pay atonnan seyid yiyəsi, ay sənin cəddin özünə qənim olsun...

– Bu ola bilməz, əgər söz veribsə... – yenə də şübhə Hacı Qədiri dilləndirdi.

Bu pir və ocaq dəlisi ömründə Ağaseyidəli ağaya inanan kimi heç Allaha da inanmırdı.

– Olar, olar, deyirlər ki, hələm onun uşqolunda urus dilindən də bir erməni dığası dərs verəcək; belə qayda qoyub...

– Əh... ay cəddi onun üzünə tüpürsün, onda hansı imansız ona uşaq usburt olar?

– Heç kim, heccə kim... O da gedər inşallah urus İrza bəyin məktəbinin dalısıycan...

– Bu babi köpək uşaqlarından bundan artıq nə gözləmək olar? İçkixana, həcvxana onlara azlıq eləyir?

– Əl çəkmirlər... Din əldən gedir...

Molla məsləhətə xitam verdi:

– Hacılar, bax borcumuz avamı başa salmaqdı, baxmasınlar ki, seyiddi, nə bilim ağadan izin alıb, çoxunun gözünü bu məsələlər örtə bilər... odu ki, bizim borcumuz camaatı başa salmaqdı, bəli, salmaqdı! Qoy öz fərzəndələrini öz əlləri ilə odun içinə atmasınlar! Onlardan babi qayırmasınlar, urus-erməniyə tay eləməsinlər, eləməsinlər!

Hacı Qədiri isə fikir götürmüşdü. Şübhə onun inadkar və etiqad sahibi qəlbinə yol tapmışdı. Əvvələn, Seyid Məhəmmədli böyük və nəcib ocaqdı, onlar hələ heç kimin bir həbbəsinə kəc baxmayıblar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Haram yeməyiblər... O biri tərəfdən də Ağaseyidəli ağa kimi bir müctəhid bu işi nəhy eləməyib, urusxat veribdi... deməli, burda nəsə var... üçümcü tərəfdən Hacı Qədir axı bu təzə "meşədi"Alışı yaxşı tanıyır. O hardan belə camaat gözləyən çıxdı, Allahdan qorxan oldu? Hələ o Molla Qurbanqulu!.. El bilir, aləm bilir ki, hər təzə açılan mollaxana, məktəbxana onun cibinə ziyandı... Uşaqları on-on beş il oxudur, bir çərəkədən başqa heç nə öyrədib bir yana çıxartmır, bir ucdan da gətir *ha gətirdi....Hər bayramda, hər surə qurtaranda, çərəkə çıxanda, Quranın* filan yerinə çatanda, hələ də gətir ha!.. Uşaqların əllərini, ayaqlarını falaqqaya salmaqdan canlarını üzüb... Özlərini də gah meşəyə oduna, gah bulağa suya göndərməkdən çiyinlərini ulağ beli kimi yağır eləyib... Yox, bu adamların heç birinə inanmaq olmaz... Qaldı mənim bu əziz qonşum Hacı Qapaqlı... O da ki, Tərlan əhvalatından sonra Ağaya düşməndi... ona heç inanmaq olmaz!.. Öz aramızdı, əgəm Ağaseyidəli nəhy eləməsə və əgəm deyilənlər düz olsa, uşqolda uşaqlara hesabdan, çötkədən öyrətsələr, lap elə o kafir urusun dilini də öyrətsələr, nə zərəli var mənə? Həm dükanda gərəyim olar, həm divanda-dərədə əlimdən tutar... Vallah əgəm deyilənlər düz olsa, gedib Ağaseyidəli ağaya istixarə eləcəm, saat xoşduyub Ramazanı aparıb verəcəm Ağaya. Qoy onun dərsin alsın! Alışın, mollanın və Hacı aşnamın acığına... Öz oğlu əlindən çıxıb, indi başqalarının uşaqlarına "yaxşılıq" istəyir, qoca tülkü?

## MƏKTUBLAŞMA

***Bəradəri-mehribanım, əziz şairim!***

*Əhvalımı xəbər alsan babətəm, cismən sağlamam, cismimdə heç bir cərahət yoxdur. Qaldı bir zamanə əhlinin heç yerində qoyduğu ruh məsələsi, o da mən yazmamışdan cənabına məlum olsun gərək. Əziz Vətəndən, istəkli dost və yaranından uzaq, kimsəsiz qəribin ruhu necə ola bilər? Mən cismən yaşayıram, cismən varam... qalanı sənə məlumdur, istəkli dostum, nuri-çeşmim mənim! Qəzəllərinin və digər əsərlərinin sorağı buralara gəlib çatır, gözəl həmvətənlərimizə qoşduğun nəzmlərinin qidası ilə yaşayıram desəm, inan. Qırmızı Qulam sağ olsun, əşarının hər elə keçənini bu diyara yolu düşənlərin vasitəsilə mənə göndərir. Mənim salam və minnətdarlığımı ona yetirməyini xahiş eləyirəm. Səndən bir ricam var, bağı-Gülüstan seyrlərində, Mahmud ağa məclislərində nəvalara qulaq asanda, Zoğalavayın kənarındakı ağac*

*altında məlum yerimizə qədəmin düşəndə məni yad elə və de ki; ey gözəl Şirvan, sənin oğlun, sənin övladın sənin həsrətinlə yanıb qovrulur, qəlbən həmişə səninlədir, ruhən həmişə səninlədir. Gözlərimdən bir an da olsa iraq deyilsən, nə zaman gözlərimi yumsam, gözümün önündəsən. Uzun müddət sənə və yazıq anama heç bir məktub yazmamağımın səbəbi çoxdur. Əvvələn sənin Şirvanda olub-olmamağın mənə bəlli deyildi. Evlənəndən sonra təhsilə getdiyini Nəcəfül-Əşrəfdə olduğunu, zəlzələdən diyarbədiyar düşmüş, avaravətən olmuş həmşəhərlilərimizdən Ağa Səməd danışdı. Digər tərəfdən, məktub yazmırdım, çünki hələ yer-yurdum, iş-gücüm sərbirah olub sahmana düşməmişdi, yerim sabit deyildi. Bu gün burda, sabah bir başqa yerdə idim. Elə kağız yazmaq qəsdində idim ki, sənin cənab Əlabbas bəylə Məkkeyimükərrəmə ziyarətinə təşrif apardığının sorağını aldım. Burdan Məkkə ziyarətinə gedən Qara Ələkbər sizi orda görübmüş, bir məclisdə təsadüfən nağıl elədi. Qayıtmağını bildim. Ziyarətin qəbul olsun, qardaş, amma bilə bilmədim ki, haçandan sən belə qəni olmusan ki, boynuna Həcci-Əkbər ziyarəti vacib olub? Bu şad xəbəri eşitcək sənə məktub yazıb mübarəkbadlıq etməyi və çoxdan bəri qəlbimə yığılanları bildirməyi zəruri sandım.*

*Əziz bəradərim! Burada, mənim işlərim pis getmir, yavaş-yavaş ticarət eləyirəm, az-çox gəlirim də var. Özümə burada təzə-təzə aşinalar da tapmışam. Burada da yeni-yeni insanlar, təzə fikirli tərəqqipərvər cavanlar yetişib, burada da məktəb açmaq, tərəqqi etmək xəyalına düşənlər var. Burada da tərəqqi düşmənləri, mollalar, işanlar, küfr sovuranlar az deyil. Əgər orada dostlara hər hansı bir xeyir iş üçün ianə lazım olsa, məni də unutmayacağınıza əminəm. Burada da əlimdən gələni eləyirəm...*

*Səndən bir şeyi gizli saxladığım üçün həmişə özümü danlayıram və indi gec də olsa sənə bildirmək istəyirəm. Sən o zamanlar elə bildin ki, məni Vətəndən didərgin salan təkcə atamın münasibəti və təhqiri oldu. Lakin bu təkcə belə deyildi, qardaşım. Gec də olsa qoy sənə bildirim ki, mən o bədbəxt Sonanın eşqiylə yanırdım, mən onunla görüşmüş, hər şeyi qərarlaşdırmışdım. İstəyirdim ki, onu götürüb uzaq bir diyara gedəm, razılığını da almışdım. O yerlərdə bunun mümkün olmayacağını bilirdim. Lakin o bədbəxtçilik mənim əhdimi kəsdi. Mən Sonaya, dünyalarcan istədiyim o talesiz qıza kömək əlimi uzada bilmədim. Başına nə gəldi, kim və harda öldürdü, neylədilər onu, bilmədim. Dərdim o zaman elə böyükdü ki, ümidsizliyə elə düçar olmuşdum ki, son görüşdə bunu*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*qulluğuna ərz eləməyə cürətim çatmadı. Son deyirəm, çünki mən onsuz da bir daha oralara dönən deyiləm. Bülbülüm uçmuş bağda, sonam uçmuş göldə nəyim var? Mən bunu indi sənə ona görə yazıram ki, dost-aşna hər məktubda "evlən" deyə yazır. Mən əhd eyləmişəm, Sonadan başqa könlümü heç kəsə verə bilmərəm, könülsüz evlənməyi isə istəmirəm. Mənim üçün çox ağır olsa da, əgər onun başına nə gəldiyini bilsən mənə yaz, rica edirəm. Daha nə yazım, məktubunu böyük bir səbirsizliklə gözləyirəm. Özündən yaz görüm nəylə məşğul olursan? Əməllərin bircə çiçək açırmı? Həsrətli qəlbimlə əziz gözlərindən və müqəddəs bildiyim əllərindən öpüb ayrılıram.*

***Baqi ehtiram, səmimi dostunTərlan***
***21 rəcəb sənə...***

***"Nuri-didəm, əziz sirdaşım Ağa Tərlan!***

*Salamım daimidir!*

*Suzişli kağızın yetişdi, oxuyub biqərar oldum...Ah, əziz dost, mən nə üçün sənin qəlbini təlatümə gətirən həyəcanlarından o zaman xəbərdar olmamışam, bəlkə sənin taleyin o zaman, özün demişkən, belə mənhus olmazdı, əbədi kədərə düçar olmazdın. Qardaşım, əvvəlcə öz haqqımda yazım, çünki məktubun sonunda bu sözləri yaza bilməyəcəyəm. Mən arabir yazdığım qəzəl və həcvlərdən başqa indi həmvətənimiz olan şairlərin həyat və şeirlərini havi bir təzkirə tərtib edirəm, həmçinin Şirvan tarixini yazmaq xəyalına düşmüşəm. Biçarə anandan nigaran olma, arabir hüzürə-zada gedəndə bizə qədəm əziz eləyir, hal-əhvallaşırıq. Atan yerində və əqidəsində bərqərardır.*

*Mehriban qardaşım, xoş və xeyirxah sözlərin üçün var ol, amma gördüyüm köhnə hamam baqidir, qəni-zad olmamışam, boynuma da Həcci-Əkbər ziyarəti gəlməyib. Cibimdə fülusum yox, bir çətən külfətlə mənə Həcc ziyarəti nə yaraşardı? Necə deyərlər "arığın neyşi var qoruqda, vurub qıçın sındıralar?" Sadə desəm şeytan fitnəsinə uydum cənab Ələbbas bəyin simasında, özümün də taxsırım onda oldu ki, səyahətlər mailiyəm, dünyanı görüb-götürmək həvəsindəyəm. O kişi də bunu bilirmiş, sən demə zalım oğluna başmaq götürən lazım imiş, çənə yoldaşı gərəkmiş, qərəz olmazın əziyyətlər çəkdim ki, bir qismini nəzmən qələmə almışam sənin üçün bura qeyd edirəm:*

*Leyk bir şəxs məni məkr ilə yoldan çıxarıb*
*Necə kim, Adəmi şeytan edib əfsun ilə dəm.*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Etdi yüz hilə ilə dur məni meykədədən*
*Eylədi Kəbə təvafında özüylə həmdəm.*

*Gətdi yollarda mənim başıma yüz gunə bəla,*
*Qüssədən axırı sədparə könül tapdı vərəm.*

*Niyyəti şöhrət imiş kim ona "hacı" deyələr*
*Qoymuyubmuş demə məlun, yola sidq ilə qədəm.*

*Mənə bir növ hükumətlər edirdi, billah*
*Kim, onu eyləməyib Şamda Mərvani-hərəm.*

*O cəfalər ki, mənə Şamdə etdi o şərir*
*Əhli-beytə o qədər eyləməyib Şümr sitəm.*

*Leyk səd şükür ki, bir növ ilə çatdıq Vətənə*
*Oldu vəsli-rüxi-dildar ilə könlüm xürrəm...*

*Nə başını ağrıdım, bütün səyahət boyu o molla yanına dartdı, mən alim-şair yanına; o, məscidə çəkdi, mən meyxanaya, o zirehə səcdə elədi, mən qədim abidələrə – Xaqani rəhmətüllahın qədəmi dəyən yerlərə.*

*Əziz və əvəzsiz dostum, buradakı ağır keyfiyyətləri yazmaqla, qürbətdə Vətən eşqilə çırpınan qəlbini bir qədər də xərab etmək fikrim yoxdur. Yalnız bir məsələni sənə mütləqə yazmalıyam. O da bədbəxt Sonanın taleyindən xəbər istəməyindir. Bil və agah ol ki, indi də, elə o zamanın özündə də həmin məsələni mənim qədər yaxşı bilən yox idi. Mehriban qardaşım, Sona ölməyib, hərçənd ki, sənin üçün ölüb, amma sağdır. O zaman Mütrüf Ədilin evinə basqın olan gecəsi Ağa Səməd adında bir cavan ona nicat veribmiş, nə üçün? Hələ indi də bilmirəm. Görünür quldur-qaçaq içində də comərd adam var imiş! Ya qıza yazığı gəlib, zənən xaylağına əl qaldırmayıb, hər nə isə onu sağ buraxıb. Gecəynən Sona o qan ocağında nicat tapıb bizə, mənim evimə pənah gətirmişdi. Bu sirdən indiyəcən, bir Mahmud ağadan və bir də anamdan başqa heç kəs agah deyil. Sona bir gün bizdə qaldı. Mahmud ağaya məsələni açdım. Ağsudan xeyli aralı Ərəbçəltikçi kəndində Əlyar bəy deyilən bir dostu vardı. Gecəynən Sonanı ora yolladıq. Orada onu tanıyıb bilən yox idi. Mahmud ağa dostuna kağız yazdı ki, qızı orda bir qulluğa düzəltsin, qulluqçudan-zaddan qoysun. O vaxtdan bəri hərdənbir Əlyar bəyin məktubları vasitəsilə ondan xəbər tuturuq. Şirvanın əvəzsiz gözəli, solmaz süsəni, orda həyat adamlarının içində bəy evində*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*qulluqçudur. Bundan artıq hələ ki, bir şey bilmirəm. Onu bilirəm ki, sağ-salamatdır. Alışın isə bu məsələdən xəbəri yoxdur.*

*Əvəzsiz qardaşım, əgər o zaman sirrindən agah olsaydım, bəlkə də, əlini əlinə verib sizi bir diyara yollardıq. Şirvan bayatılarında deyildiyi kimi:*

*Qoy mənə Kür desinlər,*
*Kürdən də kür desinlər,*
*Əlini əlimə versinlər*
*Şirvandan sür desinlər.*

*Şirvandan sürülərdiniz; amma heç olmazsa bərabər olardınız. Nə o, nə də sən əbədilik bir alov-atəş içində yanmazdınız. İndi məktubunu alan kimi sənə cavab yazdım ki, biləsən... Sənə ümid vermək istəmirəm. Boş ümid kişiyə yaraşmaz, amma əgər mümkün olsa, xəbərləşərəm, ayrı bir qəzavü qədər üz verməyibsə, bəlkə, vallah nə bilim, onu oradan uzaqlaşdırıb başqa bir yerə göndərmək və sənə xəbər vermək mümkün oldu. Əgər taleyinizdə varsa, ya nəsib, ya qismət, bəlkə də bir zaman görüşə bildiniz. Onda yazaram hardadı və gedib götürüb öz yurd-yuvana aparарsan. Amma bu hələ ki, ümidsiz fəqərədi. Gör bir aradan neçə illər keçib, daha nə qəzalar baş verib, nə bilim. Amma bir şey eləmək mümkün olsa, inan ki, əlimizdən gələni elərik. Kağızını cənab Mahmud ağa ilə bahəm oxuduq, gözləri yaşardı, "Əhməd ağanın ərvahı haqqı, əgər bilseydim, yüz Alış, min qapaqlı olsaydı, genə də Məcnunla Leylanın bir-birindən ayrı düşməsinə riza verməzdim" – dedi və dərhal Əlyar bəyə məktub yazıb yolladı. Hər halda sən namümkün ümidlərə düşmədən, mənim ikinci məktubumu gözlə. Mümkün eləyə bilsəm yolum Bicov və Qəşətə düşən kimi, səmtimi Ərəbçəltikçiyə salıb, Sona ilə görüşməyə, qəziyyədən onu hali eləməyə çalışacağam. Görək nə olar. Mənim kiranbəha dostum, kaş sirrini o zaman bilmiş olaydım... Əgər sən Sonanın bizdəki son gününü görmüş olsaydın... Onun cəllad əlindən çıxmış zavallı görkəmini görsəydin, mən onun o halını heç bir vaxt unuda bilmərəm. Elə bil Şirvan rəqqasələrinin bəzəyi Sona deyildi... Düzdür, indi də Mahmud ağa məclislərində çəngi dəstəsi var, Nisə böyüyüb, Sonanı əvəz eləməyə çalışır, amma heç kəs onun yerini verə bilməz. O bir ustad idi, o bir xəyal kimi gözəl, əfsanə idi, bir pəri idi əvəzsiz.*

*Qərəz kəlami-tuldan yorulmadın ümidindəyəm. Başım, bəlalı tüllablıq dövründə çəkibdir. Vətəndən gələn hər bir kağız bir tutiya kimi*



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

*gözlərimə ziya verərdi, istərdim tuğrayi-hümayun kimi təvil[1] olsun. O qərəzlə belə tul yazdım. Həsrətli gözlərindən öpürəm, qardaşım.*

*Təvəqqe edirəm ki, cavab gecikdirməyəsən, vəssəlam.*

***Xeyirxahın Seyid Əzim Seyid Məhəmməd oğlu***
***fi 25 şəvval sənə... flan...***

Ağa məktuba cavab verəndən sonra mütləq Ərəbçəltikçiyə getməyi, şəxsən Sonanı görməyi qərarlaşdırdı.

O, Mahmud ağadan Əlyar bəyin üstünə kağız alıb getmək, Sonanın əhvalından xəbər tutub Tərlanın yanan ürəyinə bir parç su səpmək istəyirdi...

...Şair bazara girəndə Qapaqlı ilə Hacı Qədir dükanlarının qarşısındakı kiçik meydançada qələbəlik idi. Adamlar dairə vurub nəyə isə tamaşa edirdilər. Adamların nisbətən sakit dayanmasından anladı ki, meydandakı tamaşaçılar xoruz, qoç və ya bildirçin döyüşməsinə tamaşa eləyənlər deyil. O yaxınlaşıb dəstəyə qoşuldu. Tanıyanlardan bir neçəsi yol verdi, irəli boylandı. Meydanda iki dərviş durmuşdu. Hələ səs çıxarmırdılar. Ya çıxışlarının əvvəli idi, ya da özü fasiləyə gəlib çıxmışdı. Dərvişlərin geyimi bir-birinə çox bənzəsə də özlərində heç bir oxşarlıq yox idi. Sağdakı qoca nəzərə gələn, ucaboy, qədd-qamətli kişi başındakı şiş börk, uzun ətəkli köhnə xirqə ilə daha da uca görünürdü. Əlində təbərzin və qolunda kəşkül var idi. Onunla üzbəüz dayanmış xirqəsi ayaqlarına dolaşan dərviş cavan idi. Əlindəki təbərzini ucaya qaldırıb pəncələri üstünə qalxmış, müsahibinə cavab verməyə hazırlaşırdı. Əvvəlcə yaşlı dərviş oxumağa başladı. Şiələrin birinci imamı Əlinin şənində oxunan qəsidə köhnə olsa da, dərvişin ləfzi gözəl, səsi yaxşı idi. Ürəkdən, eşqlə oxuyurdu. Arabir aram olanda, cavan dərviş babət səsilə ona cavab verir, qəsidəni kəsildiyi yerdən davam etdirirdi.

Adamların cərgəsində durmuş bala dərviş isə kiçik kəşkülünü sədəqə və ianə toplamaq üçün hazır saxlamışdı; işarə, fürsət gözləyirdi.

Füzuli qəsidəsində imamın təriflərindən əvvəl verilən dərin fəlsəfi parçalar şairi sevindirdisə, "Şahi-Mərdan", "Mürtəzanın lütfü qəhri" haqqındakı misraları dinlədikcə təəssüflənirdi. "Böyük Füzuli, Əlini az qala Allah mövqeyinə qaldıran bu misraları sənə yazdıran nə olub? Mənim kimi külfət dərdi, ruzi möhnətimi? Doğrudanmı sən özün də onu Süleyman, Adəm, İsmayıl, Davud, Loğman, Nuh və kainatın ən

[1] Padşah fərmanı kimi uzun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

böyük möcüzələrindən yüksək və qüdrətli bilmisən? Buna inanmısan? Bir bax; gör, sənin sözünün qüdrətilə bədbəxt həmvətənlərin necə də baş və sinələrinə döyüb ağlayırlar? Bilərəkdənmi onları ağladırsan, ya həqiqi imanlamı yazmısan bu misraları? Qələminin gücünəmi ağlayırlar, sözünün təsirinəmi, ya imanınmı onları ağladır, ey böyük ustad? Bəs

"Könül, ta var əlində cami-mey təsbihə əl vurma!
Namaz əhlinə uyma, onlar ilə durma, oturma!

mətləli qəzəlin hara, bu misralar, beytlər hara?"

Dərviş oxuyurdu:

Yüz məşəqqət çəksə kami-dil tapar əncami-kar,
Hər kimin aləmdə mövlası Şəhi-Mərdan olur...

Yığılanlar arasında səslər ucalırdı:

– Kömək ol, ya Şahi-Mərdan...

– Adına qurban olum..

– Balalarım sənə qurban...

Dərviş daha da avaz ilə oxuyurdu:

Ol şahənşah kim, əgər bir murə qılsa iltifat,
Mur hökm eylər, Süleyman üstünə sultan olur...
Kövsəri-cənnət onun hökmündədir, ol vəch ilə
Cümlə nəslindən həmin Adəm ona mehman olur...

– Can... Qiyamət günü, kövsər ağası, nəzərini bizdən kəsmə.

– Ya Əli, ya Əli!

– Can Əli!

Dərvişlər isə cuşa gəlmişdilər. Böyük dərviş getdikcə coşur, ağzı köpüklənə-köpüklənə təbərzinini göydə oynadır və elə qeyzlə oxuyurdu ki, elə bil gözləri hədəqəsindən çıxırdı... Cavan dərviş səsini ona çatdıra bilmir, heyranlıqla ustadına tamaşa eləyib dururdu.

Dərviş aram tapıb durdu. O, qəsidəni bitirmişdi. Cavan ustadının işarəsilə bala dərviş cərgələri gəzməyə başladı.

– Ağam Əli eşqinə...

– Ağam Şahi-Mərdan eşqinə...

Kəşkülə diyirlənən pulların səsi eşidilməyə başlayanda, şair, qəlbini çuğlayan dərin kədər və təəssüf hissilə dəstədən ayrıldı. Arxasınca Qapaqlının aydın səsini eşitdi:

– Çoxları şairlikdən dəm vurur, amma gör bir heç Əli şənində, öz ceddi şənində bu rəhmətlik kimi bir şey yazır?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başqa bir səs ona qoşuldu:

– Cəddi onu kəssin, heç olmasa Əli şanində cibindən bala dərvişə bir abbası çıxardeydi... Şeri, qəsidəsi özünə qalsın...

...Şair bazardan çıxmamışdı. Bazara gətirilmiş təzə nübar meyvələrə gözü sataşanda şair dərvişləri unudub düşünməyə başladı. Təzə meyvələr həmişə nədənsə onun fərəhinə səbəb olardı:

– "İllər keçir, hər il təəccüb və heyranlığım azalmır ki, artır. Hər il bu və ya başqa bir şeyin gəlişinə, nübarına sevinirəm. Bilirəm yarpaqlar açmalıdır, amma yenə də görəndə "ilahi, nə gözəl, nə tez gəlibdir bu il bahar" – deyirəm, ürəyim fərəhlə dolur. Təzə tehrani, təzə xiyar... hər birisi, bilirəm ki, yenə də hər il olduğu kimi bu il də çıxacaq! Dostlar bir töhfə kimi, ilk nübar kimi göndərəcək, özüm bazarda görəndə alacağam, yenə də hər bir meyvəni adamlar bir-birinə "neçə belə nübarlara çıxasan" deyib töhfə verəcək. Amma yenə də mən qırmızı gilası, yaşıl alçanı, ağ tutu... təbiətin ilk ecazı kimi, hədiyyəsi kimi qarşılayır, heyrət və fərəhimi gizləyə, saxlaya bilmirəm..."

Şair bunları düşünə-düşünə bazardakı təzə xiyar, gilas və alçalara tamaşa eləyir və irəliləyirdi. O, Qırmızı Qulamın kitabfürüş dükanına tərəf üz tutmuşdu. Dükana çata-çatda çayçı Əlmuxtarın şagirdi Rəziylə rastlaşdı: şamaxılılara məxsus bir ahənglə sözü incə-incə uzadaraq dedi:

– Salam, Rəzi bala, xoş gördük səni, aadə...

– Əleykəssalam, Ağa, xoş günün olsun.

– Meşədi Qulam dükəndədi?

– Bəli, elə indicə qulluğuna çay apardım.

– Birini də mənə gəti, meşədiynən balaca söhbətim var...

Rəzi sevincək tərpəndi:

– Baş üstə, can üstə, Ağa... Elə sən içəri girən kimi məşədi özü buyurtduracaqdı...

Seyyid güldü:

– Bilirəm, ona görə də meşədinin boğazına qıymadım, özüm sifariş elədim.

Rəzi daban aldı.

Şair dükanın qapısına çatan kimi Məşədi Qulamı özünəməxsus bir tərzdə salamladı:

– Əssəlamu-əleykə, ey şairlər ağası, şeirşünaslar gözünün işığı...

– Və əleykəssalam, Ağa, cəddinə qurban olum, xoş gəlmisən, qədəm əziz eləmisən, həmişə sən gələsən, aadə, Rəzi – bir çay...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyid Əzim gülə-gülə Məşədi Qulamın əlindən tutub təmənləşdi:

– Boğazını ağrıtma, bəradər, indicə Rəziyə rast gəldim və sənin adından sifariş elədim çayı.

– Ay əcəb eləmisən, bax, çox əcəb eləmisən... buyur əyləş, Ağa!

Məşədi Qulam dükanın yerinə salınmış nimdərlərdən birini Seyyidin qarşısına çəkdi. Şair çuxasının ətəklərini səliqə ilə yığışdırıb diz üstə oturdu:

– Hə, qardaş, təzə nə var, nə yox... İşlər necədi, təzə bir şeyin var?

Məşədi adətən tapdığını dərhal deməz, şairi hələ bir az gözlətmək istəyər, bundan xüsusi zövq duyardı:

– Niyə, olanda olur, olmayanda oturub baxırıq yollara.

– Genə də olsun?..

– Əşi, ay Ağa, qoy Rəzi bir çaydan çay gətsin, bir az içək, Allahdan-bəndədən söhbət eləyək. Sonra, nə var, baxarsan, qaçmır ki... – deyə Məşədi Qulam balaca süfrəni hazırlamağa başladı.

– Nə olar, belə dözmüşük, bir az da dözərik. Yaxşı, ay məşədi, nə əcəb meydanda yox idin? Yaxşı dərviş oxuyurdu, bütün bazar dostların da hamısı ordaydı...

– Bilirsən, Ağa, mənim elə özüm dərviş kimi bir şeyəm. Deyir:

Aməd ərəbi ki, mən rəsuləm
Qoftəm to bero ke mən xod ayəm[1].

Seyid Əzim qəh-qəh çəkib güldü, Məşədi Qulam isə deyirdi:

– Maşallah, namxuda, öyrətmək olmasın, sən özün ki, belə-belə şeylərdə pərgarsan...

Şair cibindən balaca cüngünü çıxartdı, o eşitdiyi hər bir gözəl kəlamı buraya qeyd edərdi, Qırmızı Qulamın mücrü üstündəki qələmdavatını alıb dedi:

– Peyğəmbər haqqı bunu eşitməmişəm, meşədi, sən aləmsən, açılmamış kitab elə sən özünsən! Hər bu dükənə gələnə səndən bir qədi açılmamış beyt eşitməsəm – qulaqlarım uzanar...

– İrağ cəddindən...

Məşədi Qulam bir qədər qızardı, utandı, amma Ağanın tərifindən xoşhallandı da. Bununla belə sevincini büruzə vermədən beyti bir də təkrarlayıb dedi:

[1] Yəni: bir ərəb gəlib dedi ki, göndərilmişəm (yəni Allah tərəfindən) dedim, yeri get, elə mən özüm də gəlmişəm (bunu bitişik "xodayəm" cinas kimi oxuyub, "yeri get, Allah elə mən özüməm" şəklində də düşünmək olar).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bircə fərqimiz var ki, mən özgələrinin şah beytlərinin qədini açıram, sən isə özün həmin qədi açılmamış beytləri yaradırsan. – Bu sözlərdə dostu, həmvətəni şair sarıdan elə bir fəxr və özünün yaza bilməməsinə elə bir təəssüf hissi var idi ki, Seyid Əzim özünü bir cürə hiss elədi. Elə bil Qulam kişinin istedadi-şeri olmamasında o günahkar idi, çəkingənliklə soruşdu:

– Neynəmək olar? Yaxşı, məşədi, bu beytin sahibi kimdir?

– La ədri[1]dir, qadan alım... Özünə zəhmət ver tap, yoxsa hər şeyi məşədidən öyrənib gedib deyəsən və yazasan ki, bunu elə özüm bilirdim?..

*Gülüşdülər. Rəzi çaydan və piyalə gətirib qoydu və dərhal da qayıtdı.*

Məşədi Qulam bir fincan çaydan sonra, əlini mücrüyə atıb orada məxsusi xiridar üçün saxladığı əl yazmalarını çıxardı və bir-bir şairə nişan verməyə başladı:

– Bax, bu "Xəmseyi-Nizami"di – cildi Buxara işidi, xəttinə bir dürüst fikir ver, hələ haşiyələrinə bir bax! Bunu göndərən buxaralı rəfiqim yazıb ki, bu bəzəkdə, bu naxışda, bu xətdə "Xəmsə" bəlkə dünyada bir dənədi, heç şah sarayında da yoxdu!.. Tamam qızıl suyuna tutulub, xalis qızıl suyu ilə yazılıbdı... Bu sənin nəüzənbillah birinci imamın Xaqaninin – "Xərabəhayi-Mədayin" idi, xətti yaxşıdı, amma təzə işdi, şikəstəynən, naxışsız-zadsız... Bunu Təbrizdən almışam.... Bax, bu Quranı görürsən?.. Bilirəm səni şeir maraqlandırır, amma bir gözəlliyinə bax, zalım oğlu xəttat və bəzəkçi buna on misqal qızıl ərintisiynən naxış vurub... Nadir şeydi...

O, vərəqləri arasına cığara kağız verilmiş, naxışlı, ornamentli gözəl əlyazmalarını şairə elə bir fəxrlə göstərirdi ki, elə bil bütün bunları o özü yazıb-yaratmışdı. O bilirdi ki, şair bütün bunları ala bilməz, (bəlkə bircə Xaqanidən keçmədi, Xaqani "dəlisidi") bu qiymətdar əlyazmalarına verməyə üçün onun pulu yoxdur. Amma bununla belə Qırmızı Qulam bu əlyazmalarını şairə xüsusi bir həvəslə göstərirdi, çünki onu əsil qiymət verən, həqiqi gözəlliyi anlayan bir insan kimi tanıyırdı. Bəzən, hətta bu və ya digər nadir əlyazmanın məhz onun əlinə keçməyib, başqasına satılmasına təəssüflənirdi də.

...Başları gözəllik aləminə elə qarışmışdı ki, dünyadan bixəbərdilər. *Birdən qəfil Rəzi içəri girib dedi:*

– Deyirlər arvadlar hamamda satıldöydü eləyiblər, yazıq mollabacı Güllübəyimi bərk əzişdiriblər.

– Nə danışırsan, gədə?

[1] Yəni müəllifi naməlumdur, tanınmır.

– Vallah, elə dedilər... qonşuları baş-gözün bağlayıb aparırdılar evinə. Özüm görmədim, qapaqlının şəyirdi dedi... Evlərinə neyçünsə gedibmiş, yolda görüb.

Bayırda çayçı Əlmuxtar bir kəndli ilə çənə döyürdü. Tərəkəmə deyirdi:

– Qardaş, demə tərəkəmədi, annamır, deyəsən, çayın dəm almayıb, heç dadı-tamı yoxdu.

Əlmuxtar isə and-aman eləyirdi:

– Bıy, dadaş, səni-məni yaradana and olsun ki, düz qırx gündü dəmdədi! Mən sənə dəmsiz çay verrəm? – sonra da şəyirdini səslədi: (eşidənlər Əlmuxtarın yalandan and içmədiyini, tərəkəməyə doğrudan da köhnədəm çay verdiyini başa düşüb gülüşürdülər.)

– Aadə, Rəzi... hara cəhənnəm olmusan?

– Gəlirəm, ağa, gəlirəm, meşədigildən çaydan aparıram.

O çay dəstgahını siniyə yığıb cəld çölə qaçdı.

Məşədi Qulam fikrə qərq olub oturmuş şairə dedi:

– Olar da... peyğəmbər haqqı, o Molla Qurbanqulunun qızından nə desən çıxar, beş vaxt namazdan başqa...

Şair sual dolu gözlərini dostuna dikdi:

– Onun bura nə dəxli var?

Məşədi dedi:

– Necə nə dəxli var? Axı Güllübəyim mollabacı uşaqlardan haqq almır, uşaqları döyüb incitmir, əməllicə iş-güc də öyrədir, qız uşaqlarıdı, bir-birinə danışırlar, analarının baş-beynin aparırlar, onlar da götürüb qızı Umsəlmə mollabacıdan, Güllübəyim mollabacıya verirlər. Molla Qurbanqulu külfətinin də qazancı, nökər-nayibi çıxır əlindən...

– Yaxşı, sən bəs bunları hardan belə yaxşı bilirsən, bunlar ki, şeir deyil dəftərdən oxuyasan?

– Nədən biləcəyəm? Bizim də bir kənizimiz var, mollabacı Güllübəyimin yanına gedir, ondan bilirəm...

– Belə de...

– Amma axır vaxtlar qulaqlarıma bir para sözlər dəyir, deyirəm bəlkə Qurbanqulu külfətinin quraması olar, çox da inanmıram... Odu ki, əri İsrafil gedəndən sonra da mən uşağı onun yanından götürtmədim.

– Nə isə keçənə güzəşt... amma bizim bu "Xərabə Şirvanda" bir əməlli iş axıracan baş tutmur....Mən Güllübəyim mollabacının çox basavad zənən olduğunu bilirəm. Dərsi axı o cənab Molla Babadan alıb. O kişinin də ki, ərəbi, farsı və türki savadının üstü yox idi. Yaxşı da öyrədən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müəllim, təlim verən adam idi. İstərdi ki, nə bilir ha, nə eşidib, oxuyub ha hamısını şagirdin boğazından keçirib sinə dəftərinə yazdırsın...

– Allah rəhmət eləsin, bəli, tanıyıram. O zaman mən hələ lap cavan idim. O qədər, ay Ağa, sən sayağı gəlib yanımda təzə xətlərə, divanlara, külliyyatlara baxıb, o qədər mənim üçün Quran ayəsi və ya digər anlamadığım bir əşar şərh edib ki... Şərh eləməkdə üstü yox idi... Qərəz, Allah özü rəhmət eləsin.

Şair bazardan çıxanda yolunu Mahmud ağagilə salmaq xəyalına düşdü. Bir neçə qərəzi vardı, "ümdəsi Güllübəyimin qara dillərdən mühafizəsi üçün tədbir xahiş eləməkdən, xüsusən ki, maarif sevən zənən – insan olmaqdan masəva, bibisi qızıdı. Bəlkə, heç özünə deyən olmayıb? Bu qeyrət məsələsidi, qeyrəti necə deyərlər itə atıblar – yeməyib".

Bəzzazbazarın məşhur tut ağacı bitmiş yerində isə cahılların bir qismi Cin Cavadın başına yığılmışdı. Cavad deyirdi:

– Oğlun ki, oldu adını qoy Nəzərəli, xeyri də olmasa, nə zərəli.

Cavanlar qəh-qəh çəkib gülür və dərhal da gülüşlərini qısırdılar ki, dərvişə qulaq asanlara mane olmasınlar. Bayaq Seyid Əzimin dərviş nağılına qulaq asmağını görənlərdən birinin dili dinc durmadı:

– Bura bax, Cavad, deyillər dünən Molla Qurbanqulu Ağanı məst görüb Gürcübazarda, erməni Manvelnən...

Cavadın gözündə cin oynadı:

– Olar, olar...

Başqası sözə qarışdı:

– Necə? Ola bilməz, mən bilirəm ki, Ağa tövbəlidi, özü də Seyidəli ağaya söz verib... içməz!

Cavad gülümsündü:

– Olar, olar... Axund soruşub ki, deyillər məst imişsən, deyib – bəli ağa, mən elə həmişə məstəm, gah ləbi-dildardan, gah musiqidən, gah da didari-dustdən.

Qəhqəhə qopdu:

– Belə de də, deyirəm axı...

– Bura bax, Cavad, sən axı Mahmud ağanın məclisində çox olursan, bilərsən. O dövləti-qarun ki, onda var, niyə Həcci-Əkbər eləmir? Heç olmasa Kərbəla, ya Məşhəd iqdam eləmir?..

Cavadın gözləri yenə də güldü:

– Elə mən də soruşmuşam, deyir "gərək adamı Ağa özü istəyə, görünür məni hələ istəməyib..."



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Naqolay bir cavan öcəşdi:

– Niyə quldur-qaçaq Alışı istəyir, Mahmud ağa kimi qarışqanı da incitməyən, nazik ürəkli, hamıya əl tutan adamı istəmir?..

– Bu hikmətdi, hikmətə sual yoxdu...

– Cavad, deyəsən, sən də mollalığa başlayırsan?

– Neyşə də başlamıyım? Sən bir dörd-dövrənə bax!.. Bütün rövzəxanların əvvəli nə olub, əgər bildin? Bilməzsən, çünki onda sən uşaqdin, mən isə bilirəm, çoxunun əvvəli toyda, meyxanada xanəndə olub, ha belə başqaları. Sonra tövbə eləyib olublar rozəxan, bir qaşıq suynan pak olublar, mən niyə olmayım?!.

– Əh... səni heç bir dənizin suyu da pak eləməz...

– Onu bilmək olmaz, mənim günahım nə Alışınkından, nə də Hacəsəddinkindən çox döyü...

Cahıllardan biri Cavada dedi:

– Cavad, nə əcəb sən dərvişə qulaq asmırsan, deyəsən heç onlarla aran yoxdu axı? Hə?

Cavadın gözlərindən cin çıxmağa başladı, xımır-xımır gülərək elə bil yeni bir haqq-hesab çəkirmiş kimi barmaqlarını bükür və deyirdi:

– Qardaş, bəngi istəsən dərvişdə, qumarbaz desən dərvişdə, tiryək desən genə dərvişdə...

Etiraz səsləri qalxanda Cavad əlini qaldırdı:

– Dayan, dayan, sözümü kəsmə, özü də bu gün sənə, əzizi-mən sübutla cavab verəcəyəm. Cənab Ağa Mirmöhsün Nəvvab ki, Qarabağın ən məşhur alimlərindəndi, özü də seyid-peyğəmbər övladı. Görün, bir dərvişlər barəsində təzəcə nə deyib, nə yazıb? İndicə sizə qatı açılmamış şerini oxuyum, sonra da sən kimə istəyirsən inan. Ya cəddinə qurban olduğum peyğəmbər övladı alimə, ya da ad-sanını bilmədiyin Təbriz lotusuna ki, adını dərviş qoyub, gəlib sənin cibişdanına əl gəzdirir. Buyur, bu da cənab Mirmöhsün Nəvvabın şeri:

“Sürxəli şah” deyirlər meyi-nabın adına,
Həm qumar oynamağın adına “cəncəl” deyənəst.
Bəngin adına deyirlər hamısı “Səbzəlişah”
Künci-pünhani görüb, cirə yeyib, bəng çəkənəst.
Nə namaz var, nə oruc, bircə yalan dilləri var,
Oğru it kimi buradan çıxıb ora gedənəst.
Bunların əlinə gər düşsə əgərçi füqəra
Soyuban köhnə libasın özünü öldürənəst...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şeir bitməmiş bir "vaveyla, vamüsibəta" sədası göyə ucaldı. Sən demə dərvişlər oxumaqlarını qurtarıb, pullarını yığıb getmək istərkən, tut ağacının dibində xeyli adam toplandığını görmüş, "bəlkə burada da bir şey qopara bildik" həvəsilə kütləyə yaxınlaşmışlar. Cavadın oxuduğu şeri eşidincə dərvişlər hər ikisi əmmamələrini başlarından çıxarıb açdılar, boyunlarına doladılar, yerlərində fırlana-fırlana, çomaqlarını bulaya-bulaya Cin Cavada hücum etdilər. Bunu görən dükançıların bir qismi Cavaddan hayıflarını almaq üçün onlara qoşulub, dərvişləri daha da qızışdırırdılar.

Cavadın daimi pərəstişkarları isə həm sayca az, həm də özlərindən yaşlı adamlara müqavimət göstərmək iqtidarına malik deyildi.

Cavad işini pis görüb cəld altında oturduğu ağaca dırmandı. Dərvişlər ağacın dibində durub onu hədələyir, gah "cahad" elan edir, gah da onun qanının "halal" olduğunu söyləyir, din yolunda, məzhəb yolunda özünü fəda edən tələb edirdilər. Rəzi hay-küyü eşidib Qırmızı Qulamın dükanına qaçdı:

– Ağa, orda dərvişlər Cin Cavadı öldürmək istəyirlər. Qulamla Seyyidin təzə əlyazmaya baxmaq söhbəti sonraya qaldı. Hər ikisi cəld özünü meydana yetirəndə, artıq Cavadın dostları yasavulları, qaradovoyları buraya toplamış, dərvişləri bir qədər sakitləşdirib, kənara çəkməyə başlamışdılar. Məsələyə "hökumətin" qarışdığını görən və "urus silisti" ilə arası olmayan dükançılar hərə öz yerinə – piştaxtasına tərəf çəkilməkdə idi.

Seyid Əzimi görüncə yasavul Ağa Bəşir və başqaları hörmətlə ona yol verdilər: Seyyid Məşədi Qulamla birlikdə dərvişlərə yaxınlaşdı:

– Nə qəza üz verib, cənab ağalar? – deyə soruşdu.

Dərvişlərdən nisbətən yaşlısı çomağı ilə tut ağacının başına işarə eləyib, acıqlı-acıqlı dedi:

– Bu namərbut, məlun dərvişləri, din-iman nökərlərini lağa qoyuru, onlara yaman deyən həcv oxuyuru. Gədə, belə də iş oli?

– Əvvəla gədə yox, sizinən danışan seyid-peyğəmbər övladı, Hacı Ağadı, sonra da...

Dərvişlər qərib yerdə olduqlarını sanki indi yadlarına salıb həslədilər:

– Bağışla, Ağa, bilmədik; amma əşhədənbillah, cəddim peyğəmbər haqqı, bu namərbutun bizə yaman dediyini öz qulaqlarımızla eşitdik. Gədə, Səbzəli, sən de, eşitdik ya nə?

– Helədi, Ağa, hacı Ağa, öz qulağımızla...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şair başını yuxarı qaldırıb Cavadı ağacın başında görəndə özünü güclə gülməkdən saxladı...

– Bu nə əhvalatdı, ağa Cavad?

Cavad ütünün sovuşduğunu görüb ağacda yerini rahatladı, ayaqlarını sallayıb qalın budaqların birində oturdu və ordan cavab verdi:

– Ağa, vallah, mən cənab Mirmöhsün Nəvvabın şerini oxuyurdum. Onu qarabağlı seyid şair yazıb. O ki, övladi-peyğəmbərdi, nəsli-aliəbadı. Öz "əmoğlularını", yəni siz seyidləri yaxşı tanıyır... Sözünüz var, gedin ona deyin, öz qohumunuzdan inciyin. Bir də soğan yeməmisiz, niyə göynəyirsiz?

Dərvişlər də məsələyə "urus" hökumətinin qarışmasını istəmirdilər, heç birinin cibində nə seyidliklərini təsdiq eləyən şəcərə, nə də kim olduqlarına dair bir barmaq kağız var idi. Buralarda isə kağızsız iş keçmirdi. Odur ki, dişləri bağırsaqlarını kəsə-kəsə, deyinə-deyinə meydanı tərk etmək məcburiyyətində qaldılar; gedə-gedə deyirdilər:

– Allah sənə xəsm olsun! Cəddim sələvatullah onun da üzünə tüpürsün, məhşər günü, sənin də!..

...Meydanda yalnız dostlar qalmışdı. Cavad hələ də ağacın başında *idi ki, macəradan indicə xəbər tutan Mahmud ağa əshabəsilə birlikdə* tut ağacının dibinə gəlib çıxdı; Cin Cavadı ağacın başında görəndə qah-qah çəkib güldü:

– Bu nədi, aadə... deyəsən baba dərvişlər pişiküvü ağaca dırmaşdırıblar? Əhməd ağanın ərvahına and olsun ki, yaxşıca yer tapmısan, yoxsa şırımuvu çıxardacaqdılar...

Cavad bic-bic gülərək ağacdan enməyə başladı:

– Xeyr, aadə, özüm çıxmışdım ki, mərəkəyə yuxardan baxım, uşaqlıqdan xoşlayıram!

...Bu gün şair Tərlana məktub yazmağa iqdam etmişdi. Amma düşüncələri Güllübəyim ətrafında hərlənirdi. Fikrini toplaya bilmir, hey düşünürdü. O, bilirdi ki, cavan müəllimlə əlaqədar bütün dedi-qodular, əfsanədir, babalar demişkən "naleyi-qazdır". Güllübəyimin başına gətirilənlər heç də şəxsi məsələ deyil, işə dərindən baxanda bu elmin, maarifin mühakiməsidir. Bu gün bir Güllübəyim mühakimə olunmayıb. Hamı bilir ki, o heç də Bağı bədbəxtin ölümündə günahkar deyildir. Onu divan ayağına sürütləyənlər, məhz elmi, maarifi, işığı, nuru sürükləyib divan ayağına gətirmişdilər. Bu şəbpərələr... dəhşətdir, ilahi, Güllübəyimi və onun kimiləri yıxmağa qəsd eləyənlər bir elin, bir xalqın görməyə başlayan gözlərini nurdan, ziyadan məhrum etməyə çalışırlar... O düşündükcə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pərilər soltanının səsi səsinə qarışıb sinəsində dillənirdi: "Əzizim, əziz şairim, tələs... tez ol, səni elin-günün, gözsüz qoyulan həmvətənlərin səsləyir. Sən onlar üçün Rza bəyi də, Güllübəyimi də, lap elə o dərviş yolu seçmiş, mübarizəyə başlamadan məğlub olmuş Tərlanı da əvəz eləməlisən... Qapaqlılar, Alışlar, Qurbanqulular dünyasına qarşı sən durmalısan! Möhtərəm, sevimli şairim, mən bu yolda sənə rəhbər ola bilmərəm, mən bu yolda yazacağın mənzumələr üçün də sənə ilham pərisi ola bilmərəm. Mən olsa-olsa sənin qəzəllərinə ilham verən bir mələk, bir huri idim, nakam bir eşq idim, sənin yaşıdlarına məxsus!.. Qoy indi sənin yollarını əməllərin, arzuların özü işıqlandırsın... Gəl, gəl, əziz şairim, indi artıq mən sənə yol göstərməyəcək, ardınca gedəcəyəm..."

Şairin səsi isə köksünün dərinliklərindən baş qaldırıb fəzanın ənginliklərinə qədər ucalır, Güllübəyim ardınca uçurdu: "Get, bacım, sənin fəlakətin mənim əzmimi bir az da möhkəmlətdi, məni daha da tələsdirdi... İşini davam etdirəcəyəm... Get bacım, səni əvəz edəcəyəm... sən bir çiçək idin. Zümrüd çəmənlərimizdə öz-özünə bitmiş rayihəli, ətirli, gözəl, incə bir çiçək!.. Zəmanənin zərbələrinə dözə bilməzdin... Amma dözürdün... soldurdular səni... Qardaşın, həmvətənlərin amalını davam etdirər. İndi mənim boynuma deyin[1] gəlir.

Şairə elə gəlirdi ki, indi Sonanın, anasının, Ceyranın səsinə artıq bir də Güllübəyimin səsi əlavə olmuş və bu səslər pərilər soltanının çağırışına qarışıb onu mübarizəyə səsləyirdi.

Şairin qəlbinə bu səslərdən nisbi bir sükunət gəldi, indi o nə edəcəyini yəqin bilir, aydın görürdü. Odur ki, Şirazi qələmi pərilər soltanının zülfü və taleyi kimi qara mürəkkəbə batırıb məktubu yazmağa başladı:

***Nuri-didəm, bəradərim, ağa Tərlan!***

*Salamdan sonra sənə ərz eləməyi vacib bilirəm ki, bu gün mənim ömrümün ən səadətli günüdür. Nəhayət ki, cavanlıq illərimizdən bir yerdə ikən düşündüyümüz – danışdığımız arzulardan birinin bəhrəsini gördüm. Ölmədim, qardaşım, nəhayət ki, Şamaxıda, biçarə vətənimizin balaca vətəndaşları üçün bir uşqola bina eləyə bildim... İrəlidə də sənə yazdığım kimi üç nəfərik; mən, cənab molla Hüseyn və Manvel... Bir neçə gün əvvəl rəbiüləvvəl ayının 15-də cənab Ağaseyidəli ağa özü də təşrif gətirmişdi. Bunu görən bizim prixod mollası da gəlməyə məcbur oldu. Şamaxı xaçpərəst məktəblərinin müəllimlərindən və digər ziyalılardan, maarif dostlarından da təşrif gətirən xeyli nücəba və mənsəb sahibi var idi.*

[1] Mənəvi borc, vəzifə

*Uryadnik Kərim bəy, divanbəyi, dilmanc–hamısı gəlmişdi.*

*...Elə bil lap maarif bayramı idi. Hamı bir-birini təbrik edir, gözaydınlığı verirdi. Cənab Ağaseyidəli ağa özü açılış münasibətilə dua oxudu, xeyir-dua verdi və uşqola işinə iqdam olundu. İnşallah ki, bu birinci olsa da, axırımcı olmayacaq. Bu bir növ bünövrədir...*

*İnşallah, vətənpərəst, maarifpərəst cavanlarımız da bir-bir baxıb ülgü götürəcək və təzə-təzə məktəblər açacaqlar. İndilik bircə dərs otağı və bircə növbətimiz var. Dörd saat dərs deyirik, ikisini mən deyirəm: biri yazı öyrətmək dərsi, biri də tarix və ədəbiyyatımızdan yavaş-yavaş uşaqlara məlumat vermək, şeirlər oxudub əzbərlətmək... Bir saat cənab molla Hüseyn şəriət dəsturül-əməlindən deyir, bir saat da Manvel rus dili təlim eləyir. Bilirəm ki, bu ilk qədəmimizə ürəkdən, candan sevinənsən, ona görə də sənə gözaydınlığı verirəm... Qardaşım Tərlan, Vətənində birimci əsil uşqol açılmağıynan səni mübarəkbadlıq eləyirəm. Uşaqlar o bitli-sirkəli həsir üstündə oturmurlar, kətillər qayırtdırmışıq, onun üstündə otururlar. Divara lövhə vurmuşuq... təbaşir gətirmişik, uşaqlar lövhəyə gəlib yazırlar, bax, lap səniynən xaçpərəst məktəblərində görüb, həsrətnən tamaşa elədiyimiz kimi... Doğrudur, ara-bərədə bu təzə qaydalarımıza çəp baxanlar da var... Amma sən ki, Şirvan bazarını yaxşı tanıyırsan... Belə şeylər tez yayılır, tez də tüstü kimi dağılıb gedir, heç məhəl qoymuram, hər şey yaxşı olacaq, qardaş...*

Şair məktubu bitirə bilmədi. Anasının çoxdan sübh namazını bitirib kürə və manqalı qalamağa başladığını görüncə cəld geyindi və məktəbə yollandı...

Sabah çoxdan olmuşdu, amma günəş hələ görünmürdü. Hər tərəf boz-bulanıq, dumanlı-qarlı, azacıq göyə çalan bozumtul ağ örpəyə bürünmüşdü. Çinarların quru budaqları səmaya ucalmış, nazik budaqlarda zərif ağ naxışlar əmələ gətirmişdi....O bayaqdan bəri məktəbxananın qapısı ağzında durub Abdullanın manqallardakı kömür və xəkəni qızartmasına baxırdı. Çiynindəki Xorasan kürkünə bərk-bərk bürünmüşdü. Hava soyuqdu, buna baxmayaraq, şagirdlər dərsə həvəslə gəlirdilər. Odur ki, Seyid Əzim məktəbə hamıdan əvvəl gəlib yazı ləvazimatını hazırlayır, oxudacağı nəsr və əzbərlətdirəcəyi nəzm parçalarını seçirdi. Bu zaman o xüsusilə Şirin Abdullanın dərsxananı yaxşıca qızdıra bilmək üçün bütün manqalları qızarmış kömürlə doldurmasına, kömürün dəminin tamamilə çıxmasına fikir verirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Hər sabah Şirin Abdulla uşaqlar üçün bulaqdan təzə su gətirir, Ağanın göstərişilə sənəklərin içini təmiz yaxalayıb, təzə su ilə doldurur və küncə söykəyir, qurd-quş girməsin deyə ağzını möhkəm qapazzıqlayırdı. Seyid, Abdullanın bütün bunları sözsüz, bir namaz dəqiqliyi ilə yerinə yetirdiyini bilsə də, hər gün öz əli ilə yoxlayır və deyirdi:

– İncimə məndən, Şirin! Xalq uşaqlarını bizə usburt olub. Biz onların təkcə biliklərini artırmaqla kifayətlənməməliyik, biz onların canının da qayğısına qalmalıyıq. Şirin, dünyada övladdan şirin şey yoxdur! Tacir deyər "mal canın yonqarıdı". Şair, müəllim, ata desin gərək ki, "övlad canın yonqarıdı". Övlad baqiyi-həyatımızdı, Şirin. Odu ki, ehtiyatlı ol, bilməzsən, sənəyə bir ilan girər, əqrəb düşər... Bilməzsən, ehtiyatsızlıq, kahıllıq elərsən, kömür layiqincə qızarmaz, uşaqları dəm tutar... su olmaz, Kəbə ceyranı kimi yanarlar.

Şirin, Ağanın tapşırıqlarını Allahdan gələn bir hökm kimi dərhal və bütün qəlbilə yerinə yetirirdi, həm də sözsüz. O elə seyid-peyğəmbər övladı bildiyi Seyid Əzimi bir növ peyğəmbər hesab edir, ürəyində deyirdi: "Dayı, nəüzbillah peyğəmbər necə olar? Nəvəsidi də... O nəcib ürək ki, onda var, vallah, günah olmasa deyərdim heç imamda da olmaz".

...Şair məktəbxananın qarşısında durub şagirdlərinin yığışmasını gözləyir, ətraf mənzərəni seyr edirdi. "Qışın da öz gözəlliyi var... bir o başı ağ çalmalı dağlara bax... Elə bil xilqətin ağ örtüklü gəlinidi, elə bil baharda yaşıl ətləs don geyən, al lalələrdən sırğa, silsilə taxan o deyil..." – deyə şair düşünürdü:

"Amma, öz aramızdı, ac-yalavac yanında bu gözəlliyin bir qəpik qiyməti yoxdu. Kasıb-kusubun düşməni, yağısı qiş... Dəyirman donub, evdə un yox, tapdığını dəyirmana aparıb çəkə bilmirsən. Su donub, nov buz bağlayıb... Eşşəkçi yükün örkən-doğanağını açanacan əlinin dərisi soyulur... Evdə uşaqlar, vanəfsa... Elə mənim öz günüm onlardan o qədər də yaxşı deyil. Şirin olmasaydı, uşaqların kefi sarımsaq dadacaqdı, mənimki onlardan bədtər... Heç bilmirəm harda üyüdüb gətirdi, o Mahmud ağa göndərən dəni... Yazıq Ceyranla məməmin əllərini əldəyirmanı qabar eləmişdi... Allah razı olsun Mahmud ağadan... Görək Ləngəbizdən bəy nə göndərir?.. Söz verdiyi az qalıb il olsun, bir də onları da qınamaq olmaz, yol yoxdu ki?.. Ulaq qulağınacan palçığa batar o yollarda, bəri aşmaq olar Ağsu dolayından? Eh... dərsdən qabaq əcəb xəyallar cumub ürəyimə! Yaxşı dərs deyərəm bu əhvalla".

Elə bu zaman Abdulla ona yanaşdı; o bütün hazırlıq işlərini görüb qurtarmışdı, evə getməyə hazırlaşırdı. Lakin Ağanın üzündən fikir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəryasına qərq olduğunu başa düşdü. "Görəsən genə nə dərd üz verib ona? Yəni görəsən, dünyada da dərdsiz-qəmsiz adam var? Xüsusən ki, Ağa kimisi, lap cümləqayğıdı... Cəddinə qurban olduğum, elə bil hamının haqq-hesabın bundan alacaqlar... Heç gömürnat, heç hökumət adamları, pulu, malı başından aşanlar bunuycan fikir eləmirlər; eləsələr dünyada bir ac qalar? Bu yazığın öz külfəti gücnən dolanır, özünə o-bu əl tutur, amma özü boğazından kəsib, dərsə gələn fağır-füqəra balalarını doyurub yola salır. Neçə dəfə öz gözümnən görmüşəm". – Bu fikirlə o, Seyyidin üzünü xeyli süzəndən sonra birdən nə düşündüsə dedi:

– Ağa, təzə xəbərdən xəbərin var?

Şair xoşagəlməz xəyallarından ayrıldığı üçün sevindi. Abdullanın xasiyyətinə bələd idi, nə isə maraqlı bir əhvalat danışacaqdı, çünki onun bütün maraqlı xəbərləri məhz bu sualla başlanırdı.

– Yox... Genə nə var, a Şirin? – deyə o, gözlərini Abdullanın üzünə dikdi. Şirin Abdullanın qəribə görkəmi vardı, elə bil taxçada-boğçada nəyə gümanı gəlirdisə hamısını əyninə geymişdi. Əyninə nə geymişdisə, hamısının da yaxası bir-birinin altından görünürdü. Çox iri, mixəyi qoyun dərisindən olan yekə papağı qulaqlarını qabağa basıb əymiş, onlar da qızarıb gülməli bir görkəm almışdı. Şair bu hala təəssüf qarışıq bir təbəssümlə baxdı və Abdullanın nə nağıl edəcəyini gözləmədən soruşdu:

– Hə, Şirinim, nə eşitmisən genə, yoxsa məni Tiflisə sərdar tikirlər?

– Nə olardı?! Səndən elə sərdar çıxardı ki, dünyadan ac-yalavac qurtarardı... hamının qarnı doyardı...

– Elə demə, Şirin, onda hamı Allahı yaddan çıxardardı; gərək dünyada ac çox olsun ki, Allah yaddan çıxmasın...

Şirin bu sözdəki incə istehzanı duymadı, sözə başladı:

– Nə deyirəm ki, özün bilən yaxşıdır... Amma məsələ belədi: dünən deyirlər Cin Cavad gedib Hacı Məcid əfəndinin yanına, otağa... Deyib ki, əfəndi, gəlmişəm ki, dönəm Allah eləməmişkən, sünnü olam...

Şair güldü:

– Yəni Allah eləməmişkəni də o deyib?

– Yox, Ağa, onu mən deyirəm... hə... Hacı Məcid əfəndi soruşub ki, "A Cavad, de görüm bu şiələrdə nə pislik görmüsən ki, dönüb sünni olursan?.." Deyir, Cavad deyib ki, heç nə, elə-belə özümçün oluram... Onda hacı da deyib: Cavad, bəlkə əlin aşağı düşüb, pula ehtiyacın var, al bu yüz manat məscid pulundan verim, get işini düzəlt. Bizi şayılarla[1]

---

[1] Şirvan şivəsində şiə deməkdir.

qannılığa salma! İndi dəb düşüb, kimin pulu azalır – gedib bir məzhəbdən o birinə keçir ki, şirnikdirənlər bunun üçün də pul yığıb evləndirsinlər, ziyarətə göndərsinlər. Amma Cavad, sən ümum Şirvanın Cavadısan, hamının əzizi... Qərəz, deyillər Hacı Məcid əfəndi, Cavadın xoruzun verib qoltuğuna, salıb yola...

Şair, Abdullanın söhbəti boyu gözləri yaşarıncayadək güldü; axırda göz yaşlarını silib dedi:

– Aadə... bu ola bilməz! Yəni mənim dostum Cavad belə ölüvay olub ki, bir əməlli cavab tapa bilməyib?

Şirin də gülürdü, o sevinirdi ki, Ağanı qəm dəryasından qurtarıb:

– Cəddüvə qurban olum, Ağa, dayı pulu alandan sonra nə söz? Elə onunku da oracanmış da...

Hər ikisi güldülər... Şagirdlər bir-bir, iki-bir həyətə daxil olmağa başladılar. Uşaqların bəzisi yaxşı geyinmişdisə də, çoxunun üst-başı köhnə və nazik idi. Şair bunların bir az da əvvəl içəri girib qızına bilmələri üçün Şirinə işarə verdi, qapını açdılar. Uşaqlar salamlaşıb ədəblə sinif otağına daxil oldular. Müəllim bəzən onların birini daha da canlandırmaq üçün başını tumarlayır, zarafatla soruşurdu:

– Aadə... Ələsgər, bala, nə imam cücəsi kimi büzüşmüsən?

– Ağa, vallah, gələnəcən gözümün içində giləsi də dondu...

– Pah atonnan mübaliğə yiyəsi...

...Uşaqlar dərs otağına doluşdular. Hərə bir rəng, hərə bir cür varlıvarına görə geyinmişdi. Şirvandakı rus, malakan, erməni məktəbi şagirdləri kimi əyinlərində rəsmi məktəbli forması yox idi. Bəzisinin çiyninə, ya papağına göz dəyməməkçin, gözmuncuğu, hansı bir mollanınsa yazdığı pitik-nəzər duası, dağdağan ağacı parçası tikilmiş, bəzi nəzirli "Əli qulunun" sağ qulağı deşilib oraya bir tay "Heydəri" sırğa da taxılmışdı – "Qulluq tanası – deyə şair düşündü... Görəsən bizim uşqolumuz da əsil məktəb siması alacaqmı, eh, necə deyərlər şükür Xudanın kəramınə, buna da şükür..."

Müəllim dərsə başladı:

– Övladlarım, ata-ananız sizə daima öyrədir ki, hər bir işə başlayanda "bismillahirrəhmanirrəhim" deyin, Allahın adı ilə başlayın!.. Bu nə deməkdir?

...Məktəbin yanından ötənlər arabir dayanır, Ağanın şagirdlərə nə öyrətdiyinə, nə təlim verdiyinə qulaq asardılar. Bu gün buradan keçən Qapaqlı Hacı Əsəd idi. O, ağanın bu ilk sözlərini eşidincə dayandı: "Aha, deyəsən, ağla gəlib? Bir də uşaqlara nə öyrətməlidi ki, görək!.."



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O ayaq saxladı, dərsxananın qapısı dalına keçib huş-guş ilə qulaq asmağa başladı; içəridən müəllim deyirdi:

– Hər bir işə Allahın adı ilə başla, yəni doğruluqla, dürüstlüklə başla, heç kimi aldatma. Əgər sən tacirsənsə, işə Allah adı ilə iqdam edirsənsə, gərək xam bir tərəkəməni beş arşında üç çərək sürüşdürüb aldatmayasan! Əgər baqqalsansa, xam şəhərlini aldadıb batgəni bal əvəzinə ona sırıtmayasan. Bütün bunları eləyən adam istər bismillah dedi, istər demədi, bir faydası yoxdu... Namaz-orucu yerinə yetirdi, ya yox, bimənadı... İnsan savab işlər görməli, heç kəsi aldadıb dövlət yığmamalıdı. Bizim həmvətənimiz olan şairlərdən Kərbəlayı Arif Allahi buyurubdu:

> Kafərəm dünyayi-mafiyhayə gər meyl eyləsəm,
> Xanlığa, sultanlığa, rəğbət məgər adəm qılır?

İnsan olan heç kəsə alçalıb, var üçün, dövlət üçün nücəbalara boyun əyməməlidi. Hər şeyə Allah adı ilə başlamaq o deməkdi ki, yəni hər bir işə düzlüklə iqdam elə, xəyanətlə yox... Ürəyində Allah xofu, yəni iman, etibar, sədaqət, düzlük olsun......Yoxsa ki, hər dəqiqə bir "bismillah" deyib, salavat çevirməklə başqalarını aldadan, ribaxor, təməkar, rəngü hənadan təravət tapmış qırmızı saqqallı yalançı möminlərdən olma!

"Bismillah" sözü hacının döşünə yatmışdısa da, burdakı bəzi təlimat heç onu tutmurdu. Tacir olasan, xam tovlamayasan? Bəs sonra Allahdan hansı günahlarını bağışlamağı xahiş edəcəksən? Qıldığın namaz, oruc tutmağın, ehsan verməyin nə üçündür? Bu, dünyadı... Burda aldadırsan da, aldanırsan da. Sonra tövbə eləyib bağışlanırsan da!.. O şairin şaha-sultana boyun əyməmək haqqındakı sözlərini eşidib ürəyində deyinə-deyinə yoluna düzəldi: "Hə də, hökumət əleyhinə bundan aydın nə demək olar? "Padşah yer üzündə Allahın kölgəsidi, padşahına ağ olan, Allahına da ağ olur", "Amma gör bir bu, uşaqlarda indidən nə təlim eləyir??? Yox, bunu cənab pristova yeri düşəndə çatdırmaq borcumdur".

...Məktəbdə isə müəllim sözünə davam edirdi.

– Övladlarım, sizə ən birinci vəsiyyətim budu ki, elm öyrənin, əgər birisi sizə desə ki, dünya elmlərini öyrənmək günahdı, ona inanmayın! Quranın özündə peyğəmbər "Taha" surəsində deyib: "Ya rəb, elmimi artır" və yenə bilin ki, insanın gözəlliyi geyiminin bəzəyi ilə deyil, elm və ədəbindədir. Elmli və ədəbli olun! Öz ata-babanızın xan və ya ağa olmağı ilə lovğalanmayın. İnsanı şərəfləndirən onun elmidir:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Əşşərəfü bilfəzli vəl ədəbi la bil əsli vənəsibi"[1]. Bilin ki,dünyada dörd şey insanı kamala yetirər: doğru söz, yaxşı əməl, gözəl xasiyyət və həqq olan elm! Ulular buyurublar ki, dörd şey insanı xarü zəlil elər: başqasının pisliyinə danışmaq, başqasında eyb axtarmaq, həyasızlıq və yalan danışmaq. Yadınızda saxlayın ki, üç şeyin axırı üç şeydir: bihudə mübahisə etməyin axırı – rüsvayçılıqdır, qeyz və qəzəbin axırı – peşmançılıqdır, bədguluq və paxıllığın axırı – bədbəxtlikdir.

Övladlarım, yer üzünün ən şərafətli xilqəti insandır. Əsil insan üçün din ayrılığı, millət ayrılığı nöqsandır. Hər kəs neçə dil bilirsə, o qədər sayda da insan olar. Rus, firəng və ya başqa dilləri bilmək günah deyil. Bu barədə sizə bir nəzm oxuyacağam; sonra da onu bugünkü yazı dərsimizdə dəftərinizə köçürüb, gələn dərsimiz üçün əzbərlərsiniz.

...Demirəm mən gedən təriq ilə get,
Əqli tut, ol gözəl rəfiq ilə get!..
Demirəm rus, ya müsəlman ol,
Hər nə olsan, get, əhli-ürfan ol!
Demirəm sünni ol və ya şiə,
Tək hədər olma tiri-təşniə.
Demirəm şeyxi ol və ya babi,
Hər nə olsan, tək olma qüllabi!..
Cəhd qıl neməti-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş.
Ey oğul, hər lisanə ol rağib!
Xassə ol rus elminə talib,
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur.
Nə ərəbdir xuda, nə rum, nə zəng
Nə həbəşdir, nə zəngibarü firəng.
Xah Boq, xah Tanrı, xah Xuda
Birdi mənada, ey düri-yekta!..

Yaxşı ki, Hacı Əsəd bunu eşitmirdi, yoxsa bu gün bazara təzə bir "vaveyla" düşəcək idi...

***Nuri-didəm ağa Tərlan!***

*Qiymətli məktubun və uşqol üçün ianən vüsul oldu. Kərbəlayı Vəli vasitəsilə göndərdiyim şüştəri qələm və qələmdan qayətdə müvafiq gəldi. Allah səni bacardıqca xoşbəxt eləsin. Belə yazmağıma təəccüb edəcək-*

[1] İnsan nəsəblə deyil, elm və ədəblə şərəflənər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*sən, deyəcəksən necə yəni "Allah bacardıqca?.. Böyük pərvərdigari-aləm rükni-kainatdır, ol deyib olub, yox ol desə künfəyəkun olacaq, əli üstə əl yoxdur"... Və leykin bəradərim, mən də insanın və məxsusən sənin təbiətinə balədəm; bilirəm ki, sənin suzişli qəlbinlə nəüzənbillah yazdən da bacarmaz. Sən hətta öz ağlının da deyil, qəlbinin əsirisən. Nə eyləsən, özündən ki qaça bilməyəcəksən. İnsanın ən böyük bəlası və (nə qədər təəccüb görünsə də) səadəti öz könlüdür. İstəyi dalınca qaçan insanın öz-özünə elədiyini, heç yüz düşmən də yığılsa eləyə bilməz. Fars gözəl deyib: "Cane-mən, xod kərdəi, xod kərdəra tədbir nist"[1].*

*Bu bəlanı sənin başına zəmanə gətirmişdi; leykin bimürüvvət dövrandan zərbi-səng alan tək bir sən deyildin ki!.. Başqaları kimi sən də ata-ana rizasına boyun əyə bilərdin, istəmədiyin, lakin halal süd əmmiş birisinə evlənərdin, zəmanəyə saz olardın. Cəlayi-vətən olmazdın. Amma sən bunu etmədin, edə bilməzdin, ey-Məcnuni-əsr, sənin nakam məhəbbətini qələmə almaq üçün Xaqani qələmi, ixtiyari-Bağdadın ilhamı gərəkdir, mən nəkarəyəm...*

*...Müqəddiməmdən heyrət etmə, bu bir neçə gündə cənab Mahmud ağa ilə görüşəndə onunla, tək olanda qəlbimdə səninlə məhz səndən söhbət etmişəm. Odur ki, elə bilirəm həmin müsahibəni genə də, əlimə qələm alan kimi davam etdirdim.*

*Mehriban qardaşım, şəhri-Şirvanda bu saat sənə yazılması qabil elə bir xoş xəbər yoxdur. Cənab Mahmud ağanın bir bibisi qızı var idi, Güllübəyim namında, mərhum Molla Babanın yanında bir neçə il Quran və sonra da "Gülüstan" dərsi almışdı. Bir neçə il əqdəm bəndə Həccdə olan vaxt bir balaca mollaxana açmışmış. Məhəllədən bir neçə qız uşağı da toplamışmış. Əvvəlcədən onu da Şamaxıda onlara mövcud olan mollabacı mollaxanalarından bilib "ədəb-ərkan" sahibi valideynlər qız uşaqlarını çərəkə dərsi öyrənmək üçün onun yanına göndərirlər. Sən demə Güllübəyim bacı dərsləri öz anladığı, öz məzağı qaydasıncan qururmuş. Qurandan dərs deməkdən sivay, bədbəxt vətənimizin biçarə qızlarına qələm tutmuq, yazmaq təlim eləyir, Füzuli divanından, bayatı-mahnı sayağında xalq əşarından, dünyanın gəliş-gedişatından, evdarlıq vəzifələrindən də başa salırmış. Qızlara oxumaq-oynamaq kimi uşaq məzağına yaxın oyunlar da təlim eləyir və ev işləri, tikiş-mikiş də öyrədirmiş... Uşaqlardan haqq almadığına görə, bir neçə tavanasız da öz uşağını bu mollaxanaya vermişmiş, biz kişilərdən, yaxşı, füqəra*

[1] Ay canım, özün eləmisən, özü eləyənə çarə yoxdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*balalarını müft-müsəlləm oxudurmuş. Bu işi sənin "müqərrəb dostun" Molla Qurbanqulunun qapıbir qonşuluğunda baş verdiyindən, onun zənəni yanında dərs oxuyan uşaqlardan çoxusu Molla məktəbini tərk edir. Bu da cənab mollanın cibişdanına zərbə vurur. Biçarə Güllübəyim "qız uşaqlarını yoldan çıxarır, dayısı oğlunun məclisləri üçün çəngi hazırlayır, mütrüf qayırır", – deyib, müsibətə saldılar. Qurbanqulunun fitnəsi ilə, arvadlar onu o ki var döyürlər, ara yerdə yazıq biçarə sərçə Bağı bətfanəyə getdi. Sən demə o boyda məhəllədə köməksiz arvada qahmar çıxan bir kişi tapılmayıb, Sərçə Bağıdan qeyrəz. Güllübəyimə vurulan zərbələrin çoxu ona dəyib, özün sipər eləməyinə görə, ömrünü sənə bağışlayıb.*

*Bu xəbəri sənə yazmaqda qəsdim özgədi, istəyirəm biləsən ki, bizim Vətən oğulları haqqında düşündüklərimizi, sən demə, ana və bacılarımızdan basəvad, gözüaçıq olanlar qızlarımız haqqında da düşünür. Deyirəm ay yazıq-biçarələr, hələ biz kişi ola-ola, sizə nisbətdə imkanımız daha çox ola-ola bir iş qayıra bilmirik. Açdığımız uşqola az qalır daşqalaq olsun, göz aça bilmirik, siz nə xəyaldasız? Digər tərəfdən bütün faciəli nəticəsinə baxmayaraq, bu məsələ məni bihədd sevindirdi, qardaşım! Deməli biz tək deyilik. Ana və bacılarımızdan da bizim kimi düşünənlər var. Və nə qədər ki "vəkili-millət"*[1] *deyişkən ana və bacılarımız lazımınca tərbiyə tapmayıb, onların doğub böyütdüyü övlad da bitərbiyə və avam olacaq. Və biz səy etməliyik ki, bizim ana və bacılarımız, xüsusən qızlarımız heç olmazsa ata evində bir lazımi tərbiyə görsünlər, oxuyub-yazmaq öyrənsinlər.*

*Mehribanım ağa Tərlan, şəhri-Şirvanın bir qism təzə fikir şairlərindən, bəndənin curları da o cümlədən bir ədəb məclisi tərtib etmək xəyalına düşmüşük. Cənab Molla Ağa Bixud, cənab Qafar Rağib, cənab Əliəkbər Qafil, cənab Molla Mahmud, cavanlardan Məhəmməd "Səfa" təxəllüs və qeyriləri. Bir yerdə məclis tərtib edib, sələflərimizin və öz əşarımızdan oxuyub fikir mübadiləsi aparmaq, öyrənib-öyrətmək kimi məsələlərlə məşğul olacayıq. Yerin məlum. Baş tutsa fikrimiz gözəl xəyaldır. Nəticə versə sənə yazaram.*

*Dostlardan sənə bihədd salam və ehtiram.*

***Müxlisin Seyyid***
***fi 10 rəbi sani sənə... filan...***

[1] M.F.Axundov



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Hekayətimizin lap əvvəlində Bəzzazbazar tacirlərindən mərhum Hacı Hüseynin oğullarının adını çəkdik. O zaman atadanqalma dükanı üç qardaşın böyüyü İsmayıl dolandırırdı. Ailədə Qara adlandırılan Məhəmməd isə hələ uşaq idi. Məktəbə gedirdi. Sizinlə qərarlaşdığımız kimi bir zaman Hüseynin oğlanları ilə tanış olacaq idik, axı bu ailənin Seyyidin taleyində, Bəzzazbazar həyatında rolu böyük olub, hekayətimizə bilavasitə dəxilləri vardır. Xüsusilə indi! Bu elə zamandır ki, artıq Məhəmməd böyüyüb, məktəbi bitirib, Şirvan bulaqlarından su içən cavanların bir çoxu kimi arabir şeir deməyə, qəzəl yazmağa başlayıb. Özünə "Səfa" təxəllüsü seçib. Yaşca Şirvan şairlərinin ən kiçiyi olsa da, şair və ziyalılar içərisində bəyənilir və sevilir. Qəribə taleyi var Səfanın. İndi biz Səfa və onu əhatə edənlərlə tanış olmaq üçün onların evinə getməliyik. İcazə verin əlinizdən tutum, mənə dayaq olun, bu həzin və fəci taleyin səhifələrini çevirməyə başlayaq.

## "BEYTÜS-SƏFA"

Bir neçə gün idi ki, Xanımsoltan Məhəmməd ilə təkbətək danışmaq, İsmayılın, Vəlinin sözlərini ona çatdırmaq, sonbeşiyinə öyüd-nəsihət vermək istəyirdi.

...Arvad çay süfrəsini hazırlayıb oturdu, sözlü adamlar kimi oğlunun üzünə baxırdı. Məhəmməd çayı içib qurtardıqdan sonra yerindən qalxmaq istədikdə ana qoymadı:

– Qara, (o, uşaqlıqdan Məhəmmədi Qara adlandırırdı) sənə sözüm var, hələ bir otur.

Qara Məhəmməd əyləşdi. Onun da anasından xahişi var idi. Bir neçə gün idi ki, bu xahişini anası vasitəsilə böyük qardaşı İsmayıla çatdırmaq istəyirdi. İndi birdən yadına düşmüş kimi gülümsədi:

– Nə yaxşı oldu, məmə, mənim də elə sənə deyəsi sözüm var. Əvvəl sən başla...

Arvad əlini çənəsinə apardı, sığalladı, bir qədər düşündü, elə sözlər tapmaq istəyirdi ki,bunlar oğlunun qəlbinə dəyməsin: "Hələ lap uşaqdı axı, kövrəkdi, atasız böyütmüşəm yetimimi. Sağır kimi şeydi, necə deyim ki, qəlbinə dəyməyim?" – deyə düşündü. Sonra qət etdi:

– Oğul, səndən qulağıma hərdənbir xoşagəlməz şeylər dəyir! Axı sən mənim istəkli balamsan. Gərək elə eləyəsən ki, mənim də zəhmətim hədər getməsin...

Məhəmmədin üzü ciddiləşdi:

– Nə olub ki, məmə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Can məmə, İsmayıl da, Vəli də deyirlər ki, dükəndə əməlli işə yapışmırsan, irağ-irağ veyillənirsən. Sən qardaşlarından incimə, onlar səni istəyib deyirlər.

– Neynəyim, məmə, axı bu alış-verişdən heç xoşum gəlmir, heç ürəyimə yatmır. Gərək elə hamı tacir olar? Atam, babam. Elə qardaşlarım onların yoluynan gedir, bəsdi. Dayı mən də gərək elə bu yolnan gedəm? Vallah, məmə, heç ürəyim tutmur alış-verişi!

Ananın dodaqları əsdi, mehribanlıqla deyilən bu dəlillər qarşısında söz tapa bilmədi: odur ki, tuta-tutmaza dilləndi:

– Axı, maşallah, namxuda, böyük oğlan olmusan, yaşın igirmini addayıb, evlənən vaxtındı. Gərəkməz ki, bir işin başına çatı salasan? Bir sənətin ucundan yapışasan? – Onun səsi titrədi. Bu hal Məhəmmədə çox təsir elədi:

– Haqlısan, məmə, neyləmək olar. İstədim, istəmədim gərək elə qardaşlarımnan işləyəm dükəndə. Ayrı bir sənət öyrənməyim keçdi. İndi de görüm daxı nə eşitmisən?

Arvad yenə də sözünü necə başlayacağını bilmədi, duruxdu:

– Day nə olacaq?

Məhəmməd anasına yaxın çəkildi, onun nazik çiyinlərindən qucaqladı, lap uşaqlıqda olduğu kimi, üzünü onun yanaqlarına sürtdü:

– Yox, məmə, görürəm ki, sözün hələ qurtarmayıb. De görüm dərdin nədi? Mən heç razı ollam ki, sən dərd çəkəsən?

Ana xəfifcə gülümsədi:

– Yaxşı, qoy deyim, bir də deyirlər ki, ona-buna qoşulmusan, nə bilim hardasa yığışırsız, şeir-meyir deyirlər, nə deyirlər ondan oxuyursuz. Dilim-ağzım qurusun, hələ deyillər çaxır içirsiz. Elə ona görə də sən evə gec qayıdanda bağrım çatlayır. Deyirəm görəsən hardadı, kimnəndi? Allah eləməmiş, başında nə var, kimə qoşulub?

Məhəmməd sözün belə yerə gəlib çatmasına sevindi, bu vəziyyət ona istəyəcəyi şeyi söyləmək imkanı verirdi:

– Can məmə, vallah, əgər özün kimlərnən oturub-durduğumu bilsən, yerdən göyəcən razı qalarsan.

– Kimlərdi ki?

– Bax, biri Hacı Seyid Əzim Ağa...

Arvad diksindi, söz ürəyinə yatmışdı, bu addan, seyid-peyğəmbər övladından o heç bir ziyan gözləməzdi, əksinə Seyid Məhəmməd ağa ilə Kiçginə xanımın oğlu, bütün şəhərin "Ağa" deyib hörmət etdiyi bir adamın, onun balaca oğlu ilə oturub-durması ananın qəlbində bir fərəh oyatdı, eyni zamanda inana da bilmədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bıy, cəddinə qurban olum onun, ay oğul, yəni düzün deyirsən? Qara, o sənin tay-tuşundu ki, oğul? O hara, sən hara?

– Məmə, o şairdi, müəllimdi, dərs deyir. O qədər mənim kimi cavanlar gedib ondan elm öyrənir ki, sayı yox, hesabı yox... Mən də ondan dərs alıram...

– Mollaxanada oxuduğun bəs eləməyib? Tacir babasan, haqq-hesabını bildin, day sənə nə lazımdı?

– Bax, məmə, mollaxanada oxuduğum mənə bəs eləmir, ona görə ki, mən də şeir yazıram. Elə ağadan da şeir yazmaq qaydalarını öyrənirəm. Bircə bu arzuma toxunmayın, nə istəsöz elərəm. İndi qaldı səndən xahişim.

– O nədi?

– Biz bir neçə cavan şair, hər axşam yığılırıq ya Ağanın, ya bir başqamızın evinə, orda şeir oxuyuruq, qayda öyrənirik, təzə şeir yazırıq. Lap sənin döşünə düşən bir mərsiyə də yazacam, Allah qoysa, bu məhərrəmlikdə verəcəm rozəxan Məşəd Bağıra oxuyacaq...

Fərəhdən arvadın ürəyi atlandı:

– Sən Allah doğru deyirsən, Qara?

– Məməm canı... Bağışladacam dadaşımın ruhuna...

– Allah ömrünü uzun eləsin, bala, cavan Əliəkbərə bağışlasın səni...

– Elə cənab Əliəkbərin şənində yazacam, məmə...

– Nə deyirəm, Allah köməyin olsun...

– İndi istəyirsən ki, axşamlar evə gec gəlməyim, həmişə də, gündüz – bazarda qardaşlarımın, gecə də sənin gözünün qabağında olum, onda izin ver, bizim evdə yığışaq. Bu da bircə xahişimdi ki, İsmayıla de, razılıq versin. De ki, özü də istəsə gəlib oturar, şerə, elmdən, ədəbdən danışılan söhbətlərə qulaq asar...

– Yaxşı, Ağa özü də bizə gələcək?

– Bəs necə?

– Amma heç inanmağım gəlmir ki, o yerdə kişi, o hürmətdə adam sənə baş qoşub, uşaq-muşağa qoşula... Bir də ondan bəzən elə sözlər danışırlar ki... Guya şəhərin mütəşəxxis adamlarına, mollalarına, dəyən söz qoşur...

Məhəmməd gülümsədi:

– Sən Ağanı tanımırsan, məmə! O elə gözəl adamdı ki, elə yaxşı insandı ki!.. Sən deyilənlərə qulaq vermə! Onun haqqında kim nə desə, inanma, düşmən qayırmasıdı! O hər kimə söz qoşursa, acıqları tutur, özü də təkcə pis adamları, zalımları, yetim malı yeyənləri, yalandan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

özünü ruhani göstərənləri biyabır eləyir... Onlar da arada-bərədə Ağanın dalınca danışırlar... Hə, nə deyirsən, ana, razısan? Gələr, özüm qulluğunda durram, onda qapının dalından baxarsan, lap istəsən qulaq da asarsan! Görərsən biz cavan şairlərə necə nəsihətlər eləyir: Deyir: elm oxuyun, kamallı, ədəbli olun, məzlumlara rəhm eləyin, heç kəsi aldatmayın...

Bütün bunlar ananın ürəyindən olan sözlər idi. Həm də Qara həmişə gözü önündə olacaq, hər gecə ondan sarı nigarançılıqdan yuxusu ərşə çəkilməyəcək... Söhbət ananı sakitləşdirdi və bir qədər də fərəhləndirdi. "Hacı Seyid Məhəmməd ocağından Kiçginə xanım kimi saleh arvadın döşündən süd əmmiş adamdan balama ziyan gəlməz".

– Yaxşı, Qara, mən bu gün günorta namazına gələndə İsmayılnan danışaram.

Məhəmməd təkid elədi:

– Yox, məmə, danışaram yox ey!.. Söz ver ki, razı salacaqsan.

Ana qaraca balasının başını qucaqlayıb alnından öpdü:

– Yaxşı, yaxşı, razı sallam! Amma sən də bax, sözünün üstündə dur ha! İsmayıla yaxşı kömək elə, o da səndən narazı olmasın. Namazını da keçirtmə bugünkü kimi. Di tez ol, qaç dükənə, ağrın ürəyimə, İsmayıla de ki, məməm dedi, günorta namazını evə gəlsin...

Onlar bir də qucaqlaşdılar, gülə-gülə ayrıldılar...

Əgər Xanımsoltan bu razılığın, bu qucaqlaşmanın nəylə nəticələnəcəyini bilsəydi, diri-diri öz ətini kəsib itlərə paylar, ac canavar kimi ulayar, amma bu razılıq kəlməsi dilindən çıxmazdı...

...Xanımsoltan hazırlığını gündüzdən gördü. Qaynı qızı, Qaranın göbəkkəsməsi Qəmzəni köməyə çağırdı, ev-eşiyi səliqəyə saldı. Onlar təmiz süpürülmüş və döşənmiş qonaq otağına divarboyu nimdərlər, mütəkkələr düzdülər, qatlanıb üstünə mələfə çəkilmiş yorğanlar saldılar. Qəmzə, Xanımsoltan əmdostunun xırda əl-ayaq işlərini görüb qurtarandan sonra çıxıb getdi. Qız evə bəzək verdikcə, ana, ürəyində onu oxşayırdı: "O gün olsun evimi sənin gəlinliyin, toyun, gərdəyin üçün bəzəyim, bala, Allahdan diləyim budu. Çox göbəkkəsməyə qismət olmayan baxt sizə qismət olub: qaraca balam dərdindən dəli-divanadı, yaxşıca bilirəm".

Qız gedəndən sonra arvad xörək-çörək hazırlığı gördü, qonaq otağına çıxan, taxçanın dibindəki kiçik oyuğu bir az genişlətdi, içindəki mücrünü yana itələdi və pərdəni elə çəkdi ki, içəridəki hər şeyi görüb, danışanları eşidə bilsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axşam namazından sonra evə əvvəlcə oğlanları qayıtdı. Az keçməmiş qonaqlar gəldi. Bunlar Seyid Əzim, Mollağa Bixud, Qafar Rağib, Ağababa Zühuri, Əliəkbər Qafil, Ziya, molla Mahmud Zui idi. Qardaşlar ayaq üstə durub qonaqlara yer göstərir, Xorasan kürkü, əba və qəbaları, çuxaları alıb yan otağa ötürürdülər. Məclis yerbəyer olan kimi, ayağı sevincindən yerə dəyməyən və məclisdəkilərin ən cavanı olan Məhəmməd, qaynar samovarı içəri gətirdi. Otağın ayaq tərəfində sini üstünə qoydu, çay dəstgahını Vəli gətirdi, qardaşlar qonaqlardan aşağı tərəfdə diz üstə əyləşmişdilər. Samovarın yanında isə Məhəmməd özü oturub, çay süzür və Vəli, fincanları qonaqların qarşısına düzürdü.

Yuxarıbaşda Seyid Əzim əyləşmişdi. Onun sağ və solunda Rağib, Bixud və başqaları əyləşmişdi. Məclis əvvəlində adi bir qonaqlığa bənzəyirdi, çay içildi, ətirli mütəncəmplov yeyildi, süfrə yığıldı, hətta salavat çevirib, ev sahibinin ruhunu yad eləyən də oldu. Bütün bunlar sər-sahmanını qurtarandan sonra "öz müşahidə məntəqəsini" tutmuş Xanımsoltanın ürəyindən idi: "Şükür sənə Xudaya, balalarım uşağ-muşağa, gədə-güdəyə qoşulmayıb, ağlına qurban olum, Qara, gör özünü bir necə yetirib ki, bu cür ağır-ağır kişilər, atası yerində adamlar onunla oturub-durur, sayır, evimizə gəlirlər".

Dəstərxan yığılandan sonra ilk sözə Seyid Əzim başladı:

– Ağaların icazəsi ilə iki təklifim var...

Yerbəyerdən səslər ucaldı:

– Buyur, Ağa...

– Söz cənabınındı...

*Seyid Əzim yerində doğruldu, bardaş vəziyyətini dəyişib diz üstə* əyləşdi. Hər iki əllərini adəti üzrə dizlərinin üstünə qoyub aramla sözə başladı:

– Təklifimin birincisi ağa İsmayıla aiddi.

İsmayıl gözlərini Ağaya dikib nə deyəcəyini gözlədi, şair sözünə davam etdi:

– Cavan bəradərimiz Məhəmmədin xastkarlığı və ağa İsmayılın razılığı ilə biz hər gecə də olmasa, həftədə bir neçə dəfə bu möhtərəm xanə sahiblərini narahat edəcəyik...

– Heç bir narahatlığı yoxdu, Ağa, öz evinizdi, nə zaman buyursaz...

– Çox sağ ol, ev yiyəsi sağ olsun. Təklifim budu ki, hər dəfə bugünkü hazırlıq görülməsin, əvvələn bu bizi xeyli xəcalət elər...

Rağib, Zui, Bixud və başqaları da bu sözə səs verdilər:

– Doğrudur, doğrudur...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Birimci dəfə eyb etməz, amma həmişə...

– *Ağa düz buyurur. Çaydan başqa, başqa yığıncaqlarımızda* ayrı bir hazırlıq görülməsin. Yoxsa narahatlıq və izafə xərcə səbəb olub xəcalət olluq və mehmannəvazlığınızdan artıq istifadə edə bilmərik.

Seyid Əzim sükut hasil olmasını gözlədi və sözünə davam etdi:

– Həm də ağa İsmayıl bizi pis öyrədər, – o gülümsədi, – mədəmiz belə ləziz təamlara adət elər, evdə də bunlardan istərik, verməzlər, üz tutarıq evinizə. Sədi rəhmətüllah buyurub ki:

Mehman kərçi əzizəst və lakin çu nəfəs,
Xəfə misazəd əgər ayədü birun nə rəvad[1].

– Bizim heç birimiz də ki, mehman olmaq arzusunda deyilik.

Məclisdə gülüşmə baş verdi. Seyyid yenidən sözünə davam etdi:

– Belə bilirəm ki, ağa İsmayıl bəradərim sözümüzə qol qoyar...

İsmayıl dilləndi:

– Necə əmr eləsəniz, elə də elərik, Ağa; təki siz narazı olmayın. Amma bizim üçün şərəfdi, sizin gəlməyiniz və sizə xidmət...

– Çox əcəb! Bunu bilirəm, nəhayətdə də səndən razıyam. Demək, bu birinci təklifim qəbul olundu: çay vəssalam! İkinci təklifim: Ağalar! – O, məclisə göz gəzdirdi, hamını nəzərdən keçirdi, çox ciddi və böyük bir arzusunu söyləyəcəkdi, bunun üzlərdə necə əks olunacağını bilmək istəyirdi. – Bu gün çox böyük və tarixi gündü. Biz şeir məclisi, ədəb və ədəbiyyat məclisinin əsasını qoyuruq. Biz burda təzə qəzəllərimizi oxuyacağıq, böyük ustadlarımızın, bizdən əvvəl ziqiymət xəzinələr qoyub gedən sələflərimizin kitablarını, divanlarını oxuyacağıq. Bəlkə bizim bu məclisimiz başqa şəhərlərin şairləri üçün də ülgü olacaq. Odur ki, məclisimizə bir ad verməyi təklif edirəm. Məsləhətçün deyirəm: məclisimiz qəlbə-ruha qida və səfa verən bir mövqe olduğu üçün gəlin onu, cavan bəradərimiz Məhəmmədin təxəllüsü olan Səfa adı ilə adlandıraq. Onun evində yığıldığımızdan, məsələn, "Beytüs-Səfa" adlandıraq. Necə bilirsiniz?

Hamı bayaqdan bəri, ilk başlanğıcın ciddiyyətini dərk etdiyindən huş-guşla şairi dinləyirdi. Söz bu yerə çatanda məclisdəki şairlərin üzündə bir razılıq ifadəsi göründü:

– Əcəbdi...

– Mübarəkdi...

---

[1] Qonaq nəfəs kimi əziz olsa da içəri daxil olduqdan sonra çölə çıxmasa adamı boğar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gözəl addı...

– Deməк, ikinci təklif də razılıqla qəbul olundu.

İsmayıl və Vəli dönüb qardaşlarına baxdılar. Məclisin ayağında oturmuş Məhəmmədin üzündə sevinci görmək olmurdu; onun qarayanız siması elə qızarmışdı ki, bilmək olmurdu, utanır ya sevinir.

Seyid Əzim isə deyirdi:

– İndi isə gəlin ilk şeir məclisimizi böyük sələfimiz və həmvətənimiz Xaqaninin "Xərabəhayi-Mədain"ini oxumaqla başlayaq, sonra ustadi-qəzəl Füzulidən bir qəzəl seçib, gələn məclisimizdə ona yazdığımız nəzirəni oxuyarıq. Bundan başqa gələn məclis üçün hərəmiz öz təklifimizi söylərik: həftədə neçə dəfə yığışırıq, nə oxuyuruq, zəmanəmizin hansı tanınmış şairinə məclisimiz haqqında xəbər yazırıq və onlarla nə kimi əlaqə saxlayırıq...

...İlk məclis şurlu keçdi. – "Xərabəhayi-Mədain"dən oxunan parçalar nəsrən tərcümə və təhlil olundu, nəzirə üçün Füzulidən qəzəl seçildi.

...Taxçanın o biri tərəfində çətin başa düşdüyü söhbətləri mürgü döyə-döyə dinləyən Xanımsoltan bir ara anlamadığı dildə oxunan şeri mərsiyə hesab edib doluxsunmuş, ağlamış, mənasını eşidəndə "qəbrin nurnan dolsun, a bunu yazan" demiş, sonra da rəhmətlik əri Hüseyni xatırlamışdı: "Ay rəhmətlik, tez köçdün dünyadan, görmədin balalarının bu ağ gününü, Allah ruhunu şad eləsin, ay behiştlik. Mən ki, səndən bir ağır söz eşidib, acı yumruğ yeməmişəm. Elə maşallah, namxuda, balaların da özün kimidi, torpağın sanı yaşasınlar, yerində bərqərar olsunlar, ay Hüseyin" – demiş və yorğun qadın məclisin axırına doğru artıq şirin yuxuya getmişdi. Bu gecə onun ana ürəyini narahat eləyən heç bir səbəb yox idi. Balaları möhtərəm ağsaqqalların məclisində, öz evində, qulağının dibində, səhih-salim idilər.

...Gecə şairlər evlərinə dağılışanda yerə ilk qar düşmüşdü. Quru kolların üstünə nazik qar tütəmişdi. Təzəcə çıxan bədirlənmiş ayın soyuq işığında quru kollar incə ağ çiçəklər açmış kimi görünürdü...

...Onlar Cavadla birlikdə Bəzzazbazar başındakı nəhəng daşın üstündə, ağac altında oturub söhbət edirdilər. Cavad ona Abid əfəndidən danışırdı...

– Qardaş, səni and verirəm mabeynimizdə olan dostluğa, mənə düzünü danış, yoxsa bilirsən ki, burda məzhəb ayrılığı, təriqət ayrılığı olduğu üçün bir kəlmə də yalanı olmasın gərək.

Cin Cavadın daima qığılcımlar oynayan gözlərinə dərin bir kədər qondu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç gözləməzdim, Ağa! Məgər mən səni bəlaya salan işə iqdam elərəm?.. Mən ölümümə razı ollam, amma sənin ayağına daş dəyməsinə yox!.. Düzü budur ki, sənə danışdım, özüm öz gözlərimnən görmüşəm. Sarı Balarəhim əfəndinin oğluynan getmişdim. Üstümdə bir cüzvi dəyişiklik elədik. Məni də müridliyə qəbul eləyən kimi qələmə verib apardı. Şıxın qulluğuna, axşamçağı... Sonra da daha nə deyim, sən demə hər gecə yazıq, binəva, başı qəflətdə piylənən kəndlilər; təzə "pir çıxıb, şıx çıxıb" deyənlər, hər təzə pirdən, şıxdan ümid gözləyənlər arvadlarının, qızlarının əlindən tutub gətirirlərmiş o xarabaya... Dəsgahdı din adına! Nə deyim sənə?!.

Şairi həyəcan qaplamışdı:

– İncimə, Cavad! Mən sənin sədaqətinə əminəm, mənə qürbətüvü də bilirəm, billah! Amma başqa şey olsa, şübhə eləməzdim. Burda gərək səndən də ən səhih xəbəri öyrənəm. Mənə bu barədə də çoxları danışıb, lap əvvəl əldə Qırmızı Qulam danışdı, ondan sonra da Hacı Qədir... Daxı əməlli xatirimdə qalmayıb, deyəsən, cənab İsgəndər bəy də, cənab Mahmud ağa məclisində baməzə bir şəkildə bu qəziyyəni nağıl elədi... Bəli, yazıq millət, bədbəxt camaat...

– Elədi, bədbəxt camaat! Özü də sən ölməyəsən, Ağa, özüm ölüm, bir dənə də dövlətmənd kişinin arvadı-qızı ora qədəm qoymur. Qoymazlar da gəlsin! Özləri isə gəlirlər! Fırıldağın elə yekəliyi də ondadı ki, hər şeyə inanan fəqir-füqəranı, din-Allah adı ilə tovlayıb yoldan çıxarır, əxlaqlarını pozurlar.

– Neynəmək olar? Cavad, özün bilirsən ki, mən həcvi tövbə eləmişəm. Heç iqdam eləməzdim, əgər bu qəziyyə məni belə götürməsəydi... Nəysə, salamat qal...

– Xoşluqla... Allaha ismarladım səni, Ağa! Bilirəm ki, düşmənlərin birə-beş artacaq...

Seyyidin gözlərində qəzəb qarışıq incə bir kinayə qığılcımı yandı:

– Düşmən bir olsa dəfini asandır eyləmək!.. Heç nəyim yoxdursa da, bu matahım boldu... Bir neçə qəvi qəhrəmana çatar düşmənim... Şair Səfi demişkən:

Əğyar cövrü, el sitəmi, yar təhnəsi –
Bəh-bəh yaxşı əppəyimiz batdı bala ha!..

Şair ürəyində yeni həcvinin hədəfini düşünə-düşünə dostu ilə təmənləşib ayrıldı. Cavad uzaqlaşan şairin ardınca baxa-baxa düşünürdü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Allah varsa, qoy səni bəlalərdən hifz eyləsin, Ağa! Bu ucsuz-bucaqsız göylərdə bir qüvvət varsa, o səni atılan daşlardan qorumalıdır! Axı sən elə onun "xəlq" elədiklərinin dərdini çəkirsən, xəlq elədikləri də səni daşa tutur. Qərəz, qəribə taleyi var Ağanın... Lap molla demişkən, nəüzbillah peyğəmbər sələvatullah kimi!.. Sözlərini o kəslərə deyir ki, ona qulaq asmırlar. Bu, bütün peyğəmbərlərin nəsibidir... Elə sən də maarifin bu əsrdə bu xütteyi-Şirvanda peyğəmbərisən...

...Şair isə həcvin ilk misralarını pıçıldaya-pıçıldaya evə tələsirdi ki, çay suları kimi rəvan-rəvan axan bu beytləri unutmasın, kağıza köçürsün:

Eyyühənnas, bilin, türfə rəvayətdir bu...
Nə riyadır bu, nə böhtan, nə zərafətdir bu...
...Şəhrdə vaqe olan əsli hekayətdir bu...

Həcv bazara ildırım sürətilə yayıldı, bomba kimi partladı... Aləm bir-birinə qarışdı... Ağız deyəni qulaq eşitmirdi. Küçə mirzələrinin, az-küç savadı olan bütün baqqalların əlində qələm, qələmdan və kağız vardı, hamı həcvin üzünü ya köçürtdürür, ya köçürürdü...

– Cəddinə qurban olduğum, nə deyib!..

– Kişi, sən öləsən, meyitüvü görüm, heç bu ömər uşaqlarını belə biyabır eləmək olmazdı ki, canına qurban olduğum eləyib...

– O it uşağına o da azdı... Heydəri-kərrarın Zülfüqarı vursun onların belindən...

– Sarıtorpaqlılar Hacımövli bulağından su veriblər Ağaya, vergidi kişininki...

– Əşi, yoxsa lap azıb yoldan çıxıblar, nə din tanıyırlar, nə məzhəb...

– Bura bax, çox da müştaq olmayın, ondan elə şey?.. Özü elə səhərdən axşamacan sünnü cahıllarıynan oturub durur...

– Kişi, dayı səni də vaxtında həcv eləyib diyə, aləm aşkar şeyi danmayacaqsan ki?.. Bir qulaq ver:

Var ona eylə müridlər ki, onu şah bilir,
Bəzilər nəhs üzün mehr sanır, mah bilir,
Bəzilər dərgəhini həqqə gedən rah bilir,
Bəzi də var ki, şeyxin özün Allah bilir,
Qəsəm ol xaliqə kim, eyni zəlalətdir bu...

Daxı bundan artıq nə istəyirsən?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəri ver görüm... – Hacı kişi həcvi alıb oxuyur, əvvəlcə maraqla, sonra acı bir təbəssümlə və nəhayət, nə isə tapmış kimi qələbə ilə qalib nəzərlərini müsahibinə, Ağanın xeyirxahlarından birinə, amma şiəlik pərəstişkarına tutub deyir:

– Elə odu ki, qulaqların da bir qarış uzanıb da!.. Bəs bu nədi, neyşə görməmisən, atam? Heç o namərbutdan Allah bəndəsinin, Əli siəsinin iyi də gəlmir! Bir qulaq as, aç qulağuvu mən oxuyum indi də sən eşit:

Şiə məzhəbləri rüsvay eləmişdi babi,
Sünnüdən həm dəxi bir şeyx çıxıb qüllabi,

Əşhədənbillah o nə sünnüdü, nə babidi, nə şayıdı... Moltanıdı...

...Dükanlardan, meydanlardan qəhqəhələr göyə sovrulurdu. Məsələnin əslini anlayanlar isə həcvə tamamilə başqa bir məna və əhəmiyyət verirdilər:

– Afərin, Ağa qiyamət eləyib, vallah, hərçənd zəhləm həcvdən gedir və bunu Şərq şerinə və Şərq şairlərinə qüsur hesab eləyirəm, amma Abid əfəndi kimisini başqa cür aradan götürmək olmazdı... Məhz belə lazım idi...

– Qardaş, yoxsa bu şarlatanları necə aşkara çıxardasan axı... Əlac elə bunadı ki, Ağa da həcv eləyib...

– Lap yerində eləyib! Din donu geymiş bu fırıldaqçılar xalqın əhli-əyalını, namusunu bədnam eləyib, yoldan çıxarırlar, hamısına da şəriət adı, din adı qoyurlar... Belə də din olar? Bunların başına dəysin bu müridbazlıq...

– Bu rüsvayçılıqdan sonra heç kəs arvad-uşağının əlindən tutub belə məclisə getməz, Ağa yaxşı eləyib! Yoxsa nəsihət yolu ilə etiqad eləyənləri bu fırıldaqçıların çəngindən qurtarmaq olmazdı...

Bunları kimin: yəni sünnü və ya şiə cavanlarının dediyi məlum deyildir, çünki bu nöqtədə ziyalı gənclərin hamısı birləşirdi. Hamısı, dost da, düşmən də, Ağaya münasibəti yaxşı olan da, olmayan da bu fikirdə idi ki, həcv yerində və vaxtında yazılıb... Bu günlərdə bazarda mürid-mürşid adı çəkən yox idi...

Həcv dillərdə, əllərdə gəzirdi, evləri, məclisləri dolaşırdı. Qırmızı Qulamın bazarı rəvac idi: üzünü köçürtdüyü, bir neçə nüsxəsini çıxartdığı "Abid əfəndi həcvini" karvançılar vasitəsilə şəhərbəşəhər, diyarbədiyar yollayır və dost-aşnalarının xidmətinə çatdırır, riyakarlara nifrət edən adamları tapıb onlara göndərirdi. Qırmızı Qulam özü də bil-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mədən, bu günlərdə ruhaniliyin ifşasına əməlli-başlı xidmət etmiş, bir neçə xırda təkyənin bağlanmasına, bir neçə molla, mürid və əfəndinin bazarının kasadlaşmasına səbəb olan həcvin görülməmiş bir sürətlə yayılmasına zəmin yaratmışdı.

...Şairin başı üzərində qara buludlar gəzirdi. İlk coşqun həyəcanlı günlər sürətlə keçdi, həcvi oxuyan qaragüruh onun mənasını, dərin əhəmiyyətini, dinə çaldığı zərbənin gücünü indi-indi anlamağa başladı və ayıldı.

Birinci günlərdə onlar həcvin məhz sünnilər, əfəndilər, mürid-mürşidlər əleyhinə yazıldığını düşünmüş, sadəlövhlərin səsinə qoşulmuşdular. Lakin getdikcə həyəcan soyuyur və əsil dindarlar başa düşürdü ki, həcv təkcə Abid əfəndini deyil, ümumiyyətlə bütün təriqətləri ifşa edir, həm də çox gülünc vəziyyətə salır, dinin kökünə balta çalır. Bu yerdə şairin düşmənləri əbədi birləşdilər. İndi onlar üçün məhz dini ifşa edən şair mövcud idi. İndi onlar bir az müddətə olsa da sünni-şiə olduqlarını yada salmadan məhz kinləri, şairə qəzəbləri ilə birləşdilər.

Molla Qurbanqulu, Qapaqlı və Alışın köhnə qəzəbləri yenidən canlanmağa başladı. Əslində onlar heç bir an da olsun şairə uymamış, onun təsirinə düşməmiş, sadəcə qınlarına çəkilmişdilər. Amma indi qaragüruh ayıldıqca onlar da qınlarından çıxıb, fəaliyyətə başlayırdılar. Bu fəaliyyət Abid əfəndinin tərəfdarlarını öz tərəflərinə çəkməkdən ibarət oldu. Məşədi Alış köhnə quldur dostlarının vasitəsilə Abid əfəndi müridlərindən bir neçəsini ələ gətirdi...

Dəstə şairi bazara çatmamış haqladı... Bunlar gözləri qanla dolmuş bir neçə cavandan ibarət idi... Bəzisinin əlində dəyənək, bəzisininkində çomaq və ya tupruq var idi. Cavanlar əsasən Şıxlar və ona simsar kəndlərdən gəlmə idilər, amma içərisində Şamaxı gənclərindən də bir neçəsi gözə çarpırdı. Dəstə on-on beşə yaxın adamdan ibarət idi... Bir-iki nəfəri nisbətən geyimli-kecimli görünsə də, əksəriyyəti yamaqlı çuxa, evdə toxunma dəvəyunu geymə və "müsəlmanı" tumanlı, beli ya qatma, ya da çit qurşaqlı füqəra idi. Elə geyimlərindən və davranışlarından da görünürdü ki, bunlar nə isə bir küyə düşüb gəliblər. Yoxsa bunların heç birisi nə qoçu, nə qolu zorlu hampa, nə də bazar bəlası kəsilmiş avara cavanlar deyildilər. İçlərindən birisi başçıya bənzəyirdi və duruxa-duruxa irəliləyən cavanlara belə görünürdü ki, o başçılıq edir, göstəriş verirdi. Cavanlar da onun dediklərini, daha doğrusu işarələrini sözsüz yerinə yetirirdilər.

– Hə, sərvaxt olun, indilərdə bura gələcəy, öyrənmişəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birdən şair bayaqdan bəri qarabaqara onu izləyən cavanı tanıdı. Bu qapaqlının dükanda işlətdiyi "gədə" idi. Ağasının tapşırığı ilə şərbafların darvazası tərəfdən enən şairi qaragüruha göstərdi:

– Odi, ey, gəlir...

...Və aradan çıxdı. Bu Qapaqlının Tərlandan sonra dükanda işlətdiyi "gədə" idi. Ağasının tapşırığı ilə bir neçə gün idi münasib fürsət axtarırdı ki, çoxdan bəri Qapaqlıya qənim kəsilmiş şairi, Abid əfəndinin müridlərinin əlinə versin. Mənafe uzlaşdığı yerdə sünni-şiə yaddan çıxmış, Qapaqlı öz sünni "həmkarları – tacirlərlə" sözləşmiş və şairə bir "dərs verdirməyi" qərarlaşdırmışdılar. Bu işə həm məhəllə mollası Qurbanqulu, həm də Abid əfəndi gizli fitva – razılıq vermişdilər. Sonralar şair, Cin Cavad və Mahmud ağa ilə seyrlərində bu hadisələri xatırlayanda Cavad gülərək demişdi:

– Pah atonnan, Ağanın düşmənləri də Ağa ilə düşmançılıq eləyəndə sünni-şiə təəssübü ortadan götürülür... Neynəyəsən, kişinin bədi də "xeyirə" çevrilir, güc deyil ki...

...Ağa cavanları görəndə əvvəl əhəmiyyət vermədi, amma nə isə bir hissi – qəbləlvüqu onun nəzərini gənclərə cəlb elədi. Bu, bəlkə də, elə ondan irəli gəldi ki, Ağa zahirindən dərhal ayırd elədiyi sünni-şiə cavanları bir yerdə görməyinə həm təəccüb eləmiş, həm də sevinmişdi. Hər nə idisə o gənclərin yanından keçərkən dodaqlarına bir təbəssüm qonmuşdu. Az qalmışdı ki, dəstənin yanından ötsün də... Birdən dəstənin ayağında, cavanlardan xeyli aralı, gözünə Məşədi Alış dəyən kimi oldu... "Bəlkə, bu mənə belə gəldi, amma elə bildim ki, Alışı gördüm, elə o da məni gördü. Nəzərlərimiz toqquşan kimi, elə bil Alışın gözündə Adəmə dəğdəğə verən şeytanın gözündəki hiylə parıldadı, həmin saat da Şərbafların mülkünün dalısına keçdi". Sonralar hadisəni nəql eləyəndə şair belə izahat verirdi. Doğrudan da Məşədi Alış qaragüruhçu fanatik cavanları, Abid əfəndinin müridlərini irəli verib özü Şərbaflar mülkünün arxasına keçdi, çünki nə o, əvvəlki Alış, nə də Ağa əvvəlki sütül, kimsəsiz cavan deyildi. İndi o, Şirvanın maarifpərvər ziyalıları içərisində birinci yerdə duran, hökumətin də tanıdığı Hacı Seyid Əzim Şirvani idi və bu ad çoxlarını titrədirdi.

...Cavanlar isə qarşılarındakının kimliyini nə tanıyır, nə də bilirdilər. Onlara belə demişdilər: "Bir dinsiz, yolsuz cızmaqaraçı peyda olub, cənab Abid əfəndi ilə düşmənçiliyi var, ona həcv yazıb, biyabır eləyib, bu bəs deyil, hələ sizin də ana-bacınızı, elin qız-gəlinini Abid əfəndiyə yazdığı həcvə salıb, masqaraya qoyub, onun qanı halaldır". Savadsız,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

beyniqan cavanlar bu təşvişin qarşısında dura bilməmişdilər. "Elə ona görə də el Abid əfəndini kənddən qovdu, təkyəsin dağıtdı, din əldən gedir"... Bu kimi qızışdırıcı sözlər bir tərəfdən fanatik, digər tərəfdən isə pozğun tamaşalar əlindən çıxan hərzə gəncləri özündən çıxartmışdı. Onlar fitnə yuvasının dağılmasına sevinmək əvəzinə, əksinə, buna səbəb olan şairi məhv etmək istəyirdilər...

– Budur, lənətlik özüdür...

– Adə, bu? Qoy vurum əngini əzim getsin...

– Yox, sən ölməsən, qoymaram, gərək din yolunda özüm qurban gedəm...

– Ay uşaq, tez olun, duyuq düşən olar...

Qaragüruh fikirləşməyə, nə olduğunu anlamağa macal tapmamış şairi dövrəyə aldı və ağır-ağır Şərbafların mülkünün dalına sıxışdırmağa başladı... Ağanın əlində bircə dəyənək və ya əl ağacı olsaydı, bəlkə də müqavimət göstərərdi, indi isə bunların kimliyini anlayır, yalnız dillə yola gətirməyə çalışırdı.

– Axı günahım, taxsırım nədi, uşaqlar?

– Abid əfəndiyə o həzliyyatı sən yazmısan?

– Aton yerində mömin kişini sən rüsvay eləmisən?

– Arvad-uşağımızı, ana-bacımızı sən masqaraya qoymusan?

Halqa daraldıqca Ağa boğulurdu. Nəfəsi kəsilməyə başlayırdı. Bir yandan qəzəb, bir yandan nadanlara acıması onu təngitmişdi. Qara əllər bədəninə uzandıqca bu təəssüf hissi ona qalib gəlirdi; özünü saxlaya bilmirdi:

– Ay nadan bala, mən sizin namusunuzu masqaraya qoyanları biyabır eləmişəm...

– Aadə, bu hələ danışır da? Vurun!..

– Dağılışın, nadanlar... Neynəyirsiz, köpək uşaqları?!!

Hamı göy gurultusu kimi səslənən bu nidaya tərəf döndü. Uryadnik Kərim bəy tam rəsmi geyimində at üstündə, əlindəki qamçı ilə onları hədələyirdi. O, qamçını papağı başından düşmüş bir müridin qır tökülmüş Bakı səkisi kimi parıldayan başına endirdi. Müridin ufultusu eşidilmədi, yalnız əllərini uzun birçəkli, lakin ortadan təmiz qırxılmış başına apardı. Bu dəfə qamçı onun əllərini yandırdı. Qaragüruhun çoxu ömründə uryadnik görməmiş kəndlilər idi. Kərim bəyin zər paqonlu, qızıl düyməli hərbi paltarı onlara elə qəribə, qorxunc təsir elədi ki, bir neçəsi bunun padşahın özü olduğunu və Ağaya köməyə gəldiyini zənn eləyib daban aldı. Bir-ikisi diz çöküb yeri öpməyə başladı. Seyid Əzim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şərbaflar mülkünün dal divarına söykəndiyi halda, meydanda tək qaldı. O, vəziyyətin gülünclüyünü görüb bir an əvvəlki təhlükəni unutdu, gülümsədi:

– Cənab Kərim bəy, mö-lüm vurma! Axı bu bədbəxtlərin başı nədən çıxır ki? Nədən bilsinlər ki, mən elə onların öz namusunu fikirləşmişəm, Abid əfəndini həcv eləyəndə... Mö-lüm vurma!.. Amma Allah səni nə yerində yetirdi? Yoxsa bu bədbəxtlər məni deyəsən axı o dünyalıq eləyəcəkdilər... Mö-lüm vurma, vurmalılar burda yoxdu...

Bu gün Məşədi Qulam Sarvan Kərbəlayı Vəlinin bir neçə gün əvvəl şəhərə daxil olduğunu eşitmiş, dəmə-dəm yolunu gözləyir, dükanından çox da uzağa getmirdi. Günorta azanını eşidəndə Məşədi Qulam sübh dəstəmazını təzələmək üçün lüləyini götürüb, dükanın arxasına keçdi. Azanın səsinə həmahəng təkbir deyə-deyə dəstəmaz aldı. Qayıdıb canamazını dükanın ortasına sərdi. Canamazını açıb üzünü qibləyə çevirdi və Allahına ibadətə başladı. Qırmızı Məşədi Qulam namazdan fariğ olmamış, kiminsə dükana daxil olduğunu hiss etdi. Son duasını bitirənəcən dönmədən, başının işarəsilə gələnin salamını aldı. Əllərini qaziyəl-hacata tutub namazın son sözlərini dedi və salavat çevirib geri döndükdə, dükana girənin Sarvan Kərbəlayı Vəli olduğunu gördü. Gülümsədi:

– Ya Allah, ya Allah, xoş gəlib səfa gətirmisən, Kərbəlayı, səfər səlamətdir inşallah?..

– Şükür Xudaya, salamətlikdir.

– Buyur, bura buyur, Kərbəlayı, – deyə o, qonağa yer göstərib dükanın qapısına çıxdı. Ucadan, qonşu çayçı Əlmuxtarın şəyirdi Rəzini səslədi:

– Aaadə, Rəzi, a-adə...

– Bəli, Məşədi!

– Aadə, bizə bir çaydan məxməri... i...

– Baş üstə, Meşədi, bu saat...

O, Rəzinin səsini eşidir, üzünü görmürdü. Sonra içəri qayıtdı; qonağın yanında döşəkçənin üstə diz çökdü:

– Buyuracaqsan, Kərbəlayı, getdiyin yerlərdən, gördüyündən... necə deyərlər, yediyin-içdiyin sənin olsun, gördüyündən danış.

Kərbəlayı Vəli hər iki əlini təravətli qara saqqalına çəkdi, vird oxurmuş kimi "bəli-bəli" deyib dodaqlarını tərpətdi. O, Məşədi Qulama bələd idi. Axşamacan dükandan çıxa bilməyəcək, uzaq ellərdə görüb-eşitdiklərini nəql etməli olacaq, xörəyini də həmişəki kimi Məşədi ilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yeyəcəkdi. Neçə illərin aşinalığı sarvan Kərbəlayı Vəli ilə Qırmızı Qulam arasında belə bir yaxınlıq yaratmışdı. Yalnız bütün bilib-eşitdiklərini nəql etdikdən sonra, Məşədi Qulam ona yeni əsərlərdən danışacaq, yoxsa heç sövdələşməyəcək, bir vərəq belə göstərməyəcəkdi.

Heç beş dəqiqə keçməmiş, çayçı Əlmuxtarın şəyirdi Rəzi qapıda göründü. O, arıq, ortaboylu bir gənc idi. 15-16 yaşı olardı. Qara birçəkləri vardı. Ülgüclə tən ortadan qırxılmış başına ağ sap işləməli ucuzbəsər araqçın qoymuşdu. Şilə köynəyinin və qara çadra şalvarının önünə ağ bezdən döşlük bağlamışdı. Oğlanın əlində zərif işləməli sinidə iki armudu stəkan, bir də ağ çaydan vardı. Xırda doğranmış qənd mis camın içinə yığılmışdı. Cam və sininin parıltısı göz qamaşdırırdı. Oğlan qapıya çatcağın ədəblə salam verdi.

– Əleykəssalam, bala, gət bəri...

Rəzi dükanın ortasına irəlilədi.

Dükan divarının küncünü müxtəlif meşin, papyemaşe cildə tutulmuş qalın və nazik kitablar yığılmış qəfəsələr, rəflər tuturdu; yerə xalça salınmış, nimdər və mütəkkələr qoyulmuşdu. Qulam və Kərbəlayı Vəli döşəkçələrin üstə oturub, çit üzlü mütəkkələrə dirsəklənmişdilər. Rəzi onlara yaxınlaşdı, bir addım məsafə qalanda ədəblə diz çökdü, sinini kişilərin qarşısında yerə qoydu. Başını qaldırıb onların üzünə baxmadan dedi:

– Nuş olsun, ağalar!

– Sağ ol, oğul! – deyə Kərbəlayı Vəli əlini cibinə aparmaq istədi.

– Vallah, qoymaram, bu nə işdir, Kərbəlayı, mənim bir stəkan çaya gücüm çatmır məgər?

– Xeyr, Meşədi, qərəzim çay pulu vermək deyil, bu səfərdə yola çıxanda, sübh əzanında qabağıma ən əvvəl Rəzi bala çıxıb, üzü mənə düşüb, xeyirli olub, səfərimdən xeyir görmüşəm, əhd eləmişdim qayıdanda ona bir rus onşahılığı verəm...

*Məşədi Qulamın əlləri sustaldı:*

– O başqa məsələ, doğrudan da Rəzinin üzü yüngüldü, ayağı da düşərgəlidi; elə Əlmuxtar dadaş da deyir ki, o dükənə gələndən işim rəvac tapıb, Allah cavan Əliəkbərə bağışlasın, özü də yaxşı, qulluqbaz uşaqdı.

Qulam kişi danışdıqca Kərbəlayı Vəli cibindən qırmızı qanovuzdan tikilmiş, ağzı və qaidəsi qızılı bafta ilə bəzədilmiş pul kisəsini çıxartdı, qaytanı çəkib açdı və parlaq bir pul çıxarıb Rəziyə uzatdı. Rəzi bir Qulama bir də özünə uzanan ələ baxıb bir an durdu, dükan sahibinin gözündə hiddət görməyib əyildi, əli öpdü və pulu aldı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mərhəmətüvüz artıq, ağa, Allah cibivüzə bərəkət versin.

Sonra qalxdı, minnətdarlığını bildirən yaşarmış gözlərilə bir də kişiyə təşəkkür edib dükanı tərk etdi.

Dostlar tək qaldılar.

Axşam azanına az qalmış xəbər-ətər qurtardı. Kitab sövdası araya gəldi.

– Kərbəlayı, sənə Ağanın bir neçə qəzəlinin üzünü yazdırtmışam, xoşnəvis Molla Qulu ağa öz dəst-xəttilə yazıb.

Kişi bunları deyə-deyə yeni yazıları rəflərdən götürüb Kərbəlayı Vəliyə təqdim edirdi. Sövda qurtarana yaxın Qırmızı Məşədi Qulam durdu, dükanın qapısından çölə baxdı, yaxında heç kəsi görməyəndə təkliklərinə əmin oldu və geri qayıdıb qalın cildli bir kitabın arasından dəftərçə şəklinə salınmış bir neçə yazılı vərəq çıxartdı:

– Bilirəm həcvə meylin çox deyil, amma bu çox əcib şeydi, tarixdi, dedim bəlkə...

O çətinlik çəkirdi...

– Kimədi?

– Qarabağ xanı Mehdiqulu xanın kəriməsinə... Abdullah bəy Asi yazdığıdı...

Kərbəlayı Vəli yazını ötəri gözdən keçircək qaşları düyünləndi:

– Necə? Natəvana? O bədbəxt anaya? Ar olsun onlara, ar...... Meşədi, öz aramızda, sənə Qırmızı deyillər, amma mən sənə indi qırmızıca bir söz deyim: heç sən özün də düz iş görmürsən, onlar bir qələtdi eləyib, sən niyə yayırsan kişi, özün şeir xiridarı ola-ola bu əbləh cəfəngiyatı satırsan, yayılır aləmə? Mabeynimizdəki sədaqət haqqı, heç səndən gözləməzdim bunu, kişi!

Qırmızı Qulam pərt oldu. Söz tapmaqda çətinlik çəkdi:

– Kərbəlayı, getdiyin beyt haqqı, dilim kəlməyə gəlməsin əgəm yalan deyirəmsə, tək bircəsini Qapaqlı Hacı Əsədə vermişəm, deyir verib bazarda qarabağlı Hacı İsrafilə o da aparıb Ağaya "Beytüs-Səfa"da oxuyub. Üzümü sürtdüyüm qəriblər ağası qərib imam Rizanın zirehinə and olsun ki, doğru sözümdü. Tək bircə nüsxədi, sənə göstərdim... İnan!

Kərbəlayı Vəli pərt halda qalxdı:

– Hər nəsə keçib, amma cır-tulla getsin, zənən xeylağını el içində dilə-dişə salmaq heç kişilikdən deyil, heç Allaha da xoş getməz, ar olsun o Qarabağ şairlərinə... Qərəz salamət qal. Xudahafiz!

Məşədi Qulam əlindəki nazik dəftərçə ilə dükanın içində tək qaldı. O, Kərbəlayı Vəli ilə dostluğuna sədəmə toxunmasını istəmirdi. Xəca-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lətdən kişini ötürməyə də çıxa bilmədi. Elə bil əlindəkinin murdar bir şey olduğunu Kərbəlayı Vəlidən eşidəndən sonra dərk etmişdi.

Axşam düşürdü, azançı onu şam namazına dəvət edirdi. Lakin Qırmızı Qulamın dodaqları təkbir demirdi. O böhtan içində dayanıb qalmışdı.

...Bu gün Ağa məclisə çox bikef gəlmişdi. Məclis üzvləri səbəbini bilirdilər. Qaladan gəlmiş həcvi hamı oxumuşdu. Şair adına yaraşmayan bu işdən hamısı pərt idi. Onlar həcv oxumuş, özləri də dönə-dönə, haqlı-haqsız kiməsə həcv qoşmuş və düşmənlərinə Şərq ədəbiyyatında yayılmış bu növ "nəzmlə" cavablar vermişdilər. Lakin Qaladan gələn həcv bunların heç birisinə bənzəmirdi. Bu həcv "Beytüs-Səfa" üzvlərinin hörmət etdiyi bir şair, öz həmvətənlərinə olmazın yaxşılıqlar edən bir qadın haqqında yazılmışdı. Hamı onun xeyriyyə işlərinə bələd idi. Onun uzaq yerdən doğma şəhərinə su çəkdirməsi, füqəraya ehsanlar etməsi, Bakıdan Bibi-Heybətə yol saldırması xəbəri dolaşırdı, incə, qəlb ovlayan qəzəlləri dillər əzbəri olmuşdu. Odur ki, belə bir insana yazılan həcv şairləri qəlbən yaralamış, elə bil hamısını birlikdə təhqir etmişdi.

"Beytüs-Səfa" üzvləri həmin bu məclisdə Natəvanın rəqiq qəzəllərini dönə-dönə oxumuş, ona nəzirələr yazmışdılar. İndi öz həmşəhrisi tərəfindən təhqir olunan bu şair qadına vurulan yara, məclisə yığılan şairlərin hər birisinin üzünə söylənmiş söyüd kimi onları həyəcana gətirmişdi. Hər ağızdan bir səs gəlirdi:

– Belə də namərdlik olar?

– Heç zənən xaylağını da rüsvayi-cahan elərlər?

– Lap biqeyrətlikdir.

– Ayıb olsun, Qarabağ şairlərinə...

– İşə bax ha!.. Birində qahmar çıxmağa qeyrət olmayıb.

– On-on beş kişi yığılıb düşüb bir arvadın üstünə...

– Özü də necə xeyirxah arvad...

– Özü də necə qüdrətli bir şairin...

Hamısının gözü məclisin sədrində əyləşmiş Hacı Seyid Əzimdə idi. Elə bil hamısı onun söhbətə xitam verməsini, bu ağır təhqirə cavabını gözləyirdi.

Seyid Əzim dinmirdi, o sakit oturmuşdu, amma dodaqları və yanaqları səyriyir, əlləri dizi üstündə qərar tutmurdu. Onun gözlərinin qarşısında bir gün əvvəl baş vermiş bir hadisə canlandı: Səhər o oğlu üçün həkim Mirzəməmmədin verdiyi bir nüsxəni alıb dostu molla ağa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bixudun Mahmudağa karvansarasının qənşərindəki əttar dükanına yollandı. Elə bu vaxt karvansaradan çıxan Hacı İsrafil Qarabağiyə rast oldu. Hacı onunla salamlaşıb dedi:

– Elə özüm cənabınızın yanına gələcəkdim, sizə xiridar olduğunuz bir şey gətirəcəkdim... – Və xısın-xısın güldü. Seyid təəccüb elədi, onun tacir, həm də pambıq alverçisi ilə nə xiridi ola bilərdi? Bununla belə salaməleyki olan Hacı İsrafilə dedi:

– Buyurun...

– Yox, bunun üçün xəlvət yer lazımdı...

Seyyid bir qədər də təəccübləndi:

– Bəlkə Bixud cənablarının dükəninə buyurasınız, orda...

– Hə, o başqa məsələ, orda olar! O kişi də yazandı, belə mətaın xiridarı ola bilər...

Onlar ikilikdə Bixudun dükanına daxil oldular. Məcun düzəltmək üçün həvəngdə ədviyyat döyməklə məşğul olan Bixud qonaqları böyük bir nəzakətlə qarşılayıb, çay sifariş elədi. Hacı İsrafil dedi:

– Cənab mollağa, çaydan əvvəl bir əyləş, indicə içmişəm, yəqin Ağa da evdən gəlir, ondan vacib şey var... – O cibindən ikiqat bükülmüş dəftərçəni çıxarıb Seyyidə uzatdı. Seyyid kağızı alıb oxumağa başladı. Bixud da onun çiyninin üstündən yazını gözdən keçirirdi, səbir edib Ağanın bitirməsini gözləyə bilmirdi. Bu, Qarabağ şairlərindən Asinin Xurşidbanu Natəvan haqqında yazdığı həcv idi. Seyyid əvvəlcə çox sakit oxuyurdu, getdikcə daxili dəhşətli bir qəzəbdən soyumağa başladı. Oxuyub qurtardı, bir müddət heç nə deyə bilmədi, sonra içərisini bürüyən qəzəbi boğaraq, həzin, kədərli bir səslə sözə başladı:

– Hacı, heç güman eləməzdim ki, siz bəndəni belə dəni[1] adam hesab eləyirsiniz?...Heç zənən xaylağına da həcv yazarlar? O da elə zənən ki, siz qarabağlıların başını uca eləyib... Dünyanın ən əziz neməti olan su verib elinizə... Sizi ətəşdən qurtarıb... Səqqayi-Kərbübəladı[2] o sizə!.. Cənab hacı, Sokrat deyib ki, iyrənc yolla alınan zövq insanı xoşhal eləməz. Onun qəlbində pis bir üfunət qoyar və nəhayət peşman elər. Mən belə bilirəm ki, bu murdar həcvi yazanlar da, onu yaymaqdan zövq alanlar da axırda peşman olacaqlar...

Sözü necə qurtardığını, hacını daha hansı sözlər, kəlmələrlə utandırıb qızartdığını və qəzəbdən titrəyə-titrəyə dükanı necə tərk etdiyini

---

[1] Alçaq

[2] Kərbəla suçusu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilmədi. Doğrudur, o özü də həcv yazıb, amma kimə?.. Bir gör onu necə dərk edənlər, kimlərə tay tutanlar var hələ?.. Belə də biabırçılıq olar? Bu əməl heç şair, insan, kişi adına yaraşar? O bütün gecəni yata bilmədi... Həcvin cavabı hazır olandan sonra da gözlərinə yuxu girmədi... Elə gah Asinin xəyal-məyal surəti, gah hacı İsrafilin arsız gülüşləri gözlərində – qulaqlarında canlanırdı. İndi də elə idi.

Məclisi bürüyən uzun sükutdan sonra o dilləndi:

– Ağalar, həyəcanınızın səbəbi bəndəyə aydındı. Elə mən də siz gündəyəm. Bir tərəfdən kişi qeyrətli, ən ürəkli, şirin qələmli bir şair, övrət, ana təhqir olunub. Digər tərəfdən bu xəta elə bir şair tərəfindən baş verib ki, biz hamımız onun qələminə heyranıq. Mən bu barədə dünən həcvi oxuyandan sonra bir cavab yazmışam. Əgər müttəfiq olmaq istəsöz oxuyaram...

Məclis əhli vəziyyətdən çıxış yolu tapıldığına sevindi. Seyid Əzim əlini qoltuq cibinə salıb bayazını çıxartdı. Lazımi vərəqi tapdı, yerində rahatlandı, adəti bir şəkildə barmaqlarını bığlarına çəkib oxumağa hazırlaşdı. Əhli-məclis intizarla şairin başlamasını gözləyirdi. Seyyid qəmli gözlərlə yığılanları bir daha nəzərdən keçirib, diqqəti-tam olduğunu görüncə oxumağa başladı:

Asiya, sözlərüvün hər biri bir canə dəyər,
Bir sözün qədrdə yüz min düri-qəltanə dəyər.

Şair oxuduqca məclisdən razılıq nidaları eşidilir, onun öz səsi isə gah alçalır, gah yüksəlir, gah böyük bir məhəbbət, ehtiram, gah da dərin bir qəzəb hissilə titrəyirdi:

Bu haman Xan qızıdır kim, buna yox, şübhəvü şəkk,
Eyləyibdir neçə pambıqsatanı dəhrdə bək.
Asiya, söylə, itirmək nə rəva həqqi-nəmək?
Bəli, adət belədir, kim, ola hər kəs eşşək,
Yesə hər kəslə nəmək, sonra nəməkdanə dəyər...

Məclisdən xəfif bir gülüşmə keçdi, Seyyid bir an sözünə ara verib dərindən köksünü ötürdü və oxumağa davam etdi:

Bisəbəb tutdun, əzizim, nə üçün bu işi sən?
Yoxmu qeyrət əsəri səndə, sən axır kişisən?
Həcvi-zən eyləməyin şiveyi-mərdanə dəyər...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun səsində elə bir qəzəb var idi ki... Gözlərindən elə atəşlər saçırdı ki... Məhəmməd dostu üçün qorxmağa başladı... Elə bil Ağa bu anda, Asinin simasında, bütün qaragüruhu – mollaQurbanqululan, Alış-ları, qapaqlıları qaralayıb danışır, onların hər birini, bir ayıblı dirəyə sarıyıb, qüsurlarını üzünə sayır və rüsvayi-cahan eləyirdi. Elə bil ki, haqqında həcv yazılan heç bir zaman üzünü görmədiyi, qarabağlı bir arvad deyil, məhz öz anası, bacısı idi... Şair oxuyurdu:

Gərçi ol zən dəxi bir şirzəni-yektadır
Ki, bu zənlikdə bizim tək kişidən əladır...

Məhəmmədin qara çatmaqaşları daha da çatıldı. Onun xatirinə Natəvanın incə qəzəlləri düşdü. Məclislərin keçən yığıncaqlarında onlar bu qəzəlləri oxuyar, təriflər, onlardakı incəliyə, həzin kədərə heyran olar, ona nəzirələr yazar, qadın qələminin dərin, fəlsəfi mənasına heyrət və qibtə edərdilər. Ağa onu "Füzuli varisi" adlandırardı. "Qəribədir, son illərdə Ağa həcvin əleyhinə çıxır, həcv yazmağı əsil şairə yaraşmayan alçaq bir şey hesab eləyir. Amma indi bir gör arabir məclisdə gülüş doğuran necə də ağır həcv yazmış, necə ədəbsiz sözlər işlətmişdir. Gör bir Natəvanın, bir xeyirxah vətənpərvər, füqərapərəst, qadın şairin təhqir olunması onu necə bərk qəzəbləndirmişdir ki, o öz son adətinə rəğmən belə ağır həcv yazmışdır. Bu yaxınlarda Abid əfəndiyə yazdığı həcv də belə idi. Az qalmışdı özgə namusunu qoruduğu üçün qurban olsun".

Şair isə getdikcə artan bir qəzəb və təəssüf hissilə sözünə davam edərək oxuyurdu; elə bil Səfanın düşüncələrinə cavab verirdi:

Şaira! Həcv demək izzətə bir mayə deyil,
Şeridir, yaxşı-yamanı olu, bu ayə deyil,
Həcvə adət eləmək şairə bir payə deyil...
Var elə zən ki, biri əlli min oğlana dəyər...

...O oxuyub bitirdi, səliqə ilə bayazı bükdü. Məclisdən afərin səsi ucaldı:

– Əhsən, şairə! Həlal olsun sənə o şirazi qələmdan...
– Əşhədənbillah elə cavabdı ki, lap yerli-yerində!
– Hə, bax buna deyərəm cavab!.. İndi getsin çəksin xəcalətini!
– Adə vallahi qan eləmisən, ya cədda!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ağa cəddüvə qurban olum, lap yüz il çalışeydım bunun birini yaza bilməzdim, əhsəntü...

Təriflər artdıqca Bixudun qəlbində bir təəssüfmü, həsədmi, qibtəmi nə isə qəribə bir hiss keçdi. Bu bir tərəfdən onun Asi ilə ünsiyyəti, digər tərəfdən belə dəyərli, tərifli cavabı məhz özünün yazmamasından doğurdu. Bəzən ona elə gəlirdi ki, yazdığı qəzəl və rübailər heç də dostununkulardan əskik və zəif deyil, amma nə üçünsə hamı Ağanın qəzəllərinə üstünlük verir, onun əsərlərini daha çox bəyənirlər. Bu əvvəllər ona xoş gəlirdisə də, son illərdə, xüsusilə Qarabağ şairləri Füzulinin "Olmaz" rədifli qəzəlinə yazdıqları nəzirələri oxuyub Bixudun nəzirəsinə birinci, Seyyidinkinə ikinci, Zuiyə üçüncü, Səfaya dördüncü, Qafilə beşinci, Zühuriyə altıncı, Rağibə yeddinci yeri verəndən sonra bərk təsir etmişdi. Hər halda Seyyidin özünün belə yüksək qiymət verdiyi Asi, Nəvvab kimi "Məclisi-fəramuşan" şairlərinin ona birinci yer verib Seyyiddən üstün tutması Bixuda xeyli təsir etmiş və iki dost arasında qeyri-ixtiyari bir ixtilafa səbəb olmuşdu.

O vaxtdan bəri öz yaradıcılığına başqa gözlə baxmağa başlayan Bixud, dostunun hər yeni müvəffəqiyyətindən alınırdı. İndi də elə oldu. Seyyidin hədəfə sərrast vurması Bixudun qəlbində izzəti-nəfsini yaralayan kədər doğurdu. Seyyid sözləri, misraları, beytləri təşbeh və istiarələri elə dürüst, elə yerində, mövqeyində, sanki heç bir zəhmət çəkmədən, təbii bir yüngüllüklə deyirdi ki... həmin rədif və mövzuda yazdığı qəzəllər gözəl çıxsın deyə, Bixud özününkülərin üzərində günlər, aylarla çalışırdı, hətta Kişmişçi bazardakı ətriyyat və əttar dükanı da az qala gözündən düşmüşdü... O hər bir qəzəlinə bəzək, ətir vurmaq üçün nə qədər əlləşir, burda isə həmin qəzəl başqası tərəfindən bədahətən deyilir. Qoy bu başqası onun ən səmimi dostu olsun, nə olsun ki, bəs neyşə ona müyəssər olmasın?!!

Neyşə Seyyid onun haqqında: "Bir ayda tamam olmaz tək bir qəzəli hərgiz bir fərdi bu gün yazsa, bir fərdi yazar fərda", – desin?

..."Beytüs-Səfanın" yığıncaqları davam edir, burada yaranan yeni-yeni qəzəllər, müxəmməslər, müstəzadlar Şuşa qalasından "Məclisi-üns"ə, "Beyti-fəramuşan"a, Bakıda – "Məcməüş-şüəra"ya göndərilir, cavablar alınır, təzə müəşşərlər, müsəddəslər, qəzəl və rübailər meydana çıxır, müşairələr qızışırdı.

Seyid isə artıq tək-tək adamları təhqir edən, xırda hisslərlə yazılmış, həcvguluqdan əl çəkmiş, əksinə "Beytüs-Səfa" adından, belə həcvlər yazan xırda hissli şairləri dostlarının təxəllüslərini işlədərək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

biabır etmiş, Qarabağda Natəvan, Kəminə və Sadıqcanı, Bakıda Cürmini müdafiə edən nəzmlərini yazmışdı. İndi onun "Beytüs-Səfa"da oxuduğu həcvlər qazilərə, mollalara, zahidlərə qarşı çevrilmişdi. Seyyidin öz curları içində də bu mövzular, ictimai satiralar üzündən düşmənləri artmağa, bəzi dostları ondan üz döndərməyə başlamışdı.

## QƏMZƏ

İlin axır çərşənbəsi idi. Şəhər əlvan işıqlar, məşəllərlə bəzənmişdi, evlərin ön divarlarına al-əlvan xalça-palaz vuranlar da var idi. Hamı təzə paltar geymişdi. Evlərdən müxtəlif xörəklərin ətri ətrafa yayılırdı. Əsil bayram uşaqların idi. Onlar məftillərə bağladıqları qətranlı lopaları yandırıb fırladır, bir az irilər havaya fişəng atır, tonqal qalayıb üstündən atılırdılar.

Gəlin kimi bəzənmiş qızlar əl-ayaqlarına əlvan xına yaxmış, ən zərif, zərrin libaslarını geymiş, özlərinə məxsus oyunlarla məşğul idilər. Bu oyunlardan birini görmək üçün papaqçı Hacı kişigilə gedək. Axı, qızların gözəli, Şamaxı analarının həsrətlə "görəsən, hansı bəxtəvərin ocağının başında oturacaq?", "Necə hansı bəxtəvərin? O Hüseyn oğlu Məhəmmədin göbəkkəsməsidi, belə Xanımsoltan arvadın gəlini olacaq", "Allah başacan eləsin, gərdəyi günnən dolsun" sonaladıqları Qəmzə bu evdə yaşayır, Hacı kişinin qızıdır. Bu gün də qızlar onun başına yığılıb. Qəmzə gözəl olduğu qədər də mehriban, gülərüzlü, nəcib qızdır.

Şirvan gözəllərinə məxsus qumral hörükləri arxalığının belindən aşağı sallanır, toppuz hörüklərinin ucuna əlvan yundan toxunmuş gözmuncuqlu saçbağı bağlayıb. Qara qaynar gözləri, qıyma çətiri, nazik, azca uzunsov üzü, incə dodaqlarının zərifliyini xeyli artıran, qara istiota bənzər, yandırıcı xalı var.

Qızlar Qəmzənin gözəlliyinə həsəd apara da bilmirlər. Axı Qəmzə onlarla elə mehriban dolanır ki... İndi evdə kişi yoxdur, Hacı kişi qardaşı evinə gedib. Badambəyim mətbəxdə axır çərşənbənin plovunu dəmləyir.

Qızlar bala otağa yığılıb üzük falına baxmağa, bir azdan sonra da qulaq falına çıxmağa hazırlaşırlar. On nəfərdi qızlar, Qəmzədən başqa: Kəbutər, Mələksima, Gülbikə, Töhfə, Ziynət, Sübi, Tubnisə, Gülnisə, Gülsüm, Zeyvənisə... hamısı da bərli-bəzəkli, hamısı da cığalı, xınalı... Su sonası kimi süzgün, sarp qayaların kəkliyi kimi şaqraq, Ovçupirim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düzünün ceyranları kimi ürkək, şən qızlar... Onlar bu gün baxtlarını sınayacaq, ürəklərinin ən dərin bir hissəciyində özünə yer eləmiş qara-çuxa, çalpapaq, ləzgi məsti geymiş cavanlardan birinin baxtına yazılıb-yazılmadığını yoxlayacaqlar. Çırpınan ürəklərdə elə bir həyəcan var ki, bu həyəcan dadlı bir həsrət kimi qızartıya çevrilib, yanaqları allandırıb.

Qəmzə xeyri dedikləri iri, təzəcə qalaylanmış, içi su dolu mis qabı gətirib otağın ortasına qoyur. Qızlar döşəkçələrini yaxına çəkib, "xeyrinin" ətrafına dövrə vururlar. Qabın üstünə Badambəyimin tirmə şalı salınır ki, kələkbazlıq olmasın, bayatı çəkiləndə heç kimin üzüyü görünməsin və qəsdən çıxarılmasın. Qızların hamısı barmağından tək yaqut qaşlı üzüyünü çıxarıb, xeyriyə atır və qabın ağzı örtülür. Qəmzə başçıdır, o, sağ əlini xeyrinin içinə salıb üzükləri qarışdırır və üzünü qızlara çevirib deyir:

– Hə, di başlayın görək...

Qızlar şaşqınlıqla bir-birinin üzünə baxırlar, heç kim əvvəlcə bayatı çəkmək istəmir, ya da münasib bayatılar axtarılan vaxt birdən-birə hamının yadından çıxır. Yenə də Qəmzə işə qarışır:

– Bıy, nə dilinizi yediniz, ay ölməmişlər, başlayın görək də... Bir azdan azan çəkiləcək, qulaq falına çıxacayıq, gecikərik ki...

Kəbutər dillənir:

– Hə da... sonra oğlanlar qurşaqatdıya başlayacaq, baş qarışacaq, di tez olun.

Sübi nazik dodaqlarını büzür:

– Elə özün başlasana, Kələxana gomuşu kimi nə yayxanmısan yenə?

– Mən niyə, ay yanasan?

Tubnisə sözə qarışdı:

– A-a-az, bu axşam xeyirli söz danış, qulaq falına çıxan olar, yaxşı deyil...

– Düz deyir, Kəbutər, başla!..

Birinci bayatını Kəbutər dedi:

Ağac başında Əli,
Altında yaşıl xəli,
Allah muradın versin –
Ya Məhəmməd, ya Əli!..

Qəmzə əlini tirmə altdan suda hərləyib üzüklərdən birini çıxartdı, qızların gözü suyu süzülən üzüyə zilləndi: ah, bu həsrətli, nigaran gözlər... Gülbikə sevinclə qıyya vurdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ver, mənimdi i... i...

Hamı onun qiyyəsinə güldü:

– Al, a bəxtəvər, bundan da yaxşı fal?

Kəbutərdən sonra bayatı demək növbəti onun solunda oturan Gülsümə gəldi; qız bu kimi fal oyunları üçün qoşulmuş məlum bayatılardan birini çəkdi:

Əzizim əli bağlar,
Döşənib xəli bağlar,
Sidqi dürüst olanın
Kəmərin Əli bağlar...

Qəmzə yenə də üzüklərdən birini çıxartdı:

– Al, utanma, Sübi, bilirəm ki, bu üzük sənindi, sidqin dürüstü, bəxtəvər! Qaraca Ağa Mehdinin gözü aydın olsun, səndən Nayib Sitarəyə yaxşıca gəlin olacaq! Amma vay halına! Yamanca hökümlü arvaddı, nahax yerə adını Nayib qoymayıblar ki...

Dövrə ilə növbət Tubnisəyə gəldi, qız bayatı tapa bilmirdi, nə qədər münasib axtardısa da, biri də ağlına gəlmədi:

– Bıy, elə bil tilsimə düşmüşəm, dilimə bir bayatı da gəlmir. Sən Allah, Qəmzə, məndən öt! Qoy Gülnisə desin, mən sonra taparam.

Qızlar etiraz elədilər:

– Olmaz-olmaz, dövrə pozular onda.

– Yaxşı-yaxşı, dəyirman xoruzu təki dindələməyin məni, qoyun yadıma salım.

Hamı yenidən intizarla Tubnisənin bayatı tapıb deməsini gözlədi; Tubnisə bir az da düşünüb dilləndi:

Sarı başmaq zənənə,
Dünyada gözəl çox, mənə nə.
On iki imam qənim olsun,
İlqarından dönənə!..

Qəmzə üzüyü çıxaranda hamı şaqqanaq çəkib güldü:

– A-a-z, elə özünə çəkmisənmiş bayatını ki!.. Dönmə ilqarından! İlqar-iman yaxşı şeydi...

Tubnisə bir az da qızarıb əlini uzatdı və Qəmzənin gülə-gülə "Allah xoşbəxt eləsin, oğullu-qızlı olasız" deyib zarafatla ona verdiyi üzüyü aldı və titrək barmağına keçirtdi. Növbə Gülnisənin idi. O duruxmadan,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heç də yaxşı-yaman bayatı axtarmadan, ağzına ilk gələn bayatını hüdüləməyə başladı:

Şirvanda xan olmuşam,
Çində xaqan olmuşam,
Əlim yardan üzülüb
Yemən yeksan olmuşam.

Qızların hamısının, elə bayatını düşünmədən deyən Gülnisənin də elə bil ki, üstünə su ələndi. Hamının da olmasa üzüyü – "xeyridə" qalanların rəngi torpaq rənginə döndü. Bu şum bayatının dalıyca kimin üzüyü çıxacaqdı? Qəmzənin əli gəlmirdi, Gülsüm özünü saxlaya bilmədi, Gülnisənin qolundan acı bir çimdik qoparıb dedi:

– Başuva bayatı qəhət olsun!

Qıza öz bayatısı elə təsir etmişdi ki, ufuldamadı da, əliylə qolunu ovuşdura-ovuşdura qaldı. Hamının gözü xeyridə idi... Nəhayət xeyli intizardan sonra Qəmzə böyük bir çətinliklə əlini tirmənin altından çıxartdı, yaş barmağına baxan kimi ürəyi qopdu: üzük onunku idi, falı bəd gəlmişdi! "İlahi, Məmmədimdən əlim üzüləcək! Allah sən saxla! Dili qurumamış Gülnisənin bu bayatı hardan dilinə gəldi?" Qızların bayaqkı şənliyi pozulmuşdu.

Amma ev sahibəsi olduğundan Qəmzə özünü o yerə qoymaq istəmir, ürəyi yarpaq kimi əssə də, içi içini yesə də, məclisi davam etdirməyə çalışırdı. Buna baxmayaraq, qızlar artıq dövrə tuta, bayatı deyə bilmirdilər, bayatı axtarır, tapmırdılar. Hamıdan çox pərt olan Gülnisə idi... Elə bu zaman, sanki qızlara nicat verən bir səs onları pərtlikdən qurtardı. İmamlı məhəlləsinin məscidindən çəkilən azan səsini eşidincə, qızlardan ən cəldi Gülsüm yerindən qalxdı:

– Siz Allah bu bəsdi! Lap ürəyim darıxdı. Qəmzə, kilidi bəri gəti, qulaq falına çıxaq növbəynən. Bax, bu dəfə əvvəl mənimdi.

O çox canfəşanlıq eləyir, aradakı pərtliyi götürməyə çalışırdı. Qarışıqlıqda heç kəs Gülnisənin nə zaman çıxıb getdiyinin fərqində olmadı. Qəmzə kilid gətirdi, Gülsüm açarla kilidi kilidləyə-kilidləyə ürəyində arzusunu tutdu və kilidi Qəmzəyə qaytarıb, açarı götürəndə qızlardan birisi ona sataşdı:

Quzum bulağa çıxıb,
Qalxıb bulağa çıxıb,
Siz Allah, xoş söz deyin,
Yarım qulağa çıxıb!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızlar qaqqıldadı, sonalar gülüşdü. Qəmzənin dodağı güclə qımıldandı. Gülsüm açarı arxalığının cibinə qoydu və dərhal hər iki əlinin şəhadət barmaqlarını qulaqlarına tıxayıb çölə qaçdı, darvazaya çatan kimi barmaqlarını qulaqlarından çıxartdı; küçədə, demək olar ki, uşaqlardan başqa heç kəs yox idi. Onlardan ikisi əllərində məftilə bağlanmış yanar lopanı hərlədir və fərəhlə atılıb-düşürdülər; yandakı; bir başqa balaca oğlan çığırırdı:

– Yanır, a yanır! Gör necə alovlanır...

Gülsüm bu sözləri eşidincə qəlbindən bir üşütmə keçdi: "Yaman da yaxşı söz dedilər! Yazıq Qəmzə, sənin üçün niyyət eləmişdim, yanırsan, alovlanacaqsan! Deyirdim bəlkə o bayaqkı şum bayatının əvəzinə yaxşı bir söz eşidib, gəlim, səni bir az fərəhləndirim, sevindirim, amma... hayıf... Yox, bunu heç ona deyə də bilmərəm! Deyəcəm ki, özüm üçün eşitmişəm, Allah eləməmişkən..."

...Bayramdan üç gün ötmüş Hacı kişi axşam namazından sonra tək qalan kimi Badambəyimə dedi:

– Qəmzənin sözünü Sarı Mir Hacağanın oğlu Mir Salehə verdim...

Arvad əvvəl əldə heç nə başa düşmədi:

– Qəmzənin nə sözünü, əyşi?

Kişi kütah elədi:

– Nə söz olacaq, arvad? Dedim ki, qızı verdim Sarı Hacağanın oğlu Mir Salehə.

Arvadı elə bil ildırım vurdu, qayınxatınısı Xanımsoltan, rəhmətlik qaynı Hüseyn, onun xırda qalmış, əmi qoltuğunda böyüyən yetimləri gəldi durdu gözünün qabağında, dili güclə söz tuta-tuta dilləndi:

– Nə danışırsan, əyşi? Sən rəhmətlik qardaşınla əhdi-peyman eləmisən! Qızı öz qardaşın balasına göbəkkəsmə eləmisən! Bunu el bilir, aləm bilir, elə də şey olar?

Hacı kişi bütün bunları yaxşı bilirdi, amma Məhəmməd sarıdan qulağına dəyən sözlər onu elə cana gətirmişdi ki, bunların heç birisi də arvad ağlına sığan şeylər, arvad qanan şeylər deyildi. Odur ki, mübahisəni, izahatı yersiz hesab elədi:

– Arvad, sən məni yaxşı tanıyırsan! Bil ki, bir yox ha, doqquz kor qızım olsa, birini də Məhəmmədə verən deyiləm. Ondan mənim balama ər olmaz, avaranın biridi, bir işdən yapışmır. Şairlik iştahına düşüb! Şairdən yeznə? Yox, bir də ki, dedim, qurtardı. Kişiynən bu gün Dor Əlinin dükanında danışmışam, söz də vermişəm qurtarıb gedib. Daxı mənə vəzzariyyat oxuma. Sən bilənləri mən də bilirəm. Rəhmətlik qardaşımnan da o dünyada özüm cavablaşaram...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəfil çığırtı ata-ananın mübahisəsinə son qoydu. Onlar yan otağa qaçdılar. Qəmzə qan içində əl-ayaq çalırdı. Ağzından köpük daşdayır, yerə yıxılanda yarılmış gicgahının qanı üzünə, çənəsinə sızırdı...

– Vay, baisin evi yıxılsın, balam tələf oldu... – deyə arvad saçına əl atdı. Kişi də özünü itirmişdi: "Yəqin eşidib, amma sənin ölünü də o bihəya, binamusa verməzəm, ölünü də onun dalına verməzəm ki, qəbrə quylasın". Kişi qızın qollarının qarısını boğmağa başladı və arvadına çımxırdı:

– Ay kafir balası, nə saçını yolursan? Di dur su gətir görüm, yer irahla...

Arvad səntirləyə-səntirləyə mətbəxə keçib, mis birəlli dolusu su ilə qayıtdı. Hacı kişi suyu qızın üzünə, boğazına çırpa-çırpa deyirdi:

– Yassar olma, qızım! Nədən qorxdun axı, sənə nə oldu? – sonra yenə də hələ nə edəcəyini bilmədən donub oturmuş, dörd gözlə əlindən getməkdə olan yeganə balasına baxan Badambəyimə acıqlandı: – Yer irahla demədim, ay Allah kəsmiş! Ağlın zayıllayıb lap!

Arvad alışdı, daha dözə bilmirdi; ömründə üzünə qayıtmadığı kişisinə cumdu, lap balasını əlindən qartal alan qırt toyuq kimi.

– Canın çıxsın gözünün bəbəyindən. Bayaqdan mənəm-mənəm deyirdin. Balamı adaxlısından eləmisən, indi əlimdən gedən yerdə, nə sovxaşmısan canıma?..

Badambəyim bu sözləri deyə-deyə yer hazırladı. Kişi arvadın hayqırtısına cavab verməyi sonraya qoymayıb, qalxdı, ona sərt bir şapalaq ilişdirib bağırdı:

– O sözü bir də aralığa gətirsən, özünü ölmüş bil! Bax, aç qulağuvu eşit, Qəmzənin ölüsünü hambal çiyninə verrəm, o binamus gədənin yox...

"Binamus gədə" sözü arvadı lap karıxdırdısa da, yerdə çapalamaqda olan və valideynləri arasındakı deyişmədən bixəbər, huşsuz qızına doğru can atdı. Yediyi sillənin acısını da duymurdu:

– Allah insaf versin sənə, kişi! Axı necə olsa dədəsisən, belindən gəlib, yağı balası deyil! Di kömək elə, yorğana salağ bədbəxti... Bəlkə, balam elə axır can üstədi! Qoy heç olmasa axır nəfəsində.... ee-e-eşit*məsin... in...*

Arvad ağlayır və başından sıyrılmış ləçəyi ilə Qəmzənin alnını sarıyırdı. Hacı kişi əyildi, qızı qov kimi yerindən qaldırıb, ananın hazırladığı yatağa saldı.

O gecə Qəmzə özünə gəlmədi, səhər ayılanda atası artıq dükanına getmiş, anası isə yatağının ucunda idi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Can bala, gözünün dərdi mənə, niyə o hala düşdün, sənə nə gəldi?

Qəmzə bir gecənin içində elə dəyişmişdi ki, səhərin xoş işığında illər xəstəsi kimi görünürdü. Gözləri ölgünləşib çuxura düşmüş, yanaqları, dodaqları əvvəlki rəngini itirmişdi. İlaxır çərşənbə gecəsində on bir qız içində, on bir gözəl arasında bir pəri kimi seçilən sevimli çöhrəsindən nişan qalmamışdı. Bütün gecəni şam kimi balasının başı ucunda yanan ana, yaş dəsmalla onun üzünün qanını silmiş, yarasına məlhəm qoyub bağlamışdı. Onun isə bütün bunlardan xəbəri olmamışdı. Qəmzə zəif əlini alnına apardı, ağrıyan başını sığalladı, nazik dodaqları büzüldü, gözləri yaşla doldu, hıçqırıqlar boğazını qəhər kimi boğdu:

– Niyə soruşursan dər-dimi-i, ana? Özün bilirsə-n axı... Dədəmnən-n söhbətüzün ha-hamı-sı-nı e-şit-mişəm... Ana, deyir:

Ay batdı, qaş qaraldı,
Didəmdə yaş qaraldı,
Dərdimi daşa dedim –
Dağ yandı, daş qaraldı.

– Ana, yanı belə daşa dönmüsüz ki, bircə balanızın dərdini də bilmirsiz? Üzümə üz bağlayım deyim sizə? Nə deyim axı... – qızı hönkürtü boğurdu...

Arvad da ağlayırdı:

– Neynim, necə eləyim, bala? Dədəndi, böyügündü! Nə dedi, eləyək gərək! Ağrın alım, dərd eləmə, Allah kərimdi, bəlkə fikrin dəyişdi...

– Yox, ana, mən bilirəm! Elə ürəyimə də dammışdı... O gün üzük falında da Gülnisə bir bayatı çəkdi...

– Əh, canı yanmasın Gülnisənin, sən bayatıya nə fikir verirsən?

– Yox, dədəmi tanımırsan? O, sözündən dönən deyil, dedi, eləyəcək.

Arvad qıza ürək verməkdən bir şey çıxmadığını görəndə deyinməyə başladı:

– Bayısın evi dağılsın, evinə od düşsün! Kişiyə Qaradan nə qandırıblar bilmirəm, üzü lap dönüb. Döz bala, arvadın-qızın Allah qalübəladan talehin kəm yazıb! Mir Saleh ağa da pis oğlan deyil! Keçən şəbihdə cənab Qasim olmuşdu, çox gözəşirin oğlandı! Seyid peyğəmbər övladı, bir parça çörəkləri də var! Nə bilim, bəlkə, Allah bilən yaxşıdı. Ağvalideyin olma, əlindən nə gələcək?..

Qəmzənin artıq gözlərinin yaşı qurumuşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ana, məni dilə tutma! İş heç əmim oğlunda deyil. Mən öləcəm! Bax, vallah nitqim tutulub, bir gecənin içində canım üzülüb, elə bilirəm ki, ölüyəm... Amma ürəyim alışır, mənə bir qurtum su ver...

Ana qalxdı:

– Canından irağ yerdə, ölü neyşə olursan? Pislər ölsün! Sən kimə neynəmisən? Bəlkə, baxtın bu imiş... Allah alnına bunu yazıbmış... – deyə arvad çaydanı yaxına çəkdi, qızın ağlamağı kəsməsindən bir az ürəyi sakitləşdi:

– Qəmzə, dərdin ürəyimə, bəlkə, bir az şirin çay içəsən, ürəyini tutar...

– Yox, yanıram, ana, su, sərin su ver...

– Yanan ürəyinə anan qurban, bala! Amma səhər ertə soyuq su içərsən, irağ-irağ qarnın ağrıyır axı... onsuz da səndə can qalmayıb, arıqlayıb imam cücəsinə dönmüsən...

– Heç nə olmaz, qaradan artıq nə rəng, ana, su ver!..

...Qəmzə sağalmadı, yatağından dura bilmədi. Nişan gətirildi, Qəmzə yataqda oldu; paltarkəsdi elədilər, Qəmzə yataqdan qalxmadı... Dava-dərman fayda vermədi. Şəhərdə molla, dərviş, seyid, cindar qalmadı ki, Badambəyim Qurd Bikəni onun qapısına göndərməsin, qızına dua yazdırmasın! Gizlicə ağanın atası Seyid Məhəmmədin canamazını gətirtdi, qızın başına saldı. Çarə olmadı! Mal ayağı yandırılan duaların, pişik tükünün, xoruz səsi eşitmədən tum bağlamış üzərliyin, atil-batilin tüstüsü Qəmzənin gözlərini acışdırdı... kar eləmədi!... Axırda arvadlar Badambəyimə məsləhət gördülər ki, "Qəmzəni haqqey pirinə apar. Uzunyola gedər, haqqey verəllər, hirsnən gələn dərd hirsnən gedər, sappasağ olar..."

...Ayrı vaxt olsaydı, Badambəyim, qayınxatınısı Xanımsoltana müraciət elərdi, ondan kömək istərdi. İndi qardaşlarla əmi evi arasında düşmənçilik, kin-küdurətli küsü mövcud olduğundan, bir-birinin evinə gedib gəlmir, bir-birindən qonu-qonşu vasitəsilə xəbər tuturdular. Deyərlər, "eltilərin boğçadakı paltarı da bir-biriylə yola getməz" amma Badambəyimlə Xanımsoltan belə qayınxatını deyildi, çox mehriban idilər. Badambəyimin öz bacısı olmadığından eltisini bacı bilirdi. Badambəyim bilirdi ki, Xanımsoltan Qəmzədən ötrü indi nələr çəkir. Başqa vaxt olsaydı, böyük bacı yerində saydığı Xanımsoltanın yanına gedər, deyərdi:

– Canım sənə qurban, ay Xanımsoltan, Qəmzəm əlimdən gedir, gəl məniynən haqqey pirinə gedək! Uzunyola gedək, sünnü piri olsa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*da, bəlkəm, Allah elədi, balama şəfa verdi! Onların da Allahı bir,* Quranı birdi! Hər dildə bir səbəb var, o da pirdi, gedərik, nəzir verrik, bəlkə, dərgah qapısı açıq oldu... Balamın duasını Allah eşitdi?..

Amma indi...Kimsəsiz Badambəyimin yeganə sirdaşı və köməkçisi Qurdlar məhəlləsindən olan bacılığı Qurd Bikə idi. Arvad hər gün papaqçı Hacı kişigilə gəlir, rəfiqəsinin gizli tapşırıqlarını yerinə yetirir, Qəmzəyə bir az ürək-dirək verib gedirdi. İndi haqqey piri söhbəti ortaya çıxanda Badambəyim ərinə müraciət eləməli oldu:

– Əyşi, deyirlər axı qızı haqqey pirinə apar...

Qızın xəstəliyinin uzanmasından pərt olan, söz-sovu qurtarmaq üçün toyun tez edilməsinə tələsən Hacı kişi mızıldadı:

– Apar deyillər, apar da... Mirzəmmədin dərmanından əlac olmayandan sonra, haqqey piri neynəyəcək, o kafir balasına?

– Nasaza danışma, əyşi!..

– Bura bax, arvad! Bax, mən biləni qız özünü faqqılığa vurub! Azarı uzadır ki, bəlkəm mənim ürəyim yumşala, rayımı dəyişəm! Amma budu deyirəm, bu axır sözümdü: haqqeydi-nədi gedin, amma ondan sonra *ayağa durdu – toydu, durmadı – qəbir. O biri barədə söz olmayacaq...*

Söhbət həyətdə kişinin dükana yollandığı vaxtda gedirdi. Arvad ərinin yavaş səslə, lakin dərin bir küdurət və qəzəblə dediyi bu sözləri eşidəndə, təəccübündən dona qaldı! “İlahi, görəsən Qara neynəyib ki, kişi onun əlindən belə hirslənib?” və ana anladı ki, qızının hökmü verilib, bundan sonra Məhəmməd haqqında heç bir söz ola bilməz. Qəmzə haqlıdır, kişi dönməyəcək. Sözləri elə dedi ki, ana onun qəlbinin dərinliklərindən yaralandığını və artıq heç zaman Qaranın adını çəkməyəcəyini başa düşdü. “Bayısın evi yıxılsın”, – deyə ah çəkdi. Arvad yenə də Qaraya, Qaranın özünə heç bir bəd əməl yovuşdura bilmir, elə baisi qarğıyırdı.

Hacı kişinin bazarda kiçik bir papaqçı dükanı vardı, o vaxt Şirvanda Dağıstandan gətirilən qalmığı, çərkəzi dərilər dəb idi və Hacı kişinin bu dərilərdən tikdiyi börklər, papaqlar bütün Şirvanda məşhur idi. Şəhərin və ətraf yerlərin bütün mütəşəxxis adamları, tanınmış simaları kimi, Hacı Seyid Əzim də papağı Hacı kişiyə sifariş edərdi. Arada bir söz gəzirdi ki, bir gün Ağanın növbəti sifarişlərindən birini pis, köhnə dəridən tikdiyinə görə Ağa onu həcv eləmişdir:

Qalmığı, Çərkəs yerinə,
Nə vermisən, curum hacı?



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoymamışdım bir kərə də
Oldu cırım-cırım, hacı!..

Həcv dillərə düşəndən sonra Hacı kişi tutduğu işdən peşman oldu. Lakin vaxtı ilə dost olduğu, hər dəfə dükanına gələndə çaya qonaq edib, şirin baməzə söhbətlərinə qulaq asdığı Seyid Əzimlə haqq-salamı kəsdi. Öz günahının səbəbini özündə axtarmaqdansa, Ağadan incidi. Onun Qara Məhəmmədgilə düşmənçiliyinin bir səbəbi də qardaşı oğlanlarının Seyid Əzimlə yaxınlığı, onu öz evlərində qəbul edib, "Beytüs-Səfa"nın mənzillərində açılmasına razılıq vermələri, ata əvəzi doğma əmilərinə tərəf saxlamamaları idi. Kişi papaq həcvi fəqərəsindəki zarafəti başa düşməmiş və bərk, qəlbən incimişdi. İndi Qara Məhəmməd haqqında çıxan sözü də eşidəndən sonra, lap dəli-divanə olmuş, "Elə bir bu qalmışdı? Bundan sonra mən baş götürüb Şamaxı bazarında gəzə bilmərəm, bu binamusluğu qəbul eləyə bilmərəm! Allah məni oğuldan kəm eləmişdi, bir qız gümanlı eləmişdi, elə bilirdim qardaş balaları mənə oğuldu! Amma yox, Allah oğulu kişinin gərək özünə verə! Qardaş balası da olsa, "başqasının danasını bağlayanın çatısı əlində qalar". Elə bu səbəblərə görə də Hacı kişi gözünün ağı-qarası bircə balası Qəmzəyə qarşı belə "düşmən" kəsilmişdi.

İşin əslindən bixəbər olan Badam bəyin ərinin daş ürək olmasına heyrət eləyir: "Kişi, deyəsən, lap ağlını itirib, şükür sənə Xudaya, insan olan bəndə, ata da öz doğma balasına belə zalım olar?" deyə düşünürdü.

Hacı kişi dükana tələsdiyindən başdansovma soruşdu:

– Yaxşı, gedin, amma kimnən gedəcəysiz?

Matı-qutu çəkilmiş Badambəyim dilləndi:

– Qurd Bikəynən.

– Yaxşı, amma gec qalmayın...

Kişi çıxıb getdi, dünəndən sözləşdikləri kimi Qurd Bikə tez gəldi. Azarlını birtəhər geyindirib yola çıxdılar... Çoxdan bəri çöl-bayır görməyən Qəmzəyə elə bil bir qədər can gəldi. Təmiz hava, kimsəsiz, gözəl yollar, bağlar, gül-çiçəkli çəmənlər, yamyaşıl təpələr qızın bir az eynini açdı. Pirə gedənlər piyada getməliydilər, odur ki, yollara bələd olan Qurd Bikə aram-aram irəliləyir, arabir rəfiqəsinə göz işarəsilə Qəmzəni göstərib deyirdi:

– Şəkkakə lənət, bacı, bir bax, maşallah, yola düşən kimi, deyəsən qız babatlaşır...

Ananın da ürəyi sakitləşməyə başlamışdı, o da Qəmzədəki təbəddülatdan sevinirdi...

...Gün günorta olmamış pirə çatdılar. Pir bağ arasında iri meşə ağacları içərisində tikilmiş qədim bir bina idi. Divarlarını yosun basmışdı. Günbəzinin üstündə belə gömgöy otlar bitmişdi. Həyətdə bir neçə arvad var idi. Qəmzəgili pirin mücövürü Ayişə xala qarşıladı:

– Əleykəssalam, xoş gəlmisən, Allah şəfa versin, azarınız bu qızdı deyəsən?..

Bikə cavab verdi:

– Hə, bacı, sizi deyib gəlmişik. Bu qapıdan şəfa istəyirik, bircə qıza...

– Sidqi dürüst gəlmisizsə Şıx Eyib köməyiniz olar. Allah qoysa, burdan sağ-salamat, azarın-bezarın töküb gedər...

Onlar gətirdikləri nəzri Ayişə xalaya verdilər. Badambəyim əlavə bir neçə pul da verəndə, Ayişə xala zəvvarları xüsusi hörmətlə içəri çağırdı. Həyətdəki başqa arvadlar da içəri girdilər.

Pirin içərisi yarımqaranlıq idi. Divardakı mazğala bənzər dar və uzunsov pəncərələrdən içəriyə günəşin işığı güclə düşür, ölgün bir kölgəlik yaradırdı. Sərin idi. Arvadlar köhnə həsir və taxtamicə palazların üstündə dövrə vurub oturdular. Pirin qayda-qanununa Badambəyimdən yaxşı bələd olan və yolda ona keçiriləcək ayinlərdən bəhs edən Qurd Bikə, Qəmzəni özü ilə anasının arasında əyləşdirdi və yavaşca qulağına pıçıldadı:

– Sidqini möhkəm elə, qızım! Bax, mücövür arvad nə dedi, sən də elə...

...Ayişə xala orta divarda köhnə ocaq yerinə bənzəyən mehrabın qarşısında oturdu. Onun başı üstündə divara ərəb dilində bu sözlər həkk olunmuşdu: "Ya hu: ya həqq, ya həyyül-qəyyum".

...Arvadlar yerlərini rahatlayıb oturandan sonra, Ayişə xala əllərini qoynuna qoydu. Üzünü əvvəl sola, sonra sağa çevirib üfürdü, əlləri qoynunda yerində yırğalanmağa başladı və yırğalandıqca "duasını" oxuyurdu:

Yerdən illəllah,
Göydən illəllah,
Ya Pirdirəki, səndən illəllah,
Ya Şıx Eyib, səndən illəllah,
Ya Pirsaat, səndən illəllah!
Ya Dədəgünəş, səndən illəllah!

Onun hərəkət və sözlərini təkrarlayan arvadlar getdikcə qızışır və dizləri üstündə, yavaş-yavaş məclisin ortasına doğru irəliləyirdilər...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayişə: – Huy-huy-huy baba!
Arvadlar: – Huy-huy şıx baba!
Ayişə: – Haqq-ey, haqq-ey!

Getdikcə özlərini unudan, ağızlarından köpük daşlanmağa başlayan arvadlar "haqq-ey, haqq-ey" deyə-deyə şappaşap qollarına vurur və dizin-dizin irəli sürünürdülər...

Həyəcanı, əsəbiyyəti artan və getdikcə də gərginləşən xəstələrdən çoxunun ürəyi xarab olub, üzgün və bitab halda yerə yıxılmışdı. Belələri haqqında daha ayıq olanlar deyirdi: "Bəxtəvər! Bu sağalacaq, düşdü ona; hirsnən gəlibmiş, haqqeynən çıxdı".

...Qəmzə gün əyiləndə gücnən özünə gətirildi... Üzünə çilənən sərin sular, açıq və təmiz hava kömək etdi, qız ayıldı. Gecikdiklərindən, ərinin qorxusundan Badambəyim qızın zəifliyinə, heç bir şey yeməməsinə baxmayaraq, dərhal yola düşdü. Bikə arvad "Bəlkə, heç gətirməyəydik, yazıq qız bir az da üzülüb, nə bilim vallah, bəlkə sonra, xeyrini gördü" – deyə düşünürdü.

Yol uzun və kimsəsiz idi. Minikləri yox idi. Xəstənin hər iki tərəfdən qoluna girib güclə sürüyür – aparırdılar. Bu gedişlə heç bir günə də evə gedib çıxa bilməyəcəkdilər.

Pirdən bu qayda ilə xeyli aralanmışdılar ki, arxalarından at ayağı tappıltısı eşidib, yoldan çıxdılar. Taqəti üzülmüş Qəmzəni yolun qırağında oturtdular. Ana ona məşğul ikən Qurd Bikə çarə aramağa başladı. O da gecəyə düşməkdən qorxurdu. Gecə üç zənən xeylağı çöldə nə edəcəkdilər?.. O arxaya baxanda iki atlı gördü, tanımasınlar deyəmi, ya da naməhrəmdən gizlənmək üçünmü bərk-bərk yaşındı və əlini qaldırıb atlılara tərəf irəlilədi:

– Ay qardaş, sən həzrət Abbas, bizə kömək eləyin! Azarımız var, pirdən gətiririk...

Atlılar dayandı, əvvəlcə onlar da naməhrəm qadınlara baxmaq istəmirdilər. Kömək vermək istəsələr də, aralıdan edəcəkdilər. Bunlar yaxın kənddən toydan qayıdan Seyid Əzim və Qara Məhəmməd Səfa idi. Seyid Əzim qadınların heç birisini tanımırdı. Atdan enib dayanmışdı. Amma Məhəmməd əmisi arvadı Badambəyim və Qəmzəni görən kimi tanıdı, dönüb maraqla xəstəyə baxdı və hayqırdı:

– Əmdostu?

Badambəyim bu səsə başını qaldırdı. Məhəmmədi görəndə nə edəcəyini bilmədi. Sevinsinmi ki, Qəmzəyə kömək tapılıb, ağlasınmı ki,

əri bilsə Qəmzə və o Məhəmmədlə görüşüb, ətlərini şişə çəkər? Arvadı ağlamaq tutdu:

– Əmdostunu Allah öldürsün, bala!..

Məhəmməd həyəcan içində çırpındı, atdan sıyrılıb endi, cəld onların yanına cumdu:

– Qəmzəyə nə olub belə, əmdostu?

– Görmürsən? Öldüyü gündü...

– Naxoşluğun eşitmişdim, belə bilmirdim...

– Hardan biləsən? Gedənimiz, gələnimiz var ki?.. Neçə vaxtdı suyu sənəkdən görürük, göyü bacadan.

– Axı nədi azarı?

– Get onu əmin batmışdan soruş!..

– Əmim məni yaxın qoyur ki?..

– Sənin dərdin çürütdü bizi, Qara!..

– Mən neynəmişəm ki, əmdostu?

– Deyirəm get əmindən soruş onu!.. O bilər neynəmisən!.. Kölgəni də qılınclayır, adını da evdə çəkə bilmirik, nə sənin, nə ananın, nə qardaşlarının...

– Bəs indi hardan gəlirsən axı?..

– Nə bilim, dava-dərmandan, nəzir-duadan çara olmadı. "Haqqey pirinə, apar" dedilər, apardım... Bədbəxtin halı bir az da xarablaşıb... Balam əlimdən gedir, Qara!..

Məhəmməd, Ağanın, yad arvadın və əmdostusunun yanında Qəmzə ilə kəlmə kəsə bilməyəcəkdi. Qəmzə isə gözünün önündə elə bil ki, sönürdü.

Qız bütün hadisələrə biganə kimi oturmuşdu. Elə bil bütün həyatı ikicə gözünə yığılmışdı. Bu gözlər Məhəmmədə nələr deyirdi, nələr demirdi: "Məni nə tez unutdun, Qara, məni neyşə tək qoydun, Qara, hanı sənin əhdin, ilqarın, Qara? Sən nə bivəfaymışsan? Sən nə biganəymişsən, neyşə məni düşünmədin, Qara? Neyşə dədəmə elə yamanlıq elədin ki, mənim bu hala düşməyimə səbəb oldun? Qara, Qara!.. Adın dilimi yandırır, çəkə bilmirəm! Çəkməsəm olmur! Adın ürəyimi yandırır, çıxarda bilmirəm! Əmioğlu, hanı bizim uşaqlıq çağlarımız? Axı biz göbəkkəsməydik, bizi heç bir-birimizdən gizlətməzdilər də... Necə oyunlarımız var idi, necə söhbətlərimiz var idi, nağıllarımız, mahnılarımız var idi! Hamısı yalan imiş, hamısı yarımçıq qalmaq üçünüymüş, Qara, Qara! Adın dilimi yandırır, ürəyimdən çıxmır!.. Çıxarda bilmirəm səni ürəyimdən, Qara! Elə bilirsən, mən Mir Saleh ağaya



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

arvad olacam? Elə bilirsən sənsiz bu dünyada yaşayacam? Sən hələ kefdə-damağdasanmış, Qara? Bəs deyirdin sənsiz bu dünya mənə dardı, əmiqızı? Nə gen imiş dünyan, əmioğlu? Nə gen imiş? Amma bir mənə yer yox imiş o gen dünyada? Bəs Xanımsoltan əmdostum neyşə mənə yanmır? Deyərdi: gəlinim mənim, Şamaxı arvadları içində məndən xoşbəxti yoxdu ki, sənin kimi gəlinim olacaq, hamı mənə paxıllıq eləyəcək..." Bəs niyə mənə çarə eləmirsiz? Niyə dədəmin könlün alınırsız? Niyə onu yola gətirmirsiz, neyşə şəhərin ağsaqqalın-qarasaqqalın ayağına töküb barışmırsız? Buymuş sənin vəfan, Qara? Buymuş? Hər təzə aya baxmaqdan ay kimi incəlmişəm, hər təzə aya baxanda ürəyimdə səni tutub niyyət eləyirəm:

Ay doğdu Allah,
Təbarəkallah,
Var bir niyyətim
Nədi qismətim?

– deyirəm, qismətimsənmi, əmoğlu? Qismətimmisən? Sən nə etibarsız çıxdın, Qara, nə etibarsız çıxdın?

...Məhəmməd bu gözlərdəki tənə-tərzləri oxuyurdu: "Elə bilirsən əmimnən barışmağa çalışmırıq? Heç yaxın qoyur ki?!"

O, dərdlərini ürəyində gizləyib Qəmzəni və arvadları çətin vəziyyətdən çıxarmaq üçün onlardan aralandı, yolun o tayında durmuş Ağaya yanaşdı.

– Aadə, Səfa, deyəsən, tanışdılar zənənlər, hə?

Qara dərin bir kədər və qəm dəryasına cummuşdu, şair bunu dərhal duydu:

– Kimdilər dost?

– Əmdostumdu, əmimin külfəti, qızı! Dostun Hacı kişinin külfəti, o biri arvadı tanımadım.

– Hardan gəlirlərmiş? Piyada, tək niyə?

O kişisiz demək istəyirdi.

– Bu pirə gərək piyada gedilsin. Əmimin qızı bərk azarlıdı, yeriyə bilmir; Ağa zəhmət olmasa, məni bağışla! Siz irəli gedin, mən atımı onlara verim, özüm qarabaqara gedib şəhərə çatanda atı allam, əmim bilməsin...

Seyid Əzim anladı: şəhərə yayılmış hadisədən hamı xəbərdar idi: "Papaqçı Hacı kişi göbəkkəsmə elədiyi qızını oğul əvəzinə böyütdüyü qardaşı oğluna verməyib. Sözün dəbbələyib! Verib qızı Sarı Hacağanın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oğlu Mir Salehə... Toy uzanır... Qız naxoşdu, deyillər xəbt-damağ olub, ya uzun azara tutulub... İş böyükdü..." Hərə bir söz danışırdı...

– Yaxşı tək sən neyşə?... Bir atnan onlar neynərlər? Mənim atımı da ver, qoy şəhərin girəcəyində düşsünlər, atların cilovunu ağaca bağlarlar. Biz də qarabaqara, söhbət eləyə-eləyə gedib atları açıb aparrıq...

– Sizə zəhmət olar axı...

– Ayıbdı, Səfa, elə sözü heç dilinə gətirmə...

Məhəmməd Səfa arvadların yanına qayıtdı. Qəmzənin gözləri yenə də dərd, ələm, tənə yağdırırdı. Cavan şair dözmədi, ağır olsa da, ayrılmaq istəməsə də tələsdi. Onsuz da burda Qəmzə ilə danışmaq ona müyəssər olmayacaq idi:

– Əmdostu, kömək eləyim, bizim atları minin, şəhərə çatanda düşüb atları ağaca-zada bağlarsız, biz daldan gəlib açıb aparrıq. Qorxub eləməyin, qarabaqara gəlirik. Amma hansınız yaxşı at minə bilirsə, azarlını (o, Qəmzə deyə bilmədi, qız isə düşündü "zalım, daxı adımı da çəkmirsən") onun tərkinə mindirək.

Badambəyim dedi:

– Yaxşı bala! Ancaq mən atda gücnən oturacam, genə bəlkəm Bikə xalan bilir...

– Neynək, mənim tərkimə mindirin, mən yaxşıyam.

Qadınlar Səfanın köməyi ilə ata mindilər. Məhəmməd Qəmzəni qucağına alıb Qurd Bikənin tərkinə mindirəndə, göz oğurlayıb üsulluca qızın soyumuş əlindən öpdü. Səfanın dodaqları buzladı. Qəmzənin əli yandı...

...Atlılar getdi, yaşlı şairlə cavan şair kimsəsiz yolda tək qaldılar. Lakin dərd bağlamış dilləri danışmırdı. Seyyid zamanın bədbəxt etdiyi daha bir nakam məhəbbətin şahidi olmuşdu. Ona bir anlığa elə gəldi ki, üzülən Qara deyil, Tərlandır! Tanımadığı, üzünü də əməlli görə bilmədiyi qız Qəmzə deyil, Sonadır! Evinə pərişan; saçları dağınıq gəlmiş, bəstə pənah gətirmiş Sona!!! Ona elə gəldi ki, qulaqlarında Sonanın, bəlkə də, ilham pərisinin, pərilər soltanının səsini eşidir: "Şairim, nə vaxtacan məhəbbətlər boğulacaq? Nə vaxtacan istəklər ayaqlar altına atılacaq? Nə vaxtacan Leylinin göz yaşlarını silməyə qadir olmayacaqsınız, ey əsrin məcnunları? Ey əsrin nur çeşmələri! Ey zülmət içrə nur olan Məcnun, öz Leylanı nə zaman bəlalardan xilas edəcəksən?" Şair bu zorla bir-birindən ayrılan, bir-birini yaşatmaq üçün yarandığı halda, biri digəri üçün ölən cavanların eşqinə, qəlbindən dodaqlarına süzülən qəzəli özü də hiss etmədən ucadan deyir, sanki fələyə lənətlər sovururdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şərabi-vəslüvü qıldı mənə həram fələk!
Məni fəraqın ilə etdi təlxkam fələk!

Məqami-qürbdə dil şad vüsalından
Ayırdı məndən o məhrunu biməqam fələk!..

Gecəm, günüm bir olub, ol məhin fərağından,
Görüm qəraya bata böylə sübhü şam, fələk!

Gənc şair dinlədikcə düşünürdü: "Yaxşı deyirsən, Ağa, yaxşı duymuşsan dərdimizi! Amma Qəmzənin o qəmli gözlərin görsəydin, mənim kimi lal olardın, heç nə deyə, heç nə qoşa bilməzdin..."

## GÜLLÜBƏYİM

Bilirəm nigaransan, ay dost, Sona dərdilə səni intizarda qoymuşdum, üstünə Qəmzə dərdi də gəldi. İndi də səni nigaran qoymağa, bir qədər həmin hadisələrdən qayıtmağa məcburam. Məni bağışla, bircə saat vaxtını alacağam. Əlini mənə ver, dayağım ol, gəl Güllübəyimgilə gedək... Axı sən Seyid Əzimin Tərlana yazdığı məktublardan və şairin xəyallarından onun adını eşitdin, üzünü görmədin. Bu tanışlıq vacibdir, sən öz əsrinin nazəndə mələyi, incə sənətkarı Sona, faciə mücəssəməsi Qəmzədən başqa, maarif fədaisi, cəsur bir qadını – Güllübəyimi də tanımalısan... Axı Seyid Əzim məktəbi quru yerdə yaranmayıb, ondan əvvəl Şamaxıda Rza bəyin, Güllübəyimin az davam etsə də məktəbləri olub, bunlar da onun üçün bir ülgü, bir ilham mənbəyi yerini görüblər.

İntizar yamandır, dost, bilirəm, səndən çox vaxt istəməmişəm, bir az sonra Sona ilə, Qəmzəylə görükəcəyik, indilik nağıl xəzinəsi, nənələr demişkən, Sonayla Qəmzə burda qalsın, sizə kimdən deyim, kimdən danışım Güllübəyimdən... Güllübəyimin şəxsiyyəti ilə gec tanış oluruq, onun həyatının ağır dəqiqələridir, bir neçə ildən bəri yarı mollaxana, yarı yeni tipli bir qız məktəbi kimi Şirvanda şöhrətlənmiş bu dərsxana ilə, Güllübəyimin oradakı fəaliyyəti ilə yaxından maraqlanmağa vaxtımız indi müsaidə edir. Buyurun, irəli, əziz dost, əlinizi mənə verin, Şirvanın, bəlkə də bütün Azərbaycanın ilk qız məktəbini açmağa cəsarət etmiş bu münəvvər qadının, müəllimənin məktəb-dərsxana yerini görən evinə gedək.

Güllübəyim axşamdan İsrafillə bərk höcətləşmişdi. Əslində çox üsul və mehriban adam olan İsrafil, Güllübəyimin işlərinə o qədər də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baş qoşmazdı. Xətrini çox istədiyi arvadının mollaxana açmağı da belə oldu. Məhəllənin kasıb uşaqlarından bir neçəsini evinə toplayıb çərəkədən dərs verməsinə də mane olmadı. "Nə qədər ki, oğul-uşaq sahibi deyil, qoy başı qarışsın, sonrasına baxarıq", deyə düşündü. Evləri Qurbanqulugillə qonşu idi. Molla arvadı vasvası Umsəlmə də, qızı Narıncla birlikdə öz evlərində çərəkədən dərs oxudurdular. Buraya gələnlər az-çox varlı qızları olduğundan Umsəlmənin qazancı çox idi. Həm də qızlar Umsəlmənin ev işlərinə də kömək eləyirdilər. Birdən-birə Güllübəyimin pulsuz-pənəsiz dərs deməyə başlaması Molla Qurbanqulu ailəsinin qazancına zərər verməyə başladı. Əvvəl Narınc "eh, canı cəhənnəmə, ora gedən kimdi ki? Ac-yalavacın törəməsi, onlardan nə xeyir olacaq?" demişdi. Amma Güllübəyimin qızları pulsuz oxutması, evdə işlətməməsi xəbəri qonşulara çatanda, çoxları öz qızını Umsəlmənin və xüsusilə Narıncın qulluqçusu olmaqdan xilas eləyib Güllübəyimin mollaxanasına apardı. Narınc Güllübəyimə düşmən kəsildi. Söz-sov çıxmağa başladı.

...Doğrudan da, Güllübəyimin mollaxanası qəribə idi. Burada mollabacı Güllübəyim xüsusi, özü düşündüyü bir tərzdə dərs verirdi. O, bir saat qızlara çərəkədən oxumaq öyrədir, bir saat yazı yazdırır, sonrakı vaxtı isə tikiş tikmək, ev işləri görmək, özünə qulluq etmək, necə dolanmaq kimi mollaxanaya dəxli olmayan şeylər təlim eləyirdi. Analar Güllübəyimdən çox razı idilər. Uşaqlar evə gələndə mollabacını tərifləməkdən doymurdular. Qızlar elə üsul, mehriban, təmizkar, çalışqan və səliqəli olmuşdular ki, valideynlər ikitərəfli razı idilər: təzə mollabacı həm pul almır, həm də yaxşı dərs öyrədir. Bir qisim adamlar isə Narıncın yaymağa başladığı və Molla Qurbanqulunun da arabir dəstəklədiyi fikri qüvvətləndirir: "Qız uşağına yazı yazmaq nəyə lazımdır? Sonra da əli qələm tutan kimi oğlanlara eşqnamə yazacaqlar" deyirdilər. Söz-sov artıb İsrafilin qulağına çatır, Baqqalbazarda ona birtəhər baxmağa başlayırdılar.

İsrafil əvvəlcə eyhamlarla qadınını bu "şarbaşaran işlərdən" qorumağa çalışdı:

– Güllübəyim, sən neyşə bu el dəbiycən, başqa mollabacılar kimi oxutmursan qızları?

Güllübəyim dedi:

– Axı yazıqdırlar, mən istəyirəm ki, bildiklərimi onlara da öyrədim...

– Yazı qızın nəyinə gərəkdir? Deyirlər qızın qələm tutmağı günahdı.

Güllübəyim mehribanlıqla ərinin sözünü kəsdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Vallah, yalan sözdü, mənim öz müəllimim Molla Babanın yanında neçə qız oxuyurdu? Göhərbəyim, mən... hamımıza da yazını o özü öyrədirdi. Deyirdi ki, mollalar düz deməyib, qız oxuyub yazsa heç də günah deyil... Əgər günahdı, bəs neyşə mollalar öz qızlarını, bəylərin, ağaların qızlarını oxudur, yazmaq da öyrədir, hə?

İsrafil bu məntiq qarşısında bir söz tapa bilmədi. Yalnız, nədənsə, öz talelərini düşünürdü, dedi:

– Bilirsən, Güllü, mən özümüz üçün qorxuram, bilmirəm, nədənsə ürəyimə damıb ki, sənin bu işlərinin axırı yaxşı olmayacaq... Bazarda hərdən qulağıma elə sözlər dəyir ki, o Qurbanqulu var ha... lap elə onun o Alışa istənilən qızı Narınc... Allah onların şərindən saxlasın, nə desən əllərindən gələr... Sən onları yaxşı tanımırsan, amma biznən dədə-baba qonşudular... Mən bilirəm onlardakın... Quyruqların bircə tikə basdınmı, vay halına!.. Sən də ki, onların hazır çörəyini əllərindən almısan...

– Neynəmişəm onlara? Yaxşı oxutsunlar... Qızları səhərdən axşamacan nökər-qulluqçu yerinə işlətməsinlər... Biri ev süpürür, biri palaz-paltar yuyur, biri hamamda Umsəlmənin satıl-boğçasını aparır, biri uşaq yırğalayır... Xalq da görür...

– Nə deyim vallah! Genə də deyirəm ki, Allah axırın xeyir eləsin... Amma bir şeyi bil ki, mən heç bir biabırçılığa dözə bilmərəm. Cəmbəm götürməz. Əgər bir şey baş versə, sənin adın ləkələnsə, mən bu eldə, o şəkibaz Baqqalbazarda gün keçirdə bilmərəm. Bax, sənə qabaqcadan deyirəm: ya onlara dəyib-dolaşma, boş yerə üstünə qaldırma, ya da onlar sənə dəyib-dolaşsa, adını dillərə salsa, baş götürüb bu eldən gedərəm... Mənim onlarla hampalaşmağa halım yoxdur...

Güllübəyim susdu... Bir söz deyə bilmədi. Amma son zamanlarda yeni dərs kimi uşaqlara öyrətməyə başladığı "nəğmə-mahnı" dərsi haqqında düşünməyə başladı: "Yaxşı ki, hələ bundan xəbərləri yoxdur! Düzdü, qızlara tapşırmışam, amma heç ürəyim yerində durmur. Görəsən kəsimmi, yox, axı mən təkcə onların xeyrini düşünürəm. Mənə ki, bir mənfəəti yoxdu. Haxçıx Şuşanıkın, Marya bacının ev uşqolunda necə görürəm, elə də istəyirəm ki, bizim qızlar da bir şey öyrənsinlər. Elə ölü duası, fatihə surəsi, namaz qaydaları, oruc, xüms, zəkat... Bəs bu dünyada onlara heç nə lazım deyil? Dayıoğlum da deyirdi ki, Allah insanı bu dünya üçün xəlq eləyib, o biri dünya, axirət, Allahın öz rəhminə bağlıdı. Sən çalış ki, bu dünyada beş günlük ömrünü fənaya verməyəsən... Amma bizim yazıq qızların bu beşgünlük dünyada fənadan başqa heç bir xeyri yoxdu. Elə o dünya üçün çalışırlar, vəhşət namazı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayət namazı, qəza namazı, nimeyi-şəban namazı, nə bilim daha nələr. Bəs Allahın insana bəxş elədiyi bu aləmdə, onun üzü gülməsin gərək? Mən ki, günahkar deyiləm – Allah özü məni yaradıb".

...O bu sözləri düşünə-düşünə ərini yola salıb, sinif otağını silib-süpürməyə, bir azdan sonra dərsə gələcək qızlar üçün hazırlığa başladı.

Bu çox təmiz və işıqlı bir otaq idi, yerə təmiz, nimdaş palazlar salınmışdı. Divarlara qəşəng qətələr[1], taxçalara salmanclar, camaxatanlara pərdəbaşlıqları vurulmuş, rəflərə incə, laciverdi kasa və boşqablar, çaydan və gülabzənlər qoyulmuşdu. Divar boyu xırda döşəkçələr salınmış, hər döşəkçənin önünə kiçik rəhil qoyulmuşdu. Rəhillərin üstündə çərəkə, Quran, yanda – yerdə isə qələmdan və balaca bayazlar düzülmüşdü. Güllübəyim bütün əşyanı bir də nəzərdən keçirib sildi, qapı ağzına salınmış ayaqaltını da çırpıb səliqə ilə yerinə döşədi.

...Qızlar iki-bir, üç-bir gəlməyə başladılar.

– Salaməleyk, mollabacı.

– Əleykəssalam...

O, qızları gülərüz və mehribanlıqla qarşılayırdı.

Hamı yığıldı, hərə özü üçün müəyyənləşdirilmiş yerə keçdi. Güllübəyim də otağın yuxarı başında salınmış iri döşəkçənin üstündə oturdu. Onun əynində Şirvan xanımlarının geydiyi gen, xara tuman, açıq çəhrayı qanovuzdan köynək, yelpazə qolluqlu kiçicik arxalıq vardı. Başına badımcanı haşiyəli ağ Gəncə kəlağayısı bağlayıb, boğazının altından dolamışdı. Üstündə heç bir bəzək yox idisə də, cavan mollabacı gəlin kimi gözəl idi. Yumru, xırda çənəsinin üstündəki qara xal yuvarlaq dodaqlarını daha da al göstərirdi. Bir cüt qara üzüm giləsini xatırladan gözlərindən nəvaziş tökülürdü. Burma birçəkləri, kəlağayının altından çıxıb üzünün ağlığını daha da artırırdı. Məşşatə əli görməmiş qara qaşları elə bil qələmlə çəkilmişdi. Güllübəyim əlini qaldırıb rəhilə tərəf aparanda qızlar hamısı sakitləşdi.

– Bismillahir-rəhmanir-rəhim...

Qızlar hamısı rəhillərin üstündəki çərəkə və quranları açdılar. Hər birisi mollabacının bugünkü oxu dərsi üçün verəcəyi tapşırığı gözləyirdi. Lakin Güllübəyim bir az əvvəlki fikirlərinin təsirilə, sanki bayaqkı xəyallarını davam etdirərək sözə başladı:

– Pərvərdigari-aləm insanları xəlq eləyib, əvvəlcə – bu dünya üçün.

[1] Müqəddəslərin şəkli salınmış çərçivə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əbrü-badü mahü xorşido fələk dər karənd
Ta to nani be kəf ari və beqəflət nə xori...[1]

Əgər pərvərdigari-aləm insanı təkcə o dünya üçün xəlq eləsəydi, elə o dünyada da yaradardı, daha zəhmət çəkib bu böyük aləmi xəlq eləməzdi. Sən bu dünyaya gəlmisən ki, bir iş görəsən. Və böyük xudavəndi-aləmin yaratdığı nemətlərdən, məhz sənin üçün yaratdığı nemətlərdən, onları əldə edəndən sonra istemal da eləyəsən. Allah-taala, çayların, quşların, bülbülün sədasını dinləmək üçün sənə qulaq verib, asimanın, dağların, meşələrin, çiçəklərin və güllərin rəngin gözəlliyini görmək üçün sənə göz verib, musiqidən, nəğəmatdan, əşardan və başqa növ gözəlliklərdən zövqi-ruhani almaq üçün sənin ürəyin var. Əgər bunlar insana lazım olmasaydı, heç bir şeyi, yeni bir zihəyatı səbəbsiz yaratmayan pərvərdigar, ya sənə bu üzvləri verməzdi, ya heç onları yaratmazdı... Elə heyvan kimi...

...Qızlar nəfəslərini gizləyib Güllübəyimin nəsihətlərini dinləyir və xırdaca qəlblərinin döyüntüsünü eşidirdilər. Onların ürəyində hələ evdəki vəzlər o qədər də dərin kök salmamışdı. Kiçicik bir şübhə lazım idi ki, o zəif örtü, qara örtü – nazik duman kimi dağılıb getsin, yerini coşqun təbiətin çağırışı tutsun. Qızlar bu anda qaradinməz nənə və analarını, günləri namaz və orucla keçən böyükləri unudur, öz mollabacılarına haqq qazandırır, onu haqq sanır və sözlərini dadlı bir xəyal, şirin bir yuxu kimi həvəslə, bütün varlıqları ilə dinləyirdilər...

...Quran, oxu və yazı məşğələləri bitdikdən sonra, Güllübəyim dəfini əlinə alıb qızları oxutmağa, onlarda rəqs, nəğmə vərdişləri yaratmağa başladı. “Heç olmasa burda bir az üzləri gülsün, heç olmasa, burda bir neçəsinin qəlbinə sevinc yol tapsın...”

...Şamaxı evlərinin çoxundan dəf səsi gələ bilər. Bu heç kəsi təəccübləndirməz... Amma bu gün Narınc çox təəccübləndi və marağı artdı. O elə onsuz da Güllübəyimi güdür, əlinə bir bəhanə keçirməyə çalışırdı. “Bu da sənə mollabacı... Evində dəf səsi, şırıqqa səsi! A sənə uşaq usburd olanın dədəsi tünbətün düşsün... Üç ildi sən bizim canımızı xirtdəyimizə yığmısan... Dayan, köpək qızı, bu neçə vaxtı dədəm sənə dəyib-dolaşmağa qoymur ki, Mahmud ağanın bibisi qızıdı, onlarla düşünüşməyimiz yaxşı düşməz. Odur ki, əlimi sənə bulaşdırmıram... Qoy bir hələm gör sənin başına nə oyun oynayacam...”

[1] Bulud, külək, ay və günəş fəaliyyətdədir ki, sən çörək əldə edə biləsən və onu qəflətlə yeməyəsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Narınc darvazaya yaxınlaşdı, ehtiyat edirdi, bir adama rast gəlmək istəmirdi; amma şübhə, maraq onu irəli aparır, dincəlməyə qoymurdu: "Yaxşı, uşaqlar gərək hələ dağılışmamış olsun, bəs dağılışıblarsa, bu kiminlə kefdədi, hə?.." Narıncın atası Qurbanquluya bənzəyən yoğun bədəni gen tuman və köynəyin içində əsirdi, darvazaya yaxınlaşıb taxtaların arasından içəri baxmağa başladı, həyətdə heç kəs yox idi, səs içəridən gəlirdi. Kim isə oxuyur, arabir şırıqqa çalınır, dəf təqt tuturdu... Birdən bir neçə incə qız səsi o zaman Şirvanda dəb olan "Sağrı başmaq" mahnısını elliklə oxumağa başladı:

Sağrı başmaq zənənə,
Dünyada gözəl çox, mənə nə,
On iki imam qənim olsun
İlqarından dönənə.

Sağrı başmaq mərd olu,
Geyməyən namərd olu
İstədiyinə getməyənin
Ölənəcən ürəyində dərd olu...

Narınc qulaqlarını şəklədi: "Aaa... deyəsən, qızların səsidi axı... Bəs bu Güllübəyim batmış qızları qoyub hara itib ki, onlar da çərəkə əvəzinə nanay vurullar?" İndi isə səslər və mahnının ahəngi dəyişdi, indi qızlar Şirvan şikəstəsi oxuyurdular:

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu,
Gedirdim səni görəm,
Yağılar kəsdi yolu.

Şirvana paşa gəldi,
Gör nə tamaşa gəldi,
Şükür gördüm üzünü,
Hər arzum başa gəldi.

Narınc bu Şirvan şikəstəsi oxuyan qızı səsindən tanıdı... "Bıy, Meşədi Qənbərin nəvəsidi ki... vallah özüdü! ...Ay səni görüm canuva od düşsün, necə də yanıqlı oxuyur? ...Yaxşı, doğrudan bəs Güllübəyim hardadı görəsən?"



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Narıncın ağlına da gəlməzdi ki, Güllübəyim otaqdadır. Birdən otağın qapısı açıldı. Qızlar səs-küy ilə həyətə çıxdılar. Narınc qorxdu, qızların qapıya çıxıb onu görə bilməsindən ürkdü. Lakin qızlarla birlikdə Güllübəyimin də həyətə çıxması və qızların heybəsiz, əliboş olması, onu yerində saxladı: "Nə? Mollabacı Güllübəyim içəridə ola-ola belə rüsvayçılıq? Bəs onlar orda nə dərsi keçir?"

Qızlar isə həyətdə müxtəlif oyunlar oynamağa başladı: kimisi ip üstdən tullanır, kimisi "səndə-məndə", başqa bir dəstə "gözbağlıca"... Mollabacı Güllübəyim isə onlara nəzarət eləyib ortalıqda gəzişir, qızlarla sənli-mənli gülüb-danışır, cığallıq eləyənləri danlayır, küsüşənləri barışdırırdı... Yox, bu dərs deyil, mollaxana deyildi.

Narınc gördüklərini anası vasvası Umsəlmə və atası Molla Qurbanquluya danışmaq üçün evlərinə götürüldü. Qapılarının ağzında yengə Əzizbikəylə toqquşdu:

– Salam, Əzizbikə xala, nə əcəb belə? – Narınc həyəcanını gizləyib yengəni nəzakətlə qarşıladı.

– Əcəb camalın, ay mənim matan qızım! Belə səni Allah mənim əlimnən, tezliklə xoşbəxt eləsin, göydə Allah, yerdə mən...

Yengə, qızın çənəsi qabağında bir çırtıq çaldı, yeddi məşşatə əlindən çıxmış ağ maya üzünü Narıncın tüklü sifətinə sürtüb marçıltıyla öpdü. Yengənin xoş xəbərlə gəldiyi Narıncın kefini durultdu. Böyüyüb çoxdan bəri gəlinlik dövrünü keçmiş Narınc, Əzizbikənin ondan ötəri müştəri gəzdiyini yaxşı bilirdi. Amma məhəllədə öz dalaşqanlığı, sözgəzdirməsi, "qıldırımqaşlığı" ilə məşhur olan Narınc, Umsəlmə və Molla Qurbanqulu kimi "mömin bəndələrin" övladı olsa da, qorxusundan heç kim yiyə durmamışdı. Qız da qarıyıb hədəqədən çıxmışdı. Yazıq Umsəlmə neçə cümə günü qızının başına qırxaçar camı ilə baxtaçma duası oxunmuş su tökmüş, baxtını açdırmışdısa da, "düşmənin cadısı güclü çıxmış", qıza elçi gələn olmamışdı. İndi ümid, uzaq məhəllələrə, qızın xasiyyətinə bələd olmayan ailələrin oğlanlarına və münasib qız axtaran yengə Əzizbikəyə qalmışdı. Odur ki, Narınc yengəni xüsusi ehtiram və ədəblə qarşıladı; birdən-birə quzuya dönüb, evə dəvət elədi. Arvadın çarşabını aldı, büküb taxçaya qoydu və həyətə çıxıb çay hazırlığı görməyə başladı.

Vasvasılıqdan əriyib dərisi sümüyünə yapışmış, bütün bədənində damar, dəri və vəzidən başqa bir şey olmayan, quru müqəvvaya çevrilmiş Umsəlmə, döşəkçənin üstündə oturub mütəkkəyə söykənmiş, qarşısında çərəkə oxuyan şagirdi ilə məşğul idi. Yaz-qış buz su altında



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

qab-qacaq və öz şəxsi dəsmallarını suya çəkməkdən damarları çıxmış, dərisi çat-çat olmuş, qan çırtlayan əllərində Quran var idi. Əzizbikəni görüncə arvadın xeyir xəbərlə gəldiyini anladı. Tələsik şagirdinə öyrənməli olduğu parçanı göstərib dedi:

– Qızım, get evinizə, sabahacan "qül ya eyyühəlkafirun"u əzbərlə, sabah soruşacam...

Şagird çıxdı. Yalnız bundan sonra Umsəlmə əlindəki Quranı büküb öpdü və yanındakı rəhilin üstünə qoydu:

– Xoş gəlmisən, ay Əzizbikə, həmişə sən gələsən...

– Xoş günün olsun, mollabacı, elə deyəsən zəhmətim hədər getməyib, yaxşı xəbərlə gəlmişəm...

Arvadın ürəyi döyündü: "Şükür sənə ilahi, heç olmasa mollaya layiq yer ola, irazi ola".

Əzizbikə sözə birdən başladı:

– Bilirsən, mollabacı, uzaqdan neyşə başlayım? Bax, dünən gecə məni Alış çağırtdırmışdı... Dedi ki, məni Molla Qurbanqulu özü üzə çıxardıb, zəhməti də üstümdə çox olub, tövbəmi də özü verib. Qəriblər ağasının qulluğuna göndərib. İndi elə məni oğulluğa da özü götürsün. Ev-eşik tikdirirəm, qurtaran kimi toy eləyim. Elə olsun ki, ev-eşiyim də külfətsiz qalmasın...

Ərinin bu haqdakı arzusuna çoxdan bələd olsa da, Umsəlmə arvad fikrə getdi: "Görəsən dolanarlar, ay Allah? İki qoçun başı bir qazanda çətin qaynar".

– Allah köməyin olsun, ay Əzizbikə, bu hardan onun ağlına gəldi?

Əzizbikə gülə-gülə dedi:

– Bıy, ay mollabacı, bəs mən nəyə gərəyəm? Yadına mən saldım daa. Özün bir yaxşı adam tap dedin, mən dəə...

"Yaman da yaxşı adamdı, quldurun biri".

– Nə deyim vallah, qorxuram genə əvvəlki əməllərinə qurşana axı...

Əzizbikə əlüstü etiraz elədi:

– Heç elə şey olar? Ağa Alış əsil kişidi. Meşədə gedib tövbə eləyib, üzə çıxıb, zamın verib, ölsə də sözündən dönməz. Sən özün bir axund ağanın qulluğuna ərz elə... Sonra baxarıq.

– Həlbət ki, atadı, axır söz də onundu, mən nəkarayam ki! Öz qızıdı, başın da kəsməyə haqqı var. Nə dedi, o olacaq...

Bu dəmdə Narıncı çay dəstgahını ortaya gətirdi, bic-bic üzünə baxıb gülümsəyən Əzizbikəyə fikir vermədən sözə başladı:

– Ay məmə, lap matım-qutum quruyub...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə olub ki, aaz?

– Nə olub ki, aaz?

– Güllübəyimgilin qapısınnan keçirdim, nə görsəm yaxşıdı, dərs-Quran qalıb bir tərəfdə, "mollabacı Güllübəyim" uşaqlara oynamaq-oxumaq öyrədir...

– Nə?

– Nə?

– Elə şey olmaz aaz...

– Bıy, ağamın oxuduğu Quran kəlmə-kəlmə canıma qənim olsun əgər yalan deyirəmsə... Öz gözümnən görmüşəm... Xalxın qızlarını mütrüf qayırır...

– Bıy, Allah sən saxla, bircə bu qalmışdı?

– Ondan nə desən çıxar, beş vaxt namazdan başqa...

– Əstəğfürullah, əstəğfürullah... Lənət sənə kor şeytan...

– Şeytan neyləsin, o özü elə şeytanın yekəsidi...

...Az keçməmiş xəbər məhəlləyə yayıldı... Doğru deyiblər ki, yengəni, yuyucunu razı yola sal, ağzına sirr vermə, bədnamçıdı – evlər gəzir... Söz qızın ağzından çıxan kimi dəstinə şəhərə yayıldı. Qala-bazar, İmamlı, Sarıtorpaq, Minaxor... bir-birinə dəydi, arvadlar bir cəld-lik, sürət göstərdilər ki, təzəcə meydana çıxmağa başlayan simsiz teleq-raf da bu qələti eləyə bilməzdi. Çox az bir müddətdə hadisə bazara çıxdı, əsnaf, tüccar bir-birinə dəydi. Kişilərdən Güllübəyim molla-bacının mollaxanasında qızı oxuyan kim vardısa, cəld dükanı bağlayıb evə cumdu və arvada əmr elədi ki, gedib qızı o şeytan yuvasından qay-tarıb gətirsin və bir də o xarabaya buraxmasın...

Əsil dərd biçarə İsrafilin idi. Bu gün bir həbbəlik ticarət etmədiyi kimi, heç kəs salamını da almadı. Əksinə, bazar avaraları hər qapısın-dan keçəndə söz atmağa başladılar:

– A-a-adə, Ağa İsrafil, deyirlər Mütrüf Ədilə yerrik olmusuz?

– Əşşi, o da kişidi? Verib cilovu o Mahmud ağanın bibisi qızının əlinə, hara coşa deyib sürür, bu da gedir daaa.

– A balam, sən də adını kişi qoymusan, o nə arvaddı saxlayırsan, həəə?..

Hamısından ağır dərd Alışın hədəsi idi. Çovuş Kəblə Abbasla təzəcə imam qulluğundan gəlmiş Alış bar-bar bağırırdı:

– Din əldən gedir, camaat, biri oğlanlarımızı (onun hələ heç oğlu yox idi, indicə evlənməyə hazırlaşırdı), bir çəngi də qızlarımızı (əlbəttə qızı da yox idi, Narınc hələ onun tikilib qurtarmamış evinə gəlin gəl-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məmişdi) yoldan çıxarır, laməzhəblər yetişdirirlər... Bu da işdi? Mənim elə övrətim olsa, cəhəngini cırram, bir gün sağ qoymaram dünyada ki, başımı da aşağı eləyə. Arvad nədi ki, kişinin sözünə baxmaya (Alış hələ Narıncın xasiyyətinə bələd deyildi).

Bütün bunlar İsrafilin səbir kasasını doldurdu. İsrafil heç kimə cavab vermədən dükanı kilidlədi, dalda yollarla evinə gəldi. Güllübəyim bazar hadisələrindən xəbərsiz evdə oturub kürədə fisincan bişirir, arabir zümzümə də edirdi. Dünyadan bixəbər qadının bu halı İsrafilin ürəyini suya döndərdi, əvvəlcə heç bir şey demədi. Sonra davam gətirə bilməyib, qərarını Güllübəyimə anlatdı:

– Bilirsən, Güllü, mən sənə demişdim, sən mənə qulaq asmadın, indi özündən küs... Məndən incimə, mən səndən inciməmişəm. Bir baş yoldaşı kimi həmişə qulluğumda olmusan. Səndən yaman bir əməl görməmişəm, amma bu boyda həngaməyə dözmək üçün məndə tavana, tab-taqət yoxdu, mən gedirəm...

Güllübəyimin dodaqları əsdi, aciz də olsa, fağır adam olsa da, istəkli ərindən ayrılmaq ona çox ağır idi.

– Hara?

İsrafilin də ürəyi oycalanırdı, o da mehriban, nəcib və nəvazişkar, qayğıkeş sevdiyindən ayrılmaq istəmirdi: amma bazara bələd olduğundan, bundan sonra gününün necə keçəcəyini yaxşı bildiyindən, özündə mübarizə əzmi görmədiyindən sözündən dönmədi:

– Hara gəldi... Ya Bakıya, ya Aşqabada... nə bilim....Bəlkə Qafqaya... Mən daha burada qala bilmərəm. Əgər sən mənim sözümə baxıb əməlindən dönsəydin... Bu da ki, mümkün deyil, mən sənin təbinə bələdəm. Sən ölərsən, dönməzsən. Mən isə... Yox, səndəki hünər, ayıb da olsa, ağır da olsa qoy deyim ki, məndə yoxdur.

Qapı taybatay açıldı... İçəriyə yaşlı bir qadın girdi. Hər ikisi bu qəfil tappıltılı gəlişdən diksinib çevrildi. Gələn Güllübəyimin anası Minabəyim idi. Arvadın vaxtilə yaraşıqlı üzü qocalsa da, təravətini itirməmişdi. Güllübəyimin simasını xatırladan sifəti acığından eybəcərləşmişdisə də, yenə də qəşəng idi. Qara üzüm gilələrinə bənzəyən gözləri qəzəbindən daha da girdələnmişdi, çənəsindəki xal, yuvarlaqlığını itirməyə başlamış dodaqları kimi əsim-əsim əsirdi, çadrası sıyrılıb çiyinlərinə düşmüşdü. Dən düşmüş saçları dingənin altından çəngə-çəngə çıxmışdı, görünür başını yolmuş, sonra da tələm-tələsik dingə vurub çadralanmışdı. İçəri girən kimi salamsız-kalamsız qızının üstünə düşdü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– A qara yer oğurlasın səni, bu nə işdi başımıza gətdin? Şirvan içində bizi xar elədin! Dedik: Quran oxuyar, mollabacı olar, uşaqlara Allahın kəlamını öyrədər, savab yiyəsi olar. Aaz, bəyəm qorxmursan Allahdan? Bilmirsən ki, qız xaylağı əlinə qələm alsa, o dünyada həmin qələm od olub barmağın yandıracaq? Yazılar ilan olub cəmdəyinə dolaşacaq?.. Bu bəs deyil, hələ sən bir nanay vurub dəf də çalırsanmış? Ay ölmüş! A sənin qaranı geyim, bəyəm sən mütrüf olmusan? Sonaya yerrik çıxmısan? A Sona yolu yollanmış, bizi bədnam elədin ki... Aləmnən bir olduq ki!..

Güllübəyim nə qədər cavab verməməyə çalışdısa da bacarmadı:

– Ana...

– Çor ana, dərd ana... Elin ağzın yüz ərşin bez alıb bağlayacaqsan?

– Ana, mənim baş yoldaşım var, özü bilər...

– Kül sənin başına, sənin baş yoldaşında o qeyrət hanı ki, tikə-tikə eləyə səni, hər tikəni bir çalada basdıra.

İndi nə İsrafil, nə də Güllübəyim danışırdı. Ərinin qulağı eşidə-eşidə deyilən bu sözlər, həm də düşmən deyil, məhz ana diliylə verilən hökmlər Güllübəyimi elə sarsıtmışdı ki, söykəndiyi divar kimi ağappaq olub durmuşdu. İsrafil də müdaxiləni mənasız görürdü. Bu hadisə onun qərarını daha da möhkəmlətmişdi...

Minabəyim arvad qapıya yeriyə-yeriyə acığından boğulduğu halda bir də dedi:

– Mən bilirəm səni yoldan eləyən o namərbut dayoğlunun sözlərinə qulaq verməyin olub. Neynək, elə-elə! O kişidi, danışana cavab verməyə gücü, divan-dərə yanında dili, arxası var... Sən arvadsan, bu işlər sənin hünərin deyil; amma belə ki, sən tutmusan, ərinin qeyrəti çatmır, Sonanı cəhənnəmlik eləyənin biri səni də yer üzündən götürər! Südüm sənə haram olsun, bala! Məni Şamaxı arvadları içində bir pulluq elədin. Atan bədbəxt yaxşı vaxtında baş gora apardı, sənin bu biabırçılığını görmədi...

Arvad gəldiyi kimi də sağolsuz-zadsız çıxıb getdi... Evdə ikisi qaldı. İsrafil indi Güllübəyimə daha çox acıyırdı: "Əzizim, səni belə ağır günlərində tək qoyub gedirəm. Bilmirəm, bəlkə bu qərarım, bu hərəkətim, səni yolundan döndərə. Onda bəlkə qayıdıb gələm, genə sakit bir ömür sürək, amma səni ki, mən tanıyıram, sən belə şeylərlə yolundan dönən deyilsən. Mən isə... Mən gücsüzlüyümü yaxşı başa düşürəm. Məndən sənə arxa çıxmaz..."

...O gecə bir-birini həqiqi insan məhəbbətilə sevən iki qəlb atəşlər içində yana-yana ayrıldı. İsrafil Güllübəyimi tək qoyub getdi. Yola



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşərkən son sözü də bu oldu: "Əgər məni istəyirsənsə, məktəb məsələsindən bilmərrə əl çəkməlisən! Belə eləsən, ara sakitləşəndən sonra bir-iki ilə, yazarsan gəlləm; yox, sözündə baqi qalsan, məndən incimə, axundun üstünə talaq kağızını göndərrəm, azaddamanı oxuyar".

...Güllübəyim meydanda tək qaldı, doğma anası lənətlədiyi kimi, istəkli əri də onu tərk edib getdi. Amma Güllübəyim mollabacı məktəbini bağlamadı. Vasvası Umsəlmənin mollaxanasına uşaq verməyə tavanası olmayan iki-üç ailənin övladı dərsə davam edirdi. Üç il ərzində gah on, gah otuz şagirdi olan məktəbdə indi üç qız oxuyurdu. Bunlardan biri də suçu Sərçə Bağının qızı Nazpəri idi.

İndi Güllübəyim artıq evdən eşiyə çıxa bilmirdi, nə toya, nə vaya çağrılır, nə də gedirdi. Ana evindən ayağı kəsilmişdi. Mollabacının bazarlığını da Sərçə Bağı eləyir, səhərlər dərsə gələn Nazpəri ilə göndərirdi.

Narınc və qohumları tamamilə qudurmuşdu. Güllübəyimə göz verib, işıq vermirdilər. Dərsə gələn iki-üç qızın da ailəsi nə edəcəyini bilmir, səhər erkən uşaqları mollabacının evinəcən yol uzaq eləyir və Güllübəyimə yalvarırdılar:

– Sən Allah, mollabacı, oxudub-oynamağı tərgit, elə Qurandan dərs ver, qoy çərəkələrin oxusunlar, qara tanıdılar – bəsdi...

Güllübəyim məktəbindəki əski təravət, şənlik qalmamışdısa da, uşaqlar buraya həvəslə gəlir, maraqla oxuyurdular.

Təhlükə isə Güllübəyimin başından sovuşmamışdı. Narınc və curları Güllübəyimə rahatlıq vermir, ondan əl çəkmirdilər.

Şənbə hamamındakı satıl döyüşündən sonra Güllübəyim artıq bulaq başına da getməkdən qorxurdu. O gün hamamda heç özü də bilmədi ki, məsələ nədən başladı. Qapaqlının arvadı Bircəxanım, Molla Qurbanqulunun övrəti vasvası Umsəlmə və qızı, Alışa təzə nişanlanmış Narınc ilə birlikdə çimirdilər. Güllübəyim onlardan xeyli aralıda oturmuşdu. Vasvası Umsəlmənin xasiyyətinə bələd olduğundan Güllübəyim heç onlara yaxın durmurdu. Yəni Umsəlmənin xasiyyətinə bütün məhlə bələd idi. Arvad elə vasvası idi ki, hamamda yuyunub qurtarandan sonra, çıxanacan bütün sütunların dibində başına su tökər, paklanardı, yenə də ürəyi soyumazdı. Yanından biri keçdimi, üstünə kimdənsə bir damcı su sıçradımı, ya tavandan soyumuş buxardan çiyninə bir damla damdımı, dərhal dayanacaq, qurnanı açıb ləyənini dolduracaq və başına yenidən salavat, müxtəlif qüsl suları tökəcəkdi. Bəzi nadinc qızlar qəsdən onun yanından ötüb üstünə su sıçradar və arvadın bütün paklanma



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əməliyyatını yenidən başlamasına aralıdan, sütun dalından durub tamaşa elər və gülərdilər. Ayrı vaxt olsaydı Güllübəyim özü də, özünü gülməkdən saxlaya bilməzdi. Amma indi vəziyyət başqa idi. O bilirdi ki, vasvası Umsəlmənin yaxınından keçsə, az qala bütün hamamdakılar ona qahmar çıxıb Güllübəyimin üstünə düşə bilər. Arvadların hamam davasının dəhşətini, burulmuş ipək fitələrin turna davasını, tas döyüşdürmə, satıl vurmanı isə Güllübəyim görmüşdü... Dadınasa da görmüşdü, bilirdi.

Odur ki, bu gün qəsdən aralıda oturmuşdu, heç kimə qarışmırdı. Buxar arasından qarıların qıyğacı, çəp baxışlarını görürdü... Birdən necə oldusa özünü Umsəlmə duran qurnanın yanında gördü... Dəhşətdən, bir hissiqəbləlvüqu ilə ürəyi buza döndü. "Allah sən saxla", – deyə düşündü, elə o dəqiqədəcə Narınc və Umsəlmənin əqrəbasından olan arvadlar qocanı dövrəyə aldılar, Güllübəyim də onların içərisində qaldı. Fitələr burulmağa, satıllar bir-birinə çırpılmağa və Güllübəyimə yaxınlaşmağa başladı. Qorxunc, gün tutulmasında çıxarılan mis səsləri kimi dəhşətli gurultu qopdu, hamamın günbəzinə, divarlarına düşüb əks-səda verirdi. Birinci arvad satılını ikincininkinə, o üçüncüyə və beləliklə də, Güllübəyimə çatanacan bir-birinə vurmağa, ona çatanda zərbələri gücləndirməyə başladılar, səs artdıqca, buxar arasında nə baş verdiyini görmək olmurdu. Satıllar ona dəydikcə Güllübəyim səsini çıxara bilmirdi. Çıxarsaydı da, mis gurultusundan eşidən yox idi. Arxadan yaş fitələrdən düzəldilmiş turnalar işə düşəndə Güllübəyim dözə bilmədi, turnalar ilan kimi onun bədəninə sarılır, zol-zol izlər qoyurdu, o, elə bir yanıqlı fəryad qoparıb səndələdi ki, sıx duran arvadların üstünə yıxılmasaydı, yerə dəyib yaş döşəmədə başını da yaracaqdı... Onu qızışıb qəzəb yağdıran arvadların əlindən kim aldı, hamamın paltar soyunulan yerinə kim çıxartdı, bilmədi. Ayılanda özünü xalça süzənisinin üstünə uzadılmış gördü, kisəçi arıq Şərəq üzünə soyuq su səpirdi...

– Allah kərimdi, heç nə olmaz... aç gözünü...

Narıncın səsi hamamda gumbuldayırdı:

– Mütrüf, köpək qızı, qoca arvada neyşə sataşırsan?

Hamam icarəçinin arvadı, boğça üstə oturan Məşədi Safurə isə deyinirdi:

– Balam, sən Allah, şərüvü bizdən sovuş! Gəlmə bizim hamama! Qanuva salma bizi!.. Biz də yazığıq axı... Düşmançılığınız var, gedin özgə yerdə eləyin. Sənin o alim, molla, axund arvadıynan nə işin var? Neyşə yazıq, təmizkar arvadı qoymamısan paklığını eləsin? Hə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamam tək sənindi ki?.. Qoca arvadı, pak saleha müsəlman bacını elə salmaq heç yaxşı şey deyil... Gəlmə hamama! Səndən ötəri müştərilərimizi qaçırmayacağıq ki... hamı deyir ki, sən mütrüf olmusan, uşaqları yoldan çıxardırsan, körpə qızları... Kül onların analarının başına ki, şəhərdə molla tapmayıb balalarını sənə usburd olublar...

Güllübəyimin bədəni göy tuluğa dönmüşdü... Ağrıdan, taqətsizlikdən güclə geyinirdi. Arıq Şərəf ona kömək elədikcə yavaş səslə, Məşədi Safurə eşitməsin deyə, alçaqdan deyirdi:

– Təpitmə qoy, ay bala, yağlı xəmir... keçib gedər... Allah qoysa...

Hamamda bir səs əks-səda kimi gumbuldadı:

– Şərə-ə-f...

– Aaz, Şərəf, içəridən kisəçi haraylayırlar, ay ölməmiş, nə kəsdirib oturmusan yanını? Canı var, xalxa sataşmasın, dur itil oradan, cəhənnəm ol. Yuxa qırağı sulama...

...Satıl, ləyən və turnaların zərbi bir neçə gün Güllübəyimi yatağa saldı. Yerindən tərpənə bilmədi. İndi neçə gün idi ki, Güllübəyim bulağa suya da gedə bilmirdi. "Axşam?.. Yox, qorxuludu, uzaq, kimsəsiz... İsrafil fağır yaxşı ki, burda deyil. Eh... yazıq... dözmədi..." Gündüz isə nə vaxt bulaq üstə getsə hökmən kiməsə rast olacaq, arvadlar... xüsusilə Qurbanqulunun qızı Narınc əqrəbası ilə onun bulaq başına getdiyini görən kimi satıl-sərnic, güyüm götürüb dalınca cumacaq, satıl-döydüyə başlayacaqlar... Yox... Çarə təkcə Sərçə Bağıyadı. Göz göz eləyib o gələn kimi suyun başını bağlamaq, güyümlərin dördünü də alıb qablara boşaltmaq lazımdı. Bir-iki gün bəs elər, sonra da, bəlkə Allah kərimdi, yadlarından çıxdı, yorulub usandılar, əl götürdülər, ya başqa çarə tapıldı...

Güllübəyim bu fikirlərlə erkəndən darvazanın dalında qab hazırlayıb durmuşdu. Sərçə Bağının "höşşə"sini güdürdü.Gün bir cida boyu qalxmamış Sərçə Bağının səsi eşidildi. Güllübəyim cəld darvazanı açıb çıxdı, bu tezlikdə bəlkə bir kəsə rast olmadı, amma bununla belə yenə də səs çıxarmadan Bağıya tərəf əl elədi... Bağı eşşəyi həmişə hörmət gördüyü mollabacının darvazasına tərəf yönəltdi... Amma sən demə başqa güdükçü də var imiş... Umsəlmənin qızı Narınc da darvazadan çıxdı, cır səslə çığırdı:

– Əyşi, Bağı, Bağı... ə-ədə...

Kişi dayandı, hansı tərəfə gedəcəyini kəsdirə bilməyib durdu. Eşşəyin noxtasını boynuna dolayıb, başından tutdu... nə o, nə o biri tərəfə gedə bildi. Narınc özünü Bağıya Güllübəyimlə birlikdə çatdırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Su mənimdi, Bağı...
Kişi qətiyyətsizliklə dilləndi:
– Neynək... yarsı sənin, yarsı da... dörd güyümdü...
– Yox, hamısı...
– Genə gətirrəm...
– Dedim ki, yox, hamısı...
– Səmicin birdi ki...
– Sənə nə? Alıb yerə tökəcəm...
– Günahdı, bacı, Fərat yolu kəsməmisən ki...

Bağı sözünü qurtarmamışdı qonşu arvadlar tökülüşüb gəldilər, satıldöymə başlandı... Bağı və Güllübəyim aralıqda qaldılar... Narınc, anası əqrəbasından olan digər arvadlar satıl, səmic və güyümləri göyə qaldırdılar, Bağı həm öz başını, həm də Güllübəyimi qoruyurdu... Qəzəbdən boğulan Narıncın səsi hamıdan bərk gəlirdi:

– Ay yalavac köpək oğlu, indi məni Şümürə oxşadırsan? Bu çəngi köpəyin qızına qahmar durmusan? Nə var, nə var, küçüyünə çəngilik öyrədir? Ona görə?

...Çığırtılar satıl-səmic zərbələri ilə müşayiət olunurdu. Adam çığırtıları, söyüş, hədə və mis səsləri bir-birinə qarışmışdı.

– Vay öldüm...
– Burax... xx...
– Bəsdi...
– Ayy...
– Aaz, məni neyşə vurursan, ay ətüvə düşəsən?
– Səni kimdi vuran, işim bu it uşağıynandı...
– Qoyma...
– Al...

...Birdən nə oldusa arvadlar geri çəkildilər, kimin zərbəsi sərrast dəydi, heç kəs bilmədi. Aralananda Bağının cılız bədənini yerdə, qanlar içində gördülər. Kim olursa olsun, insan ölümü, qan mənzərəsi arvadları qorxutdu. Hamısı birdən-birə gəldiyi kimi, birdən-birə də yox olub evlərinə çəkildilər...

Bağının heç zarıltısı da eşidilmirdi... Güllübəyim öz yaralarını unudub Bağıya baxır, nə edəcəyini, neylə kömək edəcəyini bilmirdi... Köməyin yeri də yox idi, Bağı artıq həyata vida etmişdi... Bundan sonra bir daha heç kim onun cır sövtlə hayqırdığı "höşşə"səsini eşitməyəcək, güyümlərindən bulaq suyu ala bilməyəcək. Məhəllə arvadlarına su paylaya-paylaya oxuduğu məzəli mahnıları dinləyə bilməyəcəkdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allı-güllü yolları var Şirvanın,
Qızıl-gümüş pulları var Şirvanın,
Qızdan göyçək dulları var, Şirvanın.

Qalabazar məhəlləsi, Bəzzazbazar dükanları Bağını əbədilik itirmişdi... Xırda bədənli, böyük ürəkli Bağı, Güllübəyimin dadına çatdı, özü isə həlak oldu... Bağının cansız cənazəsi üstündə bir Güllübəyim, bir də əli çərəkəli dərsə gəlmiş olan Nazpəri hönkürüb ağlayırdı.

...Bazara və məhəllələrə ildırım kimi bir xəbər yayıldı, hər ağızdan bir səs eşidilirdi:

– Mollabacı Güllübəyimi divanxanaya aparıblar...

– Satıldöymədə Sərçə Bağı ölüb...

– Deyillər Güllübəyim vurub kişini...

– Vay fağır...

– Yazığın külfətinin başı kəsildi...

– A bala, elə də mollaxana olardı?.. Onun bir qadası var idi, döydi fağır Bağıya...

– Əşi, bizimkilərdə qeyrət hardadı?

– Yox eləyən yoxdu balam da...

– Rəhmətlik xan vaxtı olsaydı, bir saatın içində itirtdirərdim...

– Gərək əri qurumsaq eləyəydi...

– Əşi, onda o qeyrət hardaydı...

– Fağırın biri idi, başın götürüb getdi, canı da qurtardı.

– Qulağı dincəldi...

– Pay atonnan, kişi, arvad hara, divan-dərə hara!

– Dünyanın axırıdı, müsəlmanlar!

...Güllübəyimi doğrudan da divanxanaya aparmışdılar. Bağının cənazəsi və gözü yaşlı balaca Nazpəri də burada idi. Murov Kostritski, dilmanc Əli bəydən Güllübəyimin kim olduğunu öyrənən kimi, yasavul Ağa Bəşiri Mahmud ağaya və uryadnik Kərim bəyə xəbərə göndərdi.

Yasavul Ağa Bəşir gələndə Seyyid, Mahmud ağagildə idi. Qalada təzə peyda olmuş bir tarzəndən söhbət gedirdi, musiqi aşiqi Mahmud ağa danışırdı.

– Belə deyirlər ki, adı Sadıqdı, cavan adam olsa da, elmi-musiqiyə mahirdi, yaxşı bələddi, deyillər bizim bu qədim tarda nə isə elə dəyişikliklər eləyib ki,... tar bir özgə cür səslənir. Qaladakı aşnam Kərbəlayı Xudaverdiyə yazmışam ki, mümkün olan kimi onu Şirvana dəvət eləsin, gəlsin ki, bir görək nə əllaməlik açıb... Vallahi, Əhməd ağanın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ərvahı haqqı, musiqidə bir təzə hava, bir təzə qayda çıxdığını, bir yeni gözəl səsli xanəndə peyda olduğunu eşidəndə, Seyyida, çiçəyim çırtlayır, arvadlar demişkən. İndi onun təəşşüqündəyəm gətirtdirib, çaldırıb görməsəm, təskinlik tapa bilməyəcəm.

Seyid Əzim gülümsəyərək Mahmud ağanı dinləyir və Güllübəyim məktəbilə əlaqədar qulağına dəyən məsələləri ona nağıl etməyə hazırlaşırdı, amma Mahmud ağanın musiqi haqqında söhbətləri onun özünü də maraqlandırmışdı:

– Elə siz özünüz də, cənab Mahmud ağa, musiqidə az təbəddülat etməmişsiniz...

– Yaxşı, Seyyida, bəs o tələbəlik illərində, ya da cənab hacı Əlabbas bəylə Hicazı səyahət eləyəndə bizim bu musiqi məclislərimizsiz necə keçinirdiniz?

Seyid Əzim əlini xəttinə çəkib, çənəsini ovxaladı, adəti bir hərəkətlə barmaqlarını bığlarında gəzdirdi:

– Onu heç deməyin, ürəyimin içi göynəyirdi, xanəndələrimizin səsi qulaqlarımdan, rəqqasələrimizin şəkl və şəmayili gözlərimdən getmirdi. Hər zaman gözlərimi yumanda özümü sizin məclislərdə görürdüm.

Mahmud ağa güldü, zarafatla barmağını ona tərəf silkələdi:

– Ya cədda, bəs dostlar?

– Dostlar öz yerində... Siz, cənab ağa Tərlan, bədbəxt cavan! Heç unuda bilmirəm onu... Bir xəbəriniz varmı?

– Yox, xeyli var kağız da yazmır mənə namərd...

– Elə deməyin, o, Şirvanı yaralı tərk etdi... Bir də Sona... Ondan necə...

Mahmud ağanın gözləri yol çəkdi:

– Eh, heç, bu keçən ay cənab Əlyar bəy bizə qonaq gəlmişdi, soruşdum, deyir, əl-ayağı dürüst, başıaşağı dolanır. Amma heç üzü gülmür...

– Bədbəxt cavanlar... hərəsi bir fəlakətin qurbanı olur, bizim bu Qurbanqulular, məşədi Alışlar dünyasında...

– Hə balam, məşədi Alış yamanca hörmət-izzət sahibi olub, Əhməd ağanın ərvahına and olsun, deyillər Molla Qurbanqulu döşünə çəkib onu, deyir tövbə ki eləyib, üzünü qəriblər ağasının asitanına ki sürtüb, dəxi Əshabi-Kəfin iti kimi yeri behiştdi...

Seyid Əzim kədərlə gülümsədi:

– Sədi rəhmətüllah gözəl deyib, cənab Mahmud ağa:

Xəri-İsa gərəş bə Məkkə bərənd
Çun beyayəd hənuz xər başəd.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yəni İsanın eşşəyini Məkkəyə də aparsan qayıdanda elə eşşəkdi ki var.

Mahmud ağa dərindən, uğunarcasına bir qəhqəhə sovurdu. Elə bu anda Mahmud ağanın lovğapəsənd nökəri dilmanlı Kərim içəri girib baş əydi:

– Ağa, yasavul ağa Bəşir gəlib... Deyəsən, nəysə yaman xəbərnən gəlib...

Mahmud ağa yaylığını çıxarıb yaşarmış gözlərini sildi. Kərimin sözlərini o qədər də fərqinə varmadan, hələ də gülməsində davam edərək dedi:

– Çağır gəlsin...

Nökər çıxdı, Mahmud ağa Seyid Əzimə döndü:

– Bilirsən bu Kərim dələduz dünən nə pəstaha açıb?

– Xeyr...

– Qapıda dayanmışmış... Birdən Təklədən bir fağırın biri soraq alıb bizə gəlir, məni soruşur, qapını nişan verirlər. Bu Kərimin də lovğalığı cənabına məlum olsun gərək...

– Bəli, bəli...

– Qərəz ki, təkləli yazıq bunu görüb təşəxxüsündən bəy sanır, baş əyir, bu oyunbaz da özünü sındırmır, deyir: "– Nəyə gəlmisən, kişi?" "– Cənab Mahmud ağa sənsən, başına dönüm?", deyir "hə", deyir: "– Başına dönüm, uşaqlarım batır, gəlmişəm mənə bir az əl tut", "– İstədiyin nədi axı?", "– Nə olacaq, dərdin alım, buğda". Kərim də qayıdır ki: "– Get bir araba gəti". Kişi qayıdır bazara, bir malağan arabası danışır, gəlir bizim qapıya (Söhbətin bu yerində yasavul Ağa Bəşir içəri girdi, baş endirib dayandı, Mahmud ağanın sözünü kəsməyə cəsarət etməyib, söhbətin qurtarmasını gözlədi). Otur, Ağa Bəşir, bu saat qurtarıram. Hə... Mən də atlara baxmağçun tövlələrə getmişdim, mehtər xəbər vermişdi ki, kəhər day nəsə bir az axsayır, nalın dəyişirik, bədnallıq eləyir. Qayıdam görəm darvazanın ağzında bir araba durub, nökərlər aralıda gülüşür, mənə işarə elədilər, həyətə girdim. Kərimi çağırıb soruşdum ki, bu kişiyə nə söz vermisən? Dili dolaşa-dolaşa deyir ki, "buğda". Çıxmışam həyətə, bunu vermişəm qabağa, deyirəm "Eşit dilmanlı Kərim, bu qapıdan boş qayıdan olmayıb, eşit dilmanlı Kərim, bizim qapıdan boş qayıdan "olmayıb..." Bu sözləri ona dedirtdirə-dedirtdirə özüm də dalına düşüb getmişəm. Kişi fağır Kərimin əlindən öpüb yalvardıqca gədələr arabaya bir miqdar buğda-arpa yüklədilər... özləri də uğunub gedirlər, Kərimin öldüyü gündü...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mahmud ağa həmin hadisəni yadına saldıqca bir də gülür, Seyid Əzim də özünü "ağa" qələmə verən lovğa nökərin vəziyyətini təsəvvürünə gətirib gülümsəyirdi.

– Hə, Ağa Bəşir, buyur görək, nə əcəb səndən?

– Yasavul, Ağa Bəşir yerində dikəldi, diz üstə qalxıb sözə başladı: Ağa, başına dolanım, murov xahiş elədi ki, bir divanxanaya buyurasan...

Mahmud ağanın üzü ciddiləşdi:

– Nə olub axı?

Ağa Bəşir ehtiyatla sözə başladı:

– Vallah ağa, narahat eləməzdik, amma, belə deyirlər ki, sizin qohumlardan bir mollabacı Güllübəyim var ha, guya o suçu Sərçə Bağını öldürüb...

– Nə???

– Helə deyillər... Meyiti də gətirilib divanxanaya. Bir neçə zənən-uşaq da gəlib. Cənab murov dedi ki, nə qədər bizdən böyüklər xəbər tutmayıb, qoy cənab Mahmud ağa özü işdən hali olsun, mollabacını özü danışdırıb, işin səhihini bilsin. Sərçə Bağının qızı da ordaymış. Düzünü o bilir, amma elə ağlayır ki, heç bir söz qandıra bilmir. Cənab uryadnik də ordadı, məni tez qulluğunuza göndərdi ki...

Mahmud ağa həyəcanla yerindən qalxdı:

– Yaxşı eləyib... Sən get, mən bu saat gəlirəm.

Ağa Bəşir çıxdı.

Seyid Əzimin üzünü bir ələm kölgəsi çulğadı:

– Mən bir az əvvəl cənabına ərz edəcəkdim, bir para bəd xəbəri qulağıma çatmışdı... Gecikdim... gecikdim... çox təəssüf.... Bu o namərd Alışla Qurbanqulugillərin qurması olacaq. Onlardan sarı xeyli söz eşitmişdim bazarda... Çoxdan dilə-dişə salmışdılar Güllübəyim bacını.

– Seyyida, vallahi, anası – bibim də yanıma gəlmişdi. Çağırtdırıb bir az nəsihətlədim. Dedim: əziz bibiqızı, bura Şirvan, şərvan deyəllər, burda hələ-hələ kişilər bir iş görə bilmir, sən zənən xeylağı neynəyəcəksən? Mənə nə desə yaxşıdı: "Hərə bir yolun qurbanıdı, dayoğlu, *mən də özümü bədbəxt bacılarımın savad alması yolunda qurban* demişəm".... Di ala, bu da sənə qurban!

Mahmud ağa bu sözləri deyə-deyə dilmanlı Kərimin ona gətirdiyi içi xəz astarlı əzəmini əyninə geydi, havalar soyumağa başlayırdı. Seyid Əzim də payızın əvvəllərində beş manata Hacı Qədirdən aldığı sarı Xorasan kürkünə büründü: Bərabər çıxdılar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Murovun otağında adamın çoxluğundan nəfəs almaq mümkün deyildi. Cənazəni bir küncdə palaz arasında qoymuşdular. Ölümdən və ölüdən qorxması ilə Şamaxıda bir çox lətifələrə səbəb olmuş Mahmud ağa, cənazə tərəfə baxmadan uryadnikin yanına keçdi. Murov Kostritski otaqda yox idi. Kərim bəy Mahmud ağanı görcək üzünü camaata çevirdi:

– Adə, Ağa Bəşir, çıxart camaatı çölə, şahıdları sonra çağırtdırınq bir-bir. Qoy bir görək ağalar nə eləyir...

Mahmud ağa və Seyid Əzimə kürsü təqdim etdilər. Hər ikisi əyləşdi. Ağa Bəşir, artıq adamı çölə çıxarandan sonra, cənazənin ayaq ucunda başıaçıq, ayaqyalın bir qız uşağı və onun yanında çadrasına sıx bürünmüş bir qadın qaldı. Görünür, Güllübəyim bu idi... Qızın ağlamaqdan gözləri qıpqırmızı qızarmışdı, hələ də hıçqırırdı, amma deyəsən, artıq gözünün yaşı qurumuşdu, taqətsizliklə qoca qarılar kimi dizlərini qucaqlayıb oturmuş, çənəsini dizlərinə dayamışdı. Hamıdan, hər şeydən əvvəl şairi balaca qızın vəziyyəti maraqlandırdı, o yerindən qalxıb Nazpəriyə yaxınlaşdı, sağ əli ilə onun pırtlaşıq saçlarını tumarladı:

– Qızım, dur bəri gəl, – deyə əlindən tutub Mahmud ağa və Kərim bəyin oturduğu mizin yanına gətirdi. Nazpəri qorxa-qorxa, güclə irəliləyirdi, amma deyəsən, Ağanı tanıdığından bir az ürəklənmişdi.

– Qorxma, qızım, qorxma... day olan olub... De görüm sən əvvəldən o mərəkə yerində idin?

Nazpəri əvvəlcə Ağaya, sonra da Mahmud ağa və Kərim bəyə baxdı.

Kərim bəy ucaboy idi, sağ ayağını bir az çəksə də (haçansa qaçaqlar vurmuşdu onu) mütənasib, cüssəli kişi idi, nəzərə çarpandı. Ağ bənizi, azacıq dən düşmüş qıvrım saqqalı belə onun üzünə mehribanlıq, incəlik verə bilməmişdi. Qəzəblənəndə qanla dolan dəyirmi, qabarıq gözləri qorxunc görkəm alırdı. İndi bu gözlər çox qəzəbli idi. Hərəsi bir qan piyaləsinə dönmüşdü. Qız bu baxışlardan elə qorxdu ki, ondan nə soruşulduğunu dərhal unutdu. Seyid Əzim yenidən onun əlindən tutub başını sığalladı:

– Sən qorxma, qızım, qorxma, dedim ki, olan olub. Ağalara ancaq işin olanını danış, nə bilirsən onu...

Nazpərini yenidən hıçqırıq tutdu, o, əlini Ağanın əlindən çəkmədən sanki bu əldən qüvvət alaraq kəsik-kəsik sözə başladı:

– Də-dədəm su gətirmişdi, arvadlar yığılmışdı, Narınc, Molla Qurbanqulunun qızı... var ha... o, su vermirdi bizim mollabacıya – qız başı ilə küncdə oturmuş Güllübəyimə işarə elədi – hə, sonra nə təhər oldusa satıldöymə başladı. Də-dədəm araya girdi ki, mollabacımı vurmasınlar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(o yenə qadına tərəf başı ilə işarə elədi) yoxsa satıllar, güyümlər hamısı ona dəyəcəkdi... dədəmə dəydi... dədəmə!..

Nazpərinin hıçqırtısı artdı...

– Ağlama, qızım, ağlama...

Mahmud ağa qızın sözlərini eşidəndən sonra, qəlbində bibisi qızı üçün bir qədər rahat oldusa da, böyük bir təəssüf hissilə Güllübəyimə tərəf döndü:

– Bibiqızı uşaq düz deyir?

Güllübəyim örtülü başı ilə "bəli" işarəsi elədi...

Bundan sonra Kərim bəy söhbətə qarışıb, şəxsən özü Nazpəri və Güllübəyimi dindirdi, ondan sonra da Mahmud ağa və Seyid Əzim Hacı Məhəmməd oğlunun qulluğunda digər şahidlər dindirildi...

Ayrılarkən Seyyid üzünü qadına tutdu:

– Güllübəyim bacı, bir az əvvəl dayıoğlunuz dedi ki, özünüzü bu maarif yolunda qurban demisiniz, "Ənvari-Süheyli"də deyilir ki:

Mən nəmiquyəm səməndər baş, ya pərvanə baş,
Çun befekre-suxtən oftadeyi-mərdanə baş[1].

Bu yolu öz məzaqınız, öz xəyalınızla qəbul etmisiz. Sizə Allahtaaladan səbir arizu edirəm ki, binəva həmvətənlərimizə yaxşılıq etdiyiniz yerdə, atılan daşlara dözə biləsiniz, mərdanəlik isə özünüzdə var.

Məsələ aydın oldu. Sərçə Bağının ölümündə Güllübəyimin təqsiri yox idi. Onu azad elədilər və Mahmud ağa özü gəldiyi faytonda onu evə göndərdi. Mahmud ağa və başqa mütəşəxxis şəxslərin işə qarışması nəticəsində, Bağının ölümü təsadüfi bədbəxtçilik kimi qeydə alındı. Arvadların, xüsusilə, davanın düşməsinə səbəb olan Narıncın məhkəməyə çəkilməməsi üçün Molla Qurbanqulu və Alış adamları əllərindən gələni elədilər. Cənazə murov idarəsindən qaytarıldı və Şirvan dəbiycən həmin gün dəfn edildi.

Güllübəyimin yarı mollaxana və yarı məktəb olan dərsxanası əhali arasında narazılıq törətdiyi üçün, hökumət tərəfindən "İcazə alınmamış, qeyri-qanuni" elan edildi və qədəğən olundu. Burada da Alış, Qapaqlı və Molla Qurbanqulunun əli var idi.

Şirvanda "Müqəddəs Nina"nın 1848-ci ildə qızlar üçün açılmış şöbəsi nəzərə alınmazsa, yerlilər arasında ilk bahar elçisi, qaranquşun

---

[1] Mən demirəm ki, səməndər, ya pərvanə ol, yanmaq fikrinə düşmüsənsə, mərdanə ol.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilk sədası olan qız məktəbi beləcə darmadağın dağıldı. Amma qaranəvəslər Güllübəyimdən əl çəkmirdilər...

Axşam təzə düşmüşdü. Mallar örüşdən qayıtmış, şəhərdən əl-ayaq yığılmağa başlamışdı. Güllübəyim evdə nə vaxtdan bəri idi ki, tək dolanırdı. Qapısını açan, halını soruşan yox idi. Əgər Sərçə Bağının külfəti olmasaydı, bazarlığını eləyən, suyunu gətirən də olmayacaqdı... Qüssə, təklik Güllübəyimi haldan salmışdı... O, yeddilik lampanın şüşəsini silib yandırdı, otağa ölgün bir işıq düşdü. Qəlbinə dolan qüssələr bir az da artdı, divarlara düşən kölgələrindən üşənməsin deyə, Füzulinin divanını taxçadakı mücrüdən götürüb yerə oturdu, kitabı açdı. Lampanın işığını bir az da artırıb oxumağa başladı: "Açmayır kimsə qapım badi-səbadan qeyri... Mənim kimi, yox mənim kimi ola bilməz, ey rəhmətüllah Bağdadi! Sən kişi idin, qapını açan olmayanda, özün onu açıb küçəyə çıxa, istədiyin yerə gedə bilərdin... Mən isə...

Mən gövhərəm özgələr xiridar,
Məndə deyil ixtiyari-bazar,
Dövran ki, məni məzadə saldı,
Bilməm kim idi satan, kim aldı?..

Yaxşı demisən Şərqin leylalarının dərdini... yaxşı bilmisən..."

...Qapı vuruldu, gəlin diksindi, başını qaldırıb qapıya tərəf baxdı, ona elə gəldi ki, külək döyüb, ya özgə qapısının səsini eşidir, ya da kim isə, qərib Allah qonağıdı, darvazanı səhv salıb... Qalxıb cəftəni içəridən açdı və donub qaldı: Qarşısındakı məşədi Alış idi... O, kimi desən gözlərdi... Alışdan başqa... Əslində, yox, o heç kimi gözləmirdi, o cümlədən Alışı da...

– Bağışla, Güllübəyim bacı, Allah qonağı istəmirsən ki?..

Bu gəliş elə gözlənilməz, elə nagəhani idi ki... Güllübəyim özünü itirdi... Yaşmaqlanmağı da unutdu... Bir də axı kimdən yaşmaqlanacaq idi tək evdə? Kiminləsə danışa bilmək, təklikdən çıxmaq arzusu ona elə qalib gəldi ki, Alışa bir söz tapıb deyə bilmədi...

Alış qımışmadan, ciddi sima ilə qapının astanasında durmuş gəlinə baxırdı: "Nə qədər qada-bala çəksən də, elə əvvəlki gözəlsən, ay su sonası, lap elə imanlılara "yox" deyib əməziyi seçəndəki kimi... Nəslimdən – imanlıdan neçəsi istədi səni... Mən də onlardan biri idim..."

– Nə buyururdun, ağa Alış?

O, kandardan çəkildi. Alış öz evinə girən kimi otağa daxil oldu, dər-divara göz gəzdirdi. Hər yer gül kimi tər-təmiz olsa da, otaqda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qorxunc bir tənhalıq əsəri duyulurdu. Elə bil heç bu evdə insan yaşamırdı, xörək bişirilib, çay qoyulmurdu. Elə bil ev kimin üçünsə, haçansa təmizlənib qoyulmuş, indicə ağzı açılmışdı...

– Dedim, nə olar, qonşu olmuşuq, gedim bir soruşum görüm necəsən, bəlkəm bir şeyə ehtiyacın-zadın var?

– Allah ömür versin, heç nəyə ehtiyacım yoxdu...

Alışın gözləri lampanın dibində qoyulmuş kitaba sataşdı. "Elə genə oxuyur, bu oxumaq olmadı bəyəm səni bədbəxt eləyən, bəsin olmadı bəyəm çəkdiyin?" Lakin bu haqda bir kəlmə də danışmadı... Keçib nimdərin üstündə oturdu. Dimdik – heykəl kimi astana yanında dayanmış Güllübəyimə baxdı:

– Məsəl var deyəllər ki, "dəli qonaq ev yiyəsinə təklif eləyər" gəl otur görək, bir Allahdan-bəndədən danışaq. İndi durub mən də gedirəm... Görüm nə təhərsən, axı Allah özü buyurub, kömək Əlidən qalıb...

Güllübəyim ona "bacı" deyib qapısından içəri girən Alışı qova, "çıx get" deyə bilmirdi. Əvvəldən onun nə üçün gəldiyini ağlına da gətirmirdi. Digər tərəfdən tənhalıq onu əldən salmışdı. Həm də Alış ziyarətdən bu yaxınlarda qayıtmışdı. "Bəlkə bədbaxtımı bir yerdə görüb eləyib, bəlkə başında bir iş var, bəlkə qara xəbərlə gəlib?"

– Yoxsa kişinin başında bir iş var, məşədi?

O ilk dəfə dilinə quldur Alışın təzə ləqəbini gətirirdi. Alış təzə adını eşidəndə gülümsədisə də dərhal Güllübəyimin nədən danışdığını anladı: "Hə, bircə bu qalıbmış..."

– Yox, yox... Kişini görüb eləməmişəm, haqqında bir bəd xəbər də eşitməmişəm, Allah eləməsin...

Güllübəyim aralıda əyləşdi.

– Bəs nə əcəb məni yada salmısan?

– Əcəb camalın, vallah, elə belə, fikirləşdim ki, əl tutmaq Əlidən qalıb, gedim görüm nə təhərdi?

– Çox sağ ol, Allah imanını versin... Amma bir şey lazımım deyil...

– *Təki olsun, təki olsun... Olmasa yaxşıdı... Bəs bazar-dükan işini* kim görür?

– Rəhmətlik Bağının uşaqları...

– Hə... nə olar. Əl tutmaq Əlidən qalıb... – "əh zəhrimar, deyəsən bu gecə bundan başqa söz tapmayacam..." Odur ki, dərhal mətləbə keçməyi məsləhət bildi, dedi:

– Bilirsən, Güllübəyim, mən dedim ki, əvvəl bir özünnən danışım, sonra da xalamın yanına gedim, ya adam göndərim... Açığı ondan sənə ər olmayacaq...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Belə!.. Daha nə deyəcəksən, ağa Alış?" – Güllübəyim düşündüklərini demədi, dinməyib söhbətin dalını gözlədi.

Alışa isə sanki birdən-birə ilham gəldi... dil oldu, keçmişdən, Güllübəyimin qızlıq çağlarından söz açdı, bütün İmanlı cavanları kimi özünün də o vaxtdan bəri Güllübəyimin vurğunu olduğunu dedi; dedi ki, "onda qismət olmayıb, indi olsun. Mənim də ayağım çöldən-bayırdan yığılar, tövbə eləyib gəlmişəm, sən də olmazın bəlalar çəkmisən, baş bir yaxadan çıxarıq. Günümüz pis keçməz, bir sənətdən, işdən yapışaram. Sənli-mənli ev-eşik olluq". Lakin Alış bir bunu büruzə vermək istəmirdi ki, bir neçə gün əvvəl Qapaqlı və Molla Qurbanqulu ilə məsləhətləşib, mollanın qızı Narıncı əqd etdirib. Bura isə onu ayrı bir arzu, ayrı bir tamah çəkib gətirib. "Tək arvad, özü də cavan, gözəl-göyçək... çətini əvvəldi, sonra ayıbına kor olub oturacaq... kim kimədi?".

Alış danışdıqca yavaş-yavaş Güllübəyimə tərəf sürünür, dizin-dizin irəliləyir, arabir əlini onun gah kəlağayısının ucuna, gah da guya təsadüfən arxalığının qolçağına toxundururdu...

Güllübəyim nə deyəcəyini, nə cavab verəcəyini bilmirdi: "Belə də şey olar? Kəbinli arvada kim nikah kəsər? Bu nə danışır?"

Alış isə hüdüləyib tökür, Güllübəyimin qəlbindən keçən suallara cavab verirdi:

– Mollaya məsləhət eləmişəm, deyir ki, hansı bir zənən axund yanına gedib desə ki, bir ildi ər çörəyi yeyib, ər paltarı geymirəm, ondan boşdu!..

Alış qadına yaxınlaşdı. Çoxdan bəri həsrətini çəkdiyi gözəlin əlini əlinə aldıqda elə bil kişinin canına od düşdü.

Güllübəyim əlini çəkmədi, uzun mübarizədən artıq yorulmuşdu. Və bu mübarizənin çoxunu da öz vicdanı, qəlbi, namus qorxusu ilə aparmışdı. Xəyanət onu dəhşətə gətirirdi. Həm də bu elə bil ki, sevən bir insanın, həsrətini çəkdiyi ərin əli idi. Ona bir anlıq elə gəlirdi ki, bu dilləri danışan, qorxusundan onu təkbaşına, qaragüruhun caynağında buraxıb getsə də, vücuduna, qəlbinə doğma olan ərinin əlidir... Kişi bunu duydu, onda kinli bir qalib hissi baş qaldırdı: "Canın elə bu deyilmiş?" deyə düşünüb dişlərini qıcıdı və daha kəskin bir hərəkətlə hücuma keçdi: boğuq, tutqun bir səslə mırıldandı:

– İmanlının hayıfını səndə qoymayacağam, imanlıdan heç kəsə getmədin...

Güllübəyim lap ayıldı, "necə?" İmanlının hayıfını? Demək, bu dillər, bu yalvarışlar tək bir hayıf üçünmüş? Mən axmaq isə onun doğrudan da tövbə eləyib, insan olduğunu, qohum kimi kəmfürsət ərimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əvəz eləyə biləcək igid olduğunu, məni müdafiə edəcəyini güman eləməyə başlamışdım... Qaçaq şöhrəti qızların çoxunun ağlını alan kimi... o isə..."

Qadın kəskin bir hərəkətlə qalxdı. İndi onun üz-gözündən qəzəb, həqarət yağırdı:

– Ağa Alış, zəhmət olmasa çıx get! Hayıfını başqa cür alarsan, mən axmaq da... Çıx get, ağa Alış, yoxsa qışqırıb aləmi bura yığaram. Mənim üçün nə təfavütü? Yağışdan çıxmışın doludan nə qorxusu? Nə deyərlər desinlər... Çıx get, ağa Alış, xasiyyətimə bələdsən, elə qıyya vuram ki, bütün Şirvan səsimə toplanar!.. – deyə o, tərəddüd içində dayanmış kişini bir də təkidlə qovladı.

"İtin qızı qışqırar, vallah, mən onu tanıyıram, o cəhənnəm, bəs deməzlərmi ki, "salamməleyk, ağa Alış, ziyarətin mübarək?" Bəs qaynatam Molla Qurbanqulu nə deyər? Deməzmi ki, "Adə, vecala, qələt qarışdırmağa başuva yer qəhət idi? Gərək elə burnumun dibini tapeydun?" "Qaçaq Alış belə ölü olub ki, bir arvadnan da başarmayıb?" Bunu da lotular deyəcək... hələ bəs Narınc?

O, bir daha dişlərini qıcadı, bu diş qıcırdatma artıq ehtiras əlaməti deyil, qəzəbdən, məğlubiyyət acısından idi:

– Neynək, Güllübəyim, səninkiynən mənimki qalsın... Getdiyim ağaya qurban olasan... neynək...

Alış çıxdı... Qapını da çırpmadı, açıq qoyub çıxdı. İndi Güllübəyimin heç nədən qorxusu yox idi, elə bil bir anda gözünün altını almış ölümünə qalib gəlmişdi... Birdən onu acı, göz yaşları qarışıq bir gülmək tutdu, özünü saxlaya bilmədən qəhqəhə çəkirdi...

– Axmaq... axmaq... sən də Alışı insan saymısan? – bu "axmaqlar" onun özünə aid idi... O, göz yaşları içində güldü, güldü... Və bu gülüşlər köksünün dərinliklərindən qopub gələn hönkürtüyə çevrildi. Güllübəyim üzüüstə döşəkçəyə yıxılıb ağlayırdı... Heç divan-dərə ayağına çəkiləndə, bədbəxt Sərçə Bağının ölümündə özünü müqəssir sayanda, belə ağlamamışdı... O, Alış kimisinə inanıb, bir anlığa zəifliyə yol verməsinə ağlayırdı...

Narıncın savaşıb-söyüşməkdə xüsusi istedadı var idi. Elə ki, davaya başladı bütün yaxın məhəllələrin arvadları, bekarsa, kişilər belə iş-gücünü buraxıb tamaşaya durardı:

– Aaz, genə qıldırımqaş başlayıb...

– Sən Allah?.. Bıy hayıf, əlimdə xəmirim var.

– Qoy sonraya!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ay əskiyin qızı, bəs kişi gələndə əppək nə verim?

– Məndə var, aaz, bəri dur. Gör bir qıldırımqaş nə mərəkə düzəldəcək...

Bütün tanış-biliş arasında "qıldırımqaş" adıyla məşhur olan Narıncın savaşmaları məhəllələr arasında bir tamaşadan üstün idi. Onu nə dərviş oxuması, nə xoruz döyüşü, nə xəncərvurma, nə məhərrəmlik şəbihləri, nə qaraçıların oynaması əvəz edə bilərdi. Narınc şeir istedadına malik idi və bunu da yalnız söyüşmə vaxtı büruzə verərdi: elə bil qız savaşmadan ilham alar, qarşısındakı rəqibini sicilləmə sözlərlə bəzəyərdi, bu sözlərin xüsusi uyğun ahəngi, vəzni, qafiyəsi, hətta rədifi də yerində olardı. Rəqibin bütün zahiri və batini qüsurları bu mənzum söyüşlərdə əksini tapardı. Narınc bu sətirləri rəqibin başına sel kimi yağdırar, ahəngə uyğun şəkildə getdikcə, coşar, üstələyər, bir mahir aktyor kimi əllərini ölçə-ölçə gah irəliləyər, gah geriləyər, əlini bədəninin müxtəlif yerlərinə çırpardı. Arabir nəfəs dərib içəri gedər, gördüyü işə ara vermədən gərəyi olan qabı-qazanı götürüb, yenə həyətə çıxar, ocağı qalaya-qalaya, qazanı bulaya-bulaya sözünə yeni bir qüvvətlə başlayardı.

Bu gün təzəgəlin Narıncın hədəfi Güllübəyim idi.

– Aaz ey! Ay ərini çöllərə salan dilaramçəngi, – deyə çırtıq çalmağa başladı:

Güllübəyim nazanda,
Aşı bişirər qazanda,
Özü yeyər nimçədə,
Ərinə verər çömçədə.

Elə elədin ki, yazıq kişinin gününü göy əskiyə düyünnədin, düşdü, diyarbədiyar. İndi də özünü elə yetirmisən ki, mənim salamımı almırsan?

Çırtıq səsi bir də ucaldı:

Ətəkliyin piləydi,
Çıxma çölə küləydi,
Salam verdik almadın,
Sımsığına nə dəydi?

Bu başlanğıc idi, Narınc bu müqəddimə ilə hədəfinin kim olduğunu, kimə meydan oxuduğunu bildirir, qohum-qonşuya və rəqibin özünə xəbər verirdi. "Allah, sən saxla", deyə hələ hədəfin kimliyin-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dən bixəbər arvadlar bir-bir məhəlləyə tökülüşdü. Narınc əllərini belinə vurub, Güllübəyimin qapısından xeyli aralıda dayanmış, üzünü həyətə çevirib nazik "qıldırım" qaşlarını yuxarı dartmış və döyüşkən beçə görkəmi almışdı.

– Ay sənin atovun qəbrinə tula bağlayım yeddi cüməaxşamı, sabah yox, o biri gün əvvəlidi, indi özünü o yerə çatdırmısan ki, mənə öcəşməyə başlamısan? Ay dərələrin tülküsü! Sən yaxşı vələd olseydun nəslün səndən üz döndərməzdi, arvad olseydun ərün atıb getməzdi, ay divan-dərə artığı.

Bundan sonra Narınc sağ əlinin dalını sol əlinin içinə vura-vura ahəngdar addımlarla irəliləməyə və dərələrdə əks-səda verə bilən ötkəm səsilə bədihə deyirmiş kimi yeyin-yeyin ötməyə başladı.

Qadam sənin ac ağzuva,
Əppəyə möhtac ağzuva,
Əppək tapıb xoruldayır,
Eşşək kimi zırıldayır.

Arvadlardan bəzisi şaqqanaq çəkdisə, bir çoxu ürəyində deyirdi: "O bədbəxtdə indi əppəy hardadı ki, qudura da, a bihəya" – amma heç kəs həyasıza baş qoşub, davaya düşməməkçin ucadan bir söz deyə, Güllübəyimə qahmar çıxa bilmirdi: "Həyasızdan hayovu gözlə" deyiblər.

Güllübəyim dözməyib qapıya çıxdı, darvazanın önündə ona olmazın föhşələr verən, şəbədələr bağlayan Narınca sükut içində xeyli baxdı. Yaşı qurumuş, kədər dolu gözləri yanırdı. Dili-dodağı təpimişdi. Narıncın nəfəs dərməsindən istifadə edib aram səslə dilləndi:

– Məndən nə istəyirsən, Narınc? Niyə məni elnən bir eləyib, səsini başına salmısan?

Narınc yenə də nəzmlə coşdu, əlin əlinə çırpıb ritmlə irəliləməyə, şırıqqa ilə özünə təqt tutub yağdırmağa başladı:

Əcəb eləyirəm!
Əlimin içindən gəlir,
İçinin içindən gəlir,
İçində bir noxud var,
Onun da içindən gəlir,
Xətcə biçindən gəlir,
Sayad bulaqdan gəlir,
Xanbikə bağdan gəlir,
Orcalı dağdan gəlir!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qafiyə, ad çox, Narıncın boğazı da elə bil gavahınla deşilib, yorulub-usanmaq bilmir, əlləri, qarnı, dizləri göyərib ağrımır, atəş saçan gözlərilə getdikcə kükrəyir, coşur, föhş yağdırırdı.

– Hə... Ay əskik uşağının törəməsi! Sərçə Bağının vayına oturdun, bir sürü yetimi qaldı. Yaxşı ki, dilənib-dolanıb gətirirlər. Bir parça darı cadını bulğurtda boğazından getdikcən.

Cad fətiri,
bulaq suyu,
Güllübəyim –
qarnın quyu.

Dayı bizdən nə istəyirsən? Yoxsa təzədən gözün İmanın gədələrinə düşüb? Əgər onlar sənə yiyə duran olsaydılar, vaxtında durardılar! Dayı biqeyrət artığını, divan-dərə tullantısını neynirlər? Onlar o namısın yiyəsi deyillər! Bax, fas-farağat dur, cadı-pitiknən indi də təzə pəstaha açma ha... Allaha and olsun, səni bir Güllübəyim elərəm, biri də yanından çıxar, yaxşı saxla yadında!

Güllübəyim anladı, bayaqdan bəri başına yağdırılan sözlərin məğzini, davanın səbəbini bilmirdi; demək, Alışın onlara gəlməsindən xəbər tutan olub, ya Narınc özü Alışı onların evinin həndəvərində görüb... "Bəs Alışdan Narınca nə var? Hə... Deyirlər axı... Molla Qurbanqulu Alışla qohum olur... bu imiş qohumluq... Su suyu tapar, su çuxuru; Güvəc yumbalanar, qapağını tapar... Əsil yerindi Narınc... Əgər qulağın söz eşitməyə, qəlbin kimə isə inanmağa qabil olsaydı səni başa salardım... Deyərdim... O namərdi qapımdan necə və nə üçün qovduğumu söylərdim... heyif... heyif ki, heç nə eşidən, heç kəsə inanan deyilsən..."

Bu hadisədən sonra Güllübəyim artıq Şamaxıda sağ baş gora apara bilməyəcəyini anladı. Mahmud ağanın köməyi ilə şəhərdən çıxıb, Qafqayda yaşayan qohumlarının yanına yola düşdü. Az sonra İsrafildən Şirvana talaq məktubu gəldi və Molla Qurbanqulu məmnuniyyətlə bu talaq hökmünü icra elədi. İsrafilin məktubunu dəstəvüz eləyib Güllübəyimi, özü meydanda olmadığı halda, ərindən boşadı... Əqrəba bu xəbəri Qafqayda Güllübəyimə çatdıranda onun üçün artıq heç bir əhəmiyyəti qalmamışdı. Onu müdafiə etməyən, meydanda tək qoyan ər nəyinə gərəkdi. Güllübəyim Qafqayda xüsusi təhsillə məşğul idi.

Güllübəyim hadisəsi belə qurtarmışdı. Bundan sonra Seyid Əzimin məktəb açdığını, "Beytüs-Səfa" ədəbi məclisinin fəaliyyətə başladığını siz artıq bilirsiniz. Siz Qara Məhəmməd Səfa, onun istəklisi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəmzə faciəsinin başlanğıcında ondan ayrılmışdınız. Xəstə Qəmzənin pirdən qayıdanda, Səfa və Seyyidə rast gəldiyini, onların atına minib Şamaxıya yollandıqları zaman cavan şairlə Seyyidin mükaliməsi yadınızdadırmı?

O zaman Seyyidin "fələk" rədifli qəzəli bu hadisədən kədərlənərək qoşduğunun şahidi olmuşuq. Gənc şair öz böyük dostunu dinlədikcə düşünmüşdü:

"Yaxşı deyirsən, Ağa, yaxşı duymuşsan dərdimizi! Amma Qəmzənin o qəmli gözlərini görsəydin, mənim kimi lal olardın, heç nə deyə, heç nə qoşa bilməzdin".

Bəs indi cavan dostumuz Səfa, onun yaralı, qəmli Qəmzəsi nə haldadır? Gedək bir görək. Axı zəmanə bu insanları elə qəribə bağlarla bir-birinə bağlayıb, elə düyümlər vurub, hadisələri bir-birilə elə qovuşdurub ki, onları təkbətək bir-birindən ayırıb izləmək mümkün deyil. Buna görə də bayaq Güllübəyim fəqərəsini danışmaq üçün hadisənin əsas gedişini qırdığıma görə sizdən üzr istəmişdim. Güman edirəm ki, məni artıq əfv etmişsiniz.

## VİDA (müsibət)

Onlar meşənin dərinliyinə girəndə Məhəmməd nədənsə üşənən kimi oldu. Bayaqdan bəri heç bir şey düşünməmiş, heç nədən şübhələnməmişdi; onlar bulaq başında çörəklərini yeyəndə İsmayıl çox qaradinməz oturmuşdu. Başqa cür ola da bilməzdi. Axı son zərbədən yazıq İsmayıl hələ də özünə gəlməmişdi. Elə ona görə də dünən axşam Məhəmmədi yanına çağırıb demişdi:

– Məhəmməd, sabah məni haqqey pirinə apar, haqqeyə gedim, bəlkəm gəldim özümə. Dizimdə taqət qalmayıb, yerimdən qalxan kimi dizim əsir.

Məhəmməd pir söhbətinə ürəyində o qədər inanmasa da qardaşının xətrini sındırmamış, sözünü yerə salmamışdı. "Hər nə olsa təki sağalsın, indi ki, inanır – sağalar, etiqad eləyir – sağalar", – deyə düşünmüşdü. Qardaşlar erkəndən hazırlaşıb evdən çıxanda anaları Xanımsoltan İsmayılı səsləyib evin kəlləsinə aparmış, nə isə danışmışdı. Sonra da İsmayıl arxadan gəlib Qaraya çatmışdı. Onlar sübhün alaca toranında, şeh parlayan otlar üzərindən addımlayıb şəhərdən çıxmışdılar. Şəhərkənarı evlərdən qalxan naxır, yaylımdan qayıdan qoyun sürüləri yaşıl təpələrə yayılmışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Son günlər qardaşlar, ümumiyyətlə, ailə üzvləri demək olar ki, bir-birinin üzünə dik baxa bilmir, bir-birilə yanpörtü, yarımküsülü kimi danışırdılar. Elə buna görə də Məhəmməd anası ilə qardaşı arasındakı söhbətlə maraqlanmamış, heç nə soruşmamış, İsmayıldakı təbəddülatı da görməmiş, görə bilməmişdi.

İndi Zoğallı meşəsinin dərinliyinə girəndə üşənməsi də onda heç bir qara fikir oyatmadı. Məhəmmədə elə gəldi ki, onu üşəndirən meşənin sıx, sərin kölgəliyidir... Bütün yolu qırıq-qırıq danışmışdılar.

– Bulaq başında oturaq?

– Oturaq...

– Aclığın var?

– Yox... – Bəlkə tikə kəsəsən?

– Olar.

O, İsmayılın üzünə baxa bilmirdi. Məhəmmədin dərdi onsuz da böyük idi, o bütün yol boyu qəlbində qardaşı ilə danışır, ürək sözlərini ən əziz və yaxın adamı, dostu olan İsmayıla söyləyirdi: "Qardaş, axı bəyəm sən bu Bəzzazbazar camaatını tanımırsan?.. Bu dodaqbüzmələrə, şəbədəbazlara bələd deyilsən? Mənim günahım nədi? Alışdı, Hacəsəddi kimə bir quyruq bağlamayıb? Hər kim bir az gözü açıq çıxıb – dinsiz deyiblər, oxumuşa – urus adı qoyublar, məscidə bir gün ayaq qoymayana – moltanı deyiblər... Ioğaza qoymadıqları adam qalmayıb. Görmədin bədbəxt Güllübəyimin başına nə oyun açdılar? Məktəbini necə dağıtdılar? İndi də Ağanın üstünə düşüblər. Min zəhmətnən açdığı məktəbi künfəyekun eləmək istəyirlər. Ona da, mənə də olmazın qara yaxırlar. O kişidə dərya bilik var, mən də bir damcı götürmək istəyirəm o dəryadan. Şerimi aparıb oxuyuram – duzəldir, ülgülərin öyrədir, biliyimi artırır. Məgər "Beytüs-Səfa"da nə pis əməl var ki, sən ondan bixəbərsən? Hansı yığıncaqda özün olmamısan, qardaş? O ədəb məclisində nə pis şey görmüsən? Kaş səninlə açıq danışa bileydim, kaş gözlərimin içinə baxa bileydin? Kaş, ürəyindən keçənləri sən də mənə deyə bileydin? Nə olardı, qardaş! Dərd deyilsə, insan yüngülləşər... Deyilməsə daş olar, qaya olar, ürəyə çökər... Qardaş, axı biz uşaqlıqdan dost idik, böyük də olsan məndən, oyun yoldaşım olmusan, axı atamız olsa da, mənə atalıq eləmisən, sənin qorxundan məni məhlədə bir uşaq incitməyib, bir azğın şapalaqlamayıb... Elə ilk əvvəldən ürəyimin döyüntüsünü də sən bilmisən... Bədbəxt Qəmzənin qəlbimə işləyən baxışlarından yaralandığımı, əmimiz qızının vurğunu olduğumu da sən bilmisən. İlk nahamvar qəzəllərimi sənə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oxumuşam. Dərdimi-acımı sənə açmışam, səndən heç nə gizlətməmişəm, dostum, canım-ciyərim qardaş! Bəs indi niyə mənə inanmırsan, niyə qaragüruhun, başıpozuq alışların, azğın qapaqlıların felinə inanırsan, mənə yox, qardaş?!. ...Axı ürəyin var, o sənə heç nə demirmi? Axı Allah divanı var, ondan qorxmursanmı?"

Məhəmməd ətəyinə və qolağzına gümüşü bafta tikilmiş qara çuxasına bir az da sıx büründü. Zoğallının lap sıx, əl-ayaqdan uzaq bir yerinə çataçatda idilər, Məhəmməd nə üçün haqqey pirinə gedən yolu burdan saldığını İsmayıldan soruşmur, səbəbini bilmir, ardınca düşüb gedirdi.

İsmayıl isə bilirdi. O öz son hökmünü vermişdi. Bu gün nəslinin üzünə yaxılan bu qaranı silmək üçün yolu Zoğallı meşəsinə salmışdı. Söz-sovun qulağına dəydiyi bir il olardı. Bu bir ildə İsmayıl nələr çəkməmişdi. Bir neçə gün əvvəl Mahmud ağa onu yanına çağırtdırmışdı. İsmayılla təklikdə xeyli danışmış, "ağlını başına yığ, haramzada sözlərə inanma, bunlar o Qapaqlıynan Alışlının quramasıdı" – demiş, sonra da Ağanın kəlamından neçə-neçə yerləri oxumuşdu:

– Bu şeirdir, nəzm aləmidir. Burda şair xəyalı rəmzlər, təşbehlər yaradır. Bir bax gör şair məşədi Kazım bəy haqqında yazdığı nəzmdə cənab Ağaseyidəli ağaya nə sifətlər verir:

Leyliyi-sirri-həqiqətdir o sibti-Müstəfa
Kim edib hüsni-xilasi dəhr ara Məcnun məni.

Şair Ağaseyidəli ağanı Leyliyə, özünü Məcnuna nisbət eləyir. İndi sən bilən bu zahiri təşbehdən gərək cənab Seyidəli dilgir olsun? Ona da bir gizli məna qoşulsun?

İsmayıl qəlbində şeir aləmində bu növ rəmz və təşbeh icad edənləri lənətləyib zahirdə dedi:

– Xeyr, əstəğfürullah... Amma...

Mahmud ağa özünəməxsus bir mülayimliklə əlini İsmayılın əlinin üstünə qoydu:

– Bunu ancaq və ancaq gövdənlər eləyər. Bir də qəsdi-qərəzi olanlar! O adamlar ki, Ağanın cənab Səfaya olan şeir dostluğundan – sui-zənn edirlər, ona yazdığı şeirlərdən sui-istifadə edirlər, onlar sizi yox, məhz Ağanın düşmənləridir. Sizin də zəif yerinizi tapıblar. O növ dustanə şeirlərdən cənab Ağa mənə də, başqa dost-aşnaya da, Qarabağın, Bakının, Gəncənin başqa cavan şairlərinə də yazıb. Namərbut adam istəsə onlardan da sui-istifadə üçün misralar, beytlər, təşbehlər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tapar. Amma o təşəxxüslü şəxslərin adını yamanlığa çəkməyə heç kəs cürət eləmir. Ağanın adını batırmaqnan məktəbi, təzə məktəbi batırmaq istəyirlər. Təzə əməlləri puç eləyirlər, sən onların əlində məyub alət olma! Quramadı, inanma... Ağaya öcəşirlər, inanma...

Son sözlər İsmayılın qəlbində təkrar olunurdu. Bundan bir gün keçmiş cümə namazından dağılanda ona dedilər ki, Ağaseyidəli ağa səni görmək istəyir. Ayaq saxladı, seyidin üzünə baxa bilmirdi. Başını təkəmbir yuxarı qaldıranda məsciddən sonuncu çıxan adamların maraq dolu baxışlarına rast gəlib özünü lap itirdi. Mahmud ağa ilə söhbətdən sonra bir az ürəyi toxtamışdı. İndi Ağaseyidəlinin nə deyəcəyi onu qorxudurdu: Bəlkə Ağaseyidəli "yox elə, aduvu batıranı" deyəcək, bəlkə o da... O, titrək qədəmlərlə mehraba yaxınlaşdı. Uca, naxışlı minbərin sağ tərəfində oturmuş qoca seyid yumaq kimi büzülmüşdü. Qara Misir əbası, ağ ipək əmmamə sanki onun nazik bədəninə ağırlıq edirdi. Dümək saqqalı sinəsinəcən uzanmış, boz qaşları, ağ bığları qocanın simasına nurani bir görkəm vermişdi. İsmayıla elə belə də göründü, "elə bil bir parça nurdu", – deyə düşündü.

– Yaxın gəl, övladım, yaxın gəl, gəl əyləş, – deyə qoca ruhani oturduğu döşəkçənin yanındakı nimdəri göstərdi. Lakin İsmayıl onunla yanaşı oturmağa cürət etmədi, iki qədəm qalmış önündə ehtiramla taxtamicə palazın üstündə diz çökdü.

– Dərdini bilirəm, oğul eşitmişəm, amma sən mənim nəsihətimə, məsləhətimə qulaq as. Namərbut sözlərə inanma! Qiyamət qarası çəkilmiş üzlərə...

İsmayılın qəlbinin üstündən bir daş götürülən kimi oldu. Ağaseyidəli damarları çıxmış ağ, nazik əllərini ipək kimi yumşaq saqqalında gəzdirib sözünə davam elədi:

– Sən bir diqqət elə, onun dediyi şeirdir, oğlum! Özün də məclislərində olmusan, bilirsən azdan-çoxdan. Bunu da bil ki, şeirdə rəmz olur, onun da dediyi məhz rəmz ilədir. Sən bir onun peyğəmbər səlavatullah barəsində dediyi nəzmə diqqət elə:

> Eşqdir hər nə var aləmdə,
> Sən də ol eşqə yar aləmdə.
> Seyyida, eşqə iqtida eylə
> Eşqi tut, tərki-masəva eylə.
> Mətləbin gər nəimi-sərməddir,
> Sənə məşuqə bil Məhəmməddir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Afitabi-səma, məhi-bətha
Şahi-ümmi, müəllimi-əsma...

İndi bu nə olsun, burdakı məşuqə adlandırılan Məhəmməd kimdir? O peyğəmbər səlavatüllahdır! Cənab Hacı Seyid Əzim bir bu cümlə ilə bütün nabərkarların cavabını verib deyir ki, mənim həqiqi eşqim də – dinim, məşuqəm də – peyğəmbərimdir. Ağa pak adamdı, napaklara inanıb özüvü bədbəxt, cəhənnəmlik eləmə. Get, bir halal süd əmmiş tap, mən özüm də gərək olsa vasitəçilik elərəm, qardaşını evləndir, yığ əl-ayağını, söz-sov da qurtarıb getsin.

İsmayıl əyilib göy damarları aşkar bilinən o balaca, ağ əli nə zaman öpdüyünü bilmədi. Məsciddən çıxanda uçmağa qanadı yox idi.

Bir vaxt elçilər əmi evindən boş qayıdanda Xanımsoltan ana qaynından gileylənib demişdi:

– Nə olsun, qoy heccə yerə verməsin. Odu ey, Məşədi Ağabalagil... hələ rəhmətlik kişi sağlığından biznən qohum olmaq istəyirdi.

Elçilər ananın arzusun yerinə yetirdi. Məşədi Ağabala isə elçilərə çox aydın bir cavab vermişdi. "Özlərinin iti də var, kütü də, qız əmisində. Əvvəldən də deyiklisiydi, o verməyəndə mən niyə verim? Yaxşı oğul idi – əmisi neyşə üz döndərdi ondan?".

Elçilər pərt qayıtdılar, dedilər:

– Kişi zər istəmədi, zor istəmədi, aləm aşkar dedi ki, itə verrəm – ona vermərəm.

Söz dərhal bazara yayıldı.

Elə o gün atasının köhnə, sadiq dostu Ağa Rəsulla söhbəti İsmayılın heç yadından çıxmırdı. Ağa Rəsul onu Qapanlara çağırtdırmış, anbara çəkib təklikdə xeyli söhbət eləmiş və demişdi:

– Ağa İsmayıl, oğlum! Rəhmətlik atanın yanımdakı hörmətini və haqq-salamımızı yaxşı bilirsən! Sarı Hacağagil məsələsin eşidən kimi yaman qanım qaraldı. Əşhədən billah, az qaldım əminnən ölüm-dirimə çıxam. Sonra aranızdakı incikliyi götürməyi məsləhət bildim. Getdim yanına. Bir az gec idi, nə isə, dedim: bəlkə düzəlişim, kişiynən sizi barışdırım. Özün də mənə bələdsən, şükür Allaha! Peyğəmbər haqqı, kişi mənə qardaşın sarıdan elə şeylər danışdı ki, dayı matım-qutum qurudu... Əzəldən qulağıma çatan sözü "düşmən sözü" bilib fikir vermirdim. İndi yalan-gerçək bir əhvalat ki, Qapaqlının, Ayıbasan Məhərrəmin, Zol Hüseynin, Dor Əlinin qərəz, bütün əsnaf və tüccarın dilinə ki, düşdü, onun çarəsi yoxdu!.. Sən də lap nahaq eləyib evinizdə o "Beytüs-Səfa"dı nə zəhrimardı, ona yol vermisən...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsmayıl and-aman elədi:

– Vallah, əmi, mən dayı öhdəsindən gələ bilmirəm. Amma neçə dəfə özüm məclislərində olmuşam, bir pis şey görməmişəm. Buna baxmamışam, qulağıma söz-sov dəyəndən nə qədər Qaranı danlamışam, olmur! Deyir: məndən, Ağadan, ya məclisə gələn şairlərdən nə yaman şey görmüsən ki... Ağaseyidəli ağa dedi ki, "yalandı, get evləndir, yığ əl-ayağını..."

Ağa Rəsul onun sözünü kəsdi:

– Yalan-gerçək, genə də deyirəm ki, bilmirəm. Bu şeylər bir Allaha məlumdur! Axund demişkən "Allahü ələm". Mən peyğəmbər deyiləm, imam deyiləm... Nə bilim, amma onu bilirəm ki, bu şəhərdə sizə qız verən olmaz, o söhbətdən sonra. İllah ki, əmin tutduğu işdən sonra! Nahaq yerə qapı-qapı düşüb özünü urvatdan salma. Elçi göndərdiyin abırlı kişilərin də üzünün suyunu tökmə! Bizim də öz qayda-qanunumuz var, bu namus məsələsidi, əvvəl əldə sənin öhdənə düşür, sonra mənim... Əmin deyir ki, nə qədər o gədə sağdı, məndən onlara əmi oldu yoxdu, nə öldüm – ölümün üstünə gəlsin, nə öldülər – ölülərinin üstünə gedən deyiləm!.. İndi özün bil, bu ləkəni sən yuvasan gərək!

İsmayıl namus əsiri kimi tanıdığı Ağa Rəsulun yalanla işi olmadığını yaxşı bilirdi. Elə ilk dəfə qardaşı haqqında hökmü də orda verdi.

Üç gün əvvəl İsmayıl Bəzzazbazardakı dükanına gələn də Hacı Əsəd açıq-aşkar ona eşitdirmək qəsdilə ucadan qonşu bəzzazı səslədi:

– Adı, Hacı Qədir, deyillər aşnova qız gəzillər... – Sonra özünü görməməzliyə vurub bir az da ucadan sözünə davam etdi. – Balam, ağa onun talağını verib bəyəm?..

Cərgədən qəhqəhə qopdu...

İşarə o qədər aydın idi ki, ad çəkilməsə də qan İsmayılın beyninə vurdu, sözlər şüurunda ildırım kimi çaxdı.

İsmayılı hırıltı səsləri müşayiət edirdi.

– Sö-öləsən, meyidüvü görüm, dayı bu camaatda qeyrət qalmayıb...

– Balam papağı isti-soyuq üçün qoyullar da...

– Allahü əkbər, camaat arı yeyib, namusu dalına atıb.

– Ayə, ona kim uşağın usburt olar? Əşhədən billah, kişinin on kor küçüyü ola ha, birini ona verməz...

Elə bu anda Xorasana gedib məşədi olmuş sabiq quldur Alış onun qənşərinə keçdi, açıq həyasızlıq yağan simasındakı acı gülüşlə dedi:

– A-adə, deyillər qardaşun Ağanın mütrüfü olub, Ədilin yerinə...

İsmayıl sözün dalını eşidə bilmədi, gurultulu qəhqəhə, fit və hay-küy altında bazardan qaçdı: "Onu quzğun yemi eləyəcəm..."



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Evə çatan kimi şaqqıldatma – titrətmə ilə yorğana girdi. Məsələ dərhal ailə üzvlərinə aydın oldu. Hamının əl-ayağı küçədən, iş-gücdən kəsildi, xanənişin olub qaldılar, evdə ailə bir-birindən küsülü kimi dolanırdı.

Xanımsoltan ana naxoş İsmayıl və Məhəmməd arasında çırpınır, gah xəstəyə çörək-çay yedirir, gah da dib evə çəkilib bir guşədə fikir dəryasına qərq olmuş Qaranı ovundururdu. Dünən axşam İsmayılın qızdırması azaldı.

...Hökm verilmişdi. Mahmud ağa da, Ağaseyidəli də, kim nə deyirdesin... "Məni bağışlayın, mən daha bu dərdi çəkə bilmirəm. Onu quzğun yemi eləyəcəm".

...Sübhün ala-toranında evdən çıxanda Xanımsoltan ana onu evin kəlləsinə çəkdi:

– Hara gedirsiz, oğul?

Onun səsində elə bir həyəcan, sinəsində elə bir çırpıntı vardı ki, İsmayılın dizləri əsdi, ananın gözlərinə baxa bilmədi, boğuq səslə mızıldandı:

– Haqqey pirinə, dedim axı.

– Bəs Qaranı neyşə aparırsan?

– Tək getməyəcəm ki...

– Vəlini aparsana!..

– Ondan mənə nə hay...

Ana oğlunun əlindən tutdu, İsmayılın barmaqları sırsıra bağlamış kimi bumbuz idi. Ana bu əllərdə övlad məhəbbəti duymadı, balasına süd verən döşləri sızıldadı, taqəti kəsildi, təlaşı artdı:

– Ürəyimə damıb...

– Nə axı, qoyma yoldan...

– Damıb ürəyimə! Yuxumu da qara-qura görmüşəm! Bax, İsmayıl, səni bu vaxtın sahibinə and verirəm ana buz kimi soyuq əllərdən bərk-bərk tutub döşlərinə sıxdı – bax, qardaşının, Qaranın başından bir tük əskik olsa, südümü sənə halal eləmərəm... Ağvalideyin olma, mənim balam güldən təmizdi, o dünyada, Fatimeyi-Zəhra qulluğuna üzü qara gələrsən... südümü halal...

İsmayıl əllərini ananın əlindən çəkdi "güldən təmizdi... Sən get bunu Alışa de, Hacı Əsədə de... Bazar camaatına qandır, baqqal-çaqqala de".

Məhəmməd arxada gəlirdi, bir bəhanə ilə onu qabağa keçirmək lazım idi. İsmayıl dayandı, hələ də bazarın hırıltısı, hay-küyü qulaqla-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rında səslənirdi: "Namusu yeyib... qeyrəti atıb..." sözlər hərəsi ildırımlı bir daş kimi İsmayılın başına dəydi.

İsmayıl ətrafına göz gəzdirdi: yer çox münasib idi. Kolluq, sıx ağaclıq, yarıqaranlıq, kölgəli, kimsəsiz... Ağaclar elə uca idi ki, sıx yarpaqlar arasından göyün bircə parçası şırım-şırım, parça-parça, yarpaqlardan bəzəkli mavi tikmə kimi görünürdü. Günəş buluda girmişdi. Bahara məxsus, sərin, kölgəli meşədə, təzə pöhrələnmiş ağacların şux yaşıl yarpaqlarında bir şüa belə əks olunmurdu. Bu zərif yarpaqlara hələ toz-torpaq qonub onları codlaşdırmamışdı. Təzə ot, nəm torpaq və çiçək ətri bir-birinə qarışmışdı. Ah... yaz nə gözəl, nə nazəndə idi... Amma İsmayılın bu gözəlliklərdən zövq almağa vaxtı, macalı yox idi. Bu gözəllik də ona məxsus deyildi, onların, onların idi! Məgər qoyardılar ki, sən – mən rahat nəfəs ala, baharı görə; gözəllik duya?.. Ağa demişkən şəbpərələrdir, amma neynəyəsən ki, gücsüzsən, onlar güclü... Yazıq, biçarə İsmayıl?

Məhəmməd gəlib ona çatdı: böyründə dayandı, bir söz soruşmadı. İsmayıl qardaşına baxmağa qorxurdu, ona elə gəlirdi ki, indicə Qaranın gözləri gözünə sataşsa, sıx qara çatma qaşlarını, indi allığı solmuş buğdayı simasını görsə, hönkürüb ağlaya bilər, qəsdini yerinə yetirə bilməz, sonra da baş götürüb camaat içinə çıxa bilməz, "papaq, namus" daşlarına duruş gətirməz. O, boğuq səslə dilləndi:

– Yeriyə bilmirəm, Qara, keç irəli, bərkə düşmüşük, deyəsən yolu da itirmişəm...

"Qara!" Uşaqlıqdan evdə onu hamı beləcə əzizləyib, niyə bu dəqiqə bu söz dilimə gəldi? Məhəmməd dinmədən irəli keçdi və keçən kimi də kürəyinin ortası alışdı. O, hövlnak geri döndü. Elə bildi ki, onu ilan çalıb, elə bildi ki, kürəyinə şiş budaq sancılıb. Gözü qardaşına sataşanda hər şeyi anladı:

– Haqlısan, qardaş, halal-himmət elə! – və biçilmiş qələmə kimi yerə yıxıldı.

Bir anda Zoğallı meşə fırfıra kimi fırlandı, İsmayılın gözləri qaraldı, qardaş qanına bulanmış xəncəri tulladı, dizləri onu saxlamırdı, qulaqlarında çox səsli, dəhşətli bir uğultu var idi:

Mahmud ağanın səsi: – Quramadı, inan-ma...a!..

Xanımsoltanın səsi: – Südümü sənə halal eləmərəm...

Hacı Əsədin səsi: – Balam, Ağa onun talağını verib bəyəm?..

Alışın səsi: – A adə... deyillər qardaşun Ağanın mütrüfü olub, Ədilin yerinə...



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ağaseyidəlinin səsi: – Ağa pak adamdı... özüvü bədbəxt, cəhənnəmlik eləmə...
Mahmud ağanın səsi: – Ağaya öcəşillər...
Ağa Rəsulun səsi: – Nə qədər o gədə sağdı...
Ananın səsi: – Bəs bizim günahımız nədi? Balam güldən təmizdi...
Məhəmmədin səsi: – Halal-hümmət elə, qardaş!..
Ananın səsi: – Südümü sənə halal...
İsmayılın öz səsi: – Onu quzğun yemi eləyəcəm!..
– Quramadı... ı...
– Papağı isti-soyuq...
– Gədə sağdı...
– Südümü... ü...
– Mütrüf olub...
– Öcəşillər...
– Quzğun yemi...
– Güldən təmiz...
– Halal elə... ə... ə...
– A... a... a...
İsmayıl hara, necə getdiyinin fərqinə varmadan qaçırdı. Alçaq budaqlar çuxasını, üz-gözünü cırıq-cırıq eləyirdi, papağı düşmüşdü, yanağından, alnından qan sızır, göz yaşları çənəsinə sızırdı, parçalanmış, didilmiş əllərini qulaqlarına basmışdı, bəlkə səslər kəsilə, amma səslər kəsilmək bilmirdi.
– A... a...
Məhəmmədin qara xəbərini şəhərə, meşəyə getmiş odunçular gətirdi. İmamlı cavanları palaz, furqon götürüb meyitin dalınca getdilər, həyətdə ocaq qazıldı, qara qazanı asıldı, Şamaxı arvadlarının sevmədiyi qara rəng. Onu yalnız məhərrəmlikdə "Hüseyni qara" nəzri olanlar, bir də əzizi ölənlər geyər. Kərbəlayı Qənbər nəslindən olan gəlin və qızlar hərəsi bir nişanə – kimi köynək, kimi kəlağayı gətirib qara qazanına atdı, Xanımsoltan ananın bir dəst paltarı da bura tullandı – qara boyandı. Qəbir qazmaq və çadır qurmaq üçün Şaxandana adam getdi, yeddi gün, yeddi gecə təzə qəbrin üstündə qurulan çadırda İmamlının məhəllə mollası oturacaq, Quran oxuyacaqdı.
Evdə şivən qopmuşdu, hələ meyit gətirilməmiş, qara xəbər ildırım sürəti ilə şəhərə yayıldı. Qohum-qonşu arvadlar həyətə doluşdular. Halbahal olan Xanımsoltanı dövrəyə alıb şaxsey gedirdilər, gəlinlər saç-saça bağlandı, köynəklərini çıxarıb bellərinə bağladılar, üzlərini, sinələrini cırıb oxşayır, yedici Sənəmin səsinə səs verirdilər;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənəm: – Müsibətdi, müsibət.
Gəlinlər: – Olmaz belə müsibət!
Sənəm: – Oldu belə müsibət.
Gəlinlər: – Olmaz belə müsibət...
Sənəm: – Şəhid öldü, müsibət.
Gəlinlər: – Olmaz belə müsibət...
Sənəm: – Cavan öldü müsibət...
Gəlinlər: – Olmaz belə müsibət...
Sonra Sənəm ağıya keçdi:

Əzizim qannıları,
Qan tutsun qannıları.
Qudurmuş it olaydım
Tutaydım qannıları.

Evdəki şivən həyətə, küçəyə yayılırdı. Küçə qapısına yığılmış İmamlı ağsaqqalları və qeyri səsə gələnlərin hərəsinin ağzından bir avaz gəlirdi. Kimi deyirdi:

– Alışlının işidi...

– Yox, aadə, o qəriblər ağasının qulluğunda tövbə eləyib, qan tökməz!

– Əh, qəriblər ağası onun belindən vursun! Özü eləməz, elətdirər...

– Bəs İsmayıl gözə dəymir...

– Elə ikisi də deyir evdən bir çıxıbmış...

– Bəlkə onu da öldürüblər...

– İlim-ilim itib...

– Onun da meyiti tapılıb?

– Yox, ölsəydi, bir yerdə düşərdilər...

– Sorağın verən yoxdu...

– Gördüm deyən yoxdu...

...Cenazə alayı məhəlləyə girəndə, cavanların çoxunun gözü yaşlı idi. Furqon həyət qapısında dayandı. Kişilər palaz arasındakı cənazəni qaldırıb yuyulmaq üçün həyətə aparanda, içəridən divanə şəklinə düşmüş, üzü qanlı Xanımsoltan çıxdı, şivənsiz-zadsız özünü balasının üstünə atdı. Bir belə yad kişi qabağında başıaçıq idi. İndi o, yeddi gün başını örtməyəcəkdi. Köpürmüş, qan sızan dodaqları ilə Məhəmmədin qansız üzünü, açıla qalmış gözlərini öpür, yalvara-yalvara pıçıldayırdı:

– Yuxumu görmüşdüm, Qara! Niyə buraxdım səni? Neyşə qoydum gedəsən, Qara? Neyşə umudumu üzdün, oğul, belimi sındırdın, oğul,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məni imansız elədin, Qara!.. Mən sənə toy eləyəcəkdim, oğul! Toyunda oynayacaqdım, gəlinimin nazını çəkəcəkdim... yaralarına qurban olum, Qara, ölüm mənimdi... hardasan, ay Hüseyn, gəl!.. Balam əlimdən gedir! Qara... Düşmanın əli, dili quruyeydi... Sən mənim güldən təmiz balamsan, oğul...

Ananın qoluna girib qaldırdılar, dünya görmüş İmamlı ağsaqqallarının da saqqalıaşağı yaş süzülürdü, çığırtısız ana inilitləri ən möhkəm ürəkləri də suya döndərmişdi....Ananı, quzuya dönmüş, güclə ayağını sürüyən Xanımsoltanı çəkib evə apardılar. O hey dönüb geri baxır, bir saatın içində çoxu ağarmış saçlarını yolmağa taqəti qalmamışdı, yalvarırdı:

– Siz allah, qoyun doyuncan öpüm, qoyun doyuncan balama baxım!

Ağa Rəsul da, faciənin böyüklüyündən peşmançılıq çəkməyə başlayan və "ölsə ölüsünün üstünə getməyəcəyəm" deyən Hacı kişi də darvazanın ağzında dayanmış, təziyəyə gələnlərdən başsağlığı qəbul edir və qəribə, anlaşılmaz bir həyəcan və kədər hissilə özlərini günahkar saymasalar da, ailəyə üz vermiş bədbəxtçiliyin dəhşətini dərindən duyurdular.

İmamlı ağsaqqalları tələsirdi. Əvvələn qədim adətcə ölünü tez, gün dönməmiş dəfn etmək vacib sayılırdı. Digər tərəfdən nəslin başbilənləri bu işə hökumətin, urusun qarışmasını istəmirdilər. Sud, silist, axı onların çoxusu, başa düşürdü ki, bu işi İsmayıl görüb. Bir oğul getdi, o biri də tutulub Sibirə sürgün olunsa, ev-ailə dağılar. Buna isə heç kəs razı olmazdı. Bu qanlı matəmi törədənlər də istəmirdi ki, "iş urusun məhkəməsinə" düşsün. Çək-çövür çox işin üstünü aça bilərdi. Odur ki, Bəzzazbazarda səs-səmir yox idi. Adamların çoxu məscidə, evlərə çəkilmiş, ya da təziyə yerinə getmişdi. Hamı bilirdi ki, indi bu qapıdan açıq qanlını da heç kəs qovmaz. "Allah heç bəndənin qapısını çağırılmamış qonağa – yasa gələn üzünə açmasın" deyirdilər.

Təkcə tabaqçı yetim Hüseyn ədavalı halva dolu tabağı başına qoyub Qapan meydanında dolaşır "Sələb... sineyi-məlhəm", "ləbləbi-kişmiş" deyib qışqıranların arasında gəzir, sinəsindən dodaqlarına süzülən təzə, həzin bir mahnı oxuyurdu:

Qardaş dedim – dilim yandı,
Anam başuva dolandı,
Xəncərüvün ucu qandı,
Qardaşım, öldürmə məni,
Sirdaşım, öldürmə məni!

Nanə bulaq, yolu çiçək,
Yeyək kabab, sudan içək,
Gəl qaranı ağdan seçək,
Qardaşım, öldürmə məni,
Sirdaşım, öldürmə məni!

Cavan öldüm adım qaldı,
Damağımda dadım qaldı,
Bigünah, fəryadım qaldı,
Qardaşım, öldürmə məni,
Sirdaşım, öldürmə məni!

İnanma əğyara gözüm,
Vurma mənə yara gözüm,
Böhtana qıl çarə özün,
Qardaşım, öldürmə məni,
Sirdaşım, öldürmə məni!

Məmmədəm səfa görmədim,
Dostlardan vəfa görmədim,
Heç kimə cəfa vermədim,
Qardaşım, öldürmə məni,
Sirdaşım, öldürmə məni!

O bilirdi ki, az keçməmiş bu mahnı dillərə düşəcək, hər bir acı müsibəti tez unudan şamaxılılar həmin havanı toylarda, seyrlərdə çaldıracaq, oxuyacaq və hətta bu havaya oynayacaqlar da...

Hacı Hüseynin həyətində isə, təcili hazırlıq başa çatmışdı. Axşam qılınacaq vəhşət namazı üçün mollalara pul paylanmışdı, zərri, xara, tirmə boğçalara halva-külçə yığılmış, toy xonçası kimi bəzədilib uşaqların başına qoyulmuşdu. Cavanlar mafəni qaldırıb Şaxandana tərəf yol almışdılar. Qabaqda İmamlının məhəllə mollası ərrəhman oxuyaraq irəliləyirdi. Onun ardınca məhəllənin, bəlkə bütün şəhərin mütəşəxxis adamları irəliləyirdi. Bəzzazbazar bağlanmışdı. Kərbəlayı Qənbər oğlu Hacı Hüseyn və balaları İsmayıl, Məhəmməd və Vəli ilə qonşu olan bəzzaz Hacı Qədir də burda idi. Çoxusu onlara güman getməsindən, şübhə oyanmasından qorxub bura gəlmişdi. Hacı Əsəd, Məşədi Alış və başqaları da burda idi. Elə bil üç-dörd gün əvvəl İsmayılı Bəzzazbazarda şəkiyə basan, sözə-loğaza qoyan, dəli eləyib qardaş qanlısına döndərən adam bunlar deyildi. Bunlardan sonra xonça aparan uşaqlar gedirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arada bir nəfər də qadın görünmürdü. Dəb deyildi, Şirvanda qəbiristana qadın getməz. Onlar evdə Məhəmmədin qanlı paltarını yerə döşəyib ətrafında halay vurmuş, şaxsey gedirdilər:

Göydə buludum səni,
Sərim qurudum səni,
Ölüb torpağa getsəm –
Bəlkə unudum səni.

"Toysuz balam vay" səsləri cənazə alayını uzun müddət müşayiət elədi. Arxada gələn bir dəstə içində Mahmud ağa, Seyid Əzim və "Beytüs-Səfa"nın bütün başqa üzvləri də var idi. Seyid Əzimin könlü yaralı idi, Səfaya vurulmuş bu yara, onun da qəlbini parçalamışdı. Dodaqlarına bir misra da gəlmirdi. Qadın ağlayanda ürəyi boşalır, şair şeir qoşanda. Seyyidin rəvan təbi susmuşdu. Bu gün "Beytüs-Səfa"nın matəmi idi. Şirvanın şairləri öz cərgələrindən nəcib, cavan və gözəl bir insanı itirmişdilər. Qara pəncələr onlara ağır zərbə endirmiş, ölümün qorxunc nəfəsi həyat eşqilə, səadət, işıq naminə çalışanların üzünə toxunmuşdu. Şair dərdli-dərdli irəliləyir, bədbəxt vətəndaşı Zülalinin bir beyti dodaqlarında titrəyirdi:

Yar qara çəpkən geyəndə xəlqə vaveyla düşər,
Filməsəl kim, ay tutulcaq aləmə qovğa düşər.

"Beytüs-Səfa"nın ayı tutulmuş, yar-yoldaş qara geyinmiş, xalq arasına vaveyla, aləmə qovğa düşmüşdü.

Ölüm acı dili ilə şairin pəjmürdə simasını yalayırdı. Şairin qəlbini dərd-qəm tufanı çulğamışdı. Bu təlatümlər içərisində Səfanın qaraca, duzlu, gülümsər siması arabir görünüb qeyb olur, mütənasib bədəni xəyal buludları içərisində itib-batır, müzləm göylərin ənginliklərinə çəkilirdi: "İndi torpaq altına tapşırılacaq bu bədən sənin ən nadir ecazlarından biri idi, ey qüdrətli yaradıcı! Hansı sənətkar öz əli ilə yaratdığı ən gözəl əsərə qıyar? O necə olacaq, bir-iki gün sonra qara torpaqlar altında paşidə olan bu bədənin ruhu üçün göylərin qapıları açılacaqmı? Həqiqət hardadır, nədədir, ilahi? Ey qadir, yaradıcı qüvvət, mənə həqiqəti dərk etməkdə kömək elə, ilham et mənə həqiqəti!!" Sözlər, fikir və xəyallar göz yaşlarına dönüb şairin qəlbinin içərisinə gilələnirdi...

Bir az əvvəl cənazə namazına durmuş qapaqlılar şairi dəhşətə gətirirdi, riya, riyakarlıq... Bəli, elə rəhmətlik şair də beləlari haqqında deyib ki:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məra be ruze-qiyamət qəmi ki, həst inəts
Ki, ruyi-mərdome-aləm do barə xahəm did[1].

Bu cisbirdə adamların üzünü görmək elə bu dünyada da qiyamətdir, məhşərdir, cəhənnəm əzabıdır, ey xaliqi-ləmyezəl, sən hələ zavallı Səfaya o dünyada da bunlarla üzbəüz gəlmək üçün şərait yaradacaqsan? Ey göylərin adil deyilən pərvərdigarı, hanı sənin ədlin, ədalətin?" Qəbiristana yaxınlaşanda o, Mahmud ağanın əlindən yapışdı, titrək səslə pıçıldadı:

Mən öləndə Şaxandanda basdırın,
Çünki onun Şahi-Xəndanı vardır.

İşıq, şux məclislər aşiqi, şeir və musiqi hamisi Mahmud ağa da dərin kədər içində idi. Şairin sözləri bu dərdi bir az da artırdı.

## ZƏMANƏNİN İKİNCİ LEYLİSİ

Dayan ay dost, dayan, dərdim var... Axı mən sənə deməyi unutmamışam, amma deməyə də dilim varmır... Bilmirəm bu hadisəyə sevinimmi, kədərlənimmi? Sevinimmi ki, ömrümün yarı yaşına az qalmış şairim yenidən sevməyə başlayıb, qorxuram "qocalıqda yorğalıq" deyənlərin təsirilə sən də ona irad tutasan, mən isə tuta bilmirəm, dilim varmır... axı bu eşqin, bu gecikmiş məhəbbətin kiçik, lakin faciəli tarixçəsini bilsən... mən hər halda inanıram ki, sən ona bəraət qazandırmasan da, dərin irad tutmayacaqsan... o bueşqin dalınca gedəndə "hər çiçəkdən bir ətir alıb şerimi bəzəyirəm" deyən şairlər kimi hərəkət etməyib... Onun ilhamı, istedadı bu "ötəri çiçəklər" olmadan da süslü bir gəlin kimi bəzəkli olub, ürəyə yatan olub... o bu eşqin dalınca gedəndə amalını da unutmayıb, balalarını da... o bu məhəbbət çağırışına cavab verəndə Ceyrana xəyanət etməyib, Sonanı yaddan çıxarmayıb, bir ürəkdə üç məhəbbət ola bilməz deyəcəksən. Amma bu kiçik tarixçəni eşidəndə bu insanların şair qəlbində hər birinin öz yeri, öz mövqeyi olduğunu, birinin o birinə əsla mane olmadığını görəcəksən... Məgər Sona yadından çıxıb? Məgər ömrü uzunu, illər boyu Sonanın "pərilər soltanı" adını qəlbində daşıyan, qələminə onun ilha-

[1] Mənim qiyamət günündə bircə dərdim var, o da budur
Ki, bu adamların üzünü ikinci dəfə görəcəyəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mıyla rövnəq verən şair, balalarının anasına, ömür yoldaşı Ceyrana xəyanət etmişdi?...Məncə, mənim fikrimcə indi də elə...

Əziz dost, mən sənin əlindən tutub keçmişə qayıtmaq, Şamaxıda baş vermiş 1872-ci ildə ikinci zəlzələnin törətdiyi fəlakətləri xatırlatmaq istəmirəm. Onsuz da birinci zəlzələnin yaraları hələ lazımınca sağalmamışdı, bu zəlzələ yaranı yara üstündən vurdu Şirvana... Dost ellərdən – Bakıdan, Şəkidən əl tuta bilənlər əl tutdu... Şirvan ağır günlər keçirirdi... Ölənləri torpaq altından çıxarmaq üçün bütün sağ qalan kişi və qadınlar küçələrə tökülmüşdü. Dostum, mən sənə yalnız bu fəlakətlərdən birini göstərmək istəyirəm, çünki yalnız onun bilavasitə hekayətimizə dəxli var. Bu hadisə də məktəbdə, Seyid Əzimin məktəbində və onun yaxınlığında, varlı-hallı bir tacir kimi tanınmış Hacı Nurulla kişinin evində baş vermişdi.

*Həmin gün Ağa dərsi bir az vaxtından gec başlamışdı.* O, məktəbə gələn tanış ziyalıları – malakan, erməni məktəbdarlarını qarşılayıb yola salandan sonra sinfə girib yazı yazdırmaq üçün hazırlıq gördü. Uşaqlara dəftər, qələm payladı, bu gün, keçən dərsdə əzbərlətdirdiyi bir nəzmi hafizədən uşaqlara yazdıracaq idi.

– Hə, uşaqlar, qələmləri...

Müəllimin sözü yarımçıq qaldı. Qəfildən sinif otağına kəsif bir qaranlıq çökdü, Seyid "gün tutuldu, nədir?" deyə düşünməyə macal tapmamış, onu artırmadan hayladılar:

– Ağa, ay Ağa...

Bu Şirinin – Abdullanın səsi idi:

– Nədi, ay Şirin? – deyə o cəld qapıdan çıxdı. Bayırda nə isə qəribə bir həyəcan var idi, hələ heç kəs nə olduğunu anlamağa macal tapmamış, yer tərpənməyə başladı. Seyyid özünü geri, sinfə tərəf atdı, lakin Şirinin əlləri Ağanın ətəklərindən elə yapışmışdı ki, onu tərpənməyə qoymurdu. *Hər ikisi təkana davam gətirməyib yerə yuvarlandı.* Ağa yenidən qalxdı, indi o nə baş verdiyini bilirdi, yeganə dərdi sinif idi, evi, uşaqları, anası və arvadı da bu an üçün, demək olar ki, yadından çıxmışdı, indi onu yalnız sinif düşündürürdü, "görəsən orada nə oldu?"

Orada isə uşaqlar xəlfəni dinləyirdilər. Qaydaya görə müəllim çölə çıxan kimi xəlfə onun yerini tutmuş və şagirdlərə müəllimin seçdiyi şeri oxumağa başlamışdı.

Birdən güclü bir təkan onun sözünü yarımçıq kəsdi. Şagirdlər nə olduğunu anlaya bilmədilər. Onlar ömürlərində zəlzələ görməmişdilər. Xəlfə isə dərhal hər şeyi başa düşdü. Bu zəlzələ idi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Uşaqlar, tez olun bayıra...

Onun sözləri ağzında qaldı. Uşaqlar xəlfənin səsindəki həyəcanı duyub onunla birlikdə qapıdan çölə tökülməyə başladılar.

Sinfin içərisi daha da qaranlıqlaşdı... bayırda isə itlərin ulaşması, heyvanların böyürüşməsi eşidildi.

– Bu nədi?

– Nə oldu görəsən?

– Vay!..

Nə isə çatırdadı. Nə isə uçdu.

Seyyid özünü içəri atanacan iş işdən keçmişdi... Uşaqların bir neçəsi çölə qaça bilməmişdi, həyətə yığılıb heç bir şey anlamadan ağlaşan və ya hıçqıran uşaqlar göz yaşlarını balaca yumruqları ilə üzlərinə yaya-yaya uçulan evə baxırdılar. Elə bil bu onların məktəbxanası deyildi... Tavan uçulmuş, içəridən çıxa bilməyənlər altında qalmışdı. Ətrafda da hər şey hərəkətdə, uçulmaqda idi... Elə bil ki, torpaq uzun illər hərəkətsiz qalmaqdan təngə gəlib, tüğyana başlamışdı. Elə bil ki, dağlar uçulub dərələri doldurmaq, dərələr ucalıb dağların zirvələrinə qovuşmaq istəyirdi... Elə bil ki, ağaclar kötükləri üstündə durmaqdan yorulub, dincəlmək üçün böyrü üstünə yatırdı. Evlərdən tək-tək tüstü dalınca alov göründü və yanğın başladı. Yer isə hələ də nənni kimi tərpənməkdə, yırğalanmaqda idi. Üstündən heç bir ay keçməmiş yetim Hüseyn məhz bu yırğalanmaqları xatırlayıb mızıldayacaqdı:

*"Zəlzələ döyül nənnidi..."*

Dərs otağında da yanğın başlamışdı. Bu, uşaqların sinifdə özləri üçün qaladıqları manqallardan dağılan kömürlərin törətdiyi yanğın idi. Seyyid qalxıb özünü sinif otağının qapısına yetirəndə, uşaqların çoxu artıq çıxıb, həyətin ortasına cəm olmuş, qorxudan ağızları açıla qalmışdı. Ən xırdacalar indi hətta ağlaya da bilmirdi. Seyyid quzusuna canavar daraşmış çoban kimi alacalanmış gözlərilə uşaqları yoxlamağa başladı. Kim var, kim çıxa bilməyib? Yerin aramsız təkanları ara verməyə başladı, nisbi sakitlik çökən kimi bağırtı və çığırtılar, ağlaşma başlandı. Bunların çoxu arvad və uşaqların səsi idi. Kişilər, cavan oğlanlar və qızlar isə uçuqların altında qalanları çıxarmağa səy göstərirdi. Bir-birini, itənlərini, gözə görünməyənlərini axtaranların, haraylayanların səsi aləmi bürümüşdü:

– Ay Saday, hey...

– Ana, ay ana...

– Səlmə nənəni görmədin?

– Ay bala, ay Səmərrux?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Urhan, ay Urhan?

Bazardan qaçan kişilərdən bir çoxu özlərini məktəb və mollaxanalara yetirmişdi.

– Ağa, kömək lazımdı?

Ağanın gözlərindəki yaş onun düşmənlərini də qorxudurdu: Ağlayan Seyyid idi: Kişilər gəlib çatanacan, Şirin, iri uşaqlarla və qonşudan əl yetirənlərlə birlikdə tavan dirəklərinin altında qalıb əzilmiş uşaqların bir neçəsini eşib çıxara bilmişdilər, onlar tələsirdilər. Məktəb binasını artıq tüstü bürüyürdü, bina alışıb tamamilə yansaydı, artıq heç kəsi xilas etmək mümkün olmayacaqdı. Odur ki, bunu anlayan uşaqların hamısı, dinməz-söyləməz, sakit bir qəzəb və inadla yeri eşməkdə, böyüklərə kömək etməkdə idilər. Yaralanan çox deyildi. Lakin məktəbə böyük müsibət üz vermişdi, uşaqların içində ən zəki, hazırcavab hesab olunan, on yaşda olmasına baxmayaraq, böyük şagirdlərin belə hörmət və məhəbbətini qazanmış, müəllimin xüsusi ümidlə sevdiyi Salah ölmüşdü. Dirəklərdən biri uşağın gicgahına dəymişdi. salahın atası da burdaydı. O, evdən palaz gətirilməsini gözləyirdi ki, uşağı qapısına aparsın və ara sayxaş olan kimi yudurtdurub dəfn eləsin. *Bu anda kişinin gözü əvvəlcə görmədiyi, bəlkə də oğul faciəsinin* görməyə qoymadığı bir mənzərəyə sataşdı. Seyyid, şagirdi Salahın başı üstündə çökmüş, dünyanı unutmuş, balasına matəm saxlayan ana kimi, oğlunun cənazəsi önündə diz çökmüş ata kimi, istəkli, ümid bəslədiyi döyüşçüsü həlak olmuş sərkərdə kimi məlul-müşkül durmuşdu. Onun gözlərindən səssiz süzülən iri-iri göz yaşı dənələri qara xəttindən süzülüb boynunu, əbasının yaxalığını isladırdı. Seyyidin çiyinləri tərpənmir, hıçqırmır, boğazı tutulmurdu. Onun gözlərindən axan bu yaşlar yaz buludundan süzülən neysan kimi aram-aram, küləksiz-fırtınasız axırdı... Atanı dəhşət bürüdü: Necə? Seyid peyğəmbər övladı, ali-əba nəsli ağlayır!!! Belə də iş olar? Göydən niyə daş yağmır, ilahi? Kişini elə bir qorxu bürüdü ki... oğul fəlakəti də bu dəhşət qarşısında ona çox xırda göründü... Özünü müəllimin yanında yerə çırpdı, fəryad elədi:

– Ağa, cəddinə qurban olum, ağlama, mən duran yerdə! Ağa, sənə sadağa gedim, sən ağlama! Şəhərimiz bədbəxt onsuz da virana olub, ağlama, cəddüvə qurban olum, ağlama! Ağlama, tufan qopar, Nuh tufanı... Zəlzələ qalan-qulanı da künfəyekun elər, ağlama! Salah balan sənə qurban olub, ağası cənab Əliəkbərə qurban gedib, sən ağlama, başuva dönüm, Ağa!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyyid kişinin az qala çatladığını, qorxudan böyümüş gözlərini, tutulan səsini görüncə əvvəlcə təəccüb, sonra da anlayınca təəssüf hissilə yerindən qalxdı: "Ay yazıq, bədbəxt ata!.." Salahın atası qohumları ilə birlikdə cənazəni götürüb apardılar; qalan valideynlər də sağ qalmış iri uşaqlarla birlikdə ev-eşiklərin altında itkinlərini axtaranlara qoşuldular. Az qala ağlını itirməkdə olan bir qadın "Ya baba səngər, itiyimi göndər" deyib dəli kimi özünü gah o, gah da bu uçğuna vururdu...

...Bütün təkidlərə baxmayaraq Seyyid məktəb qabağındakı meydançadan getmədi. Adamlar uşaqların tamamilə yer altından çıxarıldığına əmin olandan sonra qonşu evlərə dağılışdılar. Seyyid də Şirinlə birlikdə Nurulla kişinin evini eşənlərə qoşuldu. Nurulla kişinin evi məktəbxanaya ən yaxın ev idi. Evin taxtapuşu elə yatmışdı ki, köməyə gələnlər onun altından heç kəsin diri çıxacağına ümid etməmişdilər. Odur ki, Nurulla kişinin, oğlu Əsədin və arvadı Nurcahan xanımın cənazəsini taxta-torpaq və kərpic altından çıxarandan sonra getmişdilər. Burada zəifliyindən güclə ayaq üstündə duran Ağa və onu evə aparmağa səy göstərən vəfalı Şirin Abdulla qalmışdı. O, şairin qoluna girib yalvarırdı:

– Gedək. Ağa, cəddüvə qurban olum. Allah kömək elər, qalanqulanı da çıxardarlar, sən lap əldən düşmüsən...

– Allah kömək elər, Şirin!.. Elər!.. Eləsəydi, bir-birinin dalıycan iki zəlzələ göndərib gözəl vətənimizi künfəyekun eləməzdi...

– Əstəğfər de, Ağa, başuva dönüm, dərdündən bedən deyirsən... Günahdı... Gəl gedək. Minasoltan da, uşaqlar da sən sarıdan nigarandılar...

– Yox... Şirin, gəl bir az da kömək eləyək...

– Dayı burda adam qalmayıb, Ağa!..

Onun qulağı bayaqdan bəri güclə eşitdiyi bir səsdə idi, elə bil kim isə zarıyırdı... Əvvəl ona elə gəldi ki, səs çox uzaqdan – başqa evlərdə daş altında qalanlardan gəlir... diqqətlə qulaq verdi:

– Şirin, bir qulaq ver... Deyəsən zarıltı gəlir axı...

Şirin ətrafa baxındı, bir şey görüb-eşitmədi.

– Yox, qurbanın olum, qulağına gəlir...

– Abdulla, sənə deyirəm evdə qalan var...

– Axı kim?..

– Nə bilim...

Şirin birdən dikəldi:

– Hə, Ağa, başuva dönüm, düz deyirsən! Baş qarışıqda lap yaddan çıxıb Nurulla kişinin gəlini, Sarabəyim...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Di tez ol...

Onlar yenidən evin çökmüş səqfinə doğru atıldılar. Zarıltı, kiminsə fəlakətdə olması, kömək diləməsi Seyid Əzimin qüvvəsini özünə qaytardı. O, otuz beş-otuz yeddi yaşlı kişinin bütün sağlam gücü ilə daşları, kəsəkləri götürüb atmağa başladı. Abdulla işlədikcə ona baxır və qəlbində düşünürdü: "Bax, bax... maşalla, cəddi necə kömək oldu ey... bayaqdan gücnən ayaq üstə dururdu... Amma bir də, hələ cavandı da axı!.. Nə yaşı var ki, mənə baxanda..."

Taxta və pərdilər, çiy kərpic və daşlar qalaq-qalaq atılırdı, Abdulla və şair durmadan əlləşirdilər. Toz nəfəslərini, gözlərini tuturdu, səs getdikcə yovuqlaşırdı:

– Ağa, deyəsən burdadır...

Onlar səs gələn səmtə əyildilər. Toz-torpağın altından iri bir taxta qaldırdılar. Sandığın dibinə düşmüş gəlini də elə bu xilas eləmişdi.

Gəlinin solğun, on beş gecəlik ay kimi dolu çöhrəsi, lakin bu solğun üzdə daha da qara görünən çatma qaşları dərhal nəzərə çarpdı. Gözləri qapalı idi. Bir az sonra gözlərini açdı, sıx qara kirpiklər şana kimi aralandı, bir cüt yaş dolu qara göz şairin üzünə zilləndi, tanıdı; dodaqlarını islatdı, hıçqırıqla dilləndi:

– Sağ ol, Ağa... yesirin olum... Allah...

O, başına hələ də nə gəldiyini, üstünün nə vəziyyətdə olduğunu bilmirdi, sıyrılmış əllərilə üzünü tutub, qalxmaq istədi. Şair onun cənazələri görməsini istəmirdi, qarşısına keçdi...

Gəlin bir az əzilmişdi, yaraları o qədər də böyük deyildi, qolu-qıçı sıyrılmışdı, bəlkə elə xəstə imiş, həddən ziyadə solğun idi. Ayağındakı dizlik qan-qeysan olmuşdu, şairin əti ürpərdi və anladı ki, gəlin uşaq ziyan eləyib. Hər şey yadından çıxdı, başqalarına kömək edəcəyini də unutdu. Bədbəxt gəlini cəld evlərinə yollamaq üçün binagüzarlıq elədi:

– Şirin, köməkləş, yazığı evimizə aparaq...

Şirin, saçları pərişan, cismindəki əzabdan güclə ayaq üstə duran gəlinin qoltuğuna girdi və Ağagilin evlərinə sürüklədi.

Sarabəyim bir neçə gün onlarda qaldı, şair ara sakitləşənə kimi gəlini evlərindən buraxmadı, həkimbaşı Mirzəmməddən gətirdiyi dava-dərmanı anası və Ceyranın köməyi ilə gəlinə yedirtdi. Sara cavan idi. Gənc və sağlam bədən öz işini gördü, dərmanların köməyi ilə tezliklə özünə gəlib gül kimi açılmağa başladı. İndi o, Şirvan dəbi ilə Ağadan yaşınırdı, amma həyət-bacada iş-güc gördüyü vaxtlarda tez-tez rastlaşır, gözaltı şairə nəzər yetirir, dik üzünə baxmağa həya eləyirdi. Sarabəyim getdikcə

öz xilaskarı hesab elədiyi seyid-peyğəmbər övladına – Ağaya bağlandığını, qeyri-ixtiyari bir hissin qəlbində baş qaldırdığını duyurdu, o, cavan olsa da uşaq deyildi. Bu hiss onun varlığına hakim kəsilirdi...

...Şair bu hissi çox tez anladı, özündən qovmağa, uzaqlaşdırmağa cəhd elədi... Amma bacara bilmədi, əziz dost, irad tutsan da, tutmasan da çarəm yoxdur. Bir az əvvəl sənə danışmaq istədiyim macəra məhz bu idi, mən onun üstündən keçə, səndən gizləyə bilməzdim. Axı Seyyid özü onu "göydən yerə enmiş ayeyi-rəhmət" adlandırmış, Sarabəyimlə macərasını Nəcəfdə başına gələn bir əhvalatla qarşılaşdırıb, onun dodaqlarını "Misr nabatına" bənzətmiş, çəkinməmiş, ismini gizlətməmiş, gəlinə hədiyyə verdiyi qəzəllərdən birində adını belə yazmışdı:

Saradır adın, iki saçın ənbəri-sara,
Saçın kimi aləmdə sənin müşki-tər olmaz.

Dostum, mən bunun Sonaya olan eşq kimi ilahi bir məhəbbət olduğunu da deyə bilmərəm; çünki Seyid Əzim Şirvani nə qədər müqəddəs xəyallarla yaşamış bir insan və şair olsaydı da, otuz yeddi yaşında əsil kişilik həddinə qədəm qoymuş bir ər idi. Həyatdan, həyatın insana bəxş etdiyi nemətlərdən zövq ala bilirdi, bunun üçün onun qədərsiz inkişaf etmiş aləmi-ruhaniyyəsi var idi. Sarabəyim isə məhəbbəti rədd ediləcək qadınlardan deyildi. Ona görə də qulaq ver, arabir əsil hekayətimizlə yanaşı Seyyidin başına gəlmiş bu qəziyyəni də sənə nağıl eləyim. Daha doğrusu, hərdənbir, zəmanə müstəbidlərinin atdıqları tənə daşlarından qəlbi qana dönən şairi Sarabəyimin atəşli öpüşlərlə necə ovundurduğunu da bilsən nə olar ki...

...Günlər gəlib keçdi, Sarabəyim evlərinin yerində yeni bir ev tikdirdi, bu əvvəlki təki mərtəbə yarım, tacir Hacı Nurullanın evi kimi dəbdəbəli, yaraşıqlı olmasa da, yer üzündə kimsiz-kimsəsiz qalmış Sarabəyim üçün yararlı idi. Gəlin tezliklə özünü ələ alıb evinə köçdü, səliqə-sahman yaratdı. Bu gündən sonra Minasoltangildən ayağını da çəkmədi. Arabir gəlib onlarla görüşür, uşaqlara bayramlıq alır, bişirdiyi əziz tikədən pay gətirməyi də unutmurdu. Kimsəsizlərə özünəməxsus bir nəvazişlə isinişən Minasoltan, Sarabəyimi də doğma qızı kimi sevməyə başlamışdı. Ceyran da ona yaxın olmuşdu. Sarabəyim hər gələndə onu xala adlandıran uşaqlarla xeyli əylənir, çıxıb gedirdi. Hər dəfə onun uşaqları necə bir mehribanlıqla öpdüyünü görən Minasoltanın gözləri yaşarırdı: "Bədbəxtin balası, uşaq üçün ürəyi titrəyir, yazıq! Heç olmaya balası qalaydı, bir parça çörəyi var, baxtı açılaydı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxşı adama irast olaydı. İlahi, neyşə sən yaxşı adamları həmişə qaragünlü eləyirsən! Neynəmək olar, bir tərəfdən də tək onun başına gəlməyib ki!.. Elnən gələn qara gün toy-bayramdır deyərlər... Şükür Xudaya, genə nə əcəb ki, Ağa səsini eşidib, yoxsa yazıq diri gözlü qəbrə batıbmış..."

Gəlin özü də Ağaya əvvəl əldə elə xilaskar kimi baxır, burda qaldığı günlərdə canü dildən evin bütün işlərində Ceyrana yardım edirdi, lakin çoxsözlülərin "yəqin Ağaya gedəcək" sözünü uydurmamaları üçün Sarabəyim Ceyranın gözü önündə çox qala bilmədi, evi hazır ola-olmaya müvəqqəti sığınacağını; ona doğma külfət, ana nəvazişi göstərmiş ailəni tərk edib getdi. Ağa birinci günlərdən, elə gəlini torpaqdan çıxardığı dəqiqədən həyatında, qəlbində nə isə bir şeyin dəyişildiyini duyan kimi olmuşdu. Saranın şana kirpikləri altındakı yaşlı qara gözləri onun iliklərinə işləmişdi. Odur ki, gəlinin evinin tez hasilə gəlməsi üçün əlindən gələni etmiş, "tez çıxıb getsə yaxşıdır" demişdi... lakin hər şey əksinə oldu...

Dostum, bəs "Qəmzə necə oldu?" – demirsən?.. Gedək zəmanənin Leylasından xəbər tutaq. Hacı kişinin evi yovuqdur. Ürəyini möhkəm elə dost, mənə də dayaq ol...

Sarı Hacağalı toyu tələsdirmək fikrində deyildi. Mir Salehin anası "ayağı şükümsüz" və arvadların deməyinə görə "xəbt-damağ" olmuş" Qəmzəni artıq heç evində gəlin görmək istəmirdi. Təkcə Mir Saleh fikrindən dönməmiş, Şamaxı gözəllərinin gözəlinə necə olursa olsun evlənmək istəyir, deyirdi:

– Qoy qırx çıxsın, hər şey düzələr, ana! Əri ölən ərə gedir, arvadı ölən də arvad alır. O ki, heç Qara Məhəmmədin gəlini də olmamışdı... Yadından çıxar gedər, sağalar, toyu elərsən. Ana, atama da elə belə de! De ki, bu fikri özü mənim başıma salıb, mən sözümdən dönən deyiləm.

Qırx çıxanda Sarı Hacağalı hərəkətə gəldi. Sakit, səs-küysüz bir yığıncaq eləyib Qəmzəni gətirmək fikrinə düşdülər. Hacı kişi də qızının xilasını bu toyda görürdü. Əks halda Şamaxıda Qəmzəyə heç kəs yiyə durmaz, bir adam adını çəkməzdi. Göbəkkəsməsi öldürülmüş, ikinci nişanı qaytarılmış bir qızı kim alardı?

Toy xəbəri Qəmzəyə çatanda elə bil yatmışdı, ayıldı. "Necə, hələ bu işdən sonra da dədəm dediyini deyəcək? Məni o qapıya calayacaq?" Bir neçə gün evdə toy söhbəti olmasa da, qız key kimi gəzdi. Nə edəcəyini bilmirdi. Əlinə nə götürsə yerə salır, nə iş dalınca getsə unudur, fikrə dalıb qalırdı. Hara, nə üçün getdiyini bilmirdi. Bir gecə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yenə atası ilə anası arasında gedən mübahisəni eşidib, Hacı kişinin öz fikrində möhkəm, bərqərar olduğunu anladı və qət etdi.

...Səhər Hacı kişi dükana gedəndən sonra, Qəmzə ayıldı, çoxdandı ki, anası ona acıyır, qorxa-qorxa olsa da, sübh namazına qaldırmırdı. Qızın sübh namazı neçə vaxt idi ki, qəzaya qalırdı.

Bu sabah Badambəyim qızını yatmış bilib, kişisini ötürdükdən sonra məsləhət üçün Qurd Bikəgilə yollandı. Qapıdan çıxanda, sonra özü deyən kimi, elə bil arvadın "basaratı bağlandı", darvazanı kilidləmədi. Qonşu həyətdən Gülsümü səslədi:

– Gülsüm, qulağın bizim qapıda olsun, qızım! – dedi. – Soruşan olsa, de ki, tez qayıdacam. Qəmzə yatıb, mən Bikə xalagilə gedirəm.

Gülsüm içəridən səsləndi:

– Yaxşı, xala, arxayın get.

Qəmzə otağında bütün bunları eşidir, anasının Qurd Bikəgilə nə üçün getdiyinin səbəbini də anlayırdı. Ana gedən kimi Qəmzə durub həyətə endi, kəlağayısını başına dolayıb çarşablandı və küçəyə çıxdı. Elə yavaş çıxdı ki, köhnə darvaza heç cırıldamadı da... O gedir və neçə vaxtdan bəri adət etdiyi kimi Məhəmməd ilə danışırdı: "Sən elə bilirsən ki, səndən sonra mən gəlinlik duvağı salacam, gəlin olacam, Qara? Məni elə bivəfa bilərsən, Qara?" – o, Məhəmməd Səfanın xəyalını gözünün önünə gətirib onunla danışırdı. Qız heç deyiklisinin ölümünə inanmırdı.

Qəribədir, insan sevdiyi adamın cənazəsini görməyəndə onu heç ölmüş sanmır. Qəmzə də elə idi. O, Qara ilə diriylə danışar kimi söhbət edirdi. Onun xəyalında, qəlbində, vücudunda Məhəmməd ölməmişdi, əmisi oğlu onu hələ də sevirdi, ona evlənəcəkdi, onun üzündən gəlinlik duvağını açacaqdı. Vəli öz təkbəndi ilə onun belini bağlayacaq, Xanımsoltan əmdostu üzgörümçəyi verəcək: "Otur, a mənim gözəl gəlinim!" deyəcəkdi. Budur, indi də qız getdikcə Məhəmməd onun önündə irəliləyir, qızı çağırırdı: "Hara çağırırsan məni, Qara? Dünyanın o başına da desən, dalıncan gedərəm, axı!.. Məni qucağına alıb uzun yolda ata mindirəndə əlimdən necə öpdün! Əlim buz kimi soyumuşdu. Elə bilirdim ki, ürəyim də soyuyur! İndicə ölüb dünyanın əzabından qurtaracam! Amma dodaqlarının istisi ürəyimə işlədi.

...Yandırdın məni, a zalım! Yandırdın məni, a zalım! Yandırdın məni, Qara. Gəl-gəl eləmə, mən onsuz da gəlirəm, dizlərimin taqəti kəsilsə də gəlirəm!.."

...Qız bu sözləri deyə-deyə gedirdi, o düşünmürdü, o doğrudan da, sevdiyi ilə danışır, söhbət edir, giley-güzar eləyirdi. Əgər yanından keçən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olsaydı, onun sözlərini eşidərdi. Amma səhər tezdən Rusdarçaya doğru enən qara çadralı qızı nə görən oldu, nə də səsini eşidən...

Qəmzəni tək bircə oğlan görə bilərdi. Onun da başı qarışmışdı. Qarşı təpədə quzu otaran bala çoban böyüklər qaydasınca yanıqlı Şirvan şikəstəsi oxuyurdu. O, başını firuzəyi göylərə tərəf qaldırıb, ənginliklərdə süzən leyin qanad çalmadan uçmasını seyr edir, özü də xəyalında oralara uçurdu. Haçansa, haradasa, kimdənsə eşitdiyi ağının mənasını düşünmədən şikəstə üstündən həzin-həzin hıçqırıb deyirdi:

Şirvanın dağları var,
Meyvəli bağları var,
Rəhm elə, ay Əzrayıl,
Dalıycan ağları var.

Ağıda Xanımsoltan ana, Badambəyim ya da yedici Sənəm arvadın qəlbimi çırpınırdı? Bu rekviyemi bala çobana kim təlqin etmişdi? Təbiətin hissi-qəbləlvüqu adlandırdığımız ehsasatımı oğlana baş verəcək fəlakəti irəlicədən duydurmuşdu? Hər nə idisə matəm ağısı Qəmzəni diri ikən, aşiqinin "görüşünə" tələsirkən müşayiət edirdi, niyə?

Qəmzə çayın sahilinə çatıb dayandı. Çayda su çox idi. Dünənki sel hələ yatmamışdı. Gicovlar mövc vururdu. Rusdarçayın seldən bulanmış suları Qəmzəyə ayna kimi, güzgü təki aydın göründü: Qara Məhəmməd suda üzür, əl-qol atır, boğulur yoxsa? "İlahi, sən özünü suya neyşə vurmusan, Qara? Yoxsa məndən qaçıb çayın o biri tayına keçmək istəyirsən? Yoxsa məni də özünlə çimməyə çağırırsan? İrəlidə, uşaqlıq vaxtlarımızda olduğu kimi?.. Gəlirəm, Qara, tələsmə! Kərəm elə, qoy bir çarşab zəhrimarı başımdan atım! Yoxsa sənnən üzə billəm? Sən ki, od-alovdun, Qara, elə üzürdün ki, dəryada balıq kimi!.. Mən heç sənə çata billəm? Tələsmə, Qara, sən mənim canım, tələsmə".

Qəmzə çadrasını başından açdı, adəti bir hərəkətlə qatlayıb bükdü, sahildəki iri daşın üstünə qoydu və hündür qayalığa çıxdı. O getdikcə, Məhəmmədin sudakı xəyalı da qızı təqib edir, gicovun ən dərin və sakit axan yerinə doğru "üzürdü"... Qəmzə bu gözəl şəkil və şəmayildən gözlərini bir an da ayıra bilmirdi. İrəliləyib lap qayanın qırağına gəldi: "Dayan, Qara, mən atılım, sən tut, qaçma məndən, axı mən səninəm, sənin!"...Səs qayalarda əks-səda verdi...

Qarşı təpədə quzu otarmaqda olan oğlan əvvəlcə bir şey başa düşmədən sahildəki qıza baxırdı: "Yəqin paltar yuyacaq", sonra: "Belə bulanıq suda paltar yumaq olar?", daha sonra: "Bəs paltarı hanı?" deyə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşündü. Quzuçu əvvəlcə heç nə anlamadı, lakin "sənin" səsi qayalara əks-səda verib qırılanda və cavan qızın özünü suya atdığını görəndə dəhşətlə bağırdı:

– Ayə heyyy... yy... Köməyə gə-li-iii-n... Bir qız suya düşdü...ü...

Dağlar, təpələr əks-səda verdi.

– A-a-adə, nə var?

– Nolub, nə bağırırsan?

– Quzuya qurd gəlib nədi?

Səslər Rusdarçaydan xeyli aralı düşmüş binələrdən gəlirdi.

– Çaya adam dü...şüb...üb...

– Quzuçu görüb... üb... dərələr əks-səda verirdi.

...Adamlar köməyə gələndə iş-işdən keçmişdi. Sahildə Qəmzənin qara çadrasından başqa heç nə qalmamışdı. Üzgüçülük bilən cavanlardan bir neçə ən ürəklisi özünü gicovun quzuçu göstərən yerinə tullandı. Uşaq ağlaya-ağlaya hadisəni başına yığılanlara danışırdı... Xeyli baş vurduqdan sonra cavanlardan biri Qəmzənin uzun toppuz hörüklərinə əl ilişdirib cənazəni öykəmdən[1] sahilə çıxartdı...

...Qəmzənin cənazəsi Hacıkişinin qapısına palaz arasında, eynilə Səfanın meyiti kimi gətirildi.

Xanımsoltan hadisədən xəbərsiz, Qurd Bikəgildən qayıdan qayınxatınısını acı fəryadlarla qarşıladı:

– Bilmirəm, nə istəyir məndən əliqanlı fələk? Ağlaşma eşitdim, əvvəl inanmadım, sən demə qanlım fələk gənə mənim başıma torpaq ələyibmiş. Oğlumu əlimdən almışdı, gəlnimi də aldı...

– Sənin yerində var, bəs mən? – deyə Badambəyim özünü Qəmzənin üstünə atdı.

– Onlar bəyəm sənin deyil, Qəmzə mənimki deyildi?..

Arvad saçlarını yola-yola fəryad edir, qayınxatınısının sözlərinə ağı ilə cavab verirdi:

Sənəm, səsəmi gəldin?
Dabanbasamı gəldin?
Sağ günündə gəlmədin –
Öldü, yasamı gəldin?

Ay bimürvət ata, gəl indi köçürt qızı! Gəl indi saxla gələnin qabağını!..

---

[1] Sualtı çökək

Xanımsoltanın da yarası təzələnmişdi, bir övlad cənazəsi üstündə iki ana baş yolur, yedici Sənəm "Müsibətdi, müsibət" deyib oxşayırdı...

...Dərdindən yumağa dönmüş Hacı kişi evin bir küncündə bükülüb oturmuş, dəfn mərasimində iştirak edəcək halda deyildi.

...Səfanın torpağı bərkiməmiş qəbrinin yanında təzə bir məzar qazılırdı. Bu, əsrin Leylalarından birinin – Qəmzənin idi...

Sarabəyim onun başından çıxmırdı, gəlinin nazəndə görkəmi gözlərini tərk etmirdi. Axı niyə də eləsin?.. Sara bu bəhanələri, fürsətləri hardan tapırdı, bunu bir özü, bir də Allahı bilir... O hər gün heç olmasa bir dəfə, iki dəfə Ağaya görünürdü... Gah şairin məktəbə gəldiyi, gah məktəbdən çıxdığı dəqiqələrdə... bazara gedəndə, yol üstündə, dünyanın elə bil hansı səmtində tək qalsaydı, mütləq Sara gözlərinə görünür, böyürdən çıxırdı... İndi də şairin daima əvvəllər Tərlanla, sonralar Səfa ilə endiyi Zoğalavay sahilindəki məlum söyüd dibinə şürahını salmışdı. Elə bil yaxınlarda başına su qəhət idi; balaca sərnicini götürüb su üçün bura gəlirdi, paltarını da burda yuyurdu... Eylə yolu Minaxordan buracan enirdi... Seyyid indi buna lap adət eləmişdi, haçan tək qalsa Saranı görürdü. Tənhalığında, yaxında adam olmayanda, gəlin ona lap yaxınlaşır, salam verir, əleyk alır, "canım sənə qurban, Ağa, gələcəysənmi, gözləyimmi?" deyirdi. Adam kölgəsi görünəndə qəfil gəldiyi təkin qəfil də yox olurdu... Heç bilmirdin harda gizləndi, hansı kölgəyə qarışdı, hansı qaranlıqda əridi, hansı evə girdi... Şair bəzən bu ani görüşlərin xəyalmı, həqiqətmi olduğunu da unudur, bəzən hansının xəyal, hansının arzu və ya hansının həqiqət olduğunu ayırd eləyə bilmirdi. Arzular onun da qəlbini qovurur, yandırıb yaxırdı:

Bu pir könül təzə bir əhli-nəzər istər,
Əvvəlki keçibdir, bunu ondan bətər istər,

– deyib durur, gah pərilər soltanından, gah Ceyranın məhəbbətindən imdad istəyirdi, amma harayına gələn yox idi:

Göz yaşımı dil, culərə döndərdi qəmindən,
Məlum olur nəxli-muradə səmər istər.

Onun arzuları bəhrə-səmər istəyir, bu səmər gənc bir gəlinin dodaqlarından qopub gələn məhəbbət çağırışı idi, şairi yandırırdı. Ürəyi eşq üçün uçunurdu. İndi o, məhəbbətin qulu, kölgəsi idi, ona bir anlıq elə gəlirdi ki, əgər məhəbbət onu tərk etsə, həyatı da sönər, bu keçməkdə olan ömrünün, əbədi əlindən keçmiş olan gəncliyin son hədiyyəsi, ona



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

töhfəsidir. Əgər itirsə, bu eşqi rədd etsə, gözləri fərdən, qəlbi ilhamdan qalar... ürəyinin atəşi də əbədilik sönər, külə çevrilər... Bilmədən özünü şamın işığına çırpan pərvanə kimi bu eşqdən ziya almaq, bu məhəbbətin odunda yanmaq həvəsi getdikcə onun bütün varlığına hakim kəsilirdi...

...O, Sonanı görüb sevmişdi, lakin qovuşa bilməmişdi... Ceyranı görmədən, tanımadan evlənmişdi, amma elə isinmişdi, elə uyuşmuşdu ki, bu adətkərdəlik dərin, həyati, ailəvi bir bağlılığa, əbədi bir qadın – ana məhəbbətinə çevrilmişdi... Sarabəyim isə onun hələ sevmədən gördüyü, xislətinə bələd olub coşqun bir ehtirasla arzuladığı insan idi... Sarabəyim onun çox gecikmiş, ömrünün ağır illərində ruhuna qida vermək üçün yolunun üstünə-qismətinə çıxmış bir çiçək, günəşli bir gün, işıqlı bir səhər idi... O nə müqəddəs bildiyi amalına, nə övladlarının anası kimi dərin ehtiram bəslədiyi Ceyrana xəyanət etmirdi. Amma istədiyindən dönə də bilmir, bu heç bir şey tələb etməyən, təmənnasız eşqi rədd etmək üçün özündə iqtidar görmürdü. Sarabəyim onu heç bir şey istəmədən, heç bir fədakarlıq tələb etmədən, qurban gözləmədən dəlicəsinə sevirdi... Sadəcə bir insan kimi, bir şair kimi onun üçün ölürdü, onu bir baş yoldaşı kimi deyil, bir arvadın əri kimi deyil, məhz bir məşuqun aşiqi kimi, Məcnunun Leylası kimi sevir, arzulayırdı... Sarabəyim onun saqqalında, gicgahlarında gümüş təki parlayan ağ tükləri də görmürdü... Sarabəyim onun səsini, oxuduğu qəzəllərin ahəngini sevirdi... Sarabəyim onun ölgünləşməyə, bulanmağa başlayan gözlərinə fərəh gətirmək, bu gözlərdə fərəh çırağı yandırmaq, sonra da bu çırağın işığına isinmək, hərarətindən nur almaq istəyirdi... Sarabəyim onu hər gün olmasa arabir, zaman-zaman görmək, şeirlərini dinləmək, mehriban əllərinin yumşaq təmasını saçlarında duymaq üçün uçunurdu... Ondan çörək, paltar tələb etmirdi, edə də bilməzdi, o, şairin evində bir neçə gün yaşamışdı... tavanasız olduğunu da yaxşı bilirdi...

– Bilirəm, hamısını bilirəm, özümünkü özümə çatar, ömrüm-günüm! Evi təzədən tikəndə olub-qalanımızı daş-torpağın altından çıxarıb Şirin qardaş özümə qaytarıb. Başqaları kimi dəbbələməyib, bir canım var, bəsimdi...

– Həmişə bir canım qalmayacaq ki...

– Qalacaq, gözümün işığı... Təki sən sağ ol...

– Yeri düşər, başqasına gedərsən... axı cavansan hələ...

– Allah eləməsin, sənə gələn mənə gəlsin, elə demə, Ağa!.. Min ömrüm olsa, bir gününə qurban verrəm, uf da demərəm!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, bu dərin nisgilli hisslər qarşısında mat-məəttəl qalmışdı. O, bu nazicək ürəyi sındırmağa qadir deyildi, heç istəmirdi də... Məgər ömrün düşkün çağında, günəş qüruba enərkən üzünə gülümsəyən bu günəşli təbəssümdən üz çevirmək asandır? Necə bilirsən, əziz dost, mən şairimi qınamıram, sən necə?

...İndi də Sarabəyim Tərlanın durduğu yerdə durmuşdu. Səhərdən bəri yuyub-qurutduğu paltarlarını boğça kimi bağlayıb qarşısına qoymuşdu. Bir kölgə görsə, dərhal boğçanı başına qoyub uzaqlaşacaq idi. O, yumru əllərinin totuq barmaqları ilə kəlağayısının həşyəsini sığallayır, gözlərini də bu həşyəyə dikib şairin suallarına cavab verir, qəlbində düşünürdü: "Evini də görmüşəm, eşiyini də, tavanana da bələdəm... Mənə səndən heç nə gərək deyil... yaşa!.. Ömrün uzun olsun!.. Sənə dünyada qəzadan heç bir sədəmə dəyməsin... yaşa... təkcə, hərdənbir gəl, gəl, əzizim, gözümün işığı! Arabir gəl, amma gəl... İsti nəfəsindən isinim, şirin qəzəllərini eşidim, o güclü qollarının istisini duyum..."

– Mən hamısını bilirəm, Ağa, mən bilirəm ki, sən məni almazsan, Ceyran kimi canın üstünə evlənməzsən...

– Bəs onda...

– Nə istəyirsən? Təkcə məhəbbətini, gizlin-gizlin olsa da, oğrun-oğrun olsa da... hərdən-hərdən səni görmək istəyirəm, görməsəm ölləm... Səndən nə gedir ki, Ağa... nə gedir məndən gedir.

– Elə demə...

– Bəs necə deyim?.. demirəm ki, başqa kablayılar kimi, qırmızısaqqal baqqallar kimi, mollalar kimi məni siğə elə, ikinci arvad kimi al, yox, Allah eləməsin, mən sənin öyünə narazılıq salmaqdansa ölməyimə razıyam, ancaq... ancaq hərdənbir gəl, bundan Ceyran bacıma nə ziyan var?

– Heç nə ziyanı...

– Qoy o heç bilməsin də... mən elə elərəm ki...

– Bir ərşin bez alıb dünyanın ağzın bağlarsan?

– Nə deyərlər mənə deyərlər... Sənə ki, bir peyğamı yoxdur. Ağa, mən arvad ləçəyimlə səni tuturam, sən kişi papağınla məni tutmayacaqsanmı?

"Bu nə danışır, ilahi, belə də iş olarmı?"

Saranın gözlərində elə bir yalvarış, elə bir nalə, fəryad var idi ki, şair bu gözlərdən keçə bilmirdi... Bu gözləri bir göyərçin ovlamağa çıxmış iki ovçuya bənzədirdi:

*Qəsdi-can eylər o fəttan gözlərin, bidaddır,*
Bir kəbutər qəsdinə guya iki səyyaddır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Köməyə gəl, pərilər soltanı, bu qız, bu gəlin nə deyir, kimə qəsd edir, sənin məhəbbətinə, Ceyrana sədaqətimə, ya öz cavanlığına? Axı mən heç onun tayı-tuşu da deyiləm... Mən handa, o handa?" Amma şairin ürəyi durmur, bu fəttan gözlər onu çəkib aparır, dərin, şəbiyelda kimi qara saçlar onu ahu kimi tora salır, ürəyini ovlayır, imanını əlindən alırdı.

Ey gül, üzün müayinə Firdovs bağıdır,
Şəhdi-ləbindi, yoxsa bu Kövsər bulağıdır?

Qəzəl qəzəl dalınca peyda olduqca, şair güclə qələm işlədir, onları yazıya köçürməyə imkan belə tapmırdı. Gəlinin nərmin dodaqlarının üstündəki xal can quşunu ovlamaq üçün səpilmiş dənə bənzəyirdi: bütün varlığını unutmuş, Sara danışdıqca, bu dodaqlar tərpəndikcə şair, həmin dodaqların üstündəki xalı öpmək həvəsi, eşqi ilə yanır, qovrulurdu. Bu arzu onun ağlına, iradəsinə üstün gələn bir ehtirasa çevrilirdi:

Eşq əhli ki, xali-ləbi-cananı öpərlər,
Ol kəbə ara vermək üçün canı öpərlər.

Bu gecə ona başqa bir gecəni də xatırladırdı. İndi onun düşünmək, xatirələri sahmana salıb nəzərlərində canlandırmaq imkanı yoxdur, dostlar, gəlin ona mane olmayaq, bu elə bir aləmdir ki, biz orda artığıq, gəlin geri, şairin Nəcəfdə oxuduğu illərə qayıdaq, orada keçən ömründən çox yox, bu gecəyə bənzəyən tək bircəsini xatırlayaq.

O zaman, tələbəlik, başabəla tüllablıq illərində də buna bənzər bir hadisə baş vermişdi. O gənc idi, qızğın idi. Uzun müddət idi ki, cavan gəlinindən ayrılmışdı... Qəlbi ehtirasdan qovrulurdu və o bunu məhz gənclik həvəsi, cavanlığın cismani tələbi kimi qəbul etmiş, xəyanət hesab etməmiş, nə pərilər soltanını, nə də Ceyranı düşünmüşdü... Sadəcə ala-babat türk dili bilən bir ərəb qızı ilə görüşmüşdü... cavan dul gəlin atası evində, onların mədrəsələrinin yovuğunda yaşayırdı... Bir gecə necə olmuşdusa, ata-anası harasa, səfərə, ya qonaqlığa getmişdi, Nəval onu evlərinə apara bilmişdi... O zaman yarıac-yarıtox tələbəlik illərinin fərəhsiz günlərinə kiçik bir sevinc, bir rəngarənglik gətirən o münasibəti sonralar şair, arabir xatırlar, ərəb qızının ehtirasdan titrəyən dodaqlarını, titrək, nəvazişkar əllərini yadına salardı. Özü də buna gəncliklərinin kiçik bir nadincliyi kimi baxmışdı, ötəri, sadə, hər ikisinin nadincliyi... həm də bu nadinclik xoşbəxtlikdən heç bir fəlakətlə nəticələnmədi, tezliklə qızın baxtı açıldı, ərə verildi, nadinc gözləri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pərdə dalından ona vida edərək çıxıb getdi. Amma o ehtiraslı gecə gəncin xəyalında xoş bir iz buraxdı. Sonralar şair həmin görüşlərə bir qəzəl də həsr etmişdi:

Hanı o mahə həmağuş olduğum gecələr?
Şərabi-vəslilə mədhuş olduğum gecələr...
...Düşəndə yadə, düşər şölələr dilü canə,
O nari eşqilə pürcuş olduğum gecələr.

Doğrudan da, o ehtirasın narına yanmışdı, yox, buna məhəbbət atəşi deyilməz, olsa-olsa ani bir qarsalanma idi, qarsalanmışdı, qəlbində isə eşq adına təkcə coşqun bir ehtirasın xatirəsi qalmışdı.

İndi Saranın məhəbbəti əvvəl əldə ona Nəvalın ani, tez yanıb, tez də sönən eşqinin ehtirasını xatırlatmışdı. Lakin az sonra şair bu məhəbbətin dərinliyinə, qızın qəlbində dərin-dərin bir yara açdığına inandı, inandığı kimi də dəhşətə gəldi... Bu, məhəbbət Saranın qəlbindən silinməyəcəkdi, bu məhəbbət Saranın fəlakəti idi, şəxsi fəlakəti... Sarabəyim, bu eşqi dünyada heç bir şeyə dəyişməyəcək, əbədi ərə getməyəcək, heç kəsə könül verməyəcəkdi... O, dirigözlü, bilə-bilə özünü ölümə məhkum edirdi... Bu şairin xəyalında beləydi... həm də ölümə niyə? Sara özü isə bu eşqi analıq məhəbbətindən də üstün tutmuş, özünü əbədi tənhalığa məhkum etmişdi. Sarabəyim onun xəyalı, şeirlərinin şöhrəti ilə yaşayırdı... Yox, ona elə gəlirdi ki, o özü üçün heç nə istəmir, təkcə onun üçün yaşayır, o bu dünyaya gəlib ki, Ağaya bircə parça səadət versin, onun fərəhsiz günlərini bəzəsin, ürəyini cavanlaşdırsın, üzünü güldürsün... Ona daha nə lazımdır ki?.. Bundan böyük səadəti Sara təsəvvür də eləmirdi... Şair arabir ehtirasın qarsalayan alovlarından ayrılır, Sarabəyimi qorumağa, şər dillərə düşməkdən sağındırmağa cəhd göstərir, nəyəsə səy eləyirdi... Lakin artıq Sarabəyim onu eşitməyə qadir deyildi, səadətindən məst idi, Sara...

Hələ ölənlərin ili olmamışdı... Sarabəyim hələ qaradan çıxmamışdı. Əynindəki qara paltar onu daha gözəl göstərsə də Şirvan xanımlarının sevmədiyi bu rəng, şairin də xəyalında məhz nəhs bir şey idi, Hüseyni qara idi, imam matəmi ilə əlaqədar bir rəng idi, o bu qara rəngi heç sevməzdi... Saranın qara libasda daha da ağ görünən simasını qəmli bir kədər bürümüşdü. O, arabir həzin-həzin ah çəkir, kim bilir bəlkə də fitnəkar qəlbində özünü şairin coşqun ağuşunda görür, bəlkə də, bu qara matəmin onu sevdiyi şairin quca bilmək imkanından məhrum etdiyi üçün ah çəkir, nifrət edirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Saranın qəlbini duysa-duysa bir şair duya bilərdi, lakin o da nədənsə bu gün qara rəngli köynək altında qabarıq sinənin içində gizlənmiş ürəyin çırpıntılarını elə bil ki, duymurdu, ahlar onu yandırırdı:

Ey məh, sənə bu ahi-dəmadəm nə üçündür?
Ayineyi-dildə kədərü qəm nə üçündür?

Batdın genə bəxtim kimi bilməm nə qəraye,
Qurban sənə, bu şiveyi-matəm nə üçündür?

Dünyayə gələn getmək üçündür, bu nə qəmdir?
Bir fikr elə, bu xilqəti-aləm nə üçündür?

Seyyid, əgər ol şəmə sənin yanmadı könlün,
Bəs pərdeyi-çeşmində olan nəm nə üçündür?

O, qəlbində həzin-həzin hıçqıran, yalvaran bu misraları yazıya köçürməli, yiyəsinə tapşırmalı, onun dərdinə nə qədər də dərindən şərik olduğunu bildirməli idi:

– Sara, – dedi, – qələmdanı bəri ver!

Sarabəyim quş kimi yerindən qalxıb taxçaya yaxınlaşdı, zərxara pərdəni qaldırdı, bala mücrüdən şairin belə halları üçün hazırladığı qələmdanla bayazı çıxartdı və cəld gətirib onun qarşısına qoydu. Şair bir anlığa, dünyanı, bütün qayğılarını unudub yazmağa başladı...

...İş getdikcə yoğunuyur, Ağa bu qayım düyünləri açıb xilas ola bilmirdi. Ana, bəlkə hələ Ceyran da nə isə duyur, dostları tez-tez "qeybə çəkilməsini", məclislərdə görünməsini ona andırırdılar. Hamı eyhamla nə isə bic hadisə baş verdiyini söyləyir, dəyişməsinə işarə vururdular. Amma hələ ki, heç kəs əsil həqiqəti bilmir, qaranlıq quyuya daş atırdılar.

Elə bu zaman Ağa müvəqqəti də olsa şəhərdən getməyi lazım bildi. Onsuz da Şirvan yolları onu çox rahat qoymayıb, həmişə diyar-diyar gəzdirib. Baxaq görək səfəri indi hayanadır?

## SONA

Hələ keçənlərdə Tərlana yazılan cavab məktublarından birinin sonunda demişdik ki, şair "Mahmud ağadan Əlyar bəyin üstünə kağız alıb getmək, Sonanın əhvalından xəbər tutub Tərlanın yanan ürəyinə bir birəlli su səpmək istəyirdi". Lakin təəssüf ki, Seyid Əzim həmin o vaxtlarda bu arzusuna əməl edə bilmədi... İş elə gətirdi ki, aylar keçdi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Güllübəyim hadisəsi baş verdi, məktəb açmaq məsələsi ortaya düşdü. Sonra *qış gəldi, yollar bağlandı, daha sonra "Beytüs-Səfa" ilə ilgili* hadisələr meydana çıxdı. Abid əfəndi fəqərəsi... zəlzələ, nəhayət, şairi son dərəcədə həyəcanlandıran Səfa və Qəmzə faciəsi baş verdi. Şairin ürəyi Tərlanla Sona yanında qaldısa da əlindən bir iş gəlmədi. Dostuna vədə-xilaf çıxdığı üçün hey özünü danladı, axı onu gözünü yolda qoymuşdu. Nəhayət, son hadisələrdən sonra bir qədər havasını dəyişmək və Sonadan bir xəbər bilmək üçün uzaq bir səfərə çıxdı. Şair Qafqazın təpələrə çevrilən alçaqlı-hündürlü dağ silsiləsi və onun ətəkləri arasından dağların, sıldırımlı qayaların sinəsindən keçən cığırla irəliləyirdi. Bu yollarda ilin yalnız yay aylarında üç ay gediş-gəliş olur, payız, qış və yaz aylarında palçıq əlindən buralarda tərpənmək olmur. Dar cığırlara lehmə palçıq dolur. Çarıqlar, patavalar, çarbağılar bu palçıqdan bulanıb batır, rəngini, gözəllərin patava və çarbağıya saldığı naxışları boz bir lehmə içində itirib batırır. İndi yayın ilk ayıdır. Buralar cənnətin bir guşəsidir. Quzeylər, təpələrin döşü al rəngə boyanıb, elə bil yerə qan çilənib... lalə... sıldırımlar, dərə və yarğanlar yamyaşıl otlara bürünüb yaşıl atlaz don kimi... çiçəklər, sarı, mavi, bənövşəyi, xırdaca, ətirli dağ çiçəkləri... Şair bu ətirləri, bu əzəli, mədhuşedici bakir rayihələri köksünə çəkməkdən doymur. Göy üzündə bircə bulud da yoxdur. Qəribədir, dağa qalxdıqca adama elə gəlir ki, göylərə daha yaxın olmalıdır. Arabir Cin Cavad ona sataşır da: "Ağa, cəddinə sədəqə gedim, dağa çıxanda ərzimi öz mübarək dilinlə Allaha yetir, ordan yaxın olarsan, yaxşı eşidər səni..." Yaşıl donlu dağlar, təpələr, firuzəyi qübbə altında nə gözəlsiniz... O bu dərin, əngin qübbə, bu namütənahi, sonsuz fəza altında "kümbədi-dəvvardır elə bil", deyə düşünür, boş kimi görünən təpələr üstündə tək-tənha olduğunu da unudur, o öz xəyal aləmindədir. Dağda nə çox quş var, ilahi, hərənin də öz rəngi, öz nəğməsi... Bu şinəbub, çoxlarının şanapipik dediyi, başı daraqlı narıncı don geymiş gəlinə bax!.. Ceyran uşaqlara necə nağıl edirdi: hə, şanapipik gəlin idi, evdə başını yuyurmuş, birdən qayınatası içəri girir... Gəlin də başını örtə bilmir, utanır, darağı başına sancılı, üzünü Allaha tutub deyir: "Ay Allah, məni xəcalətdən qurtar". Elə o saatda da gəlin dönüb olur şanapipik, başındakı darağı da dönür olur darağ təkin kəkil... Hə... bu vaxt Həcərin, Mircəfərin gözləri necə alacalanmışdı... Şair quşun "bub-bub" nəğməsini dinləyə-dinləyə irəliləyir, atın üstündə yırğalanır, Ceyranı və balalarını görər kimi olur və nazik dodaqları təbəssümlə səyriyir. Yenə heyrətedici mənzərə onu alır. İlahi, nə rəngin, nə



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mahir rəssamsan, ey yaradıcı!.. Bir bu qızzarquşunun, sarıköynəyin, göyçəqarğanın (Məməm deyir hələ qanı da göy öskürəyə dərmandı, özü də quşların "seyididi", bir növ mənim kimi...) rənginə bax, nəğməsini dinlə... O alabaxta... hələ bu xınalı kəklik... Öz aramızda, bu babətdən götürəndə aşıqlar bizdən yaxşıdı... Rəhmətlik Qurbaninin bənövşəsi... Xəstə Qasımın kəkliklər qoşması... Aşıqlar indi də oxuyur! Adam eşidəndə bu dağlarımızı, bu kəklikli qayalarımızı gözünün qabağına gətirir, ürəyi tellənir... Necə oxuyurdu o cavan aşıq Bilal?

Gözəl kəklik qayalarda səs eylər,
Qaqqıldaşıb bir-birinə bəhs eylər,
Bilmirəm toy eylər, yoxsa yas eylər,
Qaynağın batırmış qana kəkliklər.

Öz aramızda lap elə mənim gözümün qabağındakı bu kəklikləri deyib ha... "Qaynağın batırmış qana kəkliklər..." Gəlinlərimizin əlinin xınası təki... "Elə bil əli hənalı Sarabəyimdi durub" şair dərindən köksünü ötürür, gülümsəyir.

...İsti şairi bişirirdi... Gün qalxdıqca quşların səsi kəsilir, çiçəklərin də elə bil ki, rəngi avazıyırdı. "Hə, sənin də ömrünə az qalıb, ay isti gün. Bir az keçər, hava soyuyar, quşlar köçüb gedər, nəğmələr kəsilər. Dağlar tənha qalar". Susuzluq şairə yaman əsər eləmişdi. O irəlidə nohur olduğunu bilirdi, bu nohuru köçərilər yaylağa gedən yol boyunca çox yerdə qazıblar. Kolanının, Padarın, Arabın köçü bu yerlərdən yaylağa qalxanda, qışın, yazın, payızın yağışlarında dolmuş bu nohurlardan həm heyvanat sirab olur, həm də köç əhli istifadə edir. İndi aranda köç yoxdursa da (hələ yaylaqdan qayıdan yolda olarlar) nohurlarda azurğu su qalmamış olmaz, – deyə şair atın yönünü dağın ətəyinə sığınmış binəyə sarı çevirdi. Birdən o sanki bir sərinlik duydu... hardansa firuzəyi göylərə gəlib çıxmış bir parça buludun kölgəsinə düşmüşdü. O irəlilədikcə sanki bulud da xəfif nəsimin təqibilə irəliləyir, onun üstünə kölgə salırdı. Su iyi almış at fınxırdı, tələsdi... Nohura az qalmışdı, xəyallara dalmış şair, Baloğlan qışlağını haxlamışdı ki, qəfil bir səsdən diksindi:

– Kəraminə şükür, ilahi! Bu buludsuz, isti ələnən göydən öz nurunu göndərmisən ki, Ağanın başına kölgə salsın?! A sənin cəddinə qurban olum...

Şair qarının səsini eşidincə xəyallarından ayıldı. Bayaqdan bəri onu seyr edən arvadı görməmişdi, görcəyin tanıdı: baloğlanlı dostu Hacı Qədimin böyük arvadı Dəstəgül arvad dua-səna eləyə-eləyə onu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qarşılayırdı. Şair, qarının sadəlövhlüyünə gülümsədi: "Ay yazıq bacı, bayaqdan istidən bişən bəs mən deyildim? Onda hardaydı gözəgörünməzin nuru? Bu bir parça buludu mənə çox gördün? Elə indicə gəlib aldı üstümü ki!.."

O, qarı ilə köhnə bir tanış və ailəvi dost külfəti kimi sənli-mənli qonuşmağa başladı:

– *Salaməleyk, Dəstəgül bacı, nə əcəb, arandasan?*

Çoxdanın sinədəftəri kimi tanıdığı Dəstəgül gülümsədi, nohurdan doldurub gətirdiyi güyümü qapazzıqlaya-qapazzıqlaya dilləndi:

– Eh, canım qurban, malım qurban, Ağa! "Qalsa da qarı qalsın, qalmasın qız aranda!" Elə aşıq yaxşı deyib... Vallah!.. Bir az taxılımız vardı biçiləsi. Köç yığışanda qız-gəlin çöp tutdu ki, kim qalsın biçinçilərə çay-çörək bişirməyə. Dedim: a yanmışlar, bəyəm aşıq oxuyanda eşitməmisiniz? Aran bu il mənə düşəcək... Qırımuvuzdan bilirəm. Nə çöp, nə hop tutun, nə də cınaq çəkin...

Onlar danışa-danışa binəyə endilər. Binədə deyəsən heç kəs yox idi. Kişilər biçindəydi. Dəstəgül arvad çiynindən güyümü aşırıb yerə qoydu və cəld Seyid Əzimin atının başını tutdu. Şair atdan endi.

– Yaxşı vaxtında gəlmisən, Ağa. Bir az incığun çıxar, o vaxtacan *kişilər də qayıdar! Yaxşı, kefin istəyən beçə çığırtması bişirirəm,* – arvad bu sözləri deyə-deyə mis aftafanı doldurub şairin əlinə su tökməyə başladı...

...Bir az sonra şair binədəki qazmaların birində yumşaq döşəkçə üstündə məxmər mütəkkəyə yaslanıb oturmuşdu. Bütün köçəri tayfalara məxsus qonaqpərvərliyi və sadə mehribanlığı ilə Dəstəgül arvad, yaşmanıb eləmədən onun qarşısına süfrə açmışdı. Süfrədə sarı inək kərəsi, üzlü qoyun pendiri, qaymaq və nazik sarıbuğda yayması vardı. Ağa susuz idi, süfrədəki nemətlər nə qədər ləzzətli olsa da, o çay içmək istəyir, qazmanın ayaq başında gərmə üstündə qaynadılan qara aftafadakı çayın hazır olmasını gözləyirdi:

– Dəstəgül bacı, maşallah, ilin bu isti havasında qaymaq, kərə... özü də ərimәyib... bunun sirrin açsanam...

Arvad qalaylı mis piyaləni dəstərxanın ucu ilə silə-silə gülümsədi:

– Heç bir sirri-zadı yoxdu, canım qurban, malım qurban, Ağa, zağada, dalda yerdə çal-çal eləməyçin axşam sərirəm, səhər yığıram, yoxsa altı gələr... qatıq qıcqırır, odu ki, nəhrəni elə-belə eləyirəm...

O bu sözlərlə piyaləyə çay süzüb şairin qarşısına qoydu:

– Ye, ye, ba-şuva dönüm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şair çayı içdi, yuxa yaymanı lülələyib arasına bir qırıq pendir qoydu, qaymağa batırıb yedi, iştahı yox idi, amma arvadı da incitmək istəmirdi.

– Qızlar nə təhərdir, Dəstəgül bacı?..

– Necə olacaqlar, canım qurban, malım qurban, Ağa, canuva dua eləyirlər. Gedələr dağdan arana enmişdilər, taxılları qurtarıbmış. Bir də qoyuna duz aparmağa, duzzağa gəlmişdilər. Deyir: hamısı yeyir yaylağın qaymağın, sanayır başının telin, vırıllar şıllağı. Ərləri yanlarında, ağılları başlarında... – bu sözlərdə bala sarıdan arxayın ana səadəti, fərəh və hənəyi duyulurdu. O, sözünə davam edirdi: – Bir-iki motal göndərmişdilər, birin ayırıb qoymuşdum siziyçin. Deyirdim gedən olar göndərrəm, Minasoltan bacıma....Uşaqlar qışda yavanlıq eləllər. Yaxşı üzdü motaldı, xalis yumrudu.

– Çox sağ ol, Dəstəgül bacı, siz mənə yaman xəcalət verirsiniz, elə hər il pendirimizin, yağımızın çoxu sizdən gəlir...

– Nolar, başuva dönüm, canım qurban, malım qurban cəddüvə, Ağa! Biz də sənin duvannan dolanırıq, Allah kölgəni başımızdan eləməsin...

Ağa utandığı söhbəti dəyişmək məqsədilə yenə də qızların məsələsinə döndü. O, Dəstəgülün məzəli söhbətlərinə valeh idi...

– Yaxşı, bəs qızlardan qalanı var? Ya hamısın vermisən gedib? Yadımda da qalmayıb neçəydilər?

– Bıy, başıma xeyir, canım qurban, malım qurban, axı hamısının adın da özün qoymusan. Dağlarımızda ot-ələf qalmayıb, gül qalmayıb, hamısını o vecsizlərə yaraşdırmısan... Beşdi qırılmamışlar. Allah mənə beş qız verincən beş qalıb sabun verəydi, beş dəfə paltar yuvardım, sərərdim yerə, suyun torpaq çəkərdi, dərdlərin mən çəkməzdim... Qız yükü duz yüküdü, başına dolanım... Əyriburun kişi (Şair dostunu xatırlayıb gülümsədi) o vaxtlar cahıl idi, ova tez-tez gedərdi. Ceyran vurub gətirərdi, yeyərdim. Qızlar da olurdu hərəsi bir ceyran təki... Gedirdi sənin yanuva, sən də mənim adıma tutaş Səməngül, Çəməngül, Bağdagül, Qızılgül, Narıngül, qoydun adlarını... Dərdim oldu beş dənə... Kişi fağırın üzünə baxa bilmirdim. Ağaqulu dünyaya gəlincən, cəddüvün nökəri balam... Qərəz başuvu da ağrıdıram, canım qurban, malım qurban, iştahnan ye... Qulağın məndə olsa bəsimdi.

Şair bir də içərisinə pendir qoyduğu yuxanı qaymağa batırıb ağzına qoymuşdu, gülümsədi, tikəsini udub dedi:

– Elə demə, Dəstəgül bacı, mən sənə diqqətnən, həvəsnən qulaq asıram, hə, sonra...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qız alan kim idi... – Arvad gözlərini yerə dikib, əlindəki çöplə torpağı cıza-cıza sözünə davam elədi: –...Qız alan, qız verən kim idi... Elə qızlar tanıyırdım ki, qız kasadlığında evdə qalıb xal salıb!.. Nədi ki, ata-ana qapıya gələn elçilərə yaxşı üz göstərmir. Alşan imarət istəyir, qızıl-gümüş istəyir, toqqa elə getdi, boyunbağı belə getdi... Yox, mənciyəz ucuza qız verənçiləm, lap şor qiymətinə vermişəm qızları. Çobanları çəkmişəm cınağıma, hərəsinə bir qız vermişəm dağların quzayında bəslənmiş. Maral təki. Nə gətiriblər – nə gətirməyiblər: bircə nazik üzük, bircə dəst də baş paltarı!.. Ucuzca da şirniyyat... vəssalam! Day nə baş pulu almışam, nə süd pulu istəmişəm... Yaxşı ki, əyriburun dostun sözümdən çıxmayıb...

– Yaxşı da eləyib, yoxsa mal-mülk istəyəydin, borca-xərcə düşüb alaydılar, dalıycan da qızın günü olmayaydı...

– Onu doğru deyirsən, malım qurban, canım qurban, indi heç olmasa dilim kürəkənlərin üstündə uzundu. Neyşə ki, incitməmişəm onları...

– Yaxşı, günləri necə keçir?

– Necə keçəcək, qurban olsunlar sənə, yaxşıdılar... Bircə dərdim var, Ağa, başuva dolanım. Qarında mənə oxşayıblar, düzüblər qızı-qız dalıycan... – Arvad kədərlə, təəssüflə gülümsədi.

– *Özlərinə oxşasa nə var ki...*

– Tula itdən uzaq getməz, başuva dönüm, elə hıqq eləyib analarının burnundan düşüblər... Amma neynəyəsən ki, kürəkənlərin ata-anası bu qız məsələsindən narazılıq eləyirlər... hamı mənim o əyriburunum olmaz ki...

– Qərəz ki, Allah hamısını xoşbəxt eləsin, oğul nəvə də görərsən, Dəstəgül bacı, fikir eləmə, təki sağlıq olsun.

– Allah ağzından eşitsin, Ağa, cəddin köməkləri olsun! Vallah, oğul nəvəm olan kimi qapunda qoç qurban kəsəcəm. Onda özüm də gəlib Minasoltan bacımı görəcəm... Elə uzaqdan-uzağa tanıyıram, amma qapınıza dəxil düşüb bir öpməmişəm! Allah qismət eləsin...

Seyid Əzim Dəstəgüldəki bu qəribə etiqada dərin, daxili bir ağrı hissilə təəssüf edərək yeməyini bitirdi...

– *Çox sağ ol, bacı, süfrən açıq olsun.*

– Bıy, neyşə yemədin, Ağa, cəddüvə qurban olum?

– Yedim, artıq iştahım yoxdu, Dəstəgül bacı, çox sağ ol!

– Bıy, başıma xeyir! Ağa, bəs deyillər molla yeddi camışnan yeyər, seyid də yeddi mollaycan. Amma sən heç bir uşaqcan da yemədin ki? – deyə arvad gülə-gülə köhnə qonaqları Seyyidə sataşdı. Hər ikisi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

güldü. Seyyid gözlərinin yaşını geyməsinin altından çıxardığı yaylıqla silib dedi:

– Görünür mən o dərin seyidlərdən deyiləm... Bir də iştahımı sənin bir az əvvəl vəd elədiyin beçə çığırtmasına saxlamışam...

– Mında nə vardı ki, axı qurbanın olum, onu da yeyərdin, o vaxtacan acacaqdın, iştah diş altdadı...

– Çox sağ ol...

Arvad nə düşündüsə birdən soruşdu:

– Ağa, hərçəndi qonaqdan soruşmazlar, amma sən evin yiyəsisən, odu ki, qoy bir söz soruşum, səfərin hayanadı?

– Ev yiyəsi sağ olsun, Dəstəgül bacı, yolum Ərəbçəltikçiyədi...

– Neynək, neynək, səfərin xətərsiz olsun, qayıdan baş burdan gedərsən Allah qoysa, uşaqlarçın motalı da, bir az ayın-oyun da var, onu da apararsan...

– Baş üstə, Dəstəgül bacı, elə motal bəsimdi, ayrı zəhmət çəkmə!

– Bıy, başıma xeyir, ay Ağa, zəhməti də day sənin yolunda çəkməyəndə kimin yolunda çəkəcəyik? Hayıf ki, yol irağdı, qatıqdan, süddən, qaymaqdan gedib çıxmaz... Motaldan başqa bir az yun qoyacam, gəlinimizçin, iplik, bəlkə mən toxuyanı bəyənmədi, ora şəhər yeridi, özləri corabdan-zaddan toxudu...

– Nə danışırsan, Dəstəgül bacı, sənin corabını kim bəyənməz? Elə həmişə sənə dua eləyirik... Ömrün uzun, gözlərin işıqlı olsun...

– Ağzın fal olsun, Ağa, dərdin ürəyimə... Sən Allah, dua elə, Ağa, Allah kiçik gəlindən də Hacıya bir oğul kəramət eləsin, day mənimki keçib... Ağaqulu tək, qardaşsız qalmasın, Hacı da tabağı təkçörəkli olmasın.

Şair kədər qaplayan gözlərini Dəstəgülün qocalmağa, qırışları çoxalmağa başlamış simasına dikdi: "İşə bir bax... Günüsü üçün dua elətdirir... Sən nə böyük ürəyə maliksən, ay bacı, nə böyük ürəyə". O, dərindən bir ah çəkdi, qadın bu ahın səbəbini yaxşı başa düşürdü; Ağa çoxarvadlığı xoşlamır, hələ bir müddət ikinci arvad alandan sonra dostu Hacı Qədimlə araları soyumuşdu da... Ağa yenidən Sarabəyimə olan münasibətini xatırladı. "Bəs sən? Sənin başqa hacılardan, kablayı və meşədilərdən nəyin əskik qaldı ki? Bir siqə yarağın? Bitib hər bir yarağımız, qalıb saqqal darağımız?.. Bir bu təfavütdür ki, onlar aşkarda, sən gizlində..." Dərhal da Sarabəyimin səsi qulağını yandırdı: elə neyşə düşünürsən, Ağa? Yesirin olum, məni ki, sən Ceyran bacıma göz dağı eləməmisən" – şair dərindən bir ah çəkib keçmiş xatirəyə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qayıtdı. Sonra yenə də onu nəcib qəlbli Dəstəgül əri ilə barışdırmışdı: "Bu adəmdən xatəmə belə olub, Ağa! Sən belə şeylərdən geri düşmə! Qocalıram, elə mənim özümə də qızlar gedəndən sonra evdə bir qulaq yoldaşı gərəkdi. Bəlkə Allah mənim qismətimdə qoymadığını, ona qismət elədi, hacının oğlu oldu" – demişdi. Amma iş elə gətirmişdi ki, cavan gəlin gələndən sonra Dəstəgülün özünün oğlu olmuşdu. Uşağı Ağanın hörmətinə Ağaqulu adlandırmışdılar. Kiçik arvadın isə hələ ki, bu on-on beş ildə övladı olmamışdı...O özünü Dəstəgülün qızlarından biri kimi aparmış, bir dəfə də üzünə qayıtmamışdı. Odur ki, günülər yaxşı yola gedir və Dəstəgül də evdə, külfət, ailə arasında öz əvvəlki hakim mövqeyini mühafizə edirdi. Bütün köçəri tərəkəmə qadınlar kimi o da çəndan yaşınmaq bilmir, qonaq qarşılayır, xırmanda, suda, heyvanat halavatlamaqda kişilərlə çiyin-çiyinə çalışırdı. Hacı Qədim tez-tez deyirdi: "Dəstəgül baş yoldaşından başqa bir də mənimnən dövlət qazanıb, qardaş olub".

Birdən ona elə gəldi ki, pərilər soltanı başı üzərində qanad çalmağa başladı, o, xısın-xısın pıçıltılarla deyirdi: "Şairim, məgər sən ana və bacılarının nələrə qadir olduğunu bilmirsən? Nə tez unutdun? Özün necə demişdin? "Peyğəmbərin dediklərindən təkcə "Behişt" dedikləri yer ananın ayağının altındadır" cümləsi üçün ona peyğəmbər deyər, tapınar, səcdə edərdim, qalan əməlləri bir yana dursun". Məgər bu cümlə məhz Dəstəgül kimi analarımız haqqında deyilməyib? Bəs sən analarımızı yüksəldən şerini nə zaman qoşacaqsan, bu gün qoşmasan?"

– Dəstəgül bacı...

– Can Ağa, nədi, canım qurban?

– Mənə elə bir yerdə yer hazırla, bir nimdər at ki, bir az yazmaq istəyirəm...

– Bu saat, malım qurban...

Dəstəgül Ağanın adətinə keçmiş gəlişlərindən də bələd idi. Az-çox varlı evdən olsa da, nökər-nayıb gözləməz, hər bir işini özü görər, qonağına da, xüsusilə Ağa kimi qonağına özü xidmət edərdi. Cəld alaçığın böyründə yer hazırlamağa başladı.

O, yer hazırlamaqda ikən şair alaçığın qənşərində durub kəndin bütün axar-baxarını seyr edirdi: İlahi, behiştin bir guşəsidir! Bu babalar yurd salmağa yer seçəndə nə gözəl yerlər, məkanlar seçiblər. Kişilərdə nə qəribə zövq, nə dərin təbiəti duymaq qabiliyyəti varmış!.. Onlar istər yaz yurdu, istər küz yurdu, istər yay və ya qış yurdu olsun, elə yerlər seçiblər ki, harda olsalar alaçığın keçə qapısını açıb çölə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çıxanda, qarşılarında təbiətin geniş, bir aləm işıq, gözəllik dolu bir mənzərəsi açılsın. Qışda alaçığın dalını dağa veriblər ki, isti olsun, – qənşəri açıq olub; yazda, payızda yağış və küləklərdən qorunuqlu, yayda gündən kölgəlikli yerlər seçiblər; amma genə də qənşərləri açıq olub, açıqlıq... Qərəz...

Arvad alaçığın kəlləsinə keçdi:

– Ağa, başına dolanım, sənə isti olmaz burda?.. – O, əlindəki mütəkkəni, balıncı və döşəyi yerə, tamaşa palazın üstünə qoyub sahmanlamağa başladı.

– Yox, ay bacı, olmaz, isti nə gəzir... – O yazmağa hazırlaşmasına işarə verib dedi: – Mən indi şeir aləmindəyəm, ora da ki, behiştdir... nə soyuğu var, nə istisi...

Arvad şairin dediyindən bir o qədər də dərin söz anlamadısa da mülayim behişt haqqında eşitdikləri ürəyinə yer elədi:

– Can-can, Ağa, cəddüvə qurban olum, həlbət ki, sənin də yerin behişt olmayanda, dayı kiminki olacaq?

Seyyid güldü, qadının cavabındakı mənanı özü istədiyi kimi yozdu:

– Doğru deyirsən, bacı, ərəblər deyirlər ki, "Əlmənayi-şeir, fi bətni şair" yəni şerin mənası şairin qarnındadı... – O, qəsdən çəkdiyi məsəlin mənasını qadının anlayacağına uyğun bir şəkildə tərcümə elədi. – Hə, mən də ki, bir azdan acacağam, zəhmət də olsa bir balaca tədarük gör.

Qarı sevindi:

– Bıy, sənə malım-canım qurban, can-can, Ağa, incığın çıxıncan xörəyim hasıla gələr, sən bir piyalə də çay iç, qoy bağırsaqların genisin, bir şey yeyə biləsən. Yoxsa acam deyəndə də elə bir şey yediyini görməmişəm. Bir tikəynən o yana, bir tikəynən bu yanasan... Bax, budu, çayı da qoyuram yanına.

Dəstəgül arvad bu sözlərlə qara aftafanı yaz ocağından götürdü. Zağlı mis piyaləyə çay süzüb dəsmal arasındakı qəndlə birlikdə şairin dizinin dibində qoyub getdi.

...Şair gecəni burada, dostlar arasında keçirib, istirahət elədi və səhər dağdan aşağı Küdrüyə endi, Həcqədirli qışlağından ötüb axşama Ərəbçəltikçiyə çatmaq üçün atı dəhmərlədi...

Gəlin biz ondan irəli düşək, xəyalın qanadlarına qalxıb Ərəbçəltikçiyə uçaq. Ağa öz arıq yabısı ilə ora yortanacan baxıb görək elin Sonası nə kökdədir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÇİLLƏ ÇIXARTMAQ

Ərəbçəltikçi Sığırlı ilə Ağsu arasındakı məşhur Küdrü düzənliyində yerləşən kəndlərdən biridir. Bu düzənlik uzunu 140-150, eni Qarasudan Ləngəbiz dağlarına qədər 50-60, bəzən yüz kilometrə çatan bir sahəni əhatə edir. Burada Ərəbçəltikçi, Ərəbqiyaslı, ümumən Şirvan tərəflərdə Ərəbşalbaş, Ərəbqədim, Ərəbşahverdi kimi adları ərəb sözü ilə başlanan kəndlər yerləşir, elə Ərəbistan kimi də yayı qupquru susuz səhradır, yaz, payız aylarında zümrüd kimi gömgöy, qışı qışlağa enən qoyunlarla dolu olur. Ortasındakı Ovçupirim təpəsini nəzərə almasan, düzənliyin tən aralığına, qocalar demişkən, bir yumurta qoysan hər tərəfindən görünər. Ağsu dolayından, Ləngəbiz silsiləsinin hansı təpəsindən baxsan, Küdrü düzənliyi azman bir xalı kimi ayaqlarının altına, gözlərinin qabağına döşənir. İntəhası hər fəsildə bu xalının rəngi dəyişir: gah zümrüd kimi yamyaşıl, gah boz çalarlı, gah sarı çalarlı, gahdan bir də ağappaq olur. İndi biz Küdrü düzənliyinə Ağsu dolayından keçib, Ləngəbiz silsiləsinin lap aşağı ətəkləri ilə enəcək, Gərgəli, Rəhimağalı, Qəşət kəndlərindən keçib gedəcək, yolüstü Garıs kəndlərini ötəcəyik. Şairimiz də həmin yolla gələcək, onun Qəşətdə tez-tez işi olur. Bu iş də gün ruzisinə bağlıdır. Buranın əhalisi, həmçinin kəndin bəyi Kərim bəy çox qəribdost və əliaçıq adamlardır. Onlar tez-tez Seyyidə əl tuturlar, taxıldan, heyvandan müzayiqə eləmirlər. Əli aşağı düşəndə şairimiz bunlara özü müraciət eləyir. Bu səfərində biz onu qabaqlamışıq. Onun bu yolu keçməsi uzun vaxt istəyir, biz isə sizinlə xəyalın qanadlı atlarına minmişik, çapırıq.

...Bir neçə gün idi ki, kənddə nökər-nayıb bir-birinə dəymişdi, şirin hazırlıq gedirdi, hamı xanımın çillə çıxartmaq nəziri olduğunu bilirdi. Ona görə də qohum-əqrəba indidən hazırlaşır, gəlin-qızlar əllərini-ayaqlarını xınalayır, çətir və birçəklərini qayçılayıb düzəldir, ocağa şiş qoyub qızdırır, düz teli olanlar bu telləri qızmar şişə dolayıb burur, salxım birçəklər düzəldirdilər. Adət üzrə çillə çıxardan ev bircə qoyun kəsər, o gecə həmin qoyun içalatından tutmuş, qora basdırılan baş-ayağına qədər bütünlüklə yeyilər. Gələn qohum-əqrəba da özü ilə yemək-içmək gətirməlidir. Odur ki, arvadlardan fəsəli bişirən kim, sacarası salan kim, qovurğa, küncüd, çətənə qovurub içinə qoz ləpəsi dolduran kim, yumurta bişirib boyayan kim, nazik yuxa salan kim idi... Bəziləri hətta südlü, zəfəranlı plov da bişirib dövrələrə yığır, üstünə sərpic qoyub aparmağa hazırlaşırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sona hamıdan artıq əl-ayaqda idi. O, Şamaxı xanımları arasında görmədiyi bu kənd dəbi ilə çox maraqlanır, hər şeyi soruşub eşitmək, öyrənmək üçün yetiklik eləyirdi.

Bayırda bir qar çovğunu var idi ki, gəl görəsən, bu il yaz gecikmiş, soyuq günlər uzanmışdı, içəridə kürsünün kömürü qızarıb paxır misə dönmüş, bərq vuran manqalların istisindən içəridəkilərin sifəti al-al vururdu. Hələ qonaqların gəlməsinə xeyli vardı. Şahbikə xanım kürəyini mütəkkələrə söykəyib kürsüyə girmiş, kürsü yorğanının üstündən naxışlı mis məcməyidə qoyulmuş qovurğadan, ləbləbi-kişmişdən ağzına atırdı. Sona, Çəmən və İsa başqa qaravaş və nökərlərlə birlikdə hazırlıq görürdülər.

– Ədə Qulu, Qulu! – deyə Şahbikə xanım nökərlərdən ən üşüyənçil kimi tanıdığı birisini səslədi.

– Bəli, xanım. – Qulu əllərini hoyxura-hoyxura içəri girib, qapının astanasında dayandı, ayağının birini-götürüb o birini qoyurdu.

Şahbikə xanım onu cırnatmaq üçün hava ilə oxumağa başladı:

– Ayə, Qulu, soyuqdu? Ayə, Qulu, soyuqdu?

– Vallah, xanım, doğrudan elə soyuqdu ki... heç bilmirəm bu nə çillə qonaqlığıdı? Allah nəzirini qəbul eləyib, qurtarıb gedib. İnanmıram bu havada bir adam gələ...

Xanım qəşş edə-edə güldü:

– Qulu, Qulu, sən ağanın canı, qaç Gülgəz xalamqızıgilə. Soruş gör o gün onlarda idik ha... bir mahnı dedi: "Tutum biləngindən öpüm üzündən" onun əvvəli nəydi? Birdən ölmüş sənin kimi havadan qorxar gəlməz, sonra mahnını bilmərəm...

Qulu qorxa-qorxa qapının dalında uğuldayan küləyə qulaq verib dilləndi:

– Bıy, xanım bax, xanım! Oturub isti kürsüdə, qabağında ləbləbi-kişmiş, atır ağzına, deyir: get gör "tutum biləngindən öpüm üzündən"in qabağı nəydi? Vallah xanım, mən qoyun soyuram. İsini göndər, onun yaddaşı mənimkindən yaxşıdı. Mən gəlincən yaddan çıxardaram, genə qayıtmalı ollam, iş qalar...

Şahbikə xanım boynuna saldığı qızıllar içində qəhvəyi qotaz kimi görünən və hər bir hərəkətində ətrafa ətir saçan mixək düzümünü yana elədi, dolğun döşləri arasındakı xırda ağ torbacıqdan "ağız acısı aparan" noğul çıxarıb, ağzına atdı və gülə-gülə nökərin sızıltısını dinlədi. Görünür o bu günlərdə hüzürə gedibmiş, "şirinlik noğulunu" da yas yerindən ağrı-acı ilə qayıtmamaq, bəlanı özündən uzaqlaşdırmaq üçün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

asmışdı. Şahbikə xanım bu adəti harın, zadəgan xanımlardan, şəhərdə öyrənmişdi.

Noğul ağzında həll olunan kimi, Şahbikə xanım yalançı bir qəzəblə nökərə acıqlandı:

– Allah öldürməsin səni, hələ qoyunu soyub qurtarmamısan? Di əkil gözümün qabağından...

Elə bu dəmdə qızlar-gəlinlər üstlərinin qarını çırpa-çırpa içəri doluşmağa başladılar. Soyuq nədi, qorxan kimdi, çillə gecəsinə kim getməz?

– Ədə, Qulu, bəs deyirdin gələn olmayacaq bu soyuqda, hə?

Qulu götürüldü.

– Allah qəbul eləsin...

– Gələn bayramınız mübarək!

– İlaxır çərşənbəniz mübarək...

– Siziynən belə, sizin də nəzriniz qəbul olsun.

– Allah eləsin...

– Qulu ölmüşün sözü olmasın, yamanca soyuqdu...

– Alaçalpoy əhdimizi kəsdi...

– Əh, sulu qardı, yerdə durmur ki...

– Mən heç belə yazbaşı görməmişəm...

– Sənin nə yaşın var, a cücə? Mən o qədər arvadların Novruz bayramına yuduqları pal-paltarın həftələrlə tabaqda qaldığını görmüşəm ki!..

– A yanasan, mənə cücə deyirsən?

– Bıy çimdiyin nə acıdı, a yanmış... neynək dəvə ol...

Qızların hərəsinin ağzından bir avaz gəlir, səbəbsiz, zarafatsız şaqqıltılar, gülüşlər eşidilir, getdikcə Şahbikə xanımın evini doldurur, bir aləm qəhqəhəyə çevrilirdi. Ağalar evdə yox idi, onlar çillə gecəsini başqa yerdə, kişilər məclisində yığılıb qumar, nərd oynamaqla keçirəcəkdilər ki, arvadlara mane olmasınlar.

Əlyar bəyin arvadı Şahbikə xanım məclisin baş tərəfində salınmış nimdər üzərində oturub, hündür mütəkkələrə söykənmişdi. Şahbikə xanımın maya budu kimi qalın qıçları təpə kimi döşəkçənin üstündən qalxmış, arvad əncama qolbaqlı biləklərindən sallanan qızılların, zəncirlərin ağırlığından yumru dirsəkləri ilə bu dizlərinə dayaq vermiş, hər barmağının üstü zənəxdanlı, totuq əllərini üç qat buxaq basmış çənəsinə söykəmişdi. Al bənarənin şövqü bəyaz pənbə üzünün qızartısını bir az da artırmış, örpəyin zər butaları, alnında və sinəsindəki qızılların şəfəqinə qarışıb göz qamaşdırırdı.

Qonaqlar da ondan geri qalmazdı. Hamı bərli-bəzəkli, hamı qızıllı-gümüşlü, zəncirə-baftalı idi. Şahbikə xanım qızların toplandığını görüncə dedi:

– Bax, ay canı yanmamışlar, bu gecə yatdı yoxdu! Kim yatsa tikəcəm. Üç gündü yuxumu alıram. Oynayacaqsız, oxuyacaqsız, yeyib-içəcəksiz, nə istəsəz eyləyəcəksiz. Evdə ağalardan kimsə yoxdu. Kişi xaylağı hesab eləsəz bircə nökərlərdi...

Məclisdən qəhqəhə qopdu:

– Eh, nökəri kişi sayan kimdi... Ona qalsa hərənin evində bir üç-dördü var...

Çəməngüllə Sona süfrəni döşəməyə başladılar, naxışlı dəstərxanlar dörd cərgə salındı, qonaqlara əl suyu verildi, saciçi araya gəldi...

...Bu gecə dörd-beş cür yemək veriləcəkdi. Çəməngül, Sona və başqa nökər-qulluqçular əl-ayaqdan düşəcəkdilərsə də, Sona bundan narazı deyildi. O, tez-tez bilmədiyi adətləri Çəməngüldən soruşub öyrənirdi...

Bir qədər sonra nay çalan kəniz ortaya gəldi. Xanımlar oynamağa başladılar. Sona və Çəməngüllə yanaşı başqa nökər və qarabaşlar da qapının ağzına yığışıb rəqsə tamaşa eləyirdilər. Birdən Sona harda, nə etməkdə, nə şəraitdə olduğunu unutdu; musiqi və oynanan rəqslərin gözəlliyi sənətkarı almışdı. Onun ayaqları, bədəninin bütün sümükləri çalınan havanın ahənginə uyğun olaraq daxilində rəqs edir, gözləri bu ahəngə uyğun axırdı... O, şırıqqa səsini, arvadların hay-küyünü eşitmirdi. Ona elə gəlirdi ki, bu çalan Çapıq Nəcəfqulunun dəstəsidir. Ortada oynayanlar onun yetirmələri Qəndi, Məleykə, İzzət və Nisədi... Səkinədi... Bu "qızlar bu gün nə gözəl, necə bir aludəliklə oynayırlar, ilahi! Xalqın içində necə gözəl oynayanlar varmış... Nə üçün vaxtilə biz bu yerişləri, bu əl, baş, çiyin oynatmalarını, boğaz çəkmələrini öyrənməmişik... Cənab Mahmud ağa deyərdi ki, dünyada elə ölkələr, elə yerlər var ki, orda rəqsi, oynamağı müqəddəs bir iş hesab eləyir, hətta nəüzənbillah, ibadəti də rəqslə icra edirlər... Nə olaydı orda doğulaydım... Ya da yox! Bizim adətlər də onlarınkına bənzəyə idi!.. Görəsən elə bir zaman gələcəkmi, elə bir dövran olacaqmı ki, bizim də oyunları çəngi rəqsi, rəqqasələrimizi qaraçı, çəngi adlandırmasınlar?.. Onlara da, hörmət demirəm, heç olmasa nifrət etməsinlər... Onları da, adam yerinə qoysunlar demirəm, heç olmasa, onlarla bir insan kimi maraqlansınlar, bilsinlər... Başa düşsünlər ki, bizim də qəlbimiz var... Biz də duyuruq, biz də öz sənətimizi sevirik... Başqa sənətlər kimi bizim sənəti də qiymətləndirsinlər, ilahi!"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Şahbikə xanım özünəməxsus bir həssaslıqla Sonadakı əcib halı duydumu, yaxud qonaqların oyundan yorulduğunu, indi də nökər-nayıbın növbəsi çatdığınımı hiss etdi (axı nökərlər, kənizlər, qarabaşlar bəzən öz məzəli rəqsləri ilə xanımları çox güldürür, əyləndirirdilər). Odur ki, ilk əvvəl Sonanı səslədi:

– Aaaz, Sona, di gəl bir düş ortaya, bildiyindən oyna görək...

Sona diksindi, əvvəlcə bu səsə cavab vermək istəmədi, "oynamaq bilmirəm, xanım" demək istədi, lakin bacarmadı: əvvələn bu onun vəliyyülnemət sandığı adamlara qarşı bir ədəbsizlik olardı, digər tərəfdən... O özü məgər musiqi eşidib, rəqs görüb sükut edə bilərdi? Bu onun qüdrətindən xaricdə olan bir şey idi... O, qollarının nə zaman yuxarı qalxdığını bilmədi... Musiqi onu öz qanadlarına alıb uçurmağa, qara badamı gözləri əllərinin ahəngilə gah sola, gah da sağa süzülməyə başladı. Nimdaş şətəl geydiyi balaca ayaqları çoxdan həsrətində olduğu rəqsin incə ahəngi ilə xırdaca-xırdaca səkdikcə, Sonanın mütənasib əndamı qıvrılıb açılırdı. Məclisdə şınqqa səsindən başqa bir səs eşidilmirdi. Hamı birdən-birə susmuşdu, sevinc, fərəh qarışıq bir heyranlıqla ortada süzən su sonasını seyr edirdi. Şahbikə xanım elə bil birdən-birə bir xəzinə tapmış, olduqca gözəl, dürdanə bir gövhər kəşf eləmişdi. Qadının koppuş dodaqlı xırdaca ağzı açıla qalmışdı. Qapı ağzına toplaşmış nökər, qaravaş xüsusi bir həvəslə Sonanın rəqsinə tamaşa etdikcə, nökərlərdən İsinin ürəyi ayrıca bir ahənglə vurmağa başladı: "Bıy, şükür sənə, Xudaya, belə möcüz olar?.. Elə bil qız deyil, huridi zalım balası..."

Sona isə süzürdü... Onun qulaqlarında çalınan nayın səsi deyildi. Bura Mahmud ağanın məclisi idi. Çalanlar Çapıq Nəcəfqulunun mahir dəstəsi idi. Şınqqa vuranlar Məleykə, Səkinə, Qəndi və Nisə idi... İndicə Qəndi, ahəngi dəyişməli olan rəqsə uyğun bir şəkildə oxumağa başlayacaq, çırtıq çalıb məclisi daha da qızışdıracaq. O qapı qənşərində gözləri yana-yana baxan da nökər İsi deyil, o Tərlandır... "Ağa Tərlan... Sənin boyuna, qəddü qamətinə, yanan gözlərinə qurban olum, ağa Tərlan! Sən nə susqun oturmusan? Həmişəki kimi əl də vurmursan, eləcə yana-yana, qovrula-qovrula tamaşa eləyirsən. Gözlərin vücudumu yeyir, baxışların iliklərimə işləyir. Elə baxma, dərdin alım, axı çaşıram..."

Birdən qızlar İsini də məclisə itələdilər... Gülüşmə qopdu, ley qanadları kimi qollarını su sonasının üstünə gərib oynamağa girişən İsinin nəfəsi elə bil Sonanın vücudunu qarsaladı. Qız ayıldı. Bütün xoş və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xoş olduğu qədər də acı, bütün yaxın və yaxın olduğu qədər də uzaq bir xəyal olan xatirələr gözlərindən itib getdi, qayib oldu... Sonanı ağlamaq tutdu; o əllərilə üzünü örtüb məclisdən qaçdı, otağı tərk etdi. İsi də, musiqisi qırılmış məclis də donub qaldı, lakin harın ağa qızlarının gülüşməsi yeni bir cürətlə canlandı...

– A... a... o külbaşa nə-oldu?..

– Gədədən qorxdu nədi? Amma nə oynayırdı!

– Day ağlamaq nöşün?

– Gədə elə cumdu qıza ki, elə bil ley cücəyə cumdu... Qorxar da!..

Şahbikə xanım məclis pozulmasın deyə, qızlara döndü:

– Aaaz... şırıqqa vurun özüm oynayacam...

Elə bil yerindən bir dağ qopdu, ləngər vura-vura qalxdı... yanında oturan qızlar "ya Allah" deyib qolundan tutdular.

– Aaz, Şahbikə xanım, ağırrığım-uğurruğum elə, yoxsa oynayanların ağırlığı üstünə tökülər, bir az da şişərsən...

Sataşan Şahbikənin bacısı arıq Çimnaz idi. Şahbikə köklüyünə yaraşan bir incəliklə ağır-ağır oynamağa başladı. Oynadıqca bacısına cavab qaytarırdı:

– Sən işində ol, ərimin ki, köklüyüm gözünə girməyib.

Musiqi çox asta-asta çalırdı, şırıqqa və fındıqça çırtmaya çevrilmişdi. Birdən Şahbikənin gözləri məclisin yuxarı küncündə oturmuş bir qadına sataşdı. Bu onun qayınxatınısı, Vəlyar bəyin arvadı Fatma xanım idi. Fatma xanımı yuxu tutmuşdu. O, başını mütəkkəyə söykəyib bərk yatmışdı, arabir "pambıq da atırdı". Şahbikə xanım çoxdan belə bir şey gözləyirdi. Gözləri ət görmüş ac pişiyin gözləri kimi alışıb-yandı, tumbul barmağını ağzına qoyub çalğıçılara sarı döndü. Musiqi zümzüməyə çevrildi. Hamı məsələni anladı. "Çillə çıxarılan gecə yatmaq olmaz", yatanı yerinəcə tikmək lazımdır. Şahbikə axşamdan bəri hər şeyi hazırlatmışdı. Çəməngül, xanımının işarəsini anladı, bir az əvvəl o, Sonanı ovundurub təkrar məclisə qayıtmışdı. Sona nisbətən qəmli də olsa, maraqla nə iş tutulacağına tamaşa eləyirdi. Çəməngül, xanımın işarəsilə iynə, sap, qatma keçirilmiş qıyıq, dəmir-dümür, kəfkir, ərsin, dudkeş, qərəz əl altında hazır nə vardısa yaxına çəkib gətirdi. Otaqda Fatma xanımın mışıltısından başqa heç bir səs eşidilmirdi. Heç kəs cınqırını da çıxarmırdı ki, yatan oyanmasın. Şahbikə xanım və Çəməngül xüsusi bir ehtiyatla bütün bunları Fatma xanımın büründüyü ağır tirmə şala bəndləməyə başladılar. Sonra şalı mütəkkəyə, mütəkkəni döşəkçəyə, döşəkçəni də iri qıyıqla xalçaya hörmə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ləyib tikmələdilər. Hamı bütün bu əməliyyatı nəfəsini içəri çəkmiş halda izləyirdi. Ömründə belə bir şey görməmiş Sona, daha böyük bir maraqla baxırdı, elə bil bir az əvvəl xəyalı qarışan o deyildi. Bəndləmələr qurtaran kimi Şahbikə əlini yerə dayaq verib durdu və çalğıçılara işarə elədi. Bayaqdan bəri Şahbikəni narın-narın izləyən, Fatma xanıma lay-lay çalan musiqi dəyişdi. Cəld, oynaq bir hava çalınmağa, bərkdən şırıqqa tutulmağa başlandı. Şahbikə əlini qulağının dibinə qoyub bərkdən hayqırdı:

– Aaz, Fatma xanım, növbə sənindi; dur oyna, dur oyna!

Məclis ağız-ağıza verdi:

– Fatma xanım, dur oyna, Fatma xanım, dur oyna! Yatma, xanım, dur oyna!

Hövlnak gözlərini açan Fatma xanım heç bir şeydən xəbərsiz gülümsədi və özünü təmizə çıxardı:

– Mən yatmamışam ki!..

O bu sözləri deyib ayağa qalxmaq istəyəndə, onunla birlikdə mütəkkə, döşəkçə, xalça da qalxmağa başladı; arvadın üstündəki dəmir-dümürün bir-birinə dəyib qopardığı səslər ümumi gülüşməyə səbəb oldu. Məclisdə bir hay-küy və gülüş vardı ki... hamıdan çox da Fatma xanımın özü gülürdü...

– Bıy aaz... ətin tökülsün, ay Şahbikə! Day bu tutkeşi niyə tikmisən, qalanı sənə bəs eləmirdi?..

Sona da gülürdü... və nə üçünsə xəyalına birdən-birə belə bir fikir gəlib soxulurdu, özündən ixtiyarsız düşünürdü: "Ah, bu adətlərdən nə gözəl rəqs quruluşu düzəltmək olar? "Dəyirmançı qoca", "Fatma xanım xoş amədi" kimi... adını da "Fatma xanım-yatma xanım" qoymaq olar. Tamaşaçılar elə xoşlanar, fərəhlənərlər ki... Amma... eh..." Bu "eh" onun ürəyini yandıran bir ah kimi dodaqlarını qarsaladı.

Gülməkdən gözləri yaşarmış Şahbikə, Sona və Çəməngül ilə birlikdə qayınxatınısına dəmir-dümürdən azad olmaqda kömək edirdi. Çillə gecəsinin ən maraqlı oyunlarından biri də budur. Bundan sonra "Motal-motal", "Əlüstə kimin əli" "Başmaq təpmə" və sairə oynayacaq, səhərə kimi müxtəlif əyləncələr düzəldəcəkdilər. İndi isə Fatma xanım tikiş bəndlərdən azad olub, cəza olaraq gözəl bir rəqs oynamalı idi... Fatma xanım oynadıqca qaravaşlar tör-töküntünü yığışdırıb, nimdərləri sahmanladılar. Onlar ikinci yemək süfrəsi üçün hazırlıq görməkdən ötəri otağı tərk etdilər. Bayırda çovğun kəsmiş, hava yumşalmışdı... İsi səkinin üstündə Çəməngülü yanladı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Çəmən, sən dədənin goru, bilmədin Sona niyə ağladı?
– Nədən bilim, ədə, ürəyindəyəm?
– Soruşmadın da?..
– Soruşdum...
– Demədi?
– Dedi sənə nə, demədi sənə nə!.. Yeri kababları şişdən çək, aşpaz tökdi.
– Bax, Çəmən, dədəmin goru haqqı, əgər məniynən onun arasın düzəltsən, sənə Şirvandan lap xanımınkı kimi bir "güllü yaylıq" alıb gətirəcəm...
– Bıy, qadam ağzına! Elə mənim xanım kimi "güllü yaylıq" örtməyim qalıb ki, sonra da düşüm itin-qurdun dilinə. Desinlər ağa alıb ona. Adıma olmazın söz çıxartsınlar... Şahbikə xanımın çənginə düşəm...
– Neynək, nə deyərsən onu allam...
– O ayrı söz... Amma ara söhbəti heç olmaz, o elələrindən deyil ha!.. Axlında yaxşı saxla! Elə təmiz ürəyi var ki, gül kimi qızdı, başı aşağı... Yazığın amma nə nisgili varsa, heç üzü gülmür. Allah irasta sala, xoşbəxt ola...
– Elə mən də onun xoşbəxtliyin istəyirəm, Çəmən. Nənəm canı, düşəcəm ağanın ayaqlarına – istəyəcəm, versin! Allahın əmriynən istəyirəm; mən ki, pis bir şey demirəm...
– Nə bilim vallah, mən özünə deyorəm... amma bu indinin söhbəti deyil, İsi! Get işini gör, xanım kələyimizi kəsər yoxsa...
Çəməngül süfrə, dəsmal, əl suyu hazırlanan otağa keçdi. Sona burda tək idi, ağlamırdı; amma fikir dəryasına qərq olmuşdu. Elə bil əzizi ölmüşdü, ağlayıb gözünün yaşını qurudub qurtarmışdı, böht[1] içində quruyub qalmışdı. Gördüyü işləri də fikirləşmədən, nə elədiyini bilmədən elə belə görürdü...
– Sən Allah, Sona, sənə nə oldu bayaq elə?
Sona diksindi, elə bil xəyalından keçənləri kiminsə duya biləcəyindən qorxdu, xəfifcə gülümsədi. Gözləri hələ də fikrindən, təhəssüründən xumar ikən dilləndi:
– Heç... bir yaxşı oynağan qız dostum vardı, elə gözəl oynayırdı ki, o yadıma düşdü...
Çəməngül qaqqıldadı:

---

[1] Heyrətdən donub qalmaq, fikrə cummaq.

– Ay səfeh, heç səndən də yaxşı oynayan tapılar? Hamının gözü səndəydi ki... işə bir bax... hamı onu tərifləyir... bu da başqasını yadına salır...

– Yox... ona görə deyil, o ayrı cür oynardı...

– Yaxşı, dayı bundan ötəri ağlamaq neyçün?

Sona nə düşündüsə birdən dedi:

– Mənə oynamağı o öyrətmişdi...

– Deyərəm sağ olsun, Allah bəxtəvər eləsin, dayı niyə ağlayırsan ondan ötrü...

Sona yenə də nə düşündüsə aram-aram dilləndi:

– O qız ölüb...

Dalını gətirə bilmədi. Çəməngül Sonanın dostunun ölümünü yadına salmağını vəfalılığına yozdu:

– Belə de! Allah irəhmət eləsin, ömrünü istəyənlərinə versin...

– Ömür var idi ki... Olsaydı özü yaşardı... Nakam ölməzdi... Arzısı gözündə qalmazdı...

Çəməngül Sonaya ürək-dirək, təsəlli verməyə başladı, qorxurdu ki, Sona yenə ağlar, iş yarımçıq qalar, xanımın danlağında qalarlar.

– Neynəmək olar, Allah hamımızın alnına nə yazıbsa o olacaq...

Bu gecədən sonrakı hadisələr çox sürətlə cərəyan etdi. Bir gün Şahbikə əri Əlyar bəyə belə bir xəbər verdi:

– O gecədən sonra gedələr bu batmışdan ötrü bir-birini yeyib tökür.

– Nə gədə, nə qız, nə gecə? Şahbikə, sən mənə hər şeyi əməlli danış, min dəfə demişəm ki, yarımçıq məramnan aram yoxdu.

Şahbikə Sona fəqərəsini ərinə danışanda, qızın çillə gecəsində necə gözəl oynadığını, onsuz da nökərlərdən Sonanı istəyənin çoxluğunu, indi bir neçəsinin az qala dəli-divana olduğunu ərinə anlatdı. Əlyar bəy Sonanın kimliyinin hələ də burada məlum olmadığına sevindi, lakin bu rəqs məsələsi yayılsa, işin üstü açıla bilər. O öz dostu Mahmud ağanın təkidlərinə, ricalarına qarşı dura bilməmiş, çəngini evinə almışdı. Lakin hər halda bu işin üstünün açılmasını istəmir, evində çəngi saxladığını şəninə sığışdırmırdı. Ata və qardaşları ilə arası pozulardı. Ətraf qohum-əqrəba da onu danlardı. Ən yaxşısı budur ki, Sonanı ərə versin. Yaxşı, bəs Mahmud ağanın məsləhəti olmadan necə olsun? Bir də o nə deyəcək axı?.. Ömründə bir çəngi üçün açılmayan, gözəl bəxtdir. Qoy ev-eşik sahibi olsun, can sahibi Sonadı, çağırtdırıb özündən soruşaram.

Qismən açıq fikirli bir adam olan Əlyar bəy, zor sevməyən bəy kimi tanınırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Şahbikə, – dedi, – bu can alveridi. Sonanı çağırtdır, gədələrdən hansını məsləhət bilirsən, hansına özünün də meyli varsa, verim, getsin. Söz-sov da qurtarsın, qan-qada da...

Şahbikə xanım Çəməndən eşidib bildiklərini tutuşdurandan sonra ərinə dedi:

– Mən İsini məsləhət bilirəm.

– Sona özü də razı olsa, mən bir söz demirəm, Allah xeyir versin, çağırtdır mollanı, kəsdir kəbinlərini...

Küdrünün üstünə bu gün allı-əlvanlı, sarılı-qırmızılı bir aləm günəş şüaları ələnir. Nə duman var, nə də çən. Küdrü bu gün gəlinlik donuna girib. Elə belə də olmalıdır. Mənə nə üçünsə həmişə belə gəlir ki, aşığın, xanəndənin, rəqqasənin toyunda həmişə gün çıxmalı, təbiət əlvan rəngə boyanmalı, çaylar zümzümə etməli, quşlar oxumalı, ağacların yarpaqları, otlar və çiçəklər də rəqs etməlidir. Niyə? Təbiət elə bil ki, bayram etməlidir, çünki o bu gün özünün ən gözəl, sevimli, təbii övladlarından, xilqətlərindən birini məhəbbətə qovuşdurur, yeni həyata qədəm qoyduğu bir gündə ona nəğməxan olur... Axı elə rəqqasə, xanəndə, aşıq da quşlar kimi, çiçəklər kimi təbiətin zərif, nazəndə övladıdır. Belə bir gündə təbiət susa, qaşlarını çata bilərmi? Əsla, əbədən... Küdrüyə endiyimiz bu gündə təbiət məhz belə bir bayram eləyir. Bu gün Sonanın toyu oldu. Əziz dost, Sonanın toyu! Amma necə toy? Gəlinin qənşərində yengə Əzizbikə oturub gəlinin üzünü almadı, əyninə zər-ziba, hacı Sadıq işi qanovuz, məxmər, Şirvanın adlı ipəyindən, tirmədən paltar tikilmədi. Kömbə Şahbikə xanımın nimdaş tumanından Sonama iki dizlik çıxdı. Amma bu nimdaşdan təzələnmiş gəlinlik libasında da Sona elə cazibədar görünürdü ki! Onun məlahətini qələmə almaq üçün Seyyidin qələmi, Knyaz Qaqarinin fırçası, Tərlanın ürəyi gərək idi... hardasan, harda, Tərlan? Gəl, duvaq altında canlar alan gəlininə tamaşa elə! Sevdiyini toy pərdəsi altında gərdəyə aparırlar... hardasan, Tərlan, harda?!

Ucuzbasər toy idi, bu toy. Şirvanın adlı toylarını eləyən xanəndə, nəvazəndə, çəngi dəstəsi gəlməmişdi... Şahbikə xanımın qulluqçularından ikisi Çəmənlə Yetər mis teşti dizlərinin üstünə çevirib çalırdılar. Teştin üstünə salınmış gümüş ətəklik cingildədikcə qulluqçu qızlar, nökərlər, qol açıb oynadılar, arada bekarçılıqdan harınlamış bəyzadə qızlar, yeyib yatmaqdan yağlı kömbə kimi şişmiş Şahbikə də oyuna qoşuldu. Sona isə bütün bunlara biganə kimi, boş, nisgilli bir ürək, sınmış, nakam qəlblə, ağrılı-acılı könüllə oturmuşdu. Onun gözləri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

önündə tez-tez irəli gün olmuş bir hadisə canlanırdı. Bir gün əvvəl Şahbikə xanım və Əlyar bəy onu otağa çağırmışdılar. Söhbətə Əlyar bəy özü başlamışdı:

– Sona, Şahbikə bəyim səni İsiyə vermək istəyir, Allahın əmri, *peyğəmbərin şəriətilə... sən nə deyirsən?*

Əlyar bəy duruxdu. O, Sonaya diqqət elədikcə bir zamanlar Mahmud ağa məclislərində gördüyü çəngi-rəqqasə qızı gözləri önündə canlandırdı: "A bədbəxt, necə də düşmüsən... nə günə qalmışsan? Nə qəribə bəd taleyin var sənin. Amma mən biləni hələ bu yaxşıdı".

– Doğrudur mən cənab Mahmud ağa ilə məsləhətləşməliyəm. Amma özün bilirsən ki, indi burdan ora xeyli yol var, gedib-gələn yoxdu, iş-güc vaxtı tərəddüd azalıb...[1]

Sona dərin-dərin düşünür, qəlbinin gözü ilə gördüyü əziz bir xəyalı nəzərlərindən qovmağa çalışırdı:"Sən haqlısan, bəy, bəyim də haqlıdır. Mən bundan artıq nə kimi qismətə layiqəm? Hələ bu da çox-çoxdu və böyük səadətdi ki, mənə nəsib olur. Hansı bir çənginin öz evi, öz əri, övladı, halal çörəyi ola bilər? Bunlar camaatın gözündə elə bir nemətlərdir ki, hər mənim kimiyə nəsib olmaz... Yazıq Əlyar bəy, gör bir nə çətinliknən deyir sözləri? Axı Şahbikə bəyim mənim kim olduğumu bilmir, ona görə də... Yaxşı, ağa, qoy tale nə yazıb o olsun..."

– Məni bağışla, Şahbikə bəyim, – deyə o, bəyə deyil, bəyimə müraciətlə sözə başladı. – Mən başa düşürəm. Allah kimin alnına nə yazıb o olacaq, mən vəliyyulnemətimin bir sözünü iki eləyə bilmərəm, nəkarayam ki... Mən biləni cənab Mahmud ağa da sizdən razı qalar ki, məni bir təhərrik eləmisiz... – Onun boğazı qəhərləndi, əyilib Şahbikə bəyimin əlindən öpdü. Məsələnin nə yerdə olduğundan bixəbər Şahbikə, bütün gombullara məxsus bir həlimliklə çarğat üstündən Sonanın başını tumarladı:

– Hələ yaxşı baxtdı, aaz! Allah axır günüvü xeyir eləsin! Bəy də, mən də sənə pis yön qurmarıq. Arın-arxayın ol... Özümün də gözüm üstünüzdə olacaq. Hələ bu qapıda dolanacaqsız, o da, sən də... Neyşə ağlayırsan? Hələ qızların xesyətidi, ər adı çəkiləndə gözlərinin qorasını axıdarlar. Bəsdi, ürəyimi kövrəltmə...

– Xoşbəxt ol, Sona! Mən cənab Mahmud ağaya da yazaram ki, səndən nigaran olmasın. Sən onun zəhmətinə xor baxmadın. Hörmətini burda yaxşı saxlamısan, dolanışıqda da, işdə-gücdə də...

[1] Burada: gediş-gəliş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sona eyhamları yaxşı başa düşürdü, ona görə də qərarında bir az da möhkəmləndi.

O bir anlıq özünü unudub bilavasitə Əlyar bəyə müraciət etdi:

– Bəli, ağa, sizə də çox başağrım dəyib... halal eləyin çörəyinizi.

– Bıy aaz, ölmürsən-itmirsən, uzaq səfərə çıxmırsan, halallaşmaq neyşə?

Sona da, Əlyar bəy də Şahbikə bəyimin sadəlövh, bixəbər sözlərinə əhəmiyyət vermədilər:

– Hə, başına dönüm, Şahbikə bəyim, bəy, cənab Mahmud ağaya kağız yazanda yazsın ki, daha məndən sarı nigaran olmasın. Bundan sonra daha əziyyətim dəyməz, zəhmətini, çörəyini halal eləsin... – deyə o, yenidən özünü ələ alıb bəyimə müraciətlə ürəyinə yığılanları söylədi. Əlyar bəy bu halallıq istəyən sözlərdə elə bir acı kinayə, əzab, ürək ağrısı duydu ki, "əlbəttə, İsi onun tayı deyil, bunu özü də bilir; amma düşdüyü ağır vəziyyətdən belə üzüsulu qurtarmaq, həm də Mahmud ağanı qayğıdan xilas edib, bizim də xatirimizi qırmamaq üçün bu nikahı qəbul eləyir vallah... Çarəsi yoxdur... Əgər bu qisməti rədd eləsə, bir zaman haqqındakı söz-sovun üstü açılsa... Bəli, o bunlardan qorxur... Çəngi adı ilə bir də çöllərə düşməyindən qorxur... bəli..." – deyə düşündü və "nə olacaq-olacaq... qərəz ki..."

– Nə olacaqsa... Allah hər ikinizi xoşbəxt eləsin... Sən də, o da bu evin həmişə balaları olacaqsınız...

Sonanın gözləri doldu: "Nə yaxşı, Şahbikə bəyim kimi... Bir tikə çörəyiniz olacaq demədin, bəy! Bala dedin mənə... axı sən ki, mənim kim olduğumu bilirsən... Allah səndən razı olsun..."

O bir də əyilib Şahbikə xanımın əlindən öpdü:

– Çox sağ olun, Allah sizdən razı olsun, bəyim...

– Di yaxşı, gözümü yaşartdın, ay urvatsız... Di dur get Çəməngülə de ki, gəlsin yanıma, bir para hazırlığım var...

...İndi isə Sona gəlin gedirdi... Dörd əkabirin tutduğu pərdə altında, nimdaş paltarda belə sultan saraylarının inciləri kimi gözəl görünən o gəlin Sonadır! Sənin ilham pərin, pərilər soltanıdır, şairim, gəl, gəl də hüsnünə min-bir qəzəl qoş!.. Xar olmağa qoyma!.. Bəs sən hardasan, Tərlan? Dörd əkabirin tutduğu pərdə altında gedən gəlin sənindi, axı!.. Gəl, başlıq ver, süd pulu ver, məşşatəyə bəzək pulu ver... Hardasan Tərlanım, harda? Bir neçə gün ilhamına qanad verən gözəli səndəmi tanımırsan, cənab Qaqarin? Axı onun incə rəqslərini gözlərində, mütənasib əndamını, rəngin geyimini, unudulmaz simasını albomunda soyuq şimala



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir atəş, bir qığılcım kimi aparmış, nazəndə rus gözəllərinə Şərqin, qoca təbiətin ən rəqiq ecazı kimi təqdim etmisən! Gəl, bu günündə də bax bir, bəlkə elin bu sadə gözəli səni daha yeni əsərlər çəkməyə ruhlandırdı!!!

Əziz dost, onlar yox, sən isə varsan, sən ki, görürsən Sonamı? Gəl tələsib burdan uzaqlaşaq, bulud olaq, elin bir parça çörək avarası şairinin, Seyyidin başının üzərinə uçaq, onu gündən kölgələndirək, kəndləri gəzib bura gələcək... Gec də olsa pərilər soltanının görüşünə çatdıracaq özünü... Vəfalı şairim...

Seyid Əzimin yorğun yabısı Ərəbçəltikçiyə indilərdə çatar. Məsələ də bundadır ki, Ağa vaxtında buralara yetişsəydi, onun yortağ yabısı, elə özünün xəyal səməndinin sürətində olsaydı, bəlkə də gəlib Sonanı subay görərdi. Bəlkə də Tərlanın gözəli şairin "pərilər soltanı" adlandırdığı Sona, qismətinə çatardı. Lakin bu qismət heç də Sonanın deyildi, əks halda, hicran olmasaydı, ayrılanlar qovuşsaydı, onda zəmanə, zəmanə olmazdı... Onda seyidlər dünyanı "qəm dəryası" adlandırmaz, hamı kamına çatar, xoşbəxt olardı. Məgər belə şey mümkündürmü? Gəlin başqa bir zamana tələsməyək! Elə gəzdiyimiz o dövrün, tanış olduğumuz o insanların qismətinə boyun əyək. Bizim üçün ağır olsa da, onlar üçün çətin olub. Başqa çarəmiz yoxdur. Qocalar belə hallarda "əlhökmlillah" deyərdi.

...Otaqda ikilikdə oturmuşdular. Əlyar bəy söhbəti nədən başlayacağını bilmirdi. Elə şair də, Əlyar bəy Mahmud ağanın məktubunu oxuduqdan sonra xəyala dalmış, Sonanın qəribə taleyi onu çox dərin-dərin düşündürmüşdü: "Nə bəd tale, nə qəribə macəralı övrət imiş bu yazıq". Sonra xeyli fikirləşməsinin Ağa tərəfindən nalayiq pozulacağını düşünüb sözə başladı:

– Ağa, çox hayıf ki, bu xəbəri cənab Mahmud ağadan gec aldım. İndi əlimdən bir şey gəlməz. Sona artıq nə mənə, nə də özünə məxsusdu. Allahın əmri, peyğəmbərin şəriəti ilə o, mənə xeyli yaxın bir adamın övrətidi... Vallah, elə çətin əmrə buyurub məni cənab Mahmud ağa ki, qorxuram əlimdən bir şey gəlməyə və adım yarıtmaz qala.

– Xeyr, xeyr, xuda nəkərdə! Cənab Mahmud ağa elə adam deyil! Cənabınıza da məlumdu ki, o hər şeyi layiqincə qiymətləndirməyi bacaran, nəcib insandı...

Əlyar bəy cəld dilləndi:

– Bilirəm, ağa, amma kaş əvvəldən, ya heç olmasa bir neçə ay əqdəm bileydim, bəlkə də bu evlənmənin qabağını alardım... – O bir

qədər sükut etdi və sonra yenidən sözünə davamla dedi: – Yox, deyəsən onda da əlimdən bir şey gəlməzdi. Onun da görünür Allah yazısını belə yazıbmış... İndi vallah, heç bilmirəm nə tövr eləyim?..

O yenə də xəyala daldı: "Birdən xuda nəkərdə, cənab Mahmud ağa və şair elə xəyal edərlər ki, mən də bəzi namərbut bəylər kimi Sonanı özüm tora salmışam və indi də necə deyərlər sahibinə qaytarmaq istəmirəm. Əmanətə xəyanət eləmişəm. Yox, bunu belə qoymaq olmaz! Ağa məndən incik və Sona sarıdan nigaran getməməlidi".

– Ağa, hərçənd ki, indi o, özgənin övrətidi, naməhrəmdi: mən bir növ onu çağırtdırram. Burda söhbət eləyin və əsil həqiqəti öz dilindən eşidin. Yoxsa sizdən sonra ürəyim həmişə səksəkədə qalar ki, siz onu görməmiş getdiz. Doğrudur, onun əri mənim nökərimdi, amma mən o ağalardan deyiləm ki, nökərin canına və halalına da özümü sahib eləyim. İstəmirəm ki, nökər də olsa, onun kişi şərəfi mənim tərəfimdən qırılsın və o məndən incisin, şübhələnsin...

Seyid Əzim özündən xeyli bədgüman danışan Əlyar bəyi sakitləşdirmək üçün dilləndi:

– Allah eləməsin, məgər cənab Mahmud ağa layiqincə tanımasaydı, sizə belə etibar edərdi?

...Sona mətbəxdə xəmir yoğururdu, xınalı əllər sarıbuğda unu içində suyu qarışdırdıqca, təzə-təzə yumurlanan xəmir parçacıqları barmaqlarının arasından çırtlayıb yerə sıçrayırdı. Sona fikirli-fikirli bu, hələ tam xəmirləşməmiş çırtdantılara baxdıqca düşünürdü: "Kimin əlində xəmir çırtlayırsa, əri o bəxtəvəri çox istəyir" deyirlər, mən də o bəxtəvərlərdənəmmi?" Əri İsinin şəkli gözünün önündə canlandı, lakin bu elə boz dumanlı bir şəkil idi ki, gəlin onun çiyninin ardından başqa bir xəyalı, əziz, doğma bir cavanın üzünü aydın görürdü, bu, Tərlanın sevimli gözləri idi... O, bu surəti ürəyinin gözlərilə seyr etdikcə "kaş məni istəyən sən olaydın, onda bu xəmirlərin çırtlamasına nə sevinib gülərdim..." deyə də bilmədi. Gözləri yaşardı, gilələnib xəmirə dama bilən bu yaşları, gəlin, unlu əlinin dalısıyla sildi, alnına, yanaqlarına kirşan kimi un yayıldı.

O, gözlərini dumanlandıran yaşları silib qurudandan sonra, yeni bir qüvvət və hikkə ilə xəmirə soxuldu, dərindən köksünü ötürdü, yumruqlarını tabağa qüvvətlə vurmağa başladı. Elə bil şirin olduğu qədər də acı bir xəyalı, doğma olduğu qədər də uzaq bir hissi qəlbindən, baxışlarından qovub uzaqlaşdırmaq, ağır bir yükü çiynindən əllərinə keçirmək istəyirdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Əlyar bəyin kənizi Çəməngül içəri girdi.

– Aaz, Sona, ağan səni içəri otağa çağırır.

Sonanın sual dolu baxışlarını tutan Çəməngül davam etdi:

– Bilmirəm neynir səni, xanım dedi: "Xamır eləyir". Dedi: "Qoy Çəmən gedib eləsin, o gəlsin..." Dur əllərini yu, üstünü qaydaya sal. İçəridə deyəsən yad qonaq var... Deyirlər Şirvandan gəlib, seyiddi.

Sonanın dizləri qırıldı, ürəyi atıldı, taqəti kəsildi, dura bilmirdi. Yerini qollarını çırmayıb yoğurmağa hazırlaşan Çəməngülə verdi, gen, qırçın tumanının balağı ayağının altında qaldığından yıxıla-yıxıla qalxdı: qapının cəhəngindəki qara aftafanı alıb əllərinin xəmirini yumağa başladı: "Xudaya-xudavənda, görəsən Ağa nə xəbərlə gəlib?.. Sən özün mənə xeyir əli uzadan Seyidi bəlalardan hifz elə, ilahi!.. O bədbəxti də... Mən yazığı da... Sən özün o cavandan yana mənə bu gün bəd bir xəbər verdirmə, ilahi! Yəni bəd xəbər olseydi, bunu cənab Ağa mənə nə üçün gətireydi? Görəsən bəlalı başımın daha nə bəlası var? Amma mən Seyyiddən bəd xəbər gözləmirəm! Bununla belə, ürəyim elə çırpınır ki... Elə bil ürəyimə damıb ki, ondan nə isə eşidəcəyəm... Özü də iş işdən keçəndən sonra... nə fayda... çifayda?"

O, əlini döyünən ürəyinin üstünə qoydu. Gəlinin əli boynundan sallanmış qara qaytana bağlı bir pitiyə toxundu. Bu, Seyyidin yadigarı idi, Sonaya yazdığı qəzəl və yeganə rübəru görüş zamanı verdiyi qızıl gül!.. Bədbəxt Sonanın ilham pərisi olduğu illərin yeganə yadigarı. "Ağa, elə bilirəm ki, bu bir müqəddəs duadır, məni afətlərdən qoruyacaq! Bir sənəddir ki, gərəyim olsa kimliyimi (nəyə lazımmış zarə?) sübut eləyər və onu görənlər Ağanın dəst-xəttini tanıyıb mənə toxunmaz, insan hesab edib, yardım əli uzadarlar... Bu sənin yeganə yadigarındır, Ağa! Mənim səadətimə bu qədər yaxın olduğum, sevildiyim günlərin yeganə yadigarı..."

Sona bu sözləri düşünə-düşünə otağından çıxdı və biruna tərəf yollandı...

...Otaqda ikisi qalmışdı. Dəxi heç kəs yox idi. Sona sadə, nimdaş paltarında belə mütənasib görünən əndamı ilə nəzəri cəlb edirdi. Yaşmağını yuxarı qaldırmış, alnını çəkmişdi; amma yaşmaqla cutqu arasından şairə bir cüt göz dikilib durmuşdu. Məxmər kimi yumşaq olan bu gözlərin hər giləsində bircə damcı şəbnəm titrəyirdi. Bu gözlər şairin ürəyinə işləyirdi, bu lal baxışlardan şair min bir qəzəl, min bir nakam məhəbbət əfsanəsi, min bir hicran aləmi oxuyurdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gah gözüm əhvalına könlüm qılır fəryadlər.
Gah könlüm dərdinə suz ilə giryandır gözüm.

...Bu gözlərdə elə bir sızıltı, elə bir şikayət, elə bir nigarançılıq var idi ki... "Nə xəbərlə gəlmisən, Ağa? Cəddinə qurban olum, genə başımda hansı dağın dumanı çaxnaşma quracaq, hansı gədiyin ildırımları şaxıyacaq, hansı dərənin selintisinə qatacaq məni, zalım fələk? Cəddinə qurban olum, yesirin olum, Ağa, desənə, dillənsənə! Ürəyimi niyə nigaran qoyursan?"

– Minasoltan nə təhərdir, Ağa?

– Şükür Allaha, sağ-salamatdı, sənə salam-duası var.

– Dua göndərən də sağ olsun, gətirən də...

– Günün necə keçir, Sona?

O, bir zaman sevdiyi, elə indinin özündə də hər qəzəlinə bir ilham mələyi saydığı Sonanı bu nimdaş dizlikdə, əskimiş cutquda görəndə ürəyi əzilirdi. "Hanı sənin gül yarpağından zərif dodaqların? Qumral saçlarına dənmi düşüb, Sona? Al yanaqlarının burnuna yaxın səmtinə, alnına taleyin qoyduğu o izlər, cığırlar nə tez dəriniyib? Hər qol götürəndə yüz qul, əsir qazanardın, nə qoydu tale səndə? Tərlanın canına yanğı salan gözəl, bu qərib diyarda necə keçinirsən?"

– Şükür Allaha, pis keçinmirəm, Ağa! Allah bəyin də, Şahbikə bəyimin də ömrünü uzun eləsin...

Sonanın bir ev qulluqçusu ifadəsilə danışması, onu sıxdı, sözü dəyişdi:

– Deyirlər nikah eləmisən, xoşbəxt olasan, Sona!

Gəlin qıpqırmızı qızardı, utandımı, qəzəbliydimi, şair bilə bilmədi.

– Ola bilsəm... bilməsəm də nə siz, nə də cənab Mahmud ağa məndən sarı bir pis xəbər eşitməyəcəksiz. Mən, mənə atalıq eləyənlərin, xüsusilə cənab Əlyar bəyin zəhmətini, hörmətini heç eləmərəm...

– Mən o babətdən demədim, Sona! Mən doğrudan da sənə xoşbəxtlik arzulayıb bura gəlmişəm... O vaxt mən əməlli bilməmişəm, dostum ağa Tərlan sənə meyil bağlayıbmış...

Sona diksindi, amma dərhal başı köksünə endi, üzünün qızartısı bir az da artdı.

– Budu, bir neçə müddət bundan qabaq, Eşqabaddan mənə kağız yazıb, səni xəbər alıb. İndi mənim də yolum bu yana idi, Ləngəbizdə taxıl alacağım var idi, ora gedirdim, dedim bir gəlim dəyim sənə. Elə anam da tapşırmışdı. Cənab Mahmud ağanın da cənab Əlyar bəyə kağızı vardı. Gəldim görüşəm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Can, danışan dilinə qurban olum, Ağa! Deməli Tərlan ağa sağdı, çox şükür pərvərdigara, sağdı! Ay Allahı sevən, niyə mən bu şad xəbərə sevinə bilməyim? Niyə dama çıxıb bar-bar bağıra bilmirəm ki, ay el, ay camaat mənə gözaydınlığı verin, Tərlanım sağdı! Məni xəbər alıb, məni unutmayıb! Dünyanın bir tərəfində məni də yadına salan var! Ay el, ay oba, mən də xoş xəbər eşidərəmmiş!.. Məni də yada salarlarmış!.. Mənə gözaydınlığı da vermək olmaz, mən kiməm ki?.. Mən heç sevinə də bilmərəm, sevdiyimin adını çəkə də bilmərəm. Aylarla, illərlə yolunu gözlədim, səssiz-səmirsiz! Aylarla, illərlə intizarını çəkdim, ahsız-ufsuz! Adını dilimə də gətirə bilmədim, ürəyimdən də keçirməyə qorxdum. İndi isə heç nə deyə bilmərəm, sevinə də bilmərəm, mən özgənin arvadıyam..." Ağa danışdıqca bütün bunlar onun ürəyindən elə bir sürətlə keçdi ki... qəlbini ildırım kimi yaxıb-yandırdı bu sözlər... Amma düşüncələrinə də qəfil ildırım kimi sürətlə son qoydu; dedi:

– Ağa!

Yolum düşdü Garısa[1]
Söylə sözün varısa,
Beş günüm sənə qurban,
On gün ömrüm varısa.

Mən indi özgənin külfətiyəm, Ağa, Tərlana bu bayatını da oxuya bilmərəm. Sən istəyirsən ona yaz ki, mən ölmüşəm. Ya da məni elə ölmüş bilsin. Əvvəlindən bitməyən, axırda bitərdimi? Mənimki əzəldən elə gəlmişdi, mən xoşbəxt ola bilməzdim. O da ki, cavan ağanın ürəyindən keçən ola... Mən onun bədnam olmağına razı olmazdım...

Getmişəm elüvüzdən,
Nə gələr əlüvüzdən,
Olmuşam bir yaşılbaş –
Uçmuşam gölüvüzdən.

"Sən bayatıynan danışırsan, Sona! Yanan ürəyini bu şəbnəm kimi incə və parlaq misralarlamı soyudursan? Elin şair ürək qızları qoşandımı, ya dərdin dillǝndirir səni, ay Sona? Şirvan bulaqlarından su içmisən, Şirvan sənətkarlarıyla oturub-durmusan, saz-söz, rəqs pərəstişkarı olmusan. İndi dərdini bayatılarlamı sızladırsan? Sənin dərdlərinin tərcümanıdımı onlar, Sona?" – deyə düşündü.

---

[1] Ağsu rayonunda bir neçə kəndin keçmiş ümumi adıdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Ağa Ərəbçəltikçidən bikef qayıtdı. O, dostuna yardım edə, onun səadəti üçün bir şey eləyə bilməmişdi. Bütün yol boyu öz-özünü danlamış, gecikdim, çox gecikdim, qədərsiz-qəsəmsiz gecikdim... Əsrin Leylasının zəmanənin Məcnununa yetirə bilmədim. Bilə bilməzdim də! Əks təqdirdə dövran, dövran olmayaydı gərək. Cəfa kimə düşərdi bəs? Gecikdim, çox gecikdim – sözləri nəqərat kimi, təzə qoşulan bir qəzəlin misraları təkin mütəmadiyən qəlbində səsləndi. Şirvana çatanda hadisələrin çoxluğu və sürəti onu elə aldı ki, Tərlana məktub yazıb Ərəbçəltikçi səyahətinin nəticələrini bildirə bilmədi.

Biz də onunla birlikdə Sonadan ayrılaq, elin bu nazəndə mələyi ilə bir də görüşmək bizə və Ağaya nəsibdirmi, deyilmi onu kim bilir? Həm də axı indən belə Sonanın Ağanın həyatında nə kimi rolu ola bilər? O, başqasının külfətidir. Vəssalam! O, Ağanın həyatından birdəfəlik uzaqlaşdı... Bu zəngin xəzinədən tək ikicə qəzəl, bir də öz ömrü kimi erkən solub xəzələ dönmüş bir qızıl gül apardı... Onun yalnız əzəli gözəlliyi və sənəti Seyyidin ilhamında zaman-zaman büruzə verəcək... Bir də bəlkə həyatının başqa dövründə görüşmələrinin şahidi olduq...

...Gəlin biz də Ağa ilə birlikdə qazan kimi qaynayan Şirvana qayıdaq. Görək tale qəhrəmanlarımıza nə hazırlayır?

## MÜSƏLLA

Çoxdan bəri yağış yağmırdı. Firuzəyi ənginliklərdə ovuc içi boyda bir bulud parçası görmək ümidilə göylərə dikilmiş gözlər yorulmuşdu. Şirvanın, Şamaxının münbit torpağı amansız günəşin yağı kimi yandıran şüaları altında qurumuş, parça-parça olmuş, qaysaqlanmış, kəsəyə, qaxana dönmüş, sonra da un kimi əzilib, toz kimi havaya sovulmuşdu. Torpaq ayaqlar altında elə yumşalmışdı ki, vala ələkdən əttar Meşədi İrzaqulunun ağrılı gözə tökməyçin əzib Basqal kəlağayısından keçirtdiyi qənd tozuna dönmüşdü. Əkinlər yanmış, bağlar qorsalanmış, arxlar qurumuş, çaylarda gicoların dibindəki qaxalar görünməyə başlamışdı.

Xalq əlamanda idi. Hər yerdə: toyda, vayda, hüzür yerində, çayxanada, bazarda, məsciddə, hamamda... söhbət nurani qocaların belə xatırlamadığı dəhşətli quraqlıqdan gedirdi.

Quraqlıq xofu şəhərin görkəmini elə dəyişmişdi ki, heç bundan əvvəl baş verən zəlzələlərdən də geri durmazdı. Hamı yanırdı. Bu təkcə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

susuzluq dərdi deyildi. Eşşəklə məhəllələrə su daşıyanların böyründə elə bir növbət olurdu ki... Su, qan bahasına çıxmışdı. Yaxın çaylarda gicolar belə qurumuş, dəvə daşları adlanan nəhəng qaxalar üzə çıxmışdı. Bu qaxaların dibindəki azurğu sular lilə, batdağa dönmüşdü. Qurbağalar bir-birinin belinə minib özlərini bu lilə soxurdu. Çaylardan su gətirmək, paltar-palaz yumaq mümkün deyildi. Suçular, saqqalar, eşşəkçilər suyu uzaq yollardan, Muğan bulağından, Pirquludan, Zoğallıdan gətirirdilər. Oralarda da bulaqların çoxu qurumuş, ən sulu bulaqlardan indi çöp incəliyində nazik su şırıldayırdı, onların da altından güyüm, səhəng, sərnic əskik olmurdu. Səhərin gözü açılmamışdan doldurulan güyümlər evlərin qənşərinə çatanacan, buz bulaq suyu az qala qaynayıb qana dönür, dadını-tamını da itirirdi. Amma hər halda su vardı. Alıb sənəklərə, sovçalara doldurur, rütubəti qurumağa başlamış zirzəmilərdə küncə basdırır, bir az soyudan təhər eləyib içirdilər... hər halda su vardı... Ən dəhşətlisi çörək dərdi idi. Bazarda buğda, un deyənin dilini kəsmək olardı. Az qala unu tirmə kimi, qızıl kimi misqalla satırdılar. Arpadan, darıdan, lobya-noxuddan nə ələ keçsə, çörək əvəzinə yeyilirdi.

Minasoltanın dərdi dərdlərin hamısından böyük idi. Ağa bir neçə gün əvvəl Bicova getmiş, hələ qayıtmamışdı. Orda Səlim bəy ona dən söz vermişdi. "Görünür düzəlməyib, yolunu başqa yerə salıb, fağır balam, külfət yanına əliboş qayıtmaq istəməyib".

Ceyran mətbəxdə axırıncı lobya ehtiyatını qaynatmaqla məşğul idi. Mircəfər hələ məktəbdən qayıtmamışdı. Həcər azurğu ev işlərini görməkdə anasına kömək edir, Ayişə-Fatma beşikdəki Seyid Osmanı yelləlirdi. Minasoltan uşaqların üzünə baxdıqca ürəyi oycalandı. "Yazıq Ceyran, fağır uşaqlar, elə bil üzlərinə zəfəran çəkilib. Neçə gündü dillərinə çörək dəymir. Lobya-noxud haçanacan davam verər? Mircəfərin gələn vaxtıdı, nə verəcəm uşağa, a gözə görünməz Tarı?.."

– Ceyran, hardasan, ac... – bu Mircəfərin səsi idi. O artıq iri oğlan idi, var-yox bilirdi, vəziyyət yadına düşcək tez səsini qısdı.

Arvad nəvəsini qarşıladı:

– Ceyran mətbəxdədi, bala, lobya bişirir. Bir az gözlə, indi verər, yeyərsən.

Oğlan kitab və dəftərlərini yığdığı heybəsini taxçaya atıb həyətə çıxdı. Qapının çaxçaxı vuruldu.

– Bax gör kimdi gələn, bala?

Mircəfər həyətdən səsləndi:

– Şirin əmidi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Minasoltan yaşmaqlanıb həyətə endi. Bu onların yaxın qapıbir qonşusu Abdulla kişi idi. Dili şirin danışığına görə Ağa ona Şirin deyərdi, elə bu ad da ailədə kişiyə yapışıb qalmışdı. Abdulla kişi sadə, yoxsul bir odunçu idi. Arabir Seyid Əzim ailəsinə kömək eləyər, odun, kömür daşıyar, Ağanın dəyirmana getməsinə razı olmaz, dəyirmanlıqlarını da edərdi. Savadsız olmasına baxmayaraq şerə xüsusi məhəbbəti və hafizəsi vardı. Seyyidin bir sıra əsərlərini əzbərdən bilir və təzələrini sevə-sevə qulaq asıb əzbərləyərdi. Seyid Əzimlə bərk dost və həmtay idi. Ağa da onu çox əzizlər, arabir imkanı olanda əl tutar, uşaqlarını da məktəbdə pulsuz oxudardı. Şirin məktəbdə də Ağaya kömək edirdi. Bunu irəlidə görmüşdük.

Minasoltan Abdullanı ev adamı kimi çox da bürünmədən qarşıladı:

– Salaməleyk, Minasoltan!

– Əleykəssalam! Ağa evdə yoxdu, Şirin, sözün vardı yoxsa?

Abdulla ayağının birini götürüb o birini qoydu, nə isə demək istəyir, amma utanırdı:

– Minasoltan, bilirəm ki, Ağa evdə yoxdu! Hələ kənddən qayıtmayıb, bazarda eşitdim ki, Bicovdan Ləngəbizə gedib. Görən olub! Həsən deyirdi ki, sabah gələcək, dedim nigaran olmayasan. Minasoltan, sabah müsəllaya çıxacaqlar, nə olardı, Ağa da gəlib çıxa!.. Dedim bilirəm unuvuz yoxdu, bazarda bir az arpa, bir az da darı tapa bildim, bir qədərin özümüzkülərə verdim, bunu da sizə gətdim...

Abdulla bu sözləri deyə-deyə əlindəki balaca torbaları Minasoltana uzatdı. Arvad "Allah, sən özüün kömək ol, – deyə düşündü, özünün bir çətən külfəti var, amma bizi də yaddan çıxartmayıb". O, torbaları almaq istəmədi:

– Yox, ay Şirin, Ağanın xoşuna gəlməz. Özünüz də elə biz gündəsiz, apar qoy uşaqların ac qalmasın...

Abdulla sükunətlə danışdı, xəfifcə gülümsədi:

– Vallah, onlara da vermişəm, Minasoltan! O qırılmışların qarnı doyandı? Bu nə şeydi ki, onlara öhd eləsin? Al, vallah yoxsa lap inciyərəm, sonra olanda qaytararsız, borc verirəm, Ağa gələndə verərsiz...

– Bəlkə iraq-iraq, Ağa əliboş gəldi, onda necə elərik?

– Siz necə, biz də elə... Allah kərimdi, ala...

Minasoltan çarəsizlikdən torbaları aldı. Abdullanı da incitmək, əlindəki payı geri qaytarmaqla ürəyini sındırmaq istəmədi.

– Çox sağ ol, Şirin, Allah imanuvu kamil eləsin, balalarını saxlasın!

– Ağanın cəddi köməyimiz olsun! Elə hamının, biz də içində...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şirin getdi. Bu ağır vaxtda, yox evindən elənən yaxşılıqdan ürəyi köyrəlmiş, gözləri yaşarmış Minasoltan gəlinini səslədi:

– Ceyran, Ceyran...

Ceyran tələsik həyətə çıxdı:

– Nədi, məmə?

– Əldaşını bəri gəti...

Arvad taqətsizlikdən yerə çökdü.

– Nə çəkəcəksən ki, məmə? O nədi?

Ağlamaq Minasoltanı qoymadı ki, cavab versin, onun əvəzinə Mircəfər cavab verdi:

– Şirin əmi dən gətirib, Şirin əmi...

...Gəlin ağır daşları mətbəxdən həyətə endirdi. Yerə palaz sərdi, bir misqal da un itməsin deyə üstünə dəstərxan döşədi, torbadan ovuc-ovuc aldığı arpanı əldaşının boğazına töküb dəstəyindən yapışdı və fırlatmağa başladı. Daş hərləndikcə, qiymətli, iri sarı kəpəkli, yarı yarma, yarı un daşın ətrafından dəstərxanın üstünə tökülürdü. Nənə isə gözlərinin yaşını silib qurutmuş, indi də lobya duzlayıb süfrə salırdı. Lap balacalar lobyanı yeyir və bir-birinə sevinclə pıçıldayırdılar:

– Ay can, ay can, bir azdan Ceyran əppəy bişirəcəy...

...Ağa axşam azanına qayıtdı, həyətdən çörək iyi gəlirdi, o yüngül xurcunu arıq yabının üstündən endirib, atı rahatladıqca düşünürdü: "Görəsən kim əl tutub?" Şirin onun heç ağlına da gəlmirdi, özünün nəyi var? Acın nəyi var ki, yalavaca versin?

Anası onu kandarda qarşıladı, o həmişəki adətilə ən ağır dəqiqələrində də məzağı tərk etməyib, şənlik yaratmaq məqsədilə anasından soruşdu:

– Hə, məmə, evdən çörək iyi gəlir, kimin anbarın yarmısan, qapaqlının, Hacağalar bəyin, ya nameşədi Alışın?

Arvad gülümsəməyə çalışdı:

– Heç birinin, ay bala! Şirin bazarda arpa-darı tapıb alıbmış, bir az da bizimçün gətirmişdi. Əldaşında onu çəkib cad bişirmişik...

– Belə de!.. Buğda Qənidə, səxa Şirində... Elə belə də olsun gərək...

– Oğul, deyillər sabah Şıx ağa müsəllaya çıxacaq...

– "Böyük aclıq ili" hamıya elə əsər eləmişdi ki, bir evdən çörək iyi çıxanda ətri yeddi qonşuya gedib çıxırdı. Bir tikə çörək üçün analar bala dərdilə, düşmən qapısına da gedərdi. Halbuki bu gün çörək iyi Seyid Əzimin həyətindən gəlirdi. Heç kəsin əliboş, naümid qayıtmadığı Seyidin qapısı birdən açılmadı; aram-aram, yavaş-yavaş cırılda-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaraq aralandı. Həyətə ümid və istək dolu gözləri çökəyə düşmüş bir qarı girdi. Minasoltan əl daşını hərlətməyi dayandırdı.

– Bıy, xoş gəlmisən, Gülgəz bacı, gəl, gəl içəri...

Ovurdları batmış, çənəsi biz kimi burnundan da qabağa çıxmış Gülgəz arvad, qorxa-qorxa irəlilədi. Utanırdı, bilirdi ki, bura var evi deyil, özləri bir çətən külfətdilər; amma gözlərini də əl daşından çəkmirdi... çəkə bilmirdi...

– Başına dolanım, Minasoltan, balalarım əldən gedir...

Minasoltan hovuz qırağında əl-üzünü yumaqda olan oğluna baxdı. Bu gözlərdə çarəsizlik, xahiş və ümid birləşmişdi; eyni zamanda, son gün ruzusunu balalarının boğazından kəsmək istəməyən qadının qəlbində çarpışma getdiyi duyulurdu. "Verimmi, bala, bəs özümüz neynərik?!"

Şair qalxındı, anasına tərəf qanrıldı. Sözsüz baxışdılar. Ana-bala bir-birini elə gözəl anlayırdılar ki... "Ver, ana, qonşu ac qalsa, bizim boğazımızdan çörək gedərmi?" Ana, oğlunun baxışlarında razılıq oxuyunca sonuncu, ani şübhələri də dağılıb getdi: "Allah kərim padşahdır, bu günə verən, sabaha da yetirər... Amma necə?"

Gülgəz arvad çox götürməyə qıymayıb, şair dəstərxanından bir-iki cad üçün hazır un götürdü. Çarğatının içinə düyünləyib qalxdı. Çıxa-çıxa dua-səna eləyirdi:

– Allah ruzusunu bol eləsin, Minasoltan, Allah Ağanı sənə də, bizə də çox görməsin...

...Gülgəz qarı qapını təzəcə örtmüşdü ki, darvaza bir də aralandı. Gələn yedici Sənəm idi. Şəhərdə ölü yeri çox olsa da, indi ölüsünə ağıçı çağıran, onu əli dolu yola salan kim idi?.. Sənəm arvad yeddi baş külfəti ilə çox çətin güzəran keçirirdi. Sənəm daxil olanda, Minasoltan, artıq Gülgəz qarını yola salıb içəriyə keçmiş, günorta namazı üçün hazırlıq görməyə başlamışdı. Sənəmin gəlişindən xəbəri yox idi. Sənəmin dalınca həyətə üçüncü arvad girəndə, əl dəyirmanının başında Ceyran oturmuş, dəstəyi hərləndirirdi.

Ceyran qonşuların halını qayınanasından pis bilmirdi. Şair də arvadının vəziyyətini başa düşdü. "Bəs özümüzə nə qalacaq? Hamısını paylasaq, biz necə olacayıq, ilahi, özün kömək ol!" O ərinə baxdı. Hələ də səki üstündə durub gələnləri seyr etməkdə olan şairi gülmək tutdu, xəfifcə: "Lap Harun evi olduq ki! Maşallah namxuda, dövlətimizə göz dəyər ha!" – deyə xəfifcə, acı bir kinayə ilə qımışdı. Sonra da daldadan, oğrun-oğrun Ceyrana göz vurdu: "Hə, nə durmusan, Ceyran, versənə! Axı onların da balaları acdır, olmasa – gəlməzdilər!"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ağa, ceddinə qurban olum... (Minasoltan yox idi, arvadlar ona müraciət edirdilər) – Sənə sadağa gedim, Ağa, Mircəfər ağanın dərdi-bəlası gəlsin mənim, bax, bu sağ gözümə... Dolandır məni Ağanın başına, bir əppəylik də mənə ver...

– Ver, Ceyran... İkisini də ver... bölüşdür qalanı...

– Bəs biz...

– Bu günlük varımızdı, bu gün yeyərik. Sabah da məməm demişkən, *Allah kərim padşahdır. Hərçənd ki, Şirin heç padşaha-zada* oxşamır! El necə, biz də elə...

– Mən...

– Dedim, qulaq as... Axı qonşu ac olsa, qonşu balası ac yatsa, ağlasa, mənim də, sənin də boğazımızdan o cad nədi ha... heç quyruq da ötməz... Ver dedim, ver... Bizi onsuz da el dolandırır, Allah elə bərəkət versin.

...Ana dəstəmaz üçün səkiyə çıxanda torbada qalmış axırıncı dənin də bölünməkdə olduğunu görüb, irəlilədi. Son sıxmaları ortadan götürdü:

– Paya-payda mənə də bir pay düşər... mənim də balalarım var... – dedi.

Seyyid özünü saxlaya bilmədi, mehriban, əliaçıq anasının bu hərəkəti onu ürəkdən güldürmüşdü... O elə bil bu hərəkəti ilə deyirdi: "Ataları qeydinə qalmırsa, heç olmasa mən qalım. Bəyəm mənimkilər uşaq deyil?!. Elə cümləqayğılıq bizə düşüb... Özün bayaq dedin ki, var-dövlət qənidə, səxa kasıb-kusubdadı..."

...Bəli, tarixdəki məşhur "Böyük aclıq ili" idi. Təkcə Seyid Əzim ailəsi deyil, bütün ölkə bu kökdəydi.

...Şair isə artıq xəyala dalmışdı. Saralmış üzlərinə azacıq səadət qızartısı çökmüş balalarına, Ceyrana və anasına baxdıqca düşünürdü: "Yaxşı, bu gün Şirin, sabah mən gətirən azurğu, bəs sonra???"

Nə layiqdir olam mədyun hər baqqalü əllafə,
Tələbkarani-bipərva mənimçün bişümar olsun?

Gəhi qalsın qələmdanım girovda, gah dəstarım,
Nə dildə taqətim qalsın, nə əldə ixtiyar olsun?

...*O, sübhü diri gözlə açdı... Bu gün, bu gecə onun başı üstünə daima* qanad gərən ilham pərisi rəqs etmir, cilvələnib "şairim, mənim gözəlliyimdən, sənətimdən ilham al, Füzuliyanə qəzəllər inşad eylə, Leyli gözəlliyini, Məcnun məhəbbət və sədaqətini tərənnüm et" demirdi. Bu gün onun qələmindən süzülən dərd, xalqın, bütöv bir millətin füqəra və binəsiblərinin dərdi idi, yazanın özünü də, oxuyanlar kimi sızladır, inlədirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Evimiz bir-iki-üç həftə çörəksiz qaldı,
Gah bişirdik noxudu, gah yedik lobyanı.

Qanını şişiyə tutdu fələk ol tifillərin
Ac qalıb qaçdı uşaqlar dodağının qanı.

Gecələr nəql dedim körpə uşaqlarım üçün,
Nisyə sözdən nə bitər, çeynədilər yorğanı.

...Müsəllaya çıxmaq xəbəri dünəndən yayılmışdı. Carçı Mahmud bir gün əvvəl aləmə car çəkmişdi "Ay camaat, ey əhli-Şirvan, sabah səhər sübh namazından sonra "Lalazar" altındakı düzə gəlin, Şıx ağa müsəllaya çıxacaq..." Adamların ürəyində bir ümid qığılcımı yanmağa başlamış, hamı tələm-tələsik sabahı günə hazırlanmağa başlamışdı. *Kimisi hamama qaçıb qüsl eləmiş, kimisi dükənini, həyətdəki iş-gücünü* səliqəyə salmışdı. Hamı müsəllaya təmiz ürək, pak arzularla getməyə hazırlanırdı.

...Sübh namazı qurtarar-qurtarmaz əhali "Lalazar" qəbiristanı altındakı düzənliyə axışmağa başladı. Məktəb və mədrəsə şagirdləri öz müəllim və mollaları ilə gəlib bir tərəfdə durmuşdular. Onların arxa tərəfində ağzı yaşmaqlı qadınlar yığılmışdı. Arvad-uşaqdan xeyli aralı, şəhərin mötəbər şəxsləri toplanmışdı. Hər bir məhərrəmdə Şirvan kəndlərində tuğ gəzdirən, tıntın olduğu üçün "nıtığ tuğçu" ləqəbini qazanmış seyid də öz ələmini götürüb gəlmiş, qəmgin bir görkəmlə, başını tuğun dəstəsinə söykəyib dayanmışdı. Hamı, Şıx ağanın intizarında idi.

Sağ əldə, məktəb uşaqlarından 2-3 qədəm aralıda duran müəllimlər, şairlər və başqa ziyalılar, Mahmud ağa ilə hacı Seyid Əzim Şirvaninin başına toplaşmışdılar. Bu gün şair çox qəmli idi, onun daima a... adə deyə zarafat etdiyi curlarından heç biri, hətta Şamaxı zürəfasından sayılan, toyların sərpayısı, nişanların salayçısı, hüzürlərin xəlfəsi, xeyir-şər yaraşığı olan Cin Cavad belə ona müraciət etmirdi. Hamısının üzündə bir kədər, dərin hüzn vardı.

Adam getdikcə çoxalırdı, meydanda iynə atsaydın yerə düşməzdi. Amma hamı susmuşdu. Elə bil ağır bir xəstənin can çəkişdiyi otağın qapısına yığılmışdılar – heç kəsin cınqırı çıxmırdı.

Uzaqdan Ağaseyidəlinin gəlmək xəbəri eşidildi. Üzlər, nicat uman ümid dolu gözlər o tərəfə döndü. Gün qızmağa başlayırdı. Ağaseyidəli ağır-ağır əhaliyə yanaşdı. Onu görcəyin təpəsinə döyüb ağlayanları sakit



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etmək üçün, yandakı iri daşın üstünə çıxdı. Əmmaməsini başından götürüb açdı və boynuna saldı, ağlaşma artdı. Ağaseyidəli əlini qaldırdı:

– Eyyühənnas, qardaşlarım, balalarım! Biz günahkar bəndələrdən xudavəndi-aləmin ətf nəzəri kəsilib. Gəlin dua edək, Allahımıza yalvaraq. Gəlin, bütün zihəyata rizq qanun qoymuş böyük yaradandan istixarə edək; üzümüzü dərgahına tutub deyək: ya Allah!..

– Ya Allah!..

Yüzlərlə dodaq ağaya səs verdi; dəhşətli uğultu kimi çölü bürüdü:

– Ya Allah!..

Ağaseyidəli nəleyinlərini ayağından atdı, ağ, yumşaq ayaqlarını kol-kos üstünə basaraq irəlilədi, əllərini göylərə qaldırdı; yüzlərlə əl onun ardınca göyə qalxdı. Şairin gözü önündə dilsiz, od yağdıran göylərə dirənmiş əllər meşəsi ucaldı... "Əllər... əllər... ümidli əllər... naümid əllər, qabarlı əllər... gücsüz, tifil əlləri... xınalı gəlin əlləri..."

– Bizi sən yaratmısan, ya Allah!

– Ya Allah...

– Rizqimizi səndən istəyirik...

Ruhanilər "əlqiyas-əlqiyas", bəylər, tacirlər və baqqallar "əttobəəttobə" deyə fəryad edirdilər. Daş ürəklər muma dönmüşdü. Bu gün sünnü və şiələri, Şirvan ərazisində yaşayan müxtəlif millət nümayəndələrini ümumi bir fəlakət, böyük el dərdi birləşdirmişdi. Heç kəs yaxınında malağan və ya erməni yeridiyindən, ona toxuna biləcəyindən ehtiyat eləmirdi, "təmiz-murdar" yaddan çıxmışdı. Erməni arvadları "Ya həzrət Fatimə"də deyib çağırır, "Ya şahi-Mərdan", "Ya Əli", "Ya İsa", "Otçenaş", "Otets", "Astavats" sözləri bir-birinə qarışmışdı.

Ağaseyidəli irəlilədikcə təkbir deyir, xalq da onun ardınca təkrar edərək gedirdi... Öndə ruhaninin dalınca əliquranlı, ayaqyalın, başıaçıq mədrəsə şagirdləri, ondan sonra əyan, əşraf və ruhanilər, onların dalınca tüccar, baqqal, sənətkar və b. bazar əhli, arxalarınca kasıb-kusub kütlə, ən axırda ayaqyalın, sinəçak qadınlar... hamı başına döyüb ağlayırdı. Yerdən, minlərcə ayaq altından qalxan kirşan kimi yumşaq toz açıq ağızlara, yaş burun və gözlərə dolur, nəfəsgahları tutur, islanıb palçığa çevrilirdi... Ağaseyidəli ovxalanıb toza çevrilməkdə olan kollar arasında ucalmış daşın üstünə çıxdı. Artıq ağlaşma və küydən onun səsi eşidilmirdi. Burada məscidin silsilə cumanı ağaya üzərinə ərəbcə sözlər və xətlər cızılmış dörd daş verdi. Ağaseyidəli bunları ağzı bərabərinə gətirib dua oxumağa başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sakit... sa...kit, ey camaat! – deyə silsiləcuman adamları sükuta dəvət etdi. Ağaseyidəli duasını qurtaran kimi əlilə işarə elədi, yaxında durmuş, yaşıl əmmaməsini açıb boynuna salmış cavan bir seyid ona yanaşdı:

– Al, əmoğlu, adam çoxdu, burda ata bilmərəm, camaatdan aralan, dörd səmtə, hər daşı bir səmtə at, əvvəl qibləyə, sonra da günçıxan, günbatan ilaxır...

Oğlan hörmət və ehtiyatla daşları aldı, ağanın əlindən öpüb, halsız insanlar arasından uzaqlaşdı.

Ağlaşma yenidən başladı... Günəş getdikcə daha da möhkəm şığıyır, sanki əmgəklər altındakı beyinləri qaynatmaq istəyirdi. Heç kim yıxılıb qalana, ürəyi gedənə, gün vurana baxacaq vəziyyətdə deyildi. Məhərrəmlik və zəlzələ günlərindən də dəhşətli, ağır bir vanəfsa, vamüsibəta çölü başına götürmüşdü. Yerlərdə, dəvə tikanı, təkəmbir qanqal, qaramığ üstündə dizin-dizin sürünənlərin ayaqları, dizləri, əlləri qan içində idi. Arvadlar hicabı unutmuş, örtüklərini açıb torpağı başlarına sovurur, yanaq və sinələrini cırırdılar.

Şair bu tükürpədən mənzərəni qəribə bir zahiri sükunətlə seyr edən kimi görünürdü. Onunla yanaşı irəliləyən Mahmud ağanın gözləri yaşarmışdı; həyəcanla gah kütləyə, gah da dostuna baxır, şairin keçirdiyi ağır iztirabı üzündən duyur, gözlərindən oxuyurdu. O, Seyyidin qolundan tutmuşdu; qoyun sürüsü kimi heç nəyə baxmadan sürünən kütlədən bir neçə qədəm aralı gedirdilər:

– Ağa!..

Mahmud ağa sanki indi öz böyüklüyünü, sərvətini, nüfuzunu unutmuşdu. Elə bil hər şeyə qadir nə əmri olsa yerinə yetirilən, hər bir hökmü məqbul adam o deyildi. Bu anda o öz dostundan, hər kəlməsindən, hər qəzəlindən “ehyayi-əmvat” duyduğu böyük şairdən qüvvət almaq, kömək diləmək, sanki “dur, yüksəl bu xurafatın qırdığı kütlənin üstündən! Uca bir məsnədə çıx! Aç onların gözünü, dirilt bu canlı meyitləri, bu diri ölüləri!” – demək istəyirdi. Amma çarə yox idi. Şairin dodaqları pıçıldayırdı:

– Bədbəxt... yazıq...

Mahmud ağa, bu bədbəxt və yazıqları görür və onların halının şairə təsirini dərk edirdi. O bilirdi ki, bugünkü günün nəticəsində hacı Seyid Əzim Şirvani yeni, ölməz bir əsər yazacaq, xalqın bugünkü acınacaqlı halını nəzmə çəkəcəkdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günəş isə yandırır, gün vuranların sayı artır, ağlamaqdan, tozdan *bihal düşənlərin iniltisi ucalırdı, göylər isə... amansız göylər odlu-atəşli* nəzərlərlə yerdəkilərə baxır, lakin gözlərindən bircə damla yaş gəlmir, daldalanacaq üçün bircə parça bulud göndərmirdi.

O alimlər ki, nitqindən olurdu mürdələr əhya,
Olardan olmadı bir çarə hər giz ərzi-movtayə...
...Və leykin düşmədi bir qətrə baran səhni-səhrayə.

Ələndi su məqamında havadan başlara torpaq,
Yanıb bari-ətəşdən göydə quşlar gəldi qovqayə.

Bu hələ bütöv şeir deyil, onun ayrı-ayrı misraları idi ki, Seyid Əzimin qurumuş, ətəşdən yanmış dodaqlarından güclə eşidilirdi.

...Ucaldı nalələr yerdən tamamən ərşi-əlayə...
Giribançak olub ağlardılar biçarə alimlər,
Uşaqlar əldə Quranlar çıxardı gündə səhrayə.
Zükur əhli çağırdı dadə yetsün şahi-mərdani,
Ünas əhli təvəssül qıldılar damani-Zəhrayə
Təvəqqö qıldılar İslam əhli şahi-bətham
Təzərro qıldılar qomi-nəsara ruyi-İsayə.
Oxundu daşə hər gün çox dualar nəşri-rəhmətçün
Və leykin düşmədi bir qətrə baran səhni-səhrayə.
Zibəs "əlğeys-əlğeys" etdilər ol xizr-məqdəmlər...

***Əziz dostum və mehriban qardaşım!***

*Məktubunu aldım, mənim dərdimi çəkdiyin, Şamaxıdan Ərəbçəltikçi səfəri kimi uzun və əzablı bir səfəri boynuna götürdüyün üçün çox sağ ol. Hər halda, mən sənə minnətdaram, heç olmasa bildim ki, o bədbəxtin taleyi nə yerdədir. Qardaşım mənim, mehribanım mənim, mən ona daima səadət arzulamışam! Əgər mən bu səadəti ona verə bilmədimsə, demək, alnımıza belə yazılıbmış, demək, qismət deyilmiş... Kaş doğrudan da xoşbəxt olaydı... Kaş olaydı... Görəsən ona qismət olan bəxtəvər bu səadətə layiqdirmi? Kaş bircə dəfə üzünü uzaqdansa görəydim, sonra öləydim... Bu sənin nakam və qərib qardaşına heç bir zaman nəsib olmayacaqsa da, qəlbini qaraltma. Əgər onun xoşbəxtliyini yaratmaq, təmin etmək əlimdə olsaydı, dünyanın altını üstünə çevirərdim, onu xoşbəxt elərdim... olmadı...*

*Qardaşım mənim, indi bundan sonra mənim vətənə gəlməməyimin səbəbi sənə aydındır, mən bir zamanlar səndən ayrılanda öz ürəyimdə*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*demişdim: "Ağa, mənə geri dönmək arzulama; mən, sonam uçan gölə qayıtmaram..."*

*...Arabir anama dəyə bilsən, mənim əvəzimə salam de, de ki, əllərindən öpürəm, de ki, məni bağışlasın, südünü mənə halal eləsin, mən onu oğulsuz qoydum.*

*Burda işlərim babətdir. Arabir Türküstanı gəzirəm, dəvə karvanlarilə səyahətə çıxıram.*

*Əziz qardaşım, Şirvanın munis bağlı-bağatlı, buz bulaqlı behiştindən ayrılıb, Ərəbistanın cəhənnəmi səhralarına oxşayan yerlərə düşdüm... təkəmbir, bir-birindən uzaq vahələr... qızıl gün altında yanan dəyələr, qumlu səhralarda gövşəməyə qaratikan da tapmayan, su həsrəti, ağır-ağır irəliləyən dəvələr, karvanlar... deyirəm yəqin həqqin cəhənnəmi belə olacaq. Peyğəmbər də Ərəbistanda elə bunu görüb, behişti Şirvan kimi axar suları, kölgəli ağacları, sərin, yüngül ətir qoxan nəsimi kimi təsəvvür və Quranda təsvir eləyib. İstidən heyvanların dili bir qarış çölə çıxır. Bürküdən nəfəs almaq olmur, dünyaya gəldiyinə də təəssüflənirsən. Mən bilən bu yerlərdə doğulub böyüyən və ölən adamlara cəhənnəm əzabı olmayacaq, burda çəkiblər o əzabı.*

*Elə bilmə ki, səyahətlərdə məni doğub böyüdən, torpağında pərvəriş verən, çörəyini yediyim, suyunu içdiyim, meşələrində kölgələndiyim, quşlarının sədasını bir musiqi kimi dinlədiyim Vətəni unutmuşam. Könlüm orda, canım orda, nakam eşqim ordadır. Burada bəzi qərib axşamlarında, hətta, ordakı düşmənlərimi də itirdiyimə təəssüf edirəm...*

*Şirvan Allahın behişti, yaratdığı ən gözəl möcüzələrdən biridir. O zümrüd dağlar, o nanəli-yarpızlı bulaqlar, şəbnəmli susənbərlər, nəğməli, minbir muğamlı quşlar, gah firuzəyi, gah lacivərdi göylər... hər ağacı dayağım, hər daşı oturacağım... Şirvansız könlüm xarabədir! Elə bilmə ki, tək mən beləyəm... Vətənin dərbədər oğulları istər tacir, istər səyyah... hamısı belədir. Bu günlərdə dərvişə çevrilmiş dərbədər şairlərimizdən birinə rast oldum, gör bir nə dedi:*

*"Biz şirvanlılar Allah adamlarıyıq. Qədərə boyun əyirik, qalübəladan alnımıza yazılana qaneyik. Odur ki, Allah bizi gah zəlzələ, gah quraqlıq, gah lənü təkfir... qorxusu ilə gözəl və canımızdan əziz Vətənimizdən dərbədər salıb. Qürbətzədə eləyib. Amma Vətənin məhəbbətini ölüm özü də qəlbimizdən çıxarda, əlimizdən ala bilməz. Ordan gətirdiyimiz bir sıxma torpaq, qəbrimizə töküləndə, ruhumuz, torpağa çevrilən gəmiklərimiz də Vətən deyir".*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Kərbəlayı Vəlini vəkil etmişəm, bir miqdar məbləğ sənin öhdənə təhvil versin, məktəb ləvazimatı və yetim uşaqların təhsilindən, əyin-başından ötrü. Vüslundan məni hali edərsən və məsləhət bildiyin yerə sərf eylərsən.*

*Həsrətlə möhübbətli gözlərindən və əllərindən öpürəm. Dostun və qərib qardaşın Tərlan.*

***fi 10 zilqədə sənə... filan***

Şair dostunun məktubuna cavab yazmağa başladı.

***Nuri-çeşmim Tərlan!***

*Əvvəla ümdə mətləb sənin səlamətliyindir. Məktubun və uşqola üçün göndərdiyin əlavə məbləğ vüsul oldu. Qardaşım, Allah iqbalını daimi eləsin. Vətən bədbəxtin üzərində qara buludlar uçur. Bəlanın birindən qurtarmamış, digərinə düçar olur. Zəlzələlərin bu viranə vilayəti viran qoyduğu bəs deyilmiş, vəba və quraqlıq da bir başqa yandan əhalinin zəlzələdən sağ qalanlarının axırına çıxır. Qubernski idarələr buradan köçüb gedəndən bəri, işlərimiz bir az da əngəlləşib. Başına bir iş gələndə xalq kimə və hara müraciət edəcəyini bilmir. Dövlətlilər, əlindən iş gələnlər, ziyalılar bir-birinin ardınca Şirvanı atıb gedir. Qafqaya, Bakıya, Aşqabada, Şəkiyə, Gəncəyə, İrana... Eh, sənə nə yazım, yar-dostdan, ölümdən yaxa qurtaranların bir çoxu şəhərdən əzimət eləyib.*

*Qərəz, bu dərdlərimizi yazmaqla dərdini bir az da füzun etmək xəyalında deyiləm. Bu günlərdə bir qəmsiyə tərtib olunub: Cənab Kərim bəy, cənab Mahmud ağa və cənab Aleksan bəy Lələyofdan ibarət... Bu cənablar Peterburqa əzimət eləyib, qubernski idarənin yenidən Şirvana köçürülməyi barəsində məsələ danışacaqlar. Görək başımıza nə gəlir. Bəlkə ondan sonra şəhərdən bəla götürülə, hərki-hərkilik aradan qaldırıla, özbaşınalıq rəf olub gedə...*

*Əziz bəradərim Tərlan, mən indinin özündə neçə-neçə qəzəllər də yazıb divanıma tərtib vermək fikrindəyəm. Tərtibi-divanımı qurtarandan sonra onun üzünü cənab xoşnəvis Hacı Tağıya və bir nüsxə də cənab xəttat məktəbi təxəllüsə köçürtdürəcəyəm. Həqqlərini cənab Mahmud ağa dəröhd eləyibdir. Bundan əlavə bir təzkirə tərtib eləyirəm və yenə də "Əhvalati-Şirvan" tarixi üstündə çalışıram. Qırmızı Qulam sağ olsun ki, mənə lazım olan nüsxələri əldə eləyir və mən də "Vəssaf"da, "Aləm ara"da və başqalarında ki, öz əlimin altında yoxdur və almağa dəxi cibişdani-şərif imkan vermir, istifadə eləyib, özünə qaytarıram və o da yiyələrinə verir.*



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

*Məktəb işlərim haqqında sənə bir neçə kəlmə də ərz eləyəcəyəm. Hərçənd qəlbini qaraltmaq istəmirəm. Bizim danosbazların, mollaqulaqların "iltifatından" işlərim şuluqdur. Söz var ki, məni şəhər uşqolasından çıxartsınlar, bir də söz gəzir ki, bizim uşqolanın özünün də üstünü qara buludlar alır, bu neçə ilki zəhmətimdən, məşəqqətimdən sonra onu da bağlatmaq niyyətinə düşüblər. Belə olan surətdə, bir qərəzim var ki, Tiflisə, cənab popeçitelin lap öz qulluğuna gedim, ordakı dostların və həmməsləklərin köməyiynən işləri yoluna qoyum.*

*Bir qisim maarif dostlarının qeyrəti olmasa, heç bilmirəm nə eləyə bilərəm. Cənab Kərim bəy Badkubəyə əzimət eləyəndən sonra, ianə məsələsi çox bərbad hala düşüb. Sizin kimi əziz vücudlar qərəzsiz yardım əli uzadır. Amma bunuynan belə, mənim heç ianə yığmaqda əlim və üzüm yoxdur. Hərçənd ki, cəddimin nəvə-nəticəsi dilənməyi adət eləyib, "cəddinin payını" yığır, istər zor gücünə, istər xoşluqnan... həm də öz cibişdanı üçün. Amma inan ki, mən ianə istəyəndə ətim-ətimi tökür. Məgər mənim özümün külfətim xalqın hesabına dolanmır? Əgər maarif, şeir dostları, həmçinin mənə kömək eləməyi özünə vacibatdan sayan yaxın və uzaq kəndlərin əhalisi, kənd camaatı olmasaydı, mən o böyüklükdə külfəti necə dolandırardım? Ruzum xalqa bağlıdır. Qaravəllidən tutmuş, Qəşət, Bico, Ləngəbiz kimi Şamaxıdan xeyli aralı kəndlərdən belə mənə kömək eləyənlər var. Bununla belə quyunun suyu özündən olmalıdır, qardaş, gözü qapılarda qalan külfətin vay halına. Amma genə də bununla belə, mənim güzəranım fağır-füqəranınkından pis keçmir, onlar necə, mən də elə... dolanıram və bir də ianə üçün əl açanda, elə bilirəm deyəcəklər ki, ay rəhmətlik oğlu, özünü, külfətini dolandırırıq, bəs olmur, hələm bir genə utanıb ar eləmirsən... Bəli... qardaşım, nücəbalardan gələn ianə... Bəs görək bu xalqın ümumi dərdinə əlacdırmı? Bir mülahizə buyur... İanə!.. bir bədbəxtçilik olan kimi kömək eləyir, ianə göndərirlər... Zəlzələ oldu, vəba baş verdi, quraqlıq-aclıq gətirdi... Ölənlər üçün Bakı varlısından bez gəlir... kəfən... ianə... Cənab Kərim bəy Qəşətdən, cənab Əlyar bəy Garısdan, cənab filankəs bəy filan yerdən... ianə!... Bu dünya şöhrəti... Belə şeylərdən şey çıxmaz... Bir dövlətli, beş mülkədar, on tacir, üç bəyin-varlının cibinə göz dikməklə xalqın dərdi başa gəlməz... Varlı əlini uzada cibinə yaylığçın, sən də elə biləsən ki, ianə verir... Bunlardan nənələr-babalar demişkən Fatıya tuman olmaz... Fatı elə cır-cında, xıdır-zında qalacaq... Beş ölçü buğda pay almağnan əkini yanan rəncbərin dərdinə dərman olmayacaq... Çarə nədirsə başa düşmürəm. Tapa bilmirəm bu*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*ağır dərdin çarəsini, bilmirəm... Amma bir şeyi yaxşı bilirəm ki, əlacı başqa növ olmalıdır. İanə almağnan açılan uşqolada işlər necə gedəcək, bunu bir Allah, bir də orda dərs deyən bilir... İanə yoluynan el, bütün xalq maariflənə bilməz... Bütün füqəra balaları təhsil ala bilməzlər... İanə alanda elə bilirəm ki, sailəm, payyığanam, pul əlimi yandırır, dərd ürəyimi bişirir... hər narazı gözdə məcburiyyət oxuyuram. Elə bil deyirlər: "Ay kişi, yorulub usanmazsan bəyəm? Abır-həyan olmaz bəyəm? Mənim nəyimə gərəkdi ki, sən camaatı irəli aparmaq istəyirsən, oxutmaq istəyirsən? Canın çıxsın, özündə var, əlac elə bu dərdə, yoxdursa, bizi dəngəsər eləmə... Mənim nəyimə gərəkdi ki, baqqal Vəlinin gədəsi qabiliyyətli uşaqdı, oxusun gərək! Varıdı dədəsinin oxutsun, yoxudu canı becəhənnəm!.. İanə... Verirlər, niyə vermirlər ki... Birini Mahmud ağa utandırır, başqasını mən usandırıram, cana gəlir. Biri könlüynən verəndə, başqası yarım könül verir, üzə düşür, şöhrət xətrinə, ayrı birisi də məcbur olur... Yox, vallah, billah, sim vallah bu ianə üsulundan cəzana gəlmişəm... Bilirəm ki, axırdan-axıra bunların xalqa faydası olmayacaq... Çarə lazımdır... Amma nə çarə?.. Bilmirəm!.. Bilirəm ki, başqa cür olmalıdır. Elə olmalıdır ki, heç kəs fağır, kasıb olmasın, birisi o birisinin əlinə baxıntı olmasın!.. Əgər Allah-taala dünyanı belə yaratsaydı, bəlkə onda mən deyənlər başa gələrdi...*

*Qərəz, görürsən də, qərib vilayətdə sənin də qəlbini incidən şeylər yazıram.*

***Baqi salam. 12 məhərrəm sənə...***

## "ASLAN VƏ İKİ ÖKÜZ"

Şair, Hacı Qədirin dükəninə girəndə onun oğlu Ramazanı küncdə ağlayan gördü. Ömründə uşaq döyməyən, öz övladları ilə bir dost, rəfiq kimi davranan şair və müəllim üçün bundan böyük cəza yox idi. Xüsusilə ki, son illərdə Hacı Qədir, Qapaqlının acığına (nə üçünsə araları dəymişdi) Seyid Əzimlə bərk dostlaşmış və balaca Ramazanı da gətirib məktəbə vermişdi: "Ağa, əti sənin, sümüyü mənim" nə ki, lazımdı tənbeh elə; amma qoy heç olmasa hesabdan-zaddan bir az başı çıxsın, çötkədən zaddan çəkə bilsin, dükəndə mənə əl verər. Bir az da sənin dinsiz ermənin ona işto-pişto öyrətsə, divanxanada dilmanc əvəzinə özü mənə nə deyildiyini başa salar. Yoxsa dilmanclarla heç aram yoxdu, inanmıram olara" – demişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Balaca Ramazan iki il idi ki, məktəbə gəlir və əməlli-başlı oxuyurdu da. O zaman şair, Hacı Qədirin arıq vücudunu nəzərdən keçirib gülümsəmişdi "Yəqin elə sənin də ətini molla fələqqədə əridib ki, bircə sümüklərin qalıb" – deyə düşünmüşdü.

Hacı Qədir bu gün nə üçünsə Ramazanı cəzalandırmışdı. Şagirdinin günahını bilməyən müəllim çox çətinlik çəkir və uşağın yanında onun tərəfini saxlamağı da məsləhət bilmirdi. Odur ki, əvvəlcə o qədər də dərin getmədi:

– Hacı, mənim şagirdimin günahı çox böyüksə, gərək cəzasını ikimiz də çəkək. Mən də cəzalanmalıyam, deməli, yaxşı tərbiyə verməmişəm.

Hacı Qədir oğluna göz ağartdı və işarə ilə başa saldı ki, çıxıb getsin, tez də əl-ayağa düşdü. Ağa öz ayağı ilə onun dükəninə gəlib, qoy yanıb tökülsün o "Qapaqlı qurumsaq, salam da vermir". O danışdıqca gah Seyyid Əzimə, gah oğluna müraciət eləyir, arabir gözünün quyruğu ilə Qapaqlı Hacı Əsədin dükəninə tərəf baxmağı da unutmurdu: görsün Hacı Əsəd baxır ya yox!

– Allah eləməsin, Ağa, nə danışırsan! Az zınqılda burda, dur itil! (Ramazan çıxıb qapının önündə oturdu.) Buyur, buyur, Ağa, xoş gəlmisən sən bizim dükənə, səfa gətirmisən, qədəm əziz eləmisən, nə əcəb?

– Əcəb cəmalın, Hacı, bir az yalavaclıq eləməliyəm. Uşaqlar təzə libas istəyir...

– Ay çox mübarəkdi, gözəl işdi, inşallah neçə belə bazarlıqlar eləyəsən... Oğul toyu bazarlığı... Şəyirdinin günahı deyim böyükdü, böyük deyil; amma kiçik də deyil...

– Neynəyib axı?..

– Neynəyəcək, əlimə aftafa almışam, çıxmışam dükənin dalına, görürəm ki, usta Vartanın gədəsiynən aşıq-aşıq oynayır!.. Mən də bunu evə xörəyə göndərmişəm... Mölüm, dəli olmadım? Nə yemisən turşulu aş...

– Hə... əlbəttə, aşıq oynamaq qumar kimi bir şeydi, yaxşı eləməyib. Mən də tənbeh elərəm, nəsihətlərəm...

– Ay Allah imanuvu kamil eləsin...

– Amma dil öyrənmək üçün uşaqların bir-birilə mülaqatı vacibdi, Hacı, bir də ki, uşaq döymək heç yaxşı deyil.

– Neyşə, balam? Biz elə döyülə-döyülə böyüməmişik?

– Ona görə ki, onu həm qorxaq eləyirsən, həm də yalançı?

Hacı bir şey anlamadı:

– O niyə, balam?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qorxaq olar ona görə ki, elə biləcək elə hər üstünə qaldırılan əl onu vuracaq; yalançı olacaq, ona görə ki, səni qorxduğuna görə sevəcək, hörmət eləyəcək, əsil qəlbi məhəbbətini qazana bilməyəcəksən...

O deyə bilmirdi ki, beləliklə də onun nifrətini qazanacaqsan, ölümünü gözləyəcək ki, asudəliyə çıxsın, malına-miqdarına yiyələnə bilsin...

– Cəhənnəmə gora olsun! Oğulu bəs mən niyə böyüdürəm? O nankor balasını ona görə böyüdürəm ki, qocalanda əlimdən tutsun...

– Deməк, öz övladına rüşvət verirsən?

– Bu nə sözdü, Ağa?

– Yəni indi mən sənə verirəm ki, gələcəkdə sən də mənə verəsən...

– Hə də, bəs necə... – Hacı nəhayət ki, Ağanın onu anladığına sevindi.

– Day onda bu valideyn məhəbbəti olmadı ki... Bir də təqsir səndə deyil, Hacı, rüşvət almaq Allahdan qalıb...

Hacının canına titrətmə düşdü:

– Əstəğfürullah elə, cəddüvə qurban olum, Ağa! Peyğəmbər balası olsan da, irağ-irağ ağzın əyilər...

– Sözümün canı var, Hacı! Elə indi sən özün də mənimlə razılaşacaqsan. Bax, nəzri neyşə verirsən, hə? Yəni deyirsən ki, ay Allah, sən mənim bu işimi düzəlt, mən də sənə filan şeyi verim. Bu rüşvət deyil nədi? Yaxud mən oruc tutum-namaz qılım, fitrə-zəkat verim; sən də məni behiştə göndər. Bəs bu da rüşvət deyil, nədi, hə? Mən ölüm özün bir dərindən fikirləş gör belədi, ya qeyri-belədi?! Verilən sədəqə, edilən ibadət qərəzsiz olmalıdı, heç kəs bunun əvəzində Allahından, peyğəmbərindən, imamından bir şey istəməməlidi. Bax, mənim dediyim budu...

Hacı Qədir başını aşağı sallayıb oturmuş və düşünürdü:

– İndi sən də doğma övladına çörək verirsən, geyindirirsən, döyüb-söyüb bu nemətləri gündə onun başına qaxırsan. Deyirsən ki, bax, unutma ha! Mən sənə beylə haqq-say eləmişəm, gərək sən də mənə bunları qaytarasan. Mənim fikrimcə bu da əvəz-əvəzdən başqa bir şey deyil, həm də ən pisidi. Mən belə qanıram ki, valideyn məhəbbəti əslən biqərəz və hər bir qəlb sındırmaqdan, nəfsi alçaltmaqdan uzaq olmalıdı. Övlada yüksək insani şərəf və qürur tərbiyə etməlidi. Belə olanda ata övladından həqiqi, qərəzsiz məhəbbət uma və gözləyə bilər...

Hacının düşüncələri qarma-qarış olmuşdu, anadan olandan bəri evində, ətrafında eşitdikləri ilə, dostunun ona dedikləri arasında heç bir uyğunluq görmürdü; amma bunlar onun fitrətən iti ağlına təsir etməyə başlayırdı. "Allah irağ eləsin, nəüzbillah, deyəsən Ağa haqlıdı axı..."



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu sözlərdən sonra Seyid Əzim yerindən qalxdı. Qəlbindəki qarma-qarışıq hissləri özü üçün o qədər də ayırd eləyə bilməyən hacı da ehtiramla yerindən durdu:

– Cəddüvə sadağa gedim, Ağa, nə tez təşrif aparırsan bəs? Bir çay buyurtdurum, qoy axı...

– Çox sağ ol, Hacı, içmişcən varam, icazə ver mürəxxəs olaq – o, kandardan o biri üzdə hıçqırığını kəsib oturmuş şagirdini səslədi: – Ramazan!..

Ramazan cəld içəri girdisə də başını aşağı əyib astananın içində dayandı, müti, qorxaq gözlərilə altdan-altdan gah müəlliminə, gah da atasına baxırdı. Amma bu baxışlar elə müxtəlif idi ki, onlardakı ifadə bir aləm, bir tablo qədər təsirli idi. Ataya yaltaqca, qorxaqca, müəllimə nəvaziş və məhəbbətlə. Seyid Əzim davam etdi:

– Oğul, dur gedək, uşqolun vaxtı keçir. Yəqin indi cənab molla Hüseyin gəlib. Axı bu gün əvvəlimci dərsiniz şəriət olsun gərək, elədi, bala?

Ramazanın sifətinə yaydığı göz yaşlarından, üzündə qəribə qara-qura cizgilər əmələ gəlmişdisə də artıq sakit olmuşdu, burnunu çəkib dedi:

– Bəli, Ağa, helədi...

Müəllim və uşaq arasındakı səmimiyyəti, oğlunun Ağa səmtinə necə bir minnətdarlıq dolu gözlərlə baxdığını görən, seyr edən Hacı Qədir təəccübləndi. O ömründə oğlunun atası tərəfə belə gözlərlə baxdığını görməmişdi. Qəlbində Ağaya qarşı qibtə qarışıq bir həsəd-hörmət oyandı, cəld oğluna özü də dərk etmədiyi bir səmimiyyətlə dedi:

– Ramazan, bala, keç dükənin dalına, haftafadan üzünə bir su çırp, sonra get; yoxsa Ağanın yedəyində hər kim səni görsə, elə biləcək ki, Ağa qaraçı balası tutub gətirib, o babalarından uzaq yerdə...

Uşaq atasının səsində acıq, qəzəb, bayaqkı dəhşəti eşitmədiyindən duruxmuş, gah ona, gah da Ağaya baxdı. Ağa gülümsəyirdi, o şair qəlbilə atadakı ani təbəddülatı hiss etmişdi, fərəhlə şagirdinin qırxıq başını sığalladı.

– Hə, hacı düz buyurur, nə durmusan, qaç, ləngitmə məni...

Uşaq dükənin arxasına keçdi. Cəld əl-üzünü yumağa, üstünün toz-torpağını çırpmağa başladı.

– Hacı qardaş, məni əfv buyur, hər halda özün də görəcəksən ki, övladın səni istəyib hörmət eləməsində ata üçün dünyalara dəyən bir zövq var. Ata ilə övlad arasındakı səmimi münasibəti heç bir şeylə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qazanmaq olmaz, sivayi məhəbbətdən. Məhəbbət böyük nemətdir, hacı, böyük nemətdir! Hələm-hələm bəndəyə qismət olmur, qismət oldumu, ləzzəti hər iki dünyaya dəyər. Cənab Allahdan sənə övladlarının məhz belə məhəbbətini arzulayıram...

Hacı Qədir, Ağanın ağzından çox dərin anlamasa da, yaxşı fal, yaxşı xeyir-dua eşitdiyindən xeyli mütəəssir olmuşdu. Həm də kim olursa olsun hər hansı bir ataya övladının böyük məhəbbətini qazanmaq xoş gələr.

– Çox sağ ol, Ağa, Allah imanuvu kamil eləsin...

Şair dedi:

– Sonra da, bax hacı qardaş, Bakıda bizim həmvətənlərimizdən Həsən bəy adında bir alim peyda olub, bir qəzet nəşr eləyir, millətimizin inkişafı üçün. Elə böyük də bir xərci eləmir, yazdır, ondan gətirtginən, qoy Ramazan oxusun, həm özün qulaq asıb gözəl-gözəl sözlərindən feyzyab olarsan, həm də Ramazan əqilli, çalışqan şagirddi, elmi, biliyi daha da artar.

– Ağa, deyillər axı qəzet yazanlar babidi...

– Mənə inanırsan, hacı?

– Bıy, həlbət ki... İnanmasam qulbeçəni yanuva oxumağa göndərrəm?

– Onda bu sözümə də inan! Onlar millətimizin düşmənlərinin qayırmasıdı. O adamların qayırmasıdı ki, millətin inkişafı, gözünü açması, onların cibişdanına ziyandı...

– Neynək, baxaram...

Seyid Əzim hacıya bələd idi, yəqin ürəyindən istixarə keçir, niyyət eləyib fal açdırmasa, bir işə ölsə də iqdam eləməz. Bəlkə, rasta düşdü, bu da Ramazanın məktəbə verilməsi kimi müsbət oldu.

O, cibindən bir nüsxə "Əkinçi" qəzeti çıxarıb hacıya uzatdı.

– Allah qoysa, hacı günortadan sonra Ramazan məktəbdən qayıdanda verərsən oxuyar bala-bala səninçün, özün görərsən ki, içində dinə, şəriətə dəyən heç nə yoxdu.

Hacı Qədir ehtiyatla qəzeti alıb piştaxtanın üstünə qoydu.

Şair söhbəti yenidən hacının ailəsi üzərinə gətirib soruşdu:

– Neçə oğlun var, hacı? Heç bir macal da olmayıb bu vaxtacan rəkdən söhbətləşək, dərdləşək...

Hacı Qədir:

– Bir beş-altısı olsun gərək. Rəhmətlik anam heç vaxt nə malının, nə də övladının sayını deməzdi; deyərdi göz dəyər. Soruşanda neçə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mal-qaran, qoyunun var? Deyərdi, kişi də qapısının heyvanını sayar? Neçə övladın var deyib soruşanlara cavab verərdi: "Heç nəcik, yeddinnəcik". Yəni yeddi nəmənədi ki! İndi onun sözü olmasın, sənin şagirdin bu Ramazandan başqa, Səfər, Şəban, Məhərrəm, Rəcəb...

Ağa güldü:

– Ay rəhmətliyin nəvəsi, bəs Allah bir üç-dörd oğul da əta eləseydi onda ərəb aylarının adı çatmayacaqdı, dayı nə ad qoyacaqdın?

Hacı Qədir də güldü:

– Doğru deyirsən, əşhədənbillah, elə hər uşaq olanda getmişəm mollanın yanına Qurandan ad çıxartsın. Deyib: "Hə, bu hansı aydı doğulub? Bəs filan! Hə, onda qoy elə anadan olduğu ayın adı da adı olsun..." Belə-belə keçib... hindi hər dəfə ay adı sadalayanda uşaqların adını səf tuturam, yadıma düşür...

Hər ikisi hacının zarafatına gülməkdə ikən, məsələdən xəbərdar olmayan Ramazan qayıdıb gəldi, indi onun sifəti tər-təmiz, üst-başı səliqəli idi, çantasını çiyninə aşırmışdı. Börkünü qırxıq başına keçirib qapının kandarında durmuş, müəllimini gözləyirdi. O, təəccüb dolu gözlərini gülməkdə olan atasına və müəlliminə dikmişdi. Nəhayət böyüklər gülmələrini kəsib onu gördülər.

– Hə, bala, düş qabağa görüm, gedək, – deyə Seyid qapıya tərəf yönəldi, lakin müəllimin "düş qabağa" deməsinə baxmayaraq, Ramazan qapının qabağında özünü yana verib, Ağanı irəli ötürdü. Onları yoluzaq etməyə çıxan Hacı Qədirin əli uşağın boynunu, gicgahlarını mehribanlıqla sığallayanda uşağın qəlbinə incə bir nəvaziş çökdü. Deyəsən, axı o bu günəcən atasının əlində belə bir nəvaziş duymamışdı.

Müəllim və şagird məktəbə yollandı. Yol uzunu şair dünən Həsən bəy Zərdabiyə yazdığı nəzmi düşünürdü:

Ey Həsən bəy müəllimi-dana!..

Orada elə misralar var idi ki, şair onları ürəyinin qanı ilə yazmışdı. Bəli, möhtərəm ədib, sən lap doğru deyirsən:

"Ağıl və elm ilə insan bütün dünyanı təsərrüf eləyə bilər" bunun üçün də məktəb açılmalı, maarif yayılmalıdır ki, insan elm qazana bilsin. Əgər şeri çap eləsə, Şirvan ruhaniləri arasına bir vəlvələ düşəcək ki, gəl görəsən, duruş gətirməyə hünər istər, igid istər:

Hər vilayətdə var beş-on kəsəbə,
Əlli min seyyidü axund, tələbə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlli dərviş, əlli mərsiyəxan,
Hamının sözləri tamam yalan...
Hamının fikri xəlqi soymaqdır,
Quru yerdə bu xəlqi qoymaqdır...

Bəli, Seyyid! Bu əlli min molla, seyid, dərviş, rozəxan sabah şeir dərc olan kimi sənin yaxandan yapışacaqlar... Duruş gətirəcəksən, gətirməlisən!.. Açıq mübarizə başlandı... daha bəsdir!"

Otaq birmərtəbə idi, bir növ tövləvari idi, uzunsov tikilmişdi. Dal həyətə açılan pəncərələrdən içəriyə işıq düşsə də otağı günəşli adlandırmaq olmazdı. Qapı ilə üzbəüz kəllə divarına qara yazı taxtası vurulmuş, böyründən tabaşirə bulaşmış kiçik yastıqca asılmışdı. Yazı taxtası ilə üzbəüz beş cərgə kobud taxtadan düzəldilmiş uzunsov mizlər və eləcə rənglənməmiş kətillər qoyulmuşdu. Bu beş cərgə kətilin üstündə yaşı on iki ilə on dörd arasında on bir uşaq oturmuşdu. Oğlanlar çoban yanlıqlarını xatırladan, çit və ya sətindən tikilmiş çantalarını mizin üstünə qoymuşdular. Kitab, dəftər və qələmdanlarını çıxarıb qarşılarına düzmüş, müəllimin gəlməsini gözləyirdilər. Bu dərs uşaqların ən çox sevdiyi fənn keçiləcəkdi: Ağa onlara şeir ülgüsü öyrədəcək, şeirdən, onun qayda-qanunlarından danışacaqdı. Türk və fars şairlərindən nümunələr söyləyəcək, hələ bəlkə özünün yeni yazdığı bir şeri də oxuyacaqdı. Sonra dərsin axırına yaxın onlar şeirləşəcək, müəyyən hərflə başlayan, bir beyt deyəcək, son sözün axırıncı hərfilə başqa bir şagird təzə şeir tapmalı olacaqdı. Uşaqlar bu canlı dərsləri çox sevirdilər. Bütün Şamaxı savadlıları kimi onların hər biri, qəlbinin ən gizli yerində böyüyəndə Ağa kimi şair olmağı arzulayırdı. Odur ki, bu sevimli fənnin və onun sevimli müdərrisinin intizarında ikən nadinclik etmək, hay-küy salmaq çocuqların ağlına da gəlmirdi. Onlar ədəb fənnini ədəblə qarşılamağa çalışır, bildikləri mənzumələri yada salır, özlərini dərsə hazırlayırdılar. Hamıdan çox bu dərslərin intizarını balaca Ələkbərlə Ağalarbəy gözləyirdi.

Seyid Əzim içəri girəndə şagirdlər yerlərindən dik qalxdılar. Müəllim əl işarəsi ilə onlara oturmaq üçün icazə verdi:

– Əyləşin, əyləşin, balalarım!

Uşaqlar dinməz-söyləməz, kətilləri taqqıldatmamağa çalışaraq, yerlərində əyləşdilər. Ağa yazı taxtasının sağındakı mizin başına keçdi. Balaca Ələkbərin fərəhdən çiçəyi çırtladı, müəllim onun əyləşdiyi mizin qənşərində yer seçmişdi... Payızın əvvəlləri olduğundan müəllim qara geyməsinin üstündən mixəyi əba salmış, təmiz qırxılmış başına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mixəyi hündür papaq qoymuşdu. Qara xəttində təkbir ağ tüklər gümüş kimi parıldasa da hələ də rəngdən istifadə etmirdi. O, əbanın altından, qoltuğunda gətirdiyi kitab və bayazları çıxardıb mizin üstünə qoydu, sözə başladı:

– Balalarım, dünən sizə söz verdiyim kimi bu gün şeirdən danışacağam. Şeir bir gülə nisbətdir – rəngi gözlərə ziya, ətri dimağa fərəh verər. Şeir – bir parça çörək kimidir – insan onu yedikcə yeyər, – tənəffür etməz; olmayanda mənəvi aclıq duyar. Şeir qüdsi bir nemətdir, mənəvi! Qulaqları incəldər, qəlbə dərin-dərin təsir qılar. İnsanı riqqətə gətirər, onu xoş əməllərə, xeyir işlərə çağırar. Gülə nisbəti zahiri gözəlliyində, çörəyə nisbəti batini məzmununda, qüdsiyyəti təsiri gücündədir. Şerin dörd rüknü var; vəzn, qafiyə, hissiyyat, məzmun. Bunlarsız şeir quru söz yığımıdır.

El-obamız həmişə şerə mayil olub, vətənimiz bu qaydalara rəayət edib, gözəl şeir yaradan bir silsilə şair yetirib ki, hər biri, bir fəxri-cahandır. Şeyx Nizami, Xaqaniyi-Şirvani, Məhəmməd Füzuli rəhmətüllah... adlarını saymaqla qurtarmaz. İş elə gətirib ki, bədbəxt, başdan-ayağa bisavad olan əhlimizdə hər iki hərf yazmağı bacaran baqqal da, şairlik iddəasına düşüb. Amma, hər nəzm şeir olmadığı kimi, hər nazim də şair deyil. Əsil şairdə ilham gərək ola, elm gərək ola. Şeri gözəlləşdirən təşbehat, mübaliğat və sairədən xəbərdar ola gərək. Əntaq yarada, yəni – quşların, heyvanların dilini bilə – Musa kimi nitq verə, danışdıra; məsələn Füzuli səba yelinə danışmaq qabiliyyəti verən kimi:

Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin.

Mübaliğə yolu ilə əzabın və ya məhəbbətin dərinliyini, böyüklüyünü bildirə:

Səngi-məlalət ilə çəkin çevrəmə həsar,
Əşkim fənayə verməsin əhli-səlaməti

beyti Füzulinin böyük dərdinə tərcüman olan mübaliğədir. Təşxis yarada, – cansız əşyanı şəxsləndirə, ona insan sifəti, insan qabiliyyəti verə:

Dil uzadır bəhs ilə ol arizi-xəndanə şəm,
Od çıxar ağzından, etməzmi həzər kim, yanə şəm?

Məlum ki, dil çıxarmaq insana aid işdir. Füzuli şəmi şəxsləndirib, ona insani sifət verdiyi kimi. Şerin bəzəkləri çoxdur; şairin məşşa-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təmisal qələmi, şeri, toy-bayram üçün bəzənən qız-gəlin təki süsləyə bilməlidir

Birdən carçı Mahmudun zil səsi eşidildi. O nə isə bərkdən bar-bar bağırır, camaatı Qapan meydanına dəvət eləyirdi. Məktəbxanaya yaxınlaşdıqca Mahmudun səsi daha da aydın eşidilməyə başladı:

– Ay camaa... aa.. aat...t, heyy... Gomumat hamını Qapan meydanına çağırtdırır, bu gün günorta namazından sonra quldurların başçısı. hökumətin, divan-dərənin düşməni, xalxın malını-pulunu talayan, yolları yolçusuz, çox evləri başçısız qoyan, karvan vuran, sarvan qıran Cəbi oğlu Cavad, padşahın əmriynən boğazdan asılacaq... Gəlin... in... ha... gəl-in-in...

Uşaqlar nəfəslərini çəkmədən qulaq asırdılar. Hərənin üzündə bir cür ifadə var idi, kimi qorxmuş, kimi kədərlənmiş, kimi heyrətdən döyükmüş təki... Şair "bir insan, bir fəqir tərəfdarı, bir sailə əl tutan, bir qəsbkar, zalim qənimi, bir məzlum pərəstarı da dünyanı tərk edəcək" deyə düşündü... lakin özünün də xəbəri olmadan carçı Mahmudun qarasına deyindi; hər də şeirlə:

Qədəmi-namübarəki-Məhmud
Çun bədərya rəsəd bərarəd-dud[1].

Uşaqların əksəriyyəti fars dilini anladığından müəllimin bu sözləri məhz carçı Mahmud haqqında, indicə bədahətən dediyini düşündülər. Elə bu zaman carçının qovuna bənzəyən uzunsov başı qapıdan içəri uzandı. Carçı ədəb-ərkan sahibi idi, erməni-malağan məktəblərində müəllim və şagirdlərin dərsxanaya başıaçıq girdiklərini görmüşdü. Odur ki, mədəniyyətini büruzə vermək istəmiş və papağını çıxarmışdı. Onun əcayib başı uşaqların qeyri-ixtiyari gülüşməsinə səbəb olmuşdu. Müəllim sinfə ciddi bir nəzər saldı: "Dişlə dodağın arı olmaz" deyiblər, elə bil indicə eşitdikləri ağır xəbər üçün ürküşən quzular bunlar deyil. Sən nə qəribəsən, həyat? Sənin hər addımında faciəylə gülüş çiyin-çiyinə gedir".

– Nə buyurursun?

O carçının nə xəbərlə gəldiyini bilirdi. Carçı "adəti mollaxanaya" oxşamayan sinfə döyükmüş gözlə baxırdı. Sanki nə üçün gəldiyini unutmuşdu. Ağa onun halını başa düşüb dilini açmaq üçün sual vermişdi.

---

[1] Mahmudun namübarək ayağı
Dəryaya dəysə, tüstü çıxarar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ağa, cənab piristo buyurub ki, məktəbxana mollaları öz şagirdləriynən bahəm hökmən Qapan meydanına gəlsinlər. Hökumətə ağ olmağın cəzasını öz gözləriylə görməkçin, yəni görk olmaqçın...

Seyyidin bikef əhvalı bir az da pozuldu, getməsə, şagirdləri də aparmasa, bu da hökumət nəzərində yaman bir iş kimi qələmə veriləcək, bədxahlar bundan da, onun və məktəbin əleyhinə istifadə edəcəklər. O könülsüzcə dilləndi:

– Yaxşı...

Aman, dostum, dayan, dostum, ayaq saxla, tələsmə! Hara gedirsən? Axı qorxuram ki, ürəyin dözməyə, sən belə tamaşalar görməyə adət etməmisən, sən başqa dövranın övladısan... Axı bu gün sənin Vətəninin ən igid oğullarından birini Babək, Koroğlu varisini edam edirlər. Mogər carçı Mahmudun sözlərini eşitmədin? Bəlkə, heç inanmırsan? Elə bilirsən ki, bizi həmin meydana güləşə çağırırlar! Deyil, dostum, elə deyil, qolumdan dartıb aparma məni! Bir igidin, bir cəngavərin də əlimizdən getdiyini görmək ağırdır, ağır! Ürəyin dözməz, yalvarıram sənə, getməyək... nə olar! Axı biz çox itirmişik... belə igidləri, rəşadətli oğulları çox itirmişik! Yaxşı, indi ki, gedirsən, belə təkid eləyirsən, gedək, gedək görək mərdanə atalarımız-babalarımız necə köçüb dünyadan? Gedək görək igidlər necə ölür? Gedək görək qəhrəmanlar düşmən qarşısında necə bir mərdanəliklə dayanır?!

...Qapan meydanının ortası boş idi, təmizlənmiş, kürənmişdi. Bu boş dairə sulanıb süpürülmüş, üstündən Xarratbazardan gətirilmiş təzə oxantı tökülmüşdü, elə bil güləş gedəcəkdi. Dairənin ətrafında adam əlindən durmağa yer yox idi, iynə atsaydın yerə düşməzdi. Meydanın tən ortasında dar ağacı qurulmuşdu. Dar ağacının sağ əlində təzəcə prixod mollası olmuş Molla Qurbanqulu dayanmışdı. Əlində Buxara işi cildə tutulmuş bir Quran var idi. O bu Quranla Cəbi oğlunu dualayacaqdı, ona son nəfəsində tövbə verib, günahlarını bağışlatdıracaqdı. Molla Qurbanqulu qara misri əbanın üstdən çiyninə qiymətli sarı Xorasan kürkü salmış, başına Şirvan ipəyinin ən zərif və bəyaz parçasından əl dəyirmanının daşı boyda bir əmmamə qoymuşdu.

...Seyyid meydana çatanda şagirdlərinin lap xırdacalarına evə getmək üçün icazə vermiş, qalanlarını da bu dəhşətli faciəyə, tük ürpərdən mənzərəyə baxmaq üçün məcburiyyət qarşısında, ürəyi kəsilə-kəsilə gətirmişdi. O yaxşı bilirdi ki, bu mənzərə uşaq üçün deyil, "heç böyük üçün də... amma neynəyəsən... görk olmalıdı. Zərurət... zəru-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rət... səni doğuran qanunlar lənətə gəlsin". Onun gözləri dar ağacının sağ əlində durmuş Molla Qurbanquluya sataşdı. "Aha... qoca... tülkü... indi də Allahın kəlamı ilə namus əsiri bir bədbəxti o dünyaya göndərməyə hazırlaşırsan... heç bilirsənmi ki, o nə üçün, hansı əməllərinə görə qaçaq olub, niyə divanla döyüşüb Nəbi kimi? Haqdımı, nahaqdımı. Məgər o Alışdan murdardı? Bəs niyə Alışa tövbə verib üzə çıxartdın? Arxa durdun, qızını da verdin, elədikləri qan-qadaları ört-basdır elədiniz getdi... Bu binəvanı isə..."

Şairin xəyalını sərt sədalı təbil səsləri qırdı... iki cərgə gözətçinin silahlı nəzarəti altında Cəbi oğlu meydana gətirildi, aşağı tərəfdən camaat ikiyə aralandı, təbillərin həyəcanlı ürək döyüntüsünü andıran vurğularından başqa səs eşidilmirdi. Bu vurğular... ah bu vurğular... Ön cərgələrdə balaca uşaqlar, hətta kiçik qardaşını dalına sarımış altı-yeddi yaşlı bir qız uşağı da görünürdü...

Şairin iqtidarı olsaydı, bu təbil sədalarını durdurar, dustağı azad edər, burda bir cəngi vurdurar, güləş meydanı açardı... Amma nə edəsən ki, hələ dünyada şairlərin hökm verdiyi yer yoxdur... Eh... Əgər olsaydı, şair nə edərdi? Şirin Abdulla demişkən dünyada bir ac qalmaz, bir yalavac görünməz, bir kəsə ölüm hökmü verilməz, heç kim zülm əlindən dağlara çəkilməzdi...

Yenə şairi hökm oxuyan zabitin və onu tərcümə edən tərcüman-dilmancın səsi xəyaldan ayırdı. İndi artıq təbil vurulmurdu, hökm oxunurdu, Cəbi oğlu Cavadın günahları sayılırdı... "Kimsən, nəçisən, niyə bu dar ağacı ayağına gəlib çıxmısan, ay oğlan? O qara daşlar altından cürət və bir qədər də istehza ilə baxan gözlərin kimə qarşı qəzəblənib? Niyə qəzəblənib? O açıq alnındakı qırışlar hansı dərdin, hansı ələmin qələmilə çəkilib? Gözlərin, yığılan bu donuq aləmdə kimi axtarır? O beli bükülmüş, saçı-başı açıq, bu dağ havasındakı sazağı duymayan qarı nəyindi? Yanındakı gəlin kimindi? Oğlan, son sözün, son arzun nədi, kimədi, Vətən oğlu? Alxas bəyin tayalarına od vurmusan, niyə? O od qəlbini yandıran hansı atəşin qığılcımıydı?.."

...O artıq hökmnamənin ardını eşitmir, qəlbinin dərinliklərində Cəbi oğlu ilə söhbət eləyir, gəncin heç bir hərəkətini nəzərdən qaçırmamağa çalışırdı. Cəbi oğlu cavan idi, iyirmi beş-iyirmi altı yaşı güclə olardı. Üst-başı tərtəmiz idi, ayaqlarında evdə, yer hanasında toxunma patava və şatır çarıq vardı. Təmiz ülgüclənmiş başına şikari papağ qoyulmuşdu. Qara mahud çuxası nimdaş olsa da, səliqəli idi, o kənd-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lidən ziyadə kasıblığa, qara günə düşmüş ziyalıya bənzəyirdi. Ona nə dedilərsə, xəfif bir təbəssüm nazik dodaqlarını tərpətdi. Yasavulun işarəsilə qoca arvad dizin-dizin sürünə-sürünə oğluna tərəf iməkləməyə başladı... Bəlkə də, indi onun gözlərində balasının ona qarşı iməklədiyi günlər canlanmışdı. Arvadın baxışları şüurunu itirmiş, varlığından bixəbər insanın baxışları kimi idi... Cəbi oğlu yasavula necə baxdısa, ağa Bəşir, cəld əyildi, qarının qolundan tutub qaldırdı və qoltuğuna girib məhkuma tərəf gətirdi. Qarı balasına çatan kimi boynuna sarıldı. Arabir eşidilən hıçqırıqlar arasından Cəbi oğlunun gur səsi ucaldı:

– Ağlama, ana! Əgər bu dünyadan rahat getməyimi istəyirsənsə, nəbada ağlayasan. Düşmən sənin gözünün yaşını görməsin, görsə ruhum səndən inciyər.

Sonra da əyilib ananın əlindən öpdü, döşündən öpdü, gözlərindən öpdü:

– Sözümüz sözdü: düşmən gözünün yaşını görməsin, ana! Mən binamıs oğul olmamışam, binamıs anası ağlasın gərək... Başını uca tut!..

– Tuturam, ağ-ğlamı-rram...

O oğlunu yaylaq quzusu duz yalayan təki yalayırdı... Çoxlarının gözlərindən yaş payız yağışı kimi səssiz-səssiz, aramsız-aramsız axırdı...

Yasavul ağa Bəşir zabitin işarəsilə arvadı oğlundan ayırıb apardı. Yenə qoltuğuna girib apardı. Cərgədə durmuş gəlininin qolları arasına buraxdı: bir yük kimi, cansız bir tay təkin... Onun artıq nə hıçqırığı, nə də səs-səmiri gəlirdi. Cəbi oğlu dar ağacı altına qoyulmuş kətilin üstünə çıxdı, indi o ətrafındakılardan bir kətil boyu ucada durmuşdu. Başı üzərində yellənən halqaya əhəmiyyət vermədən bir an ətrafı – dörd həndəvəri, üfüqlərə qədər uzaqları gözdən keçirtdi. O, Vətən mülkiylə, Pirdirəki dağı ilə, Pirqulu yaylasıyla, Gülüstanla vidalaşırdı, o, Rusarçayın, Zoğalavayın son şırıltılarınımı eşidirdi? Nanəlinin, Minaxorun buz qurtumlarınımı içirdi?.. Yaz ətirli, qışı buz nəfəsli, payızı əlvan meyvə qoxulu havasınımı tənəffüs edirdi, Vətənin? Bu son vida baxışlarında, təkcə dar ağacı dibində durmuş adamlar üçün yer yox idi. Birdən o, cəld hərəkətlə başı üstündə xəfif-xəfif yellənən kəndir halqasını tutub boynuna keçirtdi və qəti bir hərəkətlə kətili itələdi... Uşaqlardan, tamaşaçı körpələrdən kim isə qışqırdı:

– Vayyy... əmi neyşə elə elədi?

Sükut içində cingildəyən bu körpə səsindən başqa, Qapan meydanında heç bir şey eşidilmirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Şair yumulu, yaş süzülən gözlərini açanda yanında, Cin Cavadla Yetim Hüseyni gördü, arxa tərəfində isə Şirin Abdulla dayanmışdı. Uşaqlar çoxdan dağılışıb getmişdi, adamlar da artıq iş-gücünə qayıtmaqda idi. Dar ağacının dibində əlisilahlı gözətçilərdən başqa kimsə qalmamışdı. Faciə baş verib qurtarmışdı, heç də şairin gözlədiyi olmamış, son dəqiqədə əfv gəlməmişdi. Halbuki o buna nə qədər də ümid edirdi. Məgər bir tikə ad-san, bir balaca vəzifə, bir ovuc pul-mal almaq üçün yalandan şahid keçənlər, var-dövlətini artırmaq həvəsilə insan sifətini itirmiş bəy-xanlar, mollalar ona əfv gəlməyə imkan verərdilərmi? Onu elə qələmə vermişdilər ki, əfvə də ümid olsun... Cin Cavad, Yetim Hüseyn və Abdulla şairi yedəkləyib divar dibinə çəkmiş, buradan da onu Cavadın daima oturduğu Bəzzaz bazar meydanındakı məlum tut ağacının dibinə gətirmiş, böyük daşın üstündə oturtmuş, indi də şərbət içirtməklə məşğul idilər. Cin Cavad hələ bir zarafat etməyə də təşəbbüs elədi:

– Cəbi oğlu Cavad elə getdi... görək Cin Cavad necə gedəcək...

Seyid Əzim dostunun əlini üsulluca sıxıb dilləndi:

– Belə şeylərə zarafat eləmə, Cavad, mabeynimizdəki dostluq haqqı inciyərəm səndən.

O, Yetim Hüseynin şərbətdardan alıb gətirdiyi şərbəti qurtum-qurtum içib Abdullaya döndü:

– Şirin, kömək elə, görüm, birtəhər özümü necə evə çatdırıram.

Yetim Hüseyn də onlara qoşuldu:

– Mən də elə o yana gedirəm. Ağa, izin versən səniylə gedərəm... Amma belə yerlər heç şair yeri deyil, Ağa, lapca nahaq gəlmisən...

– Gəlməmək olmazdı, Hüseyn, pristav carçı Mahmudu məxsusi məktəblərə göndərmişdi...

Hərə öz düşüncəsinə dalmışdı. Yol uzunu Cin Cavad qəlbində düşünürdü:

– Ay Cəbi oğlu sənə "yazıq" deməyə də dilim gəlmir... İgidsən... Amma tək-tək... Bundan bir şey çıxmaz... Zülmün kökünü kəsmək üçün ellik, birlik gərəkdir... "El bir olsa zərbi kərən sındırar" deyiblər... Niyə Babək otuz iləcən dünyanın yarısını fəth etmiş ərəb xilafətini lərzəyə sala bildi?.. Niyə Koroğlu adı, fateh türk paşalarını qərinələrcə titrətdi?.. Çünki birlik var idi... Babalarımızın rəşadəti analarımızın tərbiyəsindən asılıdı... Koroğlunu, Babəki böyüdən ana zirək, aslan ürəkli sərkərdə anası olub. O vaxtdan bəri analarımızın ürəyi yuxalıb,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

özlərinin təlim-tərbiyəyə ehtiyacı var... Nə qədər ki, analarımız "get oğul, düşmənlə vuruşanda, zalımla üz-üzə gələndə kürəyindən vurulsan – südüm sənə haram olsun", deyib tərbiyələndirmir, belə də olacaq. Gərək ana qəhrəman doğsun, qəhrəman tərbiyə eləsin. Bu qəhrəman da zülmə, əsarətə dözməsin, məhrumiyyətlərlə barışmasın, çarpışsın. Azadlıq sədəqə deyil, onu vermirlər, alırlar. Qardaşım, sən bu azadlıq uğrundakı qurbanlardan birisən, təəssüf ki, qanın hədər getdi...

Onlar şairin mənzilinə doğru irəlilədilər. Yolda Yetim Hüseyn bala-bala zümzümə eləməyə başladı:

Ay Cəbi oğlu Cavad,
Əlində qələm-davat,
Dövrəsin aldı saldat,
Boğazdan asdı cəllad...

Yetim Hüseyn oxuyurdu. Amma bu sözlərin onun öz dodaqlarına haradan, necə axıb gəldiyini bilmədən zümzümə edərək irəliləyirdi. O, Mahmud ağanın evində ilk dəfə samovar çayı içiləndən sonra qoşulan "simavərə od salmışam", "cigir-cigir" havalarını da beləcə, necə yarandığına əhəmiyyət vermədən uyğunlaşdırıb oxumuşdu... İndi də Yetim Hüseyn öz aləminə dalmışdı. Bu aləm indi dərdli bir zümzümədən ibarət idi ki, şair bu mızıltıları dinlədikcə, xalq arasında yaranan şerin sadəliyini, sürətini günün hadisəsilə tez səsləşməsini daxili bir həyəcan və heyrətlə dinləyirdi. Yetim Hüseyn isə öz dünyasında idi, onun köhnə Hüseyni qarasından tikilmiş köynəyinin düymələri yox idi, yaxası açıq idi. Sinə taxtasına doğru uzanan qabırğalarının sayını bilmək olardı (bəlkə də, ona elə buna görə yaxası açıq yetim deyirdilər). Buğdayı sifətini tük basmışdı, xətbaşı vurdurmadığından cuhud Şəmiyə oxşayırdı saqqalı. Qədək şalvarının dizləri üzülmüş, bir neçə yerdən yamanmışdı, bu yamaqlar da çox şırım-şırım sallanmışdı. Ayaqları yalın idi, yalın ayaqlarına yırtıq xam çarıqlar geymiş və üstündən patava ilə sarımışdı. Ömründə corab-başmaq görmədiyindən bərkiyib buynuza dönmüş dabanları bu patavaların cırığından görünürdü. Çıxartdığı tikanların yeri bu dabanlarda kələ-kötür çuxurlar açmışdı. Amma bütün bədənində, laqeyd insanların və bimürüvvət təbiətin toxuna bilmədiyi bir ürək qalmışdı ki, indi bu ürək öz sözlərini qoşur, öz musiqisini bəstələyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavad yatdı at belinə,
Keçməzdi düşmən əlinə,
Düşdü namərdin felinə,

Ay Cəbi oğlu Cavad,
Əlində qələm-davat,
Dövrəsin aldı saldat
Boğazdan asdı cəllad.

Fit dağından yel tək əsdi,
Alxas bəyin əhdin kəsdi,
Cavadım Koroğlu səsdi.

Ay Cəbi oğlu Cavad,
Əlində qələm-davat,
Dövrəsin aldı saldat
Boğazdan asdı cəllad.

Hə, şəhərin küçə və bazarlarını Yetim Hüseynin zümzüməli mahnıları olmadan təsəvvür etmək mümkün deyil:

Şirvanın gecələri,
Banlaşır beçələri,
Sənsiz mən necə yatım –
Bu uzun gecələri?

Şirvanın şirin narı,
Yeməyə şirin narı,
Var-dövlət sizin olsun,
Göndərin bizim yarı.

Yetim Hüseynin Şirvan şikəstəsinin ayrı dadı vardı, hamısı da Şirvan ya Şamaxı sözlərilə başlayır. Arabir bu mahnıları dinləyənlər ona sataşır, xüsusən onun daima məhəbbətdən bəhs edən bayatılarını, şikəstələrini eşidəndə Cin Cavad deyir:

– Aadə, Hüseyn, neyşə sənin bütün oxuduqların elə yardan danışır?..

– Neynim, ay qardaş, deyir:

Aşıq dar üstən gəlir,
Heyva nar üstdən gəlir,
Qırılmışın mahnısı
Hamısı yar üstən gəlir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetim Hüseynin daimi zümzümələrini gəncliyindəki nakam məhəbbətə yozanlar olduğu kimi, başqa cür anladanlar da var idi:

– Əh, nə dərdi, nə qəmi... beşdə alacağı yox, üçdə verəcəyi, töycü vermir, naloğ vermir... ev dərdi, uşaq dərdi, əhli-əyal fikri çəkmir, bir canıdı, harda axşamlayır, orda gecələyir... o oxumayanda mən oxumayacam ki... səhərdən axşamacan çortkə, mal...

– Hə, elə ərəblər yaxşı deyiblər ki, Allah lüt adamı paltar yumaq əzabından qurtarıb...

Amma bu ağalar bilmirlər ki, qışın zəlo-zəlovunda Yetim Hüseyn üşüdüyündən oxuyur...

Nə olursa-olsun bir gün səsi gəlməyəndə baqqallar belə adəti laqeydliyini unudub qonşularından soruşurdular:

– Ayə, İrzaqulu, Yaxasıaçıq yetimin səsi gəlmir, hardadı görəsən?

– Hə balam, elə mən də məəttəl qalmışam, bəlkə Kərbəlayı Manaf bir yerə göndərib, ya da canundan iraq yerdə azarlayıb...

– Aaadə, o da azarrar? Onun heç ufultusunu eşidən olub yanı? Canı daşdan bərkdi...

– Allahın yazığı gəlib deyirəm...

...Səhər çoxdan açılmışdı. Ağa tələsik səhər çayını içib getmişdi. Ceyran nə üçünsə bu gün bədənində bir ağrı hiss etdiyindən yer-yurdu yır-yığış eləməmiş, çay süfrəsini qayınanasının otağından toplamış, nənələri ilə bir otaqda yatan uşaqlara belə toxunub oyatmamışdı. Ceyran çox narahat idi. Bir neçə vaxtdan bəri evlərində küsülülük olmasa da, ona bənzər bir hal mövcud idi. Və bunun da səbəbi o biri otaqda Ağa ilə Ceyranın arasında qundağı qoyulmuş Ayişə idi. Qız doğulandan bəri, daha doğrusu uşağa ad qoymaq, şəbbəxeyir eləmək lazım gələndən bəri evdə, uzaq qohum və tanışların arasında cəncəl qalxmışdı. Hamı Ağanın tutduğu işdən narazı idi, kimisi onu irağ-irağ sünnü adlandırır, kimisi dilim, ağzım qurusun, "o təzə çıxma babılardandı" deyir, bir başqası ayrı söz uydururdu.

Neçə dəfə Ceyran bu cəncəllərə səbəb olan, körpəsinə baxdıqca sevinci kədərə çevrilmiş, ana dili uşağa deyil öz-özünə qarğamışdı: "Ay Allah Ağanı dilə-dişə salıncan kaş bətnimdə boğulaydı, kaş dirigözlü zahılığdan durmayaydım, kaş Ağanın başı ağrı çəkməyəydi". Guya uşaq günahkarmış... Dəfələrlə bir sirr-sözünü açdığı anası Bikə xanım onu danlamışdı: "Ay bala", demişdi, Allaha acıq gedər. Cəddinə qurban olduğum özü eləyir, özünə. Sənin nə taxsırın var, uşağın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nə günahı var? Helə demə, qadoyalım! Allaha acıq getsə də, cəddinə qurban olduğum özü qoyub axı uşağa Aşa adını! Bilmir ki, o bizim dinimizin düşmənidi? Cənab Peyğəmbərə zəhər verəndi, cənab Əliynən davaya çıxan məlundu? Gül kimi seyid balama heylə lənətliyin adını neyşə qoyurdu ki, belə də olaydı?! Camaat neynəsin?

Ceyran anası olsa belə Ağanın qarasınca danışılmasına dözməmişdi:

– Can ana, canım ana, demişdi, axı Ağa deyir ki, o deyilənlərin çoxu düz deyil. Deyir Ayişə Peyğəmbər sələvatüllahın ən istəkli arvadı idi. Pis olsaydı, cənab Əli (bu yerdə Bikə xanım salavat çevirmək üçün qızının sözünü kəsdi, Ceyran özü də cümləsi ağzında salavat çevirib sözünə davam elədi) deyir onun Səffanla çöldə qalmağına görə hirslənəndə cənab Peyğəmbər (yenə də hər ikisi salavat çevirdilər) onu rədd eləyərdi, qeyrətli əmisi oğlunun sözünü tutardı. Amma deyir, sonra göydən cənab Cəbrayıl dalbadal bir neçə ayə gətirib, sübut eləyib ki, Ayişə bədəməl olmayıb. Odur ki, bu sözlər bekaradı.

Arvad karıxdı, bir söz deyə bilmədi. Sonra birdən gözəl simasını daha da işıqlandıran bir təbəssümlə gülümsədi, nə isə tutarlı bir cavab tapmışdı:

– Hə, o, qabaqlar olub... Canına qurban olduğumun sağlığında; amma bəs sonra cənab Əliynən dava eləyənlərin başında elə dəvənin üstündə oturan o özü deyildi?

Arvad elə safdil, sadə bir iman və etiqadla danışırdı ki, əsrlərdən bəri xalqın beyninə yerləşdirilmiş xurafatın gücü ona elə qalib gəlmişdi ki, bu dəmdə istəkli və cəddindən qorxduğu kürəkəniylə belə cəngə-cidala hazır idi. Ceyran anasının məntiqi qarşısında bir söz deyə bilmədi, o özü də bu məsələləri məhz anası kimi eşitmişdi. Evlərində göz açıb belə görmüş, dönəm-dönəm mollalardan belə eşitmişdi. Evlərində, qohum-əqrəba arasında Ayişə adını həmişə lənətlə yanaşı çəkmişdilər. Amma indi Ağa tamamilə başqa şeylər danışırdı; o başını aşağı salıb anasına cavab verərkən, səsində elə bir kədər, gözlərində elə yanıqlı, həzin yaşlar var idi ki, Bikə xanımın ürəyinin başı yandı:

– Amma indi Ağa deyir ki, bu qarmaqarışıqları salanlar bizim müsəlman millətinin, camaatımızın düşmənləridi. Deyir mollalar qəsdcən helə deyiblər ki, camaatı aldatsınlar. Mən deyir camaatımız arasından sünnü-şiə söz-söhbətin götürməkçin balalarıma deyir bundan sonra da helə adlar qoyacam, olanların hamısını millətimiz yolunda qurban verəcəm, deyir bununkunu Aşa-Fatma, bundan sonra olsalar, Allah versə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adların Ömərdən, Osmandan qoyacam... Dilim qurusun, ana... atadı, neyləyə billəm? Cəddi mənə qənim olar, ana, neynim?!

O üzüqoylu anasının dizi üstünə yıxılıb ağlamışdı.

Bir haşiyə çıxım sizinçin, dostlar! Ceyran haqlı idi, Seyyid doğrudan da bundan sonra doğulan oğullarının birini Seyid Ömər, digərini Seyid Osman adlandırmışdı. Seyyid nə bileydi ki, zaman keçdikcə Ayişə-Fatmanı təkcə Seyid Fatma adlandıracaqlar? Seyid Ömər kiçikkən vəfat etdiyindən bu kəşməkəşlərdən qurtaracaq. Seyid Osman adına zəmanəsinin tərəqqipərvər alimi, müəllimi Rəşid bəy Əfəndiyev belə inanmayıb, özünü Seyid Osman adlandıran uşağı şirvanlı tacir yanına aparacaq və onun şəhadətini dinləyəcək: "Bu mənim həmvətənim Hacı Seyid Əzim Şirvaninin oğlu Seyid Osmandır, bunun bir qardaşı da var, adı Seyid Ömərdir, bacısının adı Ayişədir. Ataları bunları millət üçün, birlik xatirinə qurban verib" deyəcək. Bu sonra olacaq! Uşaqlar şiə məhəllələrində adlarını deməkdən utanacaqlar! Qart şiələr bu adları nifrətlə çəkəcək, uşaqlara acıyanlar onların adını dəyişəcək, birinə Seyid Fatma, digərinə Osman əvəzinə Ağa Seyid deyəcəklər. Bu da sonra olacaq! Amma indi, indi hələ bütün bu ailə çərçivəsindən çıxan fəlakət təzə başlayır.

Gəlin, Ceyranın qəlbini dinləyək. O elə vurur ki, nəbzini tutsaq, Zakir demişkən alavından, hərarətindən barmaqlarımız qabar atar. Ana ürəyi çırpınır, o biri otaqda Ayişə-Fatma ağlamağa başlayıb, Ceyran bunu eşidirdi, amma, yır-yığışını bitirib getmək istəyirdisə də qəlbindəki fikirlər, ürəyinə hücum etmiş qara-qorxu və düşüncələr bala ağlartısını ondan uzaqlaşdırır, məsafə arxasına atır, uzaq, çox uzaq bir sızıltıya çevirirdi. Bu sızıltı bir neçə vaxt əvvəl evlərində qopan tufan, dedi-qodu içində itib batırdı. O günü Ağa uşağın adını Molla Səfərin dəftərinə saldırıb qayıtmışdı, xəbər də ildırım sürətilə şəhərə yayılmışdı. Uşağı təbrikə, göz aydınlığına, şəbbəxeyirə heç kim gəlməmişdi. Bir gün axşam Ağanın bala otağına toplaşan kişilərin uca səsləri hələ də onun qulağını dəlirdi.

Cin Cavad deyirdi:

– Mən də sənin tərəfindəyəm hər şeydə, Ağa! Amma bu ad neyşədi axı? Mən olsam, özgəsi olsa, nə eybi? Amma sən gərək elə eləyəsən ki, haqq-nahaq bu qırılmış həşəratın ağzına saqqız verməyəsən çeynəməyə.

Rağib deyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən də aadə, ağa Cavadın sözünə şərikəm, gərək bir əvvəlcən biznon məsləhətləşeydün... Gərək sən... uşağa yazığın gəleydi...

Ağanın qəzəbli səsi alçaqdan, boğuq çıxsa da Ceyran onun hər kəlməsini ayrıca bir diqqətlə dinləyirdi:

– Bəli, elə mən... Məhz mən, ağalar! Bəs hamımız söz-sözə gələndə deyirik ki, bu sünnü-şiə təəssübü bizim millətin, camaatın evini yıxır, işə gələndə qaçıb, daldaya dürtülürük?! Yox, belə olmayacaq! Ya gərək biz özümüz dediklərimizi əməlimizdə camaata göstərək, ya da ki, heç nə çıxmaz quru boş-boğazlıqdan. Qardaşlarım, mənə inanın. Bu dərd böyük dərddir ki,dili, qanı, rəngi, milləti, lap elə dini də, peyğəmbəri də bir olan, dədə-baba bir torpaqda nəşvü nüma tapan adamlar, ayrı-ayrı məzhəbə qulluq eləsin, nə var, nə var, Ərəbistanda iki qəbilə riyasət üstündə iki dəstə, iki firqə olub bir-birini qırıblar...

Ceyran sözlərin, bəzi kəlmələrin müstəqim mənalarını bilməsə də, cümlələrin, söhbətin ümumi məalını dərk edirdi. Bu ümumi vəziyyəti, özünün, Ağanın və gələcəkdə körpəsinin çəkəcəyi bəlaları, əziyyətləri anlasa da, Ağa danışanda ona haqq qazandırırdı. Bəli, kim isə bu kin-küdurəti ortadan götürməlidir. Kim isə birinci olmalıdır. Bu da ancaq Ağa kimi şaxəli palıd, hörmət-izzət sahibi adam, Hacı Seyid Əzim Şirvani ola bilərdi. Qəlbini şübhələr diddiyi məqamda, Ağanın bu möhkəm dəyanəti, qorxmazlığı ilə bir qədər fəxr də eləyirdi. Yanında isə qayınanası oturub ağlayırdı. O arvadı birinci dəfə ağlayan gördüyündən, bir az da köyrəldi, qayınanasına qoşuldu... Bıy, gözlərindən yaş axsa da, axı indi ağlayan nə o, nə də qayınanasıdı. Arvadın səsi həyətdən gəlir.

– Ay bala, ay Cəfər, o uşağa nə gəlib elə cikkə çəkir?..

Ceyran otağa keçdi. Qayınanası da özünü yan otağa, körpənin səsinə onunla birlikdə yetirdi.

Ceyran yer yığmağa hazırlaşırdı ki, Minasoltan içəri girdi. O gəlinin yatacağına fikir verəsi deyildi. Onu həyalandırmaq, utandırmaq istəməzdi. Lakin birdən nəvəsinin, Ayişənin səsini eşitdi, uşaq ağlayırdı, Minasoltan bilirdi ki, uşaq ağlamaqdan çatlasa da, Ceyran qayınanasının yanında onun qanadından yapışıb ovundurmaz, süd verməzdi. Odur ki, nənə nəvəsinin səsinə tərəf döndü və heyrətindən donub qaldı. Ağa ilə Ceyranın yatacağının tən ortasında Ayişə üçün yer salınmışdı. Uşağın qundağı ərlə arvadın arasında idi... O əyilib uşağı qaldırdı, ovundurmaq üçün sinəsinə sıxdı: “Desinmi, deməsinmi? Ayıb

olmaz ki, olmasın gərək... Gəlin neyşə görəsən uşağı aralarına salıb? Yoxsa araları dəyib irağ-irağ?.. Nə üz verib?" Arvad bütün bunları düşünə-düşünə nəvəsini köksünə sıxıb, yırğalamağa və uşaq dili ilə dindirməyə, yalnız ana və nənələrə məxsus incə məzmunlu, uşağın gələcəyi ilə əlaqədar, ümid dolu mahnılar söyləməyə başladı:

Qız qızıla dönübdü,
Xəbəri yox oğlanların...

Dili mahnı deyir, ürəyində isə öz-özü ilə danışırdı:

"Yox, belə olmaz, arvad gərək əriynən yatsın, nəfəsi nəfəsinə dəysin, yoxsa soyuyarlar bir-birindən". O, cəld əyilib yorğan-döşəyi yığmağa başlayan Ceyrana baxa-baxa dilləndi:

– Qızım, şəriətimiz buna yol vermir. Arvad gərək ərnən birgə yatsın. Ulular deyib ki, uşağın qundağını ki, ərnən arvad arasına saldın, cavan adamsız yuxunuz şirin olar, çöyrüküb elərsiz yuxuda, altınızda qalar, boğular, ölər... Göydə mələklər körpəyə qarğayar ki, Allah, sən bu çağanı yer üzündən götür ki, (Ceyran "irağ-irağ" – deyə düşündü) bəlkəm istəkli ər-arvadın arasına girməsin, onları bir-birindən ayrı salmasın, nəfəs-nəfəsə yata bilsinlər. Arvad ərdən ayrı yatsa, ər ondan tez yadırğayar, qızım, gəlinin də ürəyi həmişə nisgilli qalar.

Ceyran qayınanasına diqqətlə qulaq verirdisə də, həyasından qızarmış üzünü qaldırıb, arvadın mehriban (vallah doğru deyirəm), hələ də gənc simasına baxa bilmirdi. Ürəyində düşünürdü:

"Nə rəhmətlik qayınanam var? Bizi Ağaynan həmişə xoşbəxt, mehriban görmək istəyir. Ara vuran, gəlini gözüm çıxdıya salan, hər ayıbın oğul yanında üzə vuran arvad deyil. Amma yazıq arvad nə bilsin ki, mən axır tufandan qorxmuram, qorxuram ki, Aşa adı qoyulmağına görə gəlib oğurlallar, balama sədəmə toxundurallar..."

Birdən hənirti eşidildi. Gəlin qayınana hor ikisinin gözləri yarıaçıq pərdə dalından həyətə zilləndi. Həyətə bir dəstə kişi girdi. Onlardan ikisini Ceyran dərhal tanıdı. Biri Xəlfə Cin Cavad, digəri Şirin idi. Onlar Ağanın qoltuğuna girmiş halda həyətə daxil olurdular. Minasoltan Ayişəni gəlinin qolları arasına tutuzdurub yaşmaqlandı, özünü həyətə atdı. Ceyran uşağı yarı yığılmış yatağın üstünə qoydu; cəld kəlağayısını alnından aşağı çəkdi, yaşmağını burnunun üstünə, yuxarı qaldırdı və artırmaya tərəf irəlilədi.

Minasoltan oğlunu darvazanın qabağında qarşıladı. Ortayaşlı dul qadınlara məxsus bir müstəqilliklə Abdulladan soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ağaya nə gəlib, Şirin?

Cavad Seyyidi otağa aparırkən, Hüseyn zümzümə ilə darvazadan ayrıldı, onu Baqqalbazarda "qarına-fətir" işlədiyi dükəndə ağası gözləyirdi. Abdulla isə anaya deyirdi:

– Elə, canında bir elə şey yoxdu, Minasoltan, sən nairahat olma, eşitmiş olarsan, qulağın xeyir xəbər eşitsin, bu gün axı qaçaq Cəbi oğlunu (o yanındakı Cavaddan irağ olsun deyə asılanın adını çəkmədi) boğazdan asdılar. Ağa da ordaydı, baxıb birtəhər olub... – Şirin, Ağanın Şirini, şirindil Abdullası elə həyəcanlanmışdı ki, "ş" səsi olmayan sözlər işlətdiyinin fərqinə varmır, necə gəldi danışırdı.

Ana anladı, indi şairi heç tək qoymaq olmazdı. Bir neçə gün əvvəlki inciklik bir anda qərib duman kimi əriyib yox oldu, yerində təkcə ana məhəbbəti, ana yanğısı qaldı:

– Keçin, keçin içəri, bala, Şirin, sən də keç, indicə çay qoyacam.

Abdulla da ananı başa düşdü, bu gün Ağa tək qalmasa məsləhətdir. O içəri keçənlərə işarə ilə səsini alçaldıb dedi:

– Xəlfə Cin Cavad içəridədi, yanındadı, Minasoltan! Sən dənin yerin de, mən tayları ulağa yükləyim, dəyirmana gedirəm. Bu gün dəyirman suvaqdı, nobat da bizim məhlənindi.

Minasoltan minnətdarlıqla çuvalların yerini Abdullaya nişan verib, kürəni qızartdı və çaydanı onun üstünə qoydu, oğlu ilə Cavad üçün çay dəstgahı hazırlamağa başladı. O işini görə-görə təkbir də deyirdi. Gün axşam olmuşdu. Kəblə Mürvətin əzan səsi, zəminxara bu gün daha da kədərli səslənir, ananın ürəyini qəm və xof doldururdu. O işini qurtarıb cəld xudavəndi-aləmə ibadət etməyə tələsirdi, dua eləməyə tələsirdi ki, ilticası bu aydın, firuzəyi səmaları ötüb göyün yeddinci qatına hamıdan tez çatsın. O böyük, gözə görünməz xudavəndi-aləm bədbəxt Cəbi oğlunun ruhunu dərgahından qaytarmasın, günahları varsa bağışlasın, balalarına, gözüyaşlı anasına, külfətinə rəhm eləsin; Minasoltanın öz bircə balasını da ütülərdən[1], yerin-göyün bəlalarından, nakəs şərrindən, divan-dərə sualından, namərd böhtanından, hər növ afətlərdən hifz eləsin... Arvad kürəni daldaya çəkib, çayın qaynamağına göz olmağı Ceyrana tapşırdı, sidq ürəklə dəstəmaz alıb, tələsə-tələsə otağa keçdi, canamazını açdı:

– La *ilahə illəllah*...

O gün axşam əzanından xeyli keçənəcən Cavad öz dostundan ayrılmadı. Otaqdan onun lətifələri aramsız eşidilirdi...

---

[1] Afət, qorxu, ictimai bəla



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səhər şair çox üzgün olsa da şagirdlərin gözünü yolda qoymadı, məktəbə gəldi, dərsini belə başladı:

– Övladlarım, bu gün sizə insan üçün vacib olan bir şeydən danışacağam. Hətta bu gecə həmin məzmunda bir təmsil də yazmışam sizdən ötəri. Söhbətimin axırında dəftərinizə üzünü köçürərsiniz və gələn dərsimiz üçün əzbərlərsiniz. Övladlarım, bir-birinizlə dost olun, səmimi rəftar eləyin, arxa olun, yaxşı yoldaşdan da yaxşı şeylər öyrənərsiz, fars şairlərindən Sədi rəhmətüllah yaxşı yoldaşın insana təsiri haqda bir hekayət nəql eləyir. Deyir ki, bir gün xəzanda bir quru yarpağa irast oldum, götürüb iylədim, gördüm gül ətri verir. Soruşdum: "Belə ki, gül ətrin var, yarpaq, məgər əslin güldür?" Dedi: "Yox, əslim gül deyil, amma bir müddət onunla birgə, yanaşı yaşamışam". İndi, övladlarım, əgər tək bir novbahar vaxtında yaxşı yoldaş, quru xəzələ gül ətri veribsə, yaxşı dost, yaxşı da arxa olar, həm ondan gözəl-gözəl xislətlər öyrənərsən, həm də dar gündə qahmar çıxar sənə. Balalarım, babalar deyib ki, "güc birlikdədi" yəni necə birlikdə? Qoca ərənlər belə nəql edirlər ki, bir gün bir kişi ölüm karvanının yaxınlaşdığını hiss eləyib, oğlanlarını yanına çağırır və soruşur: "Balalarım, güc nədədi?" Biri deyir: atda, biri deyir dəvədə, biri deyir şirdə-pələngdə... Ata deyir: "Xeyr, elə deyil, güc insandadı. Daha doğrusu insanın birliyindədir. İndi gedin hərəniz iki çubuğ kəsin, gətirin bağdan". Oğlanlar atalarının arzusunu yerinə yetirirlər. Hərə əlində iki nar çubuğu içəri girir. Ata deyir: "Hərə öz çubuğunun birini sındırsın". Oğlanlar belə də eləyirlər. Bundan sonra ata onların əlindəki o biri çubuqları alıb bir yerə dəstə bağlayır və deyir: "Hə, indi bunu sındırın görüm". Heç birisinin təkbətəklikdə çubuqlara gücü çatmır. Ata deyir: "Bax, gördünüzmü, tək-tək çubuğu sındırmaq asandı, amma onları bir yerdə olanda sındırmaq çətin və bəlkə də qeyri-mümkündür". Odur ki, mən o dünyaya köçəndən sonra cəhd eləyin ki, həmişə bir olasız, bir olsaz heç bir düşmən sizə bata bilməz". O kişi haqlıydı, balalarım, indi siz də gördünüz dünən Cəbi oğlu Cavadı boğazından asdılar. Hamı da bilir ki, bitəqsir, bigünah olub. Cavad kimi igid təklənib, amma ondan hayıf alan bəy isə öz qohum-əqrəbası, dost-aşnası ilə, xüsusən ki, zamanənin sözü ötənləri ilə əlbir, sözbir olub. Odu ki, haqq olub divan olmayan bir zəmanədə tələf oldu, getdi. Düşmən qabağına meydana çıxanda da gərək tək olmayasan. Elə Koroğlu da yaxşı deyib:

Əsrəyib çıxan meşədən
Aslan da yalqız olmasın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir işə iqdam eləyəndə təkkəvü tənha etməyin. Elinizin-gününüzün mənafeyini gözləyin. O zaman Füzuli rəhmətüllah demişkən düşmən qəvi, tale zəbun olsa da, heç nədən qorxmaya bilərsiz. Neyçün ki, birlikdədir insanın gücü... İndi mənə qulaq verin, yazdığım təmsili sizə oxuyum, aram-aram, siz də bayazınıza yazın.

O dəftərini açdı:

– Balalarım, – dedi, – indi qulaq verin, mən burada əvvəlimci kəlmələrimdə Cəfərə, yeni övladlarım olan sizlərə müraciət eləmişəm. Bir neçə nəsihət sizə nəzmən eləyirəm ki, indi söznən dedim. Qulaq verin, ondan sonra da Aslan və iki öküzün hekayətini nəzmən oxuyacam:

Cəfər, ey nuri-dideyi-Seyyid.
Qonçeyi-növrəsideyi – Seyid!
İttifaq eylə dust ilə hər an,
İttifaq ilə əmr olur asan.
Dəhrdə etmə iftiraqə həvəs,
İttifaq ilə kəslər olmuş kəs.

Vardır, ey bağİ-ömrümün şəcəri,
İttifaq etməyin gözəl səməri.
İttifaq eyləyəndə beş barmaq,
Xeyli asandı bir şeyi tutmaq.
Yoxdur, ey sərvərim, tək əldə səda,
İttifaq ilədir sürurİ səfa...

Uşaqlar nəfəslərini gizləyib qulaq asır, arabir müəllim nəzmi oxumağı kəsir, çətin sözləri başa salır, onları aydınlaşdırır, şagirdlər bu sözləri izahatla birlikdə dəftərlərinə yazdıqları müddətdə dayanıb gözləyir və sonra yenidən şeri-mənzum nəsihətini oxumaqda davam edirdi:

### ASLAN VƏ İKİ ÖKÜZ

Bir çəragah içində iki öküz,
Otlayırlardı şad, gecə-gündüz,
Nagah onlara bir qəvi aslan
Eylədi həmlə...

Müəllimin səsi şerin ahəngi ilə gah qalxır, gah da alçalır, bu səs gah mehriban, nəvazişli, gah da qəvi və dəhşətli olurdu. Uşaqlar müəllimin təsvir etdiyi çəmənliyi, burada otlayan öküzləri, hücum edən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aslanı gözləri önündə görür, böyümüş gözlərini müəllimin ağzına dikib, döyünən ürəkləri ilə onu dinləyirdilər; müəllim isə getdikcə artan bir coşqunluqla oxumasında davam edirdi:

...Görüb aslan ki, yox işində zəfər
Oldu rubəh misalı hiylətkər...
...O qədər vəsf edib özün satdı,
Axır ol binəvanı aldatdı.
Onları bir-birindən etdi cüda,
Oldu aslana müddəa peyda.
Onların parə qıldı əzasın.
Ey gözüm nuri, anla mənasın!
Əgər olsaydı ittifaqləri,
Gavlar görməz idi bu xətəri.
Xah rus əhli olsa, xah firəng,
Vətən əhlilə olgilən yekrəng!
İttihad eylə, ittifaq eylə
Üzüvü hər məkanda ağ eylə!..

Sinif otağının qapısı irəliki gün kimi birdən açıldı, şairin ürəyi qopdu, görəsən yenə nə xəbərdi. Gələn Şirin Abdulla idi, o əlindəki bağlını Ağaya uzatdı:

– Bağışla, Ağa, özün demisən dərsdən ayırmayım səni, amma bilirəm ki, Bəkidən kağız gözləyirdin... Poşxananın qabağından keçəndə, girdim soruşdum. Bunu Ağa Salman poşçu verib: dedi: "Ağaya çatacaq".

Şair Abdulladan bağlamanı alıb cəld açdı, bu "Əkinçi" qəzetinin bir nüsxəsi idi, açdı, içərisində Həsən bəy Zərdabiyə göndərdiyi nəzmin dərc olunduğunu görəndə, fərəhindən ürəyi köks qəfəsinə sığmadı: "Oxuyacaqlar, mən də bu sısqa məktəbdən əlavə xalqıma başqa xeyir verə biləcəm, şerimi oxuyanlar ayılacaq, hərə bir parça kömək eləyəcək maarifin təşəkkülünə... Qoy indi cənab ruhanilər nə qədər çığırır çığırsın... Maarifin adamların qəlbinə yol tapacağı gün yavuqdu, ağalar..."

Dərsin şirin yerində qapı açıldı. Müəllim sözü və xəyallarının kəsilməsindən narazı bir sima ilə üzünü qapıya tərəf çevirdi. İçəriyə rəsmi uniformalı bir şəxs daxil oldu. Dalınca xəz-əzəmi geymiş Mahmud ağa və dilmanc Ağası bəy gəlirdilər. Seyid Əzim maraq dolu gözlərilə qonaqları seyr edərək yerindən qalxdı. Qalın dodaqlarındakı narın təbəs-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sümlə ona doğru addımlayan qonağı tanımırdı. Yoğun, yumru bir kişi idi, furajkasını sol əlində tutmuşdu. Bədəni kimi yumru başı boyunsuz-zadsız, birbaşa çiyinlərinin ortasından dikəlmişdi. Gicgahlarında sarı tüklər görünən bu başın ortası daz və çəhrayı rəngə çalırdı. Gözləri də dəyirmi idi. Sarı-boz kirpiklərinin arasından iki damcı mavi su kimi parlaq bəbəklər müəllimi nəzərdən keçirirdi. Dodaqları da ətli və yuvarlaq idi. Şairə uzatdığı əli də koppuş, yupyumru idi. Bütün vücudu bir neçə dəyirmi, yuvarlaq cisimlərdən qurulmuş kimi görünürdü. Şair, öz məzəli ifadəsi ilə qəlbində Mahmud ağaya müraciət etdi: "Bu yumru kişini hardan tapmısan, aadə?" Mahmud ağa da şairin xəyalında uğunarca təbəssümü ilə güldü; adəti bir tərzdə sağ əlinin baş barmaqları ilə fındıqça çaldı və dedi: "Mö-lüm nə düz dedin? Əhməd ağanın ərvahına and olsun ki, düz tapmısan, ya cədda!.."

Dilmanc ədəb gözləyərək arxada gəlirdi. Qonaq içəri girən kimi şagirdlər dik ayağa qalxıb durmuş və eləcə də quruyub qalmışdılar. Qonaq əvvəlcə müəllimə əl verdi. Şair yumru əlin yumşaq təmasını hiss edincə, qarşısındakının mehriban insan ola biləcəyini düşündü. Həm də qonaq, uşaqlara tərəf çevrilib, elə nəvazişkar bir sima ilə gülümsündü və salamlaşdı ki, şair qeyri-ixtiyari qəlbində çoxdan kök salmış bir fikri yenidən xəyalına gətirdi: "Təbəssüm yaxşı insanın birimci şəhadətnaməsidir". Qonaq əvvəlcə ona, sonra da sinifə rus dilində salam söylədi. Şagirdlər bir ağızdan cavab verdilər:

– Zdraste...

– Əyləşin! – uşaqlar sakitcə oturdular.

Müəllimin gizli işarəsilə növbətçi şagird yerindən sıçrayıb çıxdı; az keçməmiş Şirinin köməyilə otağa daha üç kətil gətirdi. Qonaqlar əyləşdi. Ədəb gözləyib, Mahmud ağanı qabaqlamaq istəməyən dilmanc Ağası bəy, yenə də aralıda, naməlum şəxsin arxasında əyləşmiş və qonağı müəllimə tanıtmağı Mahmud ağanın ixtiyarına buraxmışdı. Mahmud ağa özünəməxsus bir həssaslıqla bunu anladı və ev sahibi vəzifəsini ifa edərək (qonaq onlara düşmüşdü) sözə başladı:

– Cənab müəllim, (uşaqların və qonağın yanında o, dostuna başqa cür müraciət edə, adəti üzrə "ya cədda" deyə bilməzdi) qonağımız Qafqaz müsəlman məktəblərinin popeçitelidir[1]. Tiflisdən buyurub gəlib.

[1] Hami, himayə edən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dövlət hesabında olan məktəbləri ziyarət eləyir. Hər bir kəm-kəsirini soruşub öyrənmək, gözü ilə görmək niyyətindədir ki, ianə verən cənabların yığıncağında hər bir məktəb və dərsxananın nəyə ehtiyacı olmağını cənab ağaların nəzərinə çatdıra bilsin.

Müəllim taledən hədiyyə almış kimi bəxtiyarlıqla gülümsədi: "Şükür sənə, Xudaya! Dünyada nə yaxşı insanlar var... Öz dərdi-azarı yoxmuş kimi ölkə-ölkə gəzir, xalqın balalarının qeydinə qalır... İnşallah maarif yüksələcək! Şəksiz..."

O bir daha yerindən qalxıb mülayim təbəssümlə popeçitelə təşəkkürünü bildirdi. Əlini sıxdı və dedi:

– Gözəl məqsəd, ali əməldir... Şükür Xudanın kəráminə. Allah popeçitel cənablarından razı olsun.

Mahmud ağa və müəllim danışdıqca popeçitelin arxa tərəfində oturmuş Ağası bəy, təqdimat və cavabı ahəstə və aram səslə qonağın qulağına tərəf pıçıltı ilə tərcümə edirdi. Mahmud ağa isə sözünə davamla deyirdi:

– Cənab İvanov bir neçə gün şəhərimizdə qonaq qalacaq. Rus, erməni, rus-tatar uşqolalarını gəzəcək, hal-əhvalatımızla tanış olacaqdır.

Müəllim yenə qəlbində dostuna öcəşdi: "Hə, görürəm, deməli çömçə tutan bizə sarı olub. Əvvəlcən bizim uşqola gətiribsiz". Hündürdən isə dedi:

– Cənab İvanov xoş gəlib, səfa gətirib. Qədəm əziz eləyib... Səfəri səlamət olsun.

– Cavanlığında ursiyətin məşhur müəllimlərindən olub. İndi daha müəllimlik eləmir. Məktəb-uşqol işlərinə hamiliklə məşğuldur.

Şairin gözlərində minbir cin oynadı, qaynar baxışları ilə qonağın mehriban simasını süzdü; özünü saxlaya bilmədi, dostuna sataşdı:

– Maşallah, namxuda, indi də, göz dəyməsin, elə qoca deyil...

Mahmud ağa gülümsədi... Ağası bəy "Maşalla-namxudanı" necə tərcümə edəcəyini bilmədən duruxdu. Sonra "göz dəyməsini" də ötürmək istədi. Mahmud ağa imkan vermədi:

– Cənab Ağası bəy, bütün... bütün tərcümə, rica edirəm.

Ev sahibləri arasında baş verən kiçik mübahisəni anlamayan İvanov, maraqla hər üçünü nəzərdən keçirib, tərcüməni gözləyirdi.

– Nə oldu ki?

Ağası bəy, Mahmud ağanın köməyilə sözləri hərfən tərcümə etdikdə İvanov gülümsədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ooo... Komplement...

Müəllim az-çox danışıq kəlmələrini bilirdi, amma bu "komplement" sözünü başa düşmədi. Sualedici nəzərlərlə Ağası bəyə baxdı:

– Komplement nədi, Ağası bəy?

– Tərif... təarüf kimi bir şey...

Bütün yaşlı adamlar kimi İvanovun da özünə cavan deyilməsindən xoşu gəlmişdi. Eyni zamanda, hələ Tiflisdə ikən Zaxarovdan, dünəndən bəri isə Mahmud ağadan dönə-dönə tərifini eşitdiyi bu nurani müəllimi çox bəyənmişdi. Alnından elə bir ağıl, gözlərindən elə bir zəka yağırdı ki, İvanov öz təzə tanışına məftun olmuşdu. Kom-kəsiri öyrənmək məsələsini sonraya qoyub, ilk tanışlıqdakı bu zarafatı davam etdirmək istədi:

– Yaxşı, ay tərifli müəllim, sən necə rus-tatar məktəbi uçitelisən ki, rus dilini bilmirsən? Yoxsa mollasan?

Ağası bəy sözləri tərcümə etməzdən əvvəl Seyyid cümlənin mənasını dərhal anlamışdı. Tərcüməçiyə sözünü tamamlamaq imkanı verməədən dilləndi. Qonağın inciyə biləcəyini nəzərə almadı, qəlbi ona deyirdi ki, uzun illərin müəllimi və maarif hamisi olan bu mehriban adam, onu düz başa düşər. Dedi:

– Yaxşı, bəs cənabınız necə müsəlman uşqolu popeçitelidir ki, müsəlmanca bilmir?

Cənab İvanov, müəllimin sözlərini eşidincə uğundu, elə güldü ki, qovuq yumru qapaqlar içərisində bəbəkləri tamamilə gözdən itdi. Sinif isə həyəcan içində sükuta dalıb oturmuşdu. Birdən İvanov "Namusum haqqı düz deyirsən, cənab müəllim", – deyə-deyə əlini cibinə salıb, kağızdan da ağ, nişastalı dəsmalını çıxartdı. Gözlərinin yaşını sildi. Sonra da səliqə ilə büküb cibinə qoydu. Yumru əllərindəki topurçaq barmaqlarından gözlənməyən cəldliklə kitelinin parlaq qızılı düymələrinə keçirilmiş zənciri açdı. Cibinin qapağını qaldırdı. Zəncirin ucuna bənd edilmiş iri gümüş cib saatını çıxartdı, ərkyana müəllimə uzatdı:

– Cənab müəllim, sizin tizfəhmliyinizə, şöhrətini eşitdiyim müəllimliyinizə dəyərli hədiyyə olmasa da, görüşümüzdən kiçik bir xatirə kimi, bu saatı məndən yadigar qəbul etməyinizi rica edirəm.

Ağası bəy sözləri birnəfəsə tərcümə etdi. Şair onsuz da qonağın hərəkətindən və bəzi tanış kəlmələrin köməyilə İvanovun nə demək istədiyini başa düşmüşdü. Qısıldı, utandı. Oğrun baxışlarla sinifi gözdən keçirtdi. Tərəddüd içində duruxub durdu. Alsınmı? Ayıb deyil ki?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Necə eləsin? Sonra da uzun düşüncənin pis təsir bağışlayacağını fikirləşib dilləndi:

– *Təşəkkür edirəm, cənab popeçitel! Zəhmət çəkməyin.* Yol üstündə saatsız qalmağınızı rəva görmürəm...

– Yox, yox. İnciyərəm yoxsa. Siz qafqazlıların xasiyyətinə mən də bələdəm. Verdiyiniz hədiyyəni almayanda, özünüz elə inciyirsiniz ki, az qala düşmənə çevrilirsiniz. Mən də sizin kimi. Götürün! Mən Bakıdan yenisini alaram. Maliyyəti nədir ki? Bir beş manat. Hayıf ki, yanımda bundan dəyərli bir şey yoxdur.

O təəssüflə başını yellədi: Şair qonağın ona uzanan əlini havada qoya bilmədi. Həm də İvanovun sözlərində, təəssüfündə elə dərin bir səmimiyyət duyulurdu ki... O saatı aldı, baxdı. Sonra qulağına apardı. Gülümsəyərək dinlədi və zəncirini geyməsinin düymələrinə bəndələyib cibinə qoydu, dedi:

– Mənim yanımda milyona dəyər.

...Qonaqlar gedəndən sonra şagirdlərdən ən balacası və ən cürətlisi olan Ağalar, maraqla müəllimin üzünə baxıb soruşdu:

– Ağa, *neyşə bəs əvvəl verəndə saatı almadız*?

Seyid Əzim fikirli-fikirli dilləndi:

– Hədiyyəni dərhal, verilən kimi almaq düz deyil, övladım. Yoxsa adam görməmiş, hər şeyə həris kimi, nəzərlərdə mənfi qiymət alar.

Ağalar bir də soruşdu:

– Bəs sonra neyşə aldız?

Şair gülümsədi: "Hə, bala, döşə gəlsin suallarını. Yağdır, yağdır bildikcə. Sənin elə sual verən vaxtındı, dəmindir".Ucadan isə dedi:

– Yadigar verilən şeyi qaytarmazlar. Bu adamı dəruni-qəlbdən rəncidə-xatir elər. Axı yadigarla insan birini yada salmalı, yadda saxlamalıdır. Sən isə verilәni almayıb, geri qaytaranda, demək istəyirsən ki, mən səni unudacam, yada salmayacam. Başa düşdün, Ağalar, bala?

Dərs davam edir, uşaqlar arabir müəllimin geyməsinin döşündə parlayan saatın zəncirinə baxıb, yeni zamanın dəqiqələrini ölçən müəllimi diqqətlə dinləyirdilər.

...Baharın ən gözəl çağı idi. Onlar şəhərdən xeyli aralanmışdılar. Atların yüyənini yəhərin qaşına keçirmiş, aram-aram gedir və yəhərin üstündə yanpörtü oturub söhbətləşirdilər. Seyr üçün zəruri şeyləri nökərlər dünən axşamdan aparmışdı. Mahmud ağa ilə Seyid Əzimin söhbətinin çox uzandığını və atlarının başını qəsdən çəkib aram getdiklərini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görən curlar, öz atlarını dəhmərləyib uzaqlaşmış, səhər günəşinin uzaqlara qovmağa başladığı, mavimtraq dumana qarışıb gözdən itmişdilər.

Şair bu seyrə dəvəti bir neçə gün əvvəlki hadisələrlə əlaqədar kəsalətini dağıtmaq üçün qəbul etmişdi. Yol ilə üç-dörd cavan iri bir ağ qoç aparırdı, qoçun təpəsi və tükləri bir neçə yerdən həna ilə qızardılmışdı. Boynuna bağlanan qumrovun üstündən kiçik al Basqal kəlağayısı bağlanmışdı. Qoç o qədər təmiz, təhtovlu idi ki, elə bil indicə yuyundurub daramışdılar, tüklərindən yağ damırdı.

– Allah mübarək eləsin, üzə çıxanlardan olsun.

– Allah qəbul eləsin...

– Siz görəsüz subaylardan...

– Kimindi qurban, oğul?

– Hacı Veyis göndərir, oğlunundu, təzə qudalara...

– Bay, gözü dolusu görsün... Bildim, bildim, Səfərovlarnan qohum olur...

Müsahibə Mahmud ağa ilə qoyunu aparan gözəşirin cavanlardan birinin arasında gedirdi. Şairin qəlbini isə qayğılar almışdı: "Bəli, Qurban bayramı yavuqlaşır... Məhəllə uşaqları hər gün öz qurbanlıq qoç və ya quzularını məhəlləyə çıxaracaq, xınalatdırıb bəzədəcək, boynuna qumrov asacaq, şəkər parçası, nobat parçası yedizdirəcək... Bəs mən uşaqların üzünə necə baxacam? Doğrudur, qurbanda bizim evdə ət-ət üstə çıxır, sağ olsun tanış-biliş, dost-aşna, qonum-qonşu... Amma... uşaqlar, külfət öz qurbanını istəyəcək... Eh, namərd dünya... gör-götür dünyasısan... Mən ona necə başa salım ki, biz zəngliynən zəng döyə bilmərik... Nə isə... Keçən il bir xoruznan səni yola verdik, ay qurban lələ, görək bu dəfə üzümüzü neynən ağardacaqsan?"

Onlar danışmadan irəliləyirdi. Bir qədər sonra söhbət şəhər əhvalatlarından düşdü. Müsahiblərin söhbəti Şamaxıda yetişən cavan şairlərə keçdi. Onların içərisində birisi Mahmud ağanı çox maraqlandırmışdı. Ötən günlərin birində qonaq otağına gəlmiş möhtərəm müsafirlərdən biri həmin cavan şair haqqında öz gördüyünü danışmışdı. İndi Mahmud ağa söhbəti bu səmtə yönəltdi; Seyid Əzimə müraciətlə:

– Ağa, – dedi, – eşitdim ki, şagirdlərinizdən biri sizə bədahətən çox məqbul bir nəzm söyləyib?

*Seyid Əzim üzü çıxan günəş kimi nurlandı, gözlərində həmincə* günəşin inikası kimi iki kiçik ulduz parladı:

– Bəli, – dedi, – düz deyiblər, Ələkbər mənim ən əqilli şagirdimdi. – Sonra öz-özünə zümzümə edirmiş kimi oxudu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xümsi-şərabı Seyyidə saqi verib dedi:
Sabir fəqirdir, düşər ancaq zəkat ona.

Mahmud ağa davam etdirdi:
– Eşitmişəm:

Seyyiddir ustad mənə nəzmü nəsrdə
Möhtaci-istifadədir kainat ona.

– Doğrudan da, nə gözəl tuta bilib. Tacirbaşı deyirdi ki, on limu çıxartmışdım camədanımdan. On limunun ikisi xums, biri zəkatdır.

Seyid Əzimin üzünə həzin bir duman çökdü, o acı-acı gülümsədi, bu təbəssüm Mahmud ağanın nəzərindən yayınmadı. Onun həssas qəlbindən "zəmin xara" sızıltısı keçdi. O öz böyük dostunun ən incə yerinə toxunmuşdu. Odur ki, dərhal Seyid Əzimin şeirlərindən mövqeyə münasib bir parçanı oxumağa başladı:

İncimə yin, Seyyida, bilirəm ki:
Seyyidəm, leyk nə ol seyyidi-sahib mənbər
Ki, mənimçün edələr cəm təridü əfsal.
Mir Kərim tək yox üzüm mən də çıxam bazarə
Dəyənək əldə salam aləm ara qalü məqal.
Bəs ki, şairlik ilə aləm ara məşhurəm...

O oxuduqca şairin üzünə çökməyə başlayan duman azalır, dağılır, Fit dağına tərəf sürünən səhər dumanına qarışıb əriyir, qəlbinə sükunət gəlməyə başlayırdı. Ürəyini sıxan söhbəti dəyişmək məqsədilə şair, dostunun sözünü kəsdi:

– Sabirin böyük gələcəyi var, Ağa, bizə nəsib olmayan, bəlkə ona qismət oldu. Mənə belə gəlir ki, biz yazmayanı o yazacaq, biz qadir olmayana o qadir olacaq. Mən buna iman gətirmişəm. Elə buna görə də israğa gün ona bir nəzm yazıb göndərmişəm:

Ey məh, bilirəm, fitneyi-dövran olacaqsan,
Ey qaşı hilalım, məhi-taban olacaqsan! –

beytiynən başlayırdı. Cavabımı da dünən yollayıb. Oxumuşam, görmüşəm ki, elə səhv eləməmişəm! Bu qələmin sahibi doğrudan da "məhi-taban" olacaq, aləmə işıq salacaqdır, inşallah, hələ bir baxın, görün nə yazıb?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu sözləri deyə-deyə şair yəhərin üstündə doğruldu, çuxasının sol cibindən qara meşin cildli, uzunsov bir bayaz çıxartdı, arasından iki nazik vərəq ayırdı və onu maraqla dinləyən müsahibinə oxumağa başladı:

Sən piri-cahandidəsən, ey Seyyidi-sərkar,
Məndən çək əlin, eyləgilən pir ilə rəftar!
Olmaz sənə qismət dəxi bu dövləti-didar,
Bundan sonra hicrimdə cigərqan olacaqsan.

Sən bir təbdə rəvanlığa, məzmuna bax. Gör bir nə gözəl yazıb, elə bil lap ustad şair qələmindən çıxıb, nə bir vəzn qırıqlığı, nə iymalə... hələ qafiyələrə bax...

*Şair danışdıqca, həyəcanlanır, həyəcan*landıqca üzü daxili atəşdənmi, ucalan sabah günəşindənmi nədənsə, getdikcə allaşırdı. Bu qoşğunluq şeir aşiqi, musiqi məftunu Mahmud ağaya da sirayət etmişdi. Onun da üzü gülürdü:

– Bu Ələkbər kimlərdəndi?

Seyid Əzimin üzü ciddiləşdi:

– Necə məgər, tanımamısız?

– Xeyr.

– Hacı Tahirin nəvəsidi...

– Necə Hacı Tahir?

– Qəlyanbaşı ustası Hacı Tahir. Dədəsi Meşədi Zeynalabdin, cavanlığında sizin otağa gələrdi... Başı bundan sarı çox qəziyyələr çəkib...

– Hə... yadıma düşdü, yadıma düşdü... O sünnü-şiə tufanı da... bəli... Zeynalabdinin deməli indi belə bir şair oğlu da var?..

– Hə, özü də necə də tizfəhm...

– Bəs istəkli şagirdinizə silə nə göndərdiniz, Ağa?

– Eh... Zəmanənin üzü qara olsun, ağa, dövlət qənidə, səxavət *kəminə bəndənizdə. Nəyim var ki? Taxılım sizin anbarda, açarı nıtıq* tuğçunun[1] cibində. "Bərgisəbzist hədiyyeyi-dərviş..." öz aramızda, necə deyərlər "miyanikəlam" o tuğçu dələduzu anbardar qoymaqda yaxşı xeyri-əzim iş görmüsüz, külfəti ağırdı, bir də qonşu kəndlərin, qəsəbələrin qulağı tıntın dua səsindən rahat olar. Qaldı silə... Bircə Nizami "Xəmsə"sinə gümanım gəlirdi. Nökərçənizə verib göndərdim getdi. Ustad Nizamidən ayrıldım, amma hayıfsılanmıram, ümid-bəxş əllərə tapşırmışam.

[1] Ələm, dini bayraq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Görürəm çox bəyənirsiz bu Sabir Ələkbəri... Görək ümidinizi doğruldacaqmı?

– Doğruldacaq, mən görməsəm də, siz görərsiz, mənə də rəhmət oxuyarsız...

Mahmud ağa şairin üzünü indi görürmüş kimi yandan ona diqqətlə baxdı. Dən düşmüş xətti hələ qara olsa da, alnında, gözlərinin kənarlarında qırışlar çoxalmışdı. "O qocalır, heç yarım əsr də yaşamayıb... bu nə ömürdür ki... Əllicə yaşı yoxdu... amma az qala atam yerində görünür... üsrətli keçir böyük şairimizin günü... yazdığı hər misra ömrünün bir gününü sayır". Mahmud ağanın üzünə kədər çökdüsə də, könlünü basmağa başlayan qəmi udmaq üçün sözü zarafata salmaq istədi:

– Seyyida, ömürdən şikayətlənmə, niyə gərək sən görməyəsən, mən görəm... həmdillah məndən ki, qoca deyilsən...

Şair müsahibinin könlündən keçənləri bilməsə də, onun ürəyindən keçən kədəri duydu. Lakin o da qarşıdakı şadlıq məclisinə qəmli getmək istəmədi, həmsöhbətinin zarafatına eyni şuxluqla cavab qaytardı:

– Ağa, o ömrü, o günü ki, siz keçirirsiniz, göz dəyməsin, lap yüz, yüz əlli il də yaşamalısınız. Azına heç haqqınız yoxdu...

– Neyşə ki?

– Ağayi-mən, yatırsız musiqi ilə, oynayırsız musiqi təranələriylə... yeyib-içirsiz xanəndə-nəvazəndə məclisində... tərəb məclisində... həmsöhbətləriniz rindlər, üşşaq... Dayı siz də tulani ömür sürməyib kim sürsün?

Mahmud ağanın kefi duruldu, adəti üzrə şux bir qəhqəhə çəkib dedi:

– Əhməd ağanın ərvahına and olsun ki, doğru buyurursunuz, Seyyida!

Seyid Əzim sözə davamla:

– Seyrəngahınız da ki... bu can alan, ruha fərəh verən çöllər... çəmənlər... – dedi və təbiətin ecazkar guşələrindən biri olan Gülüstan səmtini göstərdi:

– Bir baxın, bu aləmdi, aləm... Fərəhbəxş yerdi bura, Şamaxıdı, şairlər vətənidi... buranın torpağının hər zərrəsi bir misra şeirdir. Bir baxın bu möcüzə aləminə... Burda ən kiçik, gücsüz şair də bədahətən elə sözlər deyib ki, sanki bu ecazkar mənzərə özü ona şeir deməyi təlqin edib ilhamlandırıb.

Gülüstan bir aləmdir ki:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Atəşin gülləri görsəydi əgər kim Musa*
Fərq qılmazdı Gülüstanı dəxi Sinadən.

– Bunun özü də bədahətən deyildimi?
Seyyid bir an duruxdu:
– Elədir...
– Təkrar edin, rica edirəm.

– Atəşin gülləri görsəydi əgər kim Musa
Fərq qılmazdı Gülüstanı dəxi Sinadən.

Oxuduqca Mahmud ağa da adəti bir şəkildə başını yelləyir, sağ əli ilə fındıqça çalıb təkrar edirdi:

Fərq qılmazdı Gülüstanı dəxi Sinadən.

– Afərin, Əhməd ağanın ərvahına and olsun ki, doğru buyurursunuz.
Seyyid beytin düzgün anlaşıldığından fərəhləndisə də tərifdən qısıldığını, utandığını büruzə verməmək üçün söhbəti dəyişdi:
– Yola nərdivan qoyaq, ağa, meyliniz olsa, sizə bir bədahətən söylənən şerin tarixçəsini danışmaq istərdim.
Daima Seyid Əzimin maraqlı söhbətlərinə mail olan Mahmud ağa cəld dilləndi:
– Buyurun, buyurun... Elə əslində bu seyr-səyahətin məqsədi musiqi və əşar deyilmi? Necə deyərlər: səfər didari-yarı görməyə bəhanədi.
– Bəli, Mustafa xan mərhumun burov-burov zamanında, torpağı sanı yaşayasız, tez-tez əşar və musiqi məclisləri qurularmış, sizinki kimi sənət aşiqləri, üşşaq olmasa da kef, ləzzət üçün olsa da, hər halda yığılarmışlar. Onun sarayında bizim mərhum şair Kərbəlayı Arif Allahi də tez-tez şeir söylərmiş.
Mahmud ağa nəyi isə xatırladı, gözlərini təpəsi işıqlanan Fit dağına zillədi, qeyri-ixtiyari dilləndi:

Çəkdi nərradi-qəza qələyi-Fit üstünə do,
Mustafa məsnədinə qalib olubdu Madado!

deyən Allahi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli, özüdü, söz mövqeyinə çəkər, elə qəleyi-Fit də ki, gözümüzün qabağında nümayandı. Bir gün həmin məclisdə Noxuddu kəndindən gəlmə bir şair də iştirak edəcəkmiş. Xan mərhum Allahi ilə sözləşir, aşpaza tapşırıq verir, xörək ortaya gələndə məclisnişinlər hərə öz qabağındakı xonçanın üstündən sərpici götürür, görürlər ki, hamının qabağında büryan edilib qızardılmış kəklik, qırqovul; bu fağır Noxuddu şairinin qabağında qoyun şırdanı. Hamı sükut içində gözləyir ki, görsünlər tərəkəmə balası işin içindən necə çıxacaq. Kərbəlayı Arif Allahi məclisə çökən sükutu pozur, dizləri üstünə qalxır, əli ilə Noxuddudan gələn şairə işarə edib deyir:

Təbxi təbbaxi-qəza mətbəxdə mətbux eylədi,
Qismət oldu ol zaman büryan mənə, şırdan sənə.

Gözünə döndüyüm kətçi balası heç özünü itirib eləmir, xan və müqərrəblərinə gülməyə, onu ələ salmağa macal vermir, bədahətən Allahiyə belə cavab qaytarır:

Mən zümürrüd xislətəm, tülkü sifət Allahi sən,
Xişim ilə baxsam əgər, gözdən dəyər nöqsan sənə.

Cavab elə gözlənilməz və sərrast olur ki, gülüşlər dodaqlarda, qəhqəhələr boğazlarda donub qalır. Xan naəlac "afərin" deyir. Qapıda əl-əl üstə duran xədəmələrə işarə eləyir, şırdan xonçasını qalib çıxmış şairin qabağından götürüb, əvəzinə kəbab edilmiş quş əti gətirirlər.

Mahmud ağa qəhqəhə ilə güldü. O elə bərk qəhqəhə çəkmişdi ki, atlar sahiblərinin altında diksinib irəli atıldı. Hər ikisi çoxdanın minicisi olmasaydı, mütləq yəhərdən yumbalanacaqdı. Bu vəziyyət nəşələrini daha da artırdı. Onlar yüyənin ucunu yəhərin qaşından çıxarıb doğruldular.

Günəş isə artıq iki cida boyu qalxmış, Fit dağının üstən aşağı yamaclarını işıqlandırmış, dumanı qova-qova selinti kimi dərəyə tökmüşdü. İndi artıq uzaqdan onlara əl eləyən dostlar aydın görünürdü. Onların bəzisi papağını əsanın başına keçirmiş, yuxarı qaldırıb yelləyirdi. Dostlar məclisi, musiqi, şeir, nəğmə məclisi, tərəb, xərabat onları gözləyirdi... Baxışdılar, gülümsədilər və sözləşmiş kimi ikisi də birdən ayaqqabılarının burnu ilə atlarını qıdıqladılar. Atlar sürəti artırdı... Şurun cuşə gələn xalları eşidilməyə başladı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar seyr üçün seçilmiş çəmənliyə çatanda artıq məclis arəstə idi. Duman təzəcə çəkilmişdi, yamyaşıl təzə otlar üstündə hər biri bir damla almaz kimi günəşdən bərq vuran şehlər, şəbnəmlər alışıb-yanır, istilənib buxara çevrilirdi. Nökərlər şehi çəkilməyə başlayan çəmənliyə xalı-gəbə, kilim-palaz sərmiş, nimdərlər atmış, mütəkkələr qoymuşdular. Aralıda manqallar közərir, altı aylıq qara toğluların əti uzun şişlərə çəkilirdi.

Büllur kimi saf havada nökərlərin pıçıltısı uzaqdan belə aydın eşidilirdi:

– Ayə, əti kəkrənin üstünə qoyma, acı olar, yoncaya tərəf elə.

– Gözlə, kömür qoy közərsin...

Cavanlardan ikisi irəli cumub Mahmud ağa və Seyid Əzimin atlarının yüyənlərini tutdu, üzəngini basdı və onların yerə enmələrinə yardım etdilər. Dostlar onları böyük şadlıqla qarşıladılar.

Ağalar ayaqqabılarını çıxarıb xalıların üzərinə salınmış nimdərlərin üstündə oturdular. Məclisdə yuxarı-aşağı baş olmasa da Mahmud ağa, Seyid Əzim, İsgəndər bəy və başqaları ilə yanaşı qismən sinli bəylər, onlardan aşağı cavanlar və sazəndələr əyləşmişdi. Tarzən Sadıqcan tarı kökləyirdi. Xanəndə Hüsü nökərlərdən birinin manqal üstündə qızdırıb ona verdiyi dəfi əli ilə sürtür, oxumağa hazırlaşırdı. Hüsü, Sadıqcan kimi, sadə çuxa və boz köynək geymişdi, çuxasının ətəklərini öndən təkbəndinə sancıb dizi üstə oturmuşdu. Hər ikisinin başında qalmığı papaq var idi. Hüsü əlini dəfin dərisinə sürtüb onu qızışdırdıqca, gözaltı Hacı Seyid Əzim Şirvaniyə baxır və düşünürdü; bu gün o böyük, şöhrətli müasirinin təzə bir müxəmməsini oxuyacaq idi. Hələ dünən gecə Mahmud ağa müxəmməsi ona verib əzbərləməsini tapşırmış və hansı muğam üzrə oxuyacağı haqqında onunla məsləhətləşmişdi. Müxəmməsin məzmunu bugünkü məclisə uyğun, vəzni isə elə bil məhz rast muğamına həmahəng idi. "Görəsən Ağa bəyənəcəkmi? Qalanları demirəm, bircə şair özü, bir də bir Mahmud ağa bəyənsə bəsimdi". O, təzəcə məclisə çıxan gənc xanəndə kimi həyəcan keçirirdi. Seyid Əzim kimi şairin qulluğunda, Mahmud ağa kimi musiqişünasın qarşısında bugünkü məclis əsil bir imtahan idi. O bu gecə çox gec yatmışdı. Əvvəlcə Seyyidin müxəmməsini əzbərləmiş, sonra da tamam dəstgahın başqa hissələrində oxuya bilmək üçün Füzuli qəzəllərindən, gülüstan seyrəngahına müvafiq olan bir qəzəl də seçmişdi. Səhər sübh yuxudan oyanan kimi müxəmməsi yenidən təkrarlamışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bununla belə yenə də arxayın deyildi. Həyəcanını büruzə verməmək, barmaqlarındakı titrəyişi gizlətmək üçün durmadan sol əli ilə dizinə dayadığı dəfi sağ əli ilə sürtməkdə davam edirdi. Nəhayət, tar köklləndi, Mahmud ağanın xəfif işarəsilə Sadıqcan rastı başladı. Muğamın mayəsi eşidilincə Hüsü bütün varlığı ilə Sadığın mizrabından qopan fəryadlara daldı, hər şeyi, yığılan ağaları, ətrafda manqal başında əlləşən cavanları unutdu... Onun dodaqlarından, qəlbinin dərinliklərindən gələn bəm səslər qopub tökülməyə başladı:

Guş qıl, ey ki, bilirsən özünü vaqifi-kar,
Agəh ol, gör ki, nədir naleyi-ney, nəğmeyi-tar!
Nədir ol xuşk olan çubda bu naleyi-zar
Ki, sədasından onun qarət olur səbrü qərar?
Açmasın pərdəni hər pərdədə var yüz əsrar...

Seyid Əzim ilk kəlmələri eşidincə diksindi, gözucu yanında əyləşən Mahmud ağaya baxdı. Mahmud ağanın gözləri daxili bir fərəhdən gələn təbəssümlə qıyılmışdı. O məxmər mütəkkəyə dirsəklənib sözlərin, sehrli pərdələrin ahənginə uyğun başını yırğalayır, qəlbində sanki muğamın mayəsini xanəndənin ruhəngiz səsilə birlikdə təkrarlayır, oxuyur, zümzümə edirdi. Bu sözləri elə bil şair onun üçün yazmışdı, xanəndə də öz ecazkar səsilə təkcə onun üçün oxuyurdu. Bu şeirdə müraciət olunan, "vaqifi-kar" o özü idi. O bu muğamdakı "naleyi-ney", "nəğmeyi-tar"a agah idi. Quru taxtadan çıxan, "naleyi-zar" onun səbrü-qərarını qarət edir, ona yüz əsrar açırdı. Bu nəğmələr sülləm-nərdivan olub onu ərş baminə – göylərə qaldırırdı. O da xanəndə ilə birlikdə "kəsb elə elmü ədəb feyzin əgər adəmsən, fəhm qıl gör ki, nədir musiqiyü musiqar" deyə təkrar edirdi...

Şair gözlərini Sadıqcan və Hüsüyə çevirdi.Hər iki sənətkar Seyyidin dili ilə dinləyicilərə nəsihət verir, onları arif huşyar, sənət aləmini, musiqini dərk edən olmağa çağırır, biganələri könül aləmindən qovurdu.

Sadıq elə bir aludəliklə çalırdı ki, Hüsünün nə zaman təsnifə, daha sonra "şikəsteyi-farsa" keçdiyindən onun xəbəri olmadı. "Şikəsteyi-fars" üçün Hüsü, Füzuli qəzəlini seçmişdi. Qəzəl bahar əyyamından, könül oxşayan güllərdən, çəmənlərdən, gülüstan kimi seyrəngahdan bəhs edirdi.

Eyş üçün bir türfə mənzildir bahar əyyamı bağ,
Onda tutsun qonçəvəş hər kim ki, eyş istər, otaq.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qönçələr açıldı, seyri-bağ edin, ey əhli-dil
Kim, görüb güllər, könüllər açılan çağdır bu çağ.

Əgər Seyyid müxəmməsi insanları musiqidən, arif məclisindən zövq almağa çağırırdısa, Füzuli qəzəli bu arifləri, əhli-dilləri təbiəti duymağa dəvət edirdi. "La şairə illa Füzuli" – deyə Seyid Əzim öz qədim məsəlini təkrarladı, əsərinin böyük ustadınınkı ilə yanaşı oxunmasından bir daha fərəhləndi. Hüsü isə Gülüstana həmahəng oxuyurdu:

Səndən, ey bülbül, füzundur məndə möhnət fəsli-gül,
Sənsənü min təzə gül, hala mənü min təzə dağ.

Birdən-birə ətrafa dərin bir sükut çökmüşdü. Elə bil susmuş təbiət, zümrüd təpələr, göy çəmənlər, uzaqlarda-yaxınlarda tək bir xəyal kimi firuzəyi göylərə ucalmış ağaclar nəfəsini gizləyib onun təranələrini dinləyirdi. Bu səslərdə, bu sehrəngiz zəngulələrdə dərin bir kədər, sirli, nakam bir məhəbbət, kainatın özü qədər qoca və cavan bir məhəbbət inləyirdi. Muğam gah pərdə-pərdə zilə ucalır, gah da dalğa-dalğa bəmə enir,ümman kimi ləpələnir, ləpələr kimi gah sahili yalayır, gah ənginliklərə çəkilir, Füzulinin, Seyyidin ölməz əsərlərinin sözləri bu səslərdə kəpənək kimi qanad çalır, pərvanə kimi özünü şəmin alovlarına çırpır, qanadları qarsalanır, yanırdı... Əbədi, əzəli məhəbbət özünün bütün ehtirasları, sonsuz qəmi, kədəri ilə, naümid və nakamlığı ilə dillənir, sızlayırdı. Muğamın sonuna doğru Hüsü, qəzəlin möhrə bəndini oxuduqda:

Məhrəm olmaz rindlər bəzminə mey nuş etməyən,
Ey Füzuli, çək ayaq ol bəzmdən, ya çək əyağ.

Mahmud ağa və məclisdəkilərdən bir çoxu son beyti təkrarladı və əllərini süfrələr üzərindəki piyalələrə uzatdılar.

Seyid Əzim şərbət piyaləsini yerə qoydu; qəlbi nə isə pıçıldayır, deyəsən yeni bir qəzəl düzürdü. O əlini cibinə atıb qələm və kağız çıxartdı, elə süfrənin qırağındaca yazmağa başladı. İndi o nə məclisdəki söhbəti, nə hay-küyü, heç nə eşitmirdi. Elə bil bir anlığa təbiət də susub böyük şairin qəlbindən qələmə, oradan da kağız üzərinə süzülən sözlərin yazılıb qurtarmasına, sonra da bu yeni incini dinləmək üçün gözləyirdi... Qəzəl bitdi, Seyyid qələmi cibinə qoyanda Mahmud ağa şuxluqla bayazı çəkib onun əlindən aldı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Özüm, özüm oxuyacağam, şair, sənin ilk oxucun özüm olacam. Bəri ver, ay uşaq, qulaq asın. – Bu çağırışa ehtiyac yox idi, hamı onsuz da sükut içində qəzəlin oxunmasını gözləyirdi. Mahmud ağa xüsusi bir bəlağətlə qəzəli oxudu və onun möhrə olan mətlə bəndini bir daha ucadan təkrar etdi:

Çağırın Qeys ilə Fərhadı yığılsın başıma,
Seyyidəm, ərseyi-eşq içrə sipah istəyirəm.

Məclisdən afərin səsi ucaldı, quşların səsinə qarışdı. Mahmud ağa üzünü şairə tutub dedi:

– Seyyida, cəddinin təsəddüqü olum, gözəl sərkərdəsən. Yaxşı da aləmə məşhur qoşunun var: Qeys, Fərhad... Yaxşı, bəs möhtərəm eşq sərkərdəsi, məni öz qoşununda kimə şəbahət edirsən?

Seyid Əzim dostunun zarafatına eyni şuxluqla cavab verdi:

– Sən elə Mahmud ağasan, bundan özgə şöhrət nəyinə gərəkdi?

Mahmud ağa ucadan, ürəkdən bir qəhqəhə sovurdu:

– Əhməd ağanın ərvahına and olsun ki, doğru deyirsən, əhsənullah...

## YENƏ DƏ SONA (davamı)

Qəziyyə çəkə bilənin, çəkənin dalınca gəzir... Sonadan xəbərim var! Çox il keçib, Sonam qocalıb deməyə dilim varmır... Zəmanə onun, pərilər sultanının simasında elə izlər buraxıb ki!.. Amma genə də gözəldir, şairin ilham pərisi... Tərlanın amanı-gümanı, əbədi evlənməyən, yalnız Sona deyib diyarbədiyar düşən Tərlanın...

İsinin vəfatından heç bir il keçməmişdi ki, ovdan Əlyar bəyin cənazəsini gətirdilər. Atının əlvan çulu üstdən qara "gəncə" saldılar. Ağıçılar ağı dedi, Şahbikə bəyimin dəfən-dəfən ürəyi keçdi... Arvad bu dərddən sağalmadı! Heç kişinin qırxı verilməmiş, partdamaya "düşdü" dedilər, əli ürəyində, dilində Əlyar-Əlyar harayı bu dünyaya göz yumdu. Bu qırx günün içində iri, dağ cəmdəyindən bir quru cənazə qaldı. "...Özünü istəklinə tez çatdırdın, Şahbikə bəyim!.. Nə vəfalı arvadsanmış, bəyim, nə vəfalı. Sən Əlyar bəyi necə də çox istəyirsənmiş, Şahbikə bəyim... necə də çox istəyirsənmiş!...Dağ ürəyin dərd-qəm görməmişdi, birinci dərdə dözmədi, partladı... Nə kövrəksənmiş, Şahbikə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəyim, heç kəs sənin o qat-qat ət basmış buxağına, topurca biləklərinə baxanda, o təpə kimi qalxmış köksünün altında belə incə, belə sevən, vəfalı bir qəlb olduğunu bilə bilməzdi. Səni mən də başqaları kimi, *əhli-kef bilmişəm, səhv etmişəm, Şahbikə bəyim! Ağa demişkən:*

Qübari-məqdəmüvə dün ki, tutiya demişəm,
Gözüm çıxaydı ki, səhv etmişəm, xəta demişəm.
Mənim ki, könlümü qan eylədin vəfadəndir,
Qələtdir ol ki, səni yari-bivəfa demişəm.
Əsil aşiq sənsənmiş ki, canı canana tez yetirdin,
Bivəfa olub bivəfa dünyadə qalmadın,
Şahbikə bəyim! Mənim kimi...

Canı cananına bəzl etməyən aşiq, məsələn,
Bənzər ol zahidə kim, olmaya sahib-ixlas.

Sona özü də duymadan iş gördükcə Ağanın qəzəllərini bircə-bircə zümzümə edir, elə bil ağı deyirdi.

...Günlər... ağır, məzəsiz günlər bir-birini təqib etdikcə Sonanın vəziyyəti bu evdə get-gedə çətinləşirdi. Əlyar bəyin varı-yoxu bircə oğlu var idi ki, onun da gah Rusiyada, gah Tiflisdə, gah hardasa Firəngistanda təhsildə olduğunu deyirdilər. Amma arabir Şahbikə bəyimin həsrətli ahlarından, bəzi nökər-nayıb arasındakı söz-sovdan, xüsusilə Bəybala bəyin həmyaşı, uşaqlıq oyun yoldaşı İsinin deməsindən Sona bilirdi ki, cavan bəy, Əlyar bəyin istədiyi kimi çıxmayıb. Hardasa Allah bilir on beş-iyirmi ildir ki, vaxt ötürür, pul sovurur, özü də deyirdilər ki, guya nə bilim "matışqa saxlayır", ya tatar qızı alıb, ya urus qızı, ya erməni qızı... heç kəs səhih bir söz bilmirdi. Sona burda olduğu illərdə Bəybala bəy cəmi ikicə dəfə doğma kəndlərinə gəlmişdi, bu da yaz macal yer-yurd göyərəndə olmuşdu. Bəyzadə kənddə cəmi ikicə-üçcə gün qalıb çıxıb getmişdi. Gələn-gedən əlindən o günlərdə nökər-qulluqçu əl-ayaqdan düşmüşdü. Şahbikə bəyimin gündə, saatbasaat qonşu və ya öz kəndlərinin gözəl qızlarından göz oğurladıb göstərmələri də kömək eləməmiş, Bəybala bəy çıxıb getmişdi. Şahbikə bəyimin cah-calallı toy arzısı ürəyində qalmış, kamı gözündə qarımışdı. Şahbikə bəyim el adəti gəlin gətirə, nəvə görə bilməmişdi. İndi atasının vəfatı münasibətilə teinən kəndə çağırtdırılan Bəybala bəy, kişinin ancaq yeddisi veriləndən sonra gəlib çıxmış, bir neçə gün sonra anasını da burada dəfn eləməli olmuşdu. Bəybala bəy bu gəlişində ilişib kənddə qalmışdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Bəybala bəy nökər-qulluqçuya o qədər də məhəl qoyan, onları tanıyan, sayan adam deyildi. İlk vaxtlarda bibisi Qiyaslı bəyin dul arvadı Mahcamal bəyim gəlib qardaşı oğlunun yanında qaldı və bir növ təsərrüfata rəhbərlik elədi. Lakin qardaşı və qardaşı arvadının ili verilendən sonra öz evində ağalığa öyrənişmiş Mahcamal bəyim, Bəybala bəyin sözlərinə, nəsihət və məsləhətlərinə qulaq vermədiyini görüb çıxıb getmişdi. Mahcamal bəyim qardaşı oğlunu ya özünün, ya da o biri qardaşlarının qızlarından birinə evləndirmək istəyirdi. Bəybala bəy isə öz xaricdəki arvadını və ondan olan oğlunu buraya gətirtmək fikrində idi. Bibi qardaş oğlu sözləri çəp gəldi və Mahcamal bəyim küsüb getdi.

Yalnız bundan sonra Bəybala bəy, göz açıb ətrafına nəzər salmağa başladı. Bir neçə dəfə Çəmənin ev-eşik yığdığını görüb "daha bu xarabada səndən başqa üzünə tüpürüləsi heç kim yoxdu?" deyib qovmuşdu. Çəmən göz yaşları içərisində mətbəxə gəlmiş və o gündən sonra bir daha ağalıq otağına, bəyliyə ayaq basmamışdı.

...Bir neçə gün Sona heç fərqinə olmadı, o qədər iş-güc içində Qaratelin, bəy otağına xörək-çörək apardığını, təkcə ona bəy otağını təmizləmək tapşırıldığını bir neçə gündən sonra başa düşdü... Qaratel!.. Bu adı ona Əlyar bəy vermişdi. Deyirdilər ki, (o günlərdə Sona zahılığdan təzə durduğundan bəyin gözünə görünmürdü, arada-bərədə çox dura bilmir, utanırdı) hə deyirdilər ki, nəvə həsrətli Şahbikə bəyim Çəməndən çağanı alıb içəri otağa aparmış, ərinə göstərib demişmiş:

– Kişi, sən Allah bir bu çağaya bax...

– Nəyinə baxım?

– Yox ey, sən bir Allahın işinə bax! Dıtdağ, dırnaq boyda uşaqda telə bax, saç-birçəyə bax...

Heyrət və bu qəribəlikdən doğan bir fərəhlə arvadın üzü elə gülürdü ki... Əlyar bəy özünü saxlaya bilməyib baxmışdı:

– Kimindi Şahbəyim?

– Bıy, Sonanındı da... O şamaxılı qonağuvun göndərən keniz, bizim Bəybalanın nökərçəsi İsiyə alduğ ha... onlarındı dayna...

– Hə...

Bu "hə"də bir aləm var idi... Vaxtilə Sonanın gəncliyini Mahmud ağa məclislərindən birindən xatırlayan Əlyar bəy, arvadına bir söz deməsə də, pərilər soltanının rəqs etdikcə ətrafında ilan kimi qıvrılan saçbağılı hörüklərini xatırlamışdı...

– Şahbikə, çağaya hələ ad qoymamısan?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox... heç yadıma düşməyib...

– Bəlkə özləri qoyub?

– Bıy, ağızları nədi?! Mənə genəşməmiş?

Əlyar bəy bir az əvvəlki hissin təsirilə çağaya bir də nəzər salıb demişdi:

– Onda denən adını Qaratel çağırsınlar...

– Bıy, ay öləsən, nə yaxşı ad tapdı ağan sənə! Ağ günlü olasan, at belində gedəsən səni... ay qız... nə qəşəng yaraşdırdı ağan sənə adını... – deyə çağanı qapıda gözləyən kənizi çağırmışdı:

– Çəmən, ay Çəmən...

– Bəli, nədi bəyim?

– Gələ, al görüm, get dədəsinə-nənəsinə de ki, ağa adını Qaratel qoydu...

Əlyar bəy cibindən bir beşlik çıxarıb Şahbikə bəyimə vermiş, o da pulu körpənin bələyinə sancıb demişdi:

– Bu da cehizi...

Hə... indi həmin Qaratel qız, on üç-on dörd yaşını doldurmuş əsmər bir qız olmuşdu. Ata çörəyi, ata fərəhi görməsə də, Sonanın kasıb komasında ana qanadı altında böyümüşdü. Şahbikə xanım qızı çox əzizlərdi. Həmişə "lap Sonanın öz cavanlığıdı ki, durubsan. Bizə təzə gələndə sütül cavan idi, çillə çıxardırdıq, bir oynadı ki! Dədən də elə onu onda aşıqladı. A bəxtəvər, adını da Əlyar bəy ağan özü qoyub". Şahbikə xanım Sonanın kimliyini, haradan, neyçün buralara düşdüyünü bilmirdi. Sadəcə Əlyar bəyin dostu göndərən kənizə o birilərdən bir azacıq artıq xətir qoyurdu. Axı bu kəniz özü də hər şeyin yerini bilir, sözü adamın ağzından tez qapır, bir sözü iki eləmir, heç vaxt tapşırığı ona iki demək lazım olmurdu, həm də, deyəsən, hardasa qara öyrənib, hərdən ağa başqa şəhərlərə gedəndə, Bəybala bəyin yanında olanda, Şahbikə bəyimin xahişi ilə ağanın kitablarından bəzisini alıb elə oxuyurdu ki... Şahbikə bəyim bihuş kimi qulaq asır: "Ölməyəsən, Sona, vallah, Allah səni şah sarayı üçün yaradıb. Hayıf... Necə olub ki, kasıb düşmüsən?" deyə düşünürdü.

İndi vəziyyət tamamilə dəyişmişdi. Bəybala bəy evdə ağalıq eləməyə başlayandan bəri, evə gəlib-gedənlər də tamamilə başqa adamlar idi. Bunlar Bəybala bəyin cavan dostları idi. Gecəni səhərə kimi qumar, içki, məzə hazırlamaqdan qulluqçuların canında can qalmamışdı. Mey-məzə daşımaqdan nökərlər ayaqdan düşmüşdü. Elə bu cür məc-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lislərdən birində eyvana çıxan bəylərdən biri həyətdə Qarateli görüb heyrətlənmiş, sonra nəyi isə hesablayıb, Bəybala bəyi kənara çəkmişdi.

– Bura bax, bu qız kimdi?

Sərxoş gözlərlə həyəti çalğılayan Qarateli görüncə dedi:

– Hə... bu mənim kənizimdi... necə ki?

– Bilirsən, mən onu bir nəfərə oxşadıram. Bilmirsən o kimin qızıdı?

– Yox, – deyə Bəybala bəy oyundan ayrıldığına görə darıxmış, hövsələsiz dilləndi, – əh, bircə elə nökər-qulluqçunun kimliyini öyrənməyim qalıb?

– Sən bir işə bax, adam-adama necə də oxşar...

Qonağın səsindəki dərin heyrət, Bəybala bəyi də maraqlandırdı:

– Kimə oxşadırsan ey, axı?

– Qulaq as, onda mən lap sütül cavan idim, bir dəfə böyük qardaşımnan bir yerdə Şamaxıda Mahmud ağa var ha... eşitmiş olarsan...

– Eşitmişəm, deyillər yaman hal əhlidi...

– Hə, bax, deyim ki, elə bu qızı orda, onun evində oynayan çəngilərin içində görmüşəm... Belə desəm, onda deməli heç böyüməyib, qocalıb eləməyib, bir on-on beş il, müsürmanın sözü olmasın bundan irəlidən o qopunub gəlib düşüb sizin həyətə...

– Necə, necə? Yox canım, bunun on üç yaşı gücnən olar ki... – deyə Bəybala bəy qəhqəhə çəkdi...

– Elə mən də ona görə soruşuram da... Amma necə oynayırdı zalım balası... Şamaxı çəngilərinin gözü idi, adı dillər əzbəri idi, bəlkə sən də eşitmisən... Sonaydı! Adı da, özü də... Can alırdı hər baxışı, can alırdı hər yerişi... Eh, sonralar eşitdim ki, qaçaqlar onu çəkib dağlara aparıb... İndi birdən fikirləşdim ki, bəlkə bu elə onun törəməsidi, yoxsa adam-adama bu qədər oxşamaz!..

Bəybala bəy də maraqlanmışdı. Ciddiləşdi, nəyi isə xatırlamağa çalışdı, alnını qırışdırıb ovxaladı, amma heç bir şey yadına sala bilmədi:

– Yox, mən bilən bu qız elə bizim həyətdə doğulub böyüyüb, gədələrimizdən kiminsə qızıdı... Yəqin ki, oxşadırsan...

Qonaq hələ də fikir, xəyal içində, ondan söhbət getdiyini duymadan həyəti süpürməkdə olan Qaratelə baxırdı. Düşüncələr içində dedi:

– Olur da... Allahın işidi... hərənin bu dünyada bir tayı var deyirlər... Bəlkə də, Allah işidi, nə bilmək olar...

İçəridən yarımsərxoş qəhqəhə və hay-küy yüksəldi:

– Balam, bu ev yiyəsi camaatı burda qoyub, hara əkilib görəsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəybala bəy əlini qonağın belinə qoydu, kəmərindən qucaqladı, çəkə-çəkə içəri apardı:

– Gəl bəri, görüm... qonaqlar bizi çağırır. – O indi Qaratellə daha artıq maraqlanmışdı. Qonağın qıza çox da baxmasını istəmir, bu baxışlardan qəlbinə yad olan bir hiss, qısqanclıq oyandığını duyurdu.

Bir gün sonra qonaqlar dağılışıb getdilər. Səhərisi gün günorta naharından sonra Qaratel, Bəybala bəyin otağını yığışdırırdı. Birdən gözləmədiyi halda bəy oğlu içəri girdi. Bir müddət diqqətlə evi səliqəyə saldıqca əyilib-düzələn qıza baxdı və birdən ona yanaşıb belinə vurduğu əli ilə Qaratelin çənəsindən yapışdı, qızın qıpqırmızı kəsilmiş sifətini yuxarı qaldırdı, diqqətlə baxdı, baxdı və soruşdu:

– Sən kimin qızısan?

– İsinin.

– Dədən nə iş görür burda? – O, həmyaşı, vaxtilə oyunlarda at kimi minib çapdığı nökərin adını çoxdan unutmuşdu...

Qızın gözləri doldu:

– Dədəm bir ildən də çoxdu Allah rəhmətinə gedib.

– Allah rəhmətinə... bə anan kimdi?

– Kənizinizdi, bəy...

– Adı nədi?

– Sona...

– Sona? – Bəybala bəyin gözləri parladı. "Aha, deyəsən dostum deyən düz çıxır axı..."

– Çəngi Sona?

– Nə? O nədi? Anam qulluğunuzda durur bəy, həyət adamı içində...

– Hardandı əsli, bilmirsən? Buralıdı?

Qız indi anladı ki, anası haqqında demək olar ki, heç bir şey bilmir.

– Yox, deyəsən, buralı döyü, heç kimi yoxdu burda...

Qız bəy otağından çıxandan sonra Sona, Qaratelin başının üstünü aldı; indi o bir neçə gün idi ki, qızın bəy otağını yır-yığış elədiyini bilir və gözdən qoymurdu!

– Nə gec qurtardın, bala?

Qızın qızarmış sifəti ananı ürkütdü:

– Bəy qoyurdu ki?

Qara duman kimi bir həyəcan Sonanın qəlbini sardı:

– Nə deyirdi, nə qayırırdı ki?

– Heç nə! Sorğu-suala tutmuşdu məni, anan kimdi, nəçidi, dədən nə dərddən ölüb?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Necə?

– Hə, sənin adını eşitcək deyir o çəngi Sonanın? Mən də bilmədim nə deyim, dedim yox, sənin kənizindi anam.

Sonanın çoxdan bəri üstü köz bağlamış yarasının qaysağı qopdu, ona elə gəldi ki, bu saat sirri açılacaq, bütün kəndə yayılacaq. Bu vaxtacan bacı deyənlər ondan üz çevirəcək, "çəngi köpəyin qızı" deyib söyəcək, döyüb qovlayacaq, üzünə də baxmayacaqlar. Yenə də kişi məclisləri (o unudurdu ki, indi artıq çox gecdir və bu mümkün deyil, qocalıb), bu məclislərdə bayağı, bayğın baxışlar, şorgöz gözlər... İlahi... Elə anlar olacaq ki, o insan olduğuna, istəksiz, təqazasız bu dünyaya gətirildiyi günə lənətlər sovuracaq... Ürəyi uçundu, səntirlədi, Qaratel olmasaydı az qala yerə dəyəcəkdi...

...Sona elə bilirdi ki, ölüm yatağına yıxılıb... Bir də buradan dura, balasına bir əncam çəkə bilməyəcək. İndi Sona artıq dərk edirdi ki, onun üçün namus qorxusu keçib; indi qorxu balasının başı üzərində hərlənir, indi yalnız o bir ana kimi narahat idi, indi o bir qırt toyuq kimi balasını qanadı altına almalı, yaxına gələnin gözünü dimdikləməli, balasından qovmalı idi, indi o bir çalağan idi ki, körpəsinin yuvasına yaxınlaşanı dimdikləyib gözünü tökməli idi... Sona qızdırmalı idi, yatağa düşmüşdü... Zarımırdı, quruyub yanan dodaqlarını dililə yaladıqca içərisindən odlu, alovlu bir tüstü çıxırdı... Anasının niyə xəstələndiyini bilməyən qız, tez-tez gördüyü işləri yarımçıq qoyub, yanına qoşur, pərzanadan-zaddan verir, üstün-başın təmizləyirdi. Arabir başqa nökər-qulluqçularla birlikdə Çəmən də bura gəlir, rəfiqəsini yoluxur, qaynağında dadlı bir tikə gətirir, onu mütləq azarlıya dadızdırmasa getmirdi. Ağa üzünə baxmayandan, içəri evdən qovandan sonra Çəmən bu dünyada, həyət-baca ilə məhdudlaşmışdı, heç bir yeri yox idi. İndi ən qara işləri o görürdü. Bir gün də gəldi, çox qayğılı idi. Sonanın babatlaşdığını görüncə bir neçə vaxtdan bəri ürəyini deşən dərdi ona açdı, əvvəlcə eyhamla, yavaş-yavaş, ehmallıqla başladı:

– Sona, Qaratelin üstə gözün olsun...

*Sonanın dərinə çökmüş gözləri alacalandı:*

– Necə?

– Necə-mecəsi yoxdu, indi babatsan, deyə billəm...

– Nəyi?

– Dayı nə nəyi? Ağanın onu qaralamağından alınmışam.

– Sən də?

– Bir mənəm ki, bütün həyət uşaqlı-böyüklü üstündə gözdü... O qədər də narahat olma. Amma əlac eləməlisən.

– Nə əlac, necə əlac?

– Vallah, heçcə özüm də bilmirəm, sənə nə məsləhət eləyim... Biz dədə-babadan bu xarabada böyümüşük, hamıcacıqları da burda qırılıb gedib... Bir yanda kimimiz-kimsənəmiz yoxdu, bəlkə sənin bir yerin olar... Yer ayrılıb yerdən çıxmamısan ki...

– Yer ayrılıb yerdən çıxmışam... Tutacağım yoxdu sizdən başqa, Çəmən... mənə əlac, balam əldən gedər... – Azarlının gözləri doldu, solmuş yanaqları birdən-birdən al-al çaldı... Çəmən xəstənin əlindən yapışdı:

– Dedim ki, qabaqcadan əl-ayağa düşmə, hələm ki, bir şey yoxdu. Gədələrə də, qızlara da tapşırmışam. Sən yatandan bəri, heç olan bir tək qoymurlar. Elə ki, Qaratel iç otağa keçir, Bəybala bəyin otağın yığmağa, tez gədələrdən, ya da qızlardan biri bir bəhanəynən cumur dalısıycan... Yaxınlıqdan qaraltı verillər..

– Deməli iş bu çilləyə çıxıb?.. – Sona inlədi.

– Hə, sən bir az ye-iç, cana gəl. Tez cana gəl, görək neynirik...

Sona bu saatdan sonra Qaratelin və başqa kənizlərin onun üçün gətirdikləri bütün bişmişləri acgözlüklə, dadına-tamına baxmadan yeyirdi. Arabir qızın üzünə baxıb içini çəkirdi. İndi o pərilər soltanı Sona deyil, ana idi, ana! "...İlahi, ana balasının gözəlliyinə sevinər, amma mən... istərdim ki, o çirkin olsun, eybəcər olsun. Təki bu murdar zəmanənin oxlarından pak, salamət baş çıxarıb sağ gora getsin". O, ana idi, ana!!! O, indi qızının gözəlliyi ilə fəxr eləyə bilmirdi. Bu qənirsiz gözəllik çiçəkləndikcə bahar kimi ətir saçdıqca ana, dırnaqlarını bu qızıl gül ləçəkləri təki zərif, nərmin yanaqlara batırmaq, onları eybəcərləşdirmək istəyirdi. O bu dolğun, körpə nəfəsli, reyhan qoxulu dodaqları dırnaqları ilə şırımlamaq istəyirdi. Təkcə bu şəhla gözlərdəki dərinliklərə, fəttanlığa toxuna bilməzdi, ana ürəyi... "İlahi, nolaydı mənə oğul verəydin, nolardı qız verəndə də eləsini verəydin ki, üzünə baxan olmaya idi? İlahi, oğul versəydin, qolumdan tutar, ana-bacı namusu qoruyardı... İlahi, nə olardı, atasını at vurub öldürməyə idi. İndi bəd ayaqda çarə qılardı, ər-ata qoltuğuna sığınıb diyarbədiyar gedərdik... namusumuz əllərdə qalmazdı... Allah, hara baş götürüm, gedim? Kimə pənah aparım?.."



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fikrinə indi ömründə tək bircə gün evində ana nəfəsi duyduğu, ana nəvazişi gördüyü Minasoltan gəldi... "Bu günümdə o mənə əl tutar, məni də, qızı da bir əmin qapıya işə düzəldər. Qulluqçu hər yerdə qulluqçudur. İndi mən heç yerdə Sona, çəngi gözəli Sona deyiləm... Doğrudu, burada da tanıdılar məni... Amma neynək, gedərəm, əl-ayağına düşüb yalvarram. Qızı yerbəyer elər. Sonra da, vallah gedib özümü çaya ataram, gicoya ataram. Qoy sonra yazıq uşağın üstündən çəngi ananın adı götürülsün... Məni də oralarda dayı nə görən olar, nə də tanıyan... Nə də balama baş qaxıncı eləyən... Yox, Ağagil, Minasoltan məni qapıdan qaytarmaz, əncam çəkərlər balama. Mən ki, bir şey istəmirəm. Onlar saleh adamdılar, pis yola düşməyə qoymazlar balamı... Düzdü... özlərinin də bir elə vardatları yoxdu, amma bir dünyacan ürəkləri var... Sonra da qızı onlara tapşıran kimi gedib özümü gicoya ataram". – Bu qərara gələndən sonra Sonanın vəziyyəti nisbətən babatlaşdı. İndi artıq evin içində, durub işdən-gücdən görə bilir, ağalığın nəhrəsindən-zaddan çalxayır. Bəybala bəy axı qışdağdan dəridə, sərnicdə gələn yağı-qaymağı xoşlamır, onlardan motal iyi gəlir deyir, burda təzəsini hazırlatdırırdı. Sonanın imkanı olsaydı, bütün kin və qəzəbini, bu gen dünya altında əvvəl özünə, indi də bircə balasına yer tapa bilmədiyinin ağrı və acılarını zəhərə döndərib, bəyliyə göndərdiyi bu ayran daman kərəyə qatardı...

Öynə qurtaran kimi Çəmən gədələrin süfrəsini yığışdırdı və özünü Sonanın yanına çatdırdı:

– Bu gecədən sərvaxt ol, Sona! Bəy o ki, var doldurub tuluğunu. Xudaya, elə axıllı kişidən, irəhmidil ağadan belə bala!.. Kərəminə şükür, Allah, nə deyim?.. Bə deyillər "ot kökü üstündə bitər", bu hansı kökün üstündə bitib?..

Sona çırpındı. Bayaqdan bəri həyətdə güyümlərlə əlləşən Qarateli gözlərilə axtardı...

...Qəfil qara xəbər kimi Sona ölənəcən də bilmədi ki, nökərlərdən hansıydı, içəri girib, rəfiqələrin sözünü yarımçıq qoydu:

– Bəy qızı çağırır... Qarateli. Hanı qız?

Və qızı axtarmaq üçün həyətə cumdu.

– Bu qara yazını mən yazmamışam, Çəmən, alnıma yazılıb bu qara yazı!..

Çəmənin tükləri ürpərdi. Hər ikisi yerlərindən hövlnak qalxıb, ağanın otağına sarı yeridilər. Qabaqda gedən Sona yavaşca Çəmənə pıçıldaya bildi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Başuva dolanım, Çəmən, sən qaç İsrafil qardaşa de ki, Şamaxıya hacı Ağanın yanına getmək istəyirəm. Məni də, balamı da başına çevirib, bir əncam çəksin...

Çəmən ondan ayrıldı və sonralar hər dəfə bu hadisəni yadına salanda təəssüflənər, deyərdi: "Kaş ayrılmayaydım. Ayağım heç getmirdi, amma tələsdim ki, bədbaxta bir kömək eləyə billəm görəsən?"

...Sona, Bəybala bəyin otağına Qaratellə birlikdə gəlib çıxdı. Hadisədən o qədər də halı olmayan Qaratel, anasının dabanbasma dalıyca gəlməsini heç başa düşmürdü. Neçə gündən bəri, nökərlərdən İsrafil, Səlim və qulluqçu Çəmənin onu necə qoruduqlarından, demək olar ki, bixəbər idi. İndi anasının da onun kimi no üçünsə bir işdən ötəri çağırıldığını zənn edib, həmişə o qədər də bir həvəslə girmədiyi otağa cəsarətlə daxil oldu.

Bəybala bəy taxtın üstünə yayxanmışdı, yarı çılpaq idi, dumanlı gözləri Qaratellə birlikdə otağa soxulan Sonaya ilişəndə, tanımadı, mırıldandı:

– Sən itil, aaz! Neçə kərəm a-dama de-yəllər buralara gəlmə!

Sona nə etdiyini, nə dediyini bilmədən, nifrət oyatsa da Bəybala bəyin ayaqlarına yıxıldı:

– Bəy, məni başına çevir, balamı bədbəxt eləmə...

Əziz dost, icazə ver, səni də, özümü də pərilər soltanının namərd ayağı altında sürünməsini təsvir etməkdən xilas edim. Ürək oyan bu mənzərəni özün təsəvvür edə bilərsən... Sona indi gözəllər gözəli Sona deyildi, canlar alan ilham pərisi deyil, təkcə ana idi; balasına ley cummuş göyərçin idi, yaxınlaşanın gözlərini oyacaq idi, didəcək, parçalayacaq, ya da öləcək idi...

...Bəybala bəyin otağından çıxanda səsə tökülüşmüş nökər-qulluqçu qanqaysan olmuş Sona və Qaratelin əhvalına zar-zar ağlayırdı, qadını güclə ayaq üstə sürüyüb apardılar. Gözləmədiyi hücumdan və qamçıya doladığı ana-balanın müqavimətsiz yalvarışlarından Bəybala bəyin kefi tamamilə pozulmuş, içdiyi şərabın dumanı dağılmış, ayılmışdı. "Yaxşı, köpəyin qızı, neynək, qoy dursun! Xoşnan olmadın, gücnən razı olarsan". Bu "xoşnanın" içərisində isə Sonanın yalvarışlarını eşidir, sözlər qulaqlarını dəlir, dərinliklərə, daxilinə nüfuz edirdi: "Vur, öldür, bəy, təki binamus eləmə!..." "Gədə-güdə də namus çəkən olub..." Bəyin beyni çatlayırdı...

...Karvanqıran göy üzündə dan ulduzu kimi par-par yananda kəndin qırağından dörd kölgə ayrıldı. Bunlardan biri Sona, biri Qaratel, biri



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kəndlərdə duz və qara neft satan dəvəçi və biri də qoşa hürgüclü qara nərin kölgəsi idi. Sona arabir başını qaldırıb asimanın zülmət qaranlığını məşəl kimi yaran karvanqıran ulduzuna baxır, ümidlə bu "dan ulduzundan" kömək diləyir, "Niyazımı, nəzrimi, dualarımı o dibsiz göylərə, məni məndən soruşmadan, razılığımı almadan yaradan və sonra da bu qədər əzab-əziyyətə salmaqla imtahana çəkən pərvərdigara yetir" deyirdi. Sonanın qulaqlarında Çəmənlə İsrafilin son sözləri bir yaddaş kimi səslənirdi: "Çox gözə-zada görünməyin, elə daldada olun. Qaratel əl-üzünü yumasın, elə sən özün də". Sonra Çəmən əlini sacın altına aparıb qızın üzünü hislə, sac qarasıyla elə şəklə salmışdı ki, alahı vaxt olsaydı, özü qıza baxıb uğunub gedərdi. Sonra da İsrafil Sonanın hələ də incə təravətini itirməmiş gözəl üzünə baxıb demişdi: "Sona bacı, əlacım olsaydı səni dünyada buraxmazdım. Amma bu aralarda hansı obada gizlənsəz, bəy gec-tez xəbər tutasıdı. Nə yaxşı gözdən uzaq olasız, kişi olan şəxs dünyada nə ki, zənən ha, heç oğlan uşağını bu yiyəsizliyə buraxmaz. Ala, bu sigəzini də üstən salın başuza, həm soyuqdan saxlar, həm də görkəminizi xarablar". O demək istədiklərinin birini də deməsə Sona anlayırdı: "Bu biyabana, boş yollara təkcə kişi çıxar, təkcə karvan gedər, o da bələdinən. Arvadın-qızın bu yollarda neyşi var? Get bacı, Allah amanında olasan, bu dəvəçini tanıyıram, qorxub-eləmə. Uduludandı. Həmişə Həlib bəyliyə nöyüt, duz gətirir Bəkidən. Çox etibarlı adamdı. Lap arın-arxayın, sizi daldalaman ağzında dili kimi aparacaq. Doğma bacısı gözündə görəcək sizi, yoxsa heç ona da qoşmazdım, əlac nədi". Sonra köksünü ötürüb demişdi: "Fağır İsinin yəqin bu gecə qəbri çatladı". İsrafil dolmuş gözlərini silmiş və yenidən aralıda duran dəvəçiyə yanaşıb nəsə tapşırmağa başlamışdı.

## ZİDDİYYƏTLƏR İÇİNDƏ

O, məscidə girəndə hələ namaz başlamamışdısa da, mənbərin dibində möminlərdən xeyli adam vardı. Ağaseyidəli ağa mehrabın altındakı daimi yerində əyləşmişdi. Ondan solda Hacı Əsəd, Məşədi Alış, Meşədi Məhərrəm, sağında Molla Qurbanqulu, Sarı Hacağa, darayı füruş Kərbəlayı Abdulla, Meşədi Rəhim və başqaları oturmuşdu. Onlardan xeyli aşağı Dardarı Cəfər, Meşədi Qənbər, Cüvə Cabbar, həllac uşağı, Cırtdan Bahadır, Zol Hüseyn, Ayıbasan Məhərrəm və o



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çırpıda olan aşağı təbəqə adamları – kasıb-kusub əyləşmişdi. Şair içəri girəndə öz ağ geyimi və nurani siması ilə Hacı Əsəd və Molla Qurbanqulu arasında bir parça nur kimi işıq saçan, ağ pambıq yumağına bənzəyən Ağaseyidəli ağa əlini dizinə dayaq verib "La ilahə illəllah" deyə ayağa qalxdı. Böyük axund yerindən duran zaman heç kəs oturub qala bilməzdi. Hacı Əsəd, Molla Qurbanqulu və Alış nifrətlərini gizləyə bilmədikləri halda, istəməyə-istəməyə şairin ayağına qalxmağa məcbur oldular. Hörmətli ruhaninin bu payansız ehtiramından sıxılan şair, axundun qənşərindəki divar dibində xeyli aralı əyləşdi.

– Əssəlamu əleykum.

– Və əleyküməs-salam...

– Allah əcri-xeyir versin, əmoğlu.

– Allah əcr versin...

Hamı salamlaşıb yerində sərbirah olandan sonra, Hacı Əsəd özünü saxlaya bilməyib, axunda tərəfə əyildi və alçaq səslə soruşdu:

– Ağa, sənin şənin, hörmətin yanımızda dünyacandı, ona neyşə bu qədər hörmət eləyirsən?

Ağaseyidəli ağa nazik əlini ağ ipək saqqalına çəkdi, aram, yumşaq səslə cavab verdi:

– Layiqdi...

– Neynən? Elə bir o bimənə şeir qoşmağıynan?

– Əvvəla haqpərəstdi, – sözün düzünü deyir, xudavəndi-aləm də həqpərəsti dust tutur və illa şeir Allahın insana əta buyurduğu ən böyük nemətdi, dini-mübinin banisi Məhəmməd sələvatullah (məclisdən salavat səsi ucaldı) özü də Qurani-məcidi şeirlə yazıb. Yaxşı, bəs sən özün niyə durdun, cənab hacı?

– Ağaseyidəli ağa qalxanda mən necə otura billəm?

Seyid Əzim sözləri aydın eşitməsə də söhbətin ondan getdiyini anlayırdı. Bu gün namaza gəlməkdən xüsusi məqsədi vardı. Ağaseyidəli ilə məktəbə yardım barəsində danışıb məsləhətləşmək istəyirdi. Lakin onu elə adamlar əhatə etmişdi ki, deyəsən söhbət baş tutmayacaqdı. O vaxt itirib bura gəldiyinə təəssüfləndi, "bura sənin kimilərin yeri deyil, aadə... bir gör onu kimlər əhatə edib... Molla Qurbanqulu, onun əziz kürəkəni Alış... daha sonra hamısının başçısı Qapaqlı... yox, bura sənin yerin deyil "könül, ta var əlində cami-mey səbhə şümar olma" – bu təsbeh çevirib dodaqları vird edən cənabların qəlbində, qəlbinin ayinəsi olan gözlərində, bir bax, nə qədər küdurət var... Bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

boş başlar üzərinə qoyulmuş əldəyirmanının daşı boyda əmmamələrin, qalmağı papaqların altındakı qırxıq başlarda nə qədər fisqi-fücur var? Qara fikirlər var? Bu həna və rəng ilə təravətlənmiş saqqal və bığlar nə qədər mənfur simaları bəzəyir ki, eybi üzə çıxmasın?

Bu şal çuxaların, tirmə qurşaqların arxasındakı ürəklərdən nə keçir, mədənlərdə hansı yetimin, bivə övrətin malı həzmi-rabedən keçir?

...Camaat namaza durdu. Pişnamaz mehrab önündə yerini tutdu. Mükəbbir ucadan hamıya görünsün deyə, mənbərin ikinci pilləsinə qalxdı. Möminlər axundun arxasında səf çəkdilər. Səccadələr açıldı. Minarədən müəzzin əzanı bitirincə əllər qulaqların ardına qoyuldu. Ürəklərdə pişnamaza iqtida bağlandı və namaz başlandı.

Pişnamaz bu gün Ağaseyidəli ağa özü idi. O öz zəif, mülayim səsilə namaz dualarını, əlhəm-qulhuvallahı dedikcə, minbərdə duran mükəbbir sözləri ucadan təkrarlayır və böyük məscidi dolduran, pişnamaza iqtida bağlayan möminlər şərti işarələrlə əyilib-düzəlir, daha özlüklərində surələri oxumurdular. Ona görə də əksəri bisavad olan adamların cərgəsində qarmaqarışıqlıq yaranmasın deyə seyid Cəfər aralıqda gəzir və hərəkətini yanılanlara işarə eləyir, kimisini boynunun şəkərəyindən itələyib əyir, kimisini dürtmələyib qaldırırdı. Heç bir şeydən başı çıxmayan avam bir tərəkəmə də dal cərgədə durmuş, döyükmüş gözlərlə məscidə seyr edir və qalxmaq lazım olan yerdə əyilir, rükuə getməli olan yerdə əzən-iqaməyə qalxırdı. Buna görə seyid Cəfərdən bir neçə dürtmə də yemişdi. Odur ki, indi sərvaxt olub, başa düşmüşdü ki, vaxtında hərəkətləri təkrarlamasa, zərbə alacaq, qonşusu da həmçinin. Odur ki, özü kimi gecikən, qonşuya arabir pıçıldayıb xəbərdarlıq edirdi: "Ayə, əyil, seyid gəlir sö-ləsən". Pıçıltı elə aydın idi ki, cərgədə hamı, hətta bir neçə sıra qabaqda duran Ağa da eşidib qəlbində gülümsədi.

Mükəbbirin ucadan "Allahü əkbər" deyə namazın bitməsini bildirən səsi eşidilincəyədək, Ağanın fikri fağır tərəkəmənin yanında idi. İndi bazara çatanacan "tüllablar, tülüngülər" onun dalınca düşəcək, "Seyid gəlir sö-ləsən" deyib ələ salacaq, güləcəklər. Yazıq tərəkəmə işini birtəhər eləyib kəndə qayıdan yoldaşlarına qoşulanacan bu səs onu izləyəcək, hələ bəlkə gələn səfərlərdə bazara çıxanda onu tanıyanlar dərhal bu sözü yada salacaqlar.

Namaz qurtardı...

...Ağaseyidəli ağanın yaxın adamlarından biri olan silsiləcuman Mir Kərim, Seyid Əzimə yanaşdı, qarşısında diz çöküb qulağına pıçıl-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dadı ki "istifta" qurtaranacan ayaq saxlasın, axund onu görməyə mayildir. Şairi məsciddə saxlayan da bu oldu. Yoxsa çoxdan çıxıb gedərdi. O bu istifta məclislərinə uşaqlıqdan bələd idi. Hələ babasının otağında neçə-neçə belə məclislərin şahidi olmuş, babasının bu sadə, bəzən hətta gülünc sorğulara böyük bir ciddiyyət və ürək ağrısı ilə verdiyi cavabları eşitmişdi. İndi o qəlbində Ağaseyidəli ağa ilə babası arasında bir müqayisə yapırdı. "Axı Ağaseyidəli də bilikli, dünya görmüş alim və həqiqi din xadimidir. Bəs nə üçün mən onun qəlbindəkilərin simasında əksini görə, duya bilmirəm? Axı o heç də fırıldaqçı, riyakar adam deyil, dini öz şəxsi mənfəəti üçün mənbəyə çevirməyib. Axı o, dini ayinlərdən gələn qazancı, fitrəni, təsəddüqü, zəkatı məhz füqəraya paylayar, bəs nədir bu təzadın səbəbi? Mən bunu dərk etməliyəm, yoxsa quru yerdə molla-axund haqqında həcv yazmaq namərdlik olar..."

...Növbəti sual verən baqqal Məşədi Məhərrəm idi:

– Axund ağa, cəddüvə qurban olum, qonşumuz Əhməd bəyin nəvəsi Tiflisdə urus uçqolunda oxuyur; bu yaxında dərsləri ara verib, on günə gəlib. Nökərçənizlə həmsinndi; uşaqlar bir məhəllədə böyüyüb. Görüşüb-öpüşüblər, ona şirniyyat pay veribdi. O da yeyib, indi nənəsi uşağın ağzını suya çəkdirib, amma genə ürəyi durmur, deyir gör bir cəddinə qurban olduğum nə deyir? Uşaqdı, gözdən oğurlanıb gedib onuynan görüşüb-oynasa...

Axund sözün uzandığını görüb nazik əlini qaldırdı:

– Kifayətdir, meşədi, məlum oldu məsələn... uşağın nənəsi haqlıdı; cənab Əhməd bəyin nəvəsi urus məktəbində oxuyur, urus xörəkçörəyi yeyir və onlarla mülaqatdadı. Xaçpərəstlər ilə mülaqat haramdı. Cənab Əhməd bəyin nəvəsi də tamam-kamal murdarlanıb, o da bir növ uruslaşıb. Görüşməsi fəsada bais olar, uşağın əqidəsinə sədəmə toxundurar. Nəüzən-billah, onun cavan ürəyinə dini-mübinə zərər gətirən toxum səpər, uşağı döndərər, bir də görərsən gəlib dedi: dədə, məni də urus məktəbinə göndər...

– Allah sən saxla...

Meşədi Məhərrəmin domba gözləri az qaldı hədəqəsindən çıxsın. O açıq şabalıdı rəngə çalan əllərini hənadan allaşmış qırmızı saqqalına çəkdi:

– Allah sən saxla! – kişinin nəfəsi darıxdı, boğulurdu – pərvərdigara, özün mühafizət elə! Mən o it küçüyünü yaxşı tənbeh elərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aparıb hamamda qüsl elətdirrəm, sonra bir də o urus uşağının, o babi kafirlərin qapısı tərəfə baxsa, iki gözünü bir deşikdən çıxardaram...

Meşədi Rəhim bu gün heç məsələ üçün gəlməmişdi. Rus mülaqatı haqqında bu fəqərəni eşitcək kişi yerində qurcalandı, elə bil kişinin bədəninə çuxanın altından birə daraşmışdı, dizin-dizin irəli sürünüb dil-dodağı təpiyə-təpiyə dilləndi:

– Ağa, ceddüvə qurban olum, mənim də məsələm var.

Sadəlövh etiqadı ilə axunda çoxdan tanış olan Meşədi Rəhimin vahimə dolu səsini eşidincə, vəziyyətin ciddiliyinə baxmayaraq, Ağaseyidəli ağanın üzünə xəfif, olduqca xəfif təbəssümü xatırladan bir mülayimlik gəldi:

– Buyur, meşədi, buyur... deyəsən, axırıncı məsələ sənindi...

Meşədi Rəhim təpimiş dodaqlarını dilinin ucu ilə yalamaq istədi, bığ-saqqalının pırpız, qırmızı, cod tükləri tikan kimi dilinə sancıldı. Kişi barmaqları ilə dodaqlarının kənarında dikələn tüklərə təh verməyə çalışdı, bundan bir şey çıxmayacağını görüncə, əlini ağzından çəkib sözə başladı:

– Ağa, qadovu alım, həyətimə su cənab Mahmud ağanın bağından keçir. Orda da cənab Mahmud ağa urus badımcanı əkdirib (Şirvanda təzə görünməyə başlayan pomidoru o zaman belə adlandırırdılar), su o urus badımcanlarının dibindən ötüb, mənim bağıma axır, indi bilmək istəyirəm görüm mənim götürdüyüm yer-yemiş haramdı, ya halaldı?..

...Aralı oturmuşdular. Seyid Əzimlə Ağaseyidəli ağa arasında xeyli məsafə vardı, amma nədənsə, kişinin son sualında hər iki seyidin baxışı ani olaraq bir-birinə sancıldı. Dərhal Ağaseyidəlinin ağ kirpikləri aşağı enib nəzərlərindəki ifadəni şairdən gizlətdi. Seyidin qəlbindən dərin bir ağrı keçdi, təəssüf hissilə Meşədi Rəhimə baxdı, xeyli düşünüb fikrə getdi. Daxilində, dərunundа iki hiss bir-birilə çarpışırdı: birinci deyirdi: "De ki, ay rəhmətlik oğlu, torpaq Allahın, su Allahın, toxum Allahın, onu göyərdən ab-atəş, xak-bad da Allahındı; göyərən tərəvəzə "urus badımcanı" adını sənin təkilər qoyub, ağla, gəl, kişi, əlbəttə halaldan halaldı". Digər hiss birinciyə qalib gəlib bağırırdı: "Yox, yox, – demə, haramdır – de".

Ağaseyidəli birdən düşüncələrdən ayılıbmış kimi gözlərini qarşı cərgədə oturan şairə qaldırdı, onun əzici baxışlarına davam gətirə, nə fikrindəki iblisin diktə etdiyi sözləri, nə də dərunundan gələnləri deyə bilmədi, yarı fikirli, dodaqaltı dilləndi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Məkrufdu, meşədi, meylüvə bax...

O da, məsələni dinləyənlərin hamısı da bilirdi ki, Ağaseyidəli qəti fitva verməyəndən sonra, Meşədi Rəhimi "dovşan əti kimi məkruf" saydığı su ilə artıq öz həyətini suvarmayacaq, ya yüklə suçudan su alacaq, ya da ayrı bulaqdan həyətinə arx çəkdirməli olacaqdı...

...Müridləri Ağaseyidəli ağanı məscid darvazasından xeyli uzaqlaşanacan müşayiət etdilər. Hər ikisi təklikdə qalıb söhbət etməyə mayil idi, lakin müridlər Ağaseyidəlidən əl götürmürdülər. Nəhayət, axund vəziyyətdən çıxmaq üçün çıxış yolu axtara-axtara ayaq saxladı. Nəzəri müridlərin ardınca gələn şairə sancılınca, qəti qərar verməsi üçün bu baxışı kifayət elədi:

– Ağalar, deyə, nazik ağ əllərini gicgahlarının bərabərinə qaldırdı, əzən-iqamə deyərcəsinə, dua üçün dərgaha əl götürdü: – bəndəni əfv buyurun, sizdən ayrılmalı olacağam. – Şairi göstərib mehribanlıqla müridlərinə gülümsədi. – Mən əmuzadəmlə[1], söhbət etməliyəm, məzuram, mürəxxəssiniz, xudahafiz...

– Xudahafiz...

– Mürəxxəs olaq.

– Xudahafiz...

İkilikdə qaldılar, dərhal Ağaseyidəlinin dodaqlarındakı mehriban, nəvazişkar təbəssüm söndü, ciddi sima taqındı. O daxili bir əzab keçirirdi. Həmişə düzlüyünü, mərdanəliyini, böyük təbini qiymətləndirdiyi şairin qarşısında, o bu gün günah işlətmiş, istifza zamanı lazımi sözləri deməmişdi. İndi ona söhbəti başlamaq nəsihət vermək, bu ağıllı, nüfuzedici baxışlar qarşısında başqa bir həqiqətdən danışmaq çətin idi.

– Ağa, neyşə Meşəli Rəhim kişiyə elə namüəyyən cavab verdiniz?

Axund üzüyuxarı qalxmaqda olan yolu çıxdıqca töyşüməyə başlamışdı. Təngnəfəs idi. Bir anlıq ayaq saxladı, diqqətlə, kədərli baxışlarını şairin üzünə zillədi.. Bu gözlərdə dərin bir dərd, sonsuz bir etiqaddan, imandan doğan ağır bir ələm var idi. Bu baxışlar şairin ürəyinə nüfuz edirdi: "Qəlbin nədən ağlayır belə, ey fazili-dövran? Məgər sən öz böyük ağlın və kamalınla sevdiyin camaatın, millətin tərəqqisinin nədə olduğunu görmürsənmi, neyşə mane olursan?"

– Sən mənim yerimdə olsaydın bəs nə cavab verərdin? İxtiyar səndə olsaydı nə deyərdin?

---

[1] Ulu babaları Məhəmməd peyğəmbər hesab olunduğundan bütün seyidlər bir-birini əmioğlu, seyidələr əmiqızı hesab edirlər. Nəsəbləri Məhəmmədə çatır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sualda təsdiqedici bir ifadə vardı. Şair bunu duydu, lakin özünü bilməməzliyə vurdu, gülümsədi:

– İxtiyar bəxtiyarın əlindədir, cənab ağa! Mənim sözümə kimdi onlardan qulaq verən?

– Necə də olsun, nə deyərdin?

Şair ehtiramla qocanın dirsəyindən yapışıb onu üzüyuxarı, Minaxora tərəf qaldırmağa başladı:

– Deyərdim ki, ay rəhmətlik oğlu, yer Allahın, torpaq Allahın, su Allahın:

Əbro bado məho xorşido fələk dər karənd,
Ta to nane bekəf ari və be qəflət nə xori.

Allahın yetirdiyi nəbata "urus" adını nadanlar qoyub deyərdim... ya da o Məşədi Məhərrəm bədbəxtin nəvəsi... Məni əfv buyurun, ağa! Biçarə, bigünah tiflin döyülməsinə, nahaqdan incidilməsinə səbəb oldunuz demirəm, hələ necə rəva gördünüz? Axı siz özünüz də bilirsiniz ki, bütün zihəyatı yaradan Allah özü də urusu yaradıb, istəməsə, kafərin yer üzünü murdarlamasını rəva bilməsə, öz cənab Əzrailini göndərər, hamısının da canını alar, ya bir taun, zəlzələ, vəba yollar, əbabil quşun dimdiyinə bir qətrə, cəhənnəmin odlu daşından verər, hərəsinin başına bir darı boyda salar, qurtarar gedər. Dayı nə üçün bu xalqı bilə-bilə tərəqqidən, maarifdən uzaqlaşdırırsınız, gözünü açıb dünyanı görməyə qoymursuz? Axı, siz ki, milləti sevirsiz.

Axund söz axınına düşmüş çöp kimi daxilində çapalayırdı:

– Siz elə bilirsiz ki, mən millətin inkişafını, balaların oxuyub adam olmasını istəmirəm?

Ağaseyidəli ağa əslində xalqın uşaqlarının oxuması və həmvətənlərinin tərəqqi tapması, inkişaf yoluna düşməsi əleyhinə deyildi. O, həmvətənlərinin dinayrı qardaşları kimi, qonşu ermənilər, malağanlar təki oxuyub, irəli getməsini də istəyirdi. İnsanları nadanlıqdan çıxarmaq onun da arzusu idi. O, dinlər arasındakı fərqi öz daxili aləmindəki bir tələblə, bir imanla qəbul edirdi: Allah birdi, onun əqidəsincə Tövrat da, İncil də, Quran da Allah tərəfindən göndərilən müqəddəs kəlamlar idi. Musa da, İsa da, Məhəmməd də yer üzünü yaradan böyük xudavəndi-aləmin rəsulları, elçiləri idi. Bütün bu dinlər onun əqidəsincə adamları yaxşı yola, Allah yoluna dəvət edirdi... İndiki təzələr də insan-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ları doğru yola, həqiqətə dəvət edirdilər. Bu məsələdə Ağaseyidəli ağa təzələrin əleyhinə deyildi...

Nə olar, qoy mədrəsə əvəzinə məktəb açsınlar, qoy uşaqları oxutsunlar, onlara lap dünya elmləri də təlim etsinlər. Lakin onu qorxudan, imanını narahat edən başqa şey idi... O qorxurdu ki, cavanlar bu təzə yola düşəndə dindən uzaqlaşa bilər, Allahın buyurduğu qanunlara riayət etməzlər.

– Bəs onda neyşə mane olursuz?

– Əgər bu tərəqqi kafərsiz olsaydı, ona əl-əl üstən qol qoyardım?

Seyid Əzim təəccüblə qaşlarını qaldırdı.

– Elə niyə, cənab ağa? Axı tərəqqi məhz onların vasitəsilə elimizin daxilinə axıb gəlir. Keçmiş xanlıq-bəylik əsri camaat nə gündəydi? Harda bir məktəb, bir maarif ocağı vardı? Bütün qonşu millətlər irəli gedib, zamanın dünyəvi elmlərinə yiyələnib, bizimkilər isə elə təğlid edə-edə və təharət elmlərin öyrənə-öyrənə dalda qalıb, bir-birinə yağı kəsilib...

Ağaseyidəlinin ağ qaşları altında qaralan gözlərində bir qəzəb qığılcımı parladı:

– Xanların, bəylərin, ağaların bir-biri ilə yola getməməklərinə, zülmkarlığına görə Allah kafiri onlara cəza, bizə bəla göndərib. Bir dövrənə yaxşı bax, oğul və dərin düşün. Camaatın gözü açılır, yeni törəmə ziyalılar cavanlar mədəniyyətə, dünyəvi elmlərə can atır, bu kimə xeyirdisə də dinimizə ziyandır. Bir də gözünü açıb görəcəksən ki, o xarici məktəbində oxuyan cavanlar əqidəsini də dəyişəcək, dinindən də dönəcək.

– Millətləri bir-birinə qarşı qoyanda tərəqqi hardan ola bilər? Biz inkişaf ülgüsünü məhz urusdan alırıq, onlar Avropa mədəniyyəti ilə bizim aramızda körpüdülər...

– Bilirəm, yaxşı bilirəm...

– Ata öz övladının əlindən tutub məktəbə aparmayınca, bu məktəbi övladının gələcək taleyinin başlanğıcı hesab etməyincən tərəqqi yoxdur. Xalq tərəqqiyə üz qoymaq istəyəndə, siz ruhani atalar onların qarşısında milli ayrı-seçkilik səddi qoyursunuz. Siz belə deyəndə molla qurbanqulular nə deyər...

– Bilirəm, yaxşı bilirəm... Amma onu da bilirəm ki, hələ nə bir malağanın, nə bir ermənінin, nə bir moltanının malı-canı haqqında nəhs fitva verməmişəm. Bu isə ayrı məsələdir, övladım, özünü gözlə. Gələ-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cək nəsillərin lənətindən qorxun, lərzəyə gəlin! Onlar bir zaman göz açıb bunu anlayacaq və sizləri arizu etdiyiniz rəhmətlə deyil, lənətlə yad edəcəklər.

Şair, Seyid Əlinin bu dəhşətli inamı qarşısında söz tapa bilmirdi. Sükuta dalmış qoca ilə yanaşı irəliləyirdi: "Görəsən, bu peyğəmbərliyində haqlıdımı? Görəsən, cənab Həsən bəy, cənab Vəkili-millət, cənab Əhsənül-qəvaid yanılırmı? Bəs onda Həsən Qaralar, kapitan Soltanovlar, molla Qurbanqulular, qapaqlı və Alışlar haqdı? Heç belə də şey olar? Bu ki, kor-kor, gör-gördü? Bəs cənab Axunddakı bu təzad nədən irəli gəlir?"

Axund getdikcə elə təngnəfəs olmuşdu ki, evlərinin qabağına çatanda artıq az qala boğulurdu, hər nəfəsdə çiyinləri qalxır, sinəsi çökür, boğazından xırıltılı öskürək çıxırdı. Getdikcə daha çox Seyid Əzimə söykənirdi, şair yumaq kimi yumşalmış qocanı az qala qucağında aparırdı: "Ah... Kaş ki, sənin o böyük milli məhəbbətinə bir qədər də dünyəvi tərəqqi işığı qarışaydı", deyə xəstə qocaya qəlb ağrısı ilə acıyaraq düşünürdü. Qapıda dayandılar. Axund onu içəri dəvət etdi. Seyid Əzim üzrxahlıq elədisə də qocanı həyətdən keçirib kallayıdakı otağına gətirdi. Bir neçə könüllü nökərə çevrilmiş müridin köməyilə qocanın əba, qəba və iri əmmaməsini çıxardılar, yüngül ərəbi donda yenidən ağ bir yumağa çevrilən seyidin sükuneti özünə qayıtdı, təngənəfəsliyi azaldı.Yerini rahatlayıb nazbalış və mütəkkələrə dayandı. Seyid Əzim getmək üçün icazə istədikdə qoymadı, nökərlərə çıxmaq işarəsi verib dedi:

– Ayaq saxla, əmoğlu, o qədər səninlə lazımsız (lazımsızmı?) mübahisə etdik ki, dəvətdən məqsədimi deməyə macal tapmadım.

Seyid Əzim, qocanın böyründə salınmış döşəkçənin üstünə diz çökdü. Ağaseyidəli sözünə davam etdi:

– Sənə iki sözüm var idi, övladım: biri xoş, biri qismən naxoş.Qoy elə əvvəlcə naxoşdan başlayım ki, məndən incik ayrılmayasan. – Seyid Əzim nə isə demək istəyirdi, axund əlini qaldırdı – sözümə qulaq ver, bilirəm məndən inciyən deyilsən; öz xalqının kamil övladlarına dəruni-qəlbdən səadət arzulayan xeyirxah qocadan kim inciyər – deyəcəksən. Lakin əfsus... nə isə... Bilirəm ki, səninlə son müsahibəmizdən neçə illər keçir və bəndəyə verdiyin sözə əməl edib içkiyə əl vurmursan, xüsusilə məktəb işin yoluna düşəndən o bədbəxt cavanın hadisəsindən sonra... Amma, bununla belə, yenə də qulağıma bəzi naxoş sözlər gəlib çatır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şərabdan, bihudə, boş və bimənə həzliyyatdan mənə tövbə ilə söz verdikdən sonra əl çəkdiyini bilirəm, amma zəmanənin mütəşəxxis adamlarına, bəylərə, ruhanilərə, ağalara həcv yazmaqdan hələ də əl götürməmisən. Onların arasında zülmkar, bədtinət adamlar çoxdur, bilirəm; fəqət övladını ilk dəfə, adətlərimizə rəğmən, xarici məktəbə göndərən, maarif yolunda ianə verən, füqəraya əl tutan da həmin təvana içindən çıxan adamlardır. Elə ilk maarifpərvər ziyalılar da çulu cırıq çoban-çoluq içindən çıxmayıb, xan-bəy övladı olub. Bilirəm, deyəcəksən ki, mən pisə bəd, yaxşıya yaxşı deyirəm; amma bəhər hal, məndən sənə nəsihət, özünü qoru, namərbut adamlardan özünü gözlə! Pişnamaz da namazda yanıla bilər, sən yox! Sənin buna ixtiyarın yoxdu! Onsuz da gəncliyindəki xətaların bəzi kölgəsi ömrün boyu səni rahat buraxmır. İstər öz qəlbində, istər el arasında. Vəssalam!

Şair, qocanın nəfəs dərməsindən imkan əldə edib dilləndi:

– Bədbəxt vətənin adı itmiş şairlərindən biri gözəl deyib:

> – Əğyar cövrü, el sitəmi, yar tənəsi
> Bəh-bəh nə yaxşı əppəyimiz batdı bala ha...

doğrudan da, əppəyimiz bala batıb.

Qocanın dodaqları təbəssümdən qımıldandı:

– İkinci sözüm şad bir xəbərdir, övladım! Sənə bəşarət olsun ki, cənab Səid Ünsi əfəndi Şirvana gəlir. Təzə, dünyəvi elm təlim edən məktəblər açmaq, qəzetlərə abunə yazılmaq, qəraətxanə, kitabxanə açmaq haqqında danışacaq, ianə toplanışı başlayacaq. Bu barədə cənab Səid Ünsi mənə, cənab Hacı Məcid əfəndiyə məktub yazıb, kömək xahiş eləyir. Mən də cavab məktubu yazdım və əlimdən gələn bütün müavinətdə olacağımı, heç nə əsirgəməyəcəyimi bildirdim. Sənin və məktəbin barəsində ayrıca məlumat verdim. İndi qabaqcadan işini bil və həmfikirlərinizlə Səid Ünsizadə cənablarının gəlişi üçün hazırlanın. Cənab Hacı Məcid əfəndi ilə bu qənaətdəyik ki, Səid cənablarının gəlişi münasibətilə bizim otaqda sünnü və şiəməzhəb əşxasdan mürəkkəb bir yığıncaq tərtib edərik. Cənab Ünsizadə orada öz məqsədləri barədə nitq irad edəcək və Şirvan ziyalıları namindən sən də bir neçə kəlmə danışarsan.

...Şair vidalaşıb çıxdı. Bir-birinin kölgəsini qılınclayan sünnü-şiə məzhəbləri nümayəndələrinin bu birgə iclası onun nəzərində gələcək birliyin bünövrəsi, tərəqqi mücəssəməsi kimi canlanır və burada söy-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ləyəcəyi sözlər incitəki ipək sapa düzülür, gələcək şerin misralarına çevrilir, axırda:

Düşüb ol fikrə kim, Şirvanı bir darülfünun etsin,
Qiraətxanə açsın, nəşr qılsın elmi-ədyani...
*Zəbani-rusi bilmək, ya danışmaq qeyri dillərdə*
Şəriətdə bizə nəhy olmayıb, yox rəddi-bürhani...
...Xüsusən kim, bu əhlə rusi bilmək çox münasibdi...
...Əfəndi ya axund rusi danışsa bir günah olmaz...

...Seyyid məscidə qonaqlardan xeyli əvvəl gəlmişdi. İş elə gətirmişdi ki, dünən o Şamaxı ziyalılarından birinin evində Səid Ünsizadə ilə görüşmüş, *onun "Əkinçi"də çoxdan bəri qızışan elmi-əbdan*, elmi-ədyan ətrafındakı söhbətlərini dinləmiş, yeni qaydalı məktəblər açmaq, kitabxana, qiraətxana təşkil etmək, Ünsizadə qardaşlarının nəşrə başladıqları qəzetlər üçün abunə yazdırmaq və başqa bu kimi maariflə əlaqədar söhbətlərini dinləmiş və gecəni yatmayıb Ünsizadə haqqında bir şeir inşad eləmişdi. O bu gün məsciddə həmin şeri oxumaq niyyətində idi. Bəlkə danışanlarla birlikdə onun bu şeri də yığılan camaata təsirini göstərdi və əhali arasında yeniliklərin daha tez və yaxşı yayılmasına səbəb oldu.

...Məsciddə elə indidən qələbəlik idi. Cümə məscidinin xidmətkarları namazgahı, səhni silib-süpürmüş, başmaqçıxarılan yerdə qoca başmaqçı Ağarəfi yumurlana-yumurlana yerə şirə çəkib qurtarmış, gələnlərin başmaqlarını yığmaq üçün səliqə-sahman yaratmışdı. Xidmətçilər məscidin divarları dibinə yuxarı başda oturmalı olan ağalar üçün döşəkçələr, nimdərlər salırdılar. Məscidin ortasında şiə müsəlmanlardan ötəri canamazlar açılmış, üzərlərinə sarıtorpaq məscidindən möhürlər qoyulmuşdu. Sünnü müsəlmanlar üçün açılan səccadələrin üstündə möhür yox idi. Bu gün Şirvan tarixində bəlkə də birinci dəfə olaraq sünnü-şiə məzhəbli müsəlmanlar bir məsciddə, Cümə məscidində, eyni vaxtda namaz qılacaqdılar. Cənab Hacı Məcid əfəndinin xahişi üzrə pişnamaz da Ağaseyidəli ağa olacaq idi. Yalnız cümə namazından sonra məktəb-maarif haqqında cənab Səid Ünsinin söhbəti dinləniləcək idi.

"Buna da şükür, bu özü də böyük bir aşuba səbəb olardı vaxtiynən. Mənim bədbəxt bəradərim Tərlanın, Səfanın vaxtında kimin ağlına belə bir məsələ gələ bilərdi ki, bir zaman Cümə məsciddə sünni-şiə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müsəlmanlar birlikdə namaz qılıb, məktəb-maarif məsələlərinə baxacaqlar. Bu özü də elə bizim əməyimizin zaye olmadığını göstərmirmi?" Seyyid, dini donda olsa da, bu təşəbbüsə elə sevinirdi ki, uçmağa qanadı yox idi. "Qabıma sığmıram, görək məscidə kimlər gələcək, necə qarşılanacaq". Meşədi Qulamın qəlbində daima "Xaqani dəlisi" adlandırdığı Seyyid, özünü böyük sələfinin əvəzi hesab edərək, Xaqani qüruru ilə yazmışdı:

Olum, ey himmətin qurbanı, bir dərk et bu mənani
Ki, eylər ərz əşar ilə bu Xaqaniyi-sani
Ki, var Rusiyyənin beş-altı milyon can müsəlmani,
Qalıb elmü mənafedən tamamən bisərü bipa.

Açıb Rusiyyə babi-mənfəət cümlə rəayayə,
Dəmadəm şükrlər etmək gərək bu feyzi-üzmayə...

...Namazlar da qılındı, çaylar da gəldi, içildi. Cənab Ünsizadə mənbərin yanına gəlib dayandı və təmkinlə ziyalıların arzularından danışdı. Xalqın millət balalarının gələcəyindən bəhs açdı və mətbuatın düşdüyü çətinliklərdən söhbət elədi. Onu da "müsəlman millətinin balaları" üçün açılacaq məktəb məsələsi ilə birlikdə qoyurdu. Ünsizadədən sonra Ağaseyidəli ağa sözü Seyid Əzim Şirvaniyə verdi. Şairin belə mötəbər bir məclisdə çıxış etməsi mürtəcelərin ürəyindən deyildisə də, bu gün onlar susmuşdu; quyruqlarını böyürlərinə qısıb oturmuşdular, dil açа, danışa bilmir, dişləri bağırsaqlarını kəsə-kəsə dinləyir, arabir söz atır, amma məclisdəki nüfuzlu şəxslərin qorxusundan və hökumət "əli ilə iş görməyə gələn qonağın" yanında özlərini hörmətdən, nüfuzdan salmaq istəmirdilər. Seyyid isə sözünə davamla deyirdi:

– ...belə getsə, ağalar, sizin inandığınız islamiyyətin ancaq namı qalacaq... alimnümalar, əsa, xirqə, təsbeh, tiftik əbadan başqa heç nə tanımayan, dili virddən, bir də təzələri təkfirdən başqa heç bir şey bilməyən mollanümalər milləti süquta aparır və aparacaqlar da. Vaxtdır ki, "ayıl, ey xabə dalmış millət, oyan bu xabi-xəflətdən" – deyən adamlarımıza qulaq verək. Qiyməti-bəşər ülumladır... ürəklərində atəşi-hissi-bəşər sönənlərin zərrati-cismini oyatmaq vaxtıdır. Bunun üçün də iksiri-həyat lazımdır ki, o da elm və maarifdədir; məktəblə, cəridəylə olar... Başa düşmək vaxtıdır ki, cəlali-elm bizə ərzi-şimaldan nümayan ola bilər... Məşriq-zəmin oyansa fəqət bu yolla oyana bilər...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– O neyşə, bu vaxtacan xoruz yoxdu, sabah açılmırdı? Şimal qalsın öz dinində baqi, biz də öz dinimizdə baqi, islamiyyət...

–...İslamiyyət... özünüzə də məlumdur ki, mən islamiyyətin yayıldığı ölkələri gəzmişəm. Bəli, çox gəzdim, gördüm ki, harda islamiyyət məskən salıbsa, oraları xərabəbəzara çevirib, həmin ölkələrin, millətlərin dədə-baba mədəniyyətlərini, tarixini, dilini, əski adət və ənənələrini məhv edib. Əgər millətimizin təmirini xəyal və xahiş edirikə, mütləq nifaqı məhv etməli, cənnət xülyalarından əl çəkməli, kisveyi-əvhamı soyunmalı, yüz illərlə əvvəl rəyasət eşqilə bir-birini qıran ərəblərə yas, matəm saxlamağı tərk etməliyik. Əgər özümüzün və məşriqzəminin ziyalanmasını istəyiriksə, qaranlıq zülmətlərində məhv olan vətən və millətin istiqbalını düşünürüksə, məktəb və maarifə rövnəq verməliyik, nəinki dinin rəvacına...

O danışdıqca ziyalılar onun fikirlərini başa düşür, qəlblərində onunla razılaşsalar da, məsciddə belə bir çıxışın nə ilə nəticələnəcəyindən dəhşətə gəlirdilər. Hətta Ağaseyidəli ağa da qaragüruhun qarşısını ala bilməz... bunu ziyalılar yaxşı başa düşürdü. Qaragüruhun əksəriyyəti şairin sözlərindəki dərin əks-din mənanı dərk etməkdən uzaq idi, sözlərin mənası çoxu bisavad adamlar üçün anlaşılmaz idi. Onun çıxışındakı dərin küfrü hamıdan əvvəl və daha yaxşı dərk edən məhz Ağaseyidəli ağa idi ki, o da çıxılmaz vəziyyətdə qalmışdı. Şübhələr qoca mollanın ürəyini didirdi. "İlahi, özün saxla. İlahi, məsciddə, dost-düşmən qabağında seyid qanı, şair qanı tökülməsinə razı olma! Ya rəbbim, öz müqəddəs evinin səhnini qana boyama (Ağaseyidəlinin ürəyinəmi dammışdı? Amma hər halda, onun tanıdığı pərvərdigar, cəmi bir neçə il sonra baş verən faciənin qarşısını, böyük bir insana, şairə qalxan qaragüruh əlləri saxlaya bilmədi, dostum, bacarmadı). Mən gərək ona heç söz verməyəydim. Məni sənin dinində bu qədər süst olduğunu təsəvvür eləməzdim. Sən neyləyirsən, niyə, neyşə öz qətlinə fərman verirsən? Yaxşı ki, Molla Qurbanqulu mənim, Mahmud ağanın və digər nüfuzluların qorxusundan burada sənə bir söz deyə bilməyəcək. Yoxsa Allahın pənah evini qan ocağına çevirər, bizi də yığılan qonaqların qabağında xarü zəlil elər, səni də yerlə yeksan elərlər. Yox, şair, yox, cənab Seyyid! Daha bəsdir. Mən sənin nazınla oynadım! Sən daha millətini irəli aparmaqdan başqa, dayanıb durmursan, dinin kökünə balta çalmağa başlayırsan, daha buna dözmək olmaz..." Seyidəli ağa düşündükcə bir neçə gün əvvəl şairlə olan bir söhbətini xatırlayırdı. Həmin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gün mübahisə İmamlı məscidində başlamışdı. Bu çox qəribə bir mübahisə, mükalimə idi. O gün Məşədi Alış şairin "Desinlər" rədifli qəzəlindən bir neçə misranı məsciddə oxuyub belə demişdi:

– Cənab Ağa, bir görün axı bu nə deməkdi? Bəlkə elə biz qanmırıq, bizi də bir başa salan tapılar ya yox:

Görsə bu səfa ilə səni Kəbədə hüccac,
Qorxum budu kim, Kəbəni bütxanə desinlər.

Bu küfrnüma şerüvü, Seyyid, görüb aləm
Kafər deməsinlər sənə, aya nə desinlər?

Cənab axund bəs bunu da ki, biz ona yalandan quramırıq. Özü-öz küfrünə fitva verib...

...İndi artıq şairin çıxışından sonra məscid ikiyə bölünmüşdü. Sual və cavablar, inkar, təsdiq və nidalar hərəsi bir tərəfdən səslənir, Şirvan dağlarının zirvələrində çaxnaşan buludlar kimi bir-birinə toqquşur, ildırımlar çaxır, qəzəblər coşur, məscid gah arı pətəyi kimi uğuldayır, gah da göylər kimi guruldayırdı. Bu sual və cavabları oturan şəxsiyyətlərdən kim verirdi? Sürətdən bilinmirdi. Tək-tək şəxsiyyətlər deyil, məzmununa görə cəbhələr aydın bilirdi.

Şair deyirdi:

– Cənab Əli "Mən əlləməni hərfən" buyurub. Siz müctəhidlər isə...

Ağaseyidəli ağa öz təmkinini unudub ucadan demişdi:

– Mən heç vaxt elm öyrənmək əleyhinə çıxmamışam. Şirvanda açılan məktəblərin çoxun, öz əlimlə dualamışam; bu bir; sənin az qala bütə çevirdiyin "Vəkili-millətin" kimdir? Axund Hacı Ələsgərin dəstpərvərdəsi deyilmi? Tanıdığım neçə ruhani öz övladını əvvəl qədəmdə urus vilayətinə göndərib oxudub. Əvvəlcən qız oxudan kim olub? Genə də ruhani. Amma sən deyirsən:

Hanı millət üçün sərəncamın?
Yerə girsin o müctəhid namın!

Sən belə deyəndə, hamını bərabərləşdirəndə baş götürüb el içinə çıxa bilməyək?

– Axı neyşə həqiqəti eldən, camaatdan gizləyirsiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyidin gözləri qəzəblə parladı:

– Axı özünə də məlumdur ki, heç vaxt dürüst olmayan söz mənim dilimə gəlməyib. Mən hansı həqiqəti əhalidən gizləmişəm?

– Quranı! Onu kim başa düşür?

– Qoy savadlansınlar...

– Sonra da hamı durub getsin Nəcəfə, ərəbcən öyrənsin, buna kimin gücü yetər?

– Bəs çarə?

– Bir baxın, ingilislər, firənglər, hətta ruslar belə Quranı öz dillərinə tərcümə edib, əsil mənasını bilirlər. Bizdən başqa...

– Bunu sən hardan bilirsən?

– Hardan bilməyimin mənası yoxdur. Məsələ bundadır ki, bilirəm. Əgər bizim camaat da Quranın mənasını dərk eləsə, anlasa, əvvəla bilər ki, ordakı qanunlar ölülər üçün deyil, məhz dirilər üçündü. Və digər tərəfdən mollalar onu qazanc mənbəyi eləyib hər ölü yiyəsindən ildə filan qədər qoparda bilməz, bir də əsas budur ki, camaat tərəkə, nikah və b. məsələlərdə aldanmaz. Qanunu bilər, fırıldaqçılara yem olmaz... Sonra da özü bilər, ya bəyənər islam dininə, pərvərdigara ya da lap elə yezidilər kimi iblisin özünə ibadət elər, bu onun öz işidir.

– İlahi, özün məni pənahında saxla, məni şübhələr bürüyüb... onun sözlərində nə qədər böyük həqiqət var.

Ağaseyidəli ağa düşündükcə xəyalında canlanan səhnələr daha da güclənir, indiyə, buraya, məscidə keçir və elə bil ki, həmin mübahisənin davamı olaraq bütün mütərəqqi ziyalıların və füqəranın hörmətlə "Ağa" deyib ucaltdığı şair Hacı Seyid Şirvani çıxışına davamla deyirdi:

–...Tarixi-bəşər qanlardan, əzilən baş, bədən və gəmiklərdən yoğrulub. Həzrəti-Adəm əleyhüssəlam qəbirindən ricət edib gəlsə, məşriq zəmin övladını görüb dəhşətə gələr, bir zərrə tərəqqisiz, elə necə qoyub gedib, elə də qalmışıq. Şirvan tarixini yazmaq üçün tarix kitablarına müraciət elədim. Ataların rəyasət üstündə oğulları kor etdiyini, oğulların atalara, qardaşların qardaşlara xəyanət etdiyini, bir-birini didib parçaladığını gördüm. Bəşərin matəmli keçməyən günü olmayıb. Bəs nə vaxt insanın üzü güləcək? Bəs nə vaxt biz də gözümüzü xabi-qəflətdən açıb, qeyri millətlər kimi qardaş dərdi çəkəcəyik, övladlarımızın həqiqi dünyəvi elmlər öyrənməsinə, tərəqqi tapmasına çalışacayıq?..

– Sən ölməyəsən kafir oğlunun cəddindən uzaq yerdə bir danışığına bax ha...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dilim kəlməyə gəlməsin əgəm o babi deyilsə...

Məşədi Alış xüsusilə yerində dinc farağat otura bilmirdi. O məsciddəki nüfuzlu sünnü cavanlarının eşidə biləcəyi bir sövtlə "pıçıldayırdı:"

– Aadə, babi nədi, sünnüdü, o moltanı! Getdiyim qəriblər ağasına and olsun əgəm yalan deyirəmsə... uşaqların anası o gün gör mənə nə deyir ki, "Ağa sünnü-şiəliyi aradan götürmək istəyir..." Oğlu olub bu təzəlikdə, adını nə qoysa yaxşıdı: Seyid Osman, Ömər oğlu Ömər Aşanı, Öməri yığmışdı başına, bu da Osman... ceddinə qurban olduğum seyidlərin adını murdarlayıb...

– Pay atonnan... əşi bir ağzına vuran da yoxdu...

– Bizdə qeyrət hardadı?...

– Neyşə yoxdu?.. Dalında duranların bazburuduna bir bax... biri o Mahmud ağa, Kərim bəy...

– Hələ Ağaseyidəli ağanı demirsən?...

– Əşi onun da payını verib!..

– Neynəyib ki?

– Heç nə, deyib:

Tövbə sındırmağıma şeyx məlul olsa əgər,
Piri-meyxanə bu işdən təki dilşad olsun.

– Bundan sonra çətin dura dalında...

– Mən də elə-belə qanıram...

– Amma Məşədi, səndə də yaddaş var ha!.. Maşalla, namxuda, göz dəyməsin, harda bir nəzm eşitdin yadında qalır...

– Hə, Alışınkı yaddaş deyil, Allah vergisidir...

Məscidin silsiləcumanı bu tərəflərə keçib "ağalar, cənablar, xahiş eləyirəm.... Ağaseyidəli ağa bura baxır, sükut... rəncidəxatir olar", – deyə pıçıldadı.

Xosunlaşanlar arasına sükut çökdü.

– Qardaş düş deyir. Səs eləməyin, görürsüz ki, ürednik də, dilmanc da bizə tərəf baxıb işarə eləyir...

– Neynək, qalsın qırmızı qulluğunda, o kafir, biz müsəlman!..

– Haqqına çatar!..

– İndilik dilinizi qatdayın qoyun dişinizin dalına, o durub, biz durmuşuq, ağa durub, ağacan durub.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məscidin aşağı tərəfində Seyid Əzimin şagirdləri və pərəstişkarlarından bir neçə cavan oturmuş, bu xısın-xısın danışıqları da eşidirdi; həmin cərgədə cavan bir şair də diz üstündə çökmüşdü. Bu acı mənzərəni gördükcə onun qəlbində bir səs ucalırdı. Bu səs şairin bütün etirazını, qəzəb və nifrətini özündə cəmləmişdi, gur bir atılğan kimi fəvvarə vurur, pərran olur, fışqırtı ilə aşıb-daşırdı:

Kafir olub, vurun, vurun,
Rişteyi-ülfətin qırın,
Yazdığı şerini cırın,

Dinə sataşdı, qoymayın!
Küfrə bulaşdı, qoymayın!

"İlahi, bu necə şeydir? Bu necə nəzmdir! Axı mən əbədən belə şeir görməmişəm. Heç bir qanuni-şerə sığmır". (O nə bileydi ki, bir on-on beş il keçəcək, Seyyidin şagirdi, "Molla Nəsrəddin" səhifələrində həmin qəbildən olan şeirləri ilə aləmə səs salacaq, ustadının da adını göylərə ucaldacaq, onun mübarizəsini daha böyük bir əzmlə davam etdirəcək! Hələlik o, qəlbində doğan bu kimi misraları dilinə gətirməkdən, onları nəzm, şeir adlandırmaqdan da ehtiyat edirdi. Nə olar, o durur, biz dururuq, dostum, irəli niyə qaçırıq ki, zaman gələr, oxuyarıq...)

O gün hələ qara fikirlilərin boğaza döyməsi elə bir şey eləyə bilmədi, qarşıları tez alınmışdı. Bir yandan Şirvanlılıq təəssübü, qonaq yanında başaşağı eləməmək arzusu, Ağanın çıxışı, cənab Ünsizadənin xitabları nəticəsiz qalmamış, məsciddə məktəb üçün bir xeyli ianə toplanmış; bəylərdən, ziyalılardan, qismən tərəqqiyə qol qoyduğunu söyləyən, divan-dərə, vəzifə qorxusu istəyi ilə ruhanilərdən və xüsusilə gözüaçıq tacirlərdən xeylisi Ünsizadənin qəzetinə abunə yazılmışdı.

## ANA DUASI

Şair bağda gəzdikcə, ağaclara, kollara tamaşa etdikcə ürəyi fərəhdən əsirdi...

Ağac budaqlarına elə bil ki, narın qar ələnmişdi, ağ çiçəklər hələ yarpaqsız budaqları sım-sıq örtmüş, onlara Şamaxıda dəb olan ağ qaymağı xaradan gəlinlik paltarı geyindirmişdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yerdəki ot qurşağa dəyirdi. Qızılgül kollarının üstündə lap açıq çəhrayı güllər topa-topa açılmışdı. Elə bil hər budağın üstündə bir çıraq, yox bir günəş yanır, bahar öz töhfələrini tabaq-tabaq təqdim edir... elə bir lütf ilə, elə bir nəvazişlə ki...

Şair gözlərini göylərə çevirdi. Səma çox uzaq, çox dərindi. Firuzəyi qübbədə bir dənə də bulud, bircə parça ləkə, kölgə yox idi... Göylər uzaq-uzaq, xəfif-xəfif, mehriban-mehriban gülümsəyir, göylərin bu nəvazişkar təbəssümündən yerlərə elə bil bahar səadəti səpələnirdi. Şairin ürəyi titrəndi: "İlahi! Hardasan, kimsən, nəçisən – bilmirəm... Qoy səni ərəb – Allah, erməni – Astvats, urus – Boq, türk – Tanrı adlandırsın... Kimliyini, bu əngin, füsunkar fəzanın hansı yerindədirsə, mövqeyini bilmirəm. Amma bu mütəbəssüm aləmi yaradan ulu qüvvət – sənə səcdə eləyirəm, sənə inanıram... Mənim də mənliyim hürufilər demişkən eynən sənin öz təşbehində xəlq olunub", – deyə özü də öz xəyallarına gülümsədi. "Qəribə aləmdir, bir tərəfdən sənə, yaratdığın bu böyük, gözəl və möhtəşəm dünyamız, nemətlərimiz üçün təşəkkür edirəm, ahunun nəfəsində ətri, arının yuvasındakı lətif balı, qurdun qarnındakı zərif ipək tellərini sən xəlq eyləmisən, *amma Molla Qurbanqulunu da, əqrəbi də, naməşdi Alışı da, birəni də sən* yaratmışsan... Necə olub ki, bir insan, mənim kimi ətdən, qandan gəmikdən yaranan bir insan yer üzərində Allahın, bu böyük intəhasız göyləri, ərzü səmavatı, ayı, ulduzları, aləmməfruz günəşi yaradan böyük xaliqin vəsisi olsun? Ona peyğəmbərlik, buna imamlıq, o birinə də seyidlik, molla və dərvişlik verilsin (Seyid ha!!! Unutdunmu, şairim, məgər sən özün də o silkə mənsub edilmirsən?). Axı bu adamlar da mənim kimi, Cavad kimi, Şirin Abdulla təki, Qırmızı Meşədi Qulam kimi adicə adamlardır. Ətdən, damardan, sümük və dəridən ibarətdilər. Onları da xəncərlə öldürmək, bıçaqla yaralamaq mümkündür. O da mənim kimi dərdlərə, bəlalara mübtəladır. Özünü düşmən öldürür, balalarını da əsir aparır. Onun nəyi məndən artıqdır. Böyük Yaradan, məgər özünə daha başqa qüdrətli, sitayiş və hörmətə layiq ayrı bir vəsi yarada bilmirdi?

Dünən qapımızı birisi kəsdirib:

– Ya Cədda!!! – bəli, məlum olur ki, bu, yer üzünün xaliqi olan Allahın rəsulunun nəslindəndir və biz qara camaat da gərək həmişə, ömrümüz uzunu bunun qarnını doyuraq. Deyirəm:

– Qardaş, sən seyidlik naminə necə dilənə bilərsən, axı? Axı sən şahzadəsən, peyğəmbər adına sual etmək, dilənmək olmaz... Peyğəmbər övladı, Hüseyn övladı şah nəsli sayılır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yandan kimsə qayıtdı ki:

– Aadə, bu sənin öz əmin oğlu, seyiddi...

Deyir:

– Bə sən neynən dolanırsan, xalqdan dolanmırsan bəyəm?

Dedim:

– Mən heç olmasa, cəddim naminə heç kəsi allatmıram. Elə-belə yeri düşəndə həmvətəninizəm, şairinizəm, balalarınız üçün yuxusuz gecələrimin məhsulu olan kitablar, əşar təlif eləyirəm, külfətim möhtacdır deyirəm; mən aldatmıram, açıq dilənirəm... (Seyyidin bu düşüncələrində elə bir acı kədər, dərin iztirab var idi ki, indi üzündə əks olunduğu kimi, o zaman da əks olunmuş və müsahibini belə dəhşətə gətirmişdi, indi onda olduğu kimi bu böyük kədərə, dərin yaraya toxunduğu üçün yenidən ağrındı).

...Ağa bu düşüncələrin ağır yükünü yüngülləşdirmək üçün təpədən endi. "Eh, lənət şeytana, bir enim Bəzzazbazara, görüm Cavad nə fənddədi?" – deyə düşündü.

...Bazara enən yolu indi artıq ot basmışdı, il yağıntılı keçdiyindən çayır o qədər çox idi ki, səhərdən axşamacan təpik dəyən yollar belə göyərmişdi. Şair düşünə-düşünə irəliləyir, bazara tərəf enirdi. O, bazara çatanda uzaqdan Yetim Hüseyn avazla oxuya-oxuya tabaq gəzdirirdi:

Halva dadlı, təmlidi,
Satan da məlhəmlidi.

Tut ağacının altı qələbəlik idi. Cin Cavad yenə də öz məşhur yerində, – "Cavad daşının" üstündə oturmuşdu. Başına da xeyli adam yığılmışdı. Ağanı hələ ki, görmürdülər. Üzü Cavada durub onu dediyi hansı bir lətifəni və ya şeri isə maraqla dinləyirdilər. Aralıda Şirvanda təzəcə çıxmış cigir-cigir havasında oxuya-oxuya gedən bir kasamasçı gözünə sataşdı. Kişi bir-birindən kiçik qatıq dolu üç cürdəyi üst-üstə qoyub başında gəzdirir və qatıq satırdı. Əlində abgərdən var idi. İstəyənə qatığı bu abgərdənlə cürdəklərin birindən götürüb verirdi. Yeridikcə çigir-çigirin ahənginə uyğun olaraq, elə məvazinət saxlayır və dingildəyirdi ki, elə bil cürdəklər onun başına yapışqanla yapışdırılmışdı:

Tiflisin bürcü mənəm,
Dil bilməz gürcü mənəm,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baş qoyum dizin üstə,
İl yatsam incimərəm.
Cigir-cigir, cigir-cigir.
Sənə qurban yazıq canım...

Mahnının incə, eyni zamanda oynaq ahəngi ürəyə yatımlı, kasamasçının səsi də xoş idi. Odur ki, bir neçə nəfər dayanıb kişiyə tamaşa edir, uşaqlar da dalınca düşüb gedirdilər.

Ağa xoş avazla oxunan təzə mahnıya bir xeyli qulaq verdi və cavanın ahəngdar hərəkətlərini, rəqqas yerişini xeyli izlədi, sonra da Cin Cavadın dəstəsinə yaxınlaşdı. Dostunun səsini hələ heç onun üzünü görməmişdən əvvəl eşitdi. Cavad deyirdi:

*Gəldik cahana ləzzət alaq molla qoymadı,*
İçdi, yedi... yenə də qarnı doymadı...

– Ha... ha... ha...

– Ə, yavaş gülün, eşidən olar...

– Cavadı qoyasan elə mollaya, dərvişə sataşa... Amma heç bir demir ki, onlardakı vardan, dövlətdən bir mənim də olaydı...

– Yəqin paxıllıqdan sataşır olara, əlinə düşmür, deyir iylənib...

– Sö-ləsən, meyitüvü görüm, kəlləpaçanın da dili-ağzı var, Allahın lal heyvanı da ac qalmaz. Cavadın əlinə keçsə, yeməz?..

– Lap lüm-lüm udar...

– Budu ha... Ağa gəldi... Seyid adamdı, onda olar, Ağa, əlim aşağıdı, üç-dörd günlüyə mənə bir beş manat əlborcu ver... – deyə Cavad Ağanı qarşıladı.

Şair, Cavadın onu qəsdən dilləndirmək istədiyini anlayırdı. Nə Cavada pul lazım idi, nə də lazım olsaydı da onu Ağadan istəməzdi, varidatına bələd idi. Odur ki, Seyid Əzim onu görən kimi zarafatlaşmalarını yarımçıq kəsib cəld, böyük bir ədəb və hörmətlə salam verənlərin salamını aldı. "Cavad daşının" bir tərəfində onun üçün hazırlanan yerə keçdi. Cavanlardan birisi nimdaş çuxasını çıxarıb Seyid Əzimin altına salmaq istədisə də şair, razılıq vermədi:

– Yox, sağ ol, oğul, yaza, günə baxma, hava hələm soyuqdu, soyuqlarsan...

– Sən də soyuq daş üstündə oturub vəbasir qazanarsan.

– Canın sağ olsun, gedərəm, əttarın yanına, deyər get bir çimdik kükürdü kərə yağında ərit, yax göy çadraya, yapışdır yaraya...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ha... ha... ha... dərmanın hazırmış ki...

– Bəs necə bilirsən, aadə...

– Sən mənə "aadə" deyə-deyə məni yaman günə qoydun, aadə?! – deyən Cavadın gözlərində minlərlə cin oynayırdı. Şair dostuna sataşmaq üçün zarafatı qəsdən uzatdı:

– Aadə, mən haçan sənə "aadə"demişəm, aadə?

*Məhz şirvanlılara, şamaxılılara* xas olan bu ifadə hamıya tanış idi; odur ki, yığılanlar uğunub getdilər. Cavad yenidən dilləndi:

– Hə, yaxşı, bə mənə əlborcu verməknən necəsən, Ağa, cəddüvə təsəddüq olum, cavab vermədin axı...

Seyid bir an duruxdu və Cavadın cavabını farsca indicə dodaqlarına gələn bir qəzəlindəki bu beytlə verdi:

Mən Hüseyni-əsr həstəm, simu zər abi-Fərat,
Guiya mən abra dər Kərbəla qom gərdəəm[1].

Cavad, şairin sözlərini yığılanlara başa salandan sonra yenə də dinc durmadı:

– Ağa, dedi, – pənah pərdə tutana, nə olar, onda bir məsləhət ver, görüm bu başıbəlalı beş manatı hardan tapım?

Seyid Əzim nədənsə qəlbinə çökməyə başlayan kədəri udub, dostunun cavabında dilləndi:

– Nə məsləhət eləyim, Cavad? Bizlərdə deyillər ki, "keçəl çarə bilsə, öz başına elər".

Hamı güldü, şair isə sözünə davam etdi:

– Ərəblər də deyərlər ki, "la təşvərü mən leysə fi beyti dəqiqün". Yəni, evində bir ilin un azuqəsi olmayan adamla məsləhətləşmə! Bizim dilcən yəni o adam kişi deyil ki, öz ruzusunu tədarük eləməyib, təndürüst eləməyib. O day özgəyə nə məsləhət verəcək? Mənim də evimdə ruzi necə deyərlər o söz... Ruzi atlı, mən piyada...

Yenə də gülüşən oldu, amma bir çoxu bu dərdi yaxşı başa düşürdü, çünki özləri də eyni vəziyyətdə idilər... Cavad nə düşündüsə birdən dedi:

– Ağa, evdən təzə çıxmısan?

– Yox, çoxdan, necə ki...

---

[1] Mən əsrimin Hüseyni, pul isə Fəratın suyudur,
Elə bil suyu mən Kərbəlada itirmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç, dedim bir əvvəl Əlmuxtarın pitisindən adama bir bardağ buyurtduraq, sonra sənə bir allahı sözüm də var idi...

Seyyid gülümsədi, başa düşdü ki, Cavad onunla tək qalmaq istəyir, amma özünü o yerə qoymadı:

– Dostum Cavad, Nəvayi rəhmətlik buyurub ki, istəyirsən səhhətin olsun, az ye, istəyirsən sözünün kəsəri olsun az de.

– Hə, deyirəm axı. Neyşə bəs bu şirvanlılar xurma xörəkdi? Yeddi adama Nanəli budaqda beş yumurtanın soyutmasın yeyərlər, özü də and içərlər ki, "sölısən, meyitüvü görüm nıx deyincən yemişəm".

Yenə də qəhqəhə qopdu.

– Sizə məlumdur ki, mən məşriq-zəminin bir çox tanınmış şəxsiyyətləri ilə dostluq eləyirəm, onlarla yazışıram. Onların içərisində elələri var ki, heç üzünü görməmişəm. Qiyabi yazışıram. Məktublaşıram. Belə qiyabi dostlarımdan birisi də Mərənddə yaşayan mərsiyə şairi Molla Süleyman idi. Yaxşı yadımdadır; bir dəfə İran səyahətlərimdən birində yolum Mərəndə düşdü. Burada bir neçə gün dincəlmək, nəhayət ki, Molla Süleyman dostum ilə görüşüb danışmaq istəyirdim. Şəhərə gecə yarıdan ötəndə varid olduq. Kişini axtarıb tapmağı səhərə qoydum. Heç kəsi narahat etmək istəmirdim. Karvansaraya düşdüm. Gecə yorğun-arğın idim deyə çox şirin yatmışdım. Səhər yuxudan oyananda gördüm ki, "lat-lüt, ya qərib imam Riza" qalmışam. Bütün şeylərim oğurlanıb. Yəni əslində nəyim də var ki, bir üst geyimdən başqa. Alt paltarımda necə vardımsa, eləcə də hücrədən çayxanaya endim. Çayxananın yarımqaranlıq bir guşəsində oturub vəziyyətimi düşünürdüm. Öz-özümü həm danlayırdım, həm də görkəmimə gülürdüm. Gözləyirdim görüm işin içindən necə çıxacam. Molla Süleymanı tapıb ondan, ya başqasından necə yardım istəyəcəm.

Elə bir o qədər keçməmişdi ki, çayxana dolmağa başladı. Məhərrəm ayının əvvəli idi. Birdən içəri bir molla girdi. Çayçı şagirdi mollanı görən kimi, hörmətlə ona taxt üstündə yer göstərdi, döşəkçə saldı. Molla çayxana sahibi və müştərilərlə salamlaşıb əyləşdi. Görünür buralarda nüfuzlu adammış. Bir azacıq keçməmiş, müştərilərdən biri dedi:

– Molla, gəlsənə bir mərsiyə deyəsən... savabdı. Elə boş-bekar oturmuşuq. Allaha da xoş gedər, bəndəyə də...

Molla etiraz eləmədi. Boğazını arıtlayıb mərsiyəyə başladı. Babət də səsi var idi. Mərsiyəni eşidən kimi bildim ki, bu elə mənim üzünü görmədiyim dostum Molla Süleymanın mərsiyəsidir. Hələ bəlkə oxu-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yan da onun özüdür. Qərəz, nə başınızı ağrıdım; kişi mərsiyəni əzbərdən deyirdi. Birdən "Sal bir nəzər bu ərseyi-meydana, ya Əli!" – deyib, duruxdu. Dalını gətirə bilmədi. Görünür ki, yadından çıxmışdı. Bir neçə kərəm "Sal bir nəzər bu ərseyi-meydana, ya Əli!" deyib təkrarladı. Dilim dinc durmadı. Oturduğum küncdən səs verdim: "Eşşək satan mərəndli Süleymana, ya Əli!" deyib səsləndim. Hamı başını çevirib mənə tərəf baxdı, qəzəblənmişdilər. Bircə Molla Süleymanın özündən başqa! Birdən kişinin üzü güldü, elə bil çiçəyi çırtladı. Boylandı, küncdə məni görən kimi yerindən qalxdı. Adamları basa-basa üstümə cumdu. Gələ-gələ də deyirdi:

– Vallah, sim vallah, sən cənab Hacı Seyid Əzim Şirvanisən. Bunu ancaq və ancaq Seyyid deyə bilər... Bu cavabı təkcə o verə bilər. Bir zihəyat, bədahətən, misranın dalını Seyiddən başqa heç kim belə təndürüst deyə bilməzdi.

Öpüşüb görüşdük. Çəkib apardı məni evinə. Neçə gün qonaq saxladı. Çayçının vasitəsilə şey-şüyümü əxz eləyəni də tapdırıb aldı və gətirib özümə qaytardı. Dedim:

– Molla qardaş, nə kələk işlətdin ki, oğru şeyləri qaytardı? Dedi:

– Seyyida, gümanım gələn oğruya xəbər çatdırdım ki, sən öləsən bu gələn və malı oğurlanan qərib, məşhur şair Hacı Seyid Əzim Şirvanidi. Əgəmləri malını tapıb özünə qaytarmasaq, bir elə həcv yazar ki, Mərəndi ilələbəd biyabır eləyər. Sən demə o da yaman Mərəndpərəst, vətənpərəst oğru imiş. Vətəninin biabır olmağına, həcvə düşməyinə qayil olmayıb. Gətirib çayçıya verib deyib: "Sən, qardaş, qaytar, mənim adım olmasın. Mollaya da de ki, bir qələtdi eləmişəm, bağışlasın məni".

Hamı gülüşdü. Gənclərdən bəzisinin simasında nə isə bir qürur duyulurdu. "Bax, bizim Ağa belədir". Cin Cavad birdən nə isə xatırlayıb Seyid Əzimə müraciətlə ciddi tərzdə dedi:

– Ağa, doğrudan sizə qonaq getdi... Əvvəli bu, ikincisi Meşədi Qulam səni axtarırdı. Dedi ki, Kərbəlayı Vəli gəlib, səni görmək istəyir...

– İndi ki, evə qonaq gedib, onda gərək əvvəl evə dəyəm...

– Yox, elə mən də dedim: deyəsən, qonaqları var, bəlkə evdədi. Dedi: yox, qonaq da Kərbəlayı Vəliynəndi. Odu ki, əvvəl elə Qırmızı Qulamın qulluğuna buyursan məsləhətdi...

Şair, Sarvan Kərbəlayı Vəlinin onu axtarmasına təəccüb eləmədi, çünki Bakı, Gəncə, Təbriz, Ərdəbil dostları Ağa üçün bəzi tapılmayan nadir bir əlyazması, ya Xorasan kürkü, ya bir Misri əba, Şirazi qələm-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dan, Səmərqənd kağızı və ya başqa bir matahı məhz Kərbəlayı Vəlinin vasitəsilə ona göndərərdilər.

Bəzən düşəndə, səfəri avand, qazancı qaydasında olanda, Kərbəlayı Vəli özü də Seyid Əzim üçün uzaq-uzaq gəzdiyi, Şirvan həsrətilə dolaşdığı ellərdən bir hədiyyə alıb gətirər, sonra da beş günə gedib çıxdığı Tarkovdan, səkkiz günə getdiyi Ərdəbildən, səkkiz həftəyə güclə haxladığı uzaq Hindistandan, səfərlərində gördüyü, eşitdiyi hadisələrdən, əhvalatlardan söhbət etmək üçün Məşədi Qulamın dükanına yığışar, çayçı Əlmuxtarın pürrəng çayından nuş edər, piti bardaqlarındakı ətirli, quyruqlu, zəfəranlı, kəhrəba albuxaralı pitisindən yeyə-yeyə danışar, nəql edərdi. Qayıdanda da Seyyidin çox sevdiyi əşarından bir neçəsini alıb uzaq ellərə – şeir-qəzəl həvəskarlarına aparardı.

Sarvan Kərbəlayı Vəli şeir, musiqi aşiqi, gözəllik pərəstişkarı idi, həm də bunu təkcə özü üçün istəməz, harda bir yaxşı şey görsə, onun haqqında bütün aləmə car çəkmək, göstərmək istərdi; oxumaq, xəbər vermək arzulardı. Deyərdi: "Qoy hamı bilsin ki, dünyanın bu nöqtəsində belə qiyamət bir şey, bir şeir, bir qəzəl, bir incə tikmə, bir lətif əsər yaranıb... Ay el, ay camaat..." Radionu, qəzeti əvəz edirdi kişi...

Odur ki, Seyid Əzim birbaşa Qırmızı Qulamın kitab-füruş mağazasına yollandı. O qapıdan içəri girəndə Qırmızı Qulam təzə bir nüsxəni Kərbəlayı Vəliyə diktə eləyib yazdırırdı, deyirdi:

– Kərbəlayı, əşhədənbillah, təcrübədən çıxmış nüsxədi, yol-iriz adamısan, həm canın qızışar, həm də qüvvətə gələrsən. Yaz: qoz ləpəsi, 4 misqal istiot, 4 misqal zəncəfil, 4 misqal darçın, 4 misqal da qulunçan; bunları 4 misqal kərə inək yağına qat, döy, qarışdır bir yumurtanın sarısıynan, böl üç yerə, hər gün ac qarına istemal elə. Ya da həmin əczanı yumurta sarısı əvəzinə qatginən bala, elə hərəsi bir noxud boyda həbb. Sonra da hər gün səhər ac qarına birini diyirlət getsin bala xəndəyə.

Bayaqdan bəri dinmədən qapının ağzında durub dostların söhbətinə qulaq verən Seyid Əzimi görüncə, Qırmızı Qulamın üzünə elə bil ki, nur qondu:

– *Bay, əleykəssalam!* *Ağa, xoş gəlmisən, səfa gətirmisən, qədim* əziz eləmisən. Ağa, sən gələn yollara qurban olum. Buyur içəri! Elə bayaqdan bəri bəradərim Kərbəlayı Vəli də səni axtartdırıb okidən var. Elə mən özüm də daluycan getmişdim...

Seyid Əzim nazik dodaqlarındakı xəfif təbəssümlə Qırmızı Qulamı dinləyir və eyni zamanda həm Kərbəlayı Vəli, həm də dükan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sahibi ilə görüşürdü. Dükançı isə sözünə ara vermədən qonaqları üçün yerdəki nimdərləri sahmana, səliqəyə salıb, dükanın qabağına çıxdı:

– Aadə, Rəzi-ii-i, bir çaydan çay, üç dənə də əla piti...

– Baş üstə can üstə, Meşədi! – Səs Əlmuxtarın idi.

Dostlar dükanın içərisində yerə salınmış nimdərlərin üstündə oturdular, daha başqa dükandakılar kimi yazdır, deyə, çöldə əyləşmədilər. Meşədi Qulam təxmini də olsa bilirdi ki, söhbət məhrəmanədir, yad qulaqlar üçün deyil, məhz Seyyid üçündür. Əks-təqdirdə Kərbəlayı Vəli, şairi xüsusi səylə axtartdırmaz, gətirdiyi şeyi Qırmızı Qulama tapşırıb, qoyub çıxıb gedərdi.

Kərbəlayı Vəlinin tövründən şair də başa düşdü ki, söhbət töhfə, hədiyyə və ya məktubdan getməyəcək, çünki sarvan çox qayğılı idi. Elə bil sözlü adamlar kimi sözü nədən, hardan başlayacağını bilmirdi. Seyyidin canı evdə, kimliyini bilmədiyi qonaqların yanında qaldığından tələsirdi, gərək Baqqalbazara çıxaydı, sallaqlara dəyəydi, qəssab Ağa Mərdana ət sifariş edəydi, sonra da Baqqalbazardan düyü, yağ və digər mayehtac alıb evə göndərə idi. Bütün bunların qayğısı Seyyidi çox məşğul etdiyindən, yerində qurcuxdu və Kərbəlayı Vəli sarvanın köməyinə gəldi:

– Kərbəlayı Vəli qardaş, nigarançılıq bir yaman şeydi, hərçənd sizinlə burada oturub söhbət eləmək özü dünya malına dəyər. Amma indi Cavad mənə ərz elədi ki, evimizə tanımadığı qonaq gəlib. Elə bir hazırlığımız da evdə yoxdu. Odu ki, dedim əvvəlcə səniylə bir söhbət eləyim, çün eşitdim ki, məni axtartdırmısız...

Kərbəlayı Vəli xəfifcə gülümsədi, yerində narahat oturan şairin çiynindən basdı:

– Ağa, cəddinə sədəqə gedim, narahat olma! Həmin qonaq mənəm. Bundan əlavə mənimlə sizə iki zənən xaylağı gəlib ki, elə onların qəziyyəsini qulluğuva ərz eləməkdən ötəri səni görmək istəyirdim.

– Hə, bu başqa məsələ... – Seyid Əzim bir qədər rahatlanıb bardaş qurdu. Piti bardaqlarını alıb süfrəyə düzən Qulam kişinin arxasında, qapı ağzında durmuş Rəzi ilə salamlaşdı:

– Necəsən, Rəzi bala, ağa Əlmuxtar nə təhərdi?

Rəzinin gözlərində sevinc parladı. Ağa onun xatirini soruşurdu:

– Yaxşıdı, Ağa, canuva dua eləyir...

"Bəli, Əlmuxtarın duası!.." Kərbəlayı Vəli və Seyid Əzimin üzündən incə bir təbəssüm keçdi. Meşədi Qulam süfrəni səliqə ilə döşədi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

açıq qələmkardan tikilmiş süfrədə pitiyə münasib istiot, sumağ, fal-fal doğranıb sirkəyə qoyulmuş baş soğan (hansın meyliniz çəksə dedi), yumşaq səngəg və təzə təndir çörəyi var idi. Rəzi boş, lahıc sinisini qoltuğuna vurub getdi. Meşədi Qulam Kərbəlayı Vəliyə müraciətlə sözə başladı:

– Buyurun, qardaşlar, bir tikə kəsin, sonra ağa durub, ağacan durub, söhbət də elərsiz, lap gərək olsa qiybət də... Bismillah...

Hər iki müsafir qonaq uzun söhbəti sonraya qoyub, bismillah etdilər.

Qulam kişi piti bardaqlarının ağzını açan kimi zəfəranın bihuşedici ətri ətrafa yayıldı:

– İştahanız artıq olsun, – dedi.

Seyyid səngəgdən xırda-xırda doğrayıb pitinin suyuna tökdükcə deyirdi:

– Kərbəlayı Vəli qardaş, mən hər dəfə bu dükana qədəm basanda meşədiyə deyirəm ki, gərək sən məni yox, mən səni pitiyə qonaq eləyəm, çünki hər gəlişimdə meşədidən təzə bir şey öyrənirəm. Necə ki, vaxtilə ərəb şairləri şerin dilini yoxlamaqçın bədəvilərin arasına gedərdilər, mən də bu meşədi qardaşımızın yanına onuyçun gəlirəm. O da hər dəfə məni xəcalət eləyir.

– Əh, xəcalət düşməniniz olsun! Mən də deyirəm görəsən nə olub? Nədi bu pitinin maliyyəti, dost yanında? Sənin mənim yanımda qədrin elədi ki, kaş bir dövləti-qarun olaydı məndə, oturdaydım səni, Ağa, bir xəlvət otaqda, qabağuva düzeydim gözəl təamlardan, "quş iliyi, can dərmanı", nə istəsən və deyəydim: Ağa, sənə fəda olum, azadsan bütün dünya qayğılarından, yaz nə qədər yazırsan o gözəl əşarından ki, el-camaat da, biz də oxuyub feyz alaq...

Kərbəlayı Vəli güldü:

– Olmaz ki, Allahdan istixarə eləyəydin ki, elə o dövləti-qarunu Ağanın özünə kəramət eləyə idi, dayı başqasının, lap elə sən də olsan, əppəyinə möhtac olmayaydı?

Meşədi bir qədər güldüsə də pərtləşən kimi oldu, doğrudan da o xeyir işi niyə özünə arzulamışdı. Ağaya yox, birdən rəhmət qapısı açıq olar, Allah eşidər razıniyazımızı?..

– Pərt olma, meşədi, rəhmət qapısı bu ay açıq deyil, baxəbərəm...

– Niyə ki?

– Özümdən bilirəm...

Dəstərxan yığıldı. Əl suyu verildi. Kərbəlayı Vəli Meşədi Qulamın doldurtdurub gətirdiyi qəlyana bir qullab vurub sözə başladı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ağa, səbrüvü möhkəm elə, sözüm bir az uzaqdan olacaq, bəlkə səni yordum da... Amma çarəm yoxdu, necə var, gərək qulluğuva elə də ərz eləyəm.

– Buyuracaqsan...

Meşədi Qulam dəstərxanı daldaya (qurd-quş yeyər savabdı) çırpıb qayıtdı, hər iki qonağından aşağı nimdərin üstündə oturub, taxta qəfəsənin alt mərtəbəsinə dirsəkləndi, həmişə Kərbəlayı Vəlinin uzaq ölkələr haqqında əfsanə, nağıl, "Rüstəmnamə", "Hüseyni-kürd" əhvalatı kimi maraqlı hekayələrini necə dinləmişdisə, indi də elə, söhbətə qulaq verməyə başladı.

Kərbəlayı Vəli sarvan öz hekayətini belə başladı:

Ərdəbildən təzələrdə qayıtmışdım Bəkiyə. Yadıma düşdü ki, Küdrü binələrində Hacıqədirridə böyük bir alacağım var. Qabaqda da Şəki yolu. Qərəz, nə başınızı ağrıdım, baxmadım ki, qışdı, yolu Küdrüdən saldım. Yay olsaydı buna elə sən deyən cürət eləməzdim. Yayda Küdrüdə ilan mələyir. Adama-zada irast olmursan, qərəzi ki, qumu yoxdursa da əsil elə səhrayi-kəbirdi. Binələr bom-boş, qurd-quş yox, adamlar köçüb yaylağa, heyvanat yox, xali... qar oldu hər yanı ağappağ kəfən bürüyür, qar olmadı, boz-qara düzənlik. Bu başında yumurta qoysan o biri başında görünər. Elə də uzundu ki, zəhrimar getdikcə qurtarmaq bilmir, göz qaralır. Qış idi deyin binələr doluydu, qar girvə çox deyildi. Amma buna gərək yol adamı allanmasın, işin möhkəm tutsun. Neyçün ki, kiçik çillənin axırıydı. Kiçik çillə də ki, axırında lap tufan elər. Necə ki, deyiblər: Kiçik çillə böyügə deyib ki, əgər sənin ömrün məndə olsaydı, sən gələndə mən gəlsəydim, uşaqları beləkdə dondurardım, arvadların əlini un çuvalında. Bir də deyib, sənin yerinə mən olsaydım, həmli arvadlara uşaq ziyan elətdirərdim, hayıf ki, ömrüm az, dalım yaz... Qərəz, gəlib Hacıqədirridə işimi aşırdım. Yaxşı qazancnan, kefi kök, damağı çağ gedirdim. Çəltikçidən ötdük, dayanmadıq, qərəzimiz Pirəsənniydi, orda duracaqdıq. Arabqiyasdıya çatanda dalımızcan bir-iki atlı özünü çatdırdı:

– *Ay qardaşlar, – dedilər, – bu tərəflərdə iki zənən xaylağı görməmisiniz?* Biri qoca, biri cavan...

Dedik: yox, bu yiyəsizlikdə zənən xaylağı nə gəzir?

Qərəz, soruşub öyrəndik, bunlar Çəltikçi bəyinin nökərləriymiş, qulluqçuları qaçıb, ya götürüb qaçıblar. Nə olubsa, yoxa çıxıb, indi axtarırlarmış... Biz də doğrudan da görməmişdik. Zənən nə gəzirdi bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerdə? Göz işlədikcən təzə, elə bu gecə yağan qar hər yeri örtmüşdü, hər yan ağappaq idi. Uzaqdan qar üstündə bir qarğa da olsa, görünərdi. Sözün qisası, gədələr arxayınlaşıb qayıtdılar geri...

Kərbəlayı Vəli sözünə ara verdi, qəlyanın qəmişini nədənsə çevirdi, diqqətlə baxmağa başladı. Çəltikçi, qulluqçu sözlərini eşidincə Seyid Əzimin ürəyi uçundu, amma unamadı, çünki qaçan adamı iki dedilər. Bunlar kim ola və mənə nə dəxli var ki, Kərbəlayı Vəli bu uzunluqda söhbəti bu ələləliklə mənə danışmağa başlayıb?

– Qərəz nökərlərin bizə çatdığı yerdən xeyli aralandıq. Qarammədə bir-iki ağaclıq yol qalmışdı ki, irəlidə, qar içində, xıxmış bir dəvə, yanında da qaraltılar gördük. Mən nədənsə narahat oldum, bayaqkı söhbəti unudurdum; amma bəs bu nədi qabağımıza çıxır? Yaxına çatdıqcan qəlib parçası, dolu çuval və xeyli yır-yığıntı, balaca təpə kimi qaralırdı.

Axırı ki, binəyə çatdıq. Dəvə heyvan necə vardı heyləcə axşamdan xıxırdıldığı yerdəcə oturub göyşək vururdu. Dəvənin tayları axşamdan açılıbmış, yaxında ocaq da qalanıbmış. Dəvədən aralı navala tabağı düşmüşdü. Görünür sahibi gecə heyvana navala veribmiş. Dəvənin sağ böyründə, dalda yerdə, qəlib salınmışdı; qəlibin üstündə sarı kürkə bürünmüş adamlar uzanmışdı; ya yatırdılar, ya da donub ölmüşdülər. Lap qorxulusu isə dəvənin o biri qatında idi, mən heç əvvəl əldə onu görməmişdim də. Gədələrdən kim isə qolumu dümsüklədi; baxdım, ətim ürpəşdi; bu fağır dəvəçi idi; arxası üstünə düşmüş, ey... haçandan ölmüşdü. Amma iri gözləri hadağasından çıxıb açıq qalmışdı, dübbədüz göyə zillənmişdi. Şeylər, dəvə; kürkün altındakılar da qalmışdı allahçuna....Mən dəvəçini tanıdım. Bu adama bir neçə dəfə karvan yollarında irast olmuşdum. Əsli Uduludan idi, tez-tez Bəkiyə gedərdi; bircə dəvəsi vardı, hərdən karvana qoşular, çox vaxt da tək dolanardı. Bəkidən nöyütlükdən qara nöyüt, Masazırdan duz gətirərdi. Aparıb kəndbəkənd gəzib satardı. Hey çığırıb malını təriflər, alıcı çağırardı: “Ay nöyüt alan, ay nöyüt alan... Duz alan, ay duz alan...” Bir dəfə elə düşmüşdü ki, gecəni onunla birlikdə bir binədə dayanmalı olmuşduq. *Bəkidən Ağdaşa gedirdik, o da bizə qoşulmuşdu. Axşam düşdü, ocaq* qaladıq, çörək-xörək bişirdik. Dəvələri ota buraxdıq. O da dəstərxanın açıb yarımquru cad fətirini pendirnən yedi. Lap dəvəsi kimi göyşəyirdi... Amma sonra ocağın qırağında oturub patavalarını qurudanda, karvandakılara elə gözəl nağıllar danışdı, tapmacalar dedi, bayatı çəkdi, bir yanıqlı Şirvan şikəstəsi oxudu ki, səsi indi də qulağımdan getmir:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şirvanın yolu həşəm,
Ağlamaq olub peşəm,
Hardadı mənim yarım,
Bir aydı görməmişəm.

Həmişə də yollarda olardı, bu şikəstəni ondan eşidəndə soruşdum ki, "Ay Udulu hey, evlisən, köçün-külfətin var?" Gülümsədi, dedi: "Neyşə yoxdu, yer ayrılıb yerdən çıxmamışam ki! Bir nökərçən də var, elə təzə dil açıb, ayaq açıb, nənəsi də öyrədib, o irəli gələn kimi cumub üstümə ki, "qar yağır pillə-pillə, dədə, mənə qaqqa, billə". İndi bu səfər ona gərək saçaqlı qəndəf alam, billə ona deyir..."

Qərəz ki, gözüm Udulu dəvəçidə qalıb, uşaqlar bu yankıların üstünü açıblar. Bir də nə gördüm, uşaqlar qışqırışır məni səsləyir. Sarı kürkün arasında iki zənən xeylağı, biri lap uşaqdı, on iki-on üç yaşında ola-olmaya. O biri bir az ahıl, amma elə də qoca-zad deyil, özü də elə cansızdı ki, bilmirsən dünən ölüb, israğa gün ölüb... Bu çöllü bəri-biyabanda arvad nə gəzir, ay Allah?! Birdən o bayaqkı nökərlər yadıma düşdü. Dedim, yazıqlar yəqin bu dəvəçiyə pənah gətiriblərmiş, ya da elə buna qoşulub qaçıblarmış. Qərəz üst-başlarından da görünürdü ki, fuğaradılar. Dəvəçi öz kürkün bunlara verib, qalıb yalınqat paltarda, bucuğazlar da ölməyiblərsə də, kürk arasında elə yarıcan donan kimidilər.

Mən qananı, Udulu dəvəçi soyuğa can verən adam deyildi. Görünür nəsə başına ayrı qəziyyə gəlmişdi, neyçün ki, belə yerdə cənazənin uzanışı alahı cür idi. Donsaydı, dəvənin böyrünə, ya bir yerə qısılıb, büzüşüb qalardı. Busa əl-qolunu atmışdı, elə bil boğulmuşdu, gözləri də bərələ qalmışdı. Bir yasin oxuya-oxuya yazığın gözlərini örtdüm. Şəhid kimi elə ordaca ala-tələsik qəbir qazdırdıq. Suya, kəfənə tuta bilmədik. Təyəmmüm verib dəfn elətdirdim. Bunu da deyim ki, uşaqlar qəbir qazıncan mən zənənlərnən məşğul oldum. Qız uşağının qolunda tikili dördkünc bir şey var idi, bazubəndə oxşayırdı. Dua-pitiyə oxşamırdı. Keçə parçasıynan onların əl-ayaqlarını ovxalayıb isindirdik. Arvad hələm-hələm özünə gəlmədi. Qız isə tez gözlərini açıb, tanımadığı adamları görəncən "ay ana" deyib yarımcan arvada sovxaşdı. Özü onun əl-ayağın, sinəsin-başın ovmağa başladı. Onda bizimkilər kənara çəkildilər. Sirr-sifətləri qara-quraya bulaşıq olsa da, oxşarları var idi, o saat bilinirdi ki, ana-baladılar. Mənim nədənsə əlim dinc durmadı, bazubəndi açdım, içərisindən iki parça kağız, bir dənə də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

solmuş qızılgül çıxdı. Kağızda, Ağa, sənin iki qəzəlinin əlyazması, özü də öz dəsti-xəttinlə, bilirsən ki, sənin xəttini yüz xətt içində tanıyıram. Tutiya kimi gözlərimə sürtdüm, öpdüm, biri "gül" rədifli, digəri "istər" rədifli qəzəllər idi.

Şair diksindi, bu hal Kərbəlayı Vəlinin nəzərindən qaçmadı, bundan sonra nə etmişdisə, "yersiz etməmişəmmiş, deməli, dürüst başa düşmüşəmmiş..." – deyə düşündü.

Qırmızı Qulam Seyid Əzimin vəziyyətindən xəbər tutcaq, başqa bir şey duyacaq halda deyildi. Çünki sarvanın danışdığı hekayəti bütün varlığını qaplayan qəribə bir maraq və həvəslə dinləyir, acıdığı yerdə gözləri dolur, baməzə söz eşidəndə gülümsəyirdi. Kərbəlayı Vəli sözünə davam etdi:

– Bəli! Sənin iki qəzəlini bu bədbəxt arvad hardan tapmışdı, bilmədim, indiyəcən də bilmirəm və olsun ki, heç vaxt bilməyim; amma o, iki qəzəli tutiya-təbərrik, molla yazan dua-ovsun kimi, müqəddəs bir şey kimi parçaya tikib, qızının qoluna bağlamışdı. Çox şükür eləyirəm Yaradana ki, sənin həmin qəzəllərin mənə düz yolu, sirati-müstəqimi göstərdi. Tez parçanı olduğu qaydada bağlayıb qızın büründüyü sigəciyə atdım, qoy bilməsinlər ki, sirlərinə aşinayam. Arvad da birtəhər özünə gəldi. Amma çox üzgün, bitab idi. Hər ikisini arddaş-mindəş dəvəyə mindirdik. Ərəbi qaydada palankindən, gecavədən heç nəyimiz yox idi. Gədələr birtəhər onları sarıyıb sarmaladılar. Yola düşdük. Çovğun güclənirdi. Udulu dəvəçinin şeylərini də xurcuna yığıb dəvəsinin üstündən aşırtdıq. Heyvanı, karvanın cərgəsinə qatıb yol aldıq, amma bu günü Pirəsənniyə çatmaq dayı mümkün olan şey deyildi, odur ki, gecəni qarammədli aşnam Azay bəyin evinə düşdük. Xeyli vaxt itirmişdik. Gecəni orda qaldıq. Azay bəyin külfəti Gülcamal bəyim tez azarlıya qaynar süd verdirdi. Dedim qorxub; onda daş yağı içirtdilər, qorxu daşını suya salıb suyun dadızdırdılar, nə bilim cəftə suyu, saç ucu suyu, daha nəynənsə qorxuluğun götürdülər. Udulu dəvəçinin dəvəsini və şeylərini burda qoydum ki, qayıdan baş gəlib Uduluya gedərəm, külfətinə çatdırram. Zənənləri də özümlə Şəkiyə aparmalı deyildim, həm də azarlı, yorğun və donmuş idilər. Odu ki, onları da Azay bəyin külfəti Gülcamal bəyimə tapşırdım, dedim:

– Gülcamal bacı, bu mənim bacımnan bacım qızıdı, azarlıdı, Şamaxıya Mirzəmmədin yanına aparacağam. İş elə gətirdi ki, Şəkiyə dönməli oldum, bir neçə gün, mən Şəkidən qayıdanacan sizdə qalsınlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülcamal da, Azay bəy də arif adamdılar: başa düşürdülər ki, burda nəsə var, üzə vurmadılar, ya özlərini elə göstərdilər ki, guya inandılar, ya da doğrudan da inandılar. Axı mənə nə düşüb onlara düzünü deməyəm. Qərəz ki, azarrılar orda qaldı, getdim Şəkiyə, yükümü yerbəyer elədim. Karvan adamı almalısını aldı, satmalısını satdı, qayıtdıq... Havalar hələ də soyuq idi, amma dayı yazın nəfəsi gəlirdi, Novruz bayramına ikicə gün qalmış, qayıdıb gördüm ki, azarrının bərk qızdırması var, bu soyuqda heç yana gedə bilməz, amma qız yaxşılaşıb, üz-gözünü yuyub, bir mazarat qız olub ki, gəl görəsən... Bəli, azarrını tərpətmək olmazdı. Gülcamal da, Azay bəy də and-aman elədilər ki:

– Sən get işində ol, havalar babatlaşanda gəl apar, bizim kənddə çox hadığ bir arvad var, mamaçadı, həkimlikdən başı çıxır, Allah kərimdi...

...Mən də dəvəçinin qəziyyəsini Azay bəyə danışmışdım, karvanı burda dincə qoyub, bir dəvə bir atnan addadım Uduluya, vaxtdan üç gün də keçdi, bayramın üçüncü günü gəlib qara xəbərini verdim külfətinə. Eh... Dünyada qara xəbər aparmaqdan pis iş yoxdur, amma nə çarə, kim isə biri deməlidi axı bu qara xəbəri də...

...Karvan üçün Qaraməmmədliyə qayıdanda azarlının bir az eyni açılmışdı, yanına getdim.

– Bacı, dedim, kimsən, nəçisən, bilmirəm, soruşmuram da. Sarvan babayam, Allah bilir ki, ürəyimdəki bir şəxsin xatirinə sənin bütün istədiklərinə əməl elərəm. De görüm, səfərin haradı? Yüz min zərəlim olsa da, qorxma, yolumdan qalaram, aparram səni haqq yerinə çatdırram.

Gözləri doldu:

– Haqq yerə Allah aparır, qardaş. O da neyşə gecikdirir bilmirəm, – dedi, – əgər sənə zəhmət olsa da, bağışla məni. Bilirəm ki, əziyyətim çox dəyib, çox da yəqin dəyəcək. Bacara bilsən, bir ulaq tut, məni Şamaxıya, şair Hacı Seyid Əzim Ağanın qulluğuna, evinə göndər.

İndi özün mülahizə elə, mən nə hala düşdüm, elə yazığım gəldi ki! Amma özümü saxlaya bilməyib soruşdum:

– Sən onun nəyisən, bacı, qohumlarındansan?

Susdu, gözləri axırdı, qızara-qızara:

– Bacısıyam, – dedi... Ağlamaq tutduğundan üzünü örtdü. Ürəyimdə "yəqin mənim kimi, səni burada mənə bacı bilirlər, deməli, Seyyidlə mən də qardaşam", – dedim. Bəli, cavabında bir söz deməsəm də, getmək sarıdan onu arxayınlaşdırmaq istədim:

– Bacı, – dedim, – arın-arxayın ol! Sənin mənə heç bir zəhmətin düşmür, çünki yolum onsuz da elə oraya idi, amma Allah başıma döyə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

döyə çəkib məni yoldan qırağa – Hacıqədirri səfərinə gətirmişdi ki, gəlib o bədbəxtin də ölüm xəbərini külfətinə aparım.

Hıçqırdı:

– Xudavəndə, onun əvəzinə məni aparsaydın nə olardı? Ciyərim parçalandı, qardaş!

– İndən belə sən mənim axirət dünya bacımsan, – dedim, – sən ki, Ağanın adını çəkdin, ona mənim malım da, canım da qurbandı.

Bəli, nə baş ağrısı, mənzilimizin bir olmağını bilən kimi səhərə səfər tədarükü gördürdüm. Ordan da çıxıb birbaşa bura gəldim, azarlını da, qızını da dəvədə irah yer hazırlayıb özümlə gətirdim. Gülcamalbəyim qızı elə xoşlamışdı ki, "qoy bir az bizdə qonaq qalsın" bacıqızını deyirdi: yaman işlək qızdı, Allah bəd nəzərdən saxlasın, alt öydə arvadlar iməcilik eləyiblər, xalçam var onu kəsdirmək istəyirdim. Qaratel qız o qədər əlləşdi, hamıdan çox. Kirgid vurmaqdan, beş gündə qız kirgidə döndü, o qədər arıqladı, hananın qırağından durmurdu, axırı gücnən ayırdım, dedim: "Bala, dayun gələr məni qınar ki, beş gün bacım qızını evində qoydum, onu da işlətdin" – deyirdi, razı olmadım. Gördüm ki, anasının da heç rayı yoxdu. Bu gün səhər sizin darvazanın qənşərinə gətirdim. Yalvarıb yaxardı ki, qoy özümüz gedək qapını döyək. Bəlkə "bacı" demək yalanının açılmağından qorxurdu, ya da bəlkə qapıdan qovulacağından ehtiyat eləyirdi, bilmirəm, Ağa. Amma elə yazıq, elə məzlum görkəmi var idi ki, xahişini yerinə yetirməyə bilmədim. Sənin külfətinin elə iş tutmayacağını bilsəm də genə uzaqdan qara verdim. Gördüm, yox, qapı açıldı, onları içəri buraxdılar, sonra da qoyub getdim. Əgər, incimə, Ağa, çöldə qalsaydılar, sənin o iki qəzəlini saxlamağı xatirinə, mən onları elə ordan götürüb aparacaqdım öz evimə və necə demişdim elə də axirət dünya bacım olacaq idi. Amma gördüm ki, yox, qapıdan geri qayıtmadı. Mən də çıxdım qoydum gəldim. Malları Ağa Rəsula təhvil verəndən sonra, özümü həmişəki kimi, verdim dostumuz Meşədi Qulamın dükəninə, dedim: ən yaxşı yer buradı ki, qəziyyədən səni burda hali eləyim.

Hekayətin sonuna doğru bir neçə yerde Seyid Əzimin gözləri dolmuşdu. Kərbəlayı Vəli söhbətinə xitam verəndə şair, geyməsinin cibindən yaylığını çıxarıb gözlərini sildi və dedi:

– Çox sağ ol, qardaş! Yolumda böyük zəhmət çəkmisən. O zənən mənim doğma bacım deyilsə də, bacımdan da artıq bir yovuq adamımızdı. İnşallah xəcalətindən çıxaram...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Pah atonnan, – deyə Meşədi Qulam nəhayət ki, hadisənin sonunda cazib vəziyyətdən qurtarmış kimi dilləndi və durub çay sifariş etməyə getdi. Kərbəlayı Vəli şairin cavabında dedi:

– Heç bir xəcalət və zəhməti-zadı yoxdu. Sizdən bir xahişim var, əvvələn, həmin qəzəllər ki, mən onları bircə dəfə oxumuşam, ğayətdə xoşuma gəlib, onların surətini öz dəsti-xəttinlə köçürüb mənə verəcəksən, bu olacaq mənim müzdüm, o ki qaldı mükafata, o da nə yazşan, canımdan da artıq bir minnətlə qəbul eləcəm.

Dayan, ay dost, bir bəri bax, axı deyirlər ki, tarix təkrarlanmır... Onda bəs bu nədir? Məgər Ağa Seyid Əzim ağanın darvazasını döyən Sona deyil? Bu erkəndən? Elə ondakı kimi bir gündür. Elə ondakı kimi də bir vaxt... Odur ey, qocalsa da, təravətdən, rəngü hənadan düşməmiş Meşədi Qənbər Qalabazar hamamına doğru irəliləyir. Ağır gedir, əsaya sövkənir, amma hər halda genə də gedir... Qonşu qapısının belə erkən döyüldüyünü ömründə ikinci dəfə görür, əvvəlinci yadından çıxıb, birinci arvadının adı kimi! Çoxdanın söhbətidir... "Pah atonnan – deyir, bu payyığan köpək uşağı lap dayı ağın çıxardıb..." o, açıqaşkar bu sözləri qapıdakı ana-balaya eşitdirir: "Xudaya, kəraminə şükür, kənd-kəsək də axışıb doluşub şəhərə, bir şəhərin əhli beylə sayılı necə dolandırsın axı?.. Hələ o yanındakı qıza bax..." Meşədinin ağzı sulanır, artıq bunları ürəyində düşünə-düşünə uzaqlaşır. "Sən öləsən cavan vaxtım olaydı, alaydım əlindən, deyəydim: balam, uşağuva çörək istəmirsən, qoy verək də!.."

...Doğrudan da bəs uşaq kimdir? Bu kəndsayağı geyinmiş, yıpranmış libasda, köhnə cunalı arvad əgər Sonadırsa, onda qız kimdir? Sona deyəndə ki, Sonadan bircə cüt göz qalıb... Onlar da dərin quyuya düşmüş su kimi ölgün-ölgün işıldayır. Hardasınız, ay aşiqlər! Bir vaxt dönəm-dönəm öpmək istədiyiniz əllər qaralıb yanıb, damarları qoç buynuzları kimi dikəlib, qoşalaşıb!.. Bəs o dərdə dərman ayaqlara niyə baxmırsız, nə qədər canlar bu ayaqlara sadağa gedərdi, altından öpməyi səadət bilərdi!.. İndi kim inanar ki, bu ayaqlar bir zaman incə, zərif şətəllər içində xırda-xırda, narın-narın rəqs edib, bu ölgün gözlər süzübaxıb, canlar alıb? Dingənin altından partlayıb çıxmış bu saçlar bir zaman şümşad bədənin ətrafındakı iki qoşa ilan kimi qıvrılanda, tamaşa eləyənlərin ağlını alıb...

Qapını yenə də Minasoltan açdı. Əvvəl əldə Sonanı tanımadı, tanıyanda ürəyi töküldü...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bıy, başıma xeyir, ay bala (ay bala!!! Çəngiyə deyilir ha!..)

...Gəl-gəl içəri, hardan belə? Bu qız kimdi?

Sona əlindən tutduğu qızla darvazadan içəri girəndə, artırmanın önündə bir gəlin çöməltmə oturmuşdu, qarşısındakı palçıq kürədə kömür qızardırdı, yanında köhnə teknəyə xəkə-güllələr yığılmışdı. Qapının döyüldüyünü eşidəndə durmaq istədi, həyəti süpürməklə məşğul olan Minasoltan səsləndi:

– *Durma, durma, Ceyran, mən açaram...*

İndi gəlin başını darvazaya tərəf çevirib, maraqla qayınanasının içəri dəvət elədiyi ana-balaya baxırdı.

– Keç, keç, Sona, keç, bala!..

Ceyran ər qohumlarının hamısını tanıyırdı. Bu kim ola bilərdi? Birdən yadına düşdü! Tək qaldıqları gecələrin birində qayınanası ona nağıl qarışıq bir əhvalat danışmışdı... Sona? "Heç kəsə bir söz demə ha, bala, *irağ-irağ Ağaya sədəməsi toxunar! Mənim* də ki, (arvadam, arvadlığımda da qalacağam) dilim durmadı. İsgəndərin buynuzu var quyuya deyən dəllək kimi, bu neçə ildə özümü saxlamışdım, indi sənə danışdım... Bir də ki, kimə nə zərəli olacaq? Ağa deyirdi o irəli ki, Sona ərə gedib, bir uşağı da var... Allah eləyə irasta sala, xoşbəxt ola barı... Ağa Səməd də, deyir, o irəliki zəlzələdən sora, çıxıb gedib Alış batmışın əli çatmayan bir yerə, bilmirəm vallah Aşqabada, ya Meşədə..."

Hə, arvadın onunla görüşməsindən də, "*Sona*" *deməsindən də*, bu elə odu...

...Sona da gəlini görmüşdü. Dili Minasoltanla danışır, dodaqları onun ana əllərindən öpür, gözləri Ceyranı seyr edir, ürəyi isə deyirdi: "Yəqin Ağanın gəlinidi. Gözəldi! Şair arvadı belə də ola gərək!.. İncədi... Dünyanın ən xoşbəxt adamısan, gəlin! Doğrudur, sənin qabağında Şahbikəbəyim kimi nökərlər, dəstə-dəstə qulluqçular yoxdur. Sən kürəni özün qalayırsan. Palaz-paltarını da özün yuyursan. *Biş-düşünü də özün* eləyirsən... Amma yenə də sən Şahbikə bəyimdən xoşbəxtsən. Ağa kimi bir adamın, arvadı demirəm, lap kənizi olmaq da umulmayan səadətdir. Sən onun qəzəllərini oxuyursanmı? Eşidir, başa düşürmüsən, ay bəxtəvər gəlin!.. Ağaynan qazmada, komada, şit fətir yemək, başqasının alşan imarətində külçə bükdələməkdən yaxşıdı, min dəfə..."

– Qızındı, Sona? Bıy, olsun-olsun! Allah saxlasın! Ağa demişdi axı ki, ay ana, babat dolanır, balası da olub...

Amma ana görürdü ki, Sona güclə ayaq sürüyür, ağır-ağır nəfəs alır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qurbandı sizə, Minasoltan...

– Bıy, Allah eləməsin! Qurbanın qoyun olsun! Allaha xoş getməz, bəndəsin qurban kəsən bir cənab İbrahim peyğəmbər olub ki, ona da razı olmayıb, qoyun göndərib göydən Allah, cənab Cəbrayılnan... – O, qızın başını sığalladı, – lap özündü durub, ay Sona, – və əyilib qızın alnından öpdü...

– Ağzın şirin olsun, Minasoltan...

– Bı da mənim gəlinimdi...

Gəlin, Sonanın qənşərinə qalxdı. İndi Sona, Minasoltan və qız artırmaya yetişmişdilər. Ceyran da əyilib qızın başından öpdü:

– Bəs adı nədi?

– Əh adı... adı batsın onun, Minasoltan! Allaha acıq getsə də! Məni diyarbədiyar salan o deyil bəyəm?.. İndi də ondakı kimi sizə pənah gətirmişəm, Minasoltan, mənim öldüyüm gündü...

Sona dayana bilməyib Minasoltanın qabağında yerə çökdü, yenə ondakı kimi yerimi öpmək istəyirdi, ya da taqətimi kəsilmişdi?

Minasoltan və Ceyran haldan getməkdə olan Sonanın qoltuğuna girdilər, çətinliklə artırmaya qaldırdılar. Sona kəsik-kəsik deyirdi:

– Kim deyir ki, alma ağacından gen düşər? Budu necə anam bədbəxt məni hələ bu yaşında Şirvana gətirib çıxartdı, özü ölüb getdi, məni əllərdə qoydu, indi mənim də öldüyüm gündür, Minasoltan amma sizə umudla gətirmişəm ki, yad əllərə düşməsin...

Seyid Əzim özünü evə yetirəndə Sonanı yatağında rahatlamışdılar. İçəri girdi, pərişan-pərişan yasdığa dağılmış saçlara, Səmərqənd kağızına dönmüş sifətə baxdı. Gözləri doldu, qapısını ilham pərisi, pərilər soltanı döyüb! Lənət sənə, fələk, lənət sənə, zəmanə, nə gündə döyüb pərim qapımı? Elə ac, yalavacı tapar! Mənim kimi lüt şairin pərilər soltanı da bu kökdə olar! Məni nə günə qoydu zəmanə ki, pərimə bir gün ağlasın?

– Ağlama, Sona, nə uşağın, nə də məmənin ürəyini ağrıtma... Sən ki, doğulub böyüdüyün, içində azurğu ömür elədiyin zəmanəni yaxşı tanıyırsan...

– Tanıyıram...

– Sən ki, kimlərin əhatəsində olduğunu, Alışların da, Qapaqlıların da kimliyini bilirsən?

– Bilirəm...

– Hara gəldiyini necə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Onu da bilirəm... Bilməsəydim, bu halnan, eylə yolları keçib təzədən sizi narahat elərdimmi?

– Onda ağlama!! Dünya xeyli dəyişilib, Sona! İndi dayı Qapaqlı əlində əsir olan azalıb...

– Təki olsun...

– Ağlama, həlbət ki! Ağa doğru deyir. Neyşə ağlayırsan? Ağa, həkim Mirzə Məmmədin yanına gedər, sənə dava-dərman alar. Çox hazıq həkimdi. İçərsən, inşallah sappasağ olarsan. Səndə nə var ki! Yəqin özünü soyuğa vermisən...

Bu sözlərlə Minasoltan Ceyrana tərəf döndü:

– Ceyran, bala, kürən qızarıbsa, bir piyalə süd qızdır Sonayçın. Axşam bəkləli qonağımız süd də gətirmişdi, siz yatandan sonra, qaymaq da, süzmə də. Uşaqların bayramıdı bu gün...

Yaxşı ki, Tərlan səni görmür, Sona! Elə bircə ağagilin, bir də bizim gördüyümüz bəs elər... Yoxsa yaralı aşiqinin onsuz da bişmiş bağrı bir az da bişərdi...

Sona əllərini köksünün üstündə çarpazlamışdı, gözləri tavana dirənmişdi.

Qadının batmış ordlarında dərin çökəklər əmələ gəlmiş, saçları yastığının üstünə dağılmış, bir zamanlar canlar alan gözəl gözləri kölgələnmişdi. Göylərə dikilmiş bu gözlərdə elə bir dərin məlal, elə bir kədər, nigarançılıq var idi ki... Bu gözlər göylərə yalvarır, heç bir zaman imdad almadığı ənginliklərdən indi son nəfəsində balası üçün aman diləyirdi. Bu yalvarışları, bu imdad diləyilə sanki o özünə qarşı amansız olmuş bütün qüvvələri əfv edirdi, təki balası bircə parçacıq xoşbəxt olsun:

– İlahi, dünyaya gətirməydən nəydi məni məqsədin? Bilmədən ölürəm. Ey böyük xaliq, nəydi mənə qəsdin? Niyə mənə o bir dünyan qədər əzab və əziyyət verdin? Yaratdığın, başımın üstündən dünyaya yağdırdığın nemətlərdən dadmadım, birinin ləzzətini bilmədim! Nəydi günahım? Qanmadan ölürəm! Məni sən yaratdın, sən də aparırsan. Özün haqsan, əlinin üstündə əl yoxdur! Yaratdın, öldürdün. Kim səndən haqq-hesab istəyə bilər ki, mən, dünyanın ən məzlum xilqəti səndən hesab istəyim? Yalnız, bircə arzumu (axı sən mənim heç bir arzumu eşitməmisən) yerinə yetir! Mənim balamı afətlərdən, yerin, göyünkündən demirəm, bu sənin öz işindir, heç olmasa, yaratdığın insanların afətindən himayət elə! Ona mənim taleyimi qismət eləmə! Heç olmasa qabağına bircə ləyaqətli adam çıxsın. Onun yediyi bir tikə çörəyi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

minnətsiz elə, başına qaxınc eləmə!.. İlahi, xilqətimdən bu günə kimi, yaratdıqların mənə nə zülm etmişsə, bağışlayıram, təki balama insan əlindən sədəmə toxunmasın!

Yazıq Sona!.. Dostlar, imkan olsaydı, əyilib bədbəxt Sonanın qulağına pıçıldardım: "Qorxma, bacım sənin nəslin məzlum olmayacaq! Zaman gələcək sənin qızlarından Qəmərlər, Əminələr kimi rəqqasələr yetişəcək ki, Moskvanı, Parisi, Londonu öz sənətilə heyran qoyacaq!" – deyərdim.

Sona yazıq nə bileydi ki, onun qızları içindən Nisələr, Sonalar yetişəcək ki, dava-dərmansız ölən nənələrin xatirinə, təbabətin ən məşhur korifeyləri ilə yanaşı duracaq, tutulan gözlərə işıq, boğulan sinələrə nəfəs verəcəklər... Sona bədbəxt hardan bileydi ki, onun əziz balası özü də, anasının taleyilə məhv olmayacaq. Şair Seyyid onu bir qədər saxladıqdan, oxutduqdan sonra, Tərlanın xahişi ilə Aşqabada göndərəcək, orada təhsil alıb, Tiflis qız məktəbini bitirəcək və xalqının ilk qadın müəllimlərindən biri olacaq...

Sona nə bileydi ki, ...bunlar çoxdur, saymaqla qurtarmaz, əziz dost! Əgər mümkün olsaydı, Sonanın xəstə yatağının qırağında oturar, onun damarları çıxmış əlini əlimizə alar, hərəsi bir piyalə yaşla dolmuş gözlərindən öpər, deyərdim: "Əziz bacım, qəm çəkmə, rahat yat!.. Sənin taleyin səninlə də qurtarır. Qızının səadətindən arxayın ol! Gözlərini dincliklə yum!" Təəssüf ki, bu mümkün deyil! Nə biz geri qayıda bilər, nə də dodaqlarındakı ana duası ilə bu dünyadan nakam, nigaran gedən Sonanı arxayınlaşdıra, ovundura bilərik... Tarixdə geri yol yoxdur! Biz onu görə bilərik, o bizi yox.

***Nuri-didəm Ağa Tərlan!***
***Külli-nəfsin zaiqətül-movt...***

*Adəti başsağlığı kəlməsilə başlanan məktubumu oxuyub elə güman etmə ki, atan və ya digər qohumlarından biri bu dünyaya göz yumub, belə deyil, qardaşım! Bu dari-fənanı tərk edib gedən sənin bədbəxt Sonandır. Allah ona rəhmət eləsin. Qurtardı bu dünyanın əziyyətindən. Zəmanə ona çox haqsız oldu. Xəllaqi-aləm yaratdıqlarının ən gözəlinə, ən zərifinə olmazın zülmləri, əzab və əziyyətləri rəva gördü. Qərəz, kimin haqlı, kimin haqsız olduğunu o dünyada biləcəyik!.. Sonadan mənə qəribə bir yadigar qalıb, qardaşım, o da Qaratel adında, eynən özünün*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*timsalı olan on iki-on üç yaşlı bir qız uşağı. Sonanın bəlalı başını qəribə bir macəra çəkib mənim mənzilimə gətirib. Mən sənə bir zamanlar yazmışdım ki, Sonanı Mahmud ağanın dostlarından Əlyar bəy namində birisinə nədimə vermişdik. Sonra özünün razılığı və Əlyar bəyin məsləhətilə bəyin nökərlərindən birinə təzvic edibmiş. Bunu da mənim məktublarımdan biləsən gərək. Qız da onun qızı imiş. Bir il yarım bundan qabaq ərini tövlədə at vurur, yarası simləyir ölür. Bir neçə ay əqdəm də Əlyar bəylə külfəti vəfat eləyir. Mülkə və nökər-nayibə onun oğlu Bəybala bəy sahiblənir. Varis öz dədəsinə oxşamır. Sonanın, xüsusən, balaca qızın günü pis keçir, artıq nə yazım ki! Baş götürür, nökərlərin köməyilə karvançı Kərbəlayı Vəlinin vəsatətiynən bizə pənah gətirir.*

*Mən Sonanın son günlərini sənə təsvir etməklə qəlbini üzmək istəmirəm, qardaş! Son nəfəsinəcən ağlı salim, üstündə idi. Heç bir an da huşunu itirmədi. Həkim Mirzə Məmmədi gətirdim, baxdı: "Uzun azardı, köhnədən varıymış, vərəmləyibmiş, indi soyuq ki, dəyib zatülcəm onun kələyini kəsib, azarını elə qalxızıb ki, həm də bu qızılgülün köpürən vaxtında belə azarlılar üçün çətin keçər" – dedi.*

*Sona elə qızılgül kimi də soldu. Qarateldən – qızından yana nigaran getdi. Dünyada çox sonalar var, qardaş! Onların çoxu Sona kökdədi, amma çoxu da öz vəziyyətini başa düşmür. Yaranır, bahar vaxtında bir gül şaxəsi kimi açılır, yazın oğlan çağında bir gül qonçası kimi! Sonra da qəhri-zəmanədən solub gedir.*

*Yerin elə görükür ki, Ağa Tərlan! Sənsiz, dost-aşinasız lap inzivayə çəkilmiş kimiyəm. Bir-birinin ardınca həmtaylarım bu dünyadan köçür, qorxum budu təkkəvü tənha qalam... Sən də qürbət diyardan mənə bir əl yetir, bir nəfəs yetir, Tərlan! Hardasan, qardaşım? Sonanın ölümü mənim ürəyimə lap sağalmaz yara vurdu.*

> *Könül olubdu fərağında biqərar, ey dust!*
> *Neçin məni elədin zarü dilfikar, ey dust?*

*O, əsrin Leylası idi. Mən biləni elə Leyli kimi, nakam eşqini qəlbinin dərinliklərində dəfn edərək Leyli kimi bu dünyaya göz yumdu. Bircə deyə bilmədim ki, ey zəmanənin Leylası, fünuni-eşqi səndən dərs alanlar neçin sənin dərdinə qala, sənə bircə gün, bircə saat səadət verə bilmədilər?!*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Ümid əlim üzülüb damənin-vüsalından,*
*Sənə bir növ degildim ümidvar, ey dust!*

*Nə sən fəraqə səbəb olmusan, nə mən bais,*
*Bu dərdə saldı bizi dövri-ruzigar, ey dust!..*

*Bu da sənə qəzəl... Tamamlaya da bilmirəm... Ümidvaram ki, tamamlayam, onda hüzuruna irsal olunar.*

*Əzizim, dostum, qardaşım Tərlan, məktəb işlərim də o qədər yaxşı getmir. Məni şəhər məktəbindən xaric elədilər. Özümüzkü də sönən şam kimi güclə ziya verir, elə sönhasöndədi... Sənin kimi dostların köməyi olmasa, bu da gedər bətfanəyə. Dövrəmdə xeyli düşmən cəm olunub. Tərlan, heç özüm də bilmirəm ki, bu naəhl Allah bəndələri niyə başa düşmürlər ki, mən məhz onlardan ötəri, onların fərzəndlərinin sabahı üçün əlləşib çalışıram. Külfət çoxaldıqca möhnətim də artır. Amma anam, sənin Minasoltanın deyir ki, "Sonanın yadigarını nə qədər canımda can var, öz nəvələrimdən biri kimi saxlayıb böyüdəcəm, verəcəm bir halal süd əmmişin birinə".*

*Qərəz, səlamət ol, cənab Mahmud ağadan, İrza bəydən sənə salam dua.*

***Baqi... Seyid Əzim Məhəmməd oğlu Şirvani***
***21 məhərrəmül-həram fi sənə filan***

İftara az qalmışdı. Bu gün Minasoltan qonşu Məşədi Qənbərgilə "orucaçdıya" çığırıldığından evdə olmayacaq idi. Çağa beşikdə yatır. Mircəfərsə bu gün Bikə nənəgilə qonaq getmişdi, uşaqlar o biri otaqda şam etmiş, tezdən yerlərini salıb oturmuş, Qaratelin söylədiyi nağılı dinləyirdilər. Ceyran bu axşamkı iftar süfrəsini təkcə ikiləri – özü və Ağa üçün hazırlayırdı. O nimdaş qələmkar dəstərxanı yerə döşədi. Günortadan bişirib hazırladığı iki nimçə üstü darçınla bəzənmiş firni, kəhrəba rəngli noğultərək, Ağanın çox xoşladığı şorməzə yarpaq dolması və sarımsaqlı qatıq piyalasını ortaya qoydu. Balaca çaydanı, fincan və nəlbəkiləri də süfrəyə düzdü. Ayrıca nəlbəkiyə oruc açmağa xüsusi "səvab gətirən" bir neçə xurma yığdı. Elə bu vaxt darvazanın açılması və Seyid Əzimin addım səsi eşidildi. Ceyranın ürəyi titrədi. Onsuz da obaşdandan ac idi, uşağa süd verməsinə baxmayaraq, orucunu sındırmırdı. Gəlin güclə ayaq üstə dururdu. Buna baxmayaraq ərini qarşılamaq üçün evin artırmasına çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyid Əzim cibindən çıxardığı bir neçə saçaqlı konfeti qapıya çıxmış Qaratellə uşaqların arasında bölüb əylənirdi. Ceyranı görüncə uşaqlardan ayrılıb otağın qapısına yaxınlaşdı:

– Salam...

Seyid Əzim Ceyranın saralmış, arıqlamış üzünə baxdıqca ürəyi əzilirdi: "Yenə də orucdur, ilahi, mən bu etiqadı onun ürəyindən necə çıxarım?" Lakin hələ bir söz demədən anasını soruşdu:

– Məməm hanı?

Ceyran xəfifcə gülümsədi, bir neçə uşaq anası olsa da, hələ də ərindən utanır, dik gözlərinin içinə baxa, arzularını açıq deyə bilmirdi:

– Məşədi Qənbərgilə orucaçdıya çağırılıb...

– Hə... deyirəm axı, əzana azca qalıb, amma, məməm həyətdə dəstəmaz almır, bu heç olan şeydi? Deməli şamı təklikdə eləyirik? – O da gülümsədi, lakin arvadının vəziyyətindən daxili bir əzab duyaraq, Ceyranın çənəsindən yapışdı və başını yuxarı qaldırdı. Dərinə düşmüş, aclıq və yorğunluq tökülən gözlərinə baxdı, Ceyran Ağanın onu yenə də danlayacağını başa düşdüsə də aldırmadı, üzün yana çevirdi:

– Hə... Minasoltan dedi ki, gec gələcəm, məni gözləməyin, iftarınızı eləyin.

İçəri girdilər. Vaxt elə uzanırdı ki, Seyid Əzim qapıdan döndü, bir də nigaran gözlərlə üfüqə baxdı. Əgər iqtidarı olsaydı, günəşi, aləməfruz afitabı bir az da tez qüruba endirər, iftar vaxtını yaxınlaşdırardı, təki Ceyran orucunu tez açsın, ac qalmasın...

Birdən Ceyran taxçaya yanaşdı, oradan bir zərf çıxarıb şairə uzatdı.

– Ağa, Şirin gətirib...

Şair zərfi açdı, Tərlandandı, dərhal duydu, barmaqlarını xəfif hərəkəti ilə Ceyranın çənəsini sığalladı, yorğun gözlərinə baxdı, baxdı, heç bir söz deyə bilmədi. Dərindən köks ötürüb məktubu oxumağa başladı:

***Nuri-çeşmim, əziz şairim!***

*Əvvəla mətləb sənin salamatliyindir və əgər zəhmət qəbul edib buraların da əhvalından xəbərdar olmaq istəsən, yaman-yaxşı dolanırıq.*

*Bəradəri-mehribanım, sənə yazmağa qəribə bir xəbər var məndə. Amma heç bilmirəm sevinim bu işə, ya qəmgin olum. Deyəsən mən, indi başıma gələn bəlaların əsil iştirakçılarından biri ilə rastlaşmışam. Qərəz, cənabını yormayım, bil və agah ol ki, bizim həmvətənlərdən biri, Ağa Səməd buralarda peyda olub. Mən onu çoxdan bəri bazarda-dükanda görürdüm. Hal-əhvallaşır, salamlaşırdım. Amma o qədər də*

*qürbətimiz, yaxınlığımız yox idi. Cənab Ağa Səməd burada dükan açan Şirvan tacirlərindən biridi; özü də mənimlə həmyaş olmağına görə, mənə çox meyil eləyirdi. Əvvəl illərdə mən bu yovuqluğa o qədər də maraq göstərmirdim. Səbəbi də bildiyin idi, yəni heç insanlara qaynayıb-qarışmağa özümdə qüvvət tapa bilmirdim, nəhayət ki, mən də qaradan çıxmazlığı tərk elədim. Bir-birimizə gedib-gəlişimiz artdı. Söz-söhbət çəkib bizi bir-birimizə bağladı. Qəriblik, tənhalıq bizi iki qardaşa çevirdi. Bu vaxtacan onun barəsində sənə yazacaq elə bir maraqlı xəbər yox idi, odur ki, yazmırdım. Bu günlərdə bir vəsilə oldu ki, o öz keçmiş macəra və xatirələrindən mənə danışdı. Doğrusu, onun ürəyində nə isə bir dərdi, qüssəsi olduğunu anlayırdım. Başa düşürdüm ki, onu təkcə zəlzələ diyarbədiyar salmayıb. Əziz qardaşım! Ağa Səməd macəralarını mənə danışanda öyrəndim ki, bədbəxt Sonamı ölümdən xilas eyləyən oymuş. Sən demə Alışın dəstəsində bir vaxt qaçaqçılıq eləyən cavanların ən igidlərindən, özü demişkən canavarlarından biri imiş.*

*Mənim xahişimlə Mütrüf Ədilin öldürüldüyü gecə baş verən hadisələri mənə bircə-bircə yerli-yataqlı danışdı. İndi lap səhih bildim ki, başıma gələn qəziyyələrin ən əsas səbəbkarı, başçısı öz doğma atam olub. Mən elə əvvəldən də onun bu işdə barmağı olmağını duyurdum. Özüm də ondan təkcə məni döyüb xar-zəlil eləməyinə görə üz döndərməmişdim. Amma lap belə də bilmirdim ki, mənim atam kiminsə ölümünə razılıq, fərman verə bilər.*

*Özünü onlardan: o Molla Qurbanquludan, Alışdan və bir də ata adını gəzdirməyə layiq olmayan atamdan qoru, qardaş! Kərim Allah özü səni bəlalardan hifz eləsin! Əlbəttə, biz, mən və Ağa Səməd Şirvanda olsaydıq, xatircəm olardıq. Onlardan sənə heç bir sədəmə toxuna bilməzdi; amma indi hərçənd dövran əsil dostsuz deyil... Yenə də nigaran olacağıq... Bu axır əhvalat bizim ürəyimizi Ağa Səmədlə bir-birinə elə bağlayıb ki, lap ekizə bənzəyirik... O çox dəyişilib. İndi savadını artırır, buradakı müəllimlərdən urus dilini də kamil öyrənib. Gözəl-gözəl kitablar oxuyur, deyirəm vaxtında oxuyub lazımi savad alsaydı, bədbəxt millətimizin xidmətində durardı. Neçə-neçə gözəl işlər görərdi... Elə qabiliyyətlidir ki... Tez-tez sənin yazılarından əlimizə keçənləri birlikdə oxuyub, müsahibələr eləyirik. Buranın ziyalıları ilə əlaqəmiz möhkəmdir. İranlıların məktəbinə, burda açılan öz məktəbimizə, əlimizdən gələn köməyi eləyirik. Gələn illərdə ianə məsələsi qoyulanda, cənab Ağa Səmədi də nəzərdə tutmağını xahiş edirəm. Eh,*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*qardaş, bədbəxt Sonamın son dəqiqələrdə, ölüm ayağında özünü necə mərdanə aparmasından elə şeylər danışdı ki, gözlərim dönəm-dönəm yaşardı... İnşallah vaxt olar, görüş qismət olsa, nağıl elərəm sənə. İanə sarıdan yazdığın yanıqlı məktub mənə bu kağızı başlayandan sonra, bu səhər vüsul oldu. Neyləmək olar, qardaşım! Dövrün təqazası budur. İndilik himmət sahiblərinin cibinə göz tikməkdən savay ayrı çarəmiz yoxdur.*

*Mənim burada bir sürgün dostum var. Ursetin lap orta göbəyindən, Filtilbörkdən gəlib çıxıb buralara... O elə qəribə şeylər danışır ki! Adam ümid eləyir, inanır ki, bir zaman gələcək, məktəb və maarifin sədəqəyə ehtiyacı olmayacaq... Kim bilir...*

*Minasoltana, gəlinimizə və bacılara məndən salam yetir.*

*Baqi ehtiram: qardaşın Tərlan.*

*Hə, əzizim Ağa, bura bir bəd xəbər gəlib çıxdı, deyirlər İsmayıl öz kiçik qardaşı Məhəmmədi öldürüb. Bir də dedilər ki, yox, onu dəllək Hüseyn al diliynən evdən çağırıb öldürüb, səhih xəbərdimi? Amma mən heç inana bilmədim. Çünki İsmayılı uşaqlıqdan tanıyırdım. Qardaşı əməlli yadıma gəlmir, amma özü fağırın biri idi, o necə belə şey elər? Qərəz, salamat qal, Allah iqbalını daimi, bizi də xoş xəbərlərinlə şad eləsin.*

***Tərlan.***

***Eşqabad, 12 zil-qədə, sənə filan***

*Hə, qəribədir ki, Ağa Səməd deyir: Alışlar meşədi olub hörmətə minən şəhər əlbəttə, dağılacaq. Amma əvvəl mənə Sonanı otağın içində necə izlədiyini danışanda az qaldım boğam onu. Sonra başa düşəndə ki, bu elə o doğmaca atamla Molla Qurbanqulunun qurmasıdır, lənət şeytana dedim. Oğlan əvvəllər tutduğu əməllərdən elə peşman olub ki, day nə deyim... deyir... "utandığımdan indi göz açıb abırlı adamların üzünə baxa bilmirəm, ancaq onda utanmaq nədi bilməzdim".*

*Ağa indi səndən bir təvəqqəm var, əminəm ki, məni başa düşəcəksən və Minasoltanın yanında vasitəçi olacaqsan. Sən bilirsən ki, mən ömrümün axırınacan evlənməyəcəm. Sonanın yadigarı mənə düşür. Bu dünyada buna ən çox haqqı olan adam varsa, o da mənəm, mən biləni. Səndən xahiş edirəm ki, hansı yollarla olursa olsun, qızı mənə çatdır. Xorasana gedənlərləmi, alış-verişə gələn etibarlı tacirlərdən birinin vasitəsiləmi, necə eləyirsən elə. Özün zəhmətin çəkib gətir Bakıda mindir gəmiyə. Mən Aşqabaddan gəlib Təzəşəhərdə qabaqlayaram.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Mən istəyirəm ki, Sonanın balasını özüm istədiyim kimi xoşbəxt eləyim, özüm və zamanənin təqazası və tələbiylə. İndi dövran dəyişir. Buralarda xüsusi dərs deyən müəllimlər peyda olur, urusuycan əlbəttə. Mən də qızı oxudaram, nə bilmək olar. Bəlkə anasının taleyi onda baş verməsin. Bu da mənim Vətən bacılarına bir hədiyyəm olar ki, ilk qız müəllimini onlardan ötəri mən hazırladım.*

*Bu xahişimə əməl etsən və yerinə yetirsən onda ömrüm uzunu sənə borclu olacam.*

*Sənin tövsiyənlə "Əkinçi" qəzetini alıram. Bakılı tacir dostlarımdan Ağabba cənabları bura göndərir. Gözlərimiz aydın olsun ki, sənin də ordakı nəzmini böyük bir maraqla oxuduq. Hamımız binihayət sevinmişik. Allah qələminə qüvvət, gözünə işıq versin. Sən millətin dərdini çəkənlərə indi dayaqsan, rəhnümasan, qardaşım!*

***Tərlan***

Seyid Əzim məktubu oxuyub qurtaranacan hər şey hazır idi, amma hələ hava kifayət qədər qaralmadığından Ceyran ayaq üstə can gəzdirir, süfrəyə yaxın düşüb orucunu sındırmır, əzanı gözləyirdi. Bu, Ağanın qəlbini elə sıxdı ki: "...Ah, Ceyran, Ceyran", – deyə düşündü. Qalxıb pəncərəyə tərəf boylandı:

– Deyəsən, vaxtı axı?..

Ceyran onun məqsədini anlayırdı, mədəsindəki küt ağrı bütün varlığını qırırdısa da, kandarda durub havaya baxdı:

– Yox, – dedi, – heç əzan da başlamayıb... Məktub kimdəndi?

Seyid Əzim, Ceyranın sözü orucdan dəyişmək istədiyini başa düşüb, nəvazişlə gülümsədi:

– Ağa Tərlandandı! Ceyran, Qaratel səni incitmir ki?

Ceyran mehriban üzündə xəfif bir təbəssüm bəlirdi:

– Yox, amma yazıq yaman xiffət eləyir. Anasız... Hey ovundururam, elə hey ağlayır...

Seyid Əzim nə fikirləşdisə birdən-birə dedi:

– Ceyran, onun Eşqabadda dayısı varmış, Sonanın ölməyini eşidib, mənə kağız yazıb, xahiş eləyir ki, onu ora göndərim. Sən məməmi də, qızı da yavaş-yavaş başa sal, hazırlıq gör, görüm mən Eşqabada gedən tapa billəmmi?

– Hayıf, yaxşı qız idi... Qalardı bizdə...

– Yox, Ceyran, hər quşun öz yuvası! İndi ki, dayısı istəyir, saxlamağa haqqımız yoxdu. Bir də, orda özünü qohumu yanında biləcək, o qədər də sıxılmayacaq...



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bu zaman Kəblə Mürvətin nalələri göyə ucaldı: "La ilahə illəllah..."

Seyyidin çiyinlərindən elə bil ağır yük götürüldü: "Ömrümdə əzan səsini belə həsrətlə gözləməmişəm. Ömrümdə Kəblə Mürvətin "La ilahəsini" belə sevinclə dinləməmişəm, necə ki, bu bir ayda... ah, Ceyran, Ceyran..."

– Bircə tez ol... – deyə o cəld süfrəyə yaxın əyləşdi. Öz əli ilə tələsik nəlbəkiyə bir qədər dağ su töküb arvadına uzatdı. Bir dənə də xurma verdi. Ərinin qayğısı Ceyranın gözlərini yaşartdı, qəlbini köy-rəltdi. Bir anlıq aclıq da, mədəsindəki küt ağrı da yadından çıxdı. Yerində bütün varlığına hakim kəsilən güclü, dağlar qədər uca və qüdrətli bir məhəbbət qaldı. O nəlbəkini aldı, xurmanı dişləyib dağ suyu içdi... Bədəninə xoş bir istilik yayıldı...

– Ceyran, gerçəyimdi, sən neyşə mənim sözümə baxmırsan, hə?

Qadın gözlərini süfrəyə dikdi. O çətinliklə yeyirdi, bütün günün aclığından sonra yemək çətin idi.

– Nə barədə ki?

– Özün yaxşı bilirsən nə barədə... Sənə oruc tutmaq yaramaz. Mənə inan, əvvələn sən süd verirsən, çox zəifsən, hifzi-bədən vacibdi. Sən özün də heç bilmirsən ki, necə günah işləyirsən. Həm çağa barədə, onun südü azalır, həm öz barəndə – üzülürsən... Bu ən böyük günahdı. Ceyran, mənə inan, qoy babalını mənim boynuma...

– Mən sənə inanıram, Ağa, amma... orucumu yeyə bilmirəm, qor-xuram, utanıram. Onsuz da bizim barəmizdə elə sözlər danışırlar ki... Bircə bu qalıb deyələr ki, mən də oruc tutmuram, səni deyirlər bəsdi...

Ceyran sözlü idi, onu nə isə üzürdü, bu aclıqdan, uşaq əmizdir-məkdən daha ağır bir əzab idi. Mənəvi yorğunluq və qorxu idi ki, şair indicə bunu başa düşdü. Bayaqdan bəri qadının üzgünlüyünü təkcə oruca həml etmişdi. O birdən-birə dəyişmiş, daha mehriban və nəva-zişkar bir səslə soruşdu:

– Nə olub bəyəm, Ceyran nə dərdin var, əzizim?

Ceyran bu nəvazişkar səsdən ötəri ölürdü: Ah, bu mehriban sözləri eşitmək üçün çox, həmişə... eşitmək üçün o nələr etməzdi! Amma... elə şeylər danışırlar ki... O öz məhəbbəti üçün qorxurdu. Axı bütün bunları, qeybətləri, söz-sovları Ağaya necə demək olardı? O hardan, nədən başlayacağını bilmirdi. Neçə gün idi ki, Ağa ilə danışmaq istəyirdi, macal tapmırdı. Gecələr yarıyacan yazır, pozur, yerinə az qala ilk xoruz banında girir. Gündüzlər uşqolda, çöl-bayırda, kənd-kəsəkdə, adam içində olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir də Minasoltanın yanında heç onunla kəlmə də kəsə bilməz... Utanardı... İndi əlinə fürsət düşüb – onda da həya qoymur... Odur, Qaratel nağılı qurtardı, uşaqları rahatlayıb özü də yerinə girdi. Çağa azacıq süd gəlmiş məməsini əmib yatdı... Ağa neyşə uşağa bu adı qoydu?

...Küçədən hənirtilər kəsildi, bir azdan sonra Meşədi Qənbərgildən Minasoltanı ötürənlər gəlib çıxacaq, yenə də fürsət əldən gedəcək... Seyyid isə Ceyran üçün şərait yaratmaq, ürəyindəkiləri bilmək istəyirdi. O ikiqat salınmış yorğanın üstündə uzandı, mütəkkəni itələdi, süfrəni yığışdırıb qurtarmış Ceyranı yanına çağırdı:

– Bura gəl, Ceyran, bax, bura, bu mütəkkəni o yana elə, – deyə Ceyranı yanında əyləşdirdi, başını ilk gəlinlik gecəsində imiş kimi qıpqırmızı qızaran arvadının dizinin üstünə qoydu:

– Hə, bax belə... İndi danış görüm nə var? Ürəyini yeyən nədi, Ceyran?!

Ceyran əlini ərinin ağ tikmə araqçınlı başına qoydu, gicgahlarını tumarlamağa başladı. Seyid Əzim bu balaca qayğıkeş əli tutub yanağına sıxdı:

– Hə, başla görüm...

Ceyran, nəhayət ki, dilə gəldi. Neçə vaxtdan bəri ürəyinə dolanları açıb tökdü. O danışdıqca Seyyidin qəlbi sıxılırdı: "Bir bax, gör nəyi nəyə həml edirlər? Gör mənə hardan hücuma keçirlər?.. Nə eybi!.. O, Ceyranın əzablarına razı ola bilməzdi, onu sakitləşdirmək vacib idi. Hər şeydən əvvəl axı Ceyran uşaq əmizdirir... Şair çevrildi, üzünü Ceyranın zərif dizlərinə söykədi, əllərini tutub hərarətli öpüşlərə qərq elədi:

– Ceyran, əzizim, – dedi, – sən də onlara inanırsan? Məgər mənim bütün həyatım, gecəm və gündüzüm sənin gözünün qabağında keçmirmi? Sən məni haçan sərxoş, sərməst görmüsən? Səndən əvvəl, cavanlığımda bu olub, səndən nə gizlədim? Amma elə ki, varlığımı, kimə və nə üçün lazım olduğumu, əməllərimi, arzularımı dərk eləmişəm, bilmərə tərgitmişəm. İnan mənə!.. Qaldı... gözəllik... Sən özün bilirsən ki, mən gözəllik aşiqiyəm, Ceyran! Şeir və gözəllik aşiqi. İncəlik, məhcubluq, nəciblik aşiqiyəm! Xah insanda, xah təbiətdə, xah bəşərdə, xah kainatın başqa zihəyatında... Güllərdə, çiçəklərdə, dağlarda, dərələrdə, çəmənlərdə, xah kişidə, xah övrətdə... Məgər sən bunu bilmirsənmi, əzizim, mehribanım, Ceyranım?

Aşiqinin sözləri qəlbinə incə bir musiqi kimi zövq verən Ceyran dilləndi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilirəm!.. – O tək bir söz dedi, o eşitmək, dinləmək istəyirdi...

– Bilirsən... Məgər körpə bir uşağın ilk təbəssümü mənə, təzəcə açılmış bir qönçə kimi, gözəl bir musiqi, zərif bir şeir kimi, ətirli bir reyhan, nəcib bir gəncin nazik rəftarı, dərin əqli kimi, eyni bərabərdə zövq və fərəh vermirmi? Sən ki, bunu bilirsən...

– Bilirəm!..

– Amma yenə də... şübhələr, qəbih sözlər qəlbinə yol tapır... Axı bütün bunlarsız insan cahildir, ölüdür, Ceyranım... Sənin o qədər dərin-dərin iman bəslədiyin cənab Əli deyib ki: "Və filcəhli qəbləlmoti motün iləhlihi və əcsədühüm qəbləl-qüburi qüburun", – yeni cahil adamlar ölümlərindən əvvəl cəsəddirlər, qəbrə girməmişdən qabaq elə qəbirdədirlər, diri ikən... Sən cahil adamların sözlərinə, qiybətlərinə fikir vermə...

– Verməm...

– Deyirsən... hər danışığımızda, hər söhbətimizdə bu məsələlərə qayıdıram, amma yenə də xala-bacılar, bibi-cicilər sənə üstün gəlir. Sən vaxtın olanda oxumağa fikir ver, kitablara bax, onda daha yaxşı başa düşərsən...

– Baxaram...

Həyətdən hənirti eşidildi, deyəsən, Minasoltan qayıdırdı. Ceyran qayınanasının gəlişini duyunca cəld hərəkət etdi. Seyid Əzim Şirvani başını arvadının dizinin üstündən götürüb, mütəkkəyə yaslandı. Ceyran qalxıb qapıya çıxdı, qayınanasını qarşıladı. İçəri girən arvadın çadrasını alıb bükdü:

– Hələ yatmamısan, bala? Yorulub əldən düşmüsən ki... Get uzan, dincəl... Obaşdanlığı mən hazırlaram. İftar eləmisən?

– Bəli, məmə...

– Ağa necə? Çaydan-zaddan vermisən?

– Bəli, məmə...

Şair anasını görüncə gülə-gülə soruşdu:

– Hə, məmə, necə keçdi səninçün?

– Lap yaxşı, bircə siz sarıdan nigarandım?

– Bizə nə var ki, oturmuşuq özümüzçün...

– Ac-acına...

– Elə neyşə, məmə, əməlli-başlı şam eləmişik. Sənin gəlinin də özünə oxşayıb, heç adamı ac qoyar?

Tərifdən utanan Ceyran Öməri beşikdən götürüb əmizdirmək üçün uşaqlar yatan otağa keçdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyid Əzim də qalxdı, divardakı taxçaya düzülmüş kitablarını araşdırmağa başladı. Burada onun səyahət zamanı aldığı, Qırmızı Qulam vasitəsilə əldə etdiyi kitablar və əlyazmaları düzülmüşdü. Burada Xaqaninin "Töhfətül-İraqeyn", Nizaminin "Xəmsə", Firdovsinin "Şahnamə", Sədi, Hafiz, Füzuli və Nədimin divanları ilə yanaşı, Cəlaləddin Ruminin "Məsnəvi"si, Rzaqulu xanın "Rövzətüs-səfa"sı, Şəbüstərinin "Gülşəni-raz"ı, "Qamus", "Əxtəri-kəbir", "Gülüstan", "Şərhi-mütəvvəl", "Fiqh", "Tarixi-Cahanara" kimi onlarla başqa mənzum və mənsur kitablar, tarixə, ədəbiyyata, dilə-sərf və nəhvə aid, Şərqdə məşhur olan müxtəlif əsərlər toplanmışdı.

O bu gecə işləyəcək idi, həm də çox işləyəcəkdi. O atılan tənə oxlarının mənbəyini bilirdi. Alışlar, molla Qurbanqulular, Qapaqlılar, Abidlər onu xalq içində xarü zəlil eləyə bilməyəndə, əllərini içəri, onun ailəsinin daxilinə, arvadının qəlbinə uzadır, bu pak, təmiz ürəyi şübhə, qorxu hissləri ilə yaralamaq, ürkütmək, onun vasitəsilə Seyyidi susdurmaq istəyirdilər? "Yox, bu olmayacaq, ağalar, Seyyid yaşayır və yazır. Seyyid sizin iç üzünüzü, xəbis qəlblərinizi, napak niyyətlərinizi yaxşı tanıyır və nə qədər canında can var, sizin mənfur daxilinizi açıb xəlqə göstərəcək, sizi rüsvay-cahan edəcəkdir!!!"

Yuxusuz gözlər oxuyur, yorğun əllər, barmaqlar yazır, xalqının tərəqqisini dərindən arzulayan ürək çırpınırdı. Bu gecə Seyyidin evi və başı üzərində ilham mələyi, pərilər soltanı xüsusi bir ahəng və həvəslə uçurdu...

Aralıda, yan otaqda Ceyran balalarının yanında dirsəklənmişdi. O, ana, o, baş yoldaşı idi, yorğun olsa da, yata bilmirdi. Nigarançılıqla, mürgüylə oyaqlıq arasında, Seyyidin otağından gələn hənirtiləri dinləyirdi. Birdən qalxıb ocağa bir xışma üzərlik, düz və atil-batil atdı, Allaha yalvarmağa başladı: "Allah, mənim Ağamı yerin-göyün bəlasından hifz eylə! İlahi, Mircəfərimlə Həcərimin atasını şərri-şeytandan, quru böhtandan, arsız-qırsız adamların bəd nəfəsindən, tənə-tərizindən xilas elə, öz pənahında saxla!" Ayişəylə Ömərin adını çəkmədi. O, qızı nə Minasoltan kimi Fatma, nə də atası kimi Ayişə adlandıra bilmir, sadəcə "qız", Ömərə isə təkcə "çağa" deyirdi.

Şair isə qarşısındakı çıraq kimi için-için yana-yana işləyirdi.

...Əgər Seyyidin başı yazıya qarışıq olmasaydı, yəqin ki, o da bizim dilimizlə, Füzuli ahəngilə deyərdi: "Ya rəb, xalqımın məhəbbətini qəlbimdə daha da əfzun eylə. Onun yolunda bəla artdıqca, mən bu bəla-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dan qorxmuram. Artır bəlanı! "Mən istərəm bəlanı çün istər bəla məni!" Qoy bu məhəbbət məni yaxıb yandırsın! Qoy, mən şam kimi yanım. İndi məni tək-tək vətəndaşlarım anlayırsa, zaman gələr, ellər, kütlələr anlar məni! Dərk edərlər ki, Seyyid onların səadəti, maarifi, gözlərinin dünya işlərinə açılması yolunda nə zülmlərə, cəfalara dözmüşdür! O heç nədən qorxmamışdır:

Bəndi-bəndim kəsələr eyləmərəm tərki-fəğan,
Qoy nəva ney tək edim, ta nəfəsim var mənim.

Mürği-baği-mələkutəm, qəfəsi-çərx əsir,
Bu əcəb, təng olan gör qəfəsim var mənim.

Bikəsəm aləm ara, dərdü qəmindən özgə,
Nə həvadarü, nə yavər, nə kəsim var mənim.

Etmişəm gərçi bu dəm aləmi-nasutu vətən,
Ey könül, böylə deyil, pişü pəsim var mənim.

Karivan getdi, könül, qafil edirsən nalə,
Dəmbədəm naləvü bangi-cərəsim var mənim.

Mövti-cismani ilə sanma mənim ölməyimi,
Seyyida, ölmənəm, aləmdə səsim var mənim!

Şair düşünürdü: "Yox, məni ölümlə hədələyənlər nahaq yerə canfəşanlıq edirlər. Mən tək deyiləm: sələfim də xələfim də var! Məndən əvvəl və məndən sonra gələn tərəqqi aşiqləri var və olacaqdır, baqidir. Cənablar, ağalar, məni nahaq yerə ölümlə hədələyirsiniz! Mən ölsəm də, nəvalarım Hacı Hüsünün, Məmmədhəsənin səsində səslənəcək. Məclislərdə, tərəb əhli Seyyid adını unutmayacaq! Amma yenə də əsil məsələ bunda deyil. Sizi qorxudan, ürküdən mənim qəzəllərim deyil, sizi qorxudan başqa şeydir. Onları yazmaq lazımdır..." deyə şair, yeni kağız götürdü, qələmini çərtməyə, ucunu naziltməyə başladı. Qamışın içərisindən çıxan incə teli qeyri-ixtiyari, qədim şagird adətilə ağzına atdı. Şirin bir tam dimağına yayıldı. Mədrəsədə uşaqlar deyərdi ki: "Hər kim qələmin içindən çıxan teli yesə, "yaddaşlı olar". Bəlkə "elə buna görə də ağalar, sizin bəd əməllərinizi unuda bilmirəm. Bu qələmin mənə təlqin etdiyi yaddaşdandır ki, yetim malını həzmirabedən keçirən Molla Qurbanqulunu, yeganə övladını Vətəndən didərgin salandan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonra belə, tərəqqi qatili kəsilib qalan Qapaqlını, bütün gözü açıqları babi elan edən meşədi Qənbərləri unuda bilmirəm..."

...Təzə qələm, ağ kağız üzərində işlədikcə yeni-yeni, "Köpəyə ehsan" verənlər, öz xeyrində olanda şeytanı belə müqəddəsləşdirənlər rüsvay edilirdi...

Minasoltan gecə namazı üçün həyətə çıxanda hələ də Seyid Əzimin otağından işıq gəlirdi: "Yazır, ceddinə qurban olduğum, bu orucluqda da canına qəsd eləyir!" Ana təşvişlə otağa girdi:

– Ay bala, hələ yatmamısan? Haçanacan, ay bala? Yorulub usanmadın bəyəm?

– İndi yatıram, məmə, narahat olma... hə, yadıma düşdü, məmə, səhər namaza duranda Şirinə de ki, atı hazırlasın, bir səfərim var...

– Xeyir olsun, haradı?

– Ağaməmmədliyə, ay məmə...

– Məmə sənə qurban olsun, bala! Bu orucluğun içində nə səfərdi? Hə?

O mehribanlıqla anasının üzünə baxdı, əllərini əlinin içinə aldı, demək istəmədiyi sözləri deməyə məcbur oldu, amma səsini elə qısdı ki, Ceyran eşitməsin "Allah heç kişini əhli-əyal yanında xar eləməsin, pulsuzluq imtahanına çəkməsin", deyiblər:

– Məmə, Kərəm bəy Ağaməmmədlidən mənə bir az taxıl söz vermişdi, bir də bir inək... Xeyli vaxt keçib, deyirəm, bəlkə yadından çıxıb, ya yollaya bilməyib başqa bir səbəbdən, yol palçıqdı nədi? Dənimiz də azalıb. O gün Şirin də deyirdi. İndi fikirləşdim gedim: "Üz-üzdən utanar, bəlkə söz verdiklərini verdi. Onda uşaqların südü də, çörəyi də olar, Ramazan gedir, qabaqdan qılınc kimi qış gəlir axı... Sonra havalar bərkiyər, gedə bilmərəm, nə qədər payız quru keçir, yol yaxşıdı... sonra göylərin fağır heyvanlara rəhmi gələr, yağar elər...

Ana əlləri qoynunda dilləndi:

– Təki yağsın...

– Hə də... onda heç gedə bilmərəm...

– Bala, Allaha pənah! Bəlkə bu orucluğu gözləyəsən, səfərə çıxmayasan. Bir yandan bağlayanda, o biri yandan açar... Allah kərimdi!

İncə, kinayəli bir təbəssüm Seyyidin dodaqlarını əydi: "Allah kərimdi, Allah kərimdi, quyusu da elə dərindi ki, düşən çıxmır. Al-lah kərimdi!.. Necə?.. Al-lah kərimdi?" Birdən onun qəlbində bu məlum sözlər ürək kimi döyünməyə, bir təqt ilə şerə çevrilməyə başladı, o matı-qutu qurumuş anasına deyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevdalərə düşdüm, dedim: Allah kərimdi!
Gər yandım, alışdım, dedim: Allah kərimdi...
Seyyid, dolanıb gün təki məcmui-cahanı
Dəryaları aşdım, dedim: Allah kərimdi!

– Hə, ana, qayıdanbaş Qaravəlliyə dəymək niyyətim də var. Məndən nigaran olma. Qaravəlli qonağımız Heybət kişi məni oğlunun toyuna çağırıb... Elə yolu qurtarıncan Ramazan da qurtarar, toya çataram.

– Allah mübarək eləsin...

Lakin ana hamısını başa düşdü. Dərindən ah çəkib əlini oğlunun kürəyinə sürtdü:

– Neynək, get! Allah işinə fərəc versin... – Elə bil ananın əlindən oğlunun kürəklərinə bir qüvvət axdı. Gözlərindəki kədəri dağıtmaq üçün o, sözü zarafata salmaq istədi:

– Allah verincən, Kərəm bəy versin, ay ana!..

– Bıy, əstağfürullah elə, oğul! Allah ürəyinə rəhm salmasa, Kərəm bəy neynəyə bilər?!

...O qələmdanı yığışdırıb, səhər sübhdən səfərə çıxacaqdı....Odur ki, bir az yatmalıydı...

Şair çırağı söndürdü, amma ananın ürəyi səhərəcən səksəkəli, vəsvəsəli qaldı: "İlahi, balamın işini avand elə, yolunu yüngül elə, işinə fərəc ver! Getdiyi yerlərdən xeyir görsün! Bari-pərvərdigara, sən özün Kərəm bəyin ürəyinə rəhm sal, balam külfət yanına əliboş, üzüqara qayıtmasın..." O səhərəcən bir neçə rükət qəza, hacət və nafilə namazları qıldı, sübh namazı da hacət namazlarına qarışdı.

...Şair yuxudan oyananda, Şirin Abdulla onun atını alığlamış və hazır qapıya bağlayıb işinə getmişdi.

Tabağı yırğalaya-yırğalaya küçədən keçən Yetim Hüseyn oxuyurdu:

Şirvandan təhərim var,
Altımda kəhərim var,
Əyil üzündən öpüm –
Bir ağır səfərim var...

Anası dalınca qırxhaçar camından su atırdı... Onun gözləri Ceyrana sataşdı, şair böyük bir məmnuniyyətlə həmin mahnını Ceyrana oxuyar və orda deyilənləri yerinə yetirərdi, amma həya... O, həsrətli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baxışlarını gəlindən qayınanaya çevirdi: "Salamat qalın, ana", deyib atı dəhmərlədi.

...*Yol uzun, o isə tək-tənha idi... Şair xəyalı təkmi olur?* *O öz tükənməz*, bitib qurtarmaz xəyalları ilə özünə həmsöhbət tapır, yola nərdivan qoyur, ürəyində keçmişi, gələcəyi qarşılaşdırır, dostu dost, düşməni düşmən dililə danışdırırdı. İndi həmişəki kimi... Xəyallar... xəyallar... Yollar kimi bitib-tükənməz, uzun, yorucu ağır xatirələr... Elə onda Seyid Əzim külfət dərdi, ruzi dərdi ilə səfərə çıxmışdı... Amma necə? İndi bu necəyə cavab verirkən, o ağır qışdakı acı bir gün gözlərinin önündə canlandı:

Şair axşamdan bəri uşaqlara o ki, var nağıl demiş, şeir oxumuş, lətifə söyləmişdi, amma "ac qılınca çapar", əlindən bir şey gəlməmişdi, o uşaqları ovundura bilməmişdi. "İlahi, nə yaman dərddir aclıq dərdi. İlahi, məni aclıqla imtahana çəkmə! Mən bu dilsiz-ağızsız körpələrin üzünə baxa bilmirəm. Mən Ceyranın solmuş simasını seyr eləyə bilmirəm. Anamın məndən gizlətdiyi baxışlarına nəzərim toqquşanda xəcalətdən yer ayrılmır ki, içinə girim".

...İndi artıq ana və nənənin dilə tutub ovundurduğu uşaqlar bitab düşüb uyumuş, səksəkəli, həyəcanlı bir yuxuya getmişdilər. "Ceyran, sübh əzanında deyirsən? Doğrudan? Şirin dayı gətirəcəy? Yox? Onda bəs kim? Xortdan? Damdabaca? (o vaxt uşaqlar lap kiçik idi) Eh, heç onlar da adama şey verər? Yəqin Ağam gedib alacay!.." Ana zəif təbəssüm, ehmal sığallarla bu xırda başları, incə ürəkləri ovundurmuşdu. Sonra Ceyranla məmə o biri evdə oturub nə isə pıçıldaşırdılar. Yəqin ki, dünən Şirini hardansa gətirdiyi azuğu lobyanı qaynatmaq haqqında məsləhətləşirlər. Gəlin deyirdi:

– Məmə, gəlsənəm, o boranını da kəsim vurum böyrünə, bir sıxma axta zoğalı da varımızdı, eləyim pırtdama-qəlyə.

– Yox, ay bala, – deyə Minasoltan dərindən köksünü ötürdü. Təcrübədən bildiyi şeyi güclə dodaqlarına gətirdi – başına dönüm pırtdama iştah açar, onun gözünə bir parça əppəyi də lazımdı axı... Yox, elə *qoy lobyanı tək bişir: duzla, mədə tutandı, ürəklərin tutar*. Boranını da elə-belə parça-parça bişir, qoyarsan təndirə... Yox, mən nə deyirəm, ay bala, heç belə vaxtda bir parça boranı üçün də təndir qalarlar? Qoyarsan kürədə, tavada bişər gedər...

...Xudaya-xudavəndə ömrüm uzunu sənə yalvarmış, əlimdən gələni eləmiş və məni namərdə möhtac eləmə demişəm:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xodavəndə, behəqqi şahi-mərdan
Məra möhtaci-namərdən məgərdan...[1]

Bəs budurmu sənin ədlin, ya rəbbi, əgər sən varsansa, niyə o gül üzlü, günahsız körpələri ac qoyursan? Onlar sənə neyləyiblər? Elə Molla Qurbanqulu demişkən tutum ki, mən günahkar bəndəyəm: sənə layiqiynən dua eləməmişəm, namazımı keçirmişəm, orucumu yemişəm. Bu mənim günahım. Mənə özün o dünyada nə cəza verərsən qailəm. Bəs onlar, bəs məməm ki, ömründə bir gün oruc yeməyib, bir vaxt namazı qəzaya qalmayıb, hələ hər gecə qıldığı hacət namazları ilə nə qədər sənin dərgahına əl açıb? Bəs Ceyran, o süd əmizən, körpələr pənahı ana! Süd verə-verə oruc-namazın keçirməyib, hər əlini qaziyəl-hacata qalxızanda, "ilahi deyib, balalarıma yazığın gəlsin! Ruzilərini bol elə! Ərimi külfət yanında xəcalət eləmə!" Budurmu sənin ədlin, ya rəbbi? Budurmu sənin böyüklüyün! Ey cəbbar, qəhhar, qadir, kərim Allah!.. İndi mən hara üz tutum?.. Bu sözləri şair ondamı demişdi, ya indi ürəyindən qopurdu nə fərqi var ki: elə köhnə hamam, köhnə *tas, heç nə dəyişməyib...*

...Bayırda yel elə uğuldayır ki, elə bil yüz min canavar birdən ulayır, yüzlərlə çaqqal birdən qəhqəhə çəkirdi... Tufan qalxmış, dağların-daşların üstünü bir neçə gündən bəri örtmüş qarı qalxızıb havaya sovurur, yeri-göylə birləşdirirdi, qar yağmırdısa da, elə bir çovğun idi ki, göz-gözü görmürdü. Hamı axşamdan evlərinə çəkilmişdi. Var evlərində kürsülər buğlanırdı, manqallarda qızarmış köz kömürlər kürsülərə uzadılmış ayaqları qızdırır, xoş istini cana yayırdı. Kürəklər mütəkkələrə, başlar nazbalışlara söykənmiş, kürsü yorğanları çənələrəcən çəkilmişdi. Arabir kürsünün üstündəki lahıc məcməyilərinin içində qorğa, ləpə, iydə, ləbləbi-kişmiş, innab kimi xuşkabar götürüb ağzına atan kim, kürsünün cəhəngində isti saxlanılan çaydanlardan çay süzüb içən kim, yağlı, xuruşu pilovları iştəha ilə içəri ötürənlər kim idi... Əlbəttə, bu varlı, var evləri idi... Bəs bizdə nə var?.. Ceyran əllərini hovxura-hovxura axşamdan bəri kömür xəkəsindən düzəltdiyi xəkəgülləri min əzabla qızartmış, manqala yığmışdı. Qoru, dəmi çıxmış manqal kürsünün altında haçandı ki, keçmişdi. İsti külü qurdalamaqdan bir şey çıxmayacaqdı. Qızardıb manqala əlavə eləməyə yararlı kömür yox idi. Səhərə yaxın kürsü buza dönəcəkdi. Ac uşaqların canını soyuq

[1] İlahi, şahi-mərdan xatirinə, məni namərdə möhtac eləmə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

alacaqdı, Ceyran gərək səhər obaşdandan da əvvəl duraydı, qalan xəkə-güllələri daldada qızarda bilsə, gətirib kürsüyə qoyaydı. Uşaqlar oyanmamış, canların soyuq almamış...

..Dərd Seyid Əzimin ürəyini almışdı... "Getməliyəm... Hara olsa getməliyəm. Səhər onların gözlərini bir də elə bu gecəki kimi görə bilmərəm... Nağılnan gecə ovundurdum, gündüz ovundura bilmərəm..." Bu gecə Şirvan evlərindən neçəsində balalar belə yatmış, neçəsində belə ataları xəcalət təri basmış, neçəsində belə analar, nənələrin gözlərinə yuxu girməmişdi? Kim bilir... Tarix bu haqda bir şey yazmır... Təkcə "quraqlıq ilinin ağır nəticələri..." "Məşhur aclıq ili" deyib keçir... Biz də keçəkmi, dostlar? Bu olan iş deyil. Biz sizinlə sözləşmişik ki, tarixin geri dönməyən, kitab səhifələrinə girmiş günlərinə mütləq nəzər salacağıq... Biz o günləri bircə-bircə olmasa da, gözdən keçirəcəyik... Gəlin qalın geyinək, nağıl həvəsli nənələr kimi ayağımıza dəmirdən çarıq geyək, əlimizə dəmir əsa alaq... Yol uzun, səfər ağırdır...

...Sübhün gözü açılmamış Ceyranın və Minasoltanın hənirtisi gəlirdi. Seyid Əzim yerindən durdu. Qalmığı dəridən papaqçı Əliqulu kişinin tikib Ağaya hədiyyə elədiyi (Allah bilir ürəyində nə niyyətə vermişdi, xüms idi, nə idi) börkü başına qoydu, çuxanın üstündən sarı, Xorasan kürkünü geydi. Dəstəgül arvadın toxuyub pay göndərdiyi yun şətelləri və şibletləri ayağına çəkdi. Yaqsay dostunun bağışladığı ağ başlığı börkün üstündən başına doladı və nağıllarda deyildiyi kimi altdan geyinib üstdən qıfıllandı və həyətə çıxdı. Ceyran xəkə-güllə qızardırdı. Manqal həyətdə tüstülənirdi. Qar dayanmış, külək azalmışdı, təbiət ayazlı, sazaqlı, şaxtalı, amma aydın bir səhər vəd edirdi. Ağanı yaraq-əsbablı, əli ağaclı, çiyni kürk və başlıqlı həyətdə görəndə Ceyran da, Minasoltan da təəccübləndilər. Ana yenə də həmişəki sualını verdi:

– Hara belə, oğul, xeyir ola...

Ağa gözlərini uzaqlara dikdi; o baxışlarını anasından və Ceyrandan gizləməyə, qaçırmağa çalışırdı.

– Xeyir olmamış nə var, lənət şərə... Balaca bir gedən yerim var.

– Uzaqdımı, dərdin alım?

– Yaxşı bilmirəm, məmə, bir az geciksəm nigaran olma.

Ana hər şeyi anladı...

– Yaxşı, get, Allah xeyir eləsin...

"Çox sağ ol, ana, yaxşı ki, özün başa düşürsən, sənə daha izahat nə lazımı?"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Salamat qalın...

– Allah amanında... – O adəti bir hərəkətlə oğlunun ardınca bir cam su atdı...

İrəlilədikcə indicə arxasınca göz yaşlarını gizləyib su atan ananın əziz surəti canlanır, o getdikcə bu surətdə qarşısında yol göstərən canlı-qanlı bir bələdçi kimi irəliləyirdi. Şairin ürəyi öykələnir, ananın halını düşünürdü: "Mənim anam, zəhmətkeş anam, cavanlığını, həyatının ən əziz günlərini yolumda qurban verən anam! Əvvəl məni, indi də balalarımı yiyələnib böyüdən, pərəstarım ana! Qadınların ən nəcibi, anaların ən şərəflisi, fədakarı anam! Əgər Məhəmmədin dinindən üz döndərsəm, cəddim rəsulallahın bütün fikirlərini rədd edib, düşüncələrini inkar etmiş olsam belə, insanlara, xüsusən qadınlığa qarşı bütün haqsızlıqları, zülmü, hicabı, cəhaləti ona tək bircə cümləsi üçün bağışlardım: "Əlcənnətü təhtə əqdamil-ümməhat" – behişt dedikləri yer anaların qədəmləri, ayaqları altındadır. Sənin kimi anaların, ana! Ana adını daşımağa layiq olan qadınların ən nəcibinə, sənə qurban olum, mənim arxam, köməyim ana!"

Beş bayatım var, dostlar... beşi də ana diliylə qoşulub. Bir görün necə də yaraşır. Minasoltan anaya... Seyyidin anasına, şairin anasına...

Minasoltan onun ardınca su atırdı... Bu neçənci dəfədir? Görəsən, dostlar, ana oğul dalıycan neçənci dəfə su atır, ömründə nə qədər atıb bu qırxhaçar camıyla su?

Şirvana binə gəlləm,
Gedərəm genə gəlləm,
Bir də üzünü görsəm,
İmana dinə gəlləm.

Bu ana gözləri nə qədər yollara dikilib, yollarda qalıb? Nə qədər yol çəkib bu gözlər? Ətrafına xırda qırışlar düşmüş, bu mehriban, sevən gözlər.

Oba keçir çaxnaqdan,
*Sular doymaz axmaqdan,*
Gözlərimə tor gəlib,
Yollaruva baxmaqdan.

Bu ürək nə qədər hicran aləminə dözüb, vüsal həsrətilə çırpınıb?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arazıyam adanın,
Quluyam şahzadanın,
Çıxaydım, qabağına,
Sənə gələn qadanın.

Bu qulaqlar nə qədər addım səsində qalıb? Yüz addım səsindən birini ayırmağa çalışıb, birinin səsini tanıyıb yüz addım səsindən.

Yol üstə kor bulağam,
Bağrı sulağ-sulağam,
Hansı yoldan gələsən,
O yola göz-qulağam.

Bu dil-dodaqlar nə qədər "bala" pıçıldayıb? "Bala" deyib göylərə yalvarıb, "bala" deyib Allaha yovuncuyub. Pir qalmayıb sadağa getməsin, övliya qalmayıb canını qurban deməsin.

Bala, bala bal dadı,
Balam adam alladı,
Şirini şirin olur,
Acısı da bal dadı.

– Uşaqlardan...

– Nigaran getmə oğul, evdə bir az un qalıb, bişirrik, boranı da var. Sən işində ol. Arxayın get...

"Kaş arxayın gedə bileydim, kaş gedə bileydim..." O, darvazadan çıxdı. Sübh əzanı Kəblə Mürvətin yanıqlı zəminxarası... "La ilahə illəllah, Məhəmmədən rəsul-Allah. Əmirəl-möminnəi Əliyyən-vəliyyullah... La hövlə vəla qüvvətə illa billah" bu da məhəllənin istəklisi, Qalabazar hamamının daimi müştərisi, əli qələmkar boğçalı, kəfşduz Meşədi Qəmbər idi... Seyid Əzimi görcək təkbirini kəsdi, seyid üzünə çıxmışdı, bu təsadüfü xeyir fal kimi qəbul elədi.

– Bay salam-əleyk, Ağa, cəddüvə sadağa gedim... Nə əcəb bu sübhdən, yoxsa sən də hamama buyurursan?

Seyyid qəlbində gülümsədi, "bəh-bəh bitib hər bir yarağımız, qalıb saqqal darağımız, elə bircə bu havada boş qarına hamamımız əksikdi? Kişi sən dəstgahsan, vallah, ruhun var... Əhsəntü".

– Xeyr, balaca bir səfərim var...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Allah xeyir versin... Amma, Ağa bu havada nə səfərdi? Bu havanınkı odu ki, oturasan evdə, verəsən özünü kürsüyə, dalını da söykəyəsən nazbalışa. Qoyalar qabağına sarıbuğda unundan çalınmış xəşili. Ağ şanı bəkməzinə bılayıb yeyəsən. Ya da ən yaxşısı Minasoltanın çaldığı quymağın üstünə tökəsən darçın, zəncəfil və quluncanı, vurasan bədənə, canın qızışa... Səninki budu. Yoxsa, şair babasan dükanda işin yox, bazarda işin yox, bir dərdin yox bizim kimi! İndi mən bir azdan sonra dükana getməliyəm, səninki isə evdi...

Seyid Əzim bu kəvəzəliyə cavab tapa bilmirdi: "Bəli, içərim özümü yandırır, çölüm sənin təkisini. Sənin o Allahın quymağ əvəzinə körpələrimə bir az əppək əta eləsə, toy bayramım olar... Damağlı kişisən, vallah!.."

O qədimki adətini tərk etməyib, meşədinin ruhuna uyğun bir zarafat elədi. Bu zarafatda Meşədi Qənbərin çətin anlayacağı elə acı bir istehza var idi ki!.. dedi:

– Bəli, meşədi, elə şair də gözəl buyurub:

> Atəş kənarı, kürsü qıçı, dilbərin üzü
> Tanrı bilir ki, qış gününün laləzarıdı.

Meşədi Qənbər qəhqəh çəkdi:

– Aadə, bu elə mənim malımdı ki... bəh-bəh, "atəş kənarı, kürsü qıçı, dilbərin üzü..." Mölüm kimindi? Yoxsa cənabınındı, Ağa?

– Xeyr, meşədi, məndə elə tavana hanı? Seyid Əbülqasim Nəbatinindi.

– Hə... O da sənin kimi seyiddi?! Amma gözəl deyib. Allah rəhmət eləsin...

– Eləsin, amma ölüb ölməməyini bilmirəm...

– Neynək, diriyə də rəhmət var... Yaxşı zövqü var kişinin.

Meşədi xınalı-fındıqçalı barmaqları ilə çırtmıq çalar kimi bir hərəkət eləyib, şiş papaqlı başını şerin ahənginə uyğun tərpədə-tərpədə bir də misraları təkrarladı. Əzbərləyirdi.

– Bəli, zövqü var!.. Amma həsrətnən yazıb, meşədi! Deyəsən bu şeylər onun da qisməti olmayıb, əlinə düşməyib. Yoxsa belə yanıqlı deməzdi...

Yol ayrıcına çatdılar... Şair tələsirdi, o sübh namazının dəstəmazını hamamda almağa gedən Meşədi Qənbər ilə yol yoldaşı ola bil-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məzdi. Odur ki, kişinin nə isə soruşmağa hazırlaşdığını görüb, özünü bilməməzliyə vurdu, dedi:

– Məni bağışla, meşədi, tələsirəm, səhhəti-vücud cənabına, mənim yolum bu yanadı...

Seyid Əzim Qalabazar hamamına bir tingə qalmış Meşədi Qənbərdən ayrıldı. "Nə qədər hava babatdır, özümü gərək Göylərə yetirəm. Doğrudur, yol üzüyuxarıdır, amma nə olsa axşama gedib qayıdam gərək. Çoxdandı dostum Hacı Nüsrəddini görmürəm. O məni bir az görər. Ondan özgə indi dərdimi heç kəsə deyə bilmərəm. Dayı cənab Mahmud ağaya da deməyə dilim varmır. Keçən mənzuməni göndərəndən bəri bir ay yarım keçib, bir şey əta eləmədi. Ya yorulub-usanıb, ya da yadından çıxıb. Bu axır vaxtlar mənim o məclislərə getməyə halım da yoxdur. Gözünə də görünməmişəm ki, bəlkə yadına düşə... Nə isə, Allah şeytana lənət eləsin... Görək Meşədi Qənbər dadaşın üzü bizə də yaxşı bir fal olacaq ya yox..."

...O, şəhərdən çıxanda artıq hava çoxdan aralanmışdı, dağların qarlı zirvələri firuzəyi səmada ağ pambıq qalaqları kimi ap-aydın nəzərə çarpırdı. Əvvəl çox yüngül nəfəs alırdı, lakin yoxuşa qalxdıqca nəfəsi təngişməyə başladı, başlığın bağını boşaltdı... Deyəsən alnı da tərləmişdi. Kürkün cibindən dəsmalını çıxarıb alnını sildi, isti nəfəsi qırova dönüb bığlarına və xəttinə çökmüş, tüklərini codlaşdırmışdı... "Qəribədir, bir sifətdə iki iqlim? Papaq altında alnım tərləyib, açıq qalmış sifətim buz bağlayıb", – deyə dəsmalla bığ və xəttini də sildi. Dəsmalı qatlayıb cibinə qoyanacan əlləri buzladı. O əllərini ağzına tutub hoyxurdu, barmaqlarını azca qızdırıb əllərini çalın-çarpaz kürkün qoluna keçirtdi... Kiçik fasilə dayanacaq onun qüvvəsini az da olsa bərpa elədi, dincini alan kimi oldu. Və yenidən irəlilədi. Yol indi dağa tərəf qalxır, yoxuş sərtləşirdi. O, əsasını qalın qara batırır, əvvəlcə qar altındakı çala-çökəkləri yoxlayır və aram-aram irəliləyirdi. "Belə getsəm, axşama gücnən Hacı Nüsrətgildə ollam", – deyə düşündü. Yenə də durdu. Uzaqdan, durduğu hündürlükdən arxaya, keçdiyi yola baxdı... Təbiət ağ cuna bürünmüş, yorğun bir pəri kimi yatmış, dərin yuxuya dalmışdı. Uzaq obaların üstündən nazik-nazik mavi, qara-mavi tüstülər tütürdü... Yollarda, dönəm-dönəm keçdiyi, hər qarışına bələd olduğu bu dağlarda, dərələrdə bir nəfər də yox idi....Nə isə, nə cins... bir canlı belə... Mal-qara tövlələrdə, insanlar daxmalarda... Ağaclar ağ qalın qar yorğanının altında uyuyurdu... Təkcə mənim şairimdir yollarda... Şirvandan çıxan yollardan birində...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Hava birdən-birə elə* partlaşdı ki, nadinc nəvələrin dolaşdırdığı kələf kimi... aç görüm necə açırsan, nənə... Çovğun çovudu, qar ələdi, firuzəyi göylərin üzünü tüstü kimi, duman kimi sıx buludlar aldı... hava çaxnaşdı... göz-gözü görməz oldu. Onun nəfəsi tıxandı, soyuq külək kürkün qollarından, yaxasından soxulub canını aldı, ürəyinə işlədi. Şagirdi Ələsgər *demişkən gözlərinin içində giləsi də donmağa başladı...* "İlahi, yazıq babam nə qədər haqlı imiş! "Qələm əhli həmişə zəlalətdə olub, külfət yanında üzüqara olub... oğul, bir sənətdən yapışmadın..." Bəli, bir sənətdən yapışsaydım, heç olmasa Məşədi Qənbər kimi bir kişi olardım. Bir parça çörəyim, ev-eşiyim olardı... Gündə bir siğə, ildə bir övrət, cəvanəzən... Lənət olsun o zəmanəyə ki, doğru danışanın papağının qulağı cırıqdır. Lənət olsun o zəmanəyə ki, həqiqət deyənin dili *kəsilir, əhli-beyti möhtac olur...*" Sözlər, *fikir-xəyallar Seyid Əzimi* isindirir, o hirslə-hikkəylə irəliləyir, indi artıq yolu görməkdən ziyadə hiss edərək gedirdi... Ay el, ay oba, ay gələcək nəsillər! Axı siz də mənimləsiz, dostlar! Gəlin elə hayqıraq ki, kor gözlər açılsın, şairi görsün!.. Batmış qulaqlardan tıxac çıxsın, sədamızı eşitsin! Korşalmış beyinlər ziyalansın, axı şairim zəlalətdədir, bərkə düşüb, qar-kirvə, yoxuş əldən salır onu, bir yandan da mənəvi ağrı... Əldən gedir şairim...

*O, əsasına dayandı... arxasını küləyə çevirib nəfəsini dərdi...*

– Ağa, cəddinə qurban olum, sən belə bivaxt çağı yol-iriz yox, yolda nə qayırırsan?

Səs Hacı Nüsrətdinin kiçik qardaşı Məhyəddinin idi. Seyid Əzim dərindən nəfəs almaq istədi, qar ağzına doldu. Gözlərinmi dolub, Seyyid, yoxsa külək yaşardıb onları?

– Sizə gedirdim, Məhyəddin, oğul, hava əvvəl bəd deyildi.

*Məhyəddin heç bir şey anlamadı: "Atsız, pay-piyada bu havada,* görəsən nə böyük vacib işi var ki, bu qargirvədə yola çıxıb? Allah xeyir eləsin! İlahi, cəddi ona niyə kömək olmur, belə nurani kişinin?"

Ağa cavanın baxışlarından qəlbindəkiləri anlayırdı: "Cəddimin gücü olsaydı, öz balalarını Kərbəlada qırıb, arvad-uşaqlarını Şamə əsir aparmazdılar".

Amma o bu sözləri indi cavana deyəcək halda deyildi. Həm, mövqe deyil, *həm də başqa cür tələqqi oluna bilərdi. Cavan isə artıq atdan* enmiş, üzəngini əvəz eləyən çatını basıb köməkləşmiş, donmaqda olan Ağanı navanın üstündə rahatlamış, çuxanın və kürkün ətəklərini altına tərəf basdırmışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O gün Seyid Əzim şəhərə girəndə qara xəbər qabağına çıxdı: Bu gecə şaxta Yetim Hüseyni Hacı Soltan Hüseyn hamamının külxanına sovub salıbmış... Bu gecə Şirvan şikəstəsi susmuş, xalq içində adı bilinməz şairlərdən biri ölmüşdü. Daha Bəzzazbazardan, Baqqalbazardan, şəhərin adlı məhəllələrindən – Sarıtorpaqdan, İmamlıdan, Minaxordan Yetim Hüseynin zümzümələri eşidilməyəcəkdi...

Soldu güllərim haray...
Susdu bülbülüm haray...

Yetim Hüseyn özü sağ olsaydı, yəqin ki, halva tabağını yelləyə-yelləyə bir ağı deyər, səsi dilsiz divarlarda, tozlu-torpaqlı yollarda, dibsiz göylərdə əks-səda verərdi:

Şamaxı vətənimiz,
Durmadı yatanımız,
Əl-ələ verdi getdi
Dili söz tutanımız.

"...Hə, o gün getsin, bir də qayıtmasın" – deyə şair bu gün, orucluğun içində, payız qapını aldığı bir zamanda, ağır uzaq yola çıxmışdı... O gedir, getdikcə də bircə şey düşünürdü: nə olur olsun, builki qış azuqəsini irəlicədən sahmanlayıb uşaqların başının altına qoysun ki, o keçmiş qəziyyə bir də başına gəlməsin. Yaxşı ki, o aclıq ilində Nüsrətdin kişi Seyid Əzimi dardan qurtardı, olub-qalanını onunla tən yarı böldü, quru qurtarıb yaş yetişməyən bir dövrdən külfətini sağ-salim çıxartdı... Amma indi... Yenə də qabaqdan qılınc kimi qış gəlir... Qar qapını alacaq. Ailə üzvlərinin üzünə aclıq "zəfəran rəngi çəkəcək... Yayda söz verən ağalar, payız xırmanı yığılanda ya sözlərini unudub əhdlərinə vəfa etmədilər, ya da... kim bilir... bəlkə elə qəsdcən, yeni bir tərifnamə, adlarını el içində qəni kimi ucaldan şeir qazanmaq üçün gözətlətdilər, onu... Borclu deyil ki, mənə xalq?.. Məktəbdarlıqdan qazandığım, məktəbin öz xərcinə güclə yetir..."

Xəyallar, xəyallar... yollar kimi enişli-yoxuşlu, yollar kimi dərəli-təpəli, çuxurlu-xəndəkli...

Şairə elə gəldi ki, pərilər soltanı hardasa, buralardadır! Başı üzərində qanad çalır, həmişə olduğu kimi, indi də onunla birlikdə səfərə çıxıb, onu yayda, – günəşdən qorumaq üçün başı üzərinə qanad gərib, kölgəlik yaradıb, qışda, – yapıncıya dönüb, bir parça bulud olub, ilik-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lərinə kimi işləyən soyuğun qarşısını kəsib... "Pərilər soltanı bu qayğılar, dərdlər səninlə bir də dərdləşməyə, sevişməyə imkan vermir, üzü qara olsun, zalım zəmanəni... Ey qoca Füzuli "Dərd çox, həmdərd yox, *düşmən qəvi, tale zəbun" ikən pərilər soltanından məhəbbət diləmək* zamanımıdır? İndi, mənim əziz sevgilim, indi mən artıq vaxtımın bir qismini ona-buna təriflər yazmaqla keçirməyə məcbur oluram..."

– Yox, doğru demirsən, əziz şairim, sənin məktəb uşaqları üçün yazdıqların nəsihətlər, mənzumələr, elmi, maarifi yaymaq üçün qoşduğun nəzmlər, düşmənlərinə meydan oxuyan dovtələb şeirlər bir yana, məgər mənim hüsnümü tərif və tərənnüm üçün azmı qəzəl inşad edirsən?

*Şair alnında xırdaca əlin, incə barmaqların təmasını, ağzında gül* qoxuyan, bahar nəsimli dodaqların nəfəsini duyan kimi oldu:

– Olur, niyə olmur ki... Amma yenə də özümdən razı deyiləm...

– Pərilər soltanı olduğum gündən bəri özündən razı olana rast gəlməmişəm. Sən nə əvvəlincisən, nə də axırıncı... Şair özündən razı olan gün ölür...

– Mənim narazılığım səndən və yazdıqlarımın hamısından deyil, *mən gələcək nəsillərdən utanıram!*

– Niyə, azmı iş görmüsən?

– Mənim zəmanənin güclülərinə əl açıb yazdığım mənzum məktublarımı oxuyanlar nə deyəcək? Mən babamın nəsihətini yerinə yetirə bilmədim. Bir əba, bir kürk, bir tağar buğda, bir illik azuqə üçün onabuna əl açdım, şeirlərimin bəzisindən yolçuluq tökülür, lənətləməyəcəklər ki? Gülməyəcəklər ki? Mənə alimi-biəməl deməyəcəklər ki?

– *Məgər sən əşarını yadigar qoyub getdiyin, amalını təlqinə* çalışdığın, inkişafı üçün bəlalər çəkdiyin xələflərini eləmi nankor hesab edirsən? Nigaran getmə, arxayın ol, anlarlar!

– Bəlkə də! Məgər onlar görmürlərmi ki, mən səkkiz baş külfət, nə qədər də borc qoyub gedəcəm... Yazıq Cəfərim onları necə yerbəyer edəcək? Hələ anam?

– Dedim ki, nigaran getmə, sənin xalqın sənə çıxa bilmədisə də, *övladına qahmar çıxar. Başsız qalan bir səninkilər deyil ki!..* Bütün bir xalq o haldadır!

...Yollar, tək-tənha yollar... Məgər şair xəyalı, tək qala bilər?! O öz zəngin təxəyyülü ilə özünə həmsöhbət də tapar... müsahib də!.. Yola nərdivan qoyar... pərilər soltanı indi ən yaxşı bir müsahib idi, onun söhbətləri şairin qəlbini ümid, fərəh və inamla doldurur, onun mübarizə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əzmini daha da gücləndirir, ürəyinə qüvvət, qəlbinə dəyanət, qələminə ziya, gözlərinə nur verirdi. Şair yolüstü kiçik bir bulağa rast gəldi. Atdan endi, atı yançıdar eləyib çəmənliyə buraxdı. Payızın bu ayında təpələr yazdan seçilmir, "pərilər soltanı, bir az əvvəl bu zümrüd donlu çəmənləri görmürdüm... Sağ ol, sən harda olsan, ilham da orda, zövqü səfa da ordadır". O, əl-üzünü bulağın sərin, göz yaşı kimi duru suyunda yudu, üstünün tozunu çırpdı. Yəhər-qaşı heybəni atın üstündən açıb bulağın başına gətirdi. Yol azuqəsindən bir azacıq yeyib, su içdi, sonra da qələmdan və kağız rahlayıb, heybəni dirsəyinin altına qoydu, üstünə dirsəklənib, ətrafı seyr etməyə və qəlbindən dodaqlarına süzülən əşarı yazıya köçürmək üçün xəyalını, qəlbini hazırlamağa başladı...

## QARAVƏLLİDƏ

Düzünü desək şairi buraya Abdal-gülab aşıqlarının adı, sorağı gətirmişdi. Şairin qaravəllili dostlarından Kəblə Heybət bir ay bundan irəli Seyid Əzimə ismarış göndərmişdi ki, nəvəm Quluya toy eləyirəm, hələl-həlbət gələrsən. Salayçı "aşıq kimdi?" sualına belə cavab vermişdi: "Qulunun baxtından Soltanəli bəy oğlunun toyuna Abdal-gülabdan aşıq çağırtdırıb, kişi də Soltanəli bəyə minnətçi salıb ki, izin ver, səndən sonra aşığın bizdə toy eləsin. Bəy də razılıq verib. Yoxsa Kəblə Heybət abırlı kişi olsa da, Abdal-gülabdan bura aşıq gətirə bilməzdi".

Oba payız binəsindəydi, şair alaçıqlar arasıyla irəlilədikcə heç kəsə rast gəlmədi. Hamı uzaqda, obanın qırağında, çəmənlikdə qurulmuş, yaşıl xalı üstündəki əlvan gül topasına bənzəyən toyxanada və ya onun ətrafında idi. Çalğı səsi aləmi başına götürmüşdü. Deyəsən, içəridə cahıl-cuhul oynayırdı. Zurnaçı qədim Mirzeyi havasını elə bir eşqlə çalırdı ki, oynamaq bilməyənin də sümükləri oynaşırdı.

Şair atını toyxana səmtə sürürdü ki, bəriki alaçıqdan çıxan Mənsimə qarı onu gördü; əlini-əlinə çırpıb irəli atıldı, cəld yaşmaqlandı, tərəkəmə arvadlarına məxsus çevikliklə bir əlilə atın cilovundan, digərilə üzəngisindən yapışdı:

– Bıy, dordin ürəyimə, Ağa, can-can, cəddüvə qurban olum, can-can xoş gəlmisən. Ə-də, Ağaməli, hey... Ədə-ə-ə-ədə, Ağa gəldi, gözüm qurban, ə-də gəlin, atı tutun, aparın hörükləyin göy çəmənliyə... can-can Ağa, balaca ağam necədi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənsimə arvadın təhkiyyeyi-kəlamına, gülümsər simasına bələd olan Seyid Əzim yenə də "təbəssüm yaxşı insanın əvvəlimci şəhadətnaməsidir", – deyə düşündü və gülümsünə-gülümsünə atdan endi:

– Zəhmət çəkmə, Mənsimə bacı, uşaqlar irahatlar atı... xoş gördük.

Arvad atın yəhərini ala-ala deyirdi:

– Xoş günün olsun, azarın canıma, can-can, nə zəhmətdi? Sənin cəddüvün kəniziyik biz, əskik itinük, zəhməti sən çəkmisən ki, eylə yoldan toyumuza gəlmisən, başımızı uca eləmisən. Nəfəsinə qurban olum, Ağa... a-az, Ürfət, Ürfət, a xoşbəxt olmuş, gəl Ağanın ayaqların yu, yer irahla, irağdan gəlib, incığdı...

Ürfət adlandırdığı qız alaçıqdan çıxdı, toy paltarında idi, al kəlağayı yaşmanmışdı, al kəlağayı şoğundan üzü bir az da allanmışdı. Şairin əlindən öpüb gətirdiyi, göz qamaşdıran mis aftafa-ləyəni yerə qoydu.

Şair valehliklə bu zərif qızın hərəkətlərini izləyir və mane olmağa çalışırdı:

– Zəhmət çəkmə, qızım!

Onun sözünə baxan kim idi... Ağaməli atı hörükləməyə apardı. Ürfət Ağanın patavalarındakı çarıqbağılarını açırdı, qız onun önündə diz çökmüş, çəməndəki al lalə kimi əsim-əsim əsərək, Seyyidin ayaqlarını yumağa hazırlaşırdı. Ön alaçıqda, Mənsimə arvad təmiz döşək, yastıq qoyur, döşəyin önündə ikiqat dəsmal atıb yüngül süfrə hazırlayır. Ağa üçün qəlyanaltı: təzə inək yağı, qoyun qaymağı, üzlü pendir gamış qatığı və kəlağayı nazikliyində, sarıbuğda ununda bişirilmiş isti yuxalar düzürdü.

Şair tərəkəmə qaydalarına xüsusən Qaravəli kəndinin adətlərinə yaxşı bələd idi. O bilirdi ki, tərəkəmələrdə evdə kişi olmasa arvadlar, gəlin-qızlar utanıb-çəkinmədən qonağı yaxşıca ləyaqətlə qarşılayır, gizlənib eləmirlər, yaşınmaq xala-xətrin qalmasın üçündür. O da çox cavan, təzə gəlinlər bir az artıqca yaşınırlar, yeni başlarına isti-soyuq üçün örtdükləri kəlağayının, yaxud cunanın ucunu burunlarının üstünə qaldırırlar, vəssəlam! Qarı-arvadlar mərd kişilər kimi at minir, heyvan alıqlayır, yük çatır, ağbaşdılıq, ağbirçəklik eləyir, yad da olsa, qonaq qabağına çıxa bilirlər.

Qaravəlli öz baməzə, bəzən hətta, həcvə bənzər həzliyyatı, lətifələri ilə məşhurdur. Şair Qaravəlliyə tez-tez də olmasa, ildə heç olmasa 1-2 dəfə gələr; yaz və küz binlərində. Buradan ona mümkün olan şeylərdən: motalla pendirdən, dəri ilə yağdan, səmiclə qaymaqdan pay göndərər, unutmaz, "nəcim seyiddi" – deyib hörmətini tutarlar. Şair



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

buraya bir də obanın qəribə bir xüsusiyyəti üçün gəlir. Buranın camaatı dinsiz deyil, qatı dindar da deyil; molla, seyid və dərvişlər buraya həvəslə uğramır, xam düşüb gəlirlər. Burada dərvişləri, pay yığan seyidləri, kəmsavad mollaları əməlli-başlı dolayıb yola salarlar. Oba bir nəfər kimi, böyüklü-kiçikli məzəlilərdən ibarətdir. Şair "Köpəyə ehsan", "Molla və çoban" kimi mənzum hekayələrindəki zəki kəndli surətlərini, onların xasiyyət və rəftarını, dərvişə, mollaya münasibətlərini məhz tərəkəmə arasında görüb-götürüb, buralarda, bu ülgüdə elə lətifələr eşidib ki, dindar yanında danışsan, səni kafir hesab edər, dindən xaric elan eləyər, lənətləyərlər.

Molla dərviş buralarda çox duruş gətirə bilməz. Burada ən çox qiymətləndirilən şey ağıldır, tizfəhmlikdir, incə-qaba-zarafata dözüm, anlaqdır. Tərəkəmə camaatı şairi həm də bu tizfəhmliyinə, baməzə lətifələrə mayilliyinə görə də sevir, qiymətləndirirdilər. Seyid Əzim burada hər evin öz adamı idi, ailə üzvü, el ağsaqqalı, başbiləni idi. Gəldimi, böyüklü-kiçikli, kişili-arvadlı hər axşam başına yığılar, söhbətlərini dinlər, evbəev qonaq aparar, hansı evdə gecələsə, başına yığılar, onun qonağı olardılar. Gecə yarıyacan yanından ayrılmaz, xeyir işi olanlar Ağadan xeyir-dua istərdilər.

Yarı xoş-yarı güc ayaqlarını yuyub quruladılar, evə keçirib döşək üstə əyləşdirdilər. Hələ kişilərdən heç kəs görünmürdü. Hamının başı toyxanada, ağsaqqalların cəmləşdiyi alaçıqda, qazan üstə, heyvan kəsdidə qarışıq idi. Mənsimə arvad qara aftafadan mis piyaləyə çay töküb şairin qənşərinə qoydu:

– Can-can, iç başuva dönüm, Ağa, incığun çıxsın, sonra Quluya bir xeyir-dua ver. Başına əl qoy. Özü utancaq xəsyətdi, gələn döyül... – deyə arvad nəvəsini xatırlayıb fərəhlə gülümsədi.

Seyid Əzim çayı içdi:

– Hardadı bəs bəy?

– Əl-ayağını qayırmışam – xına yaxmışam, alaçıqların dalında, bucağa çəkilib oturub.

Şair təzə bəyi görməyə tələsdi. Piyalanı yerə qoyub qalxdı:

– Məni ötür, oğlumuzu bir görüm...

– Allah irazı olsun, Ağa, can-can...

Arvad irəli keçdi, alaçıqdan çıxıb oğrun addımlarla daldalardan qarakeçələrin dalına yönəldilər. Bəy utanıb qaçmasın deyə yavaş gedirdilər. Birdən onun gözü, dəvə yunundan toxunmuş təzə şalvar və don



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

geymiş cavana sataşdı. Bəy on səkkiz-iyirmi yaşında qaraqaşlı, tünd ala gözlü cavan idi. Təpəciyin dibində daş üstündə oturmuşdu. Baldıracan çırmaqlı ayaqları və əlləri kəklik ayağı kimi xınalı idi. Ağ nazik dərinin üstünü bu al rəng elə gözəl tutmuşdu ki, yaz günəşinin şüalarından şəfəq alıb, elə günəşin öz şüaları kimi qızılı rəng çalırdı.

Şair bixəbər cavanı gözdən keçirib gülümsədi, qəlbində düşündü: "Təki əlləriniz başqa qana batmasın, balalarım, beləcə həmişə bəylik hənasına boyansın".

Oğlan fərəhli, xəfif bir təbəssümlə hənalı əllərini seyr edərək, dərin bir xəyala dalmışdı. Bəlkə də bu əlvan əllər ona başqa, incə əlvan əlləri – gəlinin gül yarpağı kimi zərif əllərini xatırladırdı və buna görə də gülümsəyirdi.

Şair və nənə böyürdən qəfil çıxdılar, cavan yerindən sıçrayıb qaça bilmədi, dik qalxdı, əllərini yanına, başını sinəsinə salıb durdu. Xəcalətdən üzü də əl-ayağı kimi qızardı, pörtdü, alnını tər basdı. Təbəssüm dodaqlarından qaçdı. Şair təəssüfləndi... "Bu təbəssümdə nə qədər böyük bir fərəh, bir bəxtiyarlıq var idi. Yalnız pak və məsum adamlar belə gülə bilir. Elə bil cəh-cəh vuran bir quş uçdu..." Şair bu gülüşü dodaqlara qaytarmaq üçün tez çıxıb getməyə tələsdi, oğlana yanaşdı, əlini onun güləbətin araqçınlı başına qoydu:

– Xoşbəxt ol, oğlum, bəxtəvər olasan, Allah ulduzlarınızı barışdırsın, qoşa qarıyasız, oğullu-qızlı, nəvəli-nəticəli olasız. Biz də sizə baxıb fərəhlənək. Qədir mövlam səni və gəlinini babana-nənənə çox görməsin. Biriniz min olsun. Uruğlu-turuğlu olasız.

"Molla dilində" anlamadığı dualar əvəzinə müqəddəs Seyyidin – Ağanın dilindən belə ürəkaçan xoş sözlər, yaxşı dualar eşitdiyi üçün Mənsimə qarının uçmağa qanadı yox idi...

– ...Ağa, canım qurban, kişi hələ heyvan üstən qayıtmayıb, sabah kəsiləcək öyəcləri seçir, günorta nağılına da çox var. Aşıq, sənəmlidə yatıb dincəlir. Toyxanada zurnaçıynan nağaraçı uşaqları oynadır. Ürfət qızın yer salıb, sən keç bir az incığuvu al, kişi gələndə oyadaram, çörəkdən-zaddan yeyib keçərsiz toyxanaya, nağıla...

...Toyxana ağzınacan dolu idi. Amma yazılmamış qanunla hərənin öz müəyyən yeri vardı. Yuxarı başda, aşıq dəstəsinin sağ əlində Kəblə Heybət baba və Seyid Əzim başda olmaqla, obanın ağsaqqalları, aşıqdan sol əldə və qənşərdə ortabablar, aşağı başda qapının cəhənglərində cahıl-cuhul əyləşmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ nağıl başlanmamışdı. Aşıq qabağındakı çaydan içir və məclisdə "Diksinmə", "Salami", "Uzundərə", "Heydəri", "Mirzəyi" rəqslərini kimin yaxşı oynadığı haqqında söhbətləri dinləyir, son kənd xəbərlərini öyrənirdi. Lazım olduqca o bu və ya başqa çatışmayan bir cəhəti nağıl və ya dastanın münasib yerində tənqid edəcək, işarə vuracaq və bununla da həmin bəd əməl aradan götürüləcəkdi...

Aşıq çoxdankı tanışı Kəblə Salehə yaman sataşırdı.

– Kəbleyi, deyillər genə işləri korlamısan?

Kəblə Saleh – yox əşi, – deyib dinmədi, cırt çubuğunu sümürdü. Onun yerinə Kəblə Heybət kişi cavab verdi:

– Necə korramayıb, gedib Şirvana, irast olub orda cəddinə qurban olduğum Ağaseyidəli ağaya, mınnan nə soruşubsa çox bikef qayıtmışdı. Dedim: nə var, lotu? Niyə bikefsən? Deyir: "Ağa soruşdu islamın şərti neçədi?" Hə, neynək, deyirəm, əşi, deyəydin doqquz da... deyir: Əh, mən on iki dedim heç irazılaşmadı...

Məclisdən qəhqəhə qopdu.

Aşıq yenə də Kəblə Salehi dindirməyə çalışdı:

– Sən on iki imamnan üsuli-dini bir-birinə qatmısan, bundan Allah keçər, o dünyada özün bilərsən; amma bax, o bizim əmdostunu (aşıq, Salehin arvadını nəzərdə tuturdu) incitməkdə heç yaxşı iş görmürsən. Bayaq bəybaşıya gedəndə rast oldu mənə, yaman gileyləndi. Deyir: elə selbələyib mənə örkən doğanağı ki, üç gündü qıçımı çəkə bilmirəm. Qiyamətdə yaxasından tutacağam, çəkəcəm məhşər ayağına.

Kəblə Saleh gördü aşıq ondan əl çəkməyəcək, özünün də söz çinədanını deşirdi, dəyirmi sərçə gözlərinə bənzəyən gözlərindən kələkbazlıq tökülə-tökülə çubuğu dişindən çıxardıb sözə başladı:

– Əh, Allahın tuqi-lənəti gəlsin ona yalansa, bəs Allahın dava-dalaşdan başı çıxmır, haq-nahaq bilmir? Aşıq, başın haqqı, işə bax: süd ocaqda daşır, pişik əti taxtanın üstündən qapıb qaçır, uşaq beşikdə cikkə çəkib, ağlayır, bu zalım zındığın qızı da əlində bir parça tutub mənə görkəzir ki, kişi, sən, qırılanlarıvun goru, bu "qonşu bağrı çatdadandan" mənə bir dizlik al. Cibimdə də quruşum yox. Asi olmazsan, nə olarsan? Moltanı olmazsan, neynərsən? Qapdım sicimi doğanaq qarışıq dəstəynən əndərdim bunun yambızına, moltanıdı yalan deyən, bir həftə yerindən dura bilmədi, elə indi-indi ayaq tutur ki, sənə irast olub...

Hamı gülüşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əyşi, sən hələ namaz vaxtı onu qoyunun qırağına çağırmağından danış – deyə Heybət kişi sözə qarışdı – Aşıq, haqqsalam haqqı, dünən çıxmışam çölə, bir də görürəm bu nə deyir, o taydan bəri arvadı dəyədən qoyunun qırağına haylayır: "Ay arvad, hey... hey... sən gəl bu üzülmüşə, mən gedim o dağılmışa, iki əyilim, bir düzəlim bu Allah qəbul eləməmişə".

Toyxanadan gurultu qopdu, aşıq gözləri yaşarınca gülüb dedi:

– Axı Saleh fağır neynəsin, o əlli illik ömründə oruc-namaz görmüşdü ki?! Başın tovlayıb apardılar Kərbəlaya. Orda da nə öyrənib namaz əvəzinə?.. Ağ qoyun, qara qoyun, başımı mən hara qoyum? deyir... Mən ölüm, dost, belədi, belə deyil?..

Hamıdan çox Kəblə Saleh özü gülürdü:

– Vallah, axı mən avam adamam, bizi yığıb, o malı halaya qatan kimi, qatdılar bir yekə darvazadan içəri. Biri gəldi, Xəlil bəyin qırğısı kimi bir hündür yerə çıxdı, vıq-vıq vığıldadı; sonra da biri gəldi durdu qabağımızda qart-qurt elədi, sonra da üzümüzü sürtdük toz-torpağa, dəmir-dümürə, hasardan, paslı zəncirdən öpdük, heç nə başa düşmürdüm; birdən çovuş Kəblə Abbas gəlib bozzadı. Sonra da dedi ki, "hə, Allah qəbul eləsin, innən belə sən oldun kablayı..."

Şair saf qəlbdən söylənən bu sözləri dinləyib gülür və düşünürdü: "Ay yazıq Saleh, axı sən ərəbcə nə bilirdin ki, oxunan ziyafətdəmədən də nə başa düşəsən?" Amma bununla belə sən nə qədər gözü açıqsan, sözlərində dinə laqeydlik, kinayə nə güclüdür, görəsən sən dinə necə balta vurduğunu başa düşürsənmi? Köpəyə ehsan verən də bir sənin kimisi olub".

Qocalardan birisi gülməkdən yaşarmış gözlərini silib dedi:

– Aşıq qardaş, sən yaxşı deyərsən, başla görək, başımıza nə gəlir... Sonra xörək-çörək vaxtı sənə kəndimizdən o qədər qərəvəlli deyərik ki, bir il gülərsən özünçün, gələn toyacan bəsin elər. İndi vaxt keçir, uşaqlar sənin nağılının intizarındadı...

Aşıq doğruldu, "doğrudur" – deyə adəti hərəkətlə geyməsini səliqəyə salıb, belindəki təkbəndi bərkitdi, sazı alıb kökləməyə başladı və köklədikcə məclisi dövrə vurur yerdən söz atan, sataşanlara tizfəhmliklə cavablar qaytarır, məclisi güldürürdü. Sonra toyxananın ortasında durub üzünü ağsaqqallara tutdu, əli sazlı hazır vəziyyətdə dayandı.

– Atalar, qardaşlar, hansı nağılı və ya dastanı meyliniz çəkirsə, buyurun, onu danışım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məclis birdən-birə sükuta daldı. Cavanlar ən çox nağıla həvəsli olsalar da, heç birisi dillənmədi. Ortabablar bir-biri ilə pıçıldaşdı, onlar da danışmadı, Seyid Əzim dilləndi. Onun aşığa baxan gözləri alışıb yanırdı:

– Mən bilən ən məsləhətlisi budu ki, Kəblə Heybət baba özü desin, hansı nağılı, o belə şeyin xəridarıdı...

– Helə yaxşıdır...

– Axıllı sözdü...

Kəblə Heybət dikəldi:

– Neynək, deyirsiz – mən deyim! Amma sonra məndən inciməyin ki, öz nəvəsinin toyunda da qabağa düşdü. Bax, aşıq qardaş, əvvəlcən-əvvəlcən bizə bir Koroğludan de... Qoy cavanlarımıza, elə lap bizim özümüzə də görk olsun. Koroğlu iyidliyi. Gələn gecələrə də inşallah baxarıq.

Məsləhət çoxunun ürəyindən oldu. Məhəbbət dastanı eşitməyi daha çox arzu edən cavanlar, bu həvəsi gələn nağıllara qoyub, maraqla dinləməyə hazırlaşdılar. Hamı yerini rahatladı. Toyxanadakı qurcalaşma, pıçıldaşma kəsilənəcən, aşıq bir-iki dəqiqə gözlədi. Birdən sazı boynunun ardına aparıb taziyanəni tellərə çaldı.

Məclisə dərin sükut çökdü. O ilk əvvəl, ustadnamə oxumağa başladı. Seyid Əzim ustadnamələrdəki ağıllı fikirlərə diqqət və heyranlıqla qulaq asıb öz-özünə düşünürdü: "Ağıllı sözlər deyib bizdən qabaqkı şairlər: nə gözəl üsul da seçiblər? Bu ustadnamələrin bizim nəsihətamiz şeirlərdən fərqi nədədi? Heç nədə. Tək bircə vəznində".

Aşıq isə ikinci ustadnaməyə keçirdi; şair huşguşla aşığın ikinci nəsihətnaməsinə qulaq verməyə başladı:

Adam var dolanar səhranı, düzü,
Adam var döşürər gülü, nərgizi,
Adam ver geyməyə tapammaz bezi,
Adam var al geyər, şalı bəyənməz.

"Aşıq qardaş nə düz tapmısan elin dərdini? "Bu Allah bölgüsü" nə böyük bəladır? Doğru deyirsən, aşıq qardaş! Sənə həsəd aparıram, mənim yazdıqlarımı ancaq savadı olanlar oxuyur, səni isə gör bir nə qədər qoca-cahıl dinləyir?" Aşıq davam edirdi:

Adam var çox şeylər elər iradə,
Adam var ki, yetə bilməz murada,
Adam var ki, çörək tapmaz dünyada,
Adam var yağ yeyər, balı bəyənməz...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şairin gözü qarşısından Şirin Abdulla, Sərçə Bağı, Yetim Hüseyn, lap elə öz külfəti keçdi: "Əhsən, aşıq qardaş, əhsən, Abbas, sənə min rəhmət! Sənin zamanından bəri heç nə dəyişməyib, elə indi də biri tapanda, onu tapmır, üzü gülməyənin, çörəyə möhtacın sayı çoxdur".

Aşıq *deyirdi:*

*Adam var dəstinə verəsən güllər.*
Adam var gözünə çəkəsən millər,
Tufarqanlı Abbas, başına güllər,
Nə günə qalmısan qarı bəyənməz?!

Son sətirdə gülənlər oldusa da, əslində əksəriyyət dərin fikrə dalmışdı. "Bir də rəhmət sənə, Tufarqanlı Abbas" deyən şairin son bəndə "gözünə mil çəkilməli adamlar" – Alışlar, Qapaqlılar, molla Qurbanqulular nəzərində canlandı.

Aşıq isə "ustadlar ustadnaməni iki deməyib üç deyir, biz də deyək üç olsun, düşmanların gözü puç olsun" – deyib üçüncü ustadnaməyə keçdi...

...Yabı yavaş-yavaş üzü dağa tərəf qalxırdı. Buludsuz səma onun könlü kimi açıq, aydın idi. O, bir-iki gün əvvəl dinlədiyi sənətkarın sözlərinin, sazda çaldığı musiqinin təsiri altında gedirdi. Qəlbi zamanın, evin dərdlərindən elə bil ki, bu musiqinin sədaları ilə təmizlənmiş, boşalmış, vücuduna bir bəxtiyarlıq yayılmış idi. O bu ani səadətin hardan gəldiyini bilirdi. "Sənətkar... hansı dildə, hansı səpkidə yaratsa da sənətkardır. Şeirdə dörd rükn var, övladlarım: vəzn, qafiyə, ehsasat, məzmun. Bunlardan xali olan nəzm adi söz yığınıdır, şeir deyilməz onlara". Ona elə gəlirdi ki, şagirdlərinə dediyi bu sözləri indi qəlbində əyləşmiş kim isə onun özünə deyir: "Bəli, o əsil şeir oxuyurdu. Zamanın keşməkeşlərindən çıxmış, əsrlərin imtahanına dözmüş şeir... Necə *deyirdi:*

*Göydən gedən göy bülbüllər,*
Sinəmə yeridi millər,
Dost bağından qızıl güllər
Gəlir sallana-sallana...

"Sinəmə yeridi millər... gözəl deyib... hələ musiqisindəki xoş, könül oxşayan nəva nə incə idi..." Onun qulaqlarında aşığın cingiltili səsi bütün gözəlliyi, incə oxşayışlı təranələri ilə canlandı, aşıq durna kimi səkir, sazı sinəsinə, gahdan bir də boynunun ardına sıxıb cəh-cəh vururdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göydən gedən alabaxta
Qanadı var taxta-taxta,
Mənim yarım ol otaxda,
Gəzir sallana-sallana.

Şair də aşığın gözü ilə gəlin üçün bəzədilmiş ağ keçə alaçığda nazlanaraq gəzişən incə sənəmi görər kimi oldu. Aşıq isə onun xəyalında hələ də sazını dilləndirib, sözünə davam edir, ürəyi nəğməni xoş bir nəqərat kimi hey təkrarlayırdı:

Göydən gedən topa qazlar,
Laçın vurar, tükün tozlar,
Alaçıqdan baxan qızlar –
Gəlir sallana-sallana.

Bu elə təbii bir mənzərə idi ki... şairin məftun, vurğun gözləri alaçıqdan oğrun-oğrun baxıb, qaçıb gizlənən toy yaraşığı, əlvan bəzəkli qızları, canlı-qanlı bir həyat kimi gördü... və gördüyünə dodaqları səyridi, gülümsədi: "Nə gözəldir, ilahi... camaat da yaxşıca başa düşür, həvəslə qulaq asırdı... Bəs Füzuli? ...Bəs mənim təkilər?...Yox, elə eləməliyik ki, qəzəllərimizi də aşıq məclislərində oxunan qoşma kimi, gəraylı kimi oxuyub anlasınlar... Təkcə savadlılar yox, hamı, bütün el!.. Görəsən, elə bir zaman olacaqmı ki, bizim yazdığımızı da hamı, bütün el-camaat beləcə yaxşı başa düşəcək? Bax, mənim əsil məqsədim, amalım da budur... hamı oxuya bilsin... hamı!.. Lap elə qaravəlli də, nabırrı da, şəhərli də, köç əhli də... Məktəb... bizə indilik ən böyük və vacib məsələ məktəb açmaqdı... Elə olsun ki, təkcə şəhərlərimizdə deyil, kəndlərimizdə də məktəb aça bilək. Elin dövlətlisi də, kasıbı da öz balasını oxuda bilsin!".

Gözəl xəyallar onu alıb aparırdı...

Şair Qaravəllidən qayıdırdı. Atın cilovunu yəhərin qaşına keçirmiş, birayaq addımlarla gəlib Rusdarçaya çatmışdı. At çaya girən kimi dayandı. Dağlardakı buz bulaqlardan süzülüb gələn göz yaşı kimi dumduru, səhər mehi kimi sərinlik və təzəlik gətirən sudan içməyə başladı. O boynunu çayın alçaq səthinə uzadıb, qalın, bozumtul və pırpız tüklü yumşaq dodaqları ilə zərif-zərif, ehmal-ehmal suyun üst qatlarını sormağa başladı. Arabir yügənli ağzını yuxarı qaldırıb göyşədikcə şehə bənzər parlaq damcılar dodaqlarından çaya süzülür, xırda ləpə-

ciklər yaradıb axır, gedirdi. Şair təəssüfləndi: "Kaş çaya girməmiş yügəni aleydim, yazıq heyvan rahat içeydi".

Çayın o tayında sürünü enişə endirən çoban aram-aram, irəliyə-irəliyə, həzin bir səslə Şirvan şikəstəsi çağırır, sanki el sənətinə heyran olmuş şairin xəyallarına cavab verərək oxuyurdu:

Şirvanın biyanı var,
Otu var, biyanı var.
Barı gəl, yuxuma gir,
Desinlər, hayanı var.

Şirvanın aşığı var,
Sazı var, aşığı var,
Belə qara günlərin,
Həlbət bir işığı var.

Şair gülümsədi, "yaxşı deyirsən, çoban qardaş, dünya belə durub-dayana bilməz. Onun bir işıqlı günü olsun gərək. Sənə bu ümidi verən, səni xoşbəxt eləyib. Yaxşı ki, qəlbində belə bir inam var. Yoxsa heç yaşamağa dəyməzdi. İnsan həmişə yaxşı gün ümidi ilə yaşayır. Bununla da bəxtiyar olur", – deyə düşündü.

Şair düşündükcə az əvvəl sahildən uzaqlaşmış qadın kölgəsini də gözlərilə izləyirdi. Qadın görünür səhərdən sahildə qazan açıb, paltar yuyub qurutmuş, indi təmiz paltar boğçasını iri mis qazanın ağzına qoymuş, çadrasına sıx bürünmüş, qazanı da başına götürüb gedirdi.

Əvvəl əldə şairin qəlbi titrədi, diksindi. Bir anlığa ona elə gəldi ki, qarşısındakı qadın Sarabəyimdir; onun yolunu gözləyə-gözləyə neçə gündür ki, çayın qırağını kəsdirib oturub. Seyyid bütün diqqətini gözlərinə toplayıb uzaqlaşmaqda olan qadına zillədi. Yox, bu o deyildi... Sarabəyimin şux, reqsan yerişi hara, bu hara? Bunun yerişindən aydın bilinirdi ki, cavan deyil, yaşlı adamdır, bəlkə də hamilədir, yanbasa yeriyirdi. Şairin ürəyi sıxıldı, səhərdən bəri qəlbində çalınan Koroğlu cəngisi, Şirvan şikəstəsinin səsi xırp kəsildi. O atın su içib doyduğunu görüncə, cilovu yəhərin qaşından çıxarıb yügəni çəkdi, ağzını qantarğa kəsən at cəld ayaq götürdü, tərpəndi, bir göz qırpımında, ətrafa minlərlə zərrələr sıçradaraq çayı keçdi, qarşı sahilə çıxdı, əl qalınlığında, tapdanmaqdan una çevrilmiş yumşaq torpaqlı yolla yorğalamağa başladı, atlının ardınca toz dumanı qalxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Qadın arxasında at hənirtisini eşidincə, başını geri çevirmədən yoldan çıxdı. Atlı ötüncən yovşan və qaratikan bitmiş yol qırağı ilə yeriyəcəkdi, möhkəm yaşınmışdı. Atlı ona çatanda addımlar yavaşıdı, qadının ürəyinə mübhəm bir qorxu doldu: "Kimdir? Nəçidir? Fağır, hamilə qadından nə istəyə bilər?.." – düşünərək rübənd altdan atlıya baxdı. "Ah... Allah sənə şükür, Ağadır ki..." – deyə fikirləşdi və dərhal da ürəyinin çırpıntısı sakitləşdi.

Şair atı birayaq sürməyə başladı, qadınla bərabərləşincə əl uzadıb qazanqarışıq boğçanı onun başından götürdü və yəhərin qaşında qucağına qoydu, nə baş verdiyini anlamağa macal tapmamış qadına:

– Bacı, – dedi, – sən ehmal-ehmal gəl, mən qazanı, boğçanı, bax, şəhərin girəcəyindəki o qoşa söyüdün altında yerə qoyacam, tələsmə, çatıb götürərsən.

Qadın cavab vermədi, yalnız minnətdarlıqla başını təsdiq və anlayış işarəsi olaraq yellədi:

– Salamat ol.

Yenə cavab gəlmədi. Şirvanlı qadın naməhrəm kişiyə cavab verər? Ətini də kəssən dinməyəcək. Yalnız ürəyində, onda da pıçıltı ilə deyirdi: "Allah sənə yar olsun, Ağa, Allah Mir Cəfər ağanı sənə çox görməsin, ömrün uzun olsun! Gözə görünməz pərvərdigar səni hardan mənə yetirdi? Gözümə durmuşdu yol, cəddüvə qurban olum, Ağa!"

## "MİZAN-TƏRƏZİ" VƏ YAXUD DÖRD RAMAZAN

1305-ci il Ramazan ayının 4-ü idi. Cəmi dörd gün idi ki, orucluq başlamışdı. Rəcəb ayından bu günəcən artıq üçaylığın iki ayını oruc tutmaqda olan möminlər, indi üçüncü ay idi ki, gündüzdən axşamacan dillərinə bir tikə çörək, bir qurtum su, bir qullab qəlyan vurmurdular. Onlar hər gün sübh namazından, demək olar ki, iftara kimi vaxtlarının çoxunu məsciddə, axund otağında keçirirdilər. Kimisi qiraət öyrənir, kimisi ramazan dualarını təkrarlayır, bir qismi də qəza, ayət, hacət namazları qılmaqla vaxt keçirir, birtəhər özünü iftara çatdıranacan günü axşam eləyirdi.

Ramazanın dördü... Altı gün idi ki, Seyid Əzim məktəbdarlıq fəaliyyətinə görə döş nişanı ilə təltif edilmişdi. Düşmənlər Seyid Əzimi artıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hökumət gözündən də sala bilmədiklərini, onun əsas havadarlarından biri olan Ağaseyidəli ağanın vəfat etməsinə baxmayaraq, Şirvanda xüsusi ad-san qazandığını, törəyib-artdığını, adının hər yerdə səs saldığını, adı gələndə hamının "Ağa" deyə dik ayağa qalxdığını, yazdıqlarının qəzetlərdə çap olunduğunu görüb həzm eləyə bilmirdilər.

Bugünkü qurğu ayrı idi. Biz, əlbəttə, indi yaşı səksəni ötsə də, əvvəlki əzəmətini saxlayan, şirvanlılar demişkən "Dəvədən düşsə də, *höt-hötündən düşməyən*" *Qapaqlının dükanına girməyəcək, evinə də* getməyəcəyik. Orada onun prixod mollası Molla Qurbanqulunun, name-şədi Alışın və başqalarının nə qurğu qurmaqlarını seyr etməyəcəyik. Kifayətdir. Biz onları daha tanıyırıq. Bir də o qara məclislərdə iştiraka nə hacət? O qara qurğuların nəticəsini bu gün görəcəyik.

Müqəddəs orucluğun, Rəməzanül-mübarəkin dördü idi. Məscid ağzınacan dolmuşdu. Günorta namazı bu gün xüsusilə şurlu keçmişdi. "Təzə molla dəliləri", o taydan yeni molla gəlməyini eşidən həvəskar dindarlar məscidi doldurmuşdu. Odur ki, adəti günlərə nisbətən bu gün məscid xüsusilə qələbəlik idi. Gələnlərin içərisində sünnü cavanlarından, Abid əfəndinin sabiq müridlərindən də var idi. Bu halı irəlicədən duyan Meşədi Alış, Qqapaqlı və Qurbanqulu, qurğularını məhz bu günə keçirmiş, "təzə molla aşiqlərinin" sırasına öz həmfikirlərindən xeyli adam da soxa bilmişdilər.

Seyid Əzimin də bu gün məscidə gəlməsi, camaat namazına qoşulması, xüsusən namazdan sonra möminlərlə məsciddə oturub qalmasının səbəbi məhz bugünkü Molla Xudaverən idi. Ağa düşünmüşdü ki, bəlkə bu mollada da maarifə maraq oldu. Bəlkə də o məktəb işinə, az-çox ianə yardım toplamaq məsələsinə qarışdı, bir para açıq fikirli ruhanilər kimi, bəlkə onun nüfuzundan da bu məqsədlə istifadə etmək mümkün oldu. O ərdəbilli Xudaverənin ağzını aramaq istəyirdi. Pişnamaz Molla Xudaverən, camaat namazını xüsusi şurla aparandan sonra, orucluğa görə alverindən, kəsbkarından əli soyumuş, yaylağa çıxan tərəkəmələrlə, köçərilərlə alayarımçıq alveri nökərə tapşıran dükançılar yerlərini rahatlayıb, şam və xüftən namazınacan vaxtı burada keçirmək niyyətilə oturub qalmışdılar...

Mübahisənin başlanmağına ərdəbilli mollanın istifta zamanı dediyi bir söz oldu. Belə görünür ki, Molla Xudaverən seyid adından gələcək bayramda özünə xüms toplamaq üçün istifadə etmək istəyirdi, odur ki, seyidliyin mənsəbindən, seyidlərə hörmətdən, onların dini-islamı intişar

etməkdə rollarından və nəsli-peyğəmbər ali peyğəmbər olduqlarından uzun-uzadı bəhs açıldı. Bu zaman aranı qızışdırmağa nazir edilmişlərdən biri yerindən dilləndi:

– Elə bütün seyidlər?

Məsələdən hali olmayan Xudaverən dedi:

– Əlbəttə, onların mövqeyi Allah yanında, mərtəbəsi bəşər yanında ucadı...

– Amma eləsi də var ki, babi ondan əfzəldi...

– Dinə balta çalır...

– Düzü də yolundan eləyir, elə bizim bu cənab kimi...

Mübahisə qızışdı. İndi hərənin ağzından bir avaz gəlirdi. Molla Qurbanqulu, Alış və Qapaqlı çevrəsində oturanlar, bir-birinin ardınca dillənməyə başladı:

– Babidi...

– Sünnüdü...

– Moltanıdı, peyğəmbər haqqı. Özü deyib kafərəm. Bir baxın:

Çəkməyin Seyyidi-laməzhəbi meyxanə sarı,
Kafəri Kəbə ara hansı müsəlman aparır?

– Küfrüdü başdan-ayağa.

– Deyib, özü deyib bunları:

Çarə oldur ki, mənə hər gün içəm bir neçə cam,
Eyləyim gərm təni-zari meyi-səhbadən.

– Gizlində içməyini də gizlətməyib laməzhəb:

Sanmın ki, tövbə eylədi Seyyid şərabdən,
Vaiz məzəmmətin görüb, eldən nihan içər.

– Mollalardan qorxur, yoxsa...

– A kişilər, o cəhənnəm, uşaqlarımızın da ovqatını zaye eləyir, urusu öyrətdirir, sabah da şürbi[1] eləyəcək özü kimi...

– Ə, yaxşı deyil, seyid peyğəmbər övladına elə neyşə deyirsən?

– O seyiddi? O bəni-Abbasdı? Əhmədi-Muxtar belə nəvəsi olmağından utanar. Əgər bu yezid oğlu Hüseyn nəsli olsaydı, çaxır içərdi?

---

[1] Şərab aludəsi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Balam, düz deyir kişi də... Həlbət ki, içməzdi...

– Düz yolnan arası yoxdu. Allah bəndə, mömin yoluynan... Onunku elə urusdu, ermənidi, malağandı... Kişilər, belə də seyid olar ki, gedə kafir urusnan otura-dura? Kafirin dilini öyrənməyə cəhd göstərə?

Seyid Əzimin tərəfdarları arabir sözə qarışır, dillənirdilər. Lakin onlar bu gün məsciddə az idilər... Ziyanın, işığın məsciddə, qaranlıqda nə işi var ki... şair özü də bu gün bura məcbur gəlmişdi. Yanında ən yaxın adamlarından bircə Qırmızı Qulam oturmuşdu. Şirin Abdulla isə Seyyiddən xeyli aralıda, qapı ağzına yaxın bir yerdə əyləşmişdi. Bu gün nə Mahmud ağa, nə şair-ziyalı dostları, nə Kərim bəy, nə Cin Cavad... heç biri burada yox idi. Seyid Əzimin tərəfdarları, havadarları az idi. Odur ki, qaragüruhun əlinə fürsət düşmüşdü. "Belə fürsət az ələ düşər, əldən vermək olmaz bu fürsəti. Namərdəm əgəm səndən hamısının hayıfını çıxmasam. Namərdəm əgər bu gecə qapaqlıdan aldığıma haqq qazandırmasam", – deyə Alış düşünürdü.

Molla Qurbanqulu məclisi daha da qızışdırmaq, qurğunu həyata keçirmək üçün, öz qorxaq təbiətinin təsiri ilə bir də diqqətlə məscidi, hazırunu gözdən keçirdi: "Yox, yaxınlığında Qırmızı Qulamdan başqa elə bir dəyərri adam yoxdu, fürsətdi. Fürsəti fövt eyləməz aqil, məgər divanə ola, – deyə düşündü. – Bir belə camaatın qabağında iki nəfər ona nə köməklik eləyəcək, yox, əsil vaxtıdır. Bircə bu meşədə burda olmasaydı, lap əla olardı".

Molla Qurbanqulu dizləri üstünə qalxıb əlini yuxarı qaldıranda məsciddəkilərin çoxu susdu. Qədim adətilə artıq qocalsa da, çox ucadan, ifadəli və hər cümlənin son sözlərini təkrarlayaraq, bunları müsahibinin beyninə yeritməyə çalışaraq sözə başladı:

– Ağalar, cənab behiştməsnəd Ağaseyidəli ağa (məsciddən "rəhmət" səsi ucaldı) bir həlim, mülayim insan idi, onun həqpərəstliyin hamımız bilirik, bəli, bəli, bilirik. Mən bu saat şairin bir neçə şerilə sizin qulluğunuzda sübut edəcəyəm ki, o hətta cənab Ağaseyidəli ağanı da (yenə "rəhmət" səsi ucaldı) alladıb, xilafi-tövbə eləyib, günahi-əzimə batıb, *bəli, batıb. Baxın!*

Burada öz kəskin hafizəsinə əmin olan Molla Qurbanqulu heç bir yazı-bayaz çıxarmadan sözünə davam etmək üçün bir anlıq sükut etdi. Hamının nəzərini, dostun da, düşmənin də diqqətini cəlb etdiyinə əmin olduqdan sonra boğazını arıtlayıb, sözünə davam etdi:

– Sizi böyük xudavəndi-aləmə and verirəm, ədalətlə diqqət buyurun:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Peşimanəm ki, bir müddət qılıb vaiz sözün bavər,
Bahari-ömrdə mey ülfətindən ictinab etdim.

Bu nə deməkdir? Hansı şirvanlı bilmir ki, ona meydən tövbəni *məhz Ağaseyid ağa verib! (Yenə "rəhmət" oxundu). Hazır göz qaba*ğındadır ki, peşman olub, özü də boynuna alır ki, vaizin sözünə nahaq qulaq verib. Çox əcəb, bu onun öz işidi, özü bilən yaxşıdı. Deyə bilərsiz peşman olub, nə olsun, əhdini sındırmayıb ki! Əhdini sındırmağını bilmək istəyirsinizsə, buyurun:

Meyi-nab ilə abad eylədim, səd şükür, can mülkün
Əgərçi xaneyi-təqvamı aləmdə xərab etdim.

Əgər bu da sizə dəlil deyilsə, onda daha dürüst qulaq verin.

O getdikcə qızışan, coşan bir səslə danışır və danışdıqca ağzının suyu bir neçə addım məsafəyə çırtlayıb, qarşısındakıların paltarına, *əlinə sıçrayırdı:*

– Nə eybi var. Xudavəndindən üz döndərib – özü bilər, Allahı bilər! Becəhənnəm! İçir – şərabı nəhs buyuran cəddi üzünə tüpürsün! Məscidi, zahidi riya adlandırır – peyğəmbərlərin qulluğunda, məhşərdə cavab verəcək!.. Amma axı o bunlara qane olmur, bəli olmur. O, başqalarını da yoldan çıxardır, onunla mülaqatda olanların da vəbalına səbəb olur.

*Saqi mənə qılmandı, şərabım meyi-Kövsər,*
Vaiz ciyəri həsrət ilə qan olacaqdır.

Fövt eyləmə bu fürsəti, ey aqilü huşyar,
Ömrün gedəcək, dəhr özü viran olacaqdır.

Seyyid deyiləm, nisyə sözə bavər edəm mən,
Nəqdi-hünərim cama girovkan olacaqdır.

Məscidin içərisində birər küfr kimi səslənən hər bir misra, günbəzin tağına dəyərək oturan cahillərin başına əbabil quşlarının cəhənnəmdən gətirib islam düşmənlərinin başına yağdırdığı "siccil" – xırda odlu daşlar kimi tökülürdü. Çoxlarına elə gəlirdi ki, indicə bu sözlərdən sonra tufan qopacaq, aləm dağılacaq, pərvərdigarın vəd etdiyi "günfəyekun" baş verəcək, ərəsati-məhşər başlanacaqdır. Lakin bütün bunlar olmurdu. Gözlər, bərələ qalmış gözlər gözləsə də, nə bu küfrü yazan şairi ildırım vurub öldürmür, nə də qorxmadan onları məscidin mehrabı yanında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təkrar edən mollanın başına daş düşmür, dili qurumurdu. Nadan və cahil qaragüruh isə gözləyirdi. Molla Xudaverən də donub qalmışdı. Özünəməxsus bir həssaslıqla bu gərginliyi anlayan Qırmızı Qulam, yerindən dikləndi, uca olmasa da, onun səsi məsciddə çox aydın eşidildi:

– Qəriblər ağasına and olsun, Ağanın şerindəki qüdrətə bax ki, onu vaiz də, molla da əzbərləyib...

Qəlbində isə düşündü: "Ay küt axmaq, yaxşı yayırsan, təbliğ edirsən Ağanın küfraniz misralarını, eşitməyənlər də eşitsin. Bilməyən də bilsin". Meşədi Qulamın sözündən sonra az-çox Seyid Əzim ətrafında əyləşmiş tərəqqi dostlarının ürəyinin üstündən elə bil ki, bir ağır daş götürüldü. Qorxudan gözü böyümüşlər də, sanki bir qədər özlərinə gəldilər. Molla Qurbanqulu hamının sevimlisi və özünün də çox işini aşıran, rastgu Qırmızı Qulama sərt cavab verə bilməyəcəkdi. Lakin təslim olmaq, qələbəni qazandığı bir dəmdə əldən vermək, geri çəkilmək fikrində də deyildi. Yeganə yol guya bu sözləri eşitmirmiş kimi əhəmiyyət verməmək, özünü o yerə qoymayıb, eyni ahənglə sözə davam etmək idi; təcrübəli molla belə də elədi:

– Mən onun bir qəzəlini, mültəfit olun, ağalar, həcvini demirəm ha! Onda elə güman elərsiz ki, özümə toxunan şey var, – təkcə bir qəzəlini sizin qulluğunuza çatdırmaq istəyirəm. Qoy qonaq cənab da eşitsin. Onun bu qəzəli hələ ki, camaat və uşaq-muşaq arasında gəzir, bəndəyə də gəlib çatıb, bəli çatıb:

Can məşamınə gəlir buyi-riya məsciddən,
Görmədim ömrdə bir zövqü səfa məsciddən.

Buriya tək döşənir məscidə hər dəm zahid,
Heyf, tərk olmadı əsla bu riya məsciddən!

Öz-özüylə danışır vaiz, olub divanə
Kim, qulağımə gəlir gündə səda məsciddən.

Dürdi-meyxanəni tök camə, gətir, ey saqi,
Görmədim dərdimə aləmdə dəva məsciddən!..

Seyyida, bunca ki, məsciddən edərlər nifrət,
Nə görüblər görəsən kim, şüəra məsciddən?



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə də küfr sovuran sözlər, həm də mollanın, vaizin dilindən eşidilir... Yenə də kin-küdurət, Qırmızı Qulamın sözləri ilə azalmağa başlayan qərəz güclənir, alovlanırdı. Qəti zərbə endirmək zamanı idi. Qırmızı Qulamın səsi cınladı, məscidin indicə küfr sovrulan qübbəsi altında, ilham pərisinin xilaskar səsi kimi eşidildi:

– Ağalar özü yaxşı bilir ki, bəndələrin tutduğu hər bir iş böyük xalíqí-ləmyəzələ əyandır. Biz nəkarayıq ki, onun, əlinin üstündə əl olmayan xaliqin bildiklərini təkrar eləyək. "Allahü ələm" deyiblər axı... O özü hamının savabına da, günahına da alimdir. Cənab şair Ağa Hacı Seyid Əzim Şirvani (o şairin bütün titullarını qəsdən deyirdi) elə özü də bu xüsusda yazıbdır. İndi ki, şerü nəzm oxumağa meydan verildi, həzəratın icazəsilə birini də mən deyərəm. Cənab Ağa Seyid Əzim özü deyir ki:

Qərini-məğfirətin ilə cümlə zahirdir
Nə iş ki, tutmuşam, ey qadiri-yeganə, sənə!

*Nəsib Seyyidə tövhidi-zatın et, ya rəb!*
Çıxıb bədəndən olan dəm rəvanə, rəvanə sənə.

Hər bir bəndəsinin xeyir və şər əməllərindən xəbərdar olan xaliq, özü Seyyidə ilham verib, bu sözləri dedirtdirib, yoxsa necə deyə bilərdi? Niyə biz bu gün inanmayaq ki, bayaq molla oxuyan şeri Ağa cavanlığında, mən indi oxuyanı isə hazırda yazmayıb və xaliqi də onu əfv eləməyib, hə?

Dostlar rahat bir nəfəs aldılar. "Allah atana rəhmət eləsin, Meşədi Qulam, yaxşı girirsən Ağanın qanının arasına", düşmənlərin köksünü isə qəzəb və kin dəlirdi: "Dayan babi köpək oğlu, getdiyin Məşhəd sənin belindən vursun, haqqına çatarsan, tələsmə..."

...Hər nə isə birdən Seyid Əzim və dostları yerlərindən qalxdılar; onlar artıq məsciddə qalmağı bimənə hesab eləyirdilər. Çünki mübahisənin sonu görünmürdü. Uzandıqca acı bağırsaq kimi uzana bilərdi. Buna isə maarif dostlarının həvəsi yox idi. Onların heç biri oruc deyildi, sübh obaşdan da durmamışdılar. Odur ki, durub evə getməyi məsləhət bildilər. Seyid Əzim, Meşədi Qulam və bir neçə tanış başmaqgeyilən bala dəhlizə çıxanda, Alışın gizli işarəsi ilə Əli, Mənsim, Ağahüseyn və Abid əfəndinin bir neçə sabit və sadiq müridi də qalxdı. Məscid camaatının çoxu insanlardakı qədim bir adətlə, "başqaları durdu, biz də duraq" adə-



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

tilə yerlərindən qalxmışdılar. Hamı birdən-birə qapıya tərəf üz qoydu. Seyid Əzim araqarışda Meşədi Qulamdan aralı düşdü. Və birdən-birə özünü çox qəribə hiss etdi: bir zaman Şərbaflar evinin kəlləsində, Abid əfəndinin müridlərinin əhatəsində olduğu kimi tək, yalqız, yad ruhlar, biganə cisimlər, düşmən məxluqlar arasında!.. Onu qabaqlarına qataraq sıx dairə içərisinə alıb məscidin dəhlizinə, başmaqçıxarılan yerə aparırdılar. Bəli, bəli, məhz aparırdılar. Çünki artıq ayağı yerdən üzülmüşdü. Çiyni üstündə Alışın üfunətli nəfəsi, hənadan qızarmış saqqal və bığları arasında güclə eşidilən pıçıltısını duydu: "Hə, cəzanı çəkəcəksən". O sonra da heç bilmədi ki, bu sözlər ona deyildimi, yaxud o da bu kəlmələri Alışın acıqdan alışıb yanan gözlərindənmi oxudu?

Başsız kütlə onu sım-sıx, dəmir məngənə içərisində imiş kimi sıxıb, dar qapıdan başmaqçıxarılan dəhlizə saldı, arabir onu əhatə edənlər səslənirdi:

– Adə, yavaş, Ağa qabaqdadı...

Bir başqası:

– İtələşməyin, aadə, kişini sıxırsız axı!..

– Ay Allah bəndələri, yavaşun axı, Ağa qabaqdadı... Cəddinə qurban oluğumu incidərsiz axı!..

Bu son sözləri də Alış deyirdi. Alış Seyid Əzimi arxadan bərk qucaqlamışdı, sağınca Ağahüseyn, solunca Mənsim gedirdi. qarşıda və arxada bir-birini basan, itələşən adamlar... Dostlar arxadan qəribə bir hissiqəbləlvüqu ilə nigaran qalmış, adamların arxasından boylanır, gözlərilə Seyid Əzimi axtarırdılar. Lakin özlərini ona çatdıra bilmirdilər. Meşədi Qulam şairdən xeyli dalda qalmışdı. Şirin Abdulla isə irəli basılıb başmaqçıxarılandan çölə, məscidin qabağına salınmışdı. Şirin qapıdan boylanır: "Ağa, Ağa" deyə ürəyində pıçıldayırdı. Lakin içəridə nələr baş verdiyini başa düşə bilmir, yaman bir şey yovutmur, amma intizar içərisində Seyyidin çıxmasını gözləyirdi.

Başmaqçıxarılanda isə qəribə, anlaşılmaz hadisə baş verirdi. Seyid Əzim birdən necə oldusa Meşədi Alışın qolları arasından çıxa, arxasını başmaqçının sıxılıb durduğu divara səmt çevirə bildi. Onu xilas edən də bəlkə bu oldu. O düşmənləri ilə üz-üzə, göz-gözə qaldı. Başmaq rəfləri üstünə dikəlmiş qoca başmaqçı vəziyyəti çox gec dərk elədi:

– Ayə, nə qayırdığuvuzdı?.. – deyib həyəcanla səsləndi. Həmişə hörmət gördüyü Ağanın, nəcib bir insan kimi sevdiyi şairin gözü önündə sıxılıb əzilməsi kişini dəli eləyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ayə, Ağahüseyn, Mənsim... Əyşi... Ağa, başuva dönüm... Ay camaat, kömək eləyin... Ağa boğulur...

Seyid Əzimin nəfəsi daralırdı. Elə olduğu kimi Abid əfəndinin müridi və Qapaqlının nökərinin əli vücudunda gəzir, dirsəklər böyürlərini deşir, barmaqlar gah boğazını, gah da köksünü araşdırırdı... Canavar nəfəsi qulağının dibində, dodaqlarının ucunda xırıltı ilə səslənirdi... Seyid Əzimin nəfəsi kəsilirdi. Daldan Alışı itələyib şairə köməyə gəlməyə can atanlar, vəziyyəti daha da pisləşdirirdi. Çünki Alış və Ağahüseyn bu haldan laha artıq istifadə edir və guya canıyananlıq eləyərək, tez-tez səs çıxarırdılar:

– Geri durun, aadə, itələşməyin, demirəm?

– İtələşməyin, yol verin, aadə, Ağanı sıxırsuz...

– Ay zalım uşağı, nə qayırdığınızdı... Utanmırsız?

– Aadə, kişinin nəfəsini kəsdüz ki...

Köhnə qapı davam vermədi, cırıldadı... Alış, Mənsim, Ağahüseyn, müridlər gurultu və tappıltı ilə çölə töküldülər. İndi Seyid Əzim arxadan onu böyük bir məhəbbətlə qucaqlayıb saxlayan və gözlərinin yaşı qəlbinin içərisinə tökülən qoca başmaqsaxlayanla birlikdə qalmışdı. Adamlar seyrələnə yaxın Qırmızı Qulam ona yetişdi. Şirin isə hələ də camaat çölə cumduğundan adamları yarıb içəri girə bilmirdi.

Başmaqsaxlayan və Qırmızı Qulam şairin qoluna girib həyətə çıxaranda, məscidin səhnində artıq onlardan heç birisi yox idi. Qaragüruh qara niyyətini həyata keçirib, ortadan çıxmışdı. Şirinin gözləri Seyid Əzimin üzünə sataşanda ürəyi oycalandı. Şairin rəngi kəhrəba kimi sapsarı idi, elə bil üzünə zəfəran isladıb çəkmişdilər. Ayaq üstə güclə durmuşdu. Kəsik-kəsik nəfəs alır, nə deyəcəyini, kimdən, nədən şikayət edəcəyini bilmirdi... Dostlar şairin qoltuğuna girib evə yollandılar...

Dostlar şairin xəstə yatağını əhatə etmişdilərsə də, bu gün o, özü ilə təkətək qalmışdı. Bu gün BÖYÜK HESABAT günü idi. Bu gün o özü qarşısında həyatına, həyatının mənası saydığı əməllərinə yekun vururdu. Şairin qəlbində "mizan-tərəzi" qurulmuşdu. Xeyir və bəd əməlləri bir-bir getdikcə fəri itən nəzərlərində canlanır, gördüyü işlərə bir növ aralıdan baxır və qiymətləndirirdi. Bəli, bəd də olub, xeyir də... Qələbə də olub, məğlubiyyət də... Bu çarpışmalar içində dünya əməllərindən zövq aldığı günlər də olub, əzab çəkdiyi də... Bu uzun yolda ara-sıra gənclik təcrübəsizliyinin nəticələri olan qüsurları da olub... Amma deyəsən, axı yaxşı işləri daha çox olub... Onun dodaqla-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rında xəfif bir təbəssüm oynadı... Yazdığı əsərlər, açdığı məktəbdə yetirdiyi şagirdlər yaşayacaq, könüllərdə bir parça yeri olacaq, rəhmətlə yad ediləcək... O bunu bilirdi. On gün bundan irəli 1888-ci ilin çiçəkli 10 may günündə ona medal da verdilər... Bu da əl tutduğu, ayağa qaldırdığı insanların təbəssümü ilə birlikdə aldığı mükafat idi... Gec çatdı, şair, müəllim onu döşündə gəzdirə bilmədi. Zəhmətlərin qiymətini...

...Bayırda qapının önündə xeyli adam toplanmışdı. Qəm dəryasına qərq olmuş Şirin Abdulla, "Cəfər, ey qonçeyi-gülüstanım" deyə adı ilə bütün gənc nəslə xitab etdiyi Mir Cəfər, səfadan düşmüş "Beytüs-Səfanın" məyus, qocaman üzvlərindən Ağababa Zühuri, Ələkbər Qafil, şairin toy mərasimində iştirak etmiş yaxın dostu Qafar Rağib, artıq qocalmaqda olan Mahmud ağa və Cin Cavad, Qori seminariyasında təhsil alan Ramazanın arıq dəvəyə bənzəyən dədəsi Hacı Qədir, cavan şairlərdən Ələkbər Sabir, Ağaəli bəy Naseh... burada idi. Əlindəki qələmkar boğçası ilə hamamdan qayıdan Meşədi Qənbər hənadan xoruz quyruğu rəngi almış saqqalını sığallaya-sığallaya yığılanlara yaxınlaşdı, susqun durmuşların məlul-müşgül simasını gözdən keçirib soruşdu:

– Ağa nə təhərdi?

Kim isə qırıq, könülsüz bir səslə dilləndi:

– Səkəratdadı...

Meşədi Qənbər ağır-ağır əbasını yelləyərək uzaqlaşdı. Onun burda durmağa macalı yox idi. Başmaqçıbazardakı dükanına tələsməliydi, boğçanı evə qoyub gedəcək, bir də evin üstündən salat səsi eşidiləndə, meyit namazına gələcəkdi...

İçəridə şairin solmağa başlayan dodaqları pıçıldayırdı: Bəli, gözəl deyib hükəmalar: Sən dünyaya gələndə hamı sevinirdi, sən ağlayırdın. Elə yaşa, elə ömr et ki, sən bu dünyadan arxayın, mütəbbəssim gedəsən, başqaları dalınca ağlayalar... Səni sonra da xoş söz – xoş əməllərinlə yad edələr...

Ana elə bilirdi ki, oğlu kəlmə-şəhadət deyir... Ana balasının yastığı ucunda əyləşmişdi, arabir titrək əlləri ilə hələ də körpə təsəvvür etdiyi balasının quruyan, avazıyan dodaqlarına su damızdırırdı. Dolub boşalan gözləri bəzən elə dumanlanırdı ki, qadın, balasının necə haldan-hala düşdüyünü görmürdü, onu ölüm yovundura bilmirdi. Ömrü boyu o qədər ölümlər, canvermələr görmüşdü ki... Amma bu adı balasına yaxın qoya bilmirdi. Birdən Seyyidin dodaqlarında mələk sözünü eşitdi: "İlahi, yoxsa gözlərinə mələkəl-movt görünür, balamın?" – deyə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qorxu içində düşündü. Amma şairin gözlərinə bu anda heç bir mələkəl-movt Əzrayıl görünmürdü, elə bil ki, bütün real, həyati və mövhumi-xəyali qara qüvvələr indi onu tərk edib getmişdilər. İndi onun xəstə yatağının üstündə şəfəqlərdən qanad taxmış şeir, ilham pərisi süzürdü... O öz sevimli şairinin son anlarını elə bil ki, öz qanı, canı, həyatı ilə, nuru ilə işıqlandırmağa gəlmişdi.

– Sən məni hələ də tərk etməmisən, pərilər soltanı?

– Məgər mən səni tərk elərəm? Haçan, hansı ağır, hansı həyəcanlı dəqiqədə səndən ayrılmışam ki?

– Heç bir zaman. Amma indi sonumdur... Gözəl dünyamızdan ayrılıram... Şeirdən, sənin ilham verdiyin qələmdən...

– Çox ağırdır?

– Çox... dağlarımızdan, çaylarımızdan, ətirli, süsənli çəmənlərimizdən, gülüstan gözəllikli Vətəndən... anamdan, yaxşı-yaxşı dostlardan, balamdan... Elə lap mənə dağ çəkməyə çalışan düşmənlərdən də...

Pərilər soltanı aydın bir səslə, incə bir nəfəslə onun alnına toxundu, şairin alnı alışıb yandı, nazlı bir səslə dedi:

– Yadındadırmı, bir dəfə gözəl bir mənzərəni seyr edirdik, “ilahi nə dilbər, nə nazəndədir?” dedim. Sən isə, “heyif ki, Alışlar, Qapaqlılar bu cazibədar dünyanı korlayırlar” dedin. Mən də sənə dedim ki, heç bu yaşıl çəmənlərdə, şəbnəmli otlar üzərində gəzəndə ayağına tikanlar batmayıb? Bax, Qapaqlılar da cəmiyyətdəki həmin o tikanlardır... Onlarsız heç mübarizə olmazdı, mübarizəsiz həyat, durğun həyat da sənə, sənin kimilərə ləzzət verməzdi... Sən qorxma, şairim, sən ki, ölmürsən; torpaqdan yarandın, torpağa qayıdırsan! Vətən torpağına qarışan cismindir, canın, əsərlərində yaşayan düşüncələrin, əməl və arzuların isə yaşayacaq... Əbədiyyət bu deyilmi, şairim, bəs bu misraları kim deyib:

Behəmdillah ki, qaldı yadigar əşari-canbəxşim,
Əgərçi, Seyyida, nə mülkü malü nə zərim qaldı.

Seyyid beyti həzin, bəxtiyar bir təbəssümlə, nazik dodaqlarındakı titrəyişlə dinlədi.

Xəstənin üzünü, qəribə də görünsə, xoşbəxt bir ifadə qapladı. Ana bu təbəddülatı yaxşı fal hesab etdi, uzun illərin həyat təcrübəsindən bilirdi ki, xəstə otağa “lampanın son işığı kimi bir işıq salar”. Amma



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yenə də ana ürəyi yovutmurdu balasına, bir də, iki də ümidlə dolurdu... "sağalar... cəddi kömək olar". Bəzən Seyid Əzim düşünüb xəyalına gələnlərlə danışdıqca, anaya elə gəlirdi ki, oğlu kiminləsə, bəlkə də onunla, Ceyranla, balaları ilə halallaşır:

– Əməyini, südünü halal elə, ana! – deyir.

– Sən də çörəyini halal elə! – ürəyi qoppacaya düşmüş Minasoltan qəlbində dilləndi.

O isə... İndi bu son ömür gününün yatağında Seyyid, həyatında baş vermiş bir neçə hadisəni heç unuda bilmirdi; bu hadisələr ağır dərd kimi onun üçün həyatı boyu böyük ələm olmuşdu: Tərlan dərdi, (şükür, o, cəlayivətən oldusa da yaxşıdı, tale sinəmə dağını çəkmədi), Məhəmməd Səfa dərdi... Sona dərdi. Qəlbində nakam məhəbbətlərin məzarı qazılmış bu böyük ürəkdə o qədər hisslər, insanlar, əməllər gömülmüş, gah çiçəklənib gül açmış, gah da vaxtından əvvəl solmuşdu ki!

Bu hadisələrdən biri Tiflis şəhərinə, bağlanan məktəbini yenidən açdırmaq, əlindən alınan müəllimlik hüququnu qaytartdırmaq üçün getdiyi zaman olmuşdu. O vaxt onu Gəncədə şair Naci qarşılamış, bir dost kimi evinə dəvət etmişdi; dən düşmüş saqqalını tumarlaya-tumarlaya Seyid Əzim ilə birlikdə faytona əyləşib böyük Şeyx Nizaminin qəbrini ziyarətə aparmışdı.

– Əcəb eləyib yarı yolda düşmüsən qatardan, Ağa! Heç belə fürsəti fovtə vermək olardı? – demişdi, – Gəncənin böyründən keçəsən, Naci cəhənnəm, şairlər ağası, "Xəmsə" yazan, neçə-neçə "xəmsələr" müdəbbiri Şeyx Nizaminin məzarını görmədən gedəsən. Bu heç olan işdi?...

Bu sətirlər də məhz o vaxt dilinə gəldi:

*Ey şeyx Nizami, ey nizamı dağılan,*
Ey Gəncədə izzü ehtişamı dağılan!
Olmubdu sən ilə mən kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan.

Şeyx Nizaminin, "Xəmsə"si əsrlər dalından boylanıb şeir aləminə günəş ziyası saçan Nizaminin qəbri bir gündə idi ki, gözlər olsun, görməsin. Şair elə mütəəssir oldu ki, elə həmin gün də, həmin dəqiqələrdə bu sətirlər onun dilindən süzüldü.

"Bəlkə mənim də məzarım o günə qalacaq? Nizamidən, qəbri Sürxabda itən möhtəşəm həmvətənim Xaqanidən, Kərbəlada Füzulidən, Hələbdə dərisi dabanından soyulan həmşəhərlim Nəsimidən nəyim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

artıqdı? Onun ki, heç qəbrinin yeri də bilinmir? Ona baxanda yenə Nizamiyə şükür..."

Pərilər soltanı dilləndi:

– Nə danışırsan, şairim, belə naümid olma! O qaranlıq əsrlərə nisbətlə sənin əsrin nə qədər qabağa gedib?! Məgər səpdiyin toxumlardan, əkdiyin maarif ağacından bu qədər naümidsən?

– Hayıf ki, Yetim Hüseyn o ağır qış Hacı Soltan Hüseyn hamamının külxanında donub öldü. İndi mənim fotuma söz qoşan da olmayacaq, – deyə şair yaxası açıq yetimi təəssüf və həzin bir məhəbbətlə xatırladı.

Şairin xəyalı bir zaman haradasa yarımçıq qalmış mübahisəni indi davam etdirməyə başladı. O qəlbində də özü ilə deyişir, çarpışırdı:

– Mən qorxuram.

– Nədən?

– Adət edərlər. Pis şeyə təqlidə, təğiyyəyə, əsarətə adət etmək yamandır.

– Eləməzlər, tarix göstərir ki...

– Yaxşı ilə birlikdə yaman da gələcək axı...

– Bizə ursiyət kimi bir ölkə ilə yaxınlaşmaq zəruridir. Türkiyə, İran, dinimizin müəssisi Ərəbistan özünə nə gün ağlayıb ki, bizə neynəsin. Dünya millətləri irəli gedir. Biz tökülüb dalda qalmışıq. Bitli, sirkəli mədrəsələr, onların kəmsavad mollaları uşaqlara nə verir? Əbcəddən, cərgədən o yana neçəsi çıxır və necə çıxır? Tüllablarımıza bələdsiniz... Kərbəlada... Nəcəfdə... Dindarımız yetim malı yeyib, ribaxor olub, özgə külfətinə göz dikib, qardaş qanı töküb... qoy heç olmasa indi öyrənsin.

Birdən xəstənin gözlərinin önündə Bakı səfərləri, "Məcməüş-Şüərada" Cürmi, Süreyya, Müniri, Yusiflə görüşləri canlandı. Bu görüşlərdən birində bakılı dostları onu Suraxanı Atəşgahına aparmışdılar. Ona elə gəldi ki, qızmar günəş altında heyrətlə, yerdən çıxan alov-atəşlə zəbanə çəkən məbədi görür. Məbədin önündə yarımçılpaq bir "xəyal" da görmüşdü. "Xəyalın" başında çirkli ağ çalma, belində çirkli ağ fitə-dxoti var idi. Gün altında qəhvəyi rəngə çalan bədəni sümüklər üzərinə çəkilmiş dəri; vəzi və damardan ibarət idi... Məbədin zəbanə çəkən mehrabı qarşısında əllərini köksündə qoşalaşdırmış, ibadətkar vəziyyət alıb dayanmışdı. Gözlərini hər şeyi paklayan, həyatın başlanğıcı, əzəli və əbədi sandığı müqəddəs oda zilləyib durmuş, dərin-dərin, məyus-məyus fikrə dalmışdı... "Xəyalın xəyala dalması" əcaib idi... Dostlar onu yandırıcı günəş altından çəkib zaviyələrə, hücrələrə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

apardılar... Lakin uzaq Hindistandan, Kərbəlayı Vəli sarvanının səkkiz həftəyə – iki aya karvanla getdiyi yolu pay-piyada, zəvvar kimi, yalnız ölmək, həyatını atəşpərəstlərin məkkəsi hesab olunan müqəddəs diyarda, yeraltı odların zəbanə çəkdiyi Suraxanıda başa vurmuq üçün uzaq Hindistandan bura gəlmiş o qoca zəvvar, onun xatirəsində əbədi həkk olunub qalmışdı... Həmin zəvvarlardan o, Məkkədə, Məkkə ibadətgahında da çox görmüşdü. Əyinlərinə diri ikən ağ kəfən geymiş, ayaqyalın, başıaçıq, ayaqlarını qızmar qumlar, başlarını od yağdıran günəş yandıra-yandıra... Ciyərlərini "əff" ümidi parçalaya-parçalaya, ləhləyərək... toz, tər, alov içində "əl-əff, əl-əff" deyərək lökləyən, ibadət edən müsəlmanlar... onlar daş önündə, bunlar atəş önündə, bunlar atəş qarşısında... Suraxanı iqlimi həmin günlərdə, Məkkə iqlimindən mülayim deyildi. Suraxanı günəşi bu günlərdə göydən Ərəbistan günəşindən az od ələmirdi. İndi son nəfəsində, həyatının son hesabat verdiyi mizan-tərəzi qurub günah və savablarını hesaba aldığı bu dəqiqədə, həmin atəşpərəst zəvvar gəlib gözlərinin önündə durdu...

Şair özünəməxsus bir incə kinayə ilə düşünürdü: "Hə, pərvərdigarın qulluğuna sən məndən xeyli əvvəl çatmısan, nə dedi, neylədi sənə? Ruhunu göylərmi qəbul elədi, yerlərdə torpaqlaramı qarışdın? Niyə gözlərimə görünüb əhli-beytimi bu son nəfəsdə görməyimə mane olursan? Behiştə gedə bilsəm, sənin də dərdini pərvərdigara çatdırmağımı diləyirsən? Nəydi günahın? Niyə səni elə cəhalətə atmışdı? Qərib ölkədə kim dəfn etdi səni, necə dəfn etdi? Cismini atəşə kim atdı? Ruhunu kim qəbul elədi?

Əbədiyyat qarşısında hamı birdir... Qardaşım, səni, ümumən insanları bir-birindən ayıran dinləri mən qəbul eləmirəm. Əgər hamını bir Allah yaradıbsa, o heç bir ziheyata fərq qoymamalıdır..."

Düşüncələr... xəyallar... son xəyallar...

Məhəmməd: "Allah bir günahkarın günahını əfv etməzdən əvvəl bir danişməndin günahını bağışlayır", – deyib, niyə? "Ey pərvərdigar, elə elə ki, yaratdıqların şəkiba olmasın" bunu da Əli deyib... Bəs sən də onun yaratdıqlarındansan, şəkiba[1] oldunmu pərvərdigarına?.. Dərgaha şübhələr içində gəlirəm.

Birdən kiminlə isə nə zamansa yarımçıq qalmış, ipi-sapı çürümüş xəyal kimi qırılmış başqa bir mübahisə xəstə qəlbində yenidən canlandı:

---

[1] Şikayətçi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– *Bilirsənmi ki, bizim xalqın ziyalısı tez gördü, tez öyrəndi olur;* ərəb gəlir, onun dilini, adətini, fars gəlir onunkunu, türk gəlir onunkunu götürür. İndi də bir başqasının yolunu, ərganını, şərabxorluğunu öyrənəcək...

– Əbədən səhvsən... Əvvələn, bu fikir özü kökündən düz deyil. Bizdə Ərəbistanın orta göbəyində yaşayıb öz doğma ana dilini, adətini mühafizə edən qəbilələr, şairlər var... Füzulini unutdun? Kərgüklüləri görmədin?

Sonra da Kərbəlada Nəcəf təhsili zamanı gördüyü, dönə-dönə ziyarət elədiyi məzar gözlərində canlandı. Bu onun çox sevdiyi Füzulinin məzarı idi... "Bütün qəzəllərimin sələfi, başlanğıcı, ilhamı Füzuli...

Qansı bütdür bilməzəm imanımı qarət edən?
Səndə iman yox ki, "sən aldın, deyəm, imanımı?"

– Məndəmi iman yoxdur, şairim?

– Hələ də burdasan, pərilər soltanı?

– Bəs harda olmalıyam?

– Şeir, musiqi, tərəb olan yerdə.. Fərəh olan yerdə...

– Səni tərk etmərəm, Ağa, əsasım yoxdur... bircə buna yanıram ki, sənin ilhamın olmuşamsa da, sənə heç səadət gətirə bilməmişəm...

– Qoy indi də mən etiraz edim, gözəlim! Səadət verdiyin anlar da olub... Zillət içində elə xoş anlarım olub ki, dünyanın bütün soltanlarının, bütün dövlətməndlərinin sərvəti bahasına əldə etmək olmaz o səadəti, bəxtiyarlığı...

Pərilər soltanının səsi qısıldı, maraq qarışıq təvazölə, utancaqlıqla soruşdu:

– Hansıdır? Nədir?

Ölən şairin gözlərində evi işıqlandıran bir təbəssüm parladı:

– Necə nədir? Mizan-tərəzi qurulan anlarda bunları unutsam, onda nameyi-əmalıma nə yazılacaq? Bəs ilk dəfə "Əkinçi"də möhtərəm Zərdabi cənablarına məktubum və şerim çap olunduğu gün? Bəs məktəb açıb binəsiblərin balalarını qanadım altına aldığım, onlardan əsil, *basəvad vətəndaşlar yetişdirdiyimi duyduğun gün?..* Əlli üç illik ömür üçün bunlar az da olsa, fəqət var... hələ var...

Arabir Minasoltan ananın ağlar səsi eşidildi, o, otağın bir guşəsində göz yaşları içərisində oturub Seyyidin hər bir arzusunu kirpiklərinin hərəkətlərindən duymaq və dərhal yerinə yetirmək üçün can qurban eləməyə hazır olan Ceyrana işarəylə dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Amma hərdən, səhər obaşdan evə qayıdanda, səni ana qarşılayırdı, "ömrüvə haram qatdın, ovqatuvu zay elədin deyirdi... Ceyran kimi gəlinə xəyanət elənməzdi...

– Olub ana, keç günahımdan.

– Ana da, Ceyran da keçib, Allah keçsin...

– Onun cavabını özüm verrəm...

– Həlbət ki... özün...

*Kimin isə, hardansa əlinə bir əl uzandı... Elə bil əlindən tutub* aparırdılar onu... hara, özü də bilmirdi, amma bilirdi ki, bu yoldan döndü yoxdur... Gözləri axırdı... "Sizi tərk edib gedirəm... Əlvida!.. İman-gümansız, tavanasız qoyub gedirəm... Cəfərimi... anamı... Ceyranımı... əməllərimi... "Bircə mən səni tərk etməmişəm, Ağa, səndən əvvəl köçmüşəm o dünyaya", "Yox, pərilər soltanı, səhvsən! Sənin də gedən cismindir, ilham isə bu Şirvan torpağını tərk etməyib... eləyə bilməz də..." "Nə deyirəm ki, Ağa, yesirin olum, sən bilən yaxşıdı..."

"Mən bilən?! Bəlkə də... Amma hər halda..."

Onun gözləri yumulur, açılır, elə bil ki, gah ölür, gah yenidən dirilir, yenidən qayıdırdı.

Seyyid həyata vida edirdi, lakin sevdiyi həyat onu tərk etmək bilmirdi! Sevməli şairini həyat sevirdi. Onun qulaqlarında bütün bir aləm, *mübarizələrdə, çarpışmalarda keçmiş bütöv bir ömür öz sədası,* qayğıları ilə canlanırdı:

*Mahmud ağanın səsi:*

"Əhməd ağanın ərvahına and olsun ki, düz buyurmusan, cədda.

> "Dürdi-mey ta vardır biz dərdi-aləm çəkmərik,
> Biz bu aləmdə səfanı şahdan kəm çəkmərik..."

*Molla Qurbanqulunun səsi:*

– Deyib, bəli, bəli, özü deyib, özü öz hökmünü verib bu sözlərlə, özü öz küfrünə fitva verib, həzərat:

> Bu küfrnüma şerüvü, Seyyid, görüb aləm
> Kafər deməsinlər səni, aya nə desinlər?

Qapaqlının səsi:

– *Kafərdi, əşhədənbillah, dilim kəlməyə gəlməsin ki, kafərdi, kafər*di, babidi, daha babinin başında buynuz olmur ki, moltanıdı yalan deyən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağaseyidəli ağanın səsi:

– Cəddinin vəsiyyətinə əməl etmədin. Axı “səlamətil-insan fi hifzi lisan” deyiblər. Həlak eylədin özünü, əmoğlu, lap nahaq yerə... Aləmi-nasutda gözləyirəm səni, gələrsən, mübahisəmizi orda ayırd elərik. Xaliqi-ləmyəzəlin hüzurunda, görərik kimdir haqlı, kimdir nahaq?

Seyyidin bozarmaqda olan dodaqlarında kinayəli bir təbəssüm qaynayır, özü öz səsini eşidir: “Ordadamı, ordadamı çalışmalar bitmə-*yəcək, ordadamı yorulan beyinlər dincəlməyəcək*!?.

Afid əfəndinin səsi:

– Kişilər özü deyib ki,

Budu gəldi səfahətin kani,
Hacı Seyyid Əzim Şirvani.

Dayı burda çök-çövür yoxdu ki... səfahətdi o başdan ayağa...

Yenə də pərilər soltanının səsi canlandı, bu səsi eşidəndə şairin soyumaqda olan cismindən bir gizilti keçdi; elə bildi ki, son dəqiqədə soyuq tər basmış ılıq alnına xəfif bir nəsim, bəlkə də incə, ətir qoxulu Sona dodaqları toxundu:

– Yox, elə deyil, qulaq vermə, Ağa, yesirin olum, onlar, o namərd-lər bilməsə, də tərəqqi aləmi yaxşı bilir ki, sən “zəmanə dərdini, qüsseyi-cahanı yazmısan”.

Rza bəyin səsi:

– Heyif, əməlləri puç oldu Ağanın... əvvəli və sonu heç-puç olan dünyada... Yaxşı deyib:

Bikəsəm aləm ara, dərdü qəmindən özgə
Nə həvadarü nə yavər, nə kəsim var mənim.

Pərilər soltanının səsi:

– Niyə ki... heççə yerə elə deyil, axı bircə aşağıdakı beytə qulaq ver, gör bir nə deyib?

Etmişəm gərçi bu dəm aləmi-nasutu vətən,
Ey könül, böylə degil, pişü pəsim var mənim.

Onun sələfi də, xələfi də var, kimsəsiz neyşə olur Ağa? Əzəli Xaqani, Füzuli sələfli, sonu Sabir, Hadi xələflidi... Məgər əməllərini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heç kimə tapşırmayıb gedir? Bu torpaq elə münbitdi ki, hələ çox Seyyidlər yetirəcək...

Birdən şair özünü Gülüstan ətəklərində gördü. Burda o seyr zamanı bir Rast dəstgahı dinləmişdi... İndi "qarabağlı balası Hüsünün" səsi yenidən qulaqlarında canlandı, yazdığı qəzəl də... Hüsünün məftunedici səsi, nəfəsləri, zili, bəmi, zənguləIəri ürəyini oxşayırdı. Məclisin sədrində əyləşmiş Mahmud ağa, adəti hərəkətilə musiqinin ahənginə uyğun olaraq başını yelləyir, arabir ən təsirli məqamlarda əlini yuxarı qaldırıb fındıqça çalır. "Afərin, Əhməd ağanın ərvahına and olsun ki, belə nəfəs, bəlkə sarənc oxunmağını eşitməmişəm, bunu sənə mən deyirəmsə, inan..." Təbəssümdən şairin dodaqları səyridi, solmaqda olan yanaqları bir anlığa allaşdı...

Sonra birdən-birə Cin Cavadı məşhur yerində "Cavad daşının" üstündə oturan gördü, yenə də başına bir aləm dinləyici yığıb Seyyidin "Köpəyə ehsan"ını özünəməxsus xüsusi ahəng və lətifəguluqla oxuyurdu...

Bir az aşağıda Zoğalavayın sahilində Tərlanla birlikdə altında əyləşdikləri tənha söyüd yellənir, saçaqları suyacan enib, bu sudan Səfanınmı, Tərlanınmı siması görünür, qulaqlarını Tərlanın səsi oxşayır: "Məni bu dünyada tənha qoyub getdin, Ağa! İndən belə kimin sorağı ilə yaşayacam? Qarateldən sarı nigaran olma, Tiflisdə qız müəllimlər hazırlayan məktəbdə oxuyur... Bəli, təəccüblənmə... Qaratel Tərlanova sənin binəsib bacılarının ilk müəllimi, ilk qadın məktəbdarlarından biri olacaq...Sənə bunu salim qəlb ilə söz verirəm. Bu da mənim el-günümüz üçün gördüyüm kiçik bir işdir, qardaş!"

İncə bir ana səsi onun sözünü tamamladı:

– Çox sağ ol, Tərlanım, sevgilim! Sən əhdinə artıqlıqca vəfa etdin! Balamdan sarı dayı nigaran deyiləm...

Gənc şair Sabirin səsi:

– Nəydi günahı? Niyə onu bu günə saldılar? Neyşə qoca bir millətin, qoca bir şairinin zülümlü ölümünə bais oldular? Axı o xalqına, millətinə yaxşılıqdan başqa bir şey eləməmişdi? Maarifdən, mədəniyyətdən sivay amalı, xalqın balalarının gözünü açmaq, elin gününü birсə parça yaxşılaşdırmaqdan başqa qərəzi yox idi!!!

Pərilər soltanı:

– Elə günahı bu böyük məhəbbətində idi... O öz xalqını böyük bir məhəbbətlə sevirdi... Əgər vardısa, buydu onun günahı... Sən də öz xal-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qının gələcəyini belə bir məhəbbətlə sevə, yolunda belə bir fədakarlıqla qurban olmağı boynuna götürə, çiyinlərində daşıya biləcəksənmi?

Şairin gözlərində "Şahnamə"dən səhnələr canlandı... Şahnaməxanların[1] oxuduğu bu səhnələri dinləməyi çox sevər, "Şahnamə" oxunulan məclislərə gedərdi. İndi həmin mənzərələrdən biri gözü önündə canlandı: "Ona elə gəldi ki, özü də həmin cəngavərlərdən biridir, yaralanıb, ələmi əlindən düşüb.

– Bəs kim qaldıracaq bu ələmi, pərilər soltanı? Sən kimə ilham verəcəksən? Bəs Alışlar, Qapaqlılar dünyası ilə kim çarpışacaq? Beləcə qalacaq, Seyyidin ölümünü qalibiyyət kimi bayram edəcəklər?

– Elə neyşə, Ağa... Sən rahat yat! Anamız Vətən, canını fəda etdiyin Şirvan torpağı sənin üçün pərğu olsun!.. Sənin ölümün Şirvanı nəhrə kimi çalxalayacaq, yağı bir yan, ayranı-zərdabı bir yan olacaq... Sənin Sabirin Şirvanı, Azərbaycanı, Yaxın Şərqi un kimi ələyəcək, valası bir yan, kəpəyi biryanlıq olacaq... Arxayın yat, ələmin[2] yenə göylərə yüksələcək! Şagirdinin, amalını vəsiyyət etdiyin Sabirinin əlində.

Alışın səsi:

– Qurban olum Allaha, ölüb gedəcək, adı da silinəcək yer üzündən; sabah basdırılan kimi, min ilin ölüsünə qatılacaq, qurtarıb gedəcək...

Yenə də Seyyid özümü, anasımı, pərilər soltanımı, Ceyranmı, könlümü, axı kimdir o, kimin səsidir, Seyid Əzimin öz misralarını oxuyur:

– Qulaq vermə, Ağa, yesirin olum, boş sözdür, özün demisən ki:

> Mövti-cismani ilə sanma mənim ölməyimi,
> Seyyida, ölmənəm, aləmdə səsim var mənim...

Ölməkdə olan şairin göz qapaqları ağırlaşırdı. O, dərin, şirin bir yuxuya gedirdi, o bilirdi ki, bu yuxudan oyandı yoxdur. Yalnız cisminə oyandı yoxdur, səsi isə bu aləmdə qalacaq, əbədi qalacaqdır. Odur ki, sakit, xoş bir yuxuya gedirdi, qulaqlarında çarpışan bir aləmin vuruş səsi, yaxınında ananın, Ceyranın, pərilər soltanının hələ bəlkə Sarabəyimin də səsi həzin bir layla çalırdı.

...Sabah oldu. Şirvan dəbiycən cənazəni tez suya tutdular, Mahmud ağa Kərim bəy, Hacı Ömər bəy, Hacı Səməd bəy, şairlərdən Zühuri, Rağib, Qafil və Nasehin, Şirvan ziyalı və tərəqqipərvərlərindən möh-

[1] Firdovsinin "Şahnamə"sini dinləyicilər üçün xüsusi avazla oxuyan sənətkarlar.

[2] Burada: bayraq

təşəm bir izdihamın müşayiəti ilə şairi onun öz vəsiyyətinə görə, Şaxandan qəbiristanına apardılar. Mahmud ağa onun bir zamanlar dediyi beyti də yada salıb, həzin, sızıltılı bir səslə qəbri üstündə, ucadan təkrarladı. Sənduqənin üstündə şairin çox sevdiyi xəttat məktəbinin təlimi üzrə məhz bu beyt həkk olundu:

Mövti-cismani ilə sanma mənim ölməyimi,
Seyyida, ölmənəm, aləmdə səsim var mənim...

Şirvan ziyalıları bu beyti şair Hacı Seyid Əzim Şirvani yaradıcılığını istiqamətləndirən, bütün ədəbi və ictimai fəaliyyətinə qiymət verən bir rəmz kimi qəbul etmişdilər.

Bu gün 8 ramazan 1305-ci il idi. Elə həmin gün şairin həmvətənlərindən, gənc qələm dostlarından biri olan Ağaəli Naseh, nazik dodaqlarını qəzəb və kədərlə sıxmış, mülayim ifadəli ağ bənizi boğulmuş, cənazə alayını müşayiət etdikcə düşünürdü: "Sevinməyin, şadlanmayın, ağalar! Seyid Əzim öldü – Seyyid ki, şeir ki, ölmədi. Vəfat edən Hacı Seyid Əzim Seyid Məhəmməd oğludur. – Əməl ki deyil! Siz, sağlığında onun özündən, kəlamından, öləndən sonra da cənazəsindən, cənazə alayından qorxursunuz və hələ çox da qorxacaqsınız!!! Bundan sonra da "öldü", deyə sevinməyin. Bundan hələ çox-çox sonra balalarınız mənzumələrini oxuyanda, satiralarını söyləyən Cavadın səsini eşidəndə, qəzəliyyatını xanəndələrin sövtündə dinləyəndə, kitablarını rəflərdə, nəsihətlərini çərəkə əvəzinə şagird əllərində görüb dəfən-dəfən boğulacaq, fovt olacaqsınız... hələ bu harasıdır?!"

Əziz dost, Naseh bacarsaydı, hələ deyərdi ki, gün gələcək, Şirvan torpağının ilk addımında böyük müəllim, maarifçi şairin şəkli, heykəli ucalacaq. Gələn qonaqlar onu salamlayıb şairlər Vətəni olan müqəddəs torpağa qədəm qoyacaqlar.

Qərəz, səkkiz ramazan günü isə Ağaəli Naseh Seyyidin ölümünə kədərli misralar həsr etmiş, vəfat tarixini əbcəd hesabı ilə şerindəki bu misralarda gizlətmişdi:

Naseh dedi tarixi-vəfatın qəm ilə:
Səd heyf ola Seyyidi-Şirvan getdi.

Şirvan, sənin paytaxtının səddində üç təpə var, bu üç təpə üç də məzarlıqdır: Şaxandan, Lalazar, Yeddigünbəz... Zövq əhli olan baba-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lar həmişə ev, yurd yeri kimi, məzarlıq üçün də səfalı, axar-baxarlı yer seçiblər... Elə bil istəyiblər ki, bu yüksəkliklərdən gözləri doymayan, ürəkləri, ciyərparələri qalan Vətən torpağını həmişə seyr edə bilsinlər... Elə bil istəyiblər ki, qoyub getdikləri doğma diyarda, əzizləri hər qapıya çıxanda onların məzarını görsünlər, Lalazarda, Şaxandanda, Yeddigünbəzdə yatanları unutmasınlar... Arada rabitə qalsın... İstək kimi, o da ölməsin...

İndi Şaxandan şairimi, Seyyidimi, Ağamı qoynuna aldı... Şirvan, sənin gözəl oğullarından biri XIX əsr Azərbaycan musiqisinin bilicisi, musiqiçilərin, şairlərin hamisi, Qafqaz incəsənətinin mesenatı Mahmud ağa bir az sonra Lalazara gömüləcək! Sabirin isə Yeddigünbəzi təzədən ziyarətgaha çevirəcək! Sənin üç böyük oğlun, bu məzarlıqları ziyarətə gələnlərə müraciətlə deyəcəklər: Budur sizin panteon, əziz xələflərimiz! Diyarbədiyar Təbrizdə, Hələbdə, Kərbəlada, Şərqin digər şəhərlərində, qərib torpaqlarda dəfn olunmuş övladların da Vətən adı dilində gözünü dünyaya yumub, bizim kimi... Sizin üçün yazıblar, "Sizi deyib gəliblər" bizim kimi...

Şamaxı yollardan başlayır... Sonsuz, nəhayətsiz yollar... Şirvana gedən yol az qala dünyanın bütün ticarət aləminə məlumdur. Hələ uzun illər, qərinələr keçəcək, Şərqin bir sıra ölkələrində "Şamaxı" adlı kəlağayı örtüləcək, uzaq Hindistanda indi də "Şirvani" adlandırılan geyimləri kişilər sevə-sevə geyəcəklər... "Şirvana gedən karvan yolu", "Şamaxı yolu", "Şirvan şahlığı", "Şamaxan sultanlığı", "Şirvanşahlar sarayı" ifadələri dillərdə qalacaq. Bir nağıl, bir əfsanə, bir hekayət başlanğıcı kimi... Şirvandan çıxan yollar Şirvan oğullarını diyarbədiyar salır. Uzaq ölkələrə biri ticarətə gedir, – Şirvandan xas ipək aparır. Bir başqası elm əxz və intişar üçün gedir, – saraylar bəzəyi şair, alim olur. Nə olar... Dar çərçivədə qalmayıb gedən oğullar, Vətən eşqilə yenə də qayıdıb gəlir... Təki sağ olsunlar. Hara getsələr də, təki Lalazar yolu, Şaxandan yolu, Yeddigünbəz yolu getməsinlər; qayıtsınlar... Şirvanı gözsüz, sözsüz, oğulsuz qoymasınlar...

*Ayrılıq vaxtı çatdı, dostlar, sizə sonsuz səadətlər diləyirəm. Mənə* rəfaqət etdiyiniz üçün çox sağ olun. Gələcək görüşlərədək...

*Bakı, 1970–1972*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜNDƏRİCAT

*Ön söz* . . . . 4

Şamaxı yollardan başlayır . . . . 11
İlk imtahan . . . . 18
Görüş yeri . . . . 34
Məsləhət . . . . 45
Pərilər soltanı . . . . 59
Bəst . . . . 69
Yenə Şamaxıda . . . . 116
And . . . . 124
Məktublaşma . . . . 135
"Beytüs-Səfa" . . . . 159
Qəmzə . . . . 180
Güllübəyim . . . . 195
Vida (müsibət) . . . . 223
Zəmanənin ikinci Leylisi . . . . 236
Sona . . . . 252
Çillə çıxartmaq . . . . 261
Müsəlla . . . . 278
"Aslan və iki öküz" . . . . 291
Yenə də Sona (davamı) . . . . 328
Ziddiyyətlər içində . . . . 338
Ana duası . . . . 354
Qaravəllidə . . . . 398
"Mizan-tərəzi" və yaxud dörd Ramazan . . . . 408



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏZİZƏ CƏFƏRZADƏ

# ALƏMDƏ SƏSİM VAR MƏNİM

"ŞƏRQ-QƏRB"

BAKI-2006

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buraxılışa məsul: *Əziz Güləliyev*

Nəşriyyat redaktoru: *Əlişirin Şükürlü*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektorlar: *Elnaz Xəlilqızı*
*Tutu Məmmədova*

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yığılmağa verilmişdir 20.06.2006. Çapa imzalanmışdır 29.08.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 27. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 137.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional